ISSN 2663 - 4619

ELMİ İŞ
Beynəlxalq elmi jurnal

«HUMANİTAR VƏ İCTİMAİ ELMLƏRİN ƏSASLARI» MÖVZUSUNDA I RESPUBLİKA ELMİ KONFRANSININ

MATERİALLARI

(17 aprel 2020-ci il)

SCIENTIFIC WORK
International scientific journal

MATERIALS

OF THE I REPUBLICAN SCIENTIFIC CONFERENCE ON «FUNDAMENTALS OF THE HUMANITIES AND SOCIAL SCIENCES»

(17 April, 2020)

Bakı – 2020 – Baku

ELMİ İŞ
beynəlxalq elmi jurnal

«HUMANİTAR VƏ İCTİMAİ ELMLƏRİN ƏSASLARI» MÖVZUSUNDA I RESPUBLİKA ELMİ KONFRANSININ

M A T E R İ A L L A R I

SCIENTIFIC WORK
International scientific journal

M A T E R I A L S

OF THE

I REPUBLICAN SCIENTIFIC CONFERENCE ON «FUNDAMENTALS OF THE HUMANITIES AND SOCIAL SCIENCES»

Bakı – 2020 – Baku

TƏŞKİLAT KOMİTƏSİ

SƏDR:
Qəzənfər Kazımov - filologiya elmləri doktoru, professor

SƏDR MÜAVİNİ:
Ələmdar Şahverdiyev - tarix elmləri doktoru, dosent

MƏSUL KATİB:
Dürdanə Hümbətova - filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜZVLƏR
Şirindil Alışanov - filologiya elmləri doktoru, professor
Əmir Əliyev - hüquq elmləri doktoru, professor
Məhərrəm Hüseynov - filologiya elmləri doktoru, professor
Anar İskəndərov - tarix elmləri doktoru, professor
Şikar Qasımov - tarix elmləri doktoru, professor
Müseyib İlyasov - pedaqogika elmləri doktoru, professor
Abbas Abbasov - filologiya üzrə fəlsəfə doktoru, professor

THE ORGANIZING COMMITTEE

CHAIRMAN:
Gazanfar Kazimov - doctor of philological sciences, professor

DEPUTY CHAIRMAN:
Alamdar Shahverdiev - doctor of historical sciences, Associate professor

EXECUTIVE SECRETARY:
Durdana Humbatli - PhD in philology

MEMBERS
Shirindil Alishanov - doctor of philological sciences, professor
Amir Aliyev - doctor of Juridical Science, professor
Maharram Huseynov - doctor of philological sciences, professor
Anar Isgandarov - doctor of historical sciences, professor
Shikar Gasimov - doctor of historical sciences, professor
Museyib Ilyasov - doctor of pedagogical sciences, professor
Abbas Abbasov - PhD in philology, professor

© «Elmi iş», 2020
© www.aem.az, 2020

FİLOLOGİYA PHILOLOGY ФИЛОЛОГИЯ

DOI: 10.36719/2020/REK/01/3-6

Fərqanə Aydın qızı Əliyeva
DİN-nin Polis Akademiyası
farqana-627@mail.ru

AZƏRBAYCAN DİLİ VƏ HEYDƏR ƏLİYEVİN DOĞMA DİLİMİZƏ QAYĞISI

Açar sözlər: *Azərbaycan Respublikası, Heydər Əliyev, Azərbaycan dili, xalq, siyasət, bədii irsimiz, milli mənsubiyyət*
Key words: *Republic of Azerbaijan, Heydar Aliyev, Azerbaijani language, people, politics, artistic heritage, national identity*
Ключевые слова: *Азербайджанская Республика, Гейдар Алиев, азербайджанский язык, народ, политика, художественное наследие, национальная идентичность*

Qalxıb Şahdağına söz istəyirəm,
Çatsın hay-harayım dinləyənlərə,
Mən nankor deyirəm, nacins deyirəm–
Öz ana dilini bilməyənlərə!
Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,
Anamız Vətən də qürbət kimidir –
Öz ana dilini bilməyənlərə!

Tofiq Bayram

Giriş

Dil çox qədim zamanlarda toplu halında yaşayan insanların bir-birinə söz demək ehtiyacından, bir-biri ilə ünsiyyət saxlamaq zərurətindən ortaya çıxmışdır. Dilin varlığı üçün bəşər cəmiyyətinin olması mühüm şərtdir. İnsan cəmiyyəti olmayan yerdə dil mövcud ola bilməz. Dil mənsub olduğu xalqın həyatı ilə sıx bağlıdır. Hər hansı bir xalqın milli şüuru, mədəni səviyyəsi inkişaf etdikcə onun dili də inkişaf edir.

Azərbaycan dili türk mənşəli ümumxalq canlı danışıq dili zəminində əmələ gəlib şifahi ədəbi dilə çevrilənədək, Azərbaycan ədəbi dilinin yazılı qolu təşəkkül tapana qədər yüzillər boyunca mürəkkəb bir yol keçmişdir.

Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V asrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərməyə başlamışdır. Dilimizin özəyini ta qədimlərdən Azərbaycan torpaqlarındakı türk əsilli boyların dili təşkil etmişdir. Şifahi dildə yayılan ilkin ədəbiyyat nümunələri - dastanlar, nağıllar, bayatılar, laylalar və s. Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təkamülü zərurətini yaratmışdır. Xalq şifahi dildə yaratdıqlarını əbədiləşdirmiş və sonradan onları yazıya köçürmüşdür. Bu prosesin də yazı dilinin təşəkkulu və sabitləşməsində böyük əhəmiyyəti olmuşdur. Bu baxımdan «Kitabi-Dədə Qorqud» eposu olduqca səciyyəvidir. Abidənin badii dilinin özünəməxsus səlistliyi bir daha göstərir ki, «Kitabi-Dədə Qorqud»un meydana çıxması üçün Azərbaycan dili böyük tarixi hazırlıq mərhələsi keçməli idi.

Hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Aqillər dilin doğmalığı barədə elə gözəl fikirlər, hikmətli sözlər söyləyiblər ki, o kəlamların hər biri insanın qəlbini riqqətə gətirir, onu öz elinə, öz dilinə daha sıx tellərlə bağlayır. Belə bir deyim var: "Bir xalqı məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini əlindən al."

Ana dilim! Bu dildə nə qədər dastanlar yazılıb, nağıllar, romanlar, eposlar yaradılıb, poetik hüsnü ilə dünyanı heyrətə qoyan Füzuli qəzəli yaradılıb. Bu dil hamıya əl tutub, qüdrət verib, tarix yaşadıb. Doğma ana dilimiz daş kitabələrdən üzü bu yana uzun, çətin və şərəfli bir yol keçərək bugünkü səviyyəyə gəlib çatmışdır. Dahi Füzuli "Söz" qəzəlində dilin, sözün qüdrətini belə qələmə alırdı:

Xəlqə ağzın sirrini hərdəm qılar izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz,
Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Bu gün Azərbaycan dili inkişaf edərək elə vüsət almışdır ki, hər bir sahədə dilimizdən istənilən səviyyədə açıqlama vermək mümkündür.

XVI əsrdə vahid Azərbaycan dövlətini quran dahi Azərbaycan şairi və dövlət xadimi Şah İsmayıl Xətai Azərbaycan dilini dövlət dili elan edərək demişdir:"Ey türk oğulları! Babalarımızdan bizə üç şey yadigar qalmışdır: dilimiz, torpağımız, qeyrətimiz. Vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilin bir sözünü ləl-cəvahiratına dəyişməyin, onları qoruyun və sonrakı nəsillərə çatdırın... Ana dilini dövlət dili elan etdim".

Öz ilk ana dilli qəzeti ilə məşhur olan Həsən bəy Zərdabi də XIX əsrdə "Əkinçi"qəzetini nəşr etdirməklə Azərbaycan dilinin nələrə sahib olduğunu göstərmişdir. XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında Azərbaycan xalqının oyanmasına, Azərbaycan dilinin inkişafına şərait yaratmışdır. C.Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyasında, "Sizi deyib gəlmişəm", "Bizim obrazovinnılar" felyetonlarında dil problemi, ana dilimizin təmizliyi uğrunda aparılan mübarizə, dilimizə olan sevgi əks olunmuşdur.

Çətin tarixi yol keçib gəlmiş Azərbaycan dili bu gün xoş avaz yaradan səslər sisteminə zəngin və rəngarəng söz ehtiyatına, tam sabitləşmis qrammatik quruluşa malik olan bir dildir.

Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır.

Bizim xalqımızın böyük oğlu, xilaskarı, ümummilli liderimiz Heydər Əliyevin dil siyasəti Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, zənginləşərək nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin tez-tez söylədiyi bir ifadə var idi: "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir."

Məhz milli mənsubiyyəti.... Millilik ilk növbədə doğma dilin saflığı deməkdir. Öz doğma dilində saf, səlis danışa bilməyən bir vətəndaşdan hansı vətənpərvərliyi gözləmək olar? Dil ən yaxşı ünsiyyət vasitəsidir. Bir şərtlə ki danışarkən sözün dəyəri qiymətdən düşməsin. Doğma dil elə çıraqdır ki, onun şöləsi çox uzaq məsafəni də nura qərq edə bilər.

H.Əliyev xalqımızın mənəvi mövcudluğunun əsas amillərindən olan dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarızə, gördüyü böyük işlərin nəticəsi olaraq dilimiz milli dilə çevrilmişdir. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn siyasətinin nəticəsidir.

Hər bir dövlətin milli varlığı olan dil maddi və mənəvi irsin qorunması, inkişafı və təbliğində ən mühüm vasitələrdən biridir. Sovet dövründə dilimiz nə qədər sıxışdırlıb rəsmi sənədlərdən uzaq düşsə də, xalqımız dilimizi qoruyub saxladı və nəsillərdən-nəsillərə ötürərək bu günümüzə kimi inkişaf etdirərək gətirdi. Müstəqillik əldə etdikdən sonra Azərbaycan dilinin dövlət statusu qazanmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. H.Əliyevin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı.

Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit olundu. Konstitusiyanın 21-ci maddəsində qeyd olunur: "Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir. Azərbaycan Respublikası bu dilin inkişafını təmin edir."

Heydər Əliyevin müstəqillik illərində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 saylı Fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli, 76 nömrəli sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında Dövlət Dili haqqında" Qanunun qəbul edilməsi ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyası olaraq Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addım olmuşdur.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında Dövlət Dili haqqında" qəbul edilmiş Qanun 3 fəsil, 20 maddədən ibarətdir. Bu maddələrdə dilimizin istənilən sahədə necə işlədilməsindən bəhs edilmişdir. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri qeyd edilərək, rəsmi mərasimlərdə, reklamlarda, təhsil sahəsində, televiziya və radio yayımlarında, vətəndaşların ad və soyadlarında, coğrafi obyektlərin adlarında və s. dildən necə istifadə etmək lazım olduğu qanuniləşmişdir. Bu

sənədlər Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş bu illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin təzahürüdür.

Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olunması, xalqın qan yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır.

Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri - ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi.

Nəticə

Dil problemlərinin həlli və inkişafı, dilimizin orijinallığının qorunub saxlanılması, onun inkişafına mane olan amillərin təsirinin qarşısının alınması, dünya dilləri sırasında nüfuzunun yüksəlməsi dövlətin dilçilik siyasətinin başlıca məqsədlərindəndir. Dövlət müstəqilliyimizi qazandıqdan sonra "Azərbaycan dilinin orfoqrafiya lüğəti", "Azərbaycan dilinin izahlı lüğəti", müxtəlif terminlərin izahı ilə bağlı lüğətlər, sözlüklər, digər köməkçi vasitələr işıq üzü gördü.

Hər bir xalqın danışıq dilinə ehtiram göstərmək mütləqdir, amma öz doğma dilinin saflığının keşiyində dayanmaq hər bir vətəndaşın müqəddəs borcudur. Biz o xoşbəxt xalqlardanıq ki, bizim dövlətimiz, dövlət rəmzlərimiz mövcuddur və bu rəmzlərin içərisində dövlət dilimizin də özünəməxsus yeri vardır.

Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönümündə göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır. Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Azərbaycan dili ölkəmizin müstəqilliyə qədəm qoyması ilə dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının milli birliyinin yaradılmasında və əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayır, soydaşlarımızın ünsiyyət vasitəsinə çevrilir.

Ədəbiyyat

1. Afad Qurbanov "Müasir Azərbaycan ədəbi dili", I cild, Bakı-2010
2. Adil Babayev: "Azərbaycan dili və nitq mədəniyyəti", "Elm və təhsil" nəşriyyatı, Bakı-2011
3. Nizami Xudiyev "Heydər Əliyev və Azərbaycan dili", "Təhsil" nəşriyyatı, Bakı-1997
4. C.Məmmədquluzadə "Seçilmiş əsərləri", "Öndər" nəşriyyatı, Bakı-2004
5. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə. C. 3. "Elm" nəşriyyatı, Bakı-2009
6. "Azərbaycan Respublikasının Konstitusiyası" 27 noyabr 1995
7. "Azərbaycan Respublikasının Dövlət dili haqqında"AR Qanunu
8. www.google.az
9. www.e-qanun.az

The Azerbaijani language and Heydar Aliyev's care for our native language

Summary

In the article has been reviewed, at the historical path of the Azerbaijani language, which is our national pride. It is spoken about the role of the native language in the enrichment of the human spirit, expanding of world outlook, getting excellent education, its important role in communicating with their compatriots, and the position of the language in the political arena.

It is told about the care of our national leader Heydar Aliyev for our language, after independence of the Republic of Azerbaijan. The signed laws, decrees and orders on the Azerbaijani language were analyzed. Generally, the idea about development of our language and its internationalization was put forward.

Азербайджанский язык и забота Гейдара Алиева о нашем родном языке

Резюме

В статье исследуется история азербайджанского языка, нашей национальной гордости. В публикации говорится о важной роли языка в политике, в обогащении духовного мира личности, расширения мировоззрения, хорошем образовании и коммуникации. В статье говорится о заботе нашего общенационального лидера Гейдара Алиева о родном языке после провозглашения независимости Азербайджанской Республики. Были подписаны законы и распоряжение о азербайджанском языке. В целом, выдвинулась вперед идея развития нашего языка и повышения его на международный уровень.

DOI: 10.36719/2020/REK/01/6-8

Rövşən Ramizoğlu
Səlcuq Universiteti (Konya, Türkiyə)
rovshan@selcuk.edu.tr

TƏRCÜMƏ ƏN GÜCLÜ ESTETİK TƏSİR VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

Açar sözlər: *tərcüməçi individuallığı, interpretasiya, bədii mükəmməllik, estetik təsir*
Key words: *translator individuality, interpretation, literary excellence, aesthetic impact*
Ключевые слова: *индивидуальность переводчика, интерпретация, художественное совершенство, эстетическое воздействие*

Giriş

Tərcümə nəzəriyyəçilərinin bir çoxu bu günə qədər tərcüməçilərin qarşısına qoyulan tələbləri, müxtəlif tərcümə prinsiplərini ümumiləşdirməyə, tərcümə əsərinin, tərcüməçinin məqsəd və vəzifələrinin nə olduğunu araşdırmağa cəhd göstəriblər. Bu cəhdlərdən ən uğurlusu amerikalı filoloq T.Savorinin müəyyənləşdirdiyi prinsiplər sırasıdır. Tərcüməçinin qarşısına qoyulan bir-birinə zidd tələbləri T.Savori özünün "Tərcümə etmək sənəti" adlı kitabında bu cür ümumiləşdirir.

A. Tərcümə orijinalı sözbəsöz təkrarlamalıdır. / B. Tərcümə orijinaldakı fikrin mənasını çatdırmalıdır.

A. Tərcümə tərcümə kimi oxunmalıdır. / B. Tərcümə orijinal kimi oxunmalıdır.

A. Tərcümə orijinalın üslubunu əks etdirməlidir. / B. Tərcümə tərcüməçinin üslubunu əks etdirməlidir.

A. Tərcümə orijinala yaxın mətn kimi oxunmalıdır. / B. Tərcümə tərcüməçinin əsəri kimi oxunmalıdır.

A. Tərcüməçinin orijinal mətnə nəyisə əlavə etmək və orijinaldan nəyisə çıxarmaq ixtiyarı yoxdur. / B. Tərcüməçinin orijinal mətnə istədiyi əlavələri etmək və mətni qısaltmaq ixtiyarı var.

A. Şeri nəsrlə tərcümə etmək lazımdır. / B. Şeri nəzmlə tərcümə etmək lazımdır (5).

T.Savorinin ümumiləşdirdiyi bu tələblər, əslində, yüz ildən çoxdur ki, tərcümə nəzəriyyəçilərinin əsas müzakirə mövzusuna çevrilən məsələlərdir. Hələ bu günəcən yuxarıda sadalanan və bir-biri ilə ziddiyyət təşkil edən bu tələblərin, prinsiplərin hansının düzgün, hansının səhv olduğu müəyyənləşdirilməyib, bu məsələdə ortaq bir məxrəcə gəlinməyib. Bundan başqa bədii tərcümənin mahiyyətini açan, ümumi və hamı tərəfindən qəbul olunan prinsip də hələ tapılmayıb. Tədqiqatçılar qarşısında duran bir başqa önəmli məsələ isə tərcümə əsərinin estetik təsir vasitəsi kimi öyrənilməsidir. Bu məqalədə tərcümənin estetik təsir gücü, dəqiq və sərbəst tərcümə məsələləri, müəllif və tərcüməçi üslubları kimi mövzular araşdırılmışdır.

Problemin aktuallığı

Müasir tərcümə nəzəriyyəçilərindən İ.Levıy, A.Şveyser, A.Popoviç, A.Noybert, O.Kade, Q.Yeger bədii tərcüməni kommunikativ proses kimi öyrənməyə üstünlük veriblər və tədqiqat işlərini əsasən bu istiqamətdə aparıblar. Tanınmış tərcümə nəzəriyyəçisi J. Munyen də "Tərcümənin nəzəri problemləri" adlı məqaləsində tərcüməyə bu cür yanaşmanın doğru olduğunu vurğulayır və yazır: "Nəyə görə tərcüməni dil kontaktı kimi öyrənmək lazımdır? İlk növbədə ona görə ki, tərcümə məhz dil kontaktı növlərindən biridir" (4, 36).

Amma bədii tərcümə sadəcə informasiya çatdırmaq məqsədi güdən kommunikativ proses deyil. O həm də estetik təsir vasitəsidir. Görkəmli rus şairi K.Çukovski, eləcə də onun davamçıları V.M.Jirmunski, Y.N.Tınyanov, M.P.Alekseyev, N.Y.Berkovski, B.A.Krjevski, V.M.Alekseyev, M.Y.Kraçkovski, N.İ.Konrad, A.A.Smirnov, M.M.Morozov, M.A.Zenkeviç, K.A.Kaşkin bədii tərcüməni məhz bu cür dəyərləndirməyin tərəfdarı kimi çıxış ediblər. Bu nəzəriyyəçilər bədii tərcümədə estetik təsirin rolunu həmişə önəmli amillərdən sayıblar.

Bu bir həqiqətdir ki, bədii tərcümə əsəri yalnız estetik baxımdan dolğun, orijnala bərabər əsər olarsa onu uğurlu saymaq mümkündür. Bədii əsərin oxucuya estetik cəhətdən təsir edən xüsusi və ümumi elementlərini ustalıqla tərcümə dilində əks etdirə bilmək tərcüməçilik sənətinin əsas vəzifələrindəndir. Deməli, bədii tərcümənin bütövlük göstəricisi məhz estetik təsirin nə dərəcədə qorunub saxlanılmasıdır.

Çünki tərcümə gerçəkliyə müəllif münasibətinin yenidən əks etdirilməsidir. Orijinal bədii əsərdə öz əksini tapan konkret fikirlər, obrazlar tərcüməçi üçün tikinti materialı rolunu oynayır. Tərcümə əsərinin uğurlu alınması tərcüməçinin nə qədər bacarıqlı "bənna" olmasından birbaşa asılıdır. Orijinalda əks olunanlar müəllifin həyata, dünyaya baxışlarıdır. Tərcüməçi bu baxışları oxucuya dolğun və aydın bir şəkildə çatdıra bilibsə, onun gördüyü işi qənaətbəxş və uğurlu saymaq olar.

Amma onu da unutmaq olmaz ki, istənilən əsər mahiyyət etibarilə forma və məzmunun vəhdətidir. Tərcümə zamanı bu formanın əhəmiyyətli hissəsi dəyişilir, əsər bir dildən başqa bir dilə köçürülür və beləliklə onun məzmununda da dəyişikliklər baş verir. Bütün bu dəyişikliklərə məruz qalan, forma və məzmunu "dağıdılan" orijinalın bu dağıntılarından tərcümədə yeni forma və məzmun vəhdəti yaratmaq lazımdır. Tərcümə əsərinin forma və məzmun vəhdəti orijinalın forma və məzmununa nə qədər oxşasa da, onlar arasında nə qədər yaxınlıq olsa da, hər halda tərcümə əsəri orijinaldan fərqli bir əsərdir. "İstənilən tərcümə əsərinin tədqiqi mətnin forma və məzmununun oxşarlığı ilə yanaşı onun fərqlərini görmək imkanı da yaradır" (2, 361). Bu fərqlərə baxmayaraq, əsərin keyfiyyətli alınması tərcüməçinin bacarıq və istedadının səviyyəsindən asılıdır.

Deməli, peşəkar tərcüməçi hər şeydən əvvəl həm də yaradıcı şəxs olmalıdır. Amma burda hansı yaradıcılıqdan söhbət gedir?

Bəzi mütəxəssislərin fikrincə tərcüməçilik aktyorluğa bənzəyir. Məlumdur ki, aktyorun ən böyük uğuru müəllifin demək istədiklərini öz rolu ilə tamaşaçıya mümkün qədər dəqiq və dolğun çatdıra bilməsidir. Hər bir istedadlı aktyor interpretasiya etmək bacarığından bəhrələnərək bu problemi bir cür həll edir. Bu eynən tərcüməyə də aiddir. Tərcüməçi yaradıcılığı da əslində, interpretasiyadır. Və bu interpretasiyanın uğurlu alınıb-alınmaması bütünlükdə orijinal mətnin tərcüməsinin keyfiyyətinə təsir edir.

Əlbəttə ki, interpretasiya anlayışı sərhədsizdir və tərcüməçi qərarlarının rəngarəngliyini özündə əks etdirir. Bir sıra nəzəriyyəçilər bu qərarların birbaşa orijinal mətndən doğulduğunu iddia edirlər. Yəni orijinal mətn tərcümə prosesi zamanı tərcüməçini yönləndirir, nəyi necə etməyin vacib olduğunu tərcüməçiyə deyir. Bunu nəzərə alan tanınmış tərcümə nəzəriyyəçisi İ.Levıy tərcümənin "orijinal yaradıcılıq və icraçılıq sənəti arasında keçid kateqoriyası" (3, 30) olduğunu yazır.

Amma müasir dövrdə də bir çox tərcümə nəzəriyyəçiləri, xüsusilə də dilçilər hesab edirlər ki, orijinalın bütün səciyyəvi xüsusiyyətləri olduğutək tərcümədə saxlanılmalıdır. Onlar tərcüməyə interpretasiya kimi yox, reproduksiya kimi baxırlar. Bu yanaşma bir çox səbəblərdən yanlışdır. Orijinal mətni bütünlüklə tərcüməyə köçürmək qeyri-mümkündür.

Dilçilərdən fərqli olaraq birbaşa bədii materialla işləyən şair və yazıçılar, tərcüməçilər tərcümə probleminə tamam ayrı cür yanaşırlar. Tərcüməçilərin bir çoxunun səsləndirdiyi fikirlərdə bədii tərcümənin estetik xüsusiyyətləri önə çəkilir və tərcümənin bu növü digərlərindən fərqləndirilir.

Qeyd etmək lazımdır ki, estetik cəhətdən bitkin tərcümə əsəri yarada bilməkdən ötrü hər şeydən əvvəl bədii əsər tərcüməçisi üçün obrazlı düşüncə tərzi səciyyəvi xüsusiyyət olmalıdır. Obrazlı düşüncə tərzi isə birbaşa tərcüməçi individuallığı ilə əlaqəli olan məsələdir. Bununla bağlı P.Antokolski, M.Auezov və M.Rılski "SSRİ xalqları ədəbiyyatlarının bədii tərcümələri" adlı birgə məqalələrində yazırlar: "Bəzən deyirlər ki, tərcüməçi öz şəxsiyyətini tamamilə tərcümə etdiyi müəllifin şəxsiyyətinə tabe etdirməlidir. Bu mümkün deyil. Və tərcüməçi nə qədər istedadlıdırsa bu, bir o qədər qeyri-mümkün şeyə çevrilir. Tərcüməçinin vəzifəsi müəllifin dünyagörüşünə, üslubuna, stilistik xarakterinə mümkün qədər çox yaxınlaşmaq və bacardığı qədər bu dünyagörüşünü, üslubu, stilistik xarakteri öz ana dilinin vasitələri ilə əks etdirməkdən ibarətdir. Amma bu zaman o həm də olduğu kimi qalmalıdır. İndividuallıq itiriləndən sonra hansı yaradıcılıqdan söhbət gedə bilər?" (1, 24).

Ancaq bu heç də o demək deyil ki, bədii mükəmməllik və estetik təsir naminə dəqiqliyi qurban vermək gərəkdir. Tərcümədə bədii mükəmməlliklə yanaşı müəllif üslubunu qoruyub saxlamaq, tərcümə mətninin orijinalla səsləşməsini təmin etmək də lazımdır. Digər tərəfdən elə dəqiqliyin özünə də estetik ölçü kimi

baxılmalıdır. Bədii səsləşmə isə tərcüməçinin orijinalın “kor-koranə” surətini çıxarması kimi başa düşülməməlidir.

Deməli, uğurlu tərcümə əsəri dəqiqliklə qeyri-dəqiqliyin, müəllif üslubu ilə tərcüməçi üslubunun, intuitiv və hesablanmış seçimin sintezi olan tərcümədir.

Nəticə

Göründüyü kimi dəqiq, yoxsa sərbəst tərcümə probleminin həllini tapmaq o qədər də asan məsələ deyil. Bu problemə müxtəlif yanaşmalar mövcuddur. Və bu yanaşmaların hər hansısa birini əsas götürüb problemi birdəfəlik həll etmək qeyri-mümkündür. Bu fərqli yanaşmaları dəstəkləyən hər bir tərcümə nəzəriyyəçisi özünü haqlı sayır və öz mövqeyinin doğru olduğunu sübut etmək üçün ortaya dəlillər qoymağa çalışır. Buna baxmayaraq, bu günə qədər ortaya qoyulan belə dəlilərin, formalaşdırılan tərcümə prinsiplərinin hansısa birinin problemin həllini özündə daha dolğun əks etdirdiyini, daha düzgün olduğunu demək mümkün deyil.

Əlbəttə, yaradıcı sahə olduğuna görə tərcüməçilikdəki bu problemləri, fikir ayrılıqlarını təbii qəbul etmək lazımdır. Orijinal əsəri dəqiq və ya sərbəst tərcümə etmək məsələsinin həlli hər bir tərcüməçinin öz ixtiyarına buraxılmalıdır. Belə ki, bu məsələdə individual yanaşma ən həlledici rollardan birini oynayır. Hər bir tərcüməçi öz individual yanaşmasını əsas götürüb bu seçim məsələsini həll etməlidir.

Tərcümənin uğurlu alınıb alınmadığına isə yalnız tərcümə mətnini oxuyan oxucu qərar verə bilər.

Ədəbiyyat

1. Антокольский П.Г., Ауэзов М.О., Рыльский М.Ф. Художественные переводы литератур народов СССР / Вопросы художественного перевода. М.: Советский писатель, 1955, стр. 5-44
2. Гаспаров М.Л. О русской поэзии. Анализы. Интерпретация. Характеристики. М.: Азбука, 2001, 480 стр.
3. Левый И. Искусство перевода М.: Прогресс, 1974, 397 стр.
4. Мунен Ж. Теоретические проблемы перевода. Перевод как языковой контакт / Вопросы теории перевода в зарубежной лингвистике. М.: Международные отношения, 1978, стр. 36-41
5. Норма перевода. https://studopedia.ru/2_99024_norma-perevoda.html

Translation as one of the powerful means of aesthetic impact

Summary

Literary translation is not the communicative proccess which only aims to send information. It is also a tool of aesthetic impact. A work of literary translation is considered to be successful if it is comprehensive from the esthetic point of view and is equal to original.

In the article, it is mentioned that, figurative mind should be main characteristic for literary translator for creating complete work of translation from the aesthetic point of view. It sould be left to translator’s discretion to decide whether to translate original work directly or interpret it. So, each translator should make this decision based on his or her own individual approach.

Перевод как один из самых сильных способов эстетического воздействия

Резюме

Художественный перевод - это не просто коммуникативный процесс, направленный на передачу информации. Это также средство эстетического воздействия. Произведение перевода можно считать успешным, только если оно обладает законченным эстетическим смыслом и соответствует оригиналу.

Исходя из этого, в статье подчеркивается, что для создания эстетически целого произведения перевода, переводчик должен обладать образным мышлением. Отмечается, что решение проблемы точного или вольного перевода оригинала следует оставить на усмотрение самого переводчика. Каждый переводчик должен решить эту проблему на основе своего индивидуального подхода.

DOI: 10.36719/2020/REK/01/9-11

Almaz Ülvi Qasım qızı Binnətova
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
almazulvi1960@mail.ru

ƏLİŞİR NƏVAİNİN "SƏB´AT ƏBHUR" ("YEDDİ DƏNİZ") ƏSƏRİNİN TƏDQİQİ TARİXİNDƏN

Açar sözlər: *Əlişir Nəvai, "Səb´at əbhur" ("Yeddi dəniz"), ərəb dili lüğətşünaslığı, dilçilik, Azərbaycan-özbək ədəbi əlaqələri, Batırbek Həsənov, lüğət*
Key words: *Alisher Navai, "Sabat əbhur" ("Seven Seas"), arabic dictionary studies, linguistics, Azerbaijani-uzbek literary relations, Batyrbek Hasanov, dictionary*
Ключевые слова: *Алишир Навай, "Сабат абхур" ("Семь морей") изучение арабского словаря, лингвистика, азербайджано-узбекские литературные связи, Батырбек Гасанов, словарь*

Giriş

Dahi mütəfəkkir Əlişir Nəvai dilçi alim kimi dilçilik tarixində də xüsusi yeri vardır. O, doğma ana dili ilə yanaşı fars və ərəb dillərini də mükəmməl bilmişdir.

Görkəmli dilçi alim Bəkir Çobanzadə Əlişir Nəvaini dilçilik elminə dair görüşlərini iki məqaləsində – "Nəvai – dilçi" və "Nəvainin dili və dilçiliyi haqqında" təhlil etmişdir. O, "Nəvai – dilçi" məqaləsində qeyd edir ki, "Türk dilinin dörd böyük müdafei olmuşdur ki, bunların birincisi, "Divani ül-lüğət ül-türk" sahibi Mahmud Kaşğaridir; ikincisi "Ğaribnamə" - sahibi Şeyx Aşıq Paşa, üçüncüsü Nəvai və dördüncüsü "Məsirə ül-ülüm" namındəki Sərfin - sahibi Bərğəməli Qədridir".

Daha sonrakı sətirlərə də nəzər salmaqla klassiklərimizin tədqiq və təsdiqlərində Nəvainin böyük nəzəriyyəçi olduğu qədər, dərin biliklərə qabil bir dilçi olduğunu göz önünə gətirmək istərdim. "Nəvainin dilə aid sətirlərində iki dürlü baxış vardır: Bir-afaqı (objektiv), İki - qandəvi (normativ)… Kəmal cəsarətlə deyə biliriz ki, Nəvainin bu sürətlə türk dilini təhlil etməsi - dini müqəddəməsi kənarə buraxılacaq olursa-onun tam mənasına bir dilçi olduğunu meydana çıxarır. Bizim bildiyimizə görə, türk xalqı olalıdan bəri böylə yalnız iki dilçimiz olmuşdur Mahmud Kaşğari və Nəvai".

Dilçilik elminin qanun-qaydalarını mükəmməl bilən Əlişir Nəvai ərəb dilinə dair yazdığı "Səb´at əbhur" ("Yeddi dəniz" – "Sab´at abhur") adlı əsərinin özünəməxsus özəllikləri vardır.

Əlişir Nəvainin "Səb´at əbhur" ("Yeddi dəniz" – "Sab´at abhur") əsəri ərəb dili lüğətşünaslığına dair - izahlı lüğət məzmununda yazılmış bir əsərdir. Əsərin yazılış tarixi haqqında dəqiq məlumat yoxdur. Əlişir Nəvai yaradıcılığının dərinliklərinə endikcə, onun təkcə türk dili uğrunda mübarizəsi deyil, fars dilində yaratdığı "Divan" və digər əsərləri deyil, həm də islamın türk dilində bədii və elmi şəkildə təbliği sahəsində böyük xidmətləri danılmazdır. Dahi mütəfəkkirin yaradıcılığının bu izləri orta əsr islam ədəbiyyatı tarixi səhifələrinə də həkk olunmuşdur. "Qurani-Kərim"in, Peyğəmbər (s) hədislərinin ərəb dilindən fars, türk dilinə tərcümə məsələsi böyük miqyaslı bir iş olduğundan lüğətə, xüsusən də izahlı lüğətə o zamanlar nə qədər böyük ehtiyac olduğunu dövrün ab-havasını bilənlərə məlumdur.

"Səb´at əbhur" ("Yeddi dəniz") əsəri bu məsələnin bariz nümunəsidir.

"Səb´at əbhur" ("Yeddi dəniz") əsəri klassik ərəb dilinin izahlı lüğətini, Şərq ədəbiyyatı nümayəndələrinin yaradıcılığı haqqında mühüm mənbələri, ərəb filologiyasının formalaşması prosesini – lüğətnəfislik təcrübələrini öyrənmək üçün də əhəmiyyətlidir. Lüğət məqalələrində sözlər isim, sifət, feil, məsdər, feil formaları şəklində istifadə edilmişdir.

İlk olaraq, Əlişir Nəvai bu əsərini nədən "Səb´at əbhur" ("Yeddi dəniz") adlandırıb? Çox sadə səbəb: "Səb´at əbhur" ("Yeddi dəniz") yeddi ərəb lüğət kitabına istinadən hazırlamışdır:

1. Cövhərinin (Javxarinin) "Səhah" izahlı lüğəti.
2. Sağaninin "Təkmila" lüğəti.
3. Zəməxşərinin "Kəşşaf" əsəri – Quranın təfsiri.
4. İbn Hacibin qrammatikaya aid "Müfəssəl" iki müqəddimə və şərhləri.
5. İbn Hacibin qrammatikaya aid "Müfəssəl" iki müqəddimə və şərhləri (Ə.Nəvai 4 və 5-ci sıranı bir kitab üzərindən hesablayıb – A.Ü.).
6. "Qərayib əl-hədis" – hədislərdəki çətin sözlərə aid hazırlanmış lüğətlər.
7. Müxtəlif müəlliflərin lüğətləri, "Divan", risalə və başqa əsərlərin şərhləri. Bunlar şərti olaraq bir kitab hesab olunaraq "Zəvayid" adlanır.

Orta Asiyadan olan Cövhəri, Sağani və Zəməxşəri kimi alimlərin ərəb leksikoqrafiyasının formalaşmasında xüsusi rolları olmuşdur.

Lüğətin strukturu. Lüğətin strukturu əsasən sözlər kök sistemi əsasında təşkil edilib. "Səb´at əbhur"da ("Yeddi dəniz") 8609 lüğət məqaləsi daxil edilmişdir. Lüğət məqalələrinin əsas köklərini təşkil edən sözlər – "Yeddi dəniz" üçün mənbə olan "Səhah"dakı 40.000, "Təkmila"dakı 20.000, "Kəşşaf", "Müqəddimə" və "Zəvayid"dəki cəmi 60.000 söz olur. "Səb´at əbhur"da ("Yeddi dəniz") Nəvainin özünün tərtib etdiyi sözləri 2712 lüğət məqaləsinə daxil etmişdir.

Ə.Nəvai bu kitablardan – lüğətlərin hər birindən istifadə etməklə yanaşı, onların qarşılıqlı müqayisəsini də aparmışdır, tədqiqata cəlb etdiyi kitablardakı söz izahlarını özünün "Səb´at əbhur"da ("Yeddi dəniz") hazırladığı sözlər ilə qarşılaşdırıb.

Ə.Nəvai "Kəşşaf"dan sözləri və onların mənalarını olduğu kimi götürüb, amma izahların qrammatik düzülüşündə fərqlər var. "Səb´at əbhur" ("Yeddi dəniz") leksikasının əsas qismini üç hərfli söz kökləri təşkil edir. Bu söz kökləri 6451 lüğət məqaləsindən ibarətdir. Sayına görə ikinci yeri 2056 lüğət məqaləsində isə dörd hərfli söz kökləri tutub. Iki hərfli söz kökləri cəmi 5 lüğət məqaləsində var. Beş (94 lüğət məqaləsi), altı (1 lüğət məqaləsi), yeddi hərfli (2 lüğət məqaləsi) köklərdən düzəldilmiş sözlər işlək və hamısı ərəb dilində çox istifadə olunan sözlərdir.

Lüğətdə dilçilik, ədəbiyyat, tibb elmləri ilə yanaşı, bitki, heyvan və həşərat adlarına aid sözlərin də izahı var. Məsələn, coğrafi adlar lüğətində dağ, dərya, ən kiçik kənd-kəsək, böyük şəhərlər, hətta məhəllə, küçə kimi adlardan ta böyük şəhər və ölkə adlarına qədər hər şey tapmaq mümkündür. Bu adların Şərq dünyasına mənsub olması təbiidir. Lüğətdəki coğrafi adların bəzilərinə nəzər yetirək:

- Məkkə dağları və ya yolları.
- Əhvazdakı bir qışlaq.
- Nəhrəvandakı bir qışlaq.
- Barbar şəhərlərindən biri.
- Misir Fustatinidəki bir bölgə adı.
- Hələbdəki bir qışlaq.
- Mosulun şərqindəki bir diyar.
- Bölgə, yer adları.
- Zukor yerindəki bir yer adı.

"Səb´at əbhur"dakı ("Yeddi dəniz"dəki) sözlərin mənalarını təsdiqləyən "Qurani-Kərim"in ayələri, hədislər və müxtəlif şairlərin şeirlərindən nümunələr, həmin poetik nümunələri ifadə edən illüstrasiyalar yer almışdır. İllüstrasiyalarda şeirin bir misrası və ya bir beytini izah edən sözün mənasını açan nümunə kimi göstərilir. "Qurani-Kərim" və hədislərdən götürülmüş nümunələr digər sözlərdən daha çoxdur. Frazeoloji və idiomatik ibarələr lüğətdə daha geniş tutub. Lüğətdə kişi adlarına müəllif çox üstünlük verib. Əsasən, mühəddis, islam hüququ (fikh), peyğəmbər, səhabə, şair adları yer alan lüğət məqaləsində, məsələn, əl-Abbas ibn Maradis, Əbdülqeys, Əddiq ibn Hübab, Abdulla ibn Kuşayb, Abdulla ibn Səlma ibn Kuşayb, Ubeyda ibn Müaviyə ibn Kuşayb, Ubeyda ibn Ömər ibn Muaviyə, Abdulla ibn Abbas, Abdulla ibn Ömər ibn ul-Os, Abdulla ibn Ömər ibn Mahzum, Um Ubayd ul-Fulat, Ubeyd ibn əl-Fulat, İshak ibn Ubeydin adlarına rast gələ bilərik.

Lüğətin məqalə tərkibi: "Səb´at əbhur" ("Yeddi dəniz") lüğət məqalələrinin tərkibi haqqında danışmamışdan əvvəl qeyd etmək lazımdır ki, ümumən klassik lüğətlərdə qəbul edilən leksikoqrafik üsullar və lüğət məqaləsinin düzülüş texnikası olmuşdur. Lüğət məqalələrinə daxil olan sözlərin izahlarını Ə.Nəvai özü verir, bu təqdimat sadə izahlı sözlərdən başlayır. Lüğətdəki məqalələrin tərkibi də ayrıca izah olunur. Əlişir Nəvai lüğət sözlərinin mənalarını faydalandığı lüğətlərdən aldığını hesab etsək, bu halda sıra hesabı ilə, əvvəl "Səhah", sonra "Təkmilə", "Kəşşaf", "Qərayib əl-hədis", "Müfəssəl" və nəhayət, "Zəvayid"dən gəlir. Ərəb lüğətşünaslığının inkişafı və yayılması dövründə bu əsərin ortaya qoyulması mühüm əhəmiyyətə malikdir. İslamın yayılması və Qurani-Kərimin tədrisi ilə əlaqədar ərəb dili Şərq dünyasında ən önəmli və öyrənilməsi zəruri olan bir dil halını almışdı. Ə.Nəvainin belə bir mövzuya müraciət etməsinin vacib cəhətlərindən biri də bu idi. Bu mənada, "Səb´at əbhur" ("Yeddi dəniz") əsəri ərəb leksikoqrafiyası tarixində Cövhərinin "Səhah" və Firuzabadinin "Komus" lüğətləri ilə bir sırada dayanır.

Əslində bu əsər Əlişir Nəvai yaradıcılığının və əsərlərinin Türkiyədə tədqiqi zamanı ortaya çıxmışdır. "Səb´at əbhur" ("Yeddi dəniz") 1956-cı ildən elm əhlinə məlum oldu. "Türk alimi Agah Sirri Ləvənd 1956-cı ildə Türkiyənin Ayasofya, Süleymaniyyə və Nuri Osmaniyyə kitabxanalarında "Səb´at əbhur" adlı elmə məlum olmayan 6 ədəd əlyazma tapdı. A.S.Ləvənd həmin lüğəti tədqiq edərək Ayasofiya (№ 4862), Nurosmaniya (№ 4752) və Süleymaniyyə (№ 1086, № 1087, № 2630, № 3217) kitabxanalarında saxlanan əlyazmaların birində (№ 4862) əsərin Nəvaiyə, yenə də bir başqa mənbəyə - Maniniyə istinadən verilən lüğətə (№1087) dair mülahizələrə söykənib əsərin Nəvaiyə aid olmasını yazmışdı. O, Ayasofya nüsxəsinin "Müqəddimə" və "Xatimə"sindəki məlumatlara söykənərək əsərin Əlişir Nəvaiyə məxsus olması qərarını qətiləşdirdi. Bu tapıntıdan sonra A.S.Ləvənd "Əlişir Nəvainin ərəbcə sözlüyü" adlı məqaləsini yazaraq, "Türk dili araşdırmaları illiyi"ndə yayımladı (Ankara, 1956, s.239-245). Bəzi alimlər bu fikri qəbul etməsələr də, bir çox alimlər – nəvaişünaslar

bu fikri təsdiqlədilər. 1960-cı ildə akademik Həmid Araslı "Nəvai irsinin öyənilməsi tarixindən" məqaləsində Agah Sirri Ləvəndin fikirlərini təsdiqləyərək əsərin müəllifinin Əlişir Nəvai olduğunu yazdı. 1967-ci ildə əfqan alimi Məhəmməd Yakub Vahid öz tədqiqatını Jüzjoninin, Agah Sirri Ləvənd və Əhməd Atəşin (yeri gəlmişkən, Əhməd Atəş əsərin Nəvainin olduğunu inkar edir) məqalələrindəki məlumatları dərindən təhlil edərək əsərin Nəvaiyə aid olduğunu təsdiqlədi.

Bu mənbələrlə yeni nəsli təmsil edən özbək nəvaişünas alimi Erqaş Açilovun "Nəvai ensiklopediyası" üçün hazırladığı mətndə az da olsa, məlumat verilmisdir. Lakin ən geniş məlumatlar "Əlişir Nəvainin "Səb´at əbhur" lüğəti" adlı tədqiqat işində ortaya qoyulmuşdur. Təəssüf ki, Əlişir Nəvainin adı çəkilən əsərinin - "Səb´at əbhur" ("Yeddi dəniz") lüğətinin mətni indiyədək nəşr olunmayıb.

Batırbek Həsənov 1981-ci ildə "Əlişir Nəvainin "Səb´at əbhur" lüğəti" adlı filologiya elmləri namizədi alimlik (hazırkı filologiya üzrə fəlsəfə doktorluğu) dərəcəsi almaq üçün yazdığı dissertasiya (1981-ci ildə) işi əsasında hazırladığı monoqrafiyasında bu əsərin Əlişir Nəvaiyə məxsus olması haqqında ciddi araşdırma ortaya qoydu. B.Həsənovun "Əlişir Nəvainin "Səb´at əbhur" lüğəti" kitabı – "Giriş", "I fəsil. Ərəb leksikoqrafiyası tarixindən", "II fəsil. "Səb´at əbhur"un müəllifi haqqında", "III fəsil. "Səb´at əbhur"un Ayasofya əlyazma nüsxəsi, əsərin düzülüş səbəbi və mənbələri", "IV fəsil. "Səb´at əbhur"un məzmunu və xarakteristikası" və "Xülasə" kimi struktur daxilində araşdırmaya cəlb etmişdir. Batırbek Həsənovun adını qeyd etdiyimiz tədqiqatından – "Əlişir Nəvainin "Səb´at əbhur" lüğəti" adlı dissertasiya işindən faydalanaraq Ə.Nəvainin "Səb´at əbhur" ("Yeddi dəniz") əsəri haqqında ümumi məlumat – mövzusundan, qayəsi, məzmun xüsusiyyətlərindən bəhs etdik.

Nəticə

Olaraq deyə bilərik ki, Əlişir Nəvai ərəb dilini yaxşı bilən mütəxəssis kimi, bu dilin leksikoqrafiyasına aid müxtəlif mənbələrdən xeyli materiallar toplayaraq, bir lüğət, izahlı bir lüğət hazırlamışdı. Şair lüğətə "Səb´at əbhur" ("Yeddi dəniz") adını qoymuşdu, onun müqəddiməsini yazmışdı (bu müqəddimə Ayasofya nüsxəsində var). Müqəddimə qaralama halındadır. Lakin lüğət haqqında Əlişir Nəvainin özü və müasirləri bir məlumat yazmadılar. Qeyd edək ki, həm öz dövründə, həm də sonrakı dövr tədqiqatlarda Əlişir Nəvainin ərəb dilini gözəl bilməsini xüsusi ilə qeyd edilib. Lüğət şairlərin əsərlərindəki ərəbcə söz və ibarələrin daha aydın dərk edilməsinə kömək məqsədi daşıyır.

Ədəbiyyat

1. Agah Sirri Levend. Nevainin arabça sözlüyü. – Türk dili araşdırmaları yilligi, Ankara, 1956, s.239-245.
2. Арасли Н. Навоий меросини урганиш тарихидан. – "Узбек тили ва адабиёти", 1960, 3-сон, 3-8 бетлар.
3. Ҳасанов Батырбек. Алишера Навоийнинг "Сабъат абҳур" лугати. – Тошкент, Узбекистон ССР "ФАН" нпшриети, 1981
4. Ülvi Almaz. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər). – Bakı, Qartal, 2008, 328 səh.

From the history of Alishir Navai's "Sab´at abhur" ("Seven seas")

Summary

"Sabat abhur" ("Seven Seas") is a descriptive dictionary of Arabic linguistics. It is indisputable not only for the Turkish language, but also for the Divan and other works he wrote in Persian, but also for his great contribution to the artistic and scientific promotion of Islam in the Turkish language. Since the translation of the Qur'an, hadiths from Arabic into Persian and Turkish is a major work, the great need for dictionary and explanatory dictionary is known by everyone. A very simple reason: "Sabat abhur" are based on seven Arab dictionaries.

Из истории изучение произведение Алишера Навои «Сабат абхур» («Семь морей»)

Резюме

«Сабат абхур» («Семь морей») – это описательный словарь арабского языкознания. Бесспорно, не только для турецкого языка, но и для "Divan"а и других работ, которые он писал на персидском языке, но и за его большой вклад в художественное и научное продвижение ислама на турецком языке. Поскольку перевод Корана, хадисов с арабского на персидский и турецкий язык является основной работой, огромная потребность в словаре и толковом словаре известна всем. Очень простая причина: «Сабат абхур» («Семь морей») основан на семи арабских словарях.

DOI: 10.36719/2020/REK/01/12-18

Aygün Balahüseyn qızı Amanəliyeva
AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutu
amaneliyeva@mail.ru

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNİN LİNQVİSTİKASINDA KƏMİYYƏT MƏZMUNLU VAHİDLƏR ÜMUMİ QRAMMATİK KATEQORİYANIN BİR NÖVÜ KİMİ

Açar sözlər: *qrammatik kateqoriya, ümumi və xüsusi, konkret və mücərrəd*
Key words: *grammatical category, general and specific, concrete and abstract*
Ключевые слова: *грамматическая категория, общее и особенное, конкретный и абстрактный*

Giriş

Məqalədə Azərbaycan və ingilis dillərində ümumi qrammatik kateqoriyaların növlərindən biri olan kəmiyyət kateqoriyasının geniş əhatə dairəsinə, digər qrammatik kateqoriyalardan fərqli olaraq daha mürəkkəb və çoxcəhətli xüsusiyyətlərə, rəngarəng ifadə vasitələrinə, məzmun müxtəlifliyinə, zəngin kəmiyyət məzmunlu vahidlərə malik olması baxımından fərqlənməsindən bəhs olunur. Məhz buna görə də kəmiyyət kateqoriyası ikili xarakterli olmaqla mücərrəd kateqoriyadır, burada həm konkretlik, həm də mücərrədlik vardır. Buraya real hesablanan konkret əşyalar və konkretlikdən xaric olan, hesablanması mümkün olmayan kəmiyyət daxildir. Bu kateqoriya öz mənasına görə ən müxtəlif sözləri ümumiləşdirmələr nəticəsində birləşdirir. Kəmiyyət anlayışı konkret riyazi saylarla ifadə olunduğu zaman konkret xarakter daşıyır. Qalan kəmiyyətlər isə mücərrəd, qeyri-müəyyən xarakterdədir. Kəmiyyətin mücərrəd xarakter daşıması o deməkdir ki, əşya və hadisələrin sayı sonsuzdur, sayılması konkret olaraq mümkün deyildir. Onlar konkret şəkildə kəmiyyətlənmir və ya onların sayı müəyyən bir hüdüd dairəsində, müəyyən bir çərçivə içərisində götürülmür. Məqalədə həmçinin o da qeyd olunur ki, kəmiyyət anlayışının dildə ifadə olunması üçün qrammatik vahidlərin – şəkilçilərin olması bir o qədər də vacib deyil. Əgər dildəki hər hansı leksik vahid şəkilçi qəbul etmədən çoxluq – topluluq ifadə edə bilirsə, cəm şəkilçisinin işlənməsinə ehtiyac duyulmur.

İstənilən dilin lüğət tərkibindəki sözlər leksik və qrammatik mənaya malik olur. Sözün leksik mənası dedikdə onun təklikdə ifadə etdiyi məna, müəyyən məfhum, anlayış ifadə etməsi başa düşülür. Qrammatik məna leksik məna ilə müqayisədə ümumiləşmiş, mücərrəd məna olub, tək bir söz üçün yox, söz qrupları üçün xarakterikdir. Azərbaycan və ingilis dillərində olan sözlər leksik-qrammatik mənalarına görə müxtəlif qruplara ayrılır. Ümumi qrammatik əlamətinə görə fərqlənən söz qruplarına nitq hissələri deyilir. Ümumi qrammatik əlamət dedikdə sözün ifadə etdiyi məna, daşıdığı sual və cümlədə mövqeyi nəzərdə tutulur. Sözün ifadə etdiyi məna onun yalnız mənasını əhatə edir. Hər bir sözün müəyyən nitq hissəsinə aid olması üçün həmin söz leksik məna ilə yanaşı qrammatik məna da kəsb etməlidir. Qrammatik məna sözün öz daxilində olmur, qrammatik formalarla meydana çıxır. Deməli, sözlər nitq hissələrinə bölünmək üçün dilin qrammatik quruluşuna xas olan qrammatik kateqoriyalara malik olmalıdır. Ümumən dünya dillərini bir-birindən fərqləndirən cəhət onların hər birinin özünəməxsus qrammatik kateqoriyalara malik olmasından irəli gəlir. Qrammatik kateqoriyalar ayrı-ayrı nitq hissələri üçün xarakterik olub, onları bir-birindən fərqləndirir [1, səh. 37].

Azərbaycan və ingilis dillərində nitq hissələrinə xas olan qrammatik kateqoriyalar əhatəsinə görə iki qrupa ayrılır:

1. Ümumi qrammatik kateqoriyalar;
2. Xüsusi qrammatik kateqoriyalar.

Hər hansı qrammatik kateqoriya bir neçə nitq hissəsinə aid olursa, onu *ümumi qrammatik kateqoriya* kimi və ya yalnız bir nitq hissəsinə aid olursa, onu *xüsusi qrammatik kateqoriya* kimi adlandırmaq lazım gəlir. Məsələn, dərəcə, zaman kateqoriyalarını xüsusi kateqoriya kimi adlandırmaq mümkündür [2, səh. 153].

Müasir Azərbaycan dilində ümumi qrammatik kateqoriyalar aşağıdakılardır:

1. Hal kateqoriyası;
2. Mənsubiyyət kateqoriyası;
3. Şəxs kateqoriyası;
4. Kəmiyyət kateqoriyası;
5. İnkarlıq kateqoriyası.

İngilis dilindəki ümumi qrammatik kateqoriyalar isə aşağıdakılardır:

1. Kəmiyyət kateqoriyası (tək və cəm);

2. Hal kateqoriyası (adlıq hal və yiyəlik hal);
3. Cins kateqoriyası (kişi, qadın və orta).

Kəmiyyət kateqoriyasını daha ətraflı və düzgün başa düşmək üçün ona daxil olan müxtəlif anlayışları ayrılıqda, qısa şəkildə izah etmək lazımdır. Kəmiyyət kateqoriyasına qrammatik və riyazi kəmiyyət daxildir. İstər qrammatik vasitələrlə, istərsə də riyazi rəqəmlərlə ifadə olunan kəmiyyət insanın praktik ehtiyacından törənmişdir. Qrammatikada ifadə olunan kəmiyyət kateqoriyasına *təklik, cəmlik, topluluq, mücərrədlik, qeyri-müəyyənlik, təxminilik* bildirən kəmiyyətlər daxildir. Riyaziyyatda ifadə olunan kəmiyyətə *konkret riyazi kəmiyyət* və ya *riyazi kəmiyyət* aid edilir. Riyazi kəmiyyətdə mücərrədlik, qeyri-müəyyənlik və təxminilik yox dərəcəsindədir. Hər şey dəqiq və konkret kəmiyyətdə hesablanır. Riyaziyyatçı kiçik və sonsuz böyük kəmiyyətlərin ən mürəkkəb formalarını işlədərkən, daha konkret hesablanan məfhumlar haqqında düşünür. Məsələn, *üç müəllim (three teachers), on altı tələbə (sixteen students), əlli kitab (fifty books)* kimi ifadələrdə yalnız konkret, hesablanmsası mümkün olan müəyyən kəmiyyətlər ifadə edilir. Saylarla ifadə olunan kəmiyyətlər konkret xarakter daşıyırsa, digər vasitələrlə verilmiş kəmiyyətlər konkretlikdən məhrumdur. Qrammatik kəmiyyət sistemində təklik və cəmlik bir-birinə qarşı qoyulsa da, burada müəyyən bir qanunauyğunluq mövcuddur. Azərbaycan dilində «əşya», ingilis dilində isə «an object, a thing» dedikdə yalnız hansısa bir əşya deyil, ümumiyyətlə əşya anlayışı ifadə edilir. Yaxud Azərbaycan dilində «insan», ingilis dilində isə «a human» dedikdə bu yalnız müəyyən bir insan, şəxs demək deyildir. Burada ayrı-ayrı fərdlərdən başqa, ümumiyyətlə, insan başa düşülür və bunun kəmiyyətini konkret müəyyənləşdirmək mümkün deyil. Cəm cəmliyi ifadə etməsinə baxmayaraq, haqqında bəhs olunan əşyaların düzgün, konkret sayını göstərmir. Bu fərdlərin sayı konkret məlum deyilsə də, hər halda ikidən çox olması təsəvvür olunur. Məsələn, *biz (we), kitablar (books)* deyildiyi zaman bu əşyaların konkret sayı ifadə edilmir, yalnız bir şey məlum olur ki, həmin əşyalar tək (bir) deyil, bir neçədir – yəni birdən çoxdur (iyirmidir, yüzdür, mindir və s.). Kəmiyyət kateqoriyasında cəmliyin və təkliyin bu şəkildə bir-birinə qarşı qoyulması, onlarda olan ikili xüsusiyyət (təki və cəmi–toplunu ifadə etmək) dildə formalaşmamış cəmlik anlayışının olduğunu sübut edir. Formalaşmamış cəmlik termini dedikdə əşyaların cəmliyini bildirmək üçün morfoloji göstəricisi olmayan isimlər başa düşülür. Bu forma bütün türk dilləri üçün xarakter xüsusiyyətdir [4, səh. 328].

Kəmiyyət kateqoriyasının ümumi məzmunu, mahiyyəti Azərbaycan və ingilis dillərində eynidir. Lakin kəmiyyətin ifadə vasitələri, ifadə tərzi hər iki dil üçün tam şəkildə eyni deyil. Hər iki dildə kəmiyyətin ümumi ifadə vasitələrindən başqa özünəməxsus formaları da var. Kəmiyyət kateqoriyası digər ümumi qrammatik kateqoriyalardan (cins, hal, mənsubiyyət, inkarlıq) bir də onunla fərqlənir ki, bu kateqoriya xarici aləmdə mövcud olan əşya və hadisələri əks etdirən bir kateqoriya kimi təhlil edilir. Kəmiyyət kateqoriyasının belə geniş yayılmasının və əhatə dairəsinə malik olmasının səbəbi onun mövcud real aləmlə bağlı olmasından irəli gəlir. Kəmiyyət kateqoriyası qeyri-real təsəvvürün məhsulu deyildir. Bu, insanın real, həyati təsəvvürlərindən doğmuş və müəyyən inkişaf mərhələsi keçmişdir. Məhz buna görə də kəmiyyət kateqoriyası bir sıra xüsusiyyətlərinə görə digər qrammatik kateqoriyalardan fərqlənir:

1) Digər qrammatik kateqoriyalar (məs.: cins kateqoriyası) ismin bir sıra müxtəlif əlamətləri ilə qarışmış və ya ondan asılıdırsa, kəmiyyət kateqoriyasında bu hal mövcud deyildir;

2) Digər qrammatik kateqoriyalarda müəyyən dərəcədə məhdudiyyət mövcuddur, məsələn, hal kateqoriyası və cins kateqoriyası, əsasən, isimlərə aiddir. Lakin kəmiyyət kateqoriyasında bu məhdudiyyət yoxdur, bu kateqoriya bir növ «universaldır». «Fəlsəfə ensiklopediyası»nda kəmiyyət kateqoriyasının tərifi belə verilir: *«Kəmiyyət kateqoriyası universal, yəni məntiqi kateqoriya olub gerçəkliyin dərk edilməsində vacib pillələrdən biridir»* [4, səh.11].

Kəmiyyət kateqoriyası *isimləri, sifətləri, əvəzlikləri, sayları, felləri, zərfləri* və s. əsas və köməkçi nitq hissələrini əhatə edə bilir. Cəm – kəmiyyət kateqoriyası formalarından biri olub *isimlərdə* ayrı-ayrı əşyaların çoxluğunu, *sifətlərdə* əlamətin adi, azaltma və çoxaltma dərəcələrində olmasını, *əvəzliklərdə* iki və daha artıq şəxs haqqında olan anlayışı, *saylarda* şəxs və ya əşyanın miqdarını və sırasını, *fellərdə* iş və hərəkətin çoxlu subyektə məxsusluğunu, *zərflərdə* iş və hərəkətin icra tərzini, zamanını, miqdarını, əlamətini bildirir, qeyri-müəyyən kəmiyyət kimi meydana çıxır.

Azərbaycan dilində olduğu kimi ingilis dilində də kəmiyyət ismin qrammatik kateqoriyalarından biri olub, söhbətin bir və ya daha çox əşya və şəxs haqqında getdiyini göstərir. Azərbaycan dilində ismin bəzi qrammatik əlamətləri ingilis dilindəki ismin qrammatik əlamətləri ilə oxşarlıq təşkil edir. Hər iki dildə isimlər konkret və mücərrəd, tək və cəm formada, ümumi və xüsusi olur, cəm şəkilçisi qəbul edərək cəmlənir. İngilis dilində ismin cəm formasının düzəldilməsi ilə Azərbaycan dilində ismin cəm formasının düzəldilməsinin oxşar və fərqli cəhətləri vardır. İngilis dilində **-s, -es** cəm şəkilçisi Azərbaycan dilində cəmlik ifadə edən **-lar, -lər** cəm şəkilçisinə uyğun gəlir. Məs.: *garden**s** – bağlar, bench**es** – skamyalar* və s. [3, səh.46]

Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində ancaq cəm formada işlənən isimlər var ki, onların tək forması olmur, onlardan sonra fel / to be həmişə cəmdədir.

Yalnız cəm halda işlədilən isimlərə aşağıdakılar aiddir:

1) iki ayrılmaz eyni hissədən ibarət olan əşyaların, alətlərin, cihazların, müxtəlif ləvazimatların adlarını və az, yaxud çox dərəcədə qeyri-müəyyən cəmlik bildirən isimlər: *nippers, tongs, pliers, pincers* (kəlbətin, maşa), *headphones* (qulaqcıq), *manacle, fetters, handcuffs* (qandal, əl qandalı), *scissors* (qayçı), *scales* (tərəzi), *binoculars* (durbin), *tweezers* (naqqaş), *shears* (qırxılıq qayçı), *clippers* (qırpma aləti, qayçı), *braces* (asqı), *shears* (böyük asqı), *tweezers* (maqqaş, pinset), *glasses, sunglasses, eyeglasses, goggles, spectacles, specs* (eynək, gözlük), *lodgings* (yaşayış yerləri), *headquarters* (qərərgah), *contents* (kitabın məzmunu, mündəricat), *authorities* (hökümət, səlahiyyətlilər, rəhbər orqanlar, rəislik), *police* (polislər), *looks* (zahiri görünüş, baxış, nəzər-diqqət), *stairs* (pilləkan, pillələr), *proceeds* (gəlir), *environs, surroundings* (çevrə, əhatə), *suburbs, outskirts, extremity, sides* (ətraf, qıraq, şəhər kənarı), *whereabouts* (mövqe, yer-yurd), *foundations, principles, fundamentals, premise* (təməl, əsas, bina), *goods* (mal, mallar, əmtəə), *riches* (sərvət), *savings* (qənaət), *oborigines* (yerli), *thanks* (təşəkkürlər), *eaves* (karniz), *provisions* (ərzaq), *archives* (arxiv), *remains* (artıq, qalıq, qabaqdanqalma), *dregs* (çərəzlər), *outdoors* (çöl, bayır), *manners* (tərbiyə), *wages* (aylıq maaş, məvacib), *gentry* (kiçik mülkü zadəganlıq), *poultry* (ev quşları), *cattle* (mal-qara), *belongings, things* (əşyalar), *accessories* (ləvazimat), *possessions* (mal-dövlət), *bits and pieces, goods and chattels* (şey-şüy) və s. Qeyd etmək lazımdır ki, eyni iki hissədən ibarət olan əşyanı bildirən və yalnız cəm halda işlədilən ingilis mənşəli isimlərdən fərqli olaraq, Azərbaycan dilində bu cür isimlər həm təkdə, həm də cəmdə işlədilə bilər [5; 12; 13].

2) geyimlər və paltarlar: *clothes* (libas, pal-paltar), *garments* (üst-baş, əyin), *jeans* (cins şalvar, cins paltar), *trousers, knickers, breeches, plus-fours, jodhpurs* (şalvar), *dungarees* (iş geyimləri, iş paltarı), *pyjamas, pajamas* (pijama), *socks* (corab), *stockings* (uzun corab), *shorts* (şort), *underpants, pants, braces* (alt paltarı), *tights* (tayt, kalqotka), *overalls* (tulum, kombinezon), *shorts* (şortik), *trunks* (üzgüçülük və boks üçün geyilən kişi şortları), *shoes* (ayaqqabı), *boots* (çəkmə) və s. [3, səh. 59].

İngilis dilində bəzi sözlər formaca cəm kimi görünsə də, mənaca tək formada işlədilir. Cəmdə olub tək halda fellərlə işlədilən həmin isimlər aşağıdakılardır:

1) Bəzi oyunların adları: *billiards* (bilyard), *dominoes* (domino), *draughts, checkers* (dama, şaşki), *darts* (dairəvi hədəfə atıldığı qapalı bir oyun), *bowls* (halqa oyunu),

aerobics (aerobika), *athletics* (atletika), *classics* (qolf və tennisdə böyük bir idman turniri və ya yarışması) və s.

2) Bəzi elm sahələrinin, fənlərin və fəaliyyətlərin adları: *linguistics* (dilçilik, dilşünaslıq, linqvistika), *lexics* (leksika), *physics* (fizika), *economics* (iqtisadiyyat), *maths, mathematics* (riyaziyyat), *phonetics* (fonetika), *classics* (qədim yunan və latın ədəbiyyatı, fəlsəfəsi, tarixini tədris edən məktəb fənni), *gymnastics* (gimnastika), *aerobics* (aerobika), *athletics* (atletika), *elekrtonika* (electronics), *acoustics* (akustika), *optics* (optika), *politics* (siyasət) və s. Məsələn: *Phonetics is a branch of linguistics. – Fonetika dilçiliyin bir sahəsidir* [6; 12].

İngilis dilində bir qrup isimlər vardır ki, formaca cəmdə, mənaca həm cəmdə həm də təkdə işlənənir: *means* (növ, növlər), *series* (seriya, seriyalar), *species* (cins, cinslər, növ, növlər) və s.

İngilis dilində bəzi xəstəlik adlarını bildirən isimlər var ki, cəm formada işlənir: *measles* (qızılca), *mumps* (tepsi, svinka), *rickets* (raxit), *rabies* (quduzluq) və s. [7; 8].

İngilis dilində bir qrup isimlər də vardır ki, cəm formada öz mənalarını dəyişərək yeni məna kəsb edirlər: iron (ütü) – *irons* (qulaqcıq), *arm* (əl, qol) – *arms* (silah), *custom* (adət) – *customs* (gömrük), *scale* (miqyas) – *scales* (tərəzi), *colour* (rəng) – *colours* (bayraqlar), *force* (güc, qüvvə, tab, hal, taqət) – *forces* (ordu, qoşun, qüvvə), *wood* (odun, ağac) – *woods* (meşə), *water* (su) – *waters* (okean, dərya) və s. [11; 12].

İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində isimlərin hamısı əsl və ya məcazi mənalarda kəmiyyət şəkilçisi qəbul edə bilir. Azərbaycan dilində yalnız cəm formada olan isimlər olmur, isimlər əsasən tək formada olur, bunlara cəm şəkilçisi artırmaq olur: *su – sular, yağ – yağlar, gözəllik – gözəlliklər, yaxşılıq – yaxşılıqlar*.

İngilis dilində elə isimlər vardır ki, məna fərqi sayılan və sayılmayan isim kimi çıxış edir. Bu baxımdan da isimlər **sayıla bilən** və **sayıla bilməyən** olmaqla iki qrupa bölünür. Sayıla bilməyən isimlər cəmlənmir, qeyri-müəyyən artikl (a/an) ilə işlənmir:

1) **Sayıla bilməyən/sayılmayan isimlər (Uncountable nouns):** *law* – hüquq (elm sahəsi), *medicine* – tibb, *competition* – rəqabət, *glass* – şüşə, *iron* – dəmir, *paper* – kağız, *hair* – saç, *light* – gün işığı, *work* – iş, *room* – yer, *toast* – tost (qızarmış çörək), *time* – zaman, vaxt, *wood* – taxta, *responsibility* – məsuliyyət, *chicken* – toyuq əti (ərzaq), *fish* – balıq əti (ərzaq) və s.

2) **Sayıla bilən/sayılan isimlər (Countable nouns):** *a law* – qanun, *a medicine* – dərman, *a competition* – müsabiqə, yarış, *a glass* – stəkan, *an iron* – ütü, *a paper* – qəzet, *a hair* – tük, *a light* – lampa işığı, *a work* – əsər, *a room* – otaq, *a toast* – tost (sağlıq), *2/3/... times* – 2/3/… dəfə, *a wood* – meşə, *a responsibility* – vəzifə öhdəliyi, *a chicken* – toyuq, *a fish* – balıq, *a lamb* – quzu, *a pepper* – bolqar bibəri (tərəvəz), *a business* – müəssisə, şirkət, *a belief* – inanc, *a domino* – domino daşı (cəmdə dominoes) və s. [6; 7; 8]

İngilis dilində bəzi isimlər sayıla bilən olsalar da, onların tək və cəm formaları fərqlənmir (unmarked plurals in English), eyni morfoloji formada həm təklik, həm də cəmlik ifadə edir və heç bir halda -s,-es şəkilçisi qəbul etmirlər:

1) Bəzi heyvan adları: *sheep* (qoyun-qoyunlar), *swine* (donuz-donuzlar), *deer* (maral-marallar), *reindeer* (şimal maralı – şimal maralları), *fish* (balıq – balıqlar) və s.

2) Bəzi balıq adları: *salmon* (qızılbalıq – qızılbalıqlar), *carp* (karp-karplar) və s.

3) Sonu -*craft* ilə bitən nəqliyyat vasitələri adları: *craft* (gəmi – gəmilər), *aircraft* (təyyarə, hava gəmisi – təyyarələr, hava gəmiləri), *spacecraft* (kosmik gəmi – kosmik gəmilər), *watercraft* (su gəmisi – su gəmiləri). Yalnız *hovercraft* (hava gəmisi) sözünün cəmi həm *hovecraft*, həm də *hovecraft*s ola bilər;

4) Sonu -*ies* ilə bitən latın mənşəli sözlər: *series* (seriya – seriyalar), *species* (bioloji növ – bioloji növlər);

5) Yer bildirən isimlər: *headquarters* (qərargah – qərargahlar), *crossroads* (kəsişmə, qovşaq – qovşaqlar), *environs, surroundings* (çevrə, əhatə), *lodgings* (yaşayış yerləri).

6) Digər sözlər: *offspring* (övlad-övladlar), *dice* (nərd zəri – zərləri), *means* (metod – metodlar), *corps* (hərbi/ diplomatik korpus – korpuslar). *Corps* sözünün tək və cəmi yazılışda eyni olsa da, tələffüzdə fərqlənir. Təkdə /kɔ ː /, cəmdə /kɔ ː z/ [10, səh 123].

İngilis dilində latın və yunan mənşəli isimlərin cəm forması həmin dillərdə mövcud olan formaya uyğundur:

1) Həmin qəbildən olan latın mənşəli sözlər (singular (-a, um), plural (-e, a)): *antenna – antennae, formula – formulae, datum – data, radius – radii, stimulus – stimuli, curriculum – curricula (also curriculums), nucleus – nuclei, fungus – fungi, focus – foci, memorandum – memoranda, bacterium – bacteria, stratum – strata* və s.

2) Həmin qəbildən olan yunan mənşəli sözlər (singular (-is, on), plural (-es, a)): *crisis – crises, ellipsis – ellipses, thesis – theses, basis – bases, axis – axes*, analysis – *analyses, phenomenon – phenomena, criterion – criteria* və s. [6; 12; 13].

Dünyanın əksər dillərində olduğu kimi, Azərbaycan və ingilis dillərində bir qrup sözlərin leksik məzmununda topluluq, cəmlik mövcuddur. Hər iki dildə ismin özünəməxsus cəhətləri ümumi isimlərin kəmiyyət baxımından tək və cəm olması, bir qisminin isə *topluluq* bildirməsidir. Bu dillərdə toplu isimlər formaca təkdə işlənir, adlıq halda heç bir heç bir morfoloji əlamət, cəmlik bildirən şəkilçi qəbul etmədən, köməkçi vasitələr olmadan mənaca müəyyən şəxslərin cəmliyini, çoxluğunu, topluluğunu və eyni cinsdən olan çoxlu əşyanın məcmusunu bildirir. Məs.: *xalq, millət, ordu, qoşun (insan), mal, sürü, naxır, ilxı (heyvan)* sözlərində cəmliyi bildirən heç bir morfoloji göstərici yoxdur, sözlər tək halda olsa da, onların ifadə etdiyi kəmiyyət tək deyil, cəmdir. Belə sözlər kəmiyyətcə tək formasındadır, heç bir cəm şəkilçisinə və ya riyazi cəmlik əlamətinə malik deyildir. Bu sözlərdə müəyyən toplu fərdlər mövcuddur. Topluluq mənasında olan söz bir neçə şəxsin, əşyanın və s.-nin toplu halda olmasını bildirir və cəmlik ifadə olunur. Onları tək halda düşünmək mümkün deyildir. Topluluq bildirən isimlər qrammatik cəhətdən təkdə hesab olunur və onlarla əlaqədə olan xəbər təkdə işlənir. Dilçilikdə məzmunca cəm və topluluq anlayışını ifadə edən belə isimlərə *toplu* və ya *topluluq bildirən isimlər* deyilir. Toplu isimlər təklik bildirən isimlərlə qarşı-qarşıya dayanır. Topluluq özü cəmliyin formalarından biridir. Azərbaycan və ingilis dillərində topluluq bildirən isimlərin məzmununda kəmiyyət kateqoriyası leksik yolla ifadə olunur: *gül, ağac, meşə, kitab, quş, qarışqa, balıq, qoyun, armud, alma, üzüm, daş, qum* sözləri ingilis dilində *flower, tree, forest, book, bird, ant, fish, sheep, pear, apple, grape, stone, sand* sözləri ilə ifadə olunur. Məsələn: *Daş bərk cisimdir. İnsan gərək ehtiyacı olanlara əl tuta* cümlələrində *daş* və *insan* sözləri formaca təkdə olsa da, əslində daşlar və insanlar nəzərdə tutulur [11, səh.148]. Bütün meyvə, giləmeyvə, bostan-tərəvəz bitkiləri topluluq bildirən kəmiyyət kateqoriyasına aid olur: *soğan (onion), sarımsaq (garlic), istiot (pepper), bibər (cayenne), qovun, yemiş (melon), boranı, balqabaq (pumpkin), qarpız (watermelon)* və s. Bu sözlər real mənasına görə yalnız təkliyi deyil, bütöv bir əşyalar qrupunu ifadə edir. Azərbaycan dilində «meşə», ingilis dilində «forest» dedikdə orada bitən bütün ağaclar, «ağac» / «tree» dedikdə bütün ağac növləri (meyvə verən və meyvə verməyən), «quş» / «bird» dedikdə quşların bütün növləri (ev, çöl, vəhşi quşlar), «ordu» / «army» dedikdə oradakı bütün heyət nəzərdə tutulur.

Müasir Azərbaycan və ingilis dilində topluluq bildirən isimlər eyni zamanda qeyri-müəyyən cəmlik bildirir. Həmin sözlər əsasən aşağıdakılardır:

- ictimaiyyət (public, community, society, people),
- cəmiyyət (society, company, corporation, league, fellowship, order),
- ümumilik (community, communion),
- ortaqlıq (community, community of ownership, metayage),
- birgəyaşayış (coexistence, communal life, society, community),
- məskən (abode, dwelling, residence, home, living quarters, community),
- icma (community, commune), xalq (nation, folk, people),
- millət (nation, nationality), camaat (people),
- əhali (population, inhabitants, country),
- el (land, nation), oba (hamlet, large nomad family),
- xilqət, bəşər, dünya, aləm, cahan, kainat, bəşəriyyət, ərz (creation, nature, god, making, man, mankind, human, humanity, world, universe, earth, terra),
- ittifaq, müttəfiqlik (union, alliance, confederation, fellowship, federation),
- yoldaşlıq, üzvlük (fellowship, companionship, comradeship, company),
- ansambl (ensemble, company),
- ölkə (country), dövlət (state), şəhər (city),
- ordu (army, forces, Field Forces), qoşun, dəstə (troop, horde, the regulars, communication troops), alay, diviziya (group, division),
- sərgi (exhibition, exposition, show, adventurous),
- nümayiş (demonstration, display, exhibition, parade),
- məclis, konfrans, qurultay, toplantı, iclas, yığıncaq, parlament, görüş, müşavirə, mitinq, aqreqat, qovşaq, şirkət (assembly, meeting, congress, parliament, scene, conference, company, fellowship),
- ailə, külfət, nəsil, soy, fəsilə, tayfa (family, household, generation, kith, kith and kin, stock, breed, mate),
- heyət, komanda, ekipaj, briqada (crew, membership, staff, carriage, team, command, detachment, order, party, brigade, gang),
- qərargah, ştat (headquarters, state, establishment, staff),
- daşlıq (stony place), qayalıq (rocky place), səhralıq (wilderness), çöllük, çəmən (wasteland), orman, meşə, meşəlik (forest, woods),
- kütlə, izdiham, basabas, tünlük (mass, volume, weight, crowd, dough, swarm, train, procession, boodle),
- partiya, şura, sovet, qrup, qruplaşma, zümrə, briqada, dəstə, salxım, qalaq, taya, bölük, komanda, karvan, manqa, bölük (party, council, group, cluster, clump, bunch, stack, batch, detachment, caravan, vanguard, brigade, sheaf, faction, alignment, class, company, crowd, unit, team, link),
- düşmən, yağı (enemy, foe, hostile),
- sürü, ilxı, naxır, davar, qoyun-keçi, (flock, herd, sheep and goats), su, quş, balıq (water, bird, fish) və s. kimi sözlərdə ifadə olunan kəmiyyət mücərrəddir, qeyri-müəyyəndir [5; 6; 7; 8; 12].

Belə isimlərin məzmununda *topluluq* anlayışı özünü göstərir. Toplu isimlərin kökü topluluq bildirsə də, onların bir qismi Azərbaycan və ingilis dillərində *-lar, -lər* cəm şəkilçisi qəbul edə bilir. Toplu isimlərə **-lar, -lər** şəkilçisi artırdıqda ismin bildirdiyi anlayışın növ müxtəlifliyi ifadə olunur: *ailələr, millətlər, xalqlar, ordular, qoşunlar, kütlələr, sürülər* və s. İngilis dilində də *xalq, qoşun, el, kütlə* və s. kimi sözlər topluluq məzmunu daşıyan sözlərə **-s, -es** cəm şəkilçisi artırdığımız zaman alınan *nations, troops, lands, masses* və s. kimi sözlərdə həmin topluluğun bir neçə toplu hissədən ibarət olması aydın olur. Azərbaycan dilində bir qisim topluluq bildirən isimlər cəm şəkilçisi qəbul edə bilmir: *camaat, əhali, üləma, şüra*. Toplu isimlərə cəm şəkilçisi qoşulduqda da (qoşunlar, ellər) kəmiyyət konkret olmur. «Xalqlar» dediyimiz zaman Azərbaycan xalqı, rus xalqı, fransız xalqı kimi müxtəlif xalqlar nəzərdə tutulur. «Qoşunlar» deyildiyi zaman onun müxtəlif toplu hissələrdən ibarət olması məlum olur. Bundan başqa, qoşun dedikdə müxtəlif qoşunlar - rus, fransız, alman və s. də ola bilər [1, səh. 61].

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində bəzi isimlər ***arxaik*** yəni kökü dəyişməklə cəm formaya düşür. Kökdən dəyişməklə cəmlənən isimlər əsasən bunlardır: *a man (adam, kişi) – men (adamlar, kişilər), a woman (qadın) – women (qadınlar), a child (uşaq) – children (uşaqlar), a person (adam, şəxs) – people (adamlar, insanlar), a tooth (diş) – teeth (dişlər), a foot (ayaq) – feet (ayaqlar), a louse (bit, birə) – lice (bitlər), a mouse (siçan) – mice (siçanlar), goose (qaz) – geese (qazlar), ox (öküz) – oxen (öküzlər)* və s.

İngilis dilində «people» sözü «adamlar» mənasında işlənərkən xəbər cəmdə, «xalq» mənasında işlənərkən xəbər həm təkdə, həm də cəmdə ola bilər [9, səh. 56].

Yuxarıda da qeyd etdiyimiz kimi, kəmiyyət anlayışı təkcə obyektiv aləmdəki əşya və hadisələrə şamil olunmur və yalnız isimlərə məxsus deyildir. Lakin bəzi morfoloji əlamətlər isimlərlə birlikdə kəmiyyətin çoxluğu və ya azlığını daha aydın göstərir. İş, hal və hərəkətin sürəkliliyi, intensivliyi felin tərz kateqoriyası ilə yanaşı kəmiyyət anlayışının daşıyıcıları olan sözlərlə də ifadə olunur. Məsələn, Azərbaycan dilində: çox, xeyli, az və s. kimi sözlər və ingilis dilində *many* – «çox, çoxlu», *much* – «çox, çoxlu», *a lot of, lots of* – «çox, çoxlu», *few, a few* – «bir neçə», *little, a little* - «az», «balaca», *very, too* – «çox, həddindən artıq çox», *only* – «yalnız», *so* – «elə», *such* – «elə, belə», *one* – «bir», *three* – «üç», *each* – «hər, hər bir», *every* – «hər», *both* – «hər iki», *a couple of* – «bir neçə», *several* – «bir neçə», *a number of* – «çoxlu», *a great deal of* – «çoxlu», *no* – «heç», *some/any* – «bir neçə, bir az», *most* – «əksər», *plenty of* – «çoxlu», *all* – «bütün, hamısı» və s. [12, səh. 416].

Nəticə

Beləliklə, nümunələrdən göründüyü Azərbaycan və ingilis dillərində kəmiyyət kateqoriyasını yalnız təklik və cəmlikdən ibarət olan kateqoriya kimi düşünmək düzgün deyildir. Təklik və cəmlik bu kateqoriyanın tam deyil, yalnız bir hissəsini əhatə edir və onun əhatə dairəsi daha genişdir. Kəmiyyət kateqoriyası və ya cəmlik anlayışı bütün dillərə xas olan prosesdir və hər bir dilin özünəməxsus cəm şəkilçiləri vardır. Bəzən toplu isimlərlə cəm şəkilçisi qəbul etmiş isimlər bir-birilə qarışdırılır. Lakin, ismin mənaca topluluq bildirməsi ilə onun kəmiyyət göstəricisi qəbul edərək cəmlik bildirməsi eyni deyil. Birincinin əsasında sözün leksik-semantik mənası durur, formaca təkdə olur və onun tərkibində heç bir kəmiyyət göstəricisi iştirak etmir. İkincidə qrammatik proses gedir, yəni şəkilçi vasitəsilə formalaşır. Bununla belə kəmiyyət anlayışının hər iki dildə ifadə olunması üçün qrammatik vahidlərin – şəkilçilərin olması bir o qədər də vacib deyil. Əgər dildəki hər hansı leksik vahid şəkilçi qəbul etmədən çoxluq – topluluq ifadə edə bilirsə, cəm şəkilçisinin işlənməsinə ehtiyac duyulmur. Yəni dildəki sözün özü topluluq bildirir və bu topluluq fasiləli (diskret) çoxluqdan fərqli olaraq fasiləsiz (adiskret) olur.

Ədəbiyyat:

1. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010, 400 s.
2. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2000, 280 s.
3. Türksevər (Musayev) O.İ. İngilis dilinin qrammatikası. Bakı:Qismət, 2007, 608 s.
4. Qıpçaq M.D. Kəmiyyət anlayışının dildə ifadəsi. Bakı, 2000, 452 s.
5. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. 1 cildlik. Bakı, 2005, 452 s.
6. Cəfərov R.C. Qərbi Avropa mənşəli alınma sözlərin izahlı lüğəti. Bakı: Nurlan-2001, 307 s.
7. Orucov Ə. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə. II cild. Bakı: "Şərq-Qərb", 2006, 792 s.
8. Musayev O.İ. İngiliscə-Azərbaycanca lüğət. Bakı: Qismət, 2003, 1696 s.
9. Rəhimov İ., Hidayətzadə T., Mircəfərova S. İngilis dilinin praktik qrammatikası. Bakı: Azərnəşr, 2001, 170 s.
10. Yunusov D.N. A Guide to English Grammar. Baku, 2005, 263 p.
11. Виноградов В.В. Русский язык. М., "Русский язык", 2011, 640 с.
12. Oxford advanced learner s dictionary. Oxford University Press, 2000, 1732 p.
13. Thompson A.J. Martinet A.V. A Practical English Grammar. Oxford University Press, 2001, 3833 p.

In the linguistics of the Azerbaijani and English languages units of quantitative content as a type of general grammatical category

Summary

The article notes that the quantitative category, which is one of the common grammatical categories in both Azerbaijani and English, differs in terms of its wide scope. A quantitative category has more complex and multifaceted functions, more colorful expressions, a greater variety of contents, units of quantitative content than other grammatical categories in both languages. That is why the category of quantities is binary and is an abstract category, with both concrete and abstract. The concept of quantity can, in essence, be concrete and abstract. This includes real objects that are both realistic and quantities that cannot be calculated. This category combines the most diverse words by meaning. The concept of quantity is specific when it is expressed in concrete mathematical numbers. The remaining quantities are abstract, indefinite. The abstract nature of numbers means that the number of objects and events is infinite, and that they cannot be counted. They are not quantifiable or numbered within a specific framework. The article also notes that it is not so important for grammatical units - figurines to represent quantitative concepts in the language. If any

lexical unit in the language is able to express the majority - a set without the adoption of a figurative word, the aggregate formative formation is not required.

Единицы количественного содержания как тип общей грамматической категории в лингвистике азербайджанского и английского языков

Резюме

В статье отмечается, что количественная категория, которая является одной из распространенных грамматических категорий как на азербайджанском, так и на английском языке, отличается с точки зрения ее широкого охвата. Количественная категория имеет более сложные и многогранные функции, более красочные выражения, большее разнообразие содержания, единицы количественного содержания чем другие грамматические категории на обоих языках. Вот почему категория величин является бинарной и представляет собой абстрактную категорию, как конкретную, так и абстрактную. Понятие количества может, по сути, быть конкретным и абстрактным. Это включает в себя реальные предметы, которые являются как реалистичными, так и количествами, которые невозможно рассчитать. Эта категория объединяет самые разные слова по значению. Эта категория объединяет самые разные слова по значению. Понятие количества является специфическим, когда оно выражается в конкретных математических числах. Остальные величины являются абстрактными, неопределенными. Абстрактная природа чисел означает, что количество объектов и событий бесконечно, и что их невозможно сосчитать. Они не поддаются количественной оценке или нумерации в определенных рамках. В статье также отмечается, что грамматическим единицам - статуэткам не так важно представлять количественные понятия в языке. Если какая-либо лексическая единица в языке способна выразить большинство - набор без принятия образного слова, совокупное формативное формирование не требуется.

DOI: 10.36719/2020/REK/01/18-20

Aynur Famil qızı Şəfiyeva
Azərbaycan Dillər Universiteti
ayka0289@gmail.com

FRAZEOLOGİYANIN FRANSIZ DİLÇİLİYİNDƏ ÖYRƏNİLMƏSİ TARİXİ

***Açar sözlər**: frazeologiya, dilçilik, tarix, tədqiqat*
***Key words**: phraseology, linguistics, history, research*
***Ключевые слова**: фразеология, лингвистика, история, исследование*

Giriş

Dilçi alimlərin fikrincə frazeologiyanın elmi fənn kimi yaranması və inkişafı nəzəri olaraq iki faktor əsasında müəyyənləşmişdir. Bir tərəfdən, frazeoloji materialların ilkin məcmuəsinin və nəzəri tədqiqatların yaranmasına qədər artıq frazeologizmlərin ümumi lüğətlərdə təsviri ənənəsi mövcud idi, hansı ki bu ənənənə hələ də davam edir. Digər tərəfdən, frazeoloji birləşmələrə aid toplanmış olan leksikoqrafik faktorlar öz yeni elmi izahını alana qədər hələ də frazeologiyanın əsas anlayışlarının formalaşması tarixi ilə bilavasitə əlaqəli olan söz birləşmələrinin tədqiqi davam edir. Bu baxımdan da frazeologiyanın öyrənilməsi tarixini araşdırmaq xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

Dilçilikdə frazeologiya nəzəriyyəsinin banisi İsveçrə dilçisi Şarl Balli hesab edilir. Alimin "*Précis de stylistique"* (1905), "*Traité de stylistique"*(1909) və "*Linguistique générale et linguistique française"*(1932) kitablarında frazeologiya məsələləri xüsusilə işıqlandırılır. Lakin onu da qeyd etmək lazımdır ki, bir sıra fransız alimləri bu məsələ ilə Şarl Ballidən bir qədər öncə maraqlanmağa başlamışlar. Məsələn, fransız dilçisi Mişel Breal hələ 1897-ci ildə "locutions", "formules", "groupes articulés" adlandırdığı söz birləşmələrindən danışaraq, onların dildə olan sabitliyini və komponentlərinin qeyri-dəqiq semantikaya malik olmasını vurğulayır[1].

Fransız dilçiliyində frazeologiyaya maraq XIX əsrin ikinci yarısında yaranmışdır. Bu dövrdə yazılan əsərlər əsasən frazeoloji birləşmələrin etimologiyasına həsr olunmuşdur. Məsələn, fransız tədqiqatçısı Antuan Lö Ru dö Lənsi 1842-ci ildə dərc etdiyi lüğətində bəzi atalar sözlərinin etimologiyasını vermişdir.

Tədqiqatların məhz bu aspektdə aparılması XIX əsrdə müqayisəli-tarixi metodun yaranması ilə bağlıdır. Bu tədqiqat işləri indi də çox aktualdır, və diaxronik aspektdə aparılan tədqiqatlar üçün zəngin bir baza kimi istifadə oluna bilər. Misal kimi fransız frazeoloqu P.Kitarın əsərlərini göstərmək olar. Onun 1842-ci ildə buraxdığı "Dictionnaire étymologique, historique et anecdotique des proverbes et des locutions proverbiales

de la langue française" əsəri lüğət adlandırılsa da, lüğət çərçivəsindən xeyli uzaqlaşmışdır. Bu çox, zəngin və nəzəri bazası ilə fərqlənən tədqiqat əsəridir. Alim burada ilk dəfə olaraq müqayisəli-tarixi metoddan istifadə edərək fransız dilində olan frazeoloji birləşmələrin semantik, fonetik və struktur xüsussiyyətlərini araşdırır.

Qeyd etmək lazımdır ki, XIX əsrdə yazılan əsərlər əsasən proverbes – atalar sözlərinin tədqiqinə həsr olunmuşdur. Bunu onunla izah etmək olar ki, frazeoloji ifadə bir məhfum kimi hələ formalaşmamışdır. Ona görə də bütün ifadələri "proverbes", "locutions proverbiales" adı altında tədqiq edirdilər. Məsələn Lö Ru dö Lənsinin iki cilddə buraxdığı əsəri "Le livre des proverbes français" – "Fransız atalar sözləri kitabı" adlansada, burada atalar sözləri ilə birlikdə frazeoloji ifadələr də təqdim olunmuşdur. Müəllif bu əsərində fransız dilində mövcud olan atalar sözlərinin və eləcədə frazeoloji ifadələrin ilk tematik təsnifatını aparmışdır [2].

XIX əsrdə fransız frazeologiyası ilə məşğul olan digər alimlər arasında La Mezanjer, F.Jenen, Ş.Nizar, L.Martel, D.Lubens, J.Lavonun adlarını da çəkmək lazımdır.

Yuxarıda adları göstərilən tədqiqatçılar öz əsərləri ilə XIX əsrdə artıq frazeologiya sahəsində yazılacaq gələcək əsərlərə bir baza yaratdılar.

1921-ci ildə Seşeye "Locutions et composés" adlı məqaləsini çap etdirir. A.Seşeye öz əsərində iki növ frazeologizm ayırır: "locutions" – ifadə və "mots composés" – mürəkkəb sözlər. Alimə görə "locution" – ifadə "mürəkkəb sözlərdən" semantik bütövlüyü ilə fərqlənir [3].

Fransız dilçiliyində də, sovet-rus dilçiliyində olduğu kimi, frazeologiyaya xüsusi maraq yalnız XX əsrin ortalarından artmağa başlamışdır. Frazeologiya məsələləri ilə məşğul olan fransız dilçiləri A.J.Greymas, P.Giro, J.Pino, A.Rey, R.Galison, Şantro, M.Gros, S.Mejri, C.Buridan, C.Duneton, S.Klaval, B.Laflör, J.Anri, İ.Gonsales Rey və başqaları dilçiliyin bu sahəsinə müxtəlif səpkidən yanaşaraq, bir çox məsələlərə aydınlıq gətirməyə çalışmışlar.

Məsələn, A.J.Greymas "İdiotismes, proverbes, dictons" (1960), P.Giro "Les Locutions françaises" (1973), J.Pino "Proverbes et dictons français" (1967) və C.Buridan "L'approche diachronique en phraséologie; Quelques aspects de l'ancien et du moyen français" (1969) adlı əsərlərində frazeoloji ifadələrin etimologiyası məsələləri üzərində diqqətlərini cəmləşdirmiş, frazeologiyaya diaxronik aspektdə yanaşmışlar.

Moris Grosun "Une classification élémentaire des phrases figées en français" (1982), "Sur les déterminants dans les expressions figées" (1985), "Les limites de la phrase figée" (1988) adlı əsərlərində isə frazeologiya sinxronik aspektdə tədqiq olunur. Eyni yanaşma G.Grossun bu əsərlərində də müşahidə olunur: "Degré de figement des noms composés" (1988), Les expressions figées en français (noms composés et autres locutions) (1996), "Du bon usage de la notion de locution" (1997).

Sorbon Universitetinin professoru Salah Mejri "Le figement lexical. Descriptions linguistiques et restructuration sémantique" (1997) kitabında frazeoloji birləşmələrin semantikasını sinxronik aspektdə tədqiq edib [4].

Bir çox fransız alimləri frazeologiyanı əsasən praktik cəhətdən tədqiq etmiş, müxtəlif frazeoloji lüğətlər hazırlamışlar. Məsələn, məşhur fransız dilçisi və leksikoqrafı A.Rey frazeologiya haqqında bir neçə məqalə yazdığına baxmayaraq ("La phraséologie et son image dans les dictionnaires de l'âge classique" (1973), "Structure sémantique des locutions françaises" (1976), "Phraséologie et pragmatique" (1997) dilçilikdə məhz öz lüğətləri ilə möhürünü vurub. O təxminən on iki min frazeoloji birləşməni əhatə edən bütöv bir lüğətin, müəllifidir: "Dictionnaire des locutions et expressions figurées" [5].

Qeyd etmək lazımdır ki, fransız dilinin frazeologiyası yalnız fransız dilçilərinin tədqiqatlarında deyil, dünyanın digər alimləri tərəfindən də geniş işıqlandırılıb. Məsələn alman dilçisi J.F.Osmann 1997-ci ildə "Tout est idiomatique dans les langues" adlı məqaləsini fransız dilinin frazeologiyası məsələlərinə həsr edib [6].

Macar dilçisi V.Bardosi fransız frazeologiyasının etimologiyası ilə məşğul olub. Bu mövzu ilə bağlı alimin üç əsəri diqqəti cəlb edir: "Un ange passe: Contribution à l'étymologie d'une locution" (1989), "Guide bibliographique de la phraséologie française avec index thématique " (1990), "Contribution à l'histoire de la phraséologie française des origins jusqu'à Michel Bréal"(1990)

Fransız frazeologiyası ilə məşğul olan rus dilçiləri arasında ilk növbədə V.Q.Qakın adını çəkmək lazımdır. Alimin buraxdığı "Fransızca-rusca frazeoloji lüğət" frazeologiya məsələləri ilə məşğul olan tədqiqatçıların stolüstü kitabına çevrilmişdir.

Fransız dilinin frazeologiyası ilə məşğul olan digər tədqiqatlar arasında A.A.Sıreyşikovanın "Fransız dilinin idiomatikası" (1948), E.İ.Turçinskayanın "Müasir fransız dilində feli sabit birləşmələr" (1953), O.M.Şvarsın "Fransız dilində sabit birləşmələrin xüsusiyyətləri (1957), Q.E.Yankeleviçin "Fransız dilində frazeoloji birləşmələrin sinonimləri və variantları" (1968), K.D.Prixodkonun "Eyni leksik-qramatik tərkibli frazeoloji və qeyri-frazeoloji birləşmələrin mütənasibliyi" (1972), Q.Q.Sokolovanın "Fransız dili frazeologiyası kursu" (2010) adlı əsərləri göstərmək olar.

Azərbaycanda fransız dili frazeologiyası məsələləri ilə G.R.Sadıxova məşğul olub. Fransız və Azərbaycan dilinin frazeologiyasını müqayisə edən G.R.Sadıxova "Ekvivalent paremioloji frazeoloji vahidlərin struktur-semantik xüsusiyyətləri" adlı namizədlik, və "Fransız, Azərbaycan və rus dillərində din mənşəli frazeoloji birləşmələr" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir.

Nəticə

Beləliklə, indiki dövrə qədər frazeologiya məsələlərinə dair çoxsaylı işlər toplanmasına baxmayaraq, dilçilikdə və xüsusən fransız dilçiliyində frazeologiyanın mahiyyəti və həcminə dair müxtəlif nöqteyi-nəzərlər formalaşmışdır. Dilçilərin frazeologiya məsələlərinə dair tədqiqatları o qədər fərqlidir ki, bu da "frazeologizm" terminin mahiyyətini, məqsədini, əsas məsələlərini anlamağa çətinlik törədir. Lakin bu istiqamətdə araşdırmalar hələ də davam etməkdədir.

Ədəbiyyat

1. Bréal M. Essai de sémantique (Science des significations). Paris: Hachette,1-ère édition, 1897, 349 p. (1.2.)
2. Le Roux de Lincy. Le livre des proverbes français.Paris : Paulin, 1842, 345p.
3. Sechehaye A. Locutions et composés // Journal de psychologie normale et pathologique, t.18, 1921, p.654-675
4. Mejri S. Le figement lexical. Descriptions linguistiques et restructuration sémantique. Tunis: Publications de la Faculté des lettres de la Manouba, 1997, 632 p.
5. Rey A. Chantreau S. Dictionnaire d'expressions et locutions. Paris: Le Robert : 2006, 1086p.
6. Hausmann F.J. Tout est idiomatique dans les langues // La locution entre langue et usages. Paris: Fontenay Saint-Cloud, ENS Editions, 1977, p.277-290;

History of the study of phraseology in French linguistics

Summary

Despite the fact that up to the present time there has been a great deal of work on phraseological problems, different points of view on the essence and volume of phraseology have been formed in linguistics and especially in French linguistics. Linguists' researches on phraseological problems are so different that it is difficult to understand the essence, purpose, main issues of the term "phraseologism". However, the researches in this direction are still continuing.

История изучения фразеологии во французском языкознании

Резюме

Несмотря на то, что до настоящего времени была проведена большая работа по фразеологическим проблемам, в лингвистике и, особенно во французской лингвистике сложились разные точки зрения на сущность и объем фразеологии. Исследования лингвистов по фразеологическим проблемам настолько различны, что трудно понять суть, цель, основные проблемы термина «фразеологизм». Однако исследования в этом направлении все еще продолжаются.

DOI: 10.36719/2020/REK/01/20-24

Arzu Vaqif qızı Əliyeva
AMEA Folklor İnstitutu
aliyeva92a@gmail.com

"KOROĞLU" EPOSUNDA İŞTİRAK EDƏN NİGAR OBRAZINDA TƏCƏSSÜM OLUNAN "İDEAL HƏYAT YOLDAŞI" TİPİNİN PSİXOSOSİAL SEMANTİKASI

Açar sözlər: *Nigar, davranış kompleksi, ideal həyat yoldaşı, qadınlıq konsepsiyası, davranış yanaşması*
Key words: *Nigar, behavioral complex, ideal spouse, concept of femininity, behavioral approach*
Ключевые слова: *Нигар, поведенческий комплекс, идеальный супруг, концепция женственности, поведенческий подход*

Giriş

Qadın və qadınlıqla bağlı araşdırmaları istər ictimai, istərsə də hümanitar sahədə əsas diqqət çəkən tədqiqatlardan hesab edə bilərik. Mövzunun aktuallığını gündəmə gətirmək üçün qadının cəmiyyətdəki psixososail təhlil istiqamətini Nigar obrazı vasitəsilə təqdim etmək əsas məqsədlərimizdən biridir. Nigar xanım eposda mərkəzi yer tutan və qəhrəmanlar arasında baş verən qarşıdurmalarda ictimai normanın qorunması üçün çalışan əsas obrazlardan biridir. Deyə bilərik ki, Nigar xanım şifahi və yazılı ədəbiyyat nümunələrdə iştirak edən digər müsbətyönlü qadın obrazları ilə müştərək məziyyətlərə sahibdir. Bu onun əxlaqi-etik davranışlarında, ideal həyat yoldaşı kimi təcəssüm etdirdiyi və ədalət naminə mübarizə apardığı hadisələrdə əks olunur. O, Koroğluya sadiq həyat yoldaşı olmuş, sinfi fərqlərin aradan götürüldüyü Çənlibeli özünə məs-

kən tutmuş və mübarizəsini bu uğurda sərgiləmişdir. Qeyd etmək olar ki, "Koroğlu" eposunun tobol-tatar versiyasında da Koroğlunun həyat yoldaşı Nigar xanımdır (Xəlilov, 1996:166). Nigar xanım özündən öncə və öz dövrünün yaradıcılıq nümunələrində təsvir olunan "alp qadın" tipindən bir qədər uzaq, Metin Ekicinin adlandırdığı "saraylı qadın" tipinə mənsub olmuşdur. Lakin sonralar Nigarın Koroğlunun cəmiyyətin ictimai məqsədləri uğrunda apardığı mübarizəyə qoşulması, öz ailəsi və məskən tutduğu Çənlibel üçün göstərdiyi şücaət onu "saraylı qadın tipi"ndən uzaqlaşdıraraq "alp qadın tipi"nə yaxınlaşdırmışdır.

Nigar obrazı ilə ilk dəfə "Koroğlunun İstanbul səfəri"qolunda tanış oluruq. Adı bütün aləmə yayılan Koroğlunun həsrətini çəkən, ona görməzə-bilməzə aşiq olan bəy qızlarından biri də İstanbul xotkarının qızı Nigar xanım idi. Nigar ilk dəfə Koroğluya Çənlibel igidlərindən olan Bəlli Əhməd vasitəsilə xəbər göndərir. "Koroğlu, mən İstanbul xotkarının qızı Nigar xanımam. Əyər igidsənsə, gəl məni apar (Koroğlu, 2005: 67).

Qadının sevgi hissindən doğan mədəni cəsarətinə Çənlibelə gələn xanımlar sırasında ilk dəfə Nigar obrazında rast gəlirik. Nigar Koroğlunu heç vaxt görmədiyinə, sadəcə ününü eşitdiyinə görə onunla qarşılaşanda Koroğlunu tanımır. Koroğlu özünü nişan verdikdən sonra Nigar onda Bəlli Əhmədə verdiyi öz bazubəndini tanıyır və onu qaçırmaq istəyən Koroğluya deyir: "İgidliyindən dəm vurma. Zorla iş olmaz. Yaxşısı budur ki, camaat şübhələnməmiş bu əba-qəbanı geyib burdan çıx get. Sabah keçər, o birisi gün mən nar bağında gəzməyə çıxacağam. Qaçırda bilsən, məni oradan götürüb qaçırdarsan" (Koroğlu, 2005:75).

Nigarda təcəssüm olunan sevgi ötəri mahiyyət kəsb etmir və onun Koroğlu ilə qurmaq istədiyi ailənin əsas zəminini təşkil edir. Yunqa görə, şəxsiyyətin əsas struktur vahidlərindən olan şəxsi şüursuzluğun komponentlərindən bir də emosional fikirlər, yəni hiss və təəssüratlardır. Nigarın özündə fərqinə vardığı emosional düşüncə müqabilində, o, Koroğlu ilə qaçmaq qərarına gəlir. Nigar Koroğlu ilə birlikdə getməyin hər ikisi üçün olduqca təhlükəli və ölümlə nəticələnə biləcək qərar olduğunu bilirdi. Qaçdıqdan sonra atası və qardaşının qoşunun gəldiyini görəndə Nigar Koroğluya məsləhət verir ki, "Koroğlu, əzəl məni götürüb qaçmayaydın. İndi ki, aparırsan qayıtma, sür apar get. Atamın qoşunu çoxdu, sən təksən. Onlarla bacarmazsan, dava eləmə" (Koroğlu, 2005:79).

Biz burada Nigarda olan psixi düşüncənin tələtüm, qorxu və qorxusuzluq hisləri ilə əhatə olunduğunun şahidi oluruq. Nigar baş verəcək hadisələrdən və gələcək aqibətlərindən narahat idi, lakin verdiyi qərardan qətiyyən peşman deyildi. O, hələ də Koroğlu ilə birgə quracağı ailənin arzusunda idi. Nigarla bağlı ilk qolda onun bu qətiyyəti və qərarlılığından biz onun Koroğluya ideal həyat yoldaşı olacağı qənaətinə gələ bilirik.

"İdeal həyat yoldaşı" tipinin əsas mahiyyətlərindən biri öz həyat yoldaşını və ailə bütövlüyünü təhlukəli hadisələrdən qorumaqdır. İlk olaraq, Nigarda sərgilənən şəxsiyyət srukturlarından olan şəxsi şüursuzluğun hissi-emosional komponenti artıq onda şüurla idarə olunan davranış şəklində təzahür olunur. Bu hal Nigarda *"Koroğlunun Türkman səfəri"*qolunda Eyvazı gətirmək üçün yola çıxan Koroğluya verdiyi məsləhətdə nəzərə çarpır: "Ay Koroğlu, Təkə-Türkman kimi qorxulu, uzaq səfərə gedirsən, qoy dəlilərdən bir neçəsi yanında getsin, demək olmaz, birdən dava-zad olar, sənin üçün yalqız yaxşı keçməz" (Koroğlu, 2005:94).

"İdeal həyat yoldaşı" tipinin digər bir xüsusiyyəti qadında olan və doğruluğuna şübhə olmayan yolgöstərici fikirlərin mövcudluğudur. Nigarın səsləndirdiyi fikirlər yalızca Koroğlu və özü üçün yox, kollektivin arzu və istəklərinin nəzarə alınması şəklində təzahür edir. *Biz buna "Koroğlunun Rum səfəri"* qolunda Nigarın öz ərinə verdiyi məsləhətdə şahid oluruq. Belə ki, Rum paşasının qızı Məhbub xanımın Koroğluya gəlib onu da Çənlibelə aparması sifarişini eşidən Nigar xanım dillənir: "O ki, buraya gəlmək istəyir, gətirməmək namərdlik olar" (Koroğlu, 2005:143).

*"*İdeal həyat yoldaşı tipi"nin digər bir komponenti kimi qəbahəti dilə gətirərək həqiqəti müdafiə etmək xüsusiyyətlərini səciyyələndirə bilərik. *"Həmzənin Qıratı aparması"* qolunda Nigarı tamam fərqli məqamda görə bilirik. Nigar ideal həyat yoldaşı kimi, hər zaman Koroğluya arxa olmuş, ona məsləhətlər vermis, onun yanında olmuşdur. Lakin Həmzənin Qıratı qaçırmasında Koroğlunun özünün də ehtiyatı əldən verdiyi qənaətinə gələn Nigar bu səfər Koroğludan üz çevirir. Bu hal heç də Nigarı ideal həyat yoldaşı fonundan uzaqlaşdırmır, əksinə öz bəyinin səhvlərini demək, ona hadisənin mahiyyətini göstərməyə çalışmaq onu ideal həyat yoldaşı tipinə daha da yaxınlaşdırır.

Eyni zamanda Nigar Qıratın qaçırılmasında Koroğlunu günahkar görən dəlilər və Koroğlunun hərəkətindən inciyən Eyvazla Koroğlu arasında olan incikliyi aradan qaldırır, dəlilərlə onun arasındakı səmimiyyəti bərpa edir (Nəbiyev, 2006:505).

Nigar bir həyat yoldaşı kimi Koroğlunun səhvlərinin fərqinə varır və onları ardan qaldırmaq üçün çalışır. *"Pərzad xanımın Çənlibelə gəlməyi" qolunda* yenə Nigar xanımıın dilindən Koroğluya qarşı tutduğu iradın şahidi oluruq. Cəfər paşanın Zərgülaf adında tacirini talan edib, tacirin özünü də qana batıran Koroğluya Nigar xanım deyir: "Ay Koroğlu, özü türk olan, türkə bu divanı tutmaz, sən nə qansız adammıymışsan?" (Koroğlu, 2005:259).

"İdeal həyat yoldaşı tipi"nin əsas xüsusiyyətlərindən biri də çətin və dar məqamda yardım etmək, mənfi emosiyalardan uzaqlaşdırmaqdır. *"Koroğlunun Bayazid səfəri"qolunda* Nigar əsir düşən Eyvazın arxasınca

getməyə hazırlaşan, eyni zamanda ilk dəfə bu qədər qəmgin halda gördüyü Koroğluya və dəlilərə ürək-dirək verib onları səfər üçün hazırlayır. Nigar burada Koroğlunun əhval və davranışlarında əks olunan bariz boşluq və çarəsizliyin fərqinə varıb, onu ardan götürmək iqtidarına sahibdir.

Eyni zamanda Nigar Koroğlunun dar, qəmgin, qəzəbli anlarında ona məsləhət verməklə kifayətlənməyib onu nəvazişi ilə də sakitləşdirməyə çalışır. "Nigar gördü yox, Koroğlu özünü, sözünü bilmir, dərd onu elə alıb ki, dünya gözündə deyil. Yenə də irəli yeriyib qolunu onun boynuna saldı (Koroğlu, 2005:312).

"Koroğlunun Ballıca səfəri" qolunda Koroğlunun bütün ilxısı onunla ədavət aparıb, düşmənçilik edən Qara xanın torpaqlarına keçir. Bu haldan çox qəzəblənib şir kimi qızışan Koroğlunu sakitləşdirib ağıl vermək yenə də Nigarın öhdəsinə düşür: "Ay Koroğlu, hirslənəndə özündən çıxırsan. Acıqlanıb dodağını gəmirməkdən nə çıxar? Atları tapmaq lazımdı. İndi tədbirin nədi onu de" (Koroğlu, 2005:311). Biz burada Nigardakı "qadınlıq konsepsiyası"nın idraki yöndən nə qədər güclü əks olunduğunu görürük.

"Hasan paşanın Çənlibelə gəlməyi" qolunda Hasan paşanın məkrli niyyəti ilə üz-üzə qalan Koroğlunun əhvalını görən Nigar deyir: "Koroğlu, belə dayanmaqdan bir şey çıxmaz. Olan olub. İndi bir tədbir görmək lazımdı. De görək, nə eləyək. O, necə deyərlər, düşmən kəsib qapının ağzını" *(Koroğlu, 2005:355).*

Psixoanalizlə parallel adını çəkə biləcəyimiz "davranış yanaşması" konsepsiyası insan şüurunun xarakterdə əks olunan əsas amillərindən biridir. Nigarın çətin zamanlarda, dar məqamlarda Koroğluya göstərdiyi münasibət və davranış tərzi Nigarda təzahür edən "davranış yanaşması"nın müsbətyönlü təcəssümüdür.

"İdeal həyat yoldaşı" ailəni və onun tabeliyində olan bir topluluğu idarə edə və qarşıdurmanı aradan götürə bilməlidir. Nigarın ideal həyat yoldaşı kimi əsas cəhətlərindən biri çətin məqamlarda özünü itirməyib yönlədirmə və idarə etmə qabiliyyətinin sərgilənməsidir.

"Koroğluynan Ərəb Reyhan" qolunda Nigar xanım Ərzincandan gəlib Çənlibelin əhvalından agah olmaq istəyən Koroğluya deyir: "Aşıq Cununu Toqata göndərmişik ki, Hasan paşanın işlərindən bizi xəbərdar eləsin" (Koroğlu, 2005:189).

Nigar xanım qolun digər bir epizodunda isə əsir düşən Koroğlunun ardınca getmək istəyən dəliləri doğru bir şəkildə yönlədirir: "Bu saat Çənlibeli başsız qoymaq olmaz. Mən deyirəm belə eləyək. Dəli Həsən min dəli ilə öz yerində qalsın. Dəmirçioğlu da min dəli ilə öz yerində. Qalan dəliləri Eyvaz götürüb Koroğlunun dalınca getsin" (Koroğlu, 2005:200).

Nigarın ağıllı və himayə etmək qabiliyyətinə agah olan Koroğlu "*Pərzad xanımın Çənlibelə gəlməyi" qolunda* Pərzadın arxasınca gedərkən bütün Çənlibeli Nigara tapşıraraq deyir: "Nigar xanım, mən gələnəcən Dəmirçioğlu, Dəli Həsən burda başçı olar, bu mənnən gələn iyid də sərkərdə olar" (Koroğlu, 2005:265).

Bu epizodalarda Koroğlun xanımında olan müsbətyönlü düşüncə tərzi və güclü qadın obrazının mövcudluğunu bilərək özü olmayanda idarəçiliyi Nigar xanıma tapşırdığının şahidi oluruq. Nigarın xakterində təcəssüm olunan idarə və yönləndirmə mexanizmində Yunqun "animus arxetipi"nin izlərini görə bilərik. Bu arxetipdə insanın androgin təbiəti öz əksini tapır (5). Animus qadında olan daxili kişi obrazıdır. Qəbul etməliyik ki, fenomenal cəmiyyətdə idarəçilik və yönləndirmə aparatı kişilərə həvalə edilmişdir. Deyə bilərik ki, Nigarda təzahür edən bu xüsusiyyətlər ondakı daxili kişi obrazının yəni "animus"un mövcudluğundan irəli gəlirdi.

Qısqanclığın mənfi emosional yükü ilə mübarizə aparmağı "ideal həyat yoldaşı" tipinin əsas səciyyəvi xüsusiyyətlərindən saya bilərik. "Koroğlu" eposunda Koroğlu obrazının Nigar xanımdan əlavə Bilqeys, Aypara, Möminə adlı xanımları da olmuş, Bilqeysdən Ağcaquzu, Ayparadan Səməd, Möminədən Həsən (Kürdoğlu) adlı övladları dünyaya gəlmişdir.

"Koroğlunun Dərbənd səfəri" qolunda Ərəb paşanın qızı Möminənin ardınca gedib onunla nigaha girən Koroğlu bir müddət Çənlibeldən, dəlilərdən və Nigardan uzaq düşür. Sonra isə Koroğlu öz obası üçün darıxıb geri qayıdır. Bu zaman Koroğlu və Nigar qarşılaşanda Nigar ona deyir: "Ay Koroğlu, Möminəni niyə gətirmədin?" (Koroğlu, 2005:318).

Biz bu epizodda "qadınlıq konsepsiyası" ilə bağlı anlaşılamaz olan bir məsələnin canlandırıldığını görürük. Bu isə Nigar və Möminə arasında olan əlaqə və Nigarın Möminənəyə olan münasibətidir. Qolun digər bir epizodunda isə artıq Nigarda qarşı tərəfə, yəni Möminəyə duyduğu qısqanclıq hissinin təzahürü vardır. *"Zərnişan xanımın Çənlibelə gəlməyi" qolunda*. Həsən və Eyvaz Nigar və Koroğludan razılıq alıb Möminə xanımın ardınca Dərbəndə gedib onu gətirmişdilər. Möminə xanım Çənlibelə gələndə digər qadınlar hətta Nigar xanım belə onun gözəlliyinə baxıb həsəd aparmışdılar. "Cəmi dəlilərin anası, Nigar xanım belə Möminə xanımın gözəlliyindən pozuldu. Ala gözləri ixtiyarsız piyalə kimi doldu" (Koroğlu, 2005:330). Qısqanclıq zəminində baş verən bir hadisə də eposun özbək versiyasında Misqal pəri ilə Yunus pəri arasında baş verir. Eposun Özbək versiyasının "Qıratın oğurlanması" qolunda Qıratı Goroğlunun arvadı Misqal pəri oğurlayır. O, Yunus pəriyə Goroğlunu qısqanır. Misqal pəri bu arzusunu həyata keçirməkdə Avazdan istifadə edir. O, Qıratı oğurlayıb oğluna verir ki, Ruma gedib Goroğlunun əleyhinə orada qoşun gətirsin" (Nəbiyev, 2006: 506).

Nigar və Misqal pəri obrazlarını müqayisəli şəkildə təhlil etsək görərik ki, Nigar xanımda olan qısqaclı passiv, Misqal pəridəki qısqanclıq isə aktiv və mənfii xarakterdədir. Nigarın qısqanclığı obraza bədbin əhval-ruhiyyə aşılayarkən, Misqal pərinin qısqanclığı onu yanlış yola yönləndirir.

"İdeal həyat yoldaşı tipi"nin ən seçilən özəlliklərindən biri tədbirli davranaraq ehtiyatı əldən verməməkdir. Eposun ən sonuncu qolu olan *"Koroğlunun qocalığı"nda* bütün dəlilərin Koroğludan uzaqlaşmasının və onun müharibələrdən yorulmasının şahidi oluruq. Qolda təsvir edildiyi kimi, Nigar xanım öz igidini tərk etməmiş onunla birgə qalmışdı. "Koroğlu qocalmışdı. Dəlilər başından dağılışmışdı. Davadan, vuruşmadan yorulmuşdu. Yanında bircə vəfalı alagöz Nigar qalmışdı" (Koroğlu, 2005: 446).

Qolda Nigarın müxtəlif məqamlarda gördüyü tədbirlərin və ehtiyatı əldən verməməyinin şahidi oluruq. Bunlardan biri də, Koroğlunun öz qocalığını qəbul edib, Misri qılıncdan imtina etdiyi vaxtda Nigarın həmin Misri qılıncı ehtiyat üçün gizlətməsi olur. Nigarın bu tədbiri sayəsində Koroğlu Xotkarın ordusuna və hiyləsinə qalib gəlib Nigarı ondan almaq istəyənlərin əlindən xilas edə bilir. Nigar qadın instiktinin gücü vasitəsilə gələcək aqibətlərini duyaraq tədbiri əldən vermir. Bu obrazın düşüncə və davranışlarında əks olunan şüuraltı hissiyyat və analitik şüurun birgə fəaliyyətlərinin əsas göstəricisidir. Nigarın şüurunda təzahür olunan ilkin ideya onun ideal həyat yoldaşı kimi qoruyucu mahiyyətinin mərkəzi qüvvəsini təşkil edir. Obrazın bu qoruyucu mahiyyəti birbaşa Koroğlu ilə əlaqəli şəkildə təcəssüm olunur. Bu qənaətimizi Azad Nəbiyevin "Nigar qəhrəmanın yaxın köməkçisi, mübariz silahdaşıdır"(2006:500) fikri ilə əlaqələndirə bilərik.

Nəticə

Metin Ekici türksözlü dastanlarda əsas diqqət çəkən cəhətin qadın və qadın-kişi arasında olan ailə, ana, sevgili kimi münasibətlərin olduğu qənaətinə gəlir (2011:10). Bu qənaətdən yola çıxaraq deyə bilərik ki, Nigar xanımın Koroğluya olan münasibəti fenomenal ailə quruluşuna tamamilə uyğundur. Azad Nəbiyev qeyd etmişdir ki, Nigar Koroğlunu bütün ziddiyyətlərdən azad qəhrəman kimi görmək istəyir (2006:520). Bu istəyinin təməlini isə Nigar obrazında formalaşan "ideal həyat yoldaşı" tipini səciyyələndirən fərqləndirici xüsusiyyət təşkil edir. Nigar eposdsakı digər qadın obrazları ilə müqayisədə daha aktiv fonda təqdim edilmişdir. Metin Ekici Nigar obrazını Çənlibelin "tək hakim qadın"ı kimi təsvir edir (2011:11). Eposda Nigar obrazı ilə bağlı olan hadisələri sistemləşdirdiyimiz zaman onu ideal qadın və ideal həyat yoldaşı fonunda görürük. Onun həyat yoldaşını və ailəsini qorumaq cəhdləri, xarakterində əks olunan yolgöstərici mahiyyəti, çətin və dar məqamda Koroğluya dəstək olması, həqiqətləri gizlətməyib, qəbahətləri dilə gətirmək kimi müsbət xüsusiyyətləri bizə bu qənaətə gəlməyə əsas verir.

Ədəbiyyat

1. Ekici Metin. Anadolu sahası Köroğlu anlatımlarında kadın tipleri, Milli Folklor (44 say), 2011, 10-17 səh.
2. Xəlilov Pənah. Türk xalqlarının və şərqi slavyabların ədəbiyyatı (I kitab), Maarif nəşriyyatı, Bakı, 1994, 430 səh.
3. Koroğlu. Mətni hazırlayıb tərtib edənlər: İsrafil Abbaslı, Bəhlul Abdulla, Lider nəşriyyatı, Bakı, 2005, 552 səh.
4. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı (II kitab), Elm nəşriyyatı, Bakı, 2006, 647 səh.
5. https://www.yumpu.com/xx/document/view/36926348/kqyunqun-analitik-psixologiyasanda-cinsin-teyin-olunmasa (Yunqun analitik psixologiyasında cinsin təyin olunması)

Psycho-social semantics of the "ideal spouse" type embodied in the nigar image in the "koroglu" epic

Summary

According to the structure and composition of the "Koroghlu" epic, the colorful female characters and the different cartoons of their characters are of particular interest in research for literary and psychological analysis. Nigar khanum, who is the first pole of the epic system of images, plays a special role in the systematization of the ongoing events and the realization of the lofty ideals. At the same time, the common Turkish context of Turkish ladies is evident in his behavior. The main purpose of the study is to draw on the image of the "ideal spouse" in Nigar's image from a psychosocial field. The image also shows traces of the "alpine woman" and the "palace woman" types. As a result of the study, the psychoanalytic factors that were reflected in the image were analyzed when the psycho-social nature of the ideal ideal spouse was analyzed by Nigar. Of particular concern was the relationship of the main features of the concept of "femininity" with the psychoanalytic indicators embodied in the image.

Психосоциальная семантика типа "идеальный супруг", воплощенная в образе Нигар в эпосе "Кероглу"

Резюме

В соответствии со структурой и составом эпопеи «Кероглу», красочные женские персонажи и различные мультфильмы их персонажей представляют особый интерес в исследованиях литератур-

ного и психологического анализа. Нигяр ханум, являющийся первым полюсом эпической системы образов, играет особую роль в систематизации происходящих событий и реализации высоких идеалов. В то же время общий турецкий контекст турецких дам очевиден в его поведении. Основная цель исследования – нарисовать изображение «идеального супруга» в образе Нигяр из психосоциального поля. На изображении присутствуют следы как «альпийских женщин», так и «дворцовых женщин». В результате исследования психоаналитические факторы, которые были отражены в изображении, были проанализированы при анализе психосоциальной природы типа «идеального супруга», созданного Нигяр. Особую озабоченность вызывали взаимосвязи основных черт понятия «женственность» с психоаналитическими показателями, воплощенными в образе.

DOI: 10.36719/2020/REK/01/24-27

Çinarə Vaqif qızı Abdullayeva
AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
C.V.ABDULLAYEV@mail.ru

DİL SİSTEMİNDƏ KAUZATİVLİYİN YERİ

Açar sözlər: *kauzativlik, səbəb, danışan, gizli kateqoriya, təsirli feil*
Key words: *causativity, cause, speaker, hidden category, transitive verb*
Ключевые слова: *каузативность, причина, говорящий, скрытая категория, переходный глагол*

"İngiliscə-Azərbaycanca lüğət"də *causative* və *causativity* sözlərinin aşağıdakı mənaları verilir*: 1. Səbəbiyyət. 2. Səbəblik. 3. Hadisələr arasında səbəb əlaqəsi* [5, s.21]. Deməli, kauzativlik dedikdə ilk növbədə səbəb-nəticə əlaqəsi nəzərdə tutulur. Səbəb-nəticə kateqoriyası və onun mahiyyəti haqqında söylənən fikirlər filosofların, məntiqşünasların, həm də dilçilərin ta qədim dövrdən başlayaraq diqqətini cəlb etmiş və bu gün də cəlb etməkdədir. Bu sahəyə dair xüsusi tədqiqat aparan M.Bunqe qeyd edir ki, səbəbiyyət kateqoriyası qarşılıqlı hərəkətin və yaxud qarşılıqlı asılılığın xüsusi bir növü kimi çıxış edir. Səbəb-nəticə əlaqəsi fəlsəfi kateqoriya kimi biri digərini tamamlayır. İnsan dili real varlıqları əks etdirdiyi üçün səbəb əlaqəsi zaman əlaqəsi kimi cümlə sintaksisində mühüm rol oynayır [9, s.43].

Dilçilik ədəbiyyatında bəzən *kauzallıq* və *kauzativlik* terminlərinin işlənməsində anlaşılmazlıq özünü göstərir. Məhz buna görə də həmin terminlərin mahiyyətinin açıqlanmasına ehtiyac hiss olunur. Biz öz tədqiqatımızda Y.V.Baklaqovanın bu haqda söylədiyi fikrə əsaslanırıq. O, qeyd edir ki, kauzallıq daha geniş mənaları özündə birləşdirir: ilkin şərait, qabaqcadan müəyyən olma, nəticə, stimul, məqsəd və s. Kauzallıq sintaktik vasitələrlə (bağlayıcı, bağlayıcı vasitələr və onların ekvivalentləri) ifadə olunan səbəb asılılığını ifadə edir. Kauzallıqdan fərqli olaraq kauzativlik subyektlə obyekt arasında mövcud olan səbəb-nəticə əlaqəsini özündə əks etdirən leksik-qrammatik kateqoriyadır [8, s.3].

Keçən əsrin 60-70-ci illərindən başlayaraq dilçilikdə danışan-dinləyən münasibətlərini və ünsiyyətin formalaşmasında onların rolunu öyrənən yeni istiqamətlər meydana gəlir: *a) praqmatik linqvistika; b) koqnitiv dilçilik.*

Praqmatika hər şeydən əvvəl nitq prosesində danışan-dinləyən münasibətlərinin müxtəlif aspektlərini öyrənən bir sahədir.

Müasir dövrdə dəbdə olan sahələrdən biri də koqnitiv dilçilikdir. F.Y.Veysəlliyə görə bu istiqamətin əsas qayəsi koqnisiya sistemində dilin statusunu müəyyənləşdirməkdən ibarətdir. Koqnisiyaya ümumilikdə insan beynində informasiyaların qəbulu, saxlanması, yenidən istifadəsi və ötürülməsinin bütün prosesləri aiddir. Bu proseslər bilavasitə şüurun fonunda baş verir [3, s.21]. Koqnitiv tədqiqatın ana ideyası ondan ibarətdir ki, yaddaşda saxlanılan koqnitiv strukturlar ətraf aləmi mental əks etdirirlər. Koqnitiv strukturun ən kiçiyi konseptlərdir. Konsept dünya haqqında bilikləri yadda saxlamaq funksiyasını yerinə yetirir [3, s.31]. Ə.Ə.Abdullayevə görə konseptlər insanın gerçəkliyi dərk etməsi prosesində yaranır və ətraf aləmlə bağlı məlumatı əks etdirir [1, s.191]. Konseptlərin şüurda əmələ gəlməsi prosesində dil bilavasitə iştirak edir. Şüurun ətraf mühitlə bağlılığı da dillə həyata keçirilir. Dil bu zaman informasiya mübadiləsini gerçəkləşdirir. Beləliklə, koqnitiv dilçilik şüur və təfəkkür məsələlərinin dəqiqləşməsində mühüm rol oynayan və maraqlı görünən bir elm sahəsidir [3, s.34-35].

Kauzativlik, səbəb-nəticə dilçilərdən daha çox məntiqşünasların və filosofların diqqətini cəlb etmişdir. Qeyd edilir ki, səbəbsiz heç bir şey mövcud ola bilməz və səbəbsiz heç nəyin mövcudluğu dayandırıla bilməz. Baş verən hər bir şey hər hansı bir səbəb nəticəsində reallaşır. Başlanğıcı olan hər bir şeyin səbəbi olmalıdır [9, s.16].

Hələ vaxtı ilə Ş.Balli səbəbiyyət əlaqəsindən danışarkən həmin əlaqənin bilavasitə təsirli feillərlə əlaqədar olduğunu qeyd edir. O, fransız dili materialından çıxış edərək qeyd edir ki, səbəbiyyətin sintaktik ifadəsi uzlaşma və idarə əlaqəsi zəmnində baş verir. Müəyyən səbəbdən asılı olaraq aşağıdakı nəticələr hasil olunur:

*a) hər hansı bir səbəb nəticəsində **A B**-yə çevrilir; b) hər hansı bir səbəb nəticəsində **A B**-də olur və yaxud əksinə **B A**-da; c) külək yarpaqları düşməyə məcbur edir; d) qar dağı ağardır; e) Pavel stulu stola tərəf itələyir.*

Ş.Balli belə qənaətə gəlir ki, bu cür konstruksiyaların işlənərək səbəbiyyət əlaqəsi ifadə etməsi dildə gizli priyomların mövcud olması fikrini söyləməyə əsas verir. Gizli priyomların sayı kifayət qədər çox və rəngarəngdir. Səbəb-nəticə əlaqəsi zəmnində iki mürəkkəb məfhumun bu və ya digər şəkildə bir-birinə qarşılıqlı təsiri baş verir [7, s.125]. Ş.Balli kauzativliyin ifadə olunmasında ən çox işlənən sintaktik modelləri aşağıdakı kimi qruplaşdırır:

1. İki feilin analitik formasının yanaşı işlənməsi nəticəsində kauzativlik hadisəsi baş verir. Məsələn, *Pavel Petrovu işləməyə məcbur edir. - Pavel dərziyə paltar tikməyi sifariş edir.*

2. Ş.Balli kauzativliyin bilavasitə kauzativ əlaqə ilə baş verməsi hallarını da qeyd edir: yəni səbəbiyyət nəticəsində bir keyfiyyətin, formanın başqasına keçməsi baş verir. Məsələn, *Pavel öz valideynlərini xoşbəxt edir. – Pavel makes his parents happy.*

3. Kauzativliyin ifadə olunmasında bilavasitə kauzativ feillər mühüm rol oynayır. Həmin feillər eyni zamanda iki funksiyanı yerinə yetirir: a) həm subyektlə obyekt arasında əlaqə yarıdır: b) həm də təsir edərək onun keyfiyyətini və formasını dəyişə bilir. Ş.Balli həmin qəbildən olan feillərə aşağıdakıları daxil edir: *1) sevindirmək – şən olmağa məcbur etmək; 2) ağartmaq – ağ olmağa məcbur etmək; 3) rəngləmək – nəyinsə rəngini dəyişmək* [7, s.125].

Eyni zamanda dağıtmaq, öldürmək, məhv etmək, bişirmək və s. bu kimi feillər də kauzativ feillər qrupuna daxil edilir.

Kauzativlik haqqında L.Tenyerin söylədiyi fikirlər digər dilçilərin fikirlərindən əsaslı surətdə fərqlənir. O, feilin kauzativliyini bilavasitə feilin valentliyi ilə əlaqələndirir. Başqa sözlə desək, o kauzativliyin aktantlardan, yəni feilin birləşdiyi cümlə üzvlərinin sayından asılı olduğunu qeyd edir. Məsələyə bu baxımdan yanaşaraq o, aktantların sayına görə feilləri aşağıdakı kimi qruplaşdırır [3].

1. Biraktantlı feillər: *düşmək, ölmək, getmək* və s. *Top düşdü. Uşaq getdi. Düşmən öldü.* Nümunələrdən göründüyü kimi L.Tenyer təsirsiz feil sözünü işlətməsə də o, biraktantlı feil dedikdə, şübhəsiz, təsirsiz feil nəzərdə tutulur.

2. İkiaktantlı feillər: yıxmaq, öldürmək, görmək və s. İkiaktantlı feil dedikdə o təsirli feillər nəzərdə tutulur ki, bir vasitəsiz tamamlıq qəbul edir. O*, düşməni öldürdü. O, dostunu gördü.*

3. Üçaktantlı feillər: *göndərmək, göstərmək, demək, vermək* və s. Bu qəbildən olan təsirli feillər eyni zamanda iki tamamlıq – həm vasitəsiz, həm də vasitəli tamamlıq qəbul edə bilir. Məsələn;

Tom sent Mary a book. - Tom Meriyə bir kitab göndərdi.

Tom sent Mary a picture. - Tom Meriyə bir şəkil göndərdi.

L.Tenyer belə qənaətə gəlir ki, ilkin aktantın sayının artması kauzativ feilin yaranmasına səbəb olur. Məsələn, *yıxılmaq* – qeyri-kauzativ, *yıxmaq* – kauzativ; *ölmək* – qeyri-kauzatvi, *öldürmək* – kauzativ [3, s.273]

Üçaktantlı feillərdə kauzativlik əsasən aşağıdakı model əsasında formalaşır. Məsələn, *Polis oğrunu yaşadığı ünvanı söyləməyə məcbur etdi.* Qeyd etmək lazımdır ki, göstərilən bu model universal hal kimi bir neçə dildə mövcuddur.

Üçaktantlı feillərin kauzativliyi aşağıdakı modeldə də baş verə bilir. Məsələn, *Şarl kitabı Alfredə verir.*

Dördaktantlı feillərin kauzativliyi belə düzəlir. Məsələn, *Daniyel Şarlı məcbur edir ki, kitabı Alfredə versin.*

Nəzərə almaq lazımdır ki, L.Tenyerin verdiyi əksər nümunələr fransız dilinin qrammatik quruluşuna uyğun olaraq təqdim edilir. Bütövlükdə L.Tenyer fransız dili materialından çıxış edərək kauzativliyə və onun mahiyyətinə dair dəyərli fikirlər söyləmişdir. Kauzativlikdən danışarkən N.D.Arutyunovanın söylədiyi fikirlər üzərində də dayanmaq yerinə düşərdi. N.D.Arutyunova kauzativliyin mahiyyətinin açılmasını cümlə üzvlərinin qarşılıqlı əlaqəsini ön plana çəkir. O, qeyd edir ki, səbəbiyyət nəticəsində şəxs real kauzativ situasiyasını yaradır və beləliklə, kauzativlik sintaktik birləşmə nəticəsində reallaşır [6, s.167]. N.D.Arutyunova rus dili materialı əsasında gizli kauzativlik və onun mahiyyəti haqqında da bəzi məsələlər haqqında dəyərli məlumat verir. Gizli kauzativlikdən danışarkən N.D.Arutyunova onu iki qrupa bölür*: a) iki agentli; b) bir agentli.* İki agentli kauzativlik iki hadisəni özündə birləşdirir: *Мать накормила ребенка. - Ana uşağı*

yedizdirdi. Bir tərəfdən yedizdirmək, qida vermək mənasında, digər tərəfdən qidanı qəbul etmək mənasında işlənir. Belə vəziyyətdə iki agentli kauzativlik iki hərəkəti yerinə yetirən iki situasiyanı əks etdirir: *a) yeməyin verilməsi; b) yeməyin qəbul edilməsi.* Bir agentli kauzativlikdə isə hərəkətin baş verməsi və onun nəticəsi nəzərdə tutulur. Məsələn, *Я ломал прут. - Mən çubuğu sındırdım* [6, s.170]. Eyni zamanda N.D.Arutyunova qeyd edir ki, bir sıra təsirli feillərdən sonra da bir agentli kauzativlik baş verə bilir. *Он сшил себе новый костюм. - O, özünə yeni kostyum tikdi.* Yekun olaraq o belə qənaətə gəlir ki, gizli kauzativliyin ifadə olunmasında feilin leksik mənası mühüm rol oynayır, burada sintaktik relevantlıq baş vermir [6, s.171].

Məlum olduğu kimi kauzativlik konkret zaman və məkan daxilində baş verir. Bu baxımdan B.Toşoviçin söylədiyi fikri kauzativliyin mahiyyətinin açılmasında mühüm rol oynayır. B.Toşoviç qeyd edir ki, məkanda üç proses mövcuddur [5, s.163]:

a) hərəkət – məkanda istənilən aktiv proses; b) yerdəyişmə – başqa bir yerə getmə. Bu nəqliyyat vasitəsilə də baş verə bilər; c) vəziyyət dəyişmə – burada müxtəlif hallar baş verə bilər: ümumi, vertikal, əyilmə, dayanan, uzanan, oturan, asılan, dairəvi, aşağı, yuxarı, geri, sağa, sola və s. Hərəkət kauzativliyin elə bir növüdür ki, burada kimsə hər hansı bir əşyanı, onun bir hissəsini və yaxud başqa bir əşyanı, həmçinin onun bir hissəsinin müəyyən məkandan başqa məkana getməsini məcbur edir. Məsələn,

1. The man made the children leave the garden. - Kişi uşaqları bağı tərk etməyə məcbur etdi.

2. The boy sent his parents a letter. - Oğlan valideynlərinə məktub göndərdi.

Yerdəyişmə kauzativliyində kimsə hər hansı bir əşyanı, onun bir hissəsini və yaxud digər əşyanı, həmçinin onun bir hissəsinin müəyyən bir məkanda yerləşməsinə təsir edir. Məsələn,

1. The pupil put the books into the bag. - Şagird kitabları çantanın ibinə qoydu.

2. He moved the table to the corner. - O, stolu küncə qoydu.

Vəziyyətin dəyişməsi kauzativliyində iki cəhət özünü göstərir:

a) Hər hansı bir əşya və yaxud onun bir hissəsi öz vəziyyətini dəyişməyə təsir edir. Məsələn,

1. He slept. - O, yatdı. He lay. - O, uzandı.

2. He raised his hand. - O, əlini qaldırdı.

b) Hər hansı bir əşya bu və ya digər əşyaya və yaxud onun hissəsinə təsir edərək onun vəziyyətini dəyişir. Məsələn,

1. The wind broke the tree. - Külək ağacı sındırdı.

2. The wind broke the branches of the tree. - Külək ağacın budaqlarını sındırdı.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

Kauzallıq və kauzativlik mahiyyətinə görə bir-birindən fərqlənsə də, onlar qarşılıqlı əlaqədə olan binarlıq təşkil edir. Kauzal situasiyanı kauzator və kauzat təşkil edir. Kauzator təhrik edən, kauzat isə təhrikə məruz qalaraq bu və ya digər şəkildə öz formasını dəyişən vahid kimi çıxış edir. Dil faktlarının təhlili göstərir ki, qrammatik quruluşundan asılı olmayaraq kauzativlik universal kateqoriya kimi əksər dillərə xasdır. Nəinki ayrı-ayrı dillərdə, həttə ayrıca götürülmüş bir dildə belə kauzativlik müxtəlif ifadə vasitələrinə malikdir.

Ədəbiyyat

1. Abdullayev Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı, 2011.
2. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: 2015.
3. English-Azerbaijani Dictionary. Bakı: Qismət, 2003.
4. Арутюнова Н.Д. Предложение и его смысл. Логико-семантические проблемы. Москва: Наука, 1976.
5. Балли Ш. Общая лингвистика и вопросы французского языка. Москва, 1955.
6. Баклагова У.В. К вопросу о каузальности и каузативности в системе языка // https://cyberleninka.ru/article/n/k-voprosu-o-kauzalnosti-i-kauzativnosti-v-sisteme-yazyka
7. Бунге М. Причинность, место принципа причинности в современной науке. Перевод с английского языка. Изд-во иностранной литературы. М., 1962.
8. Теньер Л. Основы структурного синтаксиса. М.: Прогресс, 1988.
9. Тошович Б. Глаголы каузации положения в пространстве: В кн.: Логический анализ языка: Языки пространств. М., 2000.
10. Чейф У.Л. Значение и структура языка. М.: Прогресс, 1975.

The place of causativity in the system of language

Summary

The author shares the view point according to which causality and causative differ from each other owing to their meanings. Causality is mainly expressed by conjunctions, conjunctive phrases and their equivalents. Unlike causality causative forms lexico-grammatical category expressing causative-consecutive connections

between subject and object. The category of causative embraces some levels of a language: *morphological, word-building, syntactic.* Ways of expressing causative depends on the structure of the given language.

Место каузативности в системе языка

Резюме

Автор разделяет ту точку зрения, согласно которой каузальность и каузативность по содержанию отличаются друг от друга. Каузальность в основном выражается союзами, союзными сочетаниями или их эквивалентами. Каузативность, в отличие от каузальности, является лексико-грамматической категорией, отражающей причино-следственные отношения между субъектом и объектом. Категория каузативности охватывает несколько уровней языка: *морфологический, словообразовательный, синтаксический.* Способы выражения каузативности зависит от структуры данного языка.

DOI: 10.36719/2020/REK/01/27-29

Aygül Mədət qızı Çobanova
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
acobanova1974@gmail.com

ZƏLİMXAN YAQUB YARADICILIĞINDA SAZ, AŞIQ SƏNƏTİ

Açar sözlər: *aşıq,saz, dastan,ana dili, sənətkarlıq,milli kolorit*
Key words: *ashig, saz, saga, mother tongue, craft, national coloring*
Ключевые слова: *ашуг, саз, сага, родной язык, ремесло, национальный колорит*

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.
Z.Yaqub

Giriş

Ədəbiyyatımıza Zəlimxan Yaqub türk mifik təfəkküründən, folklor və şifahi xalq yaradıcılığından, yazılı ədəbiyyat ənənələrindən, aşıq şeirindən gəlir. Ənənəvi poetik ifadə tərzinə uyğun olaraq şairin söz və ifadələri, beytləri və bəndləri sadə, saf ana dilindədir. O, xalqımızın tarixini, etnoqrafiyasını yaxşı bilir. Milli poetik ənənələri mükəmməl mənibsəyib. Odur ki, lirik şeirlərində və poemalarında poeziya günəşini yerə endirir, xalqımızın gündəlik qayğılarına, məişətinə işıq salmağa çalışır. "Ümumən Zəlimxanın şeiri xalq yaradıcılığına, sazın tellərindən süzülüb gələn aşıq poeziyasına söykəndiyi üçün onun dili kələ-kötürlükdən xali, axıcı və şəffafdır. Bu şeirdə dirəniş və gücənmə yoxdur. Qafiyyələr sərrast, obrazlar aydın və durudur. Onun şeir köhləni ilham və qanadlar ilə uçduğuna görə oxucunu öz arxasınca son mənzilə rahat çatdırır. Elə buna görə də sətirlərdə yürüdülən fikir və duyğular bulanıq arx suyuna deyil,büllur dağ çeşməsinə bənzəyir.

Z.Yaqubun yaradıcılığında çox mühüm yer tutan bir qol da aşıq yaradıcılığı,bütövlükdə ozan aşıq sənətinə və bu sənətin daşıyıcılarına bağlığlıqdır. Bu barədə şairin özü belə deyir: "Təkcə mənim dillərdə gəzən lirik şeirlərim deyil, irihəcimli əsərlərimin hamısı saz üstündə bəstələnib."

Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən onun fitri istedadı ilə bağlıdırsa, digər tərəfdən saza bağlılığındadır.

Şairin "Saz", "Yunis Əmrə", "Ələsgər", "Aşıq Hüseyn Saraclı", "Əbədiyyət", "Peyğəmbər" kimi lirik-epik əsərlər, dastanlar yaradıb.

Zəlimxan Yaqubun "Hüseyn Saraclı dastanı" haqqında Xalq yazıçısı Elçin müəllim yazır: "Hüseyn Saraclı dastanı"nda folklordan birbaşa sitatlar yoxdur, ancaq mən bu əsərdə həqiqi mənadə folklorla nəfəs almaq hadisəsi müşahidə etdim.

Folklorla nəfəs almaq - mənim aləmimdə xalqın güzəranına, məişətinə, etnoqrafiyasına dərindən bələd olmaq və bunları öz içində yaşatmaq, həmin xalqın dilini, psixologiyasını ən incə məqamlarına, ən zərif çalarlarınacan mənimsəmək, hiss etmək deməkdir. Bu dastan folklorumuzun yaradıcılıq axtarışları üçün nə qədər münbit bir zəmin yaratdığını da bir daha açıq-aşkar göstərməkdədir vəbu cəhət də, elə bilirəm ki, sənin "Dastan"ının yaratdığı əhəmiyyətli qənaətlərdən biridir.

Şairin aşıq, saz mövzusunda yazdığı əsərlərdən biri də "Göyçədən gələn səslər" poemasıdır.

“Könlümdə yaşadıb könül varını, sazımı eşqinlə çalmışam, ustad”, - dediyi ustadlar ustadı Aşıq Ələsgərin yurdu Ulu Göyçəni qarış-qarış gəzib, ona həsr etdiyi “Göyçədən gələn səslər” poeması vaxtı ilə həm də səhnələşdirilib”.

Şair aşıq sənətinə və ustad aşıqlarımıza aid onlarla məqalənin müəllifidir, ustad aşıqlardan bir çoxunun kitabı məhz onun xeyir-duası, məsləhəti və redaktorluğu ilə işıq üzü görüb.

Zəlimxan Yaqubun aşıq sənətinə dərindən bələdliyi ilə yanaşı, ustad aşıqlarla dostluq münasibəti, yaradıcılıq əlaqələri də yaradıcılığında öz əksini tapıb.

XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Mikayıl Azaflının “sənət dağlarının qoca qartalı”,Füzulinin “Şikayətnamə”sindən sonra ən böyük şikayətnamələr müəllifi,”həqiqət carçısı”,dərd dağı, qəm dəryası” olan Haqq aşığı adlandırılan Z.Yaqub “Azaflı çinarı” adlı məqaləsində yazır” Mikayıl Azaflı sənəti, onun şəxsiyyəti və şəxsi keyfiyyətləri öyrənməyə və öyrədilməyə layiq olan bir məktəbdir. O məktəbin şagirdi, tələbəsi nə qədər çox olsa, bir o qədər xalqın, millətin, sənətin, ruhun, yaddaşın və gələcəyin xeyrinədir.

Akademik Mirzə İbrahimov yazır: “Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçiddir, möhkəm bir körpüdür. O, bir tərəfdən xalq yaradıcılığına bağlıdır, o biri tərəfdən yazılı ədəbiyyata” Tam əminliklə deyə bilərik ki, aşıq poeziyasına məxsus keçidin daimi olmasında, xalq yazıçısının söhbət açdığı körpünün daha möhtəşəm olmasında, ədəbiyyata qovuşmasında Z.Yaqub qədər xidmətləri olan başqa bir çağdaş şairimiz də yoxdur. Məhz buna görə də şairin çağdaş ədəbiyyatımızın, aşıq yaradıcılığının və folklorun qovşağında bərqərar olması təəccüb doğurmur.

Saf və təmiz ana dilinin bütün imkanlarından məharətlə istifadə etdiyinə görə şairin poema-dastanlarının dili sadə axıcı və oxunaqlıdır. Şair hər hansı poemasında sözü zərgər dəqiqliyi ilə seçir, cilalayır, saf qızılı yad maddələrdən, elementlərdən təmizləyir. Mahir bənna hördüyü daşları bir birinə necə uyğunlaşdırırsa, şair də poema-dastanlarında sözləri bir-birinə eyni cür calayır, adi sözlərdən böyük sənət abidəsi yaradır. “Saz” poemasında oxuyuruq:

Dağ yeriyir,qaya uçur,daş düşür,
Əsli yanır,gözdən qəlbə yaş düşür,
Ərzurumun qədiyinə qış düşür,
Lələ köçür, talana bax,talana!

Bir qədər diqqət yetirsək görür ki, Zəlimxan Yaqubun poema-dastanlarında istifadə etdiyi sözlərin əksəriyyəti azəri türklərinin öz sözləridir. Alınma sözlərdən əsərlərində həmişə az istifadə etməyə çalışır.

Bu da poema-dastanlarının həm məzmun, həm də formasının vəhdətinə səbəb olur. Yuxarıda sitat kimi gətirdiyimiz bənddə fikir versək, şairin yüksək sənətkarlığını bir daha təsdiqləyərik. Kərəmin Ərzurumun qədiyinə çəkdiyi əzabları, əziyyətləri, məşəqqətləri göstərmək üçüün şair yalnız bir misrada möhtəşəm bədii tablo yaradır və “dağ yeriyib, yaya uçur,daş düşür”- deyərək oxucunu ofsunlayır,hissinə, duyğusuna təsir edir. Eyni zamanda bu misranı oxuyanda lirik qəhrəmanın əhvalı-ruhiyyəsi ilə təbiətin mövcud durumu arasında uyğunluq, eyniyyət yaranır. Kərəm Ərzuruma çatmamış içində necə bir təlatüm yaranırsa, eyni vəziyyət təbiətdə də təkrar olunur ki, bu Zəlimxan Yaqubun yüksək sənətkarlıq məharətindən, ədəbi ənənədən bacarıqla istifadə etməsindən xəbər verir.

Xalq şairi yazır:

Əl atmaq nə lazım kağız-qələmə,
Heç kəsə demərəm yaz ünvanımı
Kimə gərək olsa sözüm,söhbətim
Ona göstərəcək saz ünvanımı

Nəticə

Hüseyn Arifin dediyi kimi, aşıq poeziyası Zəlimxan Yaqubun sənət məktəbi olmuşdur. “Hüseyn Saraçlı dastanı”, “Saz”,”Göyçədən gələn səslər”, “Göyçə dərdi” poemaları aşıq sənətinin sirlərinə onun dərin bələdliyini sübut edir. O, saz-söz sənətinin vurğunudur. Şairin də etiraf etdiyi kimi, ustad aşıqlar sayağı saz çalması, saz havalarını dərindən bilməsi onun şeirlərinə güclü bir bədii axar və səmimiyyət gün olan, sabah da mövcud olacaq poetik cərəyanlar, tendensiyalar qarşısında xalq ədəbiyyatına mükəmməl bir abidə qoydu.

Ulu öndər Heydər Əliyev şairi ədəbi aləmdə özünəməxsus orjinal yaradıcılığına malik sənətkar kimi yüksək qiymətləndirilmiş, şifai xalq yaradıcılığı xəzinəsindən ona dilinin zənginliyindən məharətlə istifadə edərkən ölməz əsərlər yaranmasını tədqiq etmişdi.

Ədəbiyyat

1. Zəlimxan Yaqub. “Hüseyn Saraçlı Dastanı” Bakı-2007
2. Teymur Əhmədov “Zəlimxan Yaqub” “Şərq-Qərb” 2012

3. Musa Nəbioğlu “Saza baxsın tarıxımı yazanlar” “Elm və təhsil” Bakı 2018
4. Musa Nəbioğlu “Sözün Zəlimxan zirvəsi” Bakı -2015
5. Vahabzadə B. “Hardan gəlir Zəlimxan?” “Şərq” qəzeti 30may 2000

Саз и ашугское творчество в творчестве Залимхана Ягуба

Резюме

Фольклор лег в основу творчества народного поэта Залимхана Ягуба - выдающегося представителя современной азербайджанской литературы. В своем творчестве поэт базируется на фольклорные традиции народа. Этот момент проявляется в творчестве поэта как на уровне жанра, так и в языковом своеобразии проязведений и схожести мотивов. Особенно в языке и стиле произведений поэта отчетливо ощущаются языковые и стилевые влияния баяты, эпосов и сказаний. Богатство средств художественной выразительности (метафор, эпитетов, гипербол, сравнений и т.д.) придают языку и стилю всех произведений поэта богатство, выразительность, яркость, национальный колорит, делая их максимально близким к духу народа.

Все это, конечно, можно оценить как яркое проявление творческого успеха, таланта, творческой оригинальности Залимхана Ягуба. Лирические и лиро-эпические произведения, близкие к ашугской литературе, занимают особое место в художественном наследии поэта.

The art of saz and ashug in the works of Zalimkhan Yagub

Summary

Folklore formed the basis of the work of the national poet Zalimkhan Yagub, an outstanding representative of modern Azerbaijani literature. The poet benefited from folklore traditions in his work. This moment is manifested in the poet's work at the level of genre, language and motives. Especially in the language and style of the poet’s works, the linguistic and stylistic influences of the accordions and epics are clearly felt. The rich means of artistic expression of folk art make the style of all the works of the poet rich, expressive, close to the spirit of the people, add diversity to the national flavor.

All this, of course, can be assessed as an innate talent of Zalimkhan Yagub, his creative success and originality. Lyrical and lyric-epic works close to ashug literature occupy a special place in the artistic heritage of the poet.

DOI: 10.36719/2020/REK/01/29-32

Elnurə Müqais qızı Verdiyeva
Bakı Slavyan Universiteti
eli-1986@mail.ru

RUS DİLİNDƏKİ “MATЬ” KONSEPTİNİN AZƏRBAYCAN DİLİNDƏ VERİLMƏSİ PROBLEMLƏRİ

Açar sözlər: *“ana” konsepti, tərcümə, rus dili, Azərbaycan dili*
Key words: *concept “mother”, translate, Russian language, Azerbaijani language*
Ключевые слова: *концепт «мать», перевод, русский язык, азербайджанский язык*

Giriş

Müasir dövrdə “konsept” anlayışının tədqiqi koqnitiv dilçilikdə böyük önəm daşıyır. Hesab olunur ki, dil “konsept” anlayışının mahiyyətinin müəyyənləşdirilməsi üçün ən güclü alətdir. Belə ki, ən vacib konseptlərin hamısı məhz dildə kodlaşdırılmışdır. İstənilən dilin konsept sisteminin təşkil olunması üçün o dildə ilkin konseptlərin mövcud olması şərtdir. Digər konseptlər öz başlanğıclarını bu ilkin konseptlərdən alaraq inkişaf edirlər. Beləliklə də konseptlər sanki məna təfsirçiləri kimi dayanmadan dəqiqləşdirmələrə və modifikasiyalara məruz qalırlar.

“Ana” konsepti də bütün dillərdə bu cür ilkin konseptlərdəndir. Həm rus, həm də Azərbaycan dilində “ana” konsepti çoxqatlı struktura malikdir. Bu konseptin qatlarında müxtəlif obrazlar, təsəvvürlər dünyası, dəyərlər sistemi, fərqli məcazlar gizlənir. Konseptin linqvokulturoloji əsasında aşağıdakı əlamətləri özündə birləşdirən takson leksema durur: 1) qadınlıq, 2) bioloji fenomen, 3) sosial təzahür, 4) qan qohumluğu bağı,

4) mənəvi yaxınlıq, 5) müxtəlif obyekt və təzahürlər üçün metaforik qəlib və s. Buna görə də "ana" konseptinin mental mahiyyəti müxtəlif elm sahələrinin – dilçilərin, kulturoloqların, ədəbiyyatşünasların, sosioloqların diqqətini özünə cəlb edir. Bu məqalədə də əsas məqsəd rus və Azərbaycan dillərində məhz mental düşüncə, davranış tərzləri əsasında "ana" konseptinin təhlil olunmasıdır.

Problemin aktuallığı

Qadın cinsindən olan şəxslərin sosial rolları: ana, bacı, qız, nənə, xala, bibi, bacı-qardaş qızı, baldız, qayınana və s. kimi sıralanır. Bütün bunlar "qadın" konseptinin içində cəmlənir. Bunu əsas alan V.N.Teliya "qadın" konseptini əsas konsept, ailə bağlarını əks etdirən digər konseptləri isə onun növləri hesab edir (4, 61). İlk baxışdan bu cür təsnifatlandırma heç də əsassız görünmür. Amma detallı araşdırdıqda "ana" konseptinin bütün digər qohumluq bağlarını ifadə edən qadın konseptlərindən fərqləndiyini, bu konseptin mahiyyətində sadəcə "qadın" anlayışının durmadığını görmək olar. "Ana" konseptinə yüklənən çoxsaylı mənalar (ana Vətən, ana təbiət, ana yol və s.) onu ayrıca bir konsept olaraq təhlil etmək ehtiyacını ortaya çıxarır. Bu cür təhlil sözügedən konseptin bir başqa dilə tərcümə edilməsini də xeyli asanlaşdıra bilər.

Məsələn, rus dilində və ədəbiyyatında "мать" ("ana") konsepti əsasən qayğıkeşlik, mehribanlıq, cəfakeşlik ilə eyniləşdirlir. Bu mənada rus yazıçısı Maksim Qorkinin "Ana" romanı rus ədəbiyyatında bu konseptin geniş işləndiyi ən parlaq bədii əsər nümunəsi sayılır. Romanın baş qəhrəmanı olan Pelageya Nilovna Vlasova inqilabçı anasıdır. O, apardıqları mübarizədə öz oğlunu və onun yoldaşlarını hər cür dəstəkləyir. Buradakı "ana" konsepti "qayğı" anlayışı isə assosiasiya olunur. Və bu qayğı təkcə ananın öz övladına deyil, digər insanlara münasibətində də özünü büruzə verir. Əsərin qəhrəmanı üçün oğlunun dostları və yoldaşları da onun öz doğma övladları kimidirlər.

Eyni cəfakeşliyə, qayğıkeşliyə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" povestində də rast gəlmək mümkündür. Burada da ana obrazı əsərin mərkəzində durur, o, müxtəlif ölkələrdə fərqli təhsil görmüş, bu təhsilin təsiri altında bütün xarakterləri dəyişmiş, buna görə də bir-birləri ilə yola getməyən üç oğlunu barışdırmağa, onları bir ortaq məxrəcə gətirməyə çalışır. Bu mənada Mirzə Cəlilin "Anamın kitabı" povestini də Azərbaycan ədəbiyyatı üçün "ana" konseptinin geniş işləndiyi ən parlaq bədii əsər nümunəsi saymaq olar.

Amma bəzən bu konseptin işlədilməsinin arxasında onun üçün spesifik olan qayğıkeşlik, cəfakeşlik kimi xüsusiyyətlərdən daha fərqli anlamlar dayanır. Məhz belə anlamlar konseptin bir başqa dilə tərcümə olunmasında çətinliklər doğurur. Məsələn, rus dilində "мать" konseptindən fərqli situasiyalarda işlənən və bununla da situasiyanın özünü belə mətndə açıqlayan müxtəlif variantlar, yəni törəmə konseptlər yaranmışdır. Bunlardan bəziləri aşağıdakılardır: "матушка", "маменька", "мамочка", "мамуля", "мамуся", "мамаша", "мамань" və s. Azərbaycan dilində "ana" konseptinin bu qədər çox sayda fərqli variantı olmadığından, tərcümə zamanı ruscadakı "мать" konseptinin mənasını itirmədən onu tərcümə əsərinin oxucusuna çatdırmaq çətinləşir. Bu zaman tərcüməçi situasiyanı tərcümə mətninin oxucusuna çatdıra bilmək üçün bəzən özündən yeni sözlər "quraşdırmalı" olur. Təbii ki, peşəkarcasına yaradılmış bu cür kəlimələr anlaşıqlı olur və çox vaxt tərcümə dilində yaşamaq hüququ qazanır. Bəzən isə anlaşılmayan mətn ortaya çıxır.

Məlumdur ki, bir dildə konkret bir konseptdən törəyən bənzər konseptlər fərqli mənalar daşıya bilirlər. Bəzən əsas konseptin özü müsbət mənada, ondan törəyən konseptlər isə mənfi mənada işlənir. Bəzi hallarda törəmə konsept əsas konseptdə olmayan mənalara yiyələnir. Məsələn, rus dilində "мать" konseptindən törəyən "маменька" kəliməsindən çox vaxt ananın zəifliyini, acizliyini bildirmək üçün istifadə olunur: "Маменьку-то свою пожалей: плачет она теперь, тяжко ее душе..." (3, 219). Bu situasiyada ruscadakı "маменька" konseptini Azərbaycan dilinə "anacığaz" kimi çevirmək daha məntiqli olar. Çünki eynilə ruscadakı "маменька" kimi "anacığaz"da da sanki ananın əlacsızlığı, zəifliyi öz əksini tapır: "Anacığazına yazığın gəlsin: o indi ağlayır, bağrı partlayır...".

Amma təbii ki, müxtəlif situasiyalarda eyni konseptin bir başqa dilə fərqli tərcümələri də mümkündür. Məsələn, F.M. Dostoyevskinin "Cinayət və cəza" romanında "маменька" konseptinin işləndiyi situasiya tam fərqlidir. Əsərin qəhrəmanlarından biri deyir: "Пойдемте, маменька, хоть из комнаты выйдем на минуту" (2, 204). Burada artıq sözügedən konsepti Azərbaycan dilinə yenidən "anacığaz" kimi çevirmək məntiqsiz görünür. Daha dəqiq variant "anacan"dır: "Gedək, anacan, heç olmasa bir dəqiqəliyinə otaqdan çıxaq".

Rus dilində bəzən "мать" konseptinin törəməsi olan hər hansısa bir konseptin özünün belə törəməsi olur. Məsələn, "мать" – "мама" – "мамка". Təbii ki, "мать" konsepti törəmələri ilə müqayisədə daha rəsmi səciyyə daşıyır. "Мама" konseptində artıq bir qədər qeyri-rəsmilik var. "Мамка" konseptindəki "к" isə sözün mənasını dəyişməsə də, konseptə sanki bir az etinasızlıq, laqeydlik qatır: "Давайте что-нибудь говорить, – прошептал Алексашка. – У меня мамка померла" (5, 28). Tərcüməsi: "Gəlin bir şeylər danışaq, – Aleksaşka pıçıldadı. – Mənim anam ölüb". Burada qəhrəman bir şeylər danışmaq xatirinə anasının öldüyünü söyləyir. Bu situasiya üçün Azərbaycan dilində "мамка" konseptinin emosional (burada daha uyğun olanı əslində, qeyri-emosional) mahiyyətini açıqlamağa uyğun gələn bir konsept mövcud deyil. Yəni

tərcümədə artıq “anacan”, “anacığaz”, “anacıq” kimi fərqli variantlardan istifadə etmək olmaz. Bu vaxt ən neytral konsept olan “ana” konseptindən istifadə etməkdən başqa çıxış yolu qalmır.

Rus dilində “мать” konseptindən törəyən və Azərbaycan dilinə tərcümə zamanı müəyyən çətinlik yaradan konseptlərdən biri də “мамаша” konseptidir. “Мамаша” konseptinə “ana” mənasında daha çox kişilərin danışığında rast gəlinir. Bu konseptdə sanki bir qədər saymazyana münasibət önə çıxır. Məsələn, “Скоро вас мамаша женит... женатый человек, – известно, – на своих двоих стоит...” (5, 110). Amma azərbaycanlıların mental düşüncə tərzi Azərbaycan dilində anaya bu cür saymazyana müraciətin mümkünlüyünə imkan vermir. Bu səbəbdən yenə də tərcümədə neytral konsept seçməkdən başqa yol qalmır: “Bu yaxınlarda ananız sizi evləndirəcək... Məlumdur ki, evli adam özü öz ayaqları üstə durur”.

Digər tərəfdən ruslar “мамаша” konseptindən heç də hər zaman doğma ana haqqında danışanda istifadə etmirlər. Məsələn, qohumluq bağı olmayan yaşlı qadına müraciətdə də “мамаша” söyləndiyinin şahidi olmaq mümkündür: “Нищий, так же глядя в пол, сказал: - Я не пью, мамаша. Дайте хлеба” (1, 101). Azərbaycan dilində də bu konseptin oxşar variantı var. Məlumdur ki, qohumluq bağı olmayan adamlara Azərbaycanda da “anam”, “atam” kimi müraciətlər edilir. Ona görə də, burada konseptin “anam” variantından istifadə etmək daha məqsədəuyğundur: “Dilənçi elə o cür döşəməyə baxa-baxa dedi: – İçən deyiləm, anam. Çörək verin”. Bu nümunədən göründüyü kimi rus dilində “мать” və ya ondan törəyən “мамаша” kimi konseptlərin işlənməsi zamanı heç də həmişə qohumluq bağının mövcudluğu nəzərdə tutulmur.

Amma ümumilikdə götürdükdə XX və xüsusilə XIX əsr rus nəsrində “мать”, “мама” “матушка”, “маменька” leksemlərinə daha çox, “мамуся”, “маманя” və “маман” leksemlərinə isə daha az rast gəlinir. Bu nümunələrin çoxunda “мать” və ondan törəyən oxşar konseptlər antroponim xarakteri daşıyaraq “uşağı olan qadın” anlamında işlənir.

Nəticə

Həm ayrı-ayrı rus və azərbaycanlı yazıçıların əsərlərində, həm də ümumilkdə bu iki xalqın şifahi xalq ədəbiyyatında, folklorunda mövcud olan “ana” konsepti nümunələrinin təhlili onu göstərir ki, sözügedən konsepti bu xalqların yalnız onların özlərinə xas olan səciyyəvi mədəni dəyərlərini, ənənələrini, dünyagörüşlərini öyrənmədən tədqiq etmək qeyri-mümkündür. Digər tərəfdən, yuxarıda sadalananları öyrənmədən “ana” konseptini bir başqa dilə tərcümə etmək də mümkünsüz bir işdir. Məqalədə rus dilindəki “мать” konsepti və ondan törəyən yaxın mənalı konseptlərin Azərbaycan dilinə tərcüməsi zamanı ortaya çıxan çətinliklərlə bağlı nümunələr bunun bariz sübutudur. Təbii ki, sözügüdən konseptin tərcüməsinin çətinliyinə dair nümunələr sadəcə yuxarıdakılarla məhdudlaşmır. Bu siyahını xeyli uzatmaq da olar. Ancaq konseptlərin tərcüməsinin nə qədər çətin olduğunun ümumi mənzərəsinin yaranmasına misal göstərilən bu nümunələr də kifayət edir.

Ədəbiyyat

1. Довлатов С.Д. Собрание сочинений в четырех томах. Том первый. СПб.: Азбука-классика, 2005, 464 стр.
2. Достоевский Ф.М. Собрание сочинений в десяти томах. Том пятый. М.: Художественная литература, 1957, 600 стр.
3. Кокорев И.Т. Москва сороковых годов. Очерки и повести о Москве. М.: Московский рабочий, 1959, 280 стр.
4. Телия В.Н. Что такое фразеология? М.: Наука, 1966, 86 стр.
5. Толстой А.Н. Собрание сочинений в десяти томах. Том седьмой. М.: Художественная литература, 1959, 864 стр.

Issues of translating “mother” concept existing in Russian into Azerbaijani

Summary

As is known, meaning attribution of the same concept in various languages is different from each other. Therefore, it is impossible to present in one language a concept attributed with many meanings in another one. Then finding similar variants of the concept becomes necessity. This transformation has great effect on how successful will be translated text. “Mother” is a common concept, which exists in all languages and attributed with different meanings according to mentality of each nation. Difficulties with translating “mother” concept from Russian to Azerbaijani and ways of overcoming these difficulties are also shown in the article.

Вопросы перевода концепта «мать» с русского на азербайджанский язык
Резюме

Как известно, значения одного и того же концепта на разных языках отличаются друг от друга. Поэтому невозможно представить в двух разных языках один и тот же концепт с аналогичным значением. Во время перевода поиск разных вариантов концепта становится необходимостью. Это оказывает большое влияние на качество текста перевода. «Мать» - это общий концепт, который существует на всех мировых языках, и ему приписывается различные значения в соответствии с менталитетом каждой нации. В статье также выявлены трудности перевода концепта «мать» с русского на азербайджанский язык и способы преодоления этих трудностей.

DOI: 10.36719/2020/REK/01/32-35

Aygün Ərziman qızı Qasımova
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
a.qasımova62@gmail.com

HÜSEYN ARİFİN "DİLQƏM" POEMASINDA FOLKLOR SİMVOLİKASI

Açar sözlər: *"Dilqəmi", epik təhkiyə, aşıq-sənətkar, saz-söz ustadı, sevgi hekayəti, aşıq haqqında rəvayət*
Key words: *Dilgam, epic narrative, ashug-artist, saz-word master, love story, narration about ashug*
Ключевые слова: *эпическое повествование, ашуг-профессионал, мастер саз-слова, история любви, слово об ашуге*

Xalq şairi Hüseyn Arif (1924-1992) poeziyasının əsas mahiyyət və məğzində dayanan ümdə xüsusiyyətlərdən biri folklor ovqatı ilə bağlılıqdır. Şairin yaradıcılığında özünü qabarıq şəkildə nümayiş etdirən bu məziyyətlərin aşıq sənətindən və ağız ədəbiyyatının zəngin xəzinəsindən qaynaqlandığını onun poetik ruhunu da elə bu şəkildə biçimlənmişdir. Folklor mahiyyəti onun müraciət etdiyi bütün mövzu və obrazlarda poetik ruh və intonasiyadan, axar-baxarlı dil və üsluban da aydın duyulur.

Aşıq sənəti Azərbaycan xalqının etnik-mədəni sisteminə məxsus olan dərin məzmunlu məna və xüsusiyyətləri, xalqın mənəvi dünyasına xas olan etnoqrafik cizgiləri canlandıran və zaman-zaman nəsillərin yaddaşına köçürən unikal bir mədəniyyət hadisəsidir.

Hüseyn Arif dünyaya göz açandan belə bir sazlı-sözlü mühitlə qaynayıb qarışmış, bir şair kimi yaradıcılığında bu əvəzsiz saz-söz dünyasından kifayət dərəcədə faydalanmışdır. Digər bir maraq doğuran cəhət də odur ki, o, həm də bütün yaradıcılığı boyu unudulmaqda olan aşıqların poetik irsinin dildə-ağızda gəzən nümunələrini mahal-mahal gəzərək toplamış, bir çox aşıq-sənətkarların kitablarının nəşr olunmasında bir tərtibçi kimi də yaxından iştirak etmişdir. Bu mənada Aşıq Alı şeirlərinin kitab halında işıq üzü görməsində Hüseyn Arifin xidmətlərini xüsusi olaraq qeyd etmək lazımdır. Belə bir fəaliyyət əslində tərtibçi, mətnşünas və tədqiqatçı əməyini də göz önündə canlandırır. Keçən əsrin 80-ci illərin əvvəllərindən: 1982-ci ildən vəfatına kimi – 1992-ci ilə qədər ilk dəfə təşkil olunan bir yaradıcılıq qurumun rəhbərliyinə Azərbaycan Aşıqlar Birliyinin sədri kimi irəli çəkilməsi bu sahədə onun ardıcıl və fasiləsiz fəaliyyətinin nəzərə alınması kimi də dəyərləndirilə bilər (2, 383).

Hüseyn Arifin aşıq yaradıcılığı ilə bağlı axtarışlarının bir hissəsi də onun poetik irsində özünü parlaq şəkildə nümayiş etdirir. Belə ki, Aşıq Alı da daxil olmaqla Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Mirzə, Aşıq Əsəd kimi saz-söz dünyasının ünlü nümayəndələrinin həyatına, yaradıcılığına və sənətkar fərdiyyətinə münasibət bildirilən və ya onların poetik irsindən epiqraf kimi seçilən misraların təsiri altında yeni mətləb və mənaları ifadə edən şeirlərin yaradılması da belə bir məhəbbət və ehtiramdan qaynaqlanması da təsadüfi hesab oluna bilməz.

Bu sıradan XVIII əsrin sonları və XIX əsrin birinci yarısında adı dillərə düşüb taleyi dastana çevrilən Yəhya bəy Dilqəmin taleyi, bir qüdrətli sənətkar kimi özünəxsusluğu daim Hüseyn Arifi düşündürmüş, onun acılı-şirinli ömür yoluna həsr olunan şeirlərin, ayrıca epik səpkidə qələmə alınan poemanın qələmə alınmasına zəmin yaratmışdır. Dilqəm kimi el-obada məşhurlaşan sənətkarın həyatı, faciəvi taleyi, sənət dünyası haqqında yazılan məqalələr, onun barəsində müəyyən bigilər verir. Mərhum folklorşünas Sədnik Paşayevin Yəhya bəy Dilqəmin həyatı və yetişdiyi mühit haqqında belə bir məlumatı diqqəti cəlb edir: "XVIII əsrin sonu ilə XIX əsrin birinci yarısı arasında yaşayıb yaratmış Yəhya bəy Dilqəm öz lirik-aşiqanə qoşmaları,

həsrətli, qübarlı gəraylıları və taleyinə uyğun bəslədiyi məşhur saz havası ilə həm müasirləri, həm də özündən sonrakı nəsillər arasında böyük şöhrət qazanmışdır.Yəhya bəy Dilqəm Şamxor (oxu: Şəmkir- A. Q.) rayonunun Dəllər – Cırdaxan kəndində doğulmuşdur. Köhnə kənd yerində indi də Dilqəmin bir çox nişanələri qalmaqdadır. Dilqəmin evinin yeri, evinin qabağında çinarların kötüyü durur. Evə yaxın yerdə "Dilqəm bulağı" vardır. İndiyə qədər bizə təkcə Ağdabanlı Qurbanın adı ilə bağlı "Qurban bulağı" məlum idi. "Dilqəm bulağı" bir daha sübut edir ki, XIX əsrin əvvəllərindən başlayaraq el sənətkarlarının adı ilə bağlı bulaqlar yaranmışdır ki, o dövrün saz-söz məclisləri də məhz bu bulaqların başında keçmişdir" (6, 24).

Əlbəttə, bu tərcümeyi-hal səciyyəsi daşıyan qeydlərdən də göründüyü kimi, Yəhya bəy Dilqəmin uzun müddət həyat və yaradıcılığı, aşıq sənətindəki müstəsna yeri və mövqeyi barədə yetərincə bir məlumatın olmaması onun şəxsiyyəti, yetişdiyi mühit və çevrəsi haqqında dürüst təsəvvür yaratmağa imkan vermə-mişdir.

Hüseyn Arifin (o vaxtlar şair daha çox Hüseyn Hüseynzadə kimi tanınırdı – A.Q) Yəhya bəy Dilqəm şəxsiyyətinə və sənət dünyasına marağı keçən əsrin 70-ci illərinin əvvəllərindən başlayır. Belə ki, o, 1972-ci ildən etibarən "Dilqəm" poeması üzərində işləməyə başlayır, poemadan müəyyən fəsilləri və parçaları mətbuat səhifələrində nəşr etdirir.

Bu poemada adı keçən və əsərin əsas qəhrəmanı olan Dilqəm tanınmış bəy və el şairi olan Yəhya bəyin təxəllüsü olmaqla yanaşı həm də Azərbaycan folklor arealında və aşıq yaradıcılığında həsrət, kədər, ümidsizlik, göynərti və qübarlı eşq obrazının simalarına çevrilmişdir.

Poemanın başlanğıc hissəsində Dilqəmin adına və şəxsiyyətinə hörmət və ehtiramı poetik bir pafosla ifadə edən müəllif böyük el sənətkarının şeirlərində əsas janr kimi aparıcı mövqe qazanan qoşmaya müracət etməsi də təsadüfi deyil, burada hadisə və şəxsiyyətə uyarlı forma və qəlib çərçivəsində münasibət bildirilməsi də özünün diqqət çəkiciliyi ilə əlamətdarlıq qazanmış olur:

Torpağa baxıram, daşa baxıram -
Torpağımda Dilqəm, daşımda Dilqəm.
Xəbərli, xəbərsiz ötür fəsillər,
Baharımda Dilqəm, qışımda Dilqəm.

Axdı qulağıma yanıqlı səsi.
Çoban bayatısı, el şikəstəsi.
Sağımda, solumda isti nəfəsi,
Arxamda Dilqəmdir, qarşımda Dilqəm.

Şeiriyyət qoxulu yayım, payızım,
Başqa bir aləmdən qalxır avazım.
"Dilqəmi" üstündə köklənib sazım,
Qəlbimdə Dilqəmdir, başımda Dilqəm (3, 177).

"Dilqəmi" üstə köklənmək poemanın ayrı-ayrı fəsillərində də özünün qabarıq nümayiş etdirməkdədir. Belə bir məziyyəti nakam taleli aşıq-sənətkarın öz sevgisi yolunda çəkdiyi məşəqqətlərin inandırıcı və təsirli şəkildə ifadəsi zamanı yaxından görmək olur. H.Arif "Dilqəm" obrazının folklordan – aşıq ədəbiyyatından gələn rəmzi səciyyəsini qələmə aldığı poemasının hər bir hissəsində diqqət önündə yoxlamış və əsərin ruhunu bu mahiyyət üzərində qurmuşdur.

Poemanın "Axtarış" adlı hissəsində aşığın ömür və sənət yoluna məxsus ən incə təfərrüatları axtrıb aramaq, onu epik təhkiyənin mərkəzinə çəkmək əsas məqsəd və qayeyə çevrilir. Şair belə bir axtarış sevdasının gözünə el-el, oba-oba, oymaq-oymaq gəzib dolaşdığı yerlərlə dərindən tanışlığından qürurla söz açır və belə səyyahlığın ona yaddaşlardan silinməkdə olan sənətkarların da üzə çıxarılmasında bir vasitə olduğunu inandırıcı şəkildə oxucuya çatdırmağa çalışır:

Saçlarımın qırovunu
Murovdakı, Qoşqardakı boz buluddan,
Kəpəzdəki, Murğuzdakı çəndən soruş.
Soraqdayam, - Aşıq Alı sorağında,
Aylar, illər yola düşüb.
Atlı, atsız
Vaxtlı, vaxtsız
Yönüm sağa, sola düşüb (4, 178).

Şair öz əbədi ünvanını da belə axtarışların coğrafiyasında dərin iz qoyacağına dərin inamını ifadə edir, bu gecəli-gündüzlü, əldə çıraq axtarışların ən etibarlı mənbəyi kimi hafizəsində min illərin tarixini yaşadan babalara, sinəsi bayatı və ağılarla, qoşmalarla dolu nənələrə üz tutduğunu bildirir. Əslində bu mənada "Dilqəm" obrazı kimi həmin ağsaqqal və ağbirçəklər də folklor simvolikası şəklində təqdim olunur və ümumiləşdirilir. Hələ burasını da qeyd etmək yerinə düşər ki, H.Arifin öz şair obrazı da sistem daxilində lirik-rəmzi bir obraza çevrilir.

Gəraylılar, divanilər, bağlamalar, müxəmməslər, zəncirləmələr axtarışında olan lirik qəhrəman şairin özüdür. Belə bir ədəbi üsul heç də fərdi eqonu mütləqləşdirmək səciyyəsi daşımır, əksinə, şairin yaxından bələd olduğu mətləbləri daha dərindən və inandırıcı boyalarla canlandırılması üçün əlverişli zəmin hazırlayır. Abbasları, Əmrahları, Qasımları, Qurbanları, Valehləri, Musaları, Novruzları axtaran qəhrəmanın uzun müddətdən bəri Dilqəm axtarışına rəvac verməsini belə ifadə edir:

Kənd-kənd,
ev-ev,
insan-insan.
Kim axtarar
axtarmasam,
axtarmasan?
Babaları soraqlayıb
sirri dərin
bir aləmi
axtarıram.
Nə müddətdir
Dilqəm məni buraxmayır,
Mən Dilqəmi axtarıram (5, 182).

Axtarmaq, aramaq, itib-batmaqda olan sənət incilərini və onu yaradan şəxsiyyətləri tapıb üzə çıxarmaq ümumən poemanın əsas leytmotivi kimi üzə çıxır. Bu mənada simvolik səciyyə daşıyan "Saz götür" adlı fəsil maraq doğurur. Müəllif "Dilqəmi" havasının kədər və qəm üstə köklənən sədası ilə Yəhya bəyin ruhu-mənəvi aləmi arasında oxşarlıq və uyarlığa diqqəti yönəldir, çoxsaylı insanların qəlb harayını da bu havacatın səsləndirilməsində axtarılması təbii və inandırıcı təsir bağışlayır. Burada bir folklor ruhu daşıyan simvolik şəxsin-aşığın timsalında bütün insanlığın qəm və nisgilini ifadə etmək aparıcı bir məziyyət kimi xüsusi dəyər daşıyır. Maraq doğuran bir əlamətdar cəhət odur ki, Yəhya bəy Dilqəmin başına gələn ağrı-acılı hadisələr elə onun sonralar aşıq sənətinə gələnlərin dilindən səsləndirilməsi və dinləyici auditoriyasının böyük həyəcan və maraqla qarşılaması səhnəsi nəsillər arasında qırılmaz əlaqə və bağların mövcudluğundan xəbər verir. Bu fəsildə Aşıq Mirzənin Dilqəmdən ürək ağrısı və daxili bir həyəcanla bəhs etdiyi hadisələrin özü baş verənlərə müəllif və tamaşaçı mövqeyini də paralel şəkildə izləməyə imkan yaradır. Dilqəmin sevgisi yolunda çəkdiyi iztirablar, Telli xanımın (bəzi tədqiqatçılar onu Dostuxanım kimi də təqdim edirlər – A.Q.) övladının olmaması bəhanə gətirilərək kəbinin geri oxudulmasına etiraz edərək atası evinə getməsi və bir də geri qayıtmaması ilə bağlı epizodlar poemada bir o qədər təfsilatı ilə təsvir edilməsə də, bu hadisəyə işarələrin olması aydın şəkildə özünü göstərməkdədir. Burada Telli xanımın gedişindən dolayı Yəhya bəyin yaxın sirdaşı qədər etibarlı atının kişnərtisi, göz yaşları axıtması baş verən hadisənin bütün mənzərəsi ilə əks etdirilməsinə bir vasitə kimi düşünülməsi özünü göstərməkdədir.

"Ayrılıq" və "Usta bir saz bağla" adlı fəsillərdə yenə də folklor simvolikası səciyyəsi daşıyan hicran və saz anlayışları eyni bir məxrəc altına gətirilir. Sazbənd usta Tünüyə verilən sifariş əslində sinədə yığılb qalan qəm və nisgil dolu yaşantıları səsləndirmək üçün düşünülməsi maraq doğuran bir poetik tapıntı kimi diqqəti cəlb edir.

Hüseyn Arif sonralar nəşr olunan şeir kitablarından birinə - "Ömür deyir..."ə "Dillən Dilqəm eşqinə" adlı fəsildən bir parçanın daxil etməsi poema üzərində uzun müddət yaradıcılıq axtarışlarının aparıldığını əyani surətdə təsdiqləməkdədir. Poemanın onuncu fəslindən bir parça kimi verilən nümunənin əvvəlində verilən bir qeyd şairin başına gələn müsibətli günlərin ağrı-açıları ilə Dilqəm arasındakı kədər və nisgil dolu yaşantılarını dolğun şəkildə əks etdirməkdədir. Haqqında söhbət gedən qeydə nəzər salaq: "Vəfatından bir ay əvvəl Arif gözlərimə baxaraq dalğın, fikirli halda: Ata sən şair kimi özünü Dilqəmdə tapmısan, onu bitirməyə tələs! – dedi." (1, 109).

Şair Dilqəmi dağdan ağır dərd və möhnətini folklor simvolikası kimi seçməsi son dərəcə təsirli bir səhnəni göz önündə canlanırır. Kədər üstə köklənən misralardan məlum olur ki, iki ildir susan şair ilhamı

yenə ehtizaza gətirə biləcək iki qüvvə və ünvan var: onlardan biri həyatdan nakam və faciəli surətdə getmiş Arifdir, o birisi isə qəm girdabına düçar olan Dilqəmdir:

Bu gecə də yuxum ərşə çəkilib,
Yaranışdan sehrlidi bu aləm.
Qabağımda bir-birinə qarışan
Ya kitabdı, ya kağızdı, ya qələm.

Fərqi nədi ulduza bax, aya bax.
Çəmənə bax, çiçəyə bax, çaya bax.
Tale verən qismətə bax, paya bax
Ya həsrətdi, ya möhnətdi, ya da qəm.

Məndən ötrü nə sevinc var, nə həvəs,
Küçə qəfəs, həyat qəfəs, ev qəfəs,
Hüseynə ürəyini açan kəs
Ya Arifdi, ya Kərəmdi, ya Dilqəm (1, 109).

Bu kədər simvolik səciyyə daşıyan poema - dastanı həm şəxsi planda, həm də ümumxalq miqyasında yaşanılan rəmzi-məcazi məqamlarının tarixçəsi barədə bir elegiya kimi insan qəlbini böyük sənətkarlıqla riqqətə gətirə bilir.

Ədəbiyyat

1. A.Hüseyn.Dillən Dilqəm eşqinə (10-cu fəsildən parça), Ömür deyir..., Bakı, “Gənclik”, 1981.
2. Bu barədə bax: Əhmədov T. XX əsr Azərbaycan yazıçıları, Ensiklopedik məlumat kitabı (Təkmilləşdirilmiş üçüncü nəşri), Bakı, “Nurlar”, Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004.
3. Hüseynzadə H. Dilqəm (“Dilqəm” poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
4. Hüseynzadə H. Dilqəm (“Dilqəm” poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
5. Hüseynzadə H. Dilqəm (“Dilqəm” poemasından parçalar), Seçilmiş əsərləri, İki cilddə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
6. Paşayev S. XIX əsr Azərbaycan aşıq yaradıcılığı. Bakı, 1990.

Symbolic folklore in “Dilgam” poem by Huseyn Arif

Summary

In the scientific article carried out extensive analysis and generalizations about the idea of artistic craftsmanship of the subject of the poem Dilgam by national poet Huseyn Arif, has given more attention to the epic description and points of insistence from the relative path of life, to the deepest trace of the nation's memory as a craftsman Yahya bey Dilgam, who thought lived in the end of 18th and at the beginning of 19th centuries.

As a real manifestation of such interest and attitudes to Ashug Dilgam's fate, life and art, in a written poem to think a matter of meaning of his personal troubles and cares as fateful problems that lead people to take into consideration and all these valued view point of artistic and folk paradigm.

Символический фольклор в поэме Гусейн Арифа «Дильгам»

Резюме

В статье анализируется тема поэмы «Дильгам» народного поэта Гусейна Арифа, а также проводится широкий спектр анализов и обобщений идеи мастерства. Большое внимание уделяется эпическому изображению и повествованию мастерства и жизненного пути Яхйа бека Дильгама, который жил и занимался творческой деятельностью в конце XVIII и певой половине XIX века. Поэма, в которой реально проявляется интерес и отношение к судьбе, образу жизни и искусства Ашуга Дильгама, а также приобретение его личных проблем и забот рокового характера находится в центре внимания и оценивается с профессиональной и народной парадигмы.

DOI: 10.36719/2020/REK/01/36-40

Aysel Saleh qızı Talıbova
Bakı Mühəndislik Universiteti
atalibova@beu.edu.az

QABRİEL QARSİA MARKESİN "ARZUOLUNMAZ SAAT" ƏSƏRİNDƏ TARİXƏ YAZIÇI MÜNASİBƏTİ: DİGƏR ƏSƏRLƏRİNDƏN FƏRQİ

Açar sözlər: *bələdiyyə başçısı, Violensiya, pasquin, Kolumbiya, Qaitan*
Key words*: mayor, Violencia, pasquin, Colombia, Gaitan*
Ключевые слова*: мэр, Виоленсия, пасквин, Колумбия, Гайтан*

Giriş

Tarixə "Yüz ilin tənhalığı", "Patriarxın payızı" kimi şedevr əsərləri ilə imza atmış məşhur kolumbiyalı yazıçı Qabriel Qarsia Markesin əsərlərinin əksəriyyətinin mövzusu bu əsərlərlə, demək olar ki, eynidir. O cümlədən "Arzuolunmaz saat" əsəri: mühafizəkar liderlərin radikal idarəçilikləri və nəticədə bunun dadını damarlarına, sümükdə iliyinə qədər hiss edən xalq. Bu əsərdə də bəzi əsərlərində olduğu kimi, zaman və məkan konkretliyinin mistik yoxluğu hakimdir. Lakin əsərin 50-ci illərdə qələmə alındığını nəzərə alsaq, buradakı siyasi ab-havanın qaynağını konkretləşdirmiş olarıq. 1948-1958-ci illər Kolumbiyada La Violensiya müharibəsi illəridir. Liberal lider Qaitanın sui-qəsdindən sonra liberallarla konservatorlar arasında mübarizə başlayır və rəsmi göstəricilərə görə, 300.000-dən çox günahsız insan öldürülür. Buna *La Violensiya*[1] *qətliamı* adı verilir. Bu qətliamın yaşandığı illərdə qələmə alınan bu əsərə müəllif ilk öncə "Bu lənətə gəlmiş kənd" adını vermişdi. Lakin əsər 1962-ci ildə Esso adı ilə bilinən Kolumbiya ədəbiyyatı mükafatına layiq görül-dükdən sonra "Arzuolunmaz saat" ("La mala hora" – pis, bəd, şər saat) adı ilə dəyişdirildi.

Tarixi-siyasi mənzərə. Əsərdə mərkəzdə duran və bütün kəndi ovcunun içində tutan bələdiyyə başçısı obrazıdır ki, müəllif bu obraza heç bir ad verməmişdir. Müəllifin müsahibələrinə görə, bələdiyyə başçısını xarakter olaraq yaradarkən zənci məşuqəsi Nigromantanın polis ərindən ilhamlanıb. Lakin sonra German Varqasa verdiyi müsahibəsində qeyd edir ki, başçının prototipi olan şəxs arvadı Mersedesin əməl dəftəri qətliamlarla dolu olan qohumudur, Mersedesin atasını öldürmək istəyirdi deyə həmişə əlində silah gəzdirirdi. (GM. Səh. 216) Başçının fəaliyyət xəttini incələsək görərik ki, bu obrazın bir çox xüsusiyyətləri digər əsərlərindəki obrazlarla oxşarlıq təşkil edir. Məsələn, "Patriarxın payızı"ndakı patriarx kimi onun da adı yoxdur və kreslosundan yerin dərinliklərinə doğru kök salmaq uğrunda törətdiyi cinayətlərin içindən ağ kağız kimi təmiz çıxmağı bacarır, ən azından rəsmi şəkildə; və yaxud, "Yüz ilin tənhalığı"ndakı korrexidor don Apolinar Moskote kimi onu da mərkəzi hökumətdən bu əraziyə "sistemli idarəçilik" yaratmaq üçün göndərirlər, lakin bu da sistemsizlik və özbaşınalıqla nəticələnir. Bir sözlə, bu xarakterə konkret prototip müəyyənləşdirmək mümkün deyil.

Əsərdə baş verən hadisələrin mərkəzində "pasquin" adı verilən, qapılara hamıdan xəbərsiz yapışdırılan xəbər kağızları dayanır. "Pasquin" sözünün hərfi mənası qədim roman dilində kəskin lampa və ya kəskin işıqdır. İlk dəfə qədim romanlar bu kəlmədən istifadə etmişlər. Cardinal Oliviero Karafanın mərmər heykələ qazıdığı xatirə şeiri ilə başlayan bu ənənə nəticəsində insanlar papanın özbaşınalıqlarını və saxtakarlıqlarını ifşa edən yazıları mərmər heykəllərə qazımağa başladılar. Bu anonim həcvlər italiya dilində şölələri kilsə divarlarını, bağlı saray qapılarını belə, yarıb keçən kəskin lampa mənasını verən pasquin adı ilə anılmağa başlandı (link). Əsərdə qapılara yapışdırılan yazılar da mahiyyətcə eyni idi: müəllifi, qapıya kim tərəfindən asıldığı bəlli deyildi və yazıların mətni artıq dillərdə şayiələrə çevrilmiş günahlar idi. Ailə-məişət məsələ-lərindən tutmuş siyasətə qədər günahların rəngi də bol idi. Bu pasquinlərdən də göründüyü kimi, kənddə xəyanətlər, atası naməlum uşaqlar, siyasi xəyanətlər, rüşvətxorluqlar baş alıb gedirdi. Lakin günahların ən geniş dairəlisi başçının payına düşürdü. Çünki onun günahları sadəcə özünü deyil, bütün xalqı çevrəsinə alırdı. Özünü xeyirxah kimi göstərir, lakin gizlində öz xeyrini güdürdü. Məsələn, kəndi sel basıb evlər yaşamaq üçün yararsız hala düşəndə camaata öz (zorla özününküləşdirdiyi) torpaqlarını təklif edir. Hamı yerləşib ev-eşiyini quran kimi isə vəkil tutub ərazidən xərac almaq barədə sənəd hazırlayır. Əri öldükdən sonra başsız qalmış dul qadın Montieli ruhi-xəstə kimi qələmə verib, onun mülkünə əl qoyur. Pasquinləri asanları tutmaq üçün kənddə saat 8-dən sonra küçəyə çıxma qadağası qoyur. Xalqdan topladığı əsgərləri də küçələrə güdükçü təyin edir. Lakin verdiyi silahlar da saxta olur. Məqsəd xalqı özünə qırdırmaq idi. Pulu olanları da özündən asılı hala salıb, onları sağır. Məsələn, namus üstündə cinayət işləmiş Sezar Montero, sirk orqanizatoru və s. Əsər bir növ reportaj üslubunda yazılıb. Hadisələrin çoxu obrazlandırılmır, kimlərinsə

[1] Violence – ing. Zorakılıq, vəhşilik

dialoqlarında nəql olunur. Bu cür müsahibə otaqlarından biri, məsələn, bərbərxanadır. Maraqlıdır ki, bərbər Qaudilyo divara "Siyasətdən danışmaq qadağandır" xəbərdarlığı ilə bağlı yazı asdığı halda, bərbərxana ilə bağlı epizodların, demək olar ki, hamısında bərbər qırxınmağa gələn bütün müştərilərlə başçının "qeybətini edir".

Fərdi-bədii üslubi keyfiyyətlər. Müəllif, baş verən hadisələrə sanki məsafəli davranmağa çalışır, birbaşa müdaxilə etmir. Digər əsərlərində hadisələri bir başa baş verdiyi evin içindən canlandıran müəllif burada kənardan müşahidəçi qismində sadəcə nəql etməklə kifayətlənir. Bir başa obrazlandırılan sadəcə başçının ətrafında sözü gedən zaman dilimində cərəyan edən hadisələrdir. Lakin, əsərin mövzusu və bu mövzu ətrafında cərəyan edən hadisələr o dərəcədə dəhşət doğurucudur ki, nə kənardan müdaxilə edən təhkiyəçi üslubu, nə də arada qarşılaşdığımız yumor bu dəhşəti və qəsvəti yüngülləşdirə bilməmişdir. Əsər həcminə görə çox xarakter barındırır deyə, bəzi xarakterlərdə obraz yaradıcılığı natamam qalmışdır. Lakin ideyanın açımına xidmət edən xarakterlərin obraz yaradıcılığı oxucuda lazımi təəssüratı yaratmağa imkan verir.

Əsərdə böyük əhəmiyyət daşıyan obrazlardan biri də polisdir. Polis kimdir? Polislik sadəcə onların rəsmi ünvanlarında qalmışdır. Mahiyyətcə isə onlar bələdiyyə başçısının maraqlarının əlaltılarıdır. Bəs onlar haradan gəlmişdi? Başçı tərəfindən həbsdən çıxarılan cinayətkarlar idi ki, başçı onları bu işə özü təyin eləmişdi. Niyə başçı öz əlaltılarını cinayətkarlardan seçdi? Çünki lazım gəldiyi vaxt istənilən qədər adam öldürmək, heyvani işkəncələr vermək qabiliyyəti ancaq bir cinayətkara müəyyəssər ola bilərdi. Əsər boyu onların nitqinə və ya dialoquna rast gəlinmir. Çünki onlar fərdi düşüncəsi olmayan ancaq sahibinə xidmət edən bir köpəkdən fərqsizdirlər. Doğrudan da, başçının köpəyi olan o üç polis həmin keyfiyyətləri əsər boyu öz varlıqları və fəaliyyətləri ilə təsdiqləyirlər. Buna görə də kənddə ədalət adına heç nə qalmamışdır. Bunu müəllif simvolik dillə təsvir edir, xüsusilə də məhkəmə salonunun təsvirində: salonda kitablar və masalar toz içində idi. Buradakı hər şey köhnə-kürüş idi, bircə başı keçəl, qarnı şiş, əli sinəsində çarpazlanmış prezidentin, altında "Sülh və ədalət" loqosu yazılan portreti təzə idi. Mürəkkəb qutuları da qurumuşdu. Göründüyü kimi, müəllif burada informativ təsvirdən istifadə edir. Və çatdırmağa çalışır ki, ədalət mürəkkəb qutusunda qaxac olmuş mürəkkəb, kitab rəflərini basan toz qədər dəyərsizləşib. Ədalətdən içkili ikən çaşıb bəhs edən – bələdiyyə seçkilərində ədaləti bərpa etmək üçün gəldiyini deyən əvvəlki hakim Vitelanı polislər səhəri günü qətl edirlər. Çünki, ölkədəki bütün cinayətlər, hətta cinayətə cinayət adı verilib-verilməməsi məhkəməyə çıxarılmadan məlum şəxslər tərəfindən həll olunur. Nəticədə, əsərdə hakim Arkadio bekarçılıqdan və avaraçılıqdan başqa heç bir işlə məşğul olmur və müəmmalı şəkildə də aradan çıxır. Lakin toz basmış bu məhkəmə salonunu ziyarət etməkdə, onu tozlu taleyinin öhdəsinə buraxmamaqda müəllifin məqsədi nə idi? Çünki despotizmini masqalamaq üçün "bura demokratik ölkədir" şüarı ilə tez-tez çıxış edən bələdiyyə başçısı məhkəmənin "fəaliyyət göstərməyini istəyirdi". Ancaq yenə də əsərin əvvəllərində verilən bu epizoddan sonra əsərin sonuna qədər məhkəmənin hər hansı bir fəaliyyətini görmürük. Hakim Arkadio ancaq ölülərin öldüklərinə dair rəsmi sənəd tərtib etməklə məşğul olur, o da ki, yalnız başçının buyruğu ilə.

Bələdiyyə başçısı sadəcə məhkəməni deyil, kilsəni də idarə edir. Hətta bəzən insan dilemmaya qapılır: hökm verən kilsədir, yoxsa bələdiyyə? Çünki pasquin müəlliflərini tapmaq üçün törədilən həngamələr onun təhriki ilə başlayır. Kilsə başçısı Angel ata mülkədar ailələrindən xeyli "bəxşiş" qəbul edir, xalqa tərəf durduğu, onun əlindən tutduğu heç bir məqam yoxdur, dialoqları və fəaliyyət trayektoriyaları ancaq mülkədar ailələri və bələdiyyə başçısı ilədir. Xalqa qarşı yeganə əməli ancaq onları hansısa siyasi çaxnaşmaya cəzb etmək həmləsidir. Məsələn, kinoteatrda nümayiş etdirilən filmlərin izlənməyə uyğun olub-olmadığını Angel ata müəyyənləşdirir. Uyğun olmayan film nümayiş etdirildikdə kilsə zənglərini çalır. Sonra isə kimin kilsə qadağasını çeynəyəcəyini görmək üçün qapıda güdükçü durur. Əsər boyu ancaq bu işlə məşğul olur, ta ki, qapılara yapışdırılan pasquinləri ciddiyə alıb "nəsə etməyin" vaxtı gəlib çatdığını anlayana qədər.

Mistik simvolizm. Kilsədəki daxili çürüklüyü müəllif həm bu cür əyani şəkildə, həm də mistik-simvolik obrazlandırma yolu ilə açmağa çalışır. Məsələn, əsər boyu kilsəni siçanlar basır və tez-tez kilsə dəhlizlərində, hətta, müqəddəs suyun içində siçan cəsədləri peyda olur. Siçan sözü latın dilində oğru mənasını verən "mus" olaraq adlanır. Lakin qədim inanclarda, məsələn, yəhudi mifologiyasında siçan kirli heyvan, Nuhun gəmisini batırmaq üçün taxtanı gəmirərək gəmidə deşik açan, yəni bəla gətirən heyvan olaraq dəyərləndirilir; xristian folkloruna görə isə siçan şeytanın köməkçisidir. Lakin bütün mədəniyyətlərdə siçan kələkbazlıq və yeraltında yaşadığı üçün yeraltı dünyası ilə əlaqələndirilən şər (bir çox mifologiyalarda cəhənnəmin yeraltında olduğuna inanılır) simvolu olaraq dəyərləndirilir. (link-bookmark-science-opera) Əsərdə də siçanlar şərin və kələkbazlığın baş alıb getdiyi bir məkanı öz izdihamlarına qərq edirlər. Maraqlıdır ki, bu siçanlar ölürlər. Əsərdə səbəb olaraq, siçanları öldürmək üçün Angel atanın köməkçisi Trinidadın tətbiq etdiyi üsullar göstərilsə də, bu ölümlər əsrarəngiz bir şəkildə əsər boyu davam edir. Bu, əslində şərin kəskinliyinin simvolik obrazlandırılmasına işarədir. Müəllif burada simvolik bənzətmə metodundan istifadə etmişdir. Necə ki, "Patriarxın payızı"nda genlərində leş qoxusunun iştaha açıcı olduğu yazılan quzğunlar həmin qoxulardan boğulub rənglərini dəyişirlər, saralıb-solurlar, burada da siçanlar bioloji quruluşlarına zidd bir şəkildə boğulub-ölürlər.

Burada şər o qədər kəskin bir dərəcəyə çatmışdır ki, şər mahiyyətli siçanlar belə, bu həcmi daşıyacaq potensialdan acizdirlər.

"Yüz ilin təbhalığı"ndan fərqli olaraq, mistika burada sadəcə müəyyən detallar şəklində özünü göstərir, hadisələrin gedişatına, nəticədə əsərdəki bədii-ideoloji konstruksiyaya təsir edə bilmir. Müəllif müsahibələrinin birində əsərdə bəhs olunan adı naməlum kənd haqqında belə bir fikir söyləyir: "Orada, demək olar ki, sehr heç yoxdur. O məkan haqqında yazdıqlarımın jurnalist üslubuna yaxın bir bədii üslubla yazılmasının səbəbi də budur." (səh. 214 GM) Sözü gedən məkanı müəllif üç əsərində istifadə edib: "Polkovnikə məktub yoxdur", "Arzuolunmaz saat", "Gözlənilən bir qətlin tarixçəsi". Bu siyahıya "Patriarxın payızı" əsərini də daxil etmək olar. Sadəcə olaraq, orada artıq konkret bir kəndin deyil, bütövlükdə bir dövlətin obrazı yaradılır. Hər üç əsərə də fikir versək görərik ki, mistikadan uzaq və uzaq olduğu üçün də, yaşadığı fəlakətlər ucbatından ümidsizlik batağında çırpınan insanların - xalqın obrazını görərik. Çünki mistikanın ən böyük silahı təbiətdir, yağan yağışlar, evi basan siçovullar, həşəratlar və s.lərdir. Bütün magik-realist əsərlərdə haqsızlığa qarşı dürüst bir şəkildə sözünü deyə bilən, müəllifin yeganə mübarizə silahı da mahiyyəti etibarilə saflığı simvollaşdıran təbiətdir. Despotizmin təbiəti belə, tərksilah edəcək qədər faciəvi kəskinliyə çatdığı məkanlarda nə mistikadan, nə də sehrdən söhbət gedə bilər. Geriyə isə sadəcə baş verən hadisələri jurnalist dəqiqliyi ilə nəql etmək qalır.

Bədii optimizm. Hər üç əsərdə də vəziyyət demək olar ki, eynidir. Lakin "Arzuolunmaz saat" əsərində müəyyən qədər fərqlər var. Burada həm mistik, həm də real olaraq, ümiddoğurucu məqamlar var:

a) "Patriarxın payızı"nda prezidentin gözlərinə baxmaqdan belə, qorxan, ona ünvanladığı sözləri ancaq "eşq olsun böyük atamıza" tipli sevgi etiraflarından ibarət olan xalq "Arzuolunmaz saat" əsərində başçının gözlərinə baxaraq qorxmadan ona etirazlarını bildirir. Məsələn, başçı zor gücünə dişçidən dişini çəkməsini tələb edərkən, keyidici vurması əmrini verir. Dişçi isə cavabında "siz isə öldürəndə keyitmirsiniz" deyir. Bu tip daha çox nümunə göstərmək olar. Xalq başçıya münasibətini açıq-açıq göstərməkdən çəkinmir. Maraqlıdır ki, başçı öz iqtidarının gücünə o qədər arxayındır ki, bu münasibətlərə məhəl qoymur. Ancaq xalq nə qədər aclıq və səfalət içində sürünsə də ümidsizliyə qapılmır, mübarizə güclərinə sarılır. Pasquin yazıları da buna əyani sübutdur.

b) Maraqlı detallardan biri də müəllifsiz yazılar – pasquinlərdir. "Patriarxın payızı"nda patriarxın evinin içinə, tualetinin divarlarına qədər gəlib çıxan anonim tənqidlər (hətta çox vaxt, patriarxa ünvanlanmış söyüşlər və qarğışlar) onun üçün ancaq əyləncə vasitəsi olur. "Arzuolunmaz saat"da isə qapılara yapışdırılan yazılar başçını qorxudur və lazım olsa xalqı xalqa qırdırmaq planlarını qurmağa sövq edir.

c) Burada təbiət də iki cəbhəyə bölünüb: şərdən doğan ümidsizliyi simvollaşdıran ölü siçovullar və ümiddən doğan mübarizə gücünü simvollaşdıran dayanmadan yağan aramsız yağışlar. "Patriarxın payızı"nda qızılgüllərin açması, yağışın yağması, hətta buludların idarəsi belə, patriarxın əlində idi. Ancaq onun əmr etdiyi vaxtda qızılgül açır, yağış yağır, buludlar göy üzünü örtürdülər. Ancaq bu əsərdə yağışlar bələdiyyə başçısının əmrinə tabe olmurlar. Başçı göylərə ultimatum göndəribmiş kimi məlumat verir ki, çərşənbə günü yağış yağmayacaq. Lakin həmin gün göydən leysan yağışlar tökülür. Təbiət belə, xalq kimi başçısının "üzünə durur".

d) Bütün konservator despot obrazlarında olduğu kimi bu əsərdəki obrazında da müəllif falabaxma ilə bağlı məqamı unutmamışdır. Lakin falabaxma detalı belə, bu əsərdə fərqli şəkildə obrazlandırılmışdır. Falçı qadının sözlərinə görə, ölkəni idarə edən, kimilərinin də qətlinə fərman verən patriarxdan fərqli olaraq, burada başçı fala nə qədər bel bağlasa da heç nə əldə edə bilmir. Falçı qadın belə, pasquinləri yazan adamın kimliyini öyrənmək istəyən başçını barmağına dolayır: "Fala çoxdan baxmışam, günahkar həm hər kəsdir, həm də heç kim" deyir. Halbuki patriarxın falçısının bu cür qeyri-müəyyən cavab verməyə cürəti çata bilməzdi.

e) Burada təbiət sadəcə yağış şəklində deyil, heyvan cəsədləri şəklində də münasibət bildirir. Kilsəni siçan cəsədləri basır, dənizdə ölü inək cəsədi peyda olur və onun üfunət qoxusu aləmə yayılır, yağışın viran qoyduğu kənddə sularda pişik cəsədi üzür, hətta bir vaxtlar kilsəyə ölü quşlar yağması haqqında hekayə nəql olunur. Bu, bəlkə də ölüm və üfunət qoxan insanlığa təbiətin fəryadıdır, üsyanıdır.

Əsərdə iki cinayət var: pasquinləri yayan Pepe Amador, və namus cinayətinə qurban gedən keşiş. Lakin bu cinayətlər də başçının despotizmi ilə birbaşa əlaqələndirilmir. Pasquinləri yayan Pepenin ölümü belə, başçının əmri ilə deyil, qəza nəticəsində baş veribmiş kimi göstərilir. Bu da başçının xarakter yaradıcılığında müəyyən qədər anlaşılmazlıq yaradır. Əsərin sonu da müəyyən bir müəmma içində bitir. Partizanlara qoşulan insanlar həbs olunur və nəticədə həbsxanada insan əlindən "çöp atsan yerə düşmür". Bunu anlamaq mümkündür, əsərin yazıldığı illər elə çaxnaşmalı bir dövr idi ki, insanlar bir yandan ümid bəsləyərək partizanlara qoşulub mübarizə aparır, digər tərəfdən isə qətl edilən yüzlərlə insan cəsədi gələcəyi, kimin qalib, kimin məğlub olacağını böyük bir sual altında qoyurdu. Hələ hər şey qabaqda idi...

Nəticə

Digər əsərlərindən fərqli olaraq, burada yazıçı öz mövqeyini xalq obrazının timsalında göstərmişdir. “Patriarxın payızı”ndakı cahil, onların başına min oyun açan siyasi rəhbərlərinə saf eşqlə səcdə edən xalqdan fərqli olaraq, bu əsərdə xalq öz haqq və hüquqlarının, konservator vəhşiliklərinin fərqindədir, mənzərəni aydın şəkildə dərk edir; “Yüz ilin tənhalığı” əsərində haqsızlıqlara qarşı mübarizəsini açıq şəkildə aparıb mitinq keçirdən və “naşılığı” ucbatından kütləvi şəkildə qırılan xalqdan fərqli olaraq, buradakı xalq daha “tədbirlidir”, etirazlarını açıq şəkildə, məlum kimliklərlə etməkdənsə, anonim yazılan pasquinlərdən istifadə edir. Xalq obrazında ortaya çıxan bu sirli mübarizənin əsrarəngizliyini Markes də öz yazıçılıq maneraları ilə qorumağa çalışır, pasquin yazanların evlərinə getmir, yazdıqları yerdə canlandırmır, ümumiyyətlə, kimliklərini hətta oxucuya da bəlli etməkdən qaçır. Çünki buradakı xalq əslində yazıçının öz obrazıdır. Həqiqətləri aydın şəkildə dərk edən, lakin mübarizəsini qələmi ilə aparan bir yazıçının obrazı...

Ədəbiyyat

1. Ali Çimen. Tarihi Değiştiren Liderler. Timaş Yayınları. İstanbul 2014
2. Gabriel Garcia Marquez. Labirentindeki General. Can Sanat Yayınları. İstanbul 2016
3. Gabriel Garcia Marquez. Yaprak fırtınası. Can Sanat Yayınları. İstanbul 2017
4. Gabriel Garcia Marquez. Gözlənilən bir qətlin tarixçəsi. Qanun Nəşriyyatı. Bakı, 2011
5. Gabriel Garcia Marquez. Kırmızı Pazartesi. Can Sanat Yayınları. İstanbul 2013
6. Gabriel Garcia Marquez. Şer Saati. Can Sanat Yayınları. İstanbul 2017
7. Gabriel Garcia Marquez. Hanım Ana`nın Cenaze Töreni. Can Sanat Yayınları. İstanbul 2016
8. Gerald Martin. Gabriel Garcia Marquez – Bir Ömür. Türkiye İş Bankası Kültür Yayınları. İstanbul 2012
9. James Petras, Henry Veltmeyer. Latin Amerika`da devlet iktidarı ve toplumsal hareketler. Kalkedon Yayıncılık. İstanbul, 2007
10. Qabriel Qarsia Markes. Seçilmiş əsərləri. Şərq-Qərb nəşriyyatı. Bakı 2010
11. Qabriel Qarsia Markes. Yüz ilin tənhalığı. Qanun nəşriyyatı. Bakı 2011

A writer attitude to the history in “in evil hour” by gabriel garcia marquez: difference from the other works

Summary

The article discusses Gabriel Garcia Marquez's “In Evil Hour”, one of the most prominent works of Latin American literature, on historical and political issues. The subject of the work is the historical and political events of Colombia in 1940-1950. The article consists of an introduction, 4 subheadings and a conclusion:

The "Introduction" section provides an overview of the work and the period in which it was written.

The sub-heading “Historical-political landscape” analyzes the historical-political landscape that the author tries to create against the background of the activities of the image of the mayor, who is the central hero of the work.

The sub-heading “Individual-artistic stylistic qualities” examines the qualities of the journalistic style used by the writer in the work, explains the indifferent and indirect methods of description in the description of events and situations.

In the sub-heading "Mystical symbolism", the work deals with mystical-symbolism, which appears in the form of animal motifs, analyzes the essence of folklore and the symbolic meanings imposed by the author, turning them into artistic details.

The sub-heading "Artistic Optimism" analyzes the writer's position in the depiction of history in the work, and discusses the artistic implication of Marquez's optimistic approach.

The “Results” section summarizes the research ideas.

В романе Габриэля Гарсии Маркеса «проклятое время» отношение писателя к истории: отличие от других работ

Резюме

Статья посвящена одному из важнейших исторических и политических романов в латиноамериканской литературе «Проклятое Время» Габриэля Гарсиа Маркеса. Предметом работы является историко-политические события происходящиеся в Колумбии в 1940-1950-х годах. Статья состоит из введения, 4 подзаголовок и заключения.

Раздел «Введение» содержит обзор романа и периода в который он был написан.

Подзаголовок «Историко-политический пейзаж» анализирует историко-политический пейзаж, который автор пытается создать на фоне деятельности образа мэра, главного героя романа.

В подзаголовке «Индивидуально - художественные стилистические качества» рассматриваются качества журналистского стиля, использованного писателем в романе, объясняются безразличные и косвенные методы описания в описании событий и ситуаций.

В подзаголовке «Мистическая символика» говорится о мистической символике, которая в романе проявляется в форме животных мотивов, анализируется сущность фольклора и символические значения наложенные автором, превращающие их в художественные детали.

Подраздел «Художественный оптимизм» анализирует позицию писателя в описании исторических событий в романе и анализирует художественные последствия оптимистического подхода Маркеса.

Раздел «Результаты» обобщает идеи исследования.

DOI: 10.36719/2020/REK/01/40-43

Gülqız Hacıbala qızı Adilova
Bakı Slavyan Universiteti
gulagh2@gmail.com

BAYATILARIN DİLİNDƏ BƏDİİ TƏSVİR VASİTƏLƏRİNİN LİNQVO-POETİK İMKANLARI

Açar sözlər: *bayatı, epitet, metafora,metonimiya, şifahi nitq*
Key words: *bayati, epithet, metaphor, metonymy, oral speesh*
Ключевые слова: *баяты, эпитет, метафора, метонимия, устная речь*

Giriş

Bayatılar xalqın söz ehtiyatının zənginliyini, səs quruluşunun səlisliyini və qrammatik strukturunun sabitliyini özündə əks etdirən mükəmməl şifahi ədəbi dil nümunələrindəndir. Məhz buna görə də bayatıların linqvistik-poetik baxımdan tədqiqata cəlb olunması zərurdir.

Məqalədə əsas məqsəd bayatı kontekstində faktik dil materiallarına əsaslanara qxalq dilinin inkişaf mərhələlərində şifahi ədəbi dilin poetexniki səviyyəsini, folklor üslubunun dil qatlarındakı rolunu, fikir ifadə etmək imkanlarının rəngarəngliyində bədii təsvir vasitələrinin əhəmiyyətinin dilçilik nöqteyi-nəzərdən araşdırmaqdır.

Hər bir xalqın yaratmış olduğu şifahi ədəbiyyatı onun tarixi ilə sıx bağlıdır. Zəngin söz xəzinəsi olan bayatılar əsrlər öncə xalqın şifahi nitqinin necə formalaşmağa başlamasından və zaman keçdikcə daha da inkişaf edərək zənginləşməsindən xəbər verir.

Cəmiyyət təbiətin ayrılmaz hissəsi olduğu üçün təbiətə məxsus harmoniya, təbii çalarlılıq hələ ilkin dövrlərdən insan şüurunda öz əksini tapmışdır. Beləliklə, özlərinin də xəbəri olmadan insanların iç dünyaları ilə təbiət arasında təbii bir bağ – harmoniya, ahəngdarlıq yaranır. Zaman keçdikcə yazı və oxu haqqında təsəvvürləri olmayan insanlar bu vasitələrdən məharətlə istifadə edərək artıq özlərinin" nitq kitabları"nı – nəğmələrini, laylalarını, bayatılarını, dastanlarını yaradırlar. Məhz bu baxımdan da folklor dilinin poetika və dilçilik problemlərinin həllində müəyyən özünəməxsusluğu vardır.

Folklor nəzəriyyəçilərindən M.A.Kumaxov və Z.Y.Kumaxova şifahi ədəbiyyatın öyrənilməsinin əhəmiyyətini belə şərh edirlər: "Xalqların tarixinin ilk mərhələsində yaranan şifahi-ritorik dil, uzun müddət mövcud olan prosesdə, linqvistik vahidlərin seçilməsi və təşkili şahzadələri kimi ictimai həyatın müvafiq sferasında öz funksiyalarınn həyata keçirilməsinin məqsəd və vəzifələri ilə müəyyənləşdirilmiş linqvistik və kompozisiya formalarını inkişaf etdirmişdir" (1,c.68)

Bayatıların dilində bədii təsvir və ifadə vasitələrinin kifayət qədər işlənməsi nəticəsində obrazlılıq artır, dilin poetik imkanları daha qabarıq üzə çıxır. Bütün bunlar insanların duyğu və düşüncələrinə estetik don geyindirməklə fikri ifadə etmək bacarığından irəli gəlir. Əminliklə demək olar ki, bayatı estetikasının əsasları ana dilində işlənən sözlərin meyarından asılıdır. Xalq danışıq leksikasında frazioloji birləşmələrin, məcazların işlənilməsi fikrin ifadəsində forma və məzmunun ahəngdarlığını yaradan estetik hadisə kimi üzə çıxır:

Aydındır ki,məcazi məna daşıyan söz əşya və hadisələri adlandırmaqla kifayətlənmir, həm də onları təsvir edir. Məhz bu xüsusiyyətinə görə məcaz bədii təsvir vasitəsi hesab olunur. Bu səbəbdən də, xalqın şifahi söz sənətinin bariz nümunələrindən olan bayatıların bədii xüsusiyyətlərini üzə çıxarmaq üçün məcazlar sistemini öyrəmək əhəmiyyətlidir. Bayatı kontekstində məcazlar xalq dilinin poetik potensialını üzə çıxaran ən mühüm vasitələrdəndir.

Məlumdur ki, məcazlar leksik və üslubi məcazlar olmaqla sözləri də iki yerə bölür: O sözlər ki, dildə yeni mənalar yaradır, onlar lüğət tərkibində törəmə leksik məcaz kimi qeyd olunur. Belə məcazlar leksik məcazlar adlanır. Məs.: Başa düşmək, duymaq, anlamaq, dərk etmək və s.

Bütün poetik məcazlar isə üslubi məcazlar adlanır ki, bunlar da üslubiyyat və ifadələrlə bağlıdır. Üslubi məcazlar bədii söz üstalarının fərdi laboratoriyalarında yaranan ifadələrdir. Onlar mətn daxılında mənasını saxlamır. Çünki, istər şifahi, istərsə də yazili ədəbi dil nümunəsinin yüksək sənətkarlığını əsasən, bədii təsvir vasitələri olan məcazlar müəyyən edir. Aydındır ki, sözün poetik funksiyası ən çox bədii təsvir və ifadə vasitələri ilə özünü göstərir.

Bayatıların dilinin xəlqiliyi, zənginliyi milli poeziyanın meyarı kimi hər zaman yüksəkdə durur. Bunu ibtidai poeziya vəzninin - hecanın aparıcı, milli vəzn kimi yüksək mövqe tutmasında görürük. Bayatıların strukturu, vəzni, poetik ritmi onların bədii-estetik mahiyyətini bir daha artırır.

Şifahi ədəbiyyat nümunələrini incələdikcə xalqın yaradıcılıq təxəyyülünün zənginliyini bir daha görmüş oluruq. Bu da zaman-zaman söz sənətkarlarının, ədəbiyyatşünasların diqqətindən yayınmamış, ümumən, bütün dövrlərdə folklor nümunələrinin cəmiyyətin dünyaya baxışının formalaşmasındakı rolunu xüsusi qeyd etmişlər.

XX əsrin birinci yarısında Amerika ədəbiyyatşünaslığında C.K.Rensom "yeni tənqid" konsepsiyasında "poeziya bilik kimi" təlimini irəli sürür. Onun fikrincə, "poeziya poetik təcrübə yaradır...İdeyaların və detalların qarşılıqlı təsirindən çıxış edən sənət əsəri dünya haqqında ontoloji bilik verir, dünyanı "miniatür qismində" təqdim edir". (2, s.40) Məhz bu poetik təcrübənin əsasında bayatıların dili obrazlı təfəkkürün ifadə vasitəsi olan epitet, təşbeh. metonimiya, metafora, təkrir və s. olduqca zəngindir.

Epitet (bədii təyin) yunan sözü olub qoşma, yəni bir sözün digər sözə qoşulmasıdır. Beləliklə də əmələ gələn bədii söz birləşmələrinin bir tərəfi olur. Epitet sözün geniş mənasında dünyanı təsvir edən söz deməkdir. Bu təsvir adi təsvir deyil. Onun əsas əlaməti obraz yaratmaq xüsusiyyətinə malik olmasıdır. K.V.Nərimanoğlu haqlı olaraq qeyd edir: "Epitet təsvir edilən hadisənin bu və ya digər əlamətlərinin meydana çıxarılmasında, onun qiymətləndirilməsində mühüm rol oynayır, haqqında bəhs edilən əşyaya aydınlıq, obrazlılıq verir, onun haqqında canlı təsəvvür yaradır". (4, s.110).

Epitet obraz yaradan söz oalaraq bədii üslubun əsas göstəricilərindəndir.

Zəngin söz xəzinəsi hesab edilən şifahi ədəbiyyat nümunələri örnəklərində fikrin obrazlı ifadə tərzi insanların təbiət və cəmiyyət hadisələrinə verdikləri emosional reaksiyanın göstəricisidir. Əməkçi insanlar onlara hökm edən təbiət hadisələrini, gündəlik həyatlarındakı ağrı-acıları, öz aralarındakı təzadlı münasibətləri yox etmək üçün söyləyəcəkləri sözlərin əvvəlinə daha lətif və könül oxşayan kəlmələr əlavə edirlər. Bləliklə də, epitet olan hər hansı söz öz əlamətini təyin etdiyi sözün üzərinə köçürür və dünyanın ədəbi mənzərəsini yaradır. Məs.:

1. Gəl gedək *daş* bulağa,
   Suyu sərxoş bulağa... (4,s.307).
2. *Dəli* könlüm, ah çəkmə,
   Çoxları sın kimidir. (4, s.249)

Bu cür təyinedici sözlərə bədii təyinlər də deyilir. Lakin epitet adi təyindən fərqli olaraq məcazi mənada işlənir.

Bayatılarda epitetlər yüksək sənətkarlıqla işlənmişdir:

1. Əzizim yasdandı,
   Qara baxtım yasdandı. (4,s.216).
2. Mənim *sınıq könlümə,*
   Eyəmədi çara yar. (5, s.31).

Göründüyü kimi, verilmiş nümunələrdə *qara bəxt* və *sınıq könül* birləşmələrinin yerinə *bəxti gətirməyən, inciyən qəlb* ifadələri işlənsə idi, o zaman lirik qəhrəmanın çəkdiyi iztirabların ağrlığı bəlkə də yetərincə hiss olunmazdı. Deməli, epitet olan sözlər həm də, hisslərin, emosiaların poetik meyarıdır.

Təşbeh. Təşbeh (bənzətmə) bayatılarda tez-tez rast gəlinən təsvir vasitələrindən biridir. Təşbeh məcazın sadə növlərindən biri olub bir əşyanın özündn qüvvətli başqa bir əşyaya bənzədilməsinə deyilir.

Məcazın ən sadə növü olan təşbeh bayatılarda, ümumiyyətlə, poeziyada ən çox işlədilən bədii təsvir vasitələrindəndir. Təşbeh müqayisə və tutuşdurma yolu ilə yaradılır. Bu zaman bənzədilən surət daha çox nəzərəçarpacaq olur.Təşbehin aşağıdakı tərkib hissələri var.

1) Bənzəyən. 2) Bənzədilən. 3) Bənzətmə qoşması. 4) Bənzətmə əlaməti.

Dörd ünsürün içtirak etdiyi təşbeh mükəmməl təşbeh adlanır. Bayatıların dilində müqayisə xüsusiyyətlərinə, məna və quruluş formalarına görə müxtəlif təşbehlərə rast gəlmək olur. Burada səma cisimləri, təbiət hadisələri, heyvanlar və quşlar, zaman anlayışlarını bildirən sözlər, gül-çiçəklər, ümumiyyətlə, bizi əhatə edən maddi aləmdə nə varsa bənzədiıən obyekt olur. Məs.:

1. Ağlaram *ağlar kimi,*
   Dərdim var *dağlar kimi...(*6, s.16).
2. Araz *üzüm kimidir,*
   Üzüm *düzüm kimidir....(*4, s.249)
3. *Ay kimi* şəfəq saçdı,
   Gün kimi batdı, getdi. (6, s.27).
4. *Yarpaq tək* əsən olsan,
   Səbrimi kəsən olsan... (7, s.119).

Göründüyü kimi bayatılar *kimi* və *tək* qoşmalarının iştirakı ilə yaranan mükəmməl təşbehlərlə zəngindir.

Bayatılarda elin toyu, yası, adət-ənənəsi, ən həzin duyğuları əks olunur. Bütün bünlar isə təşbehlər vasitəsi ilə daha qabarıq ifadə olunub.

Mən aşiq ağlar kimi, Səni görcək açıllam,
Saç-saça bağlar kimi. Bülbüllü bağlar kimi. (5, s.22).

Verilmiş bayatı iki hissədən ibarətdir. Təşbehlər hissələr arasında bədii təzad yaradıb: Birinci hissədəki təşbehdə bənzədilən Azərbaycanın qədim bir yas adətidir. Lirik qəhrəmanın sevgilisinin həsrətindən yana-yana ağlaması saç-saça bağlamaq adəti ilə müqayisə edilir. Bu adətlə bağlı digər bayatı nümunəsi də var:

Ötüb də ağlaşarlar, Burda bir qərib ölmüş,
Saç-saça bağlaşarlar, Allah, ha ağlaşarlar. (6.s.9).

Bir zamanlar eldə, obada ölənin yaxın qadın qohumları cənazənin ətrafında dövrə vuraraq oturar, hörüklərinin uclarını bir-birinə bağlayaraq ağı deyərmişlər. Onlar qeyri-iradi hərəkətlər edən zaman hörüklər dartınar və qadınlara ağrı verərmiş. Bu fiziki əzabla onlar ruhi əzablarını dinləndirməyə çalışarmışlar.

Əvvəlki bayatının ikinci hissəsindəki təşbeh vasitəsi ilə isə birincinin əksinə olaraq gözümüzün önündə lirik qəhrəmanın sevgilisini görcək üzünün bülbüllü bağlar kimi açıldığı canlanır.

İbtidai poeziyanın bayatı adlanan bu kamil nümunəsindəki digər bədii təsvir vasitələri bizim gözlərimiz önündə ümumxalq təxəyyülünün geniş üfüqlərini açır. Kimi, nəyi necə gördüklərini və necə görmək istədiklərini incə poetik məqamlarla bir-birinə çatdırmaq həm də insanların yaradıcılıq xüsusiyyətlərini üzə çıxarır.

Qrammatik əlamətlərin iştirakı olmadan düzələn təşbehlər:

1. *Qönçə güləm,* bağdanam, 2. *Dodağın gül qönçəsi,*
Bənövşəyəm, dağdanam... (7, s.221). Açılsa bəzər bağı. (7, s.48).

Metafora. Leksik mənası köçürmə olan və bədii dildə çox işlədilən metafora dilçilikdə istiarə sözü ilə də əvəz olunur. Metafora bu və ya digər hadisənin və ya predmetin əlamətinin adı çəkilmədən digər bir predmet və ya hadisə üzərinə köçürülməsinə deyilir.Metafora bədii dildə, çox yayılmış məcaz növlərindən biridir. Xüsusən də onun ən mükəmməl nümunələri bayatıların dilində işlənmişdir. Aşağıdakı bayatılara diqqət edək:

1. Bostanda *tağım ağlar,* Mən ölsəm bu dərdimlə
Basma, *yarpağım ağlar,* Məzar(-da) *torpağım ağlar*. (4, s.314).

Burada insana xas xüsusiyyət tağın, yarpağın və torpağın üzərinə keçib. Başqa bir nümunəyə fikir verək:

2. Əzizim, *laçın ağlar,* Sənsiz tək ürək deyil,
Göydə *göyərçin ağlar,* *Kirpiyim, saçım ağlar.* (5, s.47).

Verilmiş nümunələrdə xalqın bədii təfəkkürünün daha bir poetik potensialı üzə çıxır. Bu da insana xas olan xüsusiyyətlərin iyirmi səkkiz hecaliq kiçik lirik parçada beş ayrı – ayrı predmetin üzərinə köçürülməsidir. Əslində, bu köçürmə lirik qəhrəmanın dərdinin siqlətinin poetik dillə harayının göstəricisi olmaqla yanaşı, həm də dil faktlarından məharətlə istifadə etmək bacarığının nümunəsidir. Əminliklə demək olar ki, bayatılar digər poetik janrlardan fərqli olaraq gül-çiçək, heyvan və quş adları, təbiət hadisələri adları ilə ifadə olunan metaforalarla daha zəngindir.

Əzizim ulu dağlar, Burda bir qərib ölmüş,
Çeşməli, sulu dağlar. *Göy kişnər, bulud ağlar*. (5, s.33).

Əksər hallarda, insana aid əlamət və keyfiyyətin cansız əşyaların üzərinə köçürülməsi hallarına da bayatılarda rast gəlinir:

Mən aşiq qazan ağlar, *Od yanar, qazan ağlar* (4,s.238).

Bayatıda *od yanar, qazan ağlar* ifadəsi bu gün də el arasında işlədilən bir deyimi xatırladır: "Ürək yanmasa, gözdən yaş çıxmaz". Dərd insana güc gələndə ürək yanır, gözlər qan-yaş tökür. Burada insana xas xüsusiyyər sənətkarlıqla cansız əşyanın-qazanın üzərinə köçürülür. Qazanın altında od yanır, içindəki su qaynayır, "ağlayır" qazan.

Bayatılarda işlədilən metafora təsvir edilən hadisə və əlamətləri xəyalən oxucunun gözləri önündə canlandırmğa kömək edir. Oxucu gah su üçün ağlayan sünbülü, dəryanın ortasında suya təşnə gülü görmüş kimi olur, gah da, heyva, nar deyib inləyən bağçanı məlul –məlul dolaşır.

1. Aşıq so(söz) deyib ağlar, Dəryada bir *gül* bitib,
Sümbül su deyib ağlar O da *su deyib ağlar*. (4.s.238).

Xalq onu çuğlayan dərdin ağırlığını ifadə etmək üçün zəngin söz xəzinəsindən məharətlə istifadə edərək mükəmməl məcazlar, o cümlədən, metaforalar yaratmış, bu ibtidai poeziya nümunələrinin bədii - estetik dəyərini ortaya qöymuşdur.

Metonimiya. Mənşəcə yunan sözü olan metonimiya bir-birinə bənzədilən hadisələr arasında real əlaqə olmaqla düzələn məcaz növüdür. Metonimiya zaman və məkan əlaqəsi əsasında bir adın başqa bir əşya və ya hadisə üzərinə köçürülməsi yolu ilə məcaziləşir.Məs.:

1. Dağlar dağladı məni, 2. Qoy məni *el götürsün*,

Ellər ağladı məni. (4, s.125). El yusun, el götürsün.(4, s.238).

Metonimiya, əsasən, şifahi nitqdə fikri qüvvətləndirmək üçün istifadə edilən məcaz növlərindən biridir. Bu məcaz növü ən çox şeir dili üçün xarakterikdir. Məhz ona görə də bayatıların dili metonimiya ilə zəngindir:

Şalım qara boyandı, Mən səni ağlayanda
Ucu yerə dayandı, *El səsimə oyandı.* (4, s.214).

Burada əzizi ölən qadının şalını qara rəngə böyayaraq ağılar deməsi və onun naləsindən elin - obanın adamlarının yuxudan oyanması poetik dillə ifadə olunur.

1. *El ağlar, oba ağlar,* 2. Mən özüm ağlamazım,
Gəlib qanlı da ağlar. (4, s.2). Görcək məni *yurd ağlar*. (4, s.242).

Bayatıların dili poetizmin əsas xüsusiyyətlərinin göstəricilərindən olan məcazi fiqurların nümunələri ilə zəngindir.

Nəticə

İrəli sürülən nəzəri fikirlərdən də aydın olur ki,bədii yaradıcılıq həyatın bir növ təqlidindən doğur. Bu təqlid bədii təqliddir. Həyat və təbiət hadisələrinin obrazlı inikasıdır. Bayatılar şifahi ədəbi dilin potensial ifadə imkanlarını üzə çıxarmaq, xalq təbii dilinin ümumi mənzərəsini əks etdirmək və dildə gedən inkişaf mərhələsini izləmək üçün zəngin material verən tükənməz xəzinə olmaqla bərabər, həm də poetik təcrübədir. Bu təcrübənin əsasında ümumxalq təfəkkürü bədii təsvir və ifadə vasitələri ilə cilalanır. Bunla da, sözün poetik siqləti, potensial gücü üzə çıxır.

Ədəbiyyat

1. Кумахов М.А. Кумахова З.Ю. Язык адыгского фольклора. Нартский эпос.-М.: «Наука», 1985
2. Quliyev Q. Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. 2011
3. Vəliyev K.N. Azərbaycan eposunun tarixi sintaksisi. Bakı: Oskar, 2009
4. Məmmədova A. Bayatılar. “Elm” nəşriyyatı, 1977.
5. Vəliyev V. Bayatılar. B.: Yazıçı, 1985
6. Abbaszadə M.A. Arvad ağısı. Bakı: “Səda”, 2004
7. A.Bəhlul, Abdullayeva Q.Məmmədli. Azərbaycan bayatıları. Bakı, 2004

"Linguopoetic possibilities of artistic means in the language of bayaty"

Summary

The main objective of the research is the linguistic and poetic study of the language of the bayatians, the products of national artistic mentality, based on existing language facts.

The article provides examples of the richness of faces transmitted at different times, so that the artistic representations of their language are sufficiently illustrated by the richness of the expressive abilities of their native language, the artistic potential of national thinking as aesthetic. At the same time, this perfect example of the so-called Bayaty of Primitive Poetry opens wide horizons of national imagination before our eyes. Research shows that the metaphorical growth of reality is one of the main conditions for the emergence of poetry.

Лингвопоэтические возможности художественных средств на языке баяты

Резюме

Основная цель исследования - лингвистического и поэтического изучения языков баяты, это продукты национального художественного мышления, основанных на существующих языковых фактах.

В статье приводятся примеры богатства выражений лица в разное время, поэтому художественные представления на их языке хорошо иллюстрируются богатством выразительных способностей родного языка и художественного потенциала национальной мысли как эстетической. В то же время этот прекрасный пример так называемой бухты первобытной поэзии открывает перед нашими глазами широкие горизонты национального воображения. Исследования показывают, что метафорический рост реальности является одним из основных условий возникновения поэзии.

DOI: 10.36719/2020/REK/01/44-46

Aytən Qəzənfər qızı Əliyeva
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
dissertant1@gmail.com

MİR CƏLAL ƏSƏRLƏRİNDƏ ANA OBRAZININ TƏHLİLİ

("Dirilən adam", "Açıq kitab", "Yolumuz hayanadır" romanları əsasında)

Ana ilahi qüvvə, ulu varlıqdır, alilik, adilik, aqillik zirvəsidir, yaşadan yaradan, ərsəyə gətirən, kamala yetirəndir, saf duyğular, zərif hisslər, incə mətləblər timsalıdır.
Ulu Öndər Heydər Əliyev

Açar sözlər: *Mir Cəlal, romanlar, ana obrazları, Ana vətən, müqayisəli təhlil*
Key words: *Mir Jalal, novels, mother images, motherland, comparative analysis*
Ключевые слова: *Мир Джалал, романы, образы матери, Родина, сравнительный анализ*

Mir Cəlal Paşayev XX əsr Azərbaycanın ədəbiyyat, mədəniyyət və elm tarixində şöhrət tapmış parlaq şəxsiyyətlərdən biridir. Mir Cəlal Azərbaycan ədəbiyyatı tarixində öz sənətkar mövqeyi ilə romanlarında ana obrazını lazımi tərənnüm edərək, onun böyüklüyündən, həyatdakı mövqeyini obrazlı şəkildə təsvir etmişdir. "Ana məhəbbəti kainat qədər sonsuz, həyat qədər şirindir. Dünyada ana qucağından isti bir yer, ana laylasından həzin bir musiqi yoxdur. Dünyanın ən gözəl musiqisi ana laylası, ən şirin ətri isə ana nəfəsidir" deyən yazıçının ana haqqında mülahizələri məqalədə araşdırılmışdır.

1928-ci ildən ədəbiyyata gələn yazıçı ömrünün sonuna qədər (1978) yazıb-yaratmışdır. 50 illik yaradıcılığı dövründə şeirlər, felyetonlar, oçerklər, tərcümələr, hekayələr, romanlar qələmə almışdır.

Mir Cəlalın romanları da Azərbaycan nəsrində fərqli hadisədir. Ədibin hekayələrində olduğu kimi, romanlarında da romanın diktə etdiyi ideoloji mətləbləri deyil, müşahidə etdiyi həyat həqiqətlərini və real insan obrazlarını əks etdirməyə nail olmuşdur. Onun romanlarında insanın fəaliyyətinə və mənəviyyatına canlı həyati proseslərin axarında, geniş planda orijinal yazıçı baxışları ifadə olunmuşdur. Mir Cəlal hekayəçilikdə nümayiş etdirdiyi yüksək sənətkarlığı romanlarında dərinləşdirərək daha da inkişaf etdirir. Çətin və mürəkkəb ictimai–ideoloji proses içərisindən o, həyati koloriti daha çox olan ibrətamiz hadisələri və yadda qalan sadə insanları seçib ümumiləşdirərək XX əsrin ortalarında Azərbaycan ədəbiyyatının yeni səhifələrini açmışdır.

Kiçik hekayə sahəsində böyük ustad adını qazanan yazıçı roman sahəsində də iti qələm sahibidir. "Dirilən adam" (1935), "Bir gəncin manifesti" (1940), "Açıq kitab" (1941), "Yaşıdlarım" (1948), "Təzə şəhər" (1951), "Yolumuz hayanadır?" (1957) romanları özünəməxsusluğu ilə seçilir. Müəllif qələmə aldığı hadisələri, insan xarakterlərini, onların arzu və istəklərini fərdi düşüncə tərzini, psixologiyasını inandırıcı bir şəkildə qələmə almışdır.

Mir Cəlal "Dirilən adam" romanı ilə Azərbaycan ədəbiyyatına mükəmməl tale yaradan qüvvətli yazıçı kimi daxil olmuşdur. İlk irihəcmli əsəri – "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi çap edilib. "Dirilən adam"da Qədirin başına gələn faciə təkcə bir kəndin deyil, bütöv bir məmləkətdə hökm sürən acınacaqlı vəziyyəti səciyyələndirir.

Yoxsul kəndli Qədirin şəxsi həyatı və ailəsinin taleyi əsərin mərkəzindədir. Onun şəhərdə mənəvi cəhətdən yetkinləşməsi, daha sonra "kəndin harayına" gəlməsi, kəndin oyanması yolunda Qədirin xarakterindəki təkmilləşmə yazıçını maraqlandıran əsas məsələdir.

Qədirin "dirilməsinin" bir də ictimai mənası vardır. Bu, təkmilləşən, öz insan hüqüqunu başa düşən, vaxtilə əzilmiş alçaldılmış və təhqir olunmuş bir insanın əvvəlcə tərəddüdlə, bir az sonra qəti inamla işığa, səadətə doğru addımlaması, mübarizə meydanına atılması deməkdir.

Təəssüf və qəzəb hissi ilə yaşadığımız elə səhnələr var ki, bu zaman oxucu olaraq roman oxuduğumuzu unuduruq. Sanki real həyatda həmin anı yaşayırıq. "Dirilən adam" romanında ürəyimizin tab gətirə bilmədiyi və bəlkə də ən acınacaqlı səhnələrindən biri: "Bəbir bəy uşağı qamışlıqdan çıxarıb, suyun qırağına gətirdi. Qılçalarından bərk tutdu, başını tovladı. Havada tovlandıqca uşaq içini çəkir, kəsmə-kəsmə səs çıxarır "ana" deyirdi...

Bəbir bir də bərk tovladı. Uşaq qorxusundan hıçqırırdı. Ona nə ediləcəyini bilmirdi. Bəy uşağı var qüvvəsilə qaldırdı, daşa çırpdı. Uşağın başı əzildi. Nar kimi xışıldadı. Yazıq bir səs eşidildi. Uşağın burnundan, ağzından, qulaqlarından gələn qan bitkiləri, cücüləri, heyvanları sulamaq üçün axan suyu boyadı.

Bəbir bəyin qardaşı Muxtar bəy huşunu itirmiş Qumrunu götürüb, atın belinə salmaq istəyirdi. Qumrunun gözü uşağa sataşanda onu dəhşət aldı. [2, s.127] Bu dəhşəti, qələm yazmaqdan, dil deməkdən acizdir, oxucum, özün təsəvvür et!" Bunu yalnız insanlıqdan kənar vəhşi birisi edə bilər.

Bu səhnəni gözü ilə görən ananı düşünün, görün nələr çəkmiş, nə hisslər keçirmişdir. Təbii ki, sözlə ifadə edilə bilməyən hisslər...

Ana məhəbbəti ən ülvi bir hiss kimi şifahi xalq yaradıcılığımızdan tutmuş yazılı ədəbiyyatımıza qədər bütün ədəbi nümunələrdə özünün geniş poetik əksini tapmışdır.

1941-ci ildə tamamlanan, lakin müharibə başlandığı üçün 1944-cü ildə ("Vətən uğrunda" №2, 3, 4-5) çap olunan "Açıq kitab" müəllifin nisbətən az öyrənilmiş, müasir mövzulu ilk romanıdır. Əsərin süjeti bilavasitə ziyalı mühiti, məktəb həyatı ilə bağlansa da, o sahə ilə məhdudlaşmır, 30-cu illərin mürəkkəb hadisələrindən də bəhs olunur. Dövrün bir sıra nöqsan və mənfilikləri cəsarətlə açıqlanır, "gəldiyevçiliyin" ictimai xarakteri dürüst müəyyənləşdirildi.

Romanda gəldiyevçilərlə yanaşı daşqəlbli ana obrazı da xüsusi seçilir. Ana sözünün özündə bir doğmalıq, istilik, məhəbbət var. Dünyada ana məhəbbəti qədər müqəddəs, ana sevgisi qədər ülvi bir hiss olmadığından, bəşər nəsli yarandığı ilk gündən bu munis qayğıya möhtac olmuşdur və indi də olmaqdadır. Ana haqqı-tanrı haqqı, ana qucağı behişt guşəsidir.

Burada danışılan ana isə tamamilə bu ada layiq olmayan bir insandır. Dünyaya yalnız övlad gətirməklə "ANA" adlanan Ağca xanımdan söhbət açılır: "Gecənin havaxtı idisə uşaq atəşdən yandı. Neçə dəfə "Ana! Ana!" deyib çağırdı. Ağca xanım oyanmadı. Gəldiyev eşik otaqda nə iləsə də məşğul idi. Uşaq onu çağırmağa cürət etmirdi. Qıçlarını güc ilə döşəkdən çəkib, aşağı salladı, durub pəncərə qabağından su götürmək istədi. Ayaqlarını yerə toxunduranda anlaşılmaz bir sevinc onun ürəyini tərpətdi, oynayan günləri, gəzdiyi, deyib-güldüyü yoldaşları yadına düşdü. Güman etdi ki, uzun illərdir yatır, yoldaşlarını çoxdan görməmişdir. O zamankı həvəs və hiss ilə qalxdı. Dayana bilmədi, yeriyəndə səndirlədi. Əllərini göyə qaldırıb guya havadan tutmaq istəyəndə, pul kimi döşəməyə sərildi: sanki ürəyi şaxta vurmuş meyvə kimi qopub düşdü; ancaq indi bildi ki, canı qalmamışdır..." Bu romanda insanı düşündürən laqeyd Ağca xanım və insanı kövrəldən İzzət obrazı özünəməxsusluğu ilə seçilir.

Uşağın cürət edib su istəməməsi, Ağca xanımın nisgili və ən nəhayət, susub getməsi ona pis təsir etdi. Özünün bu hökmranlığında doğrudan da çirkin bir niyyət olduğunu, deyəsən, onun qulağına pıçıldadılar. Heç olmasa, uşağın üzünə mərhəmətlə baxmaq üçün o biri otağa keçdi. Uşaq qorxusundan dərhal ufultusunu kəsdi, üzünü divara çevirdi...

Səhər Gəldiyev yerindən qalxanda Ağca xanım yanında yox idi. Dönüb baxanda onu uşağın çarpayısının başında gördü. Ölüm müdhiş qanadını uşağın üstünə gərmişdi. Uşağın dodaqları tamam göyərmiş, gözləri sönmüşdü..." İsti ana qucağına ehtiyacı olan körpə İzzət nəvazişsiz, sevgisiz bu dünyadan köçüb getdi. Cənnət quşu kimi ucalara yüksəldi. Balasının ölümündən sonra sanki yuxudan ayılan Ağca xanım diksindi, canı yandı, sızıldadı lakin hər şey gec idi. Çünki evin çırağı sönmüşdü". [3, s.371] "Ana böyük, təmiz, müqəddəs bir addır. Ana olan övladı üçün hər cür iztirab və məhrumiyətlərə dözməlidir. Yalnız özü üçün deyil, həm də övlad üçün, ictimai tərbiyə üçün yaşamalıdır!..." fikri ilə yaşayan Mir Cəlal bu romanda ANA adına layiq olmayan anacıqlardan bəhs edir.

Ana həyatımızın ən müqəddəs varlığı, ən ülvi canlısıdır. Ana qəlbində idraka sığmayan bir mərdlik, səbr və dözüm vardır. Bu mərdlik və dözümlülük qarşısında, bu ülvi məhəbbət qarşısında biz hamımız baş əyir, səcdə qılırıq. Ana məhəbbəti bir ümmandır. O, övladının xoşbəxtliyi uğrunda bütün əzablara sinə gərir, hər cür çətinliklərə dözür, od ətrafında fırlanan pərvanə kimi ürəyinin yağını əridir. Məşhur deyim var: "Ana kimi yar olmaz, Vətən kimi diyar". Hər birimiz üçün öz anası əziz və mehribandır. Ana qədər doğma olan ikinci məhfhum isə Vətəndir! Vətəni sevmək sadəcə torpağı sevmək deyil, vətənin daşını, havasını, suyunu sevmək deməkdir. Əks təqdirdə bu sevgi kamil sayılmır.

1957-ci ildə qələmə alınmış "Yolumuz hayanadır?" romanında Məsmə ananın balasına münasibətini bu cür görürük: "Amma bu əlləri nə gördü, nə yoxladı. Ancaq o, işlək fəhlə biləklərindən, uzun və iri barmaqlardan gələn doğma, isti, bakir övlad hissləri isti bir cərəyan kimi vücuduna axdı, onun bütün yorğun müztərib əsəblərini dikdirib dilə gətirdi. Məsmə bu əlləri lap körpəlikdə uşağın ağzından ayırıb necə bələyə bükər bağlayardı. O, bu əllərin hər ikisini ovcunda sıxıb necə qızdırardı. Bu əllərə neçə rəngli ip əlcəklər toxuyardı. Bu əllərə qaşıq tutmağı, çiling atmağı, çomaq oynatmağı necə öyrədərdi. Bu əllərdən o nə qədər tikan çıxarmış, yara bağlamışdı. Körpəlikdə bu əllər məhəbbət nəvazişlərindən məhrum, nakam anaya, sanki təsəlli almaq üçün onun üzündə, başında, saçında nə qədər mehriban-mehriban gəzmişdi. [4,275]

İndi o qadının gözündə nə çiçəkli çöllər, nə ətirli yamaclar, nə şırıltılı sular, nə təbiət, nə bahar var idi. İndi onun gözündə "zalım fələyin" səssiz dönən ağır, amansız çarxı var idi. Bu çarx hərləndikcə, Məsməyə yeni bir kasa zəhər gətirirdi. Bu həmin çarxdır ki, Məsməni cavan yaşında dul, gül kimi balalarını yetim qoymuşdu. Bu həmin çarxdır ki, Məsmənin tək, igid oğlunu, gözünün ağı-qarası Bəndalını şərə salıb qızıl gülləyə gətirdi. Bu həmin çarxdır ki, Əntiqəni ev-eşikdən dərbədər saldı.

Bütün ömrü Məsmənin gözündə ağır bir matəm dəsgahı kimi hərləndi. Ona elə gəldi ki, bu dövrün axırı çatmaqdadır. Həmin bu çarx peyğəmbər kimi nurani bir kişinin, söz-söhbəti şəhərlərə, vilayətlərə sığışmayan bir

şairin başında quzğun kimi hərlənir, caynaqlarını göyərçinə atmaq istəyir: "Bəd niyyətin gözündə qalsın. Mənim kimi, ağ günə həsrət olasan!"

Bütün etiqad və qətiyyəti ilə dediyi bu sözdə, sanki Məsmə düşmənینə bir ox vurmuş oldu. Bir an üçün özündə doğan yüngüllük əsən külək kimi ötüb getdi. Xatırladı ki, bu çarxın əlcəyi güclü əllərdə, Nikolay padşahın əlindədir. Hara istəyir, ora çevirir, hara istəyir ora çəkir! [4, s.343]

Bəşəriyyət yaranan gündən dünyanın bəzəyi qadınlar olub. Qadın çox ülvi bir məfhumdur. Qadına hörmət hər bir insanın ən yüksək mənəvi keyfiyyətə malik olmasını göstərir. Hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. "Ana" sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də "Ana Vətən" deyirik, torpağa da "Ana torpaq" deyirik. Hər bir insan üçün Vətəndən əziz heç bir şey yoxdur. Hər bir insan üçün onun doğma torpağından qiymətli heç bir şey yoxdur. Bu anlayışlar ana anlayışı ilə bərabərdir və biz Vətənə "Ana Vətən" deyəndə,vətənin nə qədər qiymətli, müqəddəs olduğunu bir daha qeyd edirik. Anaya hörmət, hər bir insanın həyatda ana qarşısında borcunu yerinə yetirməsi onun adil vəzifəsi olmalıdır.[1, s.235]

Dünyada misli bərabəri olmayan bu varlıq həmişə balasından nigarandı. ***Mir Cəlalın yaratdığı ana obrazları Məhəmməd peyğəmbərin dediyi kimi "Cənnət anaların ayağı altındadır" aforizminə layiq analardır.*** *"Açıq kitab" romanında yaradılan Ağca kimi soyuq, daş qəlbli ana obrazı isə bu həyatın acı reallığıdır. Bəli, çox təəssüf ki, həyatda belə analar da var. Ədib bu cür ana obrazı yaratmaqla yaxşıların qədrini bilməyə, onları qiymətləndirməyə çağırır. Yaxşı ki, cəmiyyətimiz üçün Sona, Məsmə kimi əsl qayğıkeş analar daha çoxluq təşkil edir. Ana övladını dünyaya gətirməklə yanaşı, həm də tərbiyə verməli, böyütməli, təhsil verməli və vətəndaşlıq vəsiqəsi verməklə şəxsiyyət kimi formalaşdırmalıdır.*

Ədəbiyyat

1. Əliyev H. Müdrik fikirlər. K.1. - Bakı, 2008. - 396 s.
2. Paşayev M.C. Dirilən adam. – Bakı: Azərnəşr, 1935. – 204 s.
3. Paşayev M.C. Seçilmiş əsərləri. – Bakı: Çaşıoğlu, 2005. – 380 s.
4. Paşayev M.C. Seçilmiş əsərləri. 4 cilddə. C.4. - Bakı: Gənclik, 1968. – 473 s.

Analysis of the Mother`s image in the works of Mir Jalal

Summary

Current article contains a generalized analysis of the Mother`s image in Mir Jalal`s novels: "The Risen Man", "The Open Book", "Where Do We Keep the Way?". In the novel The Risen Man, Gyumru talks about the suffering of her mother. In the novel "Open Book", there is a conversation about Agcha Khanum, which is called ANA, since it only gives birth to children. Unfortunately, cold, stony-hearted mothers like Agcha are the bitter realities of this life.

And in the novel "Where do we keep going?" A mother with one only son, the brave Bandalan, who was slandered and shot by a golden bullet, also tells about Antig, who suffered for wandering her home. All her life, the mother, who was murdered for her children, flashed through her eyes one of the most difficult days for her mother to mourn.

According to literary sources, "The mother's heart is the first school of mankind: an indestructible book of love, sincerity and fidelity". Every person in the world owes his mother his life and his existence. What is pure, good, holy, dear to everyone in the world: Mother!

Анализ образа матери в произведениях Мир Джалала

Резюме

Статья содержит обобщённый анализ образа матери Мир Джалала в романах «Воскресший человек», «Открытая книга», «Куда держим путь?». В романе «Воскресший человек» Гюмру рассказывает о страданиях своей матери. В романе «Открытая книга» ведется разговор об Агча ханум, которую называют АНА, поскольку она только рожает детей. К сожалению, холодные, с каменным сердцем матери, такие как Агча являются горькими реалиями этой жизни.

А в романе «Куда держим путь?» мать, имеющая одного единственного сына, храброго Бандалана, который был оклеветан и застрелен золотой пулей, также рассказывается об Антиге, которая страдала за скитание своего дома. Всю свою жизнь, мать, которая убивалась за своих детей, в глазах ее промелькнула один из сложнейших дней для матери траур.

Согласно литературным источникам, «Сердце матери - это первая школа человечества: нерушимая книга любви, искренности и верности». Каждый человек в мире обязан своей матери своей жизнью и своим существованием. Что чисто, добро, свято, родное для всех на свете: Мать!

DOI: 10.36719/2020/REK/01/47-49

Hüsniyyə Mədət qızı Çobanova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
cobanovahusniyye@gmail.com

GÜRCÜSTAN ƏRAZİSİNDƏ TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏRİN GÜRCÜLƏŞDİRİLMƏSİ

Açar sözlər: *Etnonim, toponim, xalq, tayfa*
Key words: *ethnotoponymy, toponymy, tribe, people*
Ключевые слова: *этнотопоним, топоним, народ, племя*

Giriş

Tarixən hər hansı bir etnos hansı əraziyə qədəm qoyub məskunlaşmışsa, heç şübhəsiz ki, həmin əraziyə öz adını vermiş və beləliklə də həmin bölgənin toponimiyasında öz dərin izlərini buraxmışdır. Bu baxımdan qonşu Gürcüstan ərazisində elə bir bölgə yoxdur ki, orada türk tayfalarının adları əsasında formalaşan etnotoponimlərə rast gəlinməsin. Tarixin qan yaddaşı hesab olunan etnotoponimlər ölkənin, xalqın, hətta dilin inkişaf tarixini öyrənmək üçün ən etibarlı mənbələrdən biridir. Xalqın tarixini, dilini, qədim mədəniyyətini öyrənmək, onun yaşadığı ərazilərdə izlərini tədqiq etmək, oboregenliyini sübuta yetirmək üçün etnotoponimlər əvəzedilməz mənəvi cəhətlərdəndir.

Gürcüstanın milli-etnik tarixinə nəzər saldıqda görürük ki, türklər (azərbaycanlılar) lap qədim dövrlərdən, bizim eramızdan çox-çox əvvəllərdən bu regionun bir çox yerlərində yurd salmışlar. Hal-hazırda azərbaycanlılar Gürcüstanın Borçalı (Kvemo-Kartli), Kaxet, Orta Gürcüstan (Şida Kartli) və mesxet-Mitanet diyarlarında, həmçinin, qədim Tiflis və müasir Rustavi şəhərlərində yaşamaqdadırlar. Tarixi qaynaqlarda paytaxt şəhəri olan Tiflisdə 730-cu ildə məscid tikilməsi və azərbaycanlılara məxsus ayrıca qəbirstanlığı olması barədə faktlar vardır. Tiflis şəhərində tarixən mövcud olmuş bir çox etnotoponimlər son dövrlərdə rəsmi sənədlərdə gürcüləşdirilsə də, xalq arasında hal-hazırda da öz əzəli adları ilə çağırılmaqdadır.

Etnotoponim tayfa və xalq adlarından yarandığından bu və digər tarixi mərhələdə mövcud olmuş etnik tərkib həmin etnotoponimlərdə yaşayır. Xalqın yaranması və onun formalaşmasında iştirak etmiş etnik komponentlərin müəyyən olunmasında" [1, 11] "xalqın ictimai-həyatı, orada məskunlaşmış xalqın dili ilə sıx surətdə bağlı olan" [2, 132] toponimlərin rolu mühümdür. Azərbaycan xalqının həm qlottogenetik təşəkkülündə, həm də etnogenetik təkamülündə fəal və güclü bir şəkildə iştirak etmiş türk etnoslarının Gürcüstan ərazisində məskunlaşma tarixi olduqca qədimlərə gedib çıxır.

Gürcüstan ərazisindəki türk mənşəli etnotoponimlər də xalqımızın minillik tarixindən xəbər verir. İ.Bayramov da doğru olaraq göstərir ki, "...toponimlər xalqın tale kitabıdır. Bu kitabı oxuduqca xalqın keçmişi, bu günü haqqında tam məlumat əldə etmək olur. Xalqın milli varlığını özündə əks etdirən toponimlər, hidronimlər, oronimlər, etnonimlər və urbanonimlər, bir sözlə, bütün onomastik vahidlər xalqın ana dilində yaranır və onunla yaşayır. [3,333]

Hər hansı bir xalqın ana dilində yaranan, yaşayan xüsusi adlarının bir dildən digər dilə tərcümə edilməsi yolverilməzdir. Ola bilsin ki, qohum olmayan dillərdə hər hansı bir xüsusi adı transkripsiya etmək olar. Lakin "yer adlarını dəyişdirmək sivilizasiyadan kənar iş olmaqla müəyyən xalqın, tayfanın izini itirmək məqsədinə xidmət edir. S.Rüstəmxanlının da qeyd etdiyi ki"...itib gedən adlar tarixi əhəmiyyət daşıdığına – qədim tayfa, sərkərdə, tarixi şəxsiyyət, nəsil adları, adət-ənənə, xalqın folkloru və dünyagörüşü ilə bağlı olduğuna görə, adların dəyişdirilməsi xalqın tarixinin öyrənilməsi prosesinə təsəvvürə gəlməz bir ziyan vurur və keçib gəldiyimiz tarixin izi və nişanələri yer üzündən silinir". [5,106]

Gürcüstanda türk mənşəli etnotoponimlərinin dəyişdirilməsinə keçən əsrin 30-cu illərinin sonlarında başlanılmış, 90-cı illərdən sonra bu siyasət daha da sürətləndirilmişdir. Regionda etnonimlər əsasında formalaşmış etnooykonimlərin bəziləri məhv edilmiş, bəziləri rəsmi qərarlarla gürcüləşdirilmiş və ya gürcü dilinə transkripsiya edilmişdir. Araşdırmalarımız göstərir ki, keçən əsrin 30-cu illərinin əvvəllərindən 90-cı illərinin əvvəllərinə kimi 60-a qədər yaşayış məntəqə adı dəyişdirilmişdir ki, bunun da 20-dən çox etnonimik səciyyəlidir. 1932-ci ilin fevral ayının 13-də Sarvan yaşayış məntəqəsinin adı əvvəl Borçalı, sonra Marneuli adlandırılmışdır. 12 iyun 1949-cu ildə Dmanisi rayonu ərazisindəki Cəlayir yaşayış məntəqəsinin adı dəyişdirilərək gürcü dilində Qora adlandırılmışdır. 1942-ci ilin aprel ayının 7-də Zalqa rayonu ərazisində yerləşən Yaqublu yaşayış məntəqəsinin adı dəyişdirilərək Çapayevka adlandırılmışdır. 1949-cu ilin 12 iyul tarixində Dmanisi rayonu ərazisində mövcud olmuş Mamıtlı yaşayış məntəqəsinin adı dəyişdirilərək Mtisdziri qoyulmuşdur.

1990-1992-ci illərdə Gürcüstanın Borçalı mahalında demək olar ki, böyük kəndlərin adları dəyişdirilmişdir. Bizim araşdırmamızın mərkəzində etnotoponimlər dayandığından aşağıdakı cədvəldə onların siyahısını veririk.

Yaşayış məntəqəsinin qədim adı	Dəyişdirilmiş yaşayış məntəqəsinin yeni adı	Yaşayış məntəqələrinin adının dəyişdirildiyi tarix
Abdallı	Cavaxi	1992
Babakişilər	Poçxvernani	1991
Əsmələr	Mçkneti	1991
Kolayır	Tsurtavi	1992
Qoçulu	Çapala	1992
Saraclı	Mamxuti	1992
Həsənxocalı	Xibiskuri	1992
İmirhəsən	Savaneti	1992
Daşdıqullar	Muxrana	1992
Faxralı	Talaveri	1992
Arıxlı	Naxiduri	1992
Muğanlı	Farizi	1992
Kəpənəkçi	Kvemo Bolnisi	1992
Kolayır	Surtava	1992
Aşağı Qoşakilsə	Kvemo Arkveni	1992
Yuxarı Qoşakilsə	Zemo Arkveni	1992
Mollaəhmədli	Xataveri	1992
Sarallar	Zvareti	1992
Mığırlı	Vaneti	1992
İncəoğlu	Şua Bolnisi	1992
Aşağı Güləver	Qeta	1992
Yuxarı Güləver	Djipor	1992
Dəmirli	Xaxlodjivari	1992
Kibircik	Djersi	1992
Arakol	Djedjipariani	1992
Zol-Güvəc	Zveli Kveşi	1992
Dəllər	Muşevani	1992
Bəytəkər	Bartakvi	1992
Qaradaşlı	İcrita	1992
Qaratikan	Saberiti	1992
Şişqala	Brlaxanli	1992
Tapan	Dspeli	1992
Çatax	Xaissopeli	1992
Ayorta	Akaurt	1992
Cəfərli	Samtredo	1992

Azərbaycanlıların köklü xalq olduğunu özündə əks etdirən qədim tarixə malik etnonimlər əsasında formalaşan etnotoponimlərinin dəyişdirilməsi prosesi gürcü dilinə məxsus coğrafi appelyativlərlə də həyata keçirilmişdir. Gürcülər bu prosesdə gürcü dilindəki "sopeli (kənd), zemo (yuxarı), kvemo (aşağı), did (böyük), patara (balaca, bala), xevi (dərə), ukapa (axırıncı), şvilis (oğus, oğlu) və s. [6, 26] coğrafi terminlərdən istifadə etmişlər.

Türk köklü tayfa adlarının gürcülər tərəfindən dəyişdirilməsi əməliyyatı bir neçə istiqamətdə həyata keçirilmişdir:

1. Birinci komponenti gürcü dilinə uyğunlaşdırılmış və transkripsiya edilmiş, ikinci komponenti isə həmin dilə kalka edilmiş etnotoponimlər: Aşıqas sopeli (Aşıqlı kəndi, Daqeti didi (Böyük dağlı), Daqeti ukapa (Axırıncı dağlı), Derzi-oqles-sopeli (Dərzi-oğlu kəndi), Yolçu-şvilis sopeli (Yolçuoğlu kəndi), Uzeynnoz sopeli (Hüseynkənd) və c.

2. Birinci komponenti gürcü dilinə kalka (tərcümə) edilmiş, ikinci komponenti gürcücə transkripsiya edilmiş etnotoponimlər: Kvemo Kapanaxçi (Aşağı Kəpənəkçi), Zemo Oruzman (Yuxarı Oruzman), Kvemo

Oruzman (Aşağı Oruzman), Xevi Muğanlı (Dərə Muğanlı), Didi Tutkoba (Böyük Türkoba), Kvemo Qadjiluxi (Aşağı Hacılı), Kvemo Sarali (Aşağı Saralı), Zemo Sarali (Yuxarı Saral) və s.

3. Hər iki komponenti gürcü tələffüzünə uyğunlaşdırılmış etnotoponimlər: Azbulaxi//Azbulaqi (Aslar bulağı), Qunanet//Qunduş (Hunlar//Xunlar), Bozoleti (Bozol gölü), Adıqene (Adıgün) və s.

4. Gürcü dilinə kalka edilərək dəyişdirilmiş etnotoponimlər: Axılkələk-Cavaxet, Borçalı-Kvemo Kartli, Eldarlı-Ukanaixari, Çuluxlu-Tecisi, Ambarlı-Qazaxleba, Cəfərli-Samtredi, Dəllər-Muşevani, Kolagir-Surtavi, Sarallar-Zvareti, Sarıməmmədli-Kibircik-Qibirciki, Əhmədli-Kaxati, Qarabağlı-cicmatiani, Hasanalılar-Canqilori, Tatuşağı-Sakadaqiano, Qarahasanlı-Sixisdziri, Mollalar-Muxrani və s. Qeyd etməlik ki, bu dəyişdirilmiş etnotoponimlər gürcü dilində başqa-başqa mənalar bildirir.

5. Gürcü millətləri ən qədim etnotoponimləri transkripsiya edərək daha çox -i, -a, -unet, -et, -ze, -is, -lis, -si, -vi, -li, -po, və s. onlarla belə gürcü dilinə məxsus topoformantlardan istifadə etmişlər.

Qədim tarixə malik olan və toponimlərini canları və qanları qədər sevən bir xalq heç vaxt yad dilinin ünsürlərini özünün xüsusi ad sisteminə yaxın qoya bilməzdi. Bizə belə gəlir ki, bu gürcü millətləri tərəfindən zorla, məcburi şəkildə edilmiş və bağışlanılmaz bir əməliyyatın nəticəsidir. Necə ki, Bolulu (Bolnisi), Tumanis (Dmanisi), Muğanlı (Muqareti), Azqur (Azquri), Qurutuban (Kurtubani), Triman (Trimoni), Ərəbli (Openi), Marallı (Mareli), Qov//Kov (Koveti) və s. etnotoponimlərində olduğu kimi.

Nəticə

Gürcüstan ərazisində Azərbaycan mənşəli toponimlərin yaranma tarixi həmin ərazilərdə yaşayan azərbaycanlıların tarixi qədər qədimdir. Uzun tarixi inkişaf prosesi keçmiş Gürcüstan ərazisindəki türkmənşəli toponimlərin, demək olar ki, əksəriyyəti qədim türk etnosların adlarını özlərində əbədiləşdirmişdir.

Beləliklə, Gürcüstan ərazisində Azərbaycan türklərinin köklü xalq olduğunu sübuta yetirən qədim tarixə malik etnotoponimlərinin dəyişdirilməsi, gürcü dilinə məxsus appelyativlərlə əvəz edilməsi yolverilməzdir və belə etnotoponimlərin tarixi-linqvistik aspektdə tədqiqi əsl həqiqətləri üzə çıxarır, bəzi gürcü millətlərinin məkrli siyasətini, saxtakarlığını aşkar edir.

Ədəbiyyat

1. Budaqov B., Qeybullayev Q., Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998, səh.453.
2. Мурзаев Е. М., Происхождение географических названий, М.,1960, с.450.
3. Bayramov İ, Qərbi Azərbaycanın toponimlər sistemi. Bakı, 2005, səh. 432
4. Rüstəmxanlı S., Ömür kitabı, Bakı, 1989, səh. 368
5. Çobanov M., Çobanlı M., Borçalı toponimləri, Bakı, “Təhsil”, 2012, 340 s.

Georgianization of turkish ethnoponyms in the territory of Georgia

Summary

Ethnographic names are indispensable spiritual aspects for studying the history, language, ancient culture of a people, studying its traces in those places where it lives, to prove its authenticity. The history of the resettlement of Turkic ethnic groups in Georgia, which took an active and strong part both in glottogenetic education and in the ethnogenetic evolution of the Azerbaijani people, dates back to ancient times.

A long process of historical development perpetuated the names of Turkish place names in the territory of the former Georgia, almost all of which are ancient Turkish ethnic groups. It is unacceptable to change ethnic names with ancient history, which prove that Azerbaijani Turks are deeply rooted people in Georgia, replace them with names that belong to the Georgian language, and the study of such ethnic names from a historical and linguistic point of view reveals the true truth.

Грузинизация турецких этнотопонимов на территории Грузии

Резюме

Этнотопонимы являются незаменимыми аспектами изучения истории, языка, древней культуры народа, изучения его следов в местах проживания. Они сдужат наиболее точными и подлинными доказательствами. История расселения тюркских этносов в Грузии, которая принимала активное и сильное участие как в глоттогенетическом образовании, так и в этногенетической эволюции азербайджанского народа, восходит к древним временам.

Длительный процесс исторического развития увековечил названия туркских топонимов на территории древней Грузии. Недопустимо менять этнотопонимы с древней историей, которые доказывают то, что азербайджанские турки являются древними поселенцами Грузии, а также заменять их наименованиями, принадлежащими к грузинскому языку. Поэтому лишь пристальное и глубокое изучение этнотопонимов с историко-языковой точки зрения выявляет истинную правду.

DOI: 10.36719/2020/REK/01/50-52

Könül Arzu qızı Tağıyeva
Azərbaycan Dövlət Aqrar Universiteti
tagiyeva.konul87@gmail.com

GƏNCƏ ERQONİMLƏRİNİN XARAKTERİSTİKASI
(mağaza adları əsasında)

Açar sözlər: *onomastika, erqonim, emporonim, nominasiya prosesi, dil siyasəti*
Key words: *onomastics, ergonym, emporonym, nomination process, language policy*
Ключевые слова: *ономастика, эргоним, эмпороним, процесс номинации, языковая политика*

Giriş

XX əsrin sonu XXI əsrin əvvəllərində baş verən sosial-iqtisadi dəyişikliklər müxtəlif profilli bir çox müəssisələrin yaranmasına səbəb oldu. Bununla da külli miqdarda yeni erqonim meydana çıxdı. Erqonimik leksika onomastikada xüsusi yer tutur. "İnsanların işgüzar birliklərinin xüsusi adı, o cümlədən ittifaq, təşkilat, müəssisə, idarə, korporasiya (bir peşəyə, silkə və s. mənsub adamların ittifaqı, birləşməsi, cəmiyyəti), cəmiyyət, emalatxana, dərnək və s. adları" [Adilov, Paşayev, 2005, s.133] olan erqonimlər daim dəyişən, yenidən meydana gələn və zamanla istifadədən çıxan adlardır. "Erqonimlər, əsasən, leksikanın elə təbəqəsidir ki, bir tərəfdən, bizə yaxşı tanışdır, digər tərəfdən (xüsusilə söz yaradıcılığı və dil oyunu bazasında meydana çıxan erqonimlərə aiddir), bu, yeni, əlavə semantikaya və auditoriyanı fəth etmək üçün ekspressivliyə malik sözlərin tamamilə yeni formalarıdır" [Курбанова, 2014]. Erqonimlər, adətən, şəhərdaxili obyekt adları kimi təhlil olunur. Bu baxımdan həmin qrupa ticarət obyektlərinin, o cümlədən mağazaların adları da daxildir. Mağaza adı "emporonim" termini ilə ifadə edilir. Bu termini ilk dəfə T.V.Şmelyova irəli sürmüşdür. Deməli, mağaza adları – emporonimlər erqonimlərin bir növü hesab edilə bilər.

Tədqiqatın obyekti Gəncə şəhərindəki bəzi mağaza adlarıdır. Əsas məqsəd mağazaların nominasiya prosesinin spesifik cəhətlərini öyrənməkdir. Bu sahənin az öyrənilməsi, lakin çox əhəmiyyətli olması mövzunun aktuallığını şərtləndirir. Material bolluğu onun öyrənilməsini tələb etsə də, təəssüf ki, bu sahədə tədqiqatlar həddindən atrıq azdır. Bununla bərabər, erqonimlər və onların bir növü olan emporonimlər də toplanıb sistemləşdirilməmişdir.

Tədqiqatda, əsasən, təsviri və təsnifat metodlarından istifadə edilmişdir.

Məqalədə Gəncə erqonimlərinin nominasiya prosesini işıqlandırmağa, onların qrafik-orfoqrafik simasını üzə çıxarmağa, şəhər mühitində dil siyasətinin prinsiplərini açıqlamağa çalışacağıq.

Gəncə Azərbaycanın ikinci ən böyük şəhəridir. Azərbaycanın bu qədim şəhəri, bildiyimiz kimi, 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olub. Burada Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (keçmiş Kənd Təsərrüfatı Akademiyası), Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Filialı, Elmi-tədqiqat Pambıqçılıq İnstitutu, Eksperimental Kənd Təsərrüfatı Stansiyası vardır. Şəhərdə müasir Olimpiya İdman Kompleksi tikilmişdir.

Gəncə dünya şöhrətli şair Nizami Gəncəvinin, şairə Məhsəti xanımın, Mirzə Şəfi Vazehin vətənidir. Burada çoxlu tarixi abidələr: Cümə Məscidi və onun mədrəsəsi, Şeyx İbrahim türbəsi, Qızıl Hacılı, Ozan, Bala Bağbanlı, Şərəfxanlı və Şahsevən məscidləri, Gəncəçay çayı üzərindən salınmış Böyük Körpü və Kiçik Körpü (XII əsr), karvansara və tikililər kompleksi, göy kaşı gümbəzli İmamzadə, gözəl qədim Şəhər hamamları vardır.

Linqvistik landşaft və onun təhlili bu və ya digər ərazidə siyasi, iqtisadi, mədəni şəraitin dəyişilməsini, dil situasiyasındakı tendensiyaları göstərmək baxımından böyük əhəmiyyət daşıyır. Emporonimlər timsalında Gəncə şəhərinin linqvistik landşaftını nəzərdən keçirək.

Ticarət obyektləri adlarının təsnifi

İdarə, təşkilat, cəmiyyət, birlik və s. adları müəssisələri onların kollektivlərinin miqdarı və ya yerləşdikləri binalar kimi deyil, xüsusi vahid kimi ifadə edir. Erqonimlər çox vaxt orijinal adlardan və müəyyən tərkibli sözlərdən ibarət olur.

Gəncənin linqvistik landşaftı, əsasən, Azərbaycan dilindəki erqonimlərlə təqdim olunur. Azərbaycan dilindəki adlar, əsasən, milli koloritin qorunub saxlanması üçün vacibdir: "Şərq şirniyyatı" mağazası, "Şirin bəbə" uşaq aləmi mağazası, "Sevimli dad" ərzaq mağazası və s.

Ticarət obyektlərini bildirmək üçün iki ad tipindən istifadə olunur: 1) real adlar – bunlar müəssisənin yerini, fəaliyyətinin xarakterini əks etdirir: "Musiqi alətləri" mağazası, "Samsung Gəncə" və s.; 2) simvolik adlar – belə adlar müəssisənin fəaliyyət xarakterinə qismən işarə edir: "Evro Mobile" elektronika mağazası. Müxtəlif növ abreviaturalar da simvolik adlar sayılır: "AZZA" şirniyyat mağazası.

Ümumiyyətlə, postsovet dövrünün onomastik məkanı rəngarəng adların meydana çıxması ilə səciyyələnir. Bu, insanlarını dünyagörüşünü dəyişdirərək, yeni nominasiya prinsiplərini ortaya qoymuşdur. İqtisadi rəqabət şəraitində müəssisə üçün uğurlu adın seçimi ən vacib məsələlərdən birinə çevrilmişdir.

Nominasiya proseslərini sahibkarlar öz dil zövqünə uyğun həyata keçirirlər. Lakin bu, həmişə özünü doğrultmur. Beləliklə də, dil siyasəti məsələsi ortaya çıxır. L.K.Qraudinanın fikrincə, "imic-layihələrdə şəhər onomastikonu üslubunun seçimində "dil" tərkib hissəsi heç yoxdur. Dilçilərin tövsiyələr sistemi təkcə sözün işlənmə qaydalarına yox, həm də milli etiket, gözəl zövq, etik normalar sisteminə - cəmiyyət tərəfindən nümunəvi qəbul edilən ənənəvi milli mədəniyyətin xəzinəsinə əsaslanmalıdır [Граудина, 1996, c.185]. Müasir şəhərdə dil siyasətinin xüsusiyyəti, bir tərəfdən, etnik dili və mədniyyəti qoruyub saxlamaq cəhdi, digər tərəfdən, müasir cəmiyyətin yeni realilərinə uyğunlaşmaq zərurətidir.

Erqonimlər müntəzəm şəkildə zənginləşən, süni nominasiya məhsuludur. Lakin bütün şəhərlərin erqonimik məkanında, təəssüf ki, əcnəbi elementlər, abreviaturalar, dublet nominasiyalar çoxluq təşkil edir.

Gəncə şəhərində ticarət obyektlərinin "dəbli" adları arasında "market" komponentli adlara çox rast gəlmək olur: "Nadir market", "Arif market" və s. Bunlar antropoerqonim kimi də diqqəti cəlb edir. Bu cür komponentlərə misal olaraq "shop", "boutique", "mall", "park" və s. də göstərmək mümkündür: "Zoo Shop", "Miss Butik", "Corona Butik", "Top Shop", "Xəmsə Park", "Gəncə Mall" və s. Əcnəbi elementlər erqonimə ekspressivlik vermək məqsədilə istifadə edilir. Bunların arasında ingilis dilinə aid sözlərə daha çox rast gəlinir. Onların orfoqrafiyasına gəlincə isə qeyd edə bilərik ki, bu adların bir qismi orijinala uyğun yazılır. Bəzi adlar isə Azərbaycan dilinin orfoqrafiyasına uyğunlaşdırılır.

Gəncədəki mağaza adlarını nəzərdən keçirdikdə görürük ki, bu onimlər arasında hibrid adlar (Azərbaycan dilində işlənən sözlərlə əcnəbi elementlərin birləşməsindən ibarət onimlər) çoxdur:

"Miss Gül Bahar" – uşaq geyimləri mağazası (ingiliscə "miss" – "xanım" [İngiliscə-azərbaycanca lüğət, 2004, s.708] sözünün və Azərbaycan şəxs adının birləşməsi)

"Pıçıltı Cosmetics" – kosmetika və parfümeriya mağazası (ingiliscə "cosmetic" – "kosmetik vasitə" [İngiliscə-azərbaycanca lüğət, 2004, s.301] və dilimizə aid "pıçıltı" sözlərinin birləşməsi)

"Sədərək Electronics" – elektronika mağazası (Azərbaycan coğrafi adı və ingiliscə "electronics" – "elektronika" [İngiliscə-azərbaycanca lüğət, 2004, s.410] sözünün birləşməsi)

"Buxar Vape Shop" – elektron siqaret mağazası (dilimizdə işlənən "buxar" və ingiliscə "vape" – "buxar", "shop" – "mağaza, dükan" [İngiliscə-azərbaycanca lüğət, 2004, s.1017] sözlərinin birləşməsi)

"Gold Əminə" – supermarket (ingiliscə "gold" – "qızıl" [İngiliscə-azərbaycanca lüğət, 2004, s. 534] sözünün və Azərbaycan şəxs adının birləşməsi)

"Grand Qafqaz" – ticarət kompleksi (ingiliscə "grand" – "əzəmətli, möhtəşəm, nəhəng, qüdrətli, təntənəli"; "böyük, ulu" [İngiliscə-azərbaycanca lüğət, 2004, s.538] sözünün və Azərbaycan coğrafi adının birləşməsi) və s.

Təqdirəlayiq haldır ki, hibrid adların özündə belə, yerli kontekst, Gəncə ilə bağlılıq əks olunur: "Gəncə Telekom", "Gəncə Mall", "Bellissa Mebel Gəncə" və s.

Gəncəyə aidlik bir çox brendlərin bu şəhərdəki mağazalarının adlarında da özünü göstərir: "İstikbal Gəncə", "Beko Gəncə", "Samsung Gəncə", "Embawood Gəncə", "Soliton Gəncə", "LC Waikiki Gəncə", "Coffeemania Gəncə" və s.

Erqonimyaratmada nəzərə çarpan tendensiyalar arasında nominatorun özü haqqında məlumat verməsi diqqəti cəlb edir. Məsələn: "Dədəmin" (aptek), "Seymur MMC", "Tofiq inşaat", "Xanımın maqazini" və s. Belə bir üsul obyektin reklam edilməsi üçün əhəmiyyətlidir.

Mağaza adlarında bitki və heyvanlar aləminə aid sözlər iştirak edir: "Zebra Kids", "Delfin Market", "Ağ çiçəyim", "Panda Market" və s. Peşə leksikasından adyaratmada istifadə obyektin təyinatını əks etdirir: "Krosno ustası", "Avto Yağ Dünyası" və s.

Nağıl qəhrəmanlarının, film personajları adı əks olunan obyektlər də maraq doğurur: "Buratino" (uşaq geyimləri mağazası), "Tacir Əsgər" (ev əşyaları mağazası), "Aybolit" (aptek) və s.

Obyektin yerləşdiyi ünvanı əks etdirən erqonimlərə misal olaraq bunları göstərə bilərik: "Ozan Market" (Ozan küçəsində yerləşir), "Təbriz" supermarket (Təbriz küçəsində yerləşir), "Yeni Gəncə Bina 58a" (elektronika mağazası), Aptek "Xanbağı" (Xan bağının yanında yerləşir) və s.

Dublet nominasiyalar: "Dokta" (aptek), "Dokta 215" (aptek), "Buta" (aptek), "Buta Qab Qacaq" (ticarət mərkəzi) və s.

Bəzi adlar birbaşa obyektin fəaliyyəti, məzmunu ilə bağlıdır. Belə adlar konservativ adlar sayılır və bir növ, sovet dövründəki adları xatırladır: "Universam" (ərzaq mağazası), "Ucuz qarışıq mallar" mağazası, "Uşaq aləmi", "RadioTexnika" mağazaları və s.

Erqonimyaratmada istifadə olunan poetik sözlər müəyyən obrazları təsəvvürümüzdə canlandırmağa kömək etsə də, obyektlə əlaqəsi o qədər də aydın görünmür: "Aysberq" elektronika mağazası, "Everest telekom" elektronika mağazası və s.

Nəticə

Obyekt adlarının təhlili göstərdi ki, mağaza adları Gəncə şəhərinin linqvistik mənzərəsinin bir hissəsidir. Gəncənin linqvistik landşaftı, əsasən, Azərbaycan dilindəki erqonimlərlə təqdim olunur. Lakin şəhərin erqonimik məkanında əcnəbi elementlər də az deyil. Gəncə erqonimiyası daim inkişafda olan, dəyişən leksik təbəqədir, maraqlı nümunələrlə zəngindir və ətraflı tədqiqata ehtiyac duyur.

Ədəbiyyat

1. Adilov M. Azərbaycan onomastikası (izahlı terminoloji lüğət) / M.Adilov, A.Paşayev. – Bakı: Nurlan, – 2005. – 488 s.
2. Курбанова М.Г. Эргонимы современного русского языка: семантика и прагматика: [Электронный ресурс]/Астрахань, 2014 URL: https://www.dissercat.com/content/ergonimy-sovremennogo-russkogo-yazyka-semantika-i-pragmatika
3. Граудина Л.К. Проблемы нормирования русского языка: реальность и прогнозы: [Электронный ресурс] // Культура русской речи и эффективность общения, - Москва: Наука, 1996, с.177-197 URL: http://fadn.gov.ru/system/attachments/attaches/000/030/869/original/Sbornik_verstka_4.pdf?1572952932
4. İngiliscə-azərbaycanca lüğət: / tərt.ed. Q.İ.Türksevər (Musayev) – Bakı: Şərq-Qərb, – 2004. – 1320 s.

Characteristic of ergonimes in Ganja

Summary

The article is devoted to the ergonyms of Ganja. Empronyms (store names), which are a variety of ergonyms, are considered here. The semantic approach to the classification of emporonyms allows you to more accurately interpret the material and reveals the specifics of the names. Based on the above examples, the activities of the nominees and the ergonomic look of the city are analyzed.

Характеристика эргонимов Гянджи

Резюме

Статья посвящена эргонимам Гянджи. Здесь рассматриваются эмпоронимы (названия магазинов), которые являются разновидностью эргонимов. Семантический подход к классификации эмпоронимов позволяет более точно интерпретировать материал и раскрывает специфику названий. На основании приведенных примеров анализируется деятельность номинантов и эргономический вид города.

DOI: 10.36719/2020/REK/01/52-55

Göyərçin Abid qızı Mustafayeva
Nizami Gəncəvi adına Milli Azərbaycan
Ədəbiyyatı Muzeyi
goyercin.mustafayeva@yandex.com

KEÇMİŞİMİZ GƏLƏCƏYİMİZİN ÖZÜLÜDÜR

Açar sözlər: *klassik irs, ədəbi-mədəni irsimiz, şairlərimiz, ədəbiyyat tarixi*
Key words: *the classical heritage, the literary-artistic heritage, the poets of Azerbaijan, the history of literature*
Ключевые слова: *классическое наследие, литературно-художественное наследие, поэты, история литературы*

Giriş

Klassik Azərbaycan irsi olduqca zəngin və çoxşaxəlidir. XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr ədəbiyyatımıza da təsir göstərərək yeni dəyərlərin, tədqiqat mənbələrinin üzə çıxmasına səbəb oldu və klassik irsimizin öyrənilməsində milli kök və qaynaqlara söykənmə fürsəti qazandı. Klassik ədəbi-bədii irsimizin hərtərəfli araşdırılması bu gün də ədəbiyyatşünaslığın qarşısında duran ən vacib problemlərdən biridir.

Yazılı ədəbiyyatımızın ən qədim nümunəsi "Avesta"dır ki, onun da tarixi VI əsrə gedib çıxır. XI əsrdə "Kitabi-Dədəm Qorqud" adıyla yazıya alınmış, bu gün sevə-sevə oxuduğumuz "Kitabi-Dədə Qorqud" isə XVI əsrdə üzü köçürülmüş əlyazmalardır. Alman şərqşünası Fridrix fon Ditsin fikrincə, əsərdəki Təpəgöz obrazı qədim yunan mifologiyasindan tanış olduğumuz Siklop obrazının təsirilə yaranmışdır. Alimin fikrini bir az da inkişaf etdirərək onu deyə bilərik ki, babalarımız Təpəgöz surətini birdən-birə və ya heçdən yaratmamışdılar. Onların Qədim Yunan ədəbiyyatı ilə tanışlığını bir hipotez kimi irəli sürə bilərik. Və bəlkə də bu bir həqiqətdir, bəlkə də gələcəkdə daha dərindən aparılan araşdırmalar bunun doğruluğunu isbat edəcəkdir.

Təzkirələrin klassik ədəbiyyatımızın öyrənilməsində rolu

Qədim mənbələrdən ən mükəmməlini təzkirələr təşkil edir. Sovetlər Birliyi dönəmində ədəbiyyat tarixi kitablarında yalnız adı çəkilməklə kifayətlənən təzkirələr klassik irsimizin öyrənilməsində böyük rol oynamışlar. Və bu, günümüzdə də öz aktuallığını qorumaqdadır. Akademik Kamal Talıbzadə təzkirələrin ədəbiyyatşünaslığımıza verdiyi töhfələri çox yüksək qiymətləndirərək yazırdı: "Təzkirələr Azərbaycan ədəbiyyatşünaslığının ilk nümunələridir və klassik irsin toplanması, yayılması və təbliği, ayrı-ayrı yazıçılar haqqında müxtəlif xarakterli məlumatların qorunub saxlanması sahəsində böyük iş görmüşdür."(1, s.155)

Yaxın və Orta Şərq ədəbiyyatşnaslığında klassik ədəbi-bədii irsin toplanıb saxlandığı, bu qiymətsiz və nadir sənət nümunələrini əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürən əsərlər çoxdur. Təzkirə, dəhvə, səfinə, hədiqə, töhfə, cüng, fayat, sicil, məcmuə və s. kimi adlar daşıyan bu janrlar içərisində yalnız təzkirələr deyil, bu janrların hər biri ədəbi irsin tədqiqində böyük elmi əhəmiyyətə malikdir.

Digər Şərq ölkələrində olduğu kimi, Azərbaycan ədəbiyyatında da nəsr poeziyaya nisbətən ləng inkişaf etmişdir. Klassik mütəfəkkirləri göz önünə gətirən sənətkarlar qələmlərini nəzmdə sınamış, nəsrlə yazılan əsərlərə yuxarıdan aşağı baxmış, bu əsərləri ədəbi əsər hesab etməmişlər. Ədəbiyyat tariximizdə Xaqaninin məktublarından sonra M.Füzulinin yaradıcılığında da nəsr əsərlərinə rast gəlirik. Şairin farsca "Rindü Zahid", "Səhhət və Mərəz" kimi əsərlərilə yanaşı, ana dilində də nəsr əsərləri var. Onun böyük həcmli "Həqiqətüs-süəda" əsəri isə Azərbaycan nəsrinin çox dəyərli nümunəsi, "Şikayətnamə" əsəri isə məktub formasında yazılan hekayədir. "İstər Azərbaycan, istərTürkiyə, istərsə də dünya füzulişünaslarının gəldikləri nəticə Füzuli dühasının dövrünün bütün şair və ədiblərini üstələdiyi, əsərlərinin yazılmasından əsrlər keçməsinə, ərəb-fars tərkiblərilə süslənməsinə baxmayaraq, hələ də dilinin şirinliyini, fikir bütövlüyü və dövrünə xas olan ədəbi dilin səciyyəsinə görə çox qiymətlidir. Füzuli dilinin zənginliyini və axıcılığını yalnız nəz əsərlərində deyil, həm də nəsrdə görürük. Cümlə sonluqlarının qafiyələnmiş olması, daxili qafiyələr əsəri nəzmə yaxınlaşdırsa da, diqqəti əsas məsələdən uzaqlaşdırmır. Əslinə baxanda, Xaqaninin "Töhfətül_İraqeyn" əsərində nəsrlə işlənmiş parka var. Lakin o dövrün nəsrindən danışanda nəsri nəzmsiz təsəvvür etmək olmur. Bu, nəsr və nəzmin vəhdətidir desək, daha düzgün olar." (2, s.187)

Füzuli ədəbi təsirinin əsrlərlə davam etdiyi, bu irsin Qasım bəy Zakir, Abdulla bəy Asi, Mehdiqulu xan Vəfa, S.Ə.Şirvani, Qövsi, İsmayıl bəy Nakam, Nasir, Naci və başqalarının yaradıcılığına təzahürü xüsusilə diqqətçəkəndir. Füzuli yaradıcılığının təsirilə İsmayıl bəy Nakam böyük şairin "Dedim, dedi" müsəddəsinə bir nəzirə də yazmaqla şairin layiqli davamçılarının yetişdiyini təsdiqləyirdi.

XI əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xətib Təbrizinin ədəbiyyat nəzəriyyəsi, poetika, ritorika və üslubiyyat haqqında söylədiyi qiymətli fikirlər həm öz dövründə, həm də daha sonrakı əsrlərdə mənbə rolu oynamışdır. Klassik irsimizin öyrənilməsində saray katiblərinin, müstəqil yazarların böyük rolu olmuşdur. Onlar dövrünün sultanları üçün həm ötən əsrlərin, həm də öz dövrlərinin qələm sahiblərinə məxsus əsərləri bütün ciddi-cəhdləriylə toplamış, bəzilərinə hətta şərhlər belə yazaraq gələcək nəsillərə ərməğan etmişlər.

Anadilli ədəbiyyatın yaranması

XIII-XV əsrlərdə anadilli ədəbiyyatın yaranma və inkişafında mühüm hadisələr baş vermiş, anadilli epik şeir məhz bu dövrdən etibarən formalaşmağa başlamışdı. Bu dövrdə ədəbiyyatımızın həqiqi inciləri işıq üzü görmüşdür ki, onlardan Əlinin "Qisseyi-Yusif", "Dastani-Əhməd Hərami", Mustafa Zəririn "Yusif və Züleyxa" və Xətai Təbrizinin "Yusif və Züleyxa", Şah İsmayıl Xətainin "Dəhnamə" əsərlərini göstərmək olar. Bu əsərlərin araşdırılması bu gün də tədqiqaçılara yeni material və yeni mövzular verir.

XIII əsr və XIV əsrin ilk onilliklərini yaşayıb-yaradan şair Hümam Təbrizi də bu dövrün görkəmli ictimai-siyasi xadimi və istedadlı şairlərindən biri olmuş, ana dilimizdə "Dəhnamə" poeması yazmış, fars dilində isə gələcək nəsillərə "Divan" yadigar qoymuşdur. Şair, Nizami Gəncəvi sənətindən bəhrələndiyini göstərmiş, onu xoş sözlərlə yad etmişdir. Bu dövrdə yazılan əsərlər arasında diqqəti sufizm cərəyanının nümayəndəsi kimi tanınmış Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" poeması cəlb edir.

Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın sufizmlə bağlı dediyi sözlər burada öz yerinə düşür: "Azərbaycan xalqının klassik mədəni irsi, cəmiyyətin mənəvi və sosial həyatına daxil olmuş dini-fəlsəfi

təlim - sufizm ilə qırılmaz tellərlə bağlı olmuşdur. Azərbaycanda islamaqədərki dövrün zəngin mədəni ənənələrinin saxlanılması və yenidən dərkində sufizm müstəsna rol oynamışdır.

Azərbaycan torpağında Şərqin məşhur sufi alimlər-ulu şeyxlər Səfiəddin İshak Ərdəbili, Əbuhəfs Ömər əs-Sührəverdi və Sədrəddin əl-Xalvati yaşayıb yaratmışlar. Dünyada tanınmış Səfəviyyə, Sührəverdiyyə, Xəlvətiyyə ordenlərini məhz onlar yaratmışdılar…

Azərbaycan, sufi aləmində böyük nüfuza malik Baba Kuhi Bakuvi, Əyn əl-Kuzat, Şeyx Zahid Lənkərani, Mahmud Şəbustari, Abu Nəcib əs-Sührəvərdi, Şihabaddin Əbulfatih Sührəvərdi, Fəzlullah Təbrizi, Şibli və başqalarının vətənidir.

Nizami, Məhsəti Gəncəvi, Həqiqi, Nəsimi, Xətai, Füzuli, Mirzə Şəfi Vazeh kimi dahi Azərbaycan şairlərinin yaradacılığı da sufizm ideyaları ilə hopdurulmuşdur…

"Klassik Azərbaycan şeri,o cümlədən Nizamı sənətini də bir sıra tarixi-siyasi hadisələrin nəticəsi olaraq Yaxın Şərqin ədəbi mühitindən ayrılmış şəkildə öyrənmək yanlış olar. Nizami əgər bir tərəfdən ona daha doğma klassik Azərbaycan bədii irsi ilə bağlı idisə, diğər tərəfdən əsərlərinin növ və janrına, mövzu və sujet quruluşlarına görə bir sıra qonşu xalqlar ədəbiyyatı ilə sıx əlaqədə idi." (3, s. 29)

"Musiqi sənətinin və musiqi ənənələrinin inkişafı və hifz olunmasında da sufilər böyük rol oynamışlar." (4)

XIX yüzillikdən etibarən çap işinin inkişafı, müxtəlif mətbuat orqanlarının nəşri ancaq məhdud çevrələrdə tanınan ədəbi simaların və onların irsinin təbliğində böyük rol oynadı. Bu imkanlardan istifadə etməyə çalışanlardan biri də Firidun bəy Köçərli idi. O, 1904-cü ildə "Şərqi-Rus" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı: "Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin ayinəsidir. Hər bir millətin dolanacağını, övzai-məişətini, dərəceyi-tərəqqisini, mərtəbeyi-kəmalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar".

1911-ci ildə Firidun bəyin "M.F.Axundov" kitabı çapdan çıxdı. Bu kitabında ədib Şərqin böyük dramaturqunun həyat və yaradıcılığını sistemli şəkildə araşdırmış və tutarlı bir əsər ortaya qoymuşdu. 1912-ci ildə onun içində şifahi xalq ədəbiyyatı nümunələri olan "Balalara hədiyyə" kitabı oxuculara təqdim edilmiş, ədibin 1913-cü ildə tamamladığı "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı 3 cildlik kitabında isə qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər olan dövrü ehtiva edən mərhələnin ədəbiyyatı öz əksini tapmışdı.

Firidun bəy Köçərli klassik irsin toplanılması və təhlilində xüsusi həssaslıqla yanaşır, dövrünə xas ədəbi proseslərə də xüsusi münasibət göstərirdi. Məsələn, o yalnız mənbələri toplamaq və onları təhlil etməklə kifayətlənmir, bir tənqidçi kimi ədəbi prosesləri düzgün məcraya yönəltməyə çalışırdı. Mütəmadi olaraq müxtəlif bölgələrdə yaşayıb fəaliyyət göstərən Azərbaycan ədib və ziyalıları ilə məktublaşır, dostluq və əməkdaşlıq edirdi. Ədiblərə yazdığı məktublarında onları ana dilinin saflığının qorunmasına xüsusi həssaslıq göstərməyə səsləyirdi. Bu elm fədaisi Abdulla Şaiq, M.Ə.Sabir, Abbas Səhhətlə daim əlaqə saxlayırdı.

Nəriman Nərimanov "Yeni iqbal" qəzetinin 1916-cı il sayında dərc olunan məqaləsində Firudin bəy haqqında yazırdı: "Düz 20 il bundan müqəddəm mən "Nadanlığ"ı yazıb meydana buraxdım. Məşhur mühərrirlərimizdən biri, rəfiqimiz Firidun bəy Köçərli "Nadanlığ"ı rus dilində tənqid etdi, yaramaz bir şey hesab edib yazanını, yəni məni lazımınca çubuqladı. Oxuyan deyirdi, "Nadanlığ"ı yazan daha əlinə qələm gərək götürməsin. Fəqət onun çubuqlamağı "Nadir şah"ın meydana gəlməsinə səbəb oldu." (5)

Alim mətbuat orqanlarında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən M.Ə.Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, Y.V.Çəmənzəminli, A.Səhhət, A.Şaiq və başqalarının ədəbi irsi haqqında elmi-tənqidi məqalələr dərc etdirir, milli ədəbiyyatın inkişaf istiqamətlərini və elmi-mədəni inkişafın aktual problemlərini gündəmdə saxlayırdı.

Müstəqillik dövründə klassik Azərbaycan poeziyasının öyrənilməsi, elmi-nəzəri səviyyədə işlənməsi yenidən lazım gəlir. Ona görə də qədim dövrdən orta yüzilliyin sonuna qədər olan klassik poeziyanın ideya-bədii qaynaqlarını yenidən araşdırıb, onun sənətkarlıq problemlərinin yeni müstəvidə təhlil olunması vacib məsələlərdəndir. Həmin problem Xaqani və Nizaminin, Nəsimi və Xətainin, Füzuli və Vaqifin və digər müəlliflərin yaradıcılığı əsasında araşdırılmış, ideya-sənətkarlıq baxımından təhlil edilmişdir.

Klassik ədəbi irsimizin həm öyrənilməsi, həm də araşdırılmasında mühacirət ədəbiyyatının da özünəməxsus rolu olmuşdur. N.Cabbarlı "Mühacirət və klassik ədəbi irs" monoqrafiyasında qarşısına qoyduğu məqsədə tam nail olmuşdur desək yəqin ki, səhv etmərik. Belə ki, monoqrafiyada Azərbaycan mühacirət ədəbiyyatşünaslığının əsas tədqiqat istiqamətləri müəyyənləşdirilmiş, milli ədəbiyyat tarixi konsepsiyası şərh edilərək M.Ə.Rəsulzadənin, M.B.Məhəmmədzadə və Ə.Cəfəroğlunun, Ə.Yurdsevər və digər müəlliflərin klassik ədəbi irsimizlə bağlı araşdırmaları sistemli təhlil olunmuşdur. Klassik ədəbiyyatımızın bir sıra mühüm problemlərinə dair mühacirət elmi fikrinin müddəaları sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığının mülahizələri ilə müqayisəli şəkildə nəzərdən keçirilib dəyərləndirilir. Nəticədə mühacirət ədəbiyyatşünaslığının Azərbaycan ədəbiyyatı tarixindəki yeri, ədəbi-nəzəri fikrimizin inkişafındakı rolu aşkarlanır. Bu, araşdırmaçıların qarşısında klassik ədəbi irsimizin ədəbiyyat tarixindəki yerini, ədəbi-nəzəri fikrimizin inkişafındakı rolunu müəyyənləşdirmək kimi vacib məsələlərin tədqiq edilməsini gündəmə gətirmiş, aşağıdakı vəzifələrin yerinə yetirilməsini zəruri etmişdir:

- klassik irsə aid ədəbi-bədi nümunələrin və onlarla bağlı araşdırmaların toplanıb sistemləşdirilməsi;

- XI-XII əsrlərin farsdilli Azərbaycan ədəbiyyatına münasibətin aydınlaşdırılması;
- anadilmizdə yazılmış poeziyanın inkişafı və onun aparıcı nümayəndələrinin yaradıcılığı haqqında deyilmiş və ya işıq üzü görmüş əsər və mülahizələrin toplanması;
- klassik ədəbi irsin milli istiqlal məfkurəsi və ideologiyasının formalaşmasında oynadığı rol haqqında mülahizələrə aydınlıq gətirmək;
- klassik ədəbiyyatımızın bu və ya digər problemi ilə bağlı mühacirət ədəbiyyatşünaslığının müddəalarını sovet dövrü Azərbaycan ədəbiyyatşünaslığının mülahizələri ilə müqayisəli şəkildə nəzərdən keçirmək, həmçinin mühacirət elmi fikrinin nəticələrini müasir Azərbaycan ədəbiyyatşünaslığının nailiyyətləri baxımından qiymətləndirib, orijinal cəhətlərini aşkarlamaq;
- mühacirət ədəbiyyatşünaslığının Azərbaycan ədəbi-nəzəri fikrinə, konkret olaraq klassik ədəbiyyatın öyrənilməsinə töhfəsini müəyyənləşdirmək. (6, s. 14-15)

Nəticə

Hər bir yenilik qədim özüllər üzərində inşa olunur. Bunu hamının bilməsi və qiymətləndirməsi də böyük əhmiyyət daşıyır. Lakin istər ədəbiyyat, istər tarix, istərsə də hər hansı elm ancaq dəqiqlik tələb edir. Dəqiq olmayan, kövrək, yalançı və xülya fikirlər üzərində qurulan hər hansı hipotez, fikir bir anlıq ömrü olan sabun köpüyünə bənzəyir. Gəlin tariximizə qarşı diqqətli olaq! Axı tarix onu aldadanları sevmir.

Ədəbiyyat

1. Talıbzadə K.A. Azərbaycan ədəbi tənqidinin tarixi. 1800-1920-ci illər. Bakı, Maarif, 1984
2. Mustafayeva G., Mustafayev V. Füzuli Azərbaycan nəsrinin banisi kimi. Bakı, “Risalə”, Nurlan, №4, 2007
3. Rüstəmova A. Nizami Gəncəvi (həyat və sənəti). Bakı, Elm, 1979
4. http://www.mehriban-aliyeva.org/az/article/item/1572
5. Yunisli F. Ədəbiyyatşünaslıq tariximizdə Firidun bəy Köçərli imzası. “Mədəniyyət” qəzeti, 23avqust 2013-cü il.
6. Cabbarlı N. Mühacirət və klassik ədəbi irs. Bakı, Elm, 2003

Our past is the foundation of our future

Summary

The study of the literary-artistic heritage of Azerbaijan is one of the most important problems of the study of literature up-to-date. The author of the given article emphasizes the fact that the above-mentioned works at the sphere of the study of the classical heritage at last and at present played the important role in emigrant literature too.

Наше прошлое – фундамент будущего

Резюме

Исследование классического литературно-художественного наследия Азербайджана и по сей день является одной из важнейших проблем литературоведения. Автор статьи подчеркивает тот факт, что данные работы в области исследования классического наследия в прошлом и настоящем сыграли существенную роль и в эмигрантской литературе.

DOI: 10.36719/2020/REK/01/56-58

Gülşən Ramiz qızı Məmmədli
Azərbaycan Dillər Universiteti
aliyevagulshan@gmail.com

BƏDİİ MƏTN VƏ ONUN BAŞA DÜŞÜLMƏSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *bədii mətn, üslubi fiqurlar, linqvistik anlama*
Key words: *literary text, stylistic devices, linguistic comprehension*
Ключевые слова: *художественный текст, стилистические фигуры, лингвистическое понимание*

Giriş

Bədii mətnin əsas məziyyəti təbii dil işarələri vasitəsilə fikri ifadə edərkən onu bədii cəhətdən zənginləşdirməkdir. Eyni dil vahidlərinin müəyyən birləşməsi adi informasiya daşıyıcısı kimi heç bir bədii funksiya yerinə yetirmədiyi halda, bu vahidlərin fərqli şəkildə kombinasiyaları müəllifin bədii istedadı ilə culğalaşaraq zəngin poetik ifadələrin reallaşmasına səbəb olur. Bu poetik ifadələr mətnin bədii gücünü artıraraq onun oxucu tərəfindən dekodlaşdırılması zamanı mənəvi və əxlaqi cəhətdən adresantın müəllifin ideya və məqsədini anlamasına kömək etməkdən əlavə, bədii zövqün formalaşmasını stimullaşdırır.

R.M.Novruzov "bədii mətn" anlayışının tərifini verərkən, ümumiyyətlə mətnin tərifinə məhz bədii mətnlərə xas əlamətləri əlavə etmək üsulundan istifadə edir: "əsas funksiyası oxucuya (dinləyiciyə) estetik təsir göstərmək olan mətnə *bədii mətn (bədii əsərin mətni)* deyilir" (6, 17).

Bədii mətnlər obrazlı-assosiativ, digər mətnlər isə məntiqi təfəkkürün qanunları əsasında qurulur. Bədii mətnlərdə təsvir olunan həyat mənzərələrinin arxasında mətnaltı, əlavə izaha ehtiyacı olan məna, funksional plan mövcuddur. Mətnin mətnaltı mənasının başa düşülməsi və qavranılması çox çətin prosesdir və bu mənanın reallaşmasında bədii ifadə vasitələrinin rolu danılmazdır.

Problemin aktuallığı

Son illərdə psixolinqvistlər əsasən nitqin yaranması və qavranılması prosesi zamanı baş verən hadisələri; yazılı sözlərin və nitq səslərinin tanınmasından ən böyük nitq vahidlərinin və mətnlərin ayırd edilməsinə kimi olan ardıcıllığı araşdırırdılar. İnsanlar dil bacarıqlarından elə məharətlə istifadə edirlər ki, nitq prosesi zamanı baş verən əqli prosesləri müşahidə etmək çətin problem olaraq qalır. Çünki bu proses qeyri-şüuri, avtomatik və sürətli şəkildə reallaşır.

Bəzi alimlər dil aspektlərini öyrənərkən intuisiyanın əhəmiyyətini xüsusi olaraq vurğulasalar da, intuisiya nitq prosesinin izahı üçün kifayət etmir. Bu sahədə aparılan genişmiqyaslı araşdırımalar həm də obrazlı dilin və bədii ifadə vasitələrinin qavranılması məsələsinə aydınlıq gətirmək üçün istifadə edilə bilər. Hazırda müxtəlif növ bədii mətnlər və bədii ifadə vasitələrinin necə yaranması və qavranılması məsələsi bir çox təcrübi tədqiqatların əsas mövzusuna çevrilərək araşdırılır.

Bədii mətnin qarşısında hər şeydən əvvəl müəllifin estetik əhəmiyyətli məqsədini ifadə etmək durur. Bu səbəblə də bədii mətnlərdə dil vahidlərinin modallığı ilə yanaşı, onların məcaziliyi və metaforikliyi əhəmiyyət kəsb edir. Bədii mətnlərdə assosiativ təffəkür və əlaqələr dominantlıq təşkil etdiyi üçün bədii sözün linqvistik anlama prosesində saysız-hesabsız çalar və variant alması mümkündür. Hətta eyni hadisələr və ya predmetlər fərqli müəlliflər tərəfindən müxtəlif cür qavranılıb təsvir oluna və oxucuda tamamilə fərqli assosiasiyaların yaranmağına səbəb ola bilər.

Deyilənlərə aydınlıq gətirmək üçün N.E.Enkvist H.İbsenin "Oyuncaq ev" əsərindən belə bir nümunə verir: *Nora says: "I leave the keys here."*

Bu cümlə linqvistik cəhətdən gündəlik söhbət nümunəsi hesab oluna bilər. Bədii kontekst baxımından isə bu cümlə Noranın keçmişlə əlaqəni kəsmək qərarını ifadə edir, yəni, cümlə əlavə kontekstin fonunda nəzərdən keçirilir. Təhlili necə aparmağımız bizim məqsədimizdən asılıdır; əgər H.İbsenin norveç üslubunu öyrəniriksə, Noranın cümləsini gündəlik dialoqdan adi bir parça, əksinə, müəllifin dramatikliyi yaratmaq üsullarını araşdırırıqsa, onu mətnaltı mənanı özündə daşıyan, personajın hisslərini ifadə edən üslubi vasitə kimi dəyərləndirə bilərik. (1, 34)

Mətnin interpretasiyası bir çox elmlərin (dilçilik, ədəbiyyatşünaslıq, psixolinqvistika və s.) ortaq araşdırdığı sahədir. Mətnin interpretasiyası mətnin anlaşılmasının oxucunun düşüncəsindən asılı olan elə bir mərhələsidir ki, burada oxucunun səyi və məqsədinə qarşılıq olaraq müəyyən informasiyanın seçilməsi və mənalandırılması mümkündür. Buna görə də hər oxucu mətni fərqli şəkildə təhlil edərək onu müxtəlif cür başa düşə bilər. Hətta bəzən oxucu eyni əsəri müxtəlif vaxtlarda oxuyarkən fərqli şəkildə anlaya və öz psixoloji vəziyyətinə uyğunlaşdıraraq eyni ifadələri fərqli tərəflərə çəkə bilir. Poetik mətni dərindən qav-

ramaq, müəllifin istifadə etdiyi bədii vasitələrin fonunda dayanan mənanı anlamaq üçün bəzən mətni bir dəfə oxumaq kifayət etmir, çünki ilk oxunuşda faktiki informasiya ön planda olur və bu mərhələdə müəllifin demək istədiyi sətiraltı mənanı anlamaq çətindir.

Bəzi müəlliflər iddia edir ki, mətni başa düşmək üçün mümkün qədər geniş və əhatəli lüğətə sahib olmaq, yəni, hər sözün mənasını, onun mövzuya aidliyini, ünsiyyətdəki funksiyasını bilmək və bu sözlərin bir-birilə əlaqələndirilməsində əsas rol oynayan dilin qrammatik qaydalarına hakim olmaq kifayətdir. Bu nöqteyi nəzərdən baxsaq, bir tərəfdən sözlərin bütün mənalarını bilmək, digər tərəfdən isə dilin qrammatik qaydalarının incəliklərinə bələd olmaq mətnin anlaşılmasında həlledici rol oynayır. Halbuki, bu iki şərt yazılı və yaxud da şifahi nitqin tam anlamda başa düşülməsinə kifayət etmir.

Məcazi mənanın, müxtəlif üslubi vasitələrin qavranılması prosesi həm də ona görə çətindir ki, biz həqiqi, yəni, sözün ilkin mənasının cümlə kontekstində necə başa düşüldüyünü hələ tam dəqiq təsvir edə bilmirik. Bəzi psixolinqvistlər apardıqları eksperimentlər və araşdırmalar nəticəsində belə qənaətə gəliblər ki, məcazi məna həqiqi mənanın başa düşülməsindən sonra, ikinci olaraq reallaşır.

P.Qraysın nəzəriyyəsinə əsaslanan ənənəvi praqmatik nəzəriyyə həmsöhbətlərin danışıq zamanı sözlərin məcazi mənasını başa düşmək üçün ümumi söhbət prinsiplərindən istifadə etdiyini iddia edir (3). Semantik təhlilin praqmatik analizdən əvvəl başverməsi haqqında təsəvvürlər bu nəzəriyyəni dəstəkləyən alimləri vadar etdi ki, onlar həqiqi mənanı əsas, məcazi mənanı isə ikinci dərəcəli olaraq qiymətləndirsinlər.

Fikrimizcə, sözün mənasının başa düşülməsi, xüsusilə ironiya və zarafatların sürətli təhlili kontekstdən əlavə, insanın öz gözləntilərindən asılıdır. İnsanın ətrafda baş verənləri necə qavraması onun danışana və ya müəllifə qarşı olan hissləri, qərəzli düşüncələri, keçmiş təcrübələri, əhvalı və s. amillərin təsiri ilə istiqamətlənir.

Digər psixoloq və dilçilər (R.Rommetveyt, Ç.Fillmor, C.Lakoff və b.) hesab edir ki, dilin qrammatikasının incəliklərini bilmək və geniş lüğət bazasına malik olmaq mətni anlama prosesində əsas rol oynayan şərtlər deyil. Onların fikrincə, anlama prosesi tamamilə fərqli xarakter daşıyır; o mətnin ümumi mənasının axtarışı ilə başlayır və yalnız bundan sonra leksik-fonetik (ayrı-ayrı sözlərin mənalandırılması) və sintaktik (ayrı-ayrı ifadələrin dekodlaşdırılması) mərhələyə keçid baş verir.

Mətni anlamanın mahiyyəti bir neçə səviyyəli struktura malik olub mətni qavramanın mərhələlərindən danışmağa imkan verir. Adətən mətnin başa düşülməsində 4 mərhələdən danışılır:

1. dil vahidləri səviyyəsində anlama
2. interpretasiya
3. dərin mənanın başa düşülməsi
4. dərk etmə

Dil vahidləri səviyyəsində anlama. Bədii mətni anlamanın ilk və nisbətən səthi mərhələsi, mənanı ifadə etmək üçün istifadə olunan dil vahidlərinin müəyyənləşdirilməsi və təhlilindən ibarətdir. Bu mərhələ mətnin görünən hissəsinin, yəni, şəklinin anlaşılmasıdır. Burada dil vahidləri seçilir, onlar arasındakı sintaktik əlaqələr aşkara çıxarılır və vahidlərin semantik xüsusiyyətləri müəyyənləşdirilir.

İnterpretasiya. İkinci və həm də bir qədər dərin mərhələdə mətnin interpretasiyası, oxucu tərəfindən şərh olunması prosesi reallaşır. Anlamanın bir mərhələsi kimi interpretasiya mətnin oxucunun gözlədiyi məna strukturu ilə üst-üstə düşən, onun məqsəd və niyyətinə cavab verərək özünə cəlb edən xüsusiyyətlərinin seçilməsidir. Bu seçilən xüsusiyyətlər sayəsində mətnin oxucu tərəfindən individual başa düşülməsi qaçılmaz olur.

Dərin mənanın başa düşülməsi. Üçüncü mərhələni mənanın dərindən başa düşülməsi mərhələsi adlandırmaq olar. Bu mərhələdə artıq oxucu niyyətindən asılı olmadan müəllifin nə demək istədiyini, hansı hisslərlə bədii zənginliyə malik olan mətni yaratdığını və hansı səbəblərin onu bu obrazları yaratmağa vadar etdiyini anlamağa çalışır. Müəllifin əsəri yazarkən qarşısına qoyduğu məqsədi aydınlaşdıraraq mətni daha dərindən başa düşmək üçün, ilk növbədə, cavabı müxtəlif bədii vasitələrlə ifadə olunan sualları mətndə axtarmaq lazımdır. Yalnız bu zaman müəllifin çatdırmaq istədiyi mənanı oxucu anlayaraq onun yaradıcılıq yolundan davam edə bilər. Çünki, mətnin kim tərəfindən yazıldığını nəzərə almadan onu adekvat şəkildə anlamaq və mənalandırmaq mümkün deyil.

Bu mərhələyə mətn və müəllifdən əlavə həmin dövrün ədəbi tələblərinin və inkişaf səviyyəsinin mətnə olan təsiri də daxil edilir, çünki, mətn tarixi-mədəni kontekstin fonunda formalaşaraq dövrün xüsusiyyətlərini özündə ehtiva etdirir. Belə ki, mətnin dərindən başa düşülməsi oxucunun mətnin mahiyyətini anlaya bilmə bacarığından asılıdır.

Dərk etmə. Qeyd etdiyimiz üç mərhələdən keçən anlama prosesi son olaraq tamamilə dərk olunmuş hesab edilir.

Keçən əsrin sonlarında xüsusilə, metafora, kinayə, atalar sözləri və frazeoloji birləşmələrin başa düşülməsi zamanı sözün həqiqi mənasının avtomatik çıxdaş edilməsini irəli sürən psixolinqvistik eksperimentlər,

belə bir fikir formalaşdırdı ki, bu ifadələr çox vaxt kontekstdən çıxarılsa belə, həqiqi mənadan daha əvvəl və heç bir əlavə vaxt, koqnitiv enerji sərf etmədən başa düşülür. Məsələn, ingilis dilində neqativ altmənalı birləşmə olan *"kick the bucket"* frazeloji birləşməsini eşidən dinləyici onu *"çəlləyə təpik vurmaq"* kimi yox, *"ölmək"* kimi başa düşür.

Amma unutmaq olmaz ki, həmin birləşmələri dil daşıyıcıları və ya dili mənimsəyən şəxslər məqsədli şəkildə öyrənir. Yəni, bu birləşmələri ilk dəfə eşidən uşaq və ya dili öyrənən şəxs onu həqiqi mənada başa düşəcək. Bu xüsusilə, ayrı-ayrılıqda üzvlərini analiz edərkən mənalı olmayan frazeoloji birləşmələrə də aiddir. Məsələn, Azərbaycan dilində *"gözüm səndən su içmir"* ifadəsini ilk dəfə eşidən dil daşıyıcısı onu həqiqi mənada başa düşəcək və mənalı olmadığını gördükdən sonra alternativ məcazi mənalar axtarmağa başlayacaq. Bu birləşmənin mənasını məqsədli şəkildə öyrəndikdən və dəfələrlə istifadə etdikdən sonra artıq nitqin başa düşülməsi prosesində həqiqi mənanın rolu minimuma enəcək.

Buna görə də bəzi psixoloqlar (P.Rubio-Fernandez, T.Zardon və b.) kontekstdən asılı olmayaraq dominant və ya tez-tez işlənən mənanın daha tez aktivləşdiyini qeyd edirlər. Yeni yaranan metaforaların, bədii ifadə vasitələrinin başa düşülməsində isə konteksti və həqiqi mənanın iştirakını birmənalı olaraq danmaq qeyrimümkündür. P.Qraysın nəzəriyyəsinə qarşı çıxaraq bədii ifadə vasitələrinin başa düşülməsində həqiqi mənanın iştirak etmədiyini iddia edən birbaşa anlama nəzəriyyəsinin tərəfdarları da məcazi mənanın həqiqi mənanı qabaqlamasının və anlama prosesində çətinlik yaratmadan, həqiqi məna ilə eyni sürətdə qavranılmasının onun yeni və ya ənənəvi, artıq dildə qəlibləşmiş istifadəsindən də asılı olmasını nəzərə almırlar (2, 54). Təcrübələr sübut edir ki, qəlibləşmiş metaforaların başa düşülməsi yeni metaforalara nisbətən daha az vaxt alır.

Nəticə

Deyildiyi kimi, mətnin qavranılması prosesində mümkün qədər müəllifin hisslərini və ifadə etməyə çalışdığı mənzərəni daha aydın şəkildə təhlil edərək canlandırmaq lazımdır. Müəllifin ideyası mətndə və istifadə olunan dil vahidlərinin cəmindən yaranmış metaforik ifadələrin arxasında gizlənib və elə bu mətnin oxucu tərəfindən yenidən qurulması və mənalandırılması şərtilə qavranıla bilər.

Bundan əlavə, bədii ifadə vasitələrinin keçdiyi anlama prosesini nə P.Qrays kimi iki mərhələli, nə də vasitəsiz anlama nəzəriyyəsinin tərəfdarları kimi tək mərhələli olaraq qiymətləndirmək və məsələni bu qədər sadələşdirmək düzgün deyil. Çünki, müxtəlif bədii ifadə vasitələrini bir qaydaya əsaslanaraq eyni çərçivəyə salıb təhlil etmək istənilən nəticəni vermir.

Ədəbiyyat

1. Enkvist N.E. Linguistic Stylistics - The Hague, Paris, Mouton, 1973, 175 p.
2. Gibbs, R., & Moise, J. (1997). Pragmatics in understanding what is said. Cognition, 62, 51–74.
3. Grice, H.P. Logic and conversation. Vol 3. Speech acts. New York: Academic Press., 1975, pp. 41-58.
4. Glucksberg S., Understanding Figurative Language,. Oxford university press, 2001, 133 p.
5. Ibsen H., A Doll's House: Filiquarian Publishing, LLC., 2006 - 124 p.
6. Novruzov R.M. Bədii tərcümənin nəzəriyyəsi və təcrübəsi. (Dərs vəsaiti). – Bakı: Mütərcim, 2011, 256 səh.

Literary text and some characteristics of its understanding

Summary

Literary text is such a unit of language which is distinguishable for its originality and richness of implycations, making it a difficult task for linguists, psycholinguists to define the steps of its processing. Various problems emerging in the process of understanding literary texts and stylistic devices are examined in this article.

The research also investigates the place of figurative and literal meaning in the process of understanding and their relationship with each other.

Художественный текст и некоторые особенности его восприятия

Резюме

Художественный текст – это языковая единица, отличающаяся оригинальностью и богатством подтекста. Лингвистам, психолингвистам и литературоведам все еще трудно определить, через какие этапы проходит такой текст в процессе восприятия. В статье анализируются проблемы, возникающие при восприятии художественного текста, а также средств художественного выражения.

В статье также рассматривается место переносного и прямого значения в процессе восприятия, а так же возможность существования взаимосвязи между ними.

DOI: 10.36719/2020/REK/01/59-62

Mehriban Məhəmməd qızı Təhməzova
Azərbaycan Dillər Universiteti
m.tehmezova.adu.edu.az@bk.ru

İNGİLİS DİLİNDƏ MODAL FEİLLƏRİN TARİXİ İNKİŞAFI

Açar sözlər: *tarixi dövr, modal feillər, diaxronik, məchul növ, köməkçi feillər*
Key words: *historical periods, modal verbs, diachronic, passive voice, auxiliary verbs*
Ключевые слова: *исторический период, модальные глаголы, диахрония, страдательный залог, вспомогательный глагол*

Söylənən fikrə aid müəyyən Münasibət ifadə edən modal feillər digər nitq hissələrindən xeyli fərqlənir. Onlar müəyyən suala cavab vermir və cümlə üzvü olmurlar. Lakin çox hallarda lüğəvi məna əlamətləri özlüyündə çox aydın sezilir. Bu isə təsadüfi deyildir, çünki bu sözlər mənşə etibarilə əsas nitq hissələrindən, məsələn feillərdən yaranmışdır. Onlar əmələ gəldiyi əsas nitq hissələrinin malik olduğu funksiyaları itirərək, ya bütün cümləyə, ya da cümlənin bir hissəsinə müxtəlif modallq məzmunu verən bir söz vəzifəsini daşımalı olmuşdur.

Müasir vəziyyətinə görə modal sözləri iki qrupa ayırmaq olar: 1.Qeyri-sabit modal sözlər, yəni yerinə görə həm əsas nitq hissəsi, həm də modal söz kimi işlənənlər; 2. Sabitləşmiş modal sözlər, yəni yalnız modal söz kimi işlənənlər. Modal sözləri aid olduğu nitq hissələrinə görə iki qrupa ayırmaq olar: 1. Adlardan əmələ gələn modal sözlər, 2. Feillərdən əmələ gələn modal sözlər.

Tədqiqatımızın əsas məqsədi ingilis dilində modal feillərin formalaşması və işlənmə xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. Araşdırmalarımızı diaxronik aspektdə aparacağıq, çünki dilin tarixi inkişafına nəzər salmalıyıq.

Qədim ingilis, yaxud anqlo-sakson dili dövrü V əsrdən XI əsrə qədər olan dövrü əhatə edir. Qədim dövrün qrammatik quruluşu müasir dövr ingilis dilinin qrammatik quruluşundan çox fərqli idi. Bildiyimiz kimi, qədim ingilis dilində qüvvətli və zəif feillərdən başqa bir sıra kiçik qrup feillər də var idi. Bunlardan biri Preterite-present, keçmiş-indiki zaman forması idi. Bu qrupa daxil olan feillərin indiki zaman forması mənşə etibarı ilə keçmiş zaman forması olmuşdur. Sonralar həmin keçmiş zaman forması indiki zaman mənası ifadə etmişdir. Bu feillərin indiki zaman forması qüvvətli feillərin keçmiş zaman forması kimi sait əvəzlənməsi ilə düzəlirdi və şəxslər üzrə təsriflənirdi. Onların keçmiş zaman forması isə zəif feillər kimi dental –de, -te şəkilçisi qəbul edirdi. Qədim ingilis dilində bu qrupa cəmi on iki feil daxil idi:

ā ʒ (ought), cunnan (can), maʒ an (may), mōt (must), dearr (dear), sculan (shall), willan (will), wītan (know), duʒ an (be fit), ann (wish), munan (remember), ʒ eneah (be enough).

Bu on iki feildən yalnız altısı müasir ingilis dilində işlənir. Bunlar da əsasən modal feillərdir:

məsdər	indiki zaman (tək)	indiki zaman (cəm)	keçmiş zaman (tək)	feili sifət
ā ʒ an	ā ʒ	ā ʒ on	Ȧhte	ā ʒ en
Cunnan	Cann	cunnon	Cuθe	Cunnen
Sculan	Sceal	sculan	Scolde	-
Willan	Weal	willan	-	-
maʒ an	mæʒ	maʒ on	Meahte	-
-	Mōt	mōton	Mōste	-

Preterite-present feil qrupundan başqa qədim ingilis dilində suppletiv feillər də mövcud idi. Bu feillərin formaları müxtəlif köklərdən düzəldiyinə görə suppletiv feillər adlanır. “Olmaq” məfhumunu ifadə etmək üçün iki feil – bēon, wesan- mövcud idi. Keçmiş zaman formaları hər iki feildə eyni, indiki zaman formaları isə müxtəlif idi:

Məsdər- bēon\wesan
Indiki zaman feili sifət- bēonde, wesende
Keçmiş zaman feili sifət- ʒ ebēon
Xəbər şəkli- bēo\wes
bēo□\wesa□

Qədim ingilis dilində tərz qrammatik kateqoriyası olmamışdır. Ona bəzi feil formalarında rast gəlmək olurdu. Növ kateqoriyası da, məlum, məchul növ, çox zəif olmuşdur. Qədim ingilis dilində feilin üç şəkli var

idi: xəbər şəkli, şərt şəkli, əmr şəkli. Feilin xəbər şəkli real, həqiqi işi bildirirdi. Xəbər şəkli hərəkətin indiki, keçmiş və gələcəkdə baş verdiyini göstərir. Bildiyimiz kimi, qədim dövrdə cəmi iki zaman forması, indiki və keçmiş, olduğundan xəbər şəkli bu zaman formalarında ifadə olunurdu. Feilin şərt şəkli arzu edilən, lakin real olmayan hərəkəti göstərirdi. Bu şəkil də iki zamanda işlənirdi. Əmr şəkli indiki zaman müasir ingilis dilində olduğu kimi əmr, məsləhət, nəsihət bildirirdi:

Xəbər şəkli- □u cepst
əmr şəkli-cēp
şərt şəkli-cēpe

Qədim ingilis dilinin sonlarına doğru bitmiş zaman formasının işlənməsinə rast gəlinir. Bu zaman formasını düzəlmək üçün to have feilindən istifadə olunurdu-*habban+feili sifət II*. Məsələn; *Hēo hæf□ (hæfde) hine ȝ efounde (She has (had) him found).*

Məchul növü düzəltmək üçün bēon, wesan feillərindən istifadə olunurdu, bēon\wesan+feili sifət II; *Sēo bōc wæs ȝ ewriten (This book was written).*

Orta ingilis dili müasir ingilis dilinə oxşayır, lakin onu indi başa düşmək çox çətindir. Bu dövrdə fransız yazarları ingilis dilinin orfoqrafiyasına və yazısına çox təsir etmişdir. Orta dövrün qrammatik quruluşunda da bir çox dəyişikliklər müşahidə olunur. Belə ki, qədim dövr ingilis dili qrammatik quruluşuna görə sintetik dil qrupuna aid idisə, orta dövr ingilis dilinin qrammatik quruluşu analitik dil qrupuna doğru inkişaf etmişdi. Lakin bu, dildə qəfil, birdən baş verməməşdi.

Orta dövr feillərinin inkişafına nəzər salaq. Burada biz qədim dövrün feilləri ilə orta dövrün feilləri arasında az fərq olduğunu görürük. Böyük dəyişikliyi biz feilin zaman formalarında müşahidə edirik, belə ki, məlum olduğu kimi, qədim dövrdə cəmi iki zaman forması, indiki və keçmiş, olduğu halda orta dövrdə daha çoxu formalaşmışdı. Bura indiki bitmiş zaman (o eyni zamanda "simply perfect"-sadə bitmiş zaman adlanırdı), keçmiş bitmiş zaman (eyni zamanda "pluperfect" adlanırdı) və gələcək zaman, bu yeni zaman formaları köməkçi feillər vasitəsilə düzəlirdi. Həmin köməkçi feillət bunlar idi- *habban/haven (to have), be(n) (to be), shullen (shall), willen (will)+ infinite və ya participle.*

Ümumilikdə orta əsr modal feillərin qrupları aşağıdakı cədvəldə öz əksini tapır:

Məsdər	İndiki zaman tək hal	İndiki zaman cəm hal	Keçmiş zaman	Mənası
Cunnen	Can	Cunnen	Couthe	bilmək, bacarmaq
-	Tharf	dhurven	Thurfe	ehtiyacı olmaq
Durren	Dar	Durren	Dorste	cürət etmək
-	Shal	Shulen	Sholde	məcbur etmək
Mowen	May	Mowen	Mighte	Bacarmaq
-	Mot	Moten	Moste	zəruri olmaq

Erkən ingilis dili dövrü ilə orta ingilis dili dövrünün feillərini müqayisə etdikdə biz burada minimal dəyişikliklər müşahidə edirik.

Müasir ingilis dilinin modal feillərinin təsnifatına nəzər salaq. Modallar cümlənin əsas feilinə xüsusi və əlavə anlam qatan köməkçi fellərdir. Müasir ingilis dilində modallığı nitqin məzmununun gərçəkliyə münasibətini və danışığın reallıq, mümkünlük, ehtimallıq və s. cəhətdən faktlara və ya hadisələrə münasibətini əks etdirən qrammatik mənaları ifadə edir; Can, Could, May, Might, Must, Shall, Should, Ought to, Will, Would, Had better. Yuxarıda müəyyən etdiyimiz kimi modallar köməkçi feil olaraq istifadə edildiyində əsas feil heç bir şəkilçi qəbul etməz yəni tək halda işlədilər. Məsələn: *I can go to school. He might listen to music. They should read more.*

İnkar halında başqa bir köməkçi feil gəlmir və özləri inkara çevrilirlər. Və ya inkar şəkilçisi olan 'not' gəlir. *Məsələn; I can't go to the hospital. He might not listen to music. They shouldn't read more.*

Sual şəklində köməkçi feil olan modal cümlənin başına keçir. Məsələn: *Can I go? Might he watch TV? Should they study more?*

Can: 1.Qabiliyyət (Ability) I can swim. (Mən üzə bilirəm). 2. Bir şeyin necə ediləcəyini bildiyimiz hallarda (Knowing how something is done). 3.Ehtimal (Possibility): I can come to see you tomorrow. (Sabah səni görməyə gələ bilərəm). 4.Xahişlərdə (Request): Can you open the door, please? (Qapını aça bilərsənmi?) 5.İcazə istəyərkən və ya icazə verərkən (Asking for/ and giving permission)

Can I study in this room? (Mən bu otaqda dərs oxuya bilərəm?) When you finish your homework,you can watch TV. (Tapşırıqlarını bitirdiyində televizora baxa bilərsən.) 6. Təxminlərdə-təsdiq/inkar (Prediction-question-negative): Who can that be at the door? He can't be my dad. (Qapıdakı kim ola bilər? Atamola bilməz.)

Could: 1.Keçmişdəki qabiliyyətlər (Past ability): At what age could you speak? (Neçə yaşında danışa bildin?) 2. Gələcəyə aid ehtimallarda (Future Possibility): The doctor could see you at 3. (Həkim səni saat 3-də görə bilər.) 3. Xahişlərdə (Request): Could I borrow your dictionary? (Lüğətini borc götürə bilərəm?)

May: 1.İcazə istəyərkən/ verərkən (Ask for/ give permission-request): May I come in? (İçəri girə bilərəm?) You may leave when you finish. (Qurtardıqdan sonra çıxa bilərsən.) 2.Mümkünlük-məqbul təxminlərdə (Probability-reasonable guess): Don't touch it! It may be hot. (Ona toxunma! İsti ola bilər) 3.Ziddlik göstərməyə hazırlaşarkən (Getting ready to show contradiction): She may not be very pretty but she is very good at his job. (Çox gözəl olmaya bilər, amma işində çox yaxşıdır.) 4.Arzularda (Desire,wish): May she rest in peace! (Nur içində yatsın!)

Might: 1.Mümkünlük-may-dən daha zəif (Probability (weaker than may): I don't know where he is, he might be at work. (Harda olduğunu bilmirəm, işdə ola bilər.) 2.Nəzakətli bir şəkildə icazə istəyərkən (Ask for permission/ request): Might I use your phone? (Telefonunuzu istifadə edə bilərəm?)

Must: -malı, -məli deyə çevrilən must şəkilçisi tövsiyyə daxil bir çox hallarda istifadə olunur. Bunlar; 1.Güclü zərurətlərdə (Strong Necessity): The lecture must begin right now. (Dərs indi başlamalıdır.) 2.Təxmin – mövcud hal haqqında etdiyiniz öngörmələrdə: He looks terrible. He must be ill. (Bərbad görünür. Yəqin ki xəstədir.) 3.Qadağalarda (Prohibition): You mustn't speak during the exam (İmtahan zamanı danışmamalısınız.)

Shall: Gələcək zaman halında işlədildiyində Azərbaycan dilinə '-acaq', '-əcək olaraq tərcümə olunan bu sözün inkar şəkli həm shall not həm də shan't olaraq istifadə oluna bilər. 1.Gələcək zamanı göstərir: We shall let you now as soon as there is any news. (Bir xəbər çıxan kimi sənə xəbər verəcəyik.) 2.Təklif edərkən və fikrini soruşarkən: Shall I do the washing-up? (Paltarları mən yuyum?) What shall we do this weekend? (Bu həftə sonu nə edək?) 3.Əmr, təlimat, qadağan etmə və təhdidlərdə: Candidates shall remain in their seats until all the papers have been collected. (Bütün kağızlar yığılana qədər namizədlər yerlərindən qalxmayacaqlar.) He shall do as he is told. (Ona deyiləni edəcək.) You shall be fired if you do that again.(Bunu təkrar etsən, qovulacaqsan.)

Should: 1.Vəzifələrdə, zərurətlərdə-must-dan daha zəif bir ifadə, məsləhət verərkən. (Duty, necessity-weaker than must),advice: He should get up early. (Tezdən oyanması lazımdır.) 2.Təxminlərdə (Prediction): Azərbaycan dilində gərək kimi tərcümə olunur: Helen took dancing lessons for years. She should be a good dancer. (Helen illərdir rəqs dərslərinə getdi. Gərək yaxşı bir rəqqasə olsun.)

Ought to: 1.Vəzifələrdə (Duty): We ought to study. (Gərək dərs oxuyaq.) 2. Məsləhətlərdə (Advice): You ought to eat less. (Gərək az yeyəsən.) 3.Gözləntilərdə (Expectation): My friend works hard.He ought to be suceesful. (Dostum çox işləyir. Gərək müvəffəqiyyətli olsun.)

Will: 1.Qərarlılıq (Determination): I'll pass that exam. (Bu imtahandan keçəcəyəm.) 2.Gələcək haqqında fikir və təxminlərdə (Prediction and opinion for the future): It will rain. (Yağış yağacaq.) 3.Sözverərkən (Promise): I'll do whatever you say. (Sən hər nə desən edəcəm.) 4.Qaçınılmaz hallarda (Unavoidable situations): Accidents will happen. (Qəzalar olacaq.) 5.Rədd edərkən (Rejection) I'll not talk to you. (Sənlə danışmayacağam.) 6.İstəklilik – niyyət (Willingness – intention): I'll help you to do the works. (İşlərini görməkdə sənə kömək edəcəyəm.) 7.Dəvətlərdə, təkliflərdə (İnvitation – offer): Will you have some tea? (Bir az çay istərdinmi?)

Would: 1.Nəzakətli xahişlərdə (Polite Request): Would you open the door, please? (Zəhmət olmazsa, qapını aça bilərsiniz?) 2.İnanılmaz hallarla bağlı suallarda (Questions indicating unbelievable situations): Who would make such a big mistake? (Kim bu qədər büyük bir səhv edə bilər?) 3.Kaş ki (wish, if only) və what qəliblərindən sonra istək göstərmək üçün (to show desire for the presents after wish, if only, what): I wish I would study harder (Kaş ki, daha çox çalışım.) If only you would help me. (Kaş ki mənə kömək etsəydin.) What wouldn't give for good teeth. (Sağlam dişlər üçün nələr verməzdim.)

Had Better: 1.Tövsiyyələrdə (Advice): You had better explain this. (Bunu izah etsən yaxşı olar.) 2. Xəbərdarlıqlarda (warn): You had better not visit him. He has been so angry recently. (Yaxşı olardı ki, ona baş çəkməyəsən. O son vaxtlar çox qəzəblidi).

Ədəbiyyat

1. Paşayeva M.M. İngilis dilinin tarixi (qədim dövr). Bakı, 1972
1. Abdulrahimov E. The ABC of the History of the English language. Baku, 2005.
2. Ilyish B. "History of the English language", Leningrad, 1973.
3. Rastorqueva T.A. "History of the English language" Moscow, 1983.
4. Reznik R.V., Sarokina T.A., Reznik I.V. A History of the English Language. Moscow, 2001.
5. Арсеньева Л.Т. Балашева С.П., Бреков В.П., Соловьева Л.Н. Введение в германскую филологию. Москва, 2000.

Historical developments of the English modal verbs
Summary

Several minor groups of verbs can be referred neither to strong nor to weak verbs. The most important group of these verbs were the so-called “preterite-presents or past-present verbs”. Originally the present tense forms of these verbs were past tense forms. Later these forms acquired a present meaning but preserved many formal features of the past tense. Most of these verbs had new past tense forms built with the help of the dental suffix. In OE there were twelve preterite-presents verbs. Six of them have survived in Mod.E- *owe (ought), can, dare, shall, may, must.* There were used like modal verbs, and eventually developed into modern modal verbs.

The verbs included in the minor groups underwent multiple changes in ME and Early NE; phonetic and analogical changes, which affected their forms, and semantic which affected their functions. Several preterite-presents verbs died out. The surviving verbs lost some of their old forms and grammatical distinctions but retained many specific peculiarities. They lost the forms of the verbals which had sprung up in OE and the distinctions between the forms of number and mood in the Present tense. In NE their paradigms have been reduced to two forms or even one.

Thus, all these development of English modal verbs are discussed in this article.

Историческое развитие модальных глаголов в английском языке
Резюме

Несколько малых групп глаголов нельзя отнести ни к сильным, ни к слабым глаголам. Наиболее важной группой этих глаголов были так называемые «глаголы претерита-настоящего или глагола прошлого-настоящего». Изначально в настоящем времени форма этих глаголов были формами прошедшего времени. Позднее эти формы приобрели настоящее значение, но сохранили многие формальные признаки прошедшего времени. У большинства этих глаголов были новые формы прошедшего времени, построенные с помощью дентального суффикса. ВОЕ было двенадцать настоящих глаголов претеритов. Шесть из них уцелились в М.Е - *owe (ought), can, dare, shall, may, must.* Они использовались как модальные глаголы и в конечном итоге превратились в современные модальные глаголы.

Глаголы, входящие в малую группу, подверглись множественным изменениям в ME и раннем NE; фонетические и аналогичные изменения, повлиявшие на их формы, и семантика, повлиявшая на их функции. Несколько глаголов претерит-презент вымерло. Сохранившиеся глаголы утратили некоторые свои старые формы и грамматические различия, но сохранили много специфических особенностей. Они потеряли формы глаголов, возникших в OE, и различия между формами числа и наклонения в настоящем времени. В NE их парадигмы были сокращены до двух форм или даже до одного.

Таким образом, все эти разработки английских модальных глаголов обсуждаются в этой статье.

DOI: 10.36719/2020/REK/01/63-65

İnarə Bahadur qızı Səfiyeva
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
safiyeva.i@mail.ru

MİLLƏT TƏƏSSÜBKEŞİ

Açar sözlər: *N.Nərimanov, pedaqoq, azərbaycan dili*
Key words: *N.Narimanov, teacher, azerbaijani language*
Ключевые слова: *Н.Нариманов, педагог, азербайджанский язык*

Nəriman Nərimanov böyük və qaynar həyatını
bütünlüklə xalq işinə sərf etmişdir.
Heydər Əliyev

Giriş

Bu il XX əsrdə yaşayıb-yaratmış məşhur Azərbaycan xalqının pedaqoq, dramaturq, nasir,publisist, həkim olmaqla yanaşı, həm də görkəmli dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyidir..

Azərbaycan xalqının böyük oğlu N.Nərimanov bütün həyatını xalqın azadlığı və maariflənməsi uğrunda mübarizəyə sərf etmişdir. Onun həyat yolu mürəkkəb, ziddiyyətli və əzablı olmuş.

N.Nərimanov Qori müəllimlər seminariyasını qurtardıqdan sonra Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kənd məktəbində müəllimlik etməyə başlamış. Bir il sonra isə o, Bakıya gəlmiş. Bakı oğlanlar gimnaziyasında müəllimlik etməyə başlamış. O dövrdə Azərbaycanda maarifpərvər müəllimlər yalnız dərs deməklə kifayətlənmirdilər. Onlar ədəbiyyata və incəsənətə, mətbuata xalqın maariflənməsi üçün qüdrətli bir vasitə kimi baxırdılar. Odur ki, həmin ziyalılar bədii əsərlər yazır, qəzet və jurnallar çap etdirir, yeni üsullu məktəb açır, qiraətxana və kitabxanalar təşkil edir, dərsliklər hazırlayırdılar. Belə müəllimlərdən biri də Nəriman Nərimanov idi.

N.Nərimanov müəllimliklə yanaşı Azərbaycanın qabaqcıl ziyalıları ilə bərabər bir sıra mədəni, ictimai və pedaqoji məsələlərin həllində fəal iştirak etmişdir. O, dövrün görkəmli müəllimlərindən olan S.M.Qənizadə, H.Mahmudbəyov, Ə.Cəfərzadə və başqalarının yaxından iştirakı ilə 1894-cü ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoymuşdur. Kitabxana-qiraətxanada N.Gəncəvi, M.Füzuli, Ə.Firdovsi, M.Vaqif, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani kimi görkəmli şair və yazıçıların əsərləri, "Əkinçi", "Ziyayi-Qafqaziyyə", "Kəşkül" qəzetlərinin əldə olunan nüsxələri toplanmış, onların kataloqu düzəldilmişdir.

Xalq arasında "Nərimanov qiraətxanası" adlanan bu kitabxana az müddət ərzində xalqın və ziyalıların böyük rəğbətini qazanmışdır.

N.Nərimanov Azərbaycan xalqının maariflənməsi işində mətbuatın roluna çox yüksək qiymət verirdi.O, 1896-cı ildə "Sovqat" adlı uşaq jurnalını, sonradan isə "Məktəb" adlı pedaqoji jurnal nəşr etdirmək üçün bir neçə dəfə Qafqaz Senzura Komitəsinə müraciət etmişdir. Bu müraciətlər nəticəsiz qalmış. Ədib "Həyat" qəzetində silsilə məqalələrlə çıxış edərək Qori seminariyasının Azərbaycan bölməsini azərbaycanlılar yaşayan ərazilərə keçirmək məsələsini qaldırmışdır.

N.Nərimanov Bakıya gəldiyi ilk gündən mədəni-maarif ilə yanaşı ədəbi fəaliyyətlə də məşğul olmuş. O, bir-birinin ardınca "Nadanlıq", "Şamdan bəy"(1894), "Bahadır və Sona"(1896), "Nadir şah"(1899), "Pir" və başqa məşhur əsərlərini yazmışdır. Rus ədəbiyyatının bir çox görkəmli ədiblərinin əsərlərini tərcümə etmişdir.

Ədibin ilk pyesi olan "Nadanlıq" əsəri 1894-cü ildə tamaşaya qoyulmuş. "Nadir şah" pyesi isə Baxçasarayda oynanılmışdır. Nərimanov teatr haqqında ilk yazısını 1899-cu ildə Gəncədə teatrın açılması münasibətilə yazmışdır. O, çox vaxt tamaşanın biletlərini öz pulu ilə alıb camaata paylayırdı.

Nərimanov – bir həkim kimi uzun müddət xalqına xidmət etmişdir. O, 1908-ci ildə Millət atası Hacı Zeynalabddin Tağıyevin kömöyi ilə Odessa Novorassiyisk Universitetinin tibb fakültəsini bitirmiş yüksək ixtisaslı həkim idi. Hacı hər ay ona 250 rubl pul göndərirdi. Xalq arasında "bizim doktor" kimi tanınan N.Nərimanovun Bakının mazutdan, tüstüdən, hisdən-pasdan qaralmış "Qara şəhər" adlı hissəsində açdığı xəstəxanada insanlara təmənnasız yardım edirdi. Hal-hazırda onun tibbi ləvazimatları Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Ədəbiyyat muzeyində tamaşaçıların çox böyük maraqla tamaşa etdiyi eksponatlardandır (2. s.12).

1913-cü ildə Həştərxanda çıxan "Edil" qəzetində Nərmanov haqqında yaızılmışdı: " Nəriman bəy bütün Həştərxanlıların böyük etimadını qazanmış, etibarlı bir doktorumuz idi... Həştərxan mətbuatı vasitəsilə o, xalqımızın tibb elminə çox xidmətlər etdi. Nəriman, yuxarıda dediyimiz camaata xidmət dənizində boyundan

yuxarı qərq olduğu halda, o, Həştərxanda sənaye və ədəbiyyatı-nəfisə, həm də teatr və səhnəni sevən gənclərə heç yorulmadan xidmət etmişdir.” (5.s.128)

N.Nərimanov xalqın maariflənməsi yolunda əlindən gələni əsirgəməmiş. Müəllimlər qurultayının təşkilində, məktəblərimizin dərsliklərlə təmin edilməsi işində mühüm rol oynamış, rus məktəbləri üçün “Azərbaycan dili”, Azərbaycan məktəbləri üçün “Rus dili” dərslikləri, qrammatika kitabları, lüğətlər hazırlamışdır. Nərimanov hələ 1896-cı ildə “Kaspiy” qəzetində Azərbaycan dilində qəzetin çap olunması haqqında məsələ qaldırmışdı. N.Nərimanov 1899-cu ildə Bakıda “Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhfi” əsərini çap etdirmişdir. Sonralar ədib yazırdı: “Mən bu sərf və nəhvi o vaxtlar yazmışam ki, “millətçilər” o vaxtlar hələ türk dilinin sərf və nəhfi olduğunu bilmirdilər.” (5. s.145) O, 1901-ci ildə Azərbaycan dili müəllimi işləmək hüququnu almış.

Nərimanov ömrünün sonuna qədər siyasi və dövlət fəaliyyəti ilə yanaşı, müəllimlik və həkimlik borcunu da unutmamışdır.

Vətənə məhəbbət, xalqa məhəbbət Nərimanov üçün xalqın dilindən başlayırdı. Nərimanova ana dilini təkcə milli mənliyin deyil, həm də milli yaddaşın, milli özünədərkin ən ali simvolu hesab edirdi. Onun 1906-cı ildə “Həyat” qəzetində nəşr olunmuş “Bu gün” adlı məqaləsində ana dilinə məhəbbətin doğurduğu dərin hisslər onun şəxsiyyətindən xəbər verirdi. “Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hisiyyat-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə. Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki, sən daha beşikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib ruhun ən dərin guşələrində nəqş bağlayıbdır... Haman dil ki, diyari-qürbətdə... onu eşidəndə ürəyin döyünməyə, üzün gülməyə başlayır, beynin, fikrin, xəyalın işləməyə başlayır, bir dəqiqənin ərzində Vətəni gözünün qabağına gətirirsən...! (4.102) Hələ 1916-cı ildə Nərimanov deyirdi: “Bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunlarında meydana gəlməsi və tərəqqisi bizim üçün hüriyyətə bağlıdır...” (4. s.69)

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ana dilimiz sıxışdırılmağa başlandığı bir zamanda da o dilimiz uğrunda mübarizəsini dayandırmamışdı. O, ölkəni müvəqqəti tərk etdikdə millət satqınları fəaliyyətə başıayırdılar. Nərimanov İ.V.Stalinə məktubunda bu barədə yazırdı: “... Mənim Genuya konfransında olmağımdan istifadə edərək hərəkətə gəlmiş və daha həyasız olmuşlar. Genuyadan qayıtdıqdan sonra, türk dili dərslərinin sayını ixtisar etmək və millətçi təmayül haqqında açıq fitnəkar məqalələr mənim diqqətimi cəlb etmişdi.” (3.s.131)

Elə həmin vaxt Nərimanov “Bakinski raboçi” qəzetində “Bəzi yoldaşlara cavab” adlı məqaləsində çox sərt cavab verir: “Türk dili Azərbaycanda dövlət dili elan edilmişdir və Azərbaycanda bu dilin hüqüqlarında və üstünlüklərindən tam şəkildə istifadə olunmalıdır. Heç kim bunu ləğv edə bilməz... Azərbaycan... öz ana dilindən imtina edə bilməz və heç kimə də imkan verməz...” (5. s.36)

N.Nərimanovun təşəbbüsü ilə Azərbaycan təhsilinin inkişafı üçün və ali məktəblərdə milliyyətcə azərbaycanlı müəllimlər çatışmadığı üçün, Azərbaycanın ali məktəblərində dərs deməyə başqa nüfuzlu ali məktəblərin görkəmli müəllimləri dəvət olunmuşdular.

Ədib Azərbaycan dilinin safliği uğrunda daim çalışmışdır. Onun fikrinə görə dilimizi lüzumsuz sözlərdən azad etmək lazımdır. 1920-ci ildə onun təşəbbüsü ilə latın qrafikasına keçmək məsələsi müzakirəyə qoyulmuşdu. Bu təklif Azərbaycan ziyalıları tərəfindən rəğbətlə qarşılanmış. Hətta Cəfər Cabbarlı bu münasibətlə qəzetdə məqalə yazaraq ziyalıları bu işdə iştirak etməyə çağırmışdır

N.Nərimanovun qərarı ilə yaradılan “Azərbaycan Tədqiq və Tətəbbö” cəmiyyətində hər cildi 10-15 çap vərəqi həcmində olmaqla təxminən 100 çap vərəqi həcmində “Azərbaycan dilinin izahlı lüğəti” hazırlanıb buraxılırdı. Lakin onun vəfatından sonra “Lüğətin” nəşri dayandırılmışdı.

N.Nərimanovun vətənpərvərliyi, cəsarəti, xalqına ürək yanğısı, müstəqil dövlətçiliyi çox güclü idi.

N.Nərimanov məktəblərdə ana dilinin tədrisini çox vacib sayırdı. O, bir məqaləsində dilimizə hörmətin əsas təzahürü kimi sözlərin düzgün ifadə olunmasını qeyd edirdi. Nərimanov ardıcıl olaraq məktəblərimizdə ana dilinin tədrisini, dərsliklərin ana dilində tərtib olunmasını tələb edirdi.

Nəticə

Beləliklə, Nəriman Nərimanov Azərbaycan xalqının milli mədəni inkişafına milli dövlətçiliyin tərkib hissəsi kimi baxmış, ona xüsusi diqqət yetirmiş, milli ziyalilara və təhsilə önəm vermişdir. Onun fəaliyyəti Azərbaycan xalqının mədəniyyətinin inkişafına təkan vermişdir. Ədibin milli dövlətçilik düşüncəsinin mahiyyəti hər xalqın öz ərazisində dövlət suverenliyini qorumasında və xalqının inkişafını isə dünya sivilizasiyasından bəhrələnməkdə görürdü. N.Nərimanov öz şəxsiyyətində və əməlində türkşülük və azərbaycançılığı üzvü şəkildə birləşdirirdi.

Ədəbiyyat

1. N.Nərimanov haqqında xatirələr. Nərimanovun ev-muzeyinin əlyazmalar arxivi. Bakı. 22 may.1981
2. Nəriman Nərimanov. Azərbaycannın elm və mədəniyyət xadimləri. Kataloq.Azərbaycan Respublikası Elmlər Akademiyası Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyi. Bakı.2000
3. T.Əhmədov. N.Nərimanovun dramaturgiyası. Bakı.1971
4. H.Həsənov. N.Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı. 2005
5. M.Məmmədov. Nərimanov və ana dili. Bakı, Elm, 1971.
6. N.Nərimanov. Məqalələr və nitqlər. 1 cild, Bakı, Azərnəşr,1971

People's adherent

Summary

The article is dedicated to the 150th anniversary of the outstanding public figure, publicist, publisher of the XX century, doctor Nariman Narimanov.He devoted all his life to the idea of independence and education of his nation. According to his idea the First Congress of teachers was organized, schools were provided with books. That time when the Soviet government was established in Azerbaijan and Azerbaijani language was forced to fall into oblivion, he constantly continued to support national language. Nariman Narimanov's creative activity made a great influence on the development Azerbaijani people's culture.

Народный приверженец

Резюме

Данная статья посвящается 150-летию выдающегося государственного деятеля, публициста, издателя XX века, доктора Нариман Нариманова. Всю свою жизнь он посвятил свободе и просвещению своего народа. По его инициативе был организован первый съезд учителей, школы были оснащены учебниками. В тот период когда, в Азербайджане установилась Советская власть и азербайджанский язык начинали насильно предавать забвению, он непрестанно продолжал защищать родной язык. Творчество Нариман Нариманова оказало сильное влияние на развитие культуры Азербайджанского народа.

DOI: 10.36719/2020/REK/01/65-68

Sevinc Şakir qızı Şükürlü
AMEA Nəsimi adına Dilçilik İnstitutu
sevinc_shukurlu@yahoo.com

"YAXŞI" VƏ "PİS" KONSEPTLİ İDİOMATİK İFADƏLƏRİN STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *konsept, idiom, atalar sözü, struktur, yaxşı, pis.*
Key words: *concept, idiom, proverb, structure, good, bad.*
Ключевые слова: *концепция, идиома, пословица, структура, плохой, хороший*

Giriş

Müasir ingilis dilində "pis" və "yaxşı" konseptində olan ifadələr ya idiomlar ya da atalar sözləri – paremiyalar şəklində olurlar. Bu konseptləri özündə əks etdirən idiom və atalar sözləri isə söz birləşmələri və cümlələr şəklində formalaşır. Müasir ingilis dilində "yaxşı" və "pis" konseptli ifadələrin böyük əksəriyyəti feili birləşmələrdən ibarətdir. Belə ifadələrin birinci tərəfi həmişə feillərdən ibarət olur.

Bütün dünya dillərində olduğu kimi Azərbaycan dilində də ən zəngin nitq hissəsi feil sayılır. Feillərin milliliyi, çoxmənalılıq və məcazlığa malik olması onların "pis" konseptli ifadələrin tərkibində işlənməsini şərtləndirən əsas amillərdəndir. Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də bu tip ifadələrin 99%-nin əsas nüvəsini feil təşkil edir.

"...dil yaddaşda konkret olaraq hər bir etnomədəni kollektiv üçün səciyyəvi olan dünyanın dil mənzərəsinin qurulması üçün çoxlu biliklərin sistemləşdirilməsi və qaydaya salınmasına imkan yaradır" (1,15). Dünyanın bu dil mənzərəsində də idiomların özünəməxsus və əlahiddə yeri vardır.

Əsas hissə

Müasir ingilis dilindəki "yaxşı" və "pis" konseptli ifadələrin özünəməxsus qrammatik strukturu vardır. "Yaxşı" və "pis" konseptli ifadələr struktur cəhətdən bütöv olub, müxtəlif morfoloji xüsusiyyətlərə malik sözlərdən ibarətdir. "Dil faktları ikili təbiətə malikdir: bu, bir tərəfdən quruluşun özünün daxili qanunauyğunluqları, digər tərəfdən isə onların dilin cəmiyyətdə işlənməsini şərtləndirən daxili qanunauyğunluqları ilə müəyyən edilir"(2, 48).

Müasir Azərbaycan dilində feili idiomatik ifadələrdə ad hissəsi əvvəl, feil komponenti isə sonra gəlir. İngilis dilində isə əksinə - idiomlar "feil+ad" modelində var olur. İngilis dilində feili idiomatik ifadələrin birinci tərəfi feil, ikinci komponenti isə əsasən isimdən ibarət olur. İdiomların ümumi məna komponentlərinin bütöv mənasından və sintaktik strukturundan asılı olaraq, predikativ səciyyə daşıyır. Onu da demək vacibdir ki, həm ingilis, həm də Azərbaycan dilində feili idiomatik ifadələrin isim və feil komponentinin demək olar ki, hamısı dildə əsasən müstəqil işlənən leksik vahidlərdən ibarət olur. Məsələn, *do someone down (biri üçün pis danışmaq, pisləmək); cut one`s eye-teeth on something (gəncliyindən bəri etmək, çox məlumatı olmaq); change colour (bəti-bənizi,rəngi-rufu saralmaq); drink to excess (həddindən artıq içmək, sərxoş olmaq) və s.*

Ümumiyyətlə, inkar modallığı dildə xüsusi bir sfera təşkil edir. Və çox vacib amillərdəndir. "İnkar modallığı təsdiq modallığının əksini t̲əşkil edən bir modallıq növüdür. O, bütövlükdə təsdiq modallığının ifadə etdiyi məzmunun əksini bildirir. Elə bir təsdiq mülahizəsi yoxdur ki, onun inkar bildirən müqabili, korrelyatı olmasın. Təsdiq və inkar modallıqlarının özlərinin ifadə vasitələrinin mənsubiyyəti və sayına görə də birbirinə müvafiq gəlir. Təsdiq və inkar modallıqlarının yalnız bir mühüm fərqi vardır ki, birinci markalanmamış (nişanlanmamış) olduğu halda, ikinci müəyyən inkaredici vasitələrlə (feilin inkar forması, inkaredici əvəzlik, zərf, bağlayıcı, ədat, modal sözlər və s.) markalanır (nişanlanır)"(3).

Yalnız feilin təsdiq formasında işlənən yaxşı və pis konseptli idiomatik ifadələr də ingilis və Azərbaycan dillərində çoxluq təşkil edir: Nümunələr: *to be near (-ing)one`s end - ölüm ayağında olmaq; to fleece a person of all his money - bir kəsi qaz kimi yolmaq, zorla qorxutma yolu ilə bir kəsin bütün pullarını əlindən almaq; to persecute smb.with request – xahiş və yalvarışlarla bir kəsin zəhləsini tökmək; not able to help something; can`t help doing - əlindən gəlməmək, bacarmamaq; not able to see wood for the trees – problemlər içində boğulmaq.* və s. Burada bir nüansa fikir vermək gərəkdir ki, istər Azərbaycan, istərsə də ingilis dillərində inkarda işlənən idiomatik ifadələrin böyük əksəriyyəti pis konseptini, təsdiqdə işlənən idiomatik ifadələrin böyük qismi isə yaxşı konseptini özündə əks etdirir.

Maraqlı bir fakt da budur ki, bəzən idiomun tərkibində "not" inkar ədatı işlənsə də idiom müsbət və ya yaxşı konseptli olur. Məsələn, not half bad-olduqca yaxşı. Say this roast beef is not half bad. (Bu qızartma mal əti olduqca yaxşıdır).

İngilis dilində yaxşı və pis konseptini əks etdirən elə idiomatik ifadələrə rast gəlirik ki, həm təsdiqdə, həm də inkarda işlənən idiomatik birləşmələrdir: *ingilis:* to put a good face on smth ("özünü sakit aparmaq") - not to put a good face on smth ("özünü sakit aparmamaq", to carry on its face ("tam aşkar olmaq") - not to carry on its face ("tam aşkar olmamaq"), to put one`s best foot ("əlindən gələni etmək") - not to put one`s best foot ("əlindən gələni etməmək") və s. İngilis dilində yaxşı və pis konseptli idiomatik birləşmələr ifadə vasitələrinə, struktur rəngarəngliyinə görə ismi və feili olurlar.

İsmi idiomatik ifadələrin əsasında ad dayanır. Belə birləşmələrdə isim əsas komponent, mərkəz rolunu oynayır. Ətrafına müxtəlif sözlər toplayır. İsim idiomatik ifadələrin ümumi məzmunu cümlədə tutduğu mövqeydən asılı və dəyişkən olur. "Bu aspekti nəzərə aldıqda adyektiv və adverbial birləşmə kimi qiymətləndirilən ifadələri də ismi idiomatik ifadələr saymaq olar" (4,60).

İngilis və Azərbaycan dillərində yaxşı və pis konseptini əks etdirən ismi idiomatik ifadələr sifət +isim, isim+isim modelləri üzrə formalaşır:

a) "sifət+isim" ("adjective+noun") modeli üzrə formalaşan idiomatik ifadələr. Dilçilik ədəbiyyatında bu modellər əsasında yaranmış idiomatik ifadələr "sabit epitetlər"adlandırılır. Məsələn, bad blood (düşmənçilik). There has been bad blood between the two brothers ever since their father's death. (Atalarının ölmündən bəri iki qardaş arasında düşmənçilik var).

b) "isim+isim"("noun+noun") modeli üzrə. Məsələn, **at the end of one`s tether** (son həddə, səbri tükənmə) - Children ill, husband out of work, mother in hospital-poor Annie`s at the end of tether. (Uşaqlar xəstə, ər işsiz, ana xəstəxanadadır-yazıq Annann səbri tükənib); (5, 29).

1) tərəflər arasında heç bir qrammatik vasitə iştirak etmir. Məsələn, **a matter of life and death** (ölüm-qalım məsələsi)**; beginner`s luck** (yeni başlayanın şansı)**; child`s play** (uşaq oyunu)**; the bee`s knees** (əla) - I know Phil is quite good-looking, but I wish he wouldn`t admire himself in the mirror so much.

2) komponentlər arasında bağlayıcı yaxud sözönü iştirak edir. Nümunələr:

life and limb (həyat və sağlamlıq) - The rescue team risked life and limb trying to the three young climbers down the mountain (Xilasedici qrup həyat və sağlamlıqlarını riskə ataraq üç cavan alpinisti dağdan endirməyə çalışdılar);

İngilis və Azərbaycan dillərində yaxşı və pis konseptli idiomatik ifadələrin komponentlərinin sabit qrammatik formaya malik olması onların əsas əlamətlərindəndir. İdiomatik ifadənin hər bir üzvünün dəyişməz və müəyyən qrammatik forması olur.

İngilis və Azərbaycan dillərində yaxşı və pis konseptli idiomatik ifadələrin strukturunda olan ümumi cəhətlərdən biri də onların iki və daha çox leksik vahidlərdən ibarət olmasıdır.

İki komponentli idiomatik ifadələr. Nümunələr: go downhill - geriləmək; go haywire - 1) xarab olmaq; 2) dəli olmaq; start something - dava eləmək və s.

Üç və daha artıq komponentdən ibarət ifadələr. Nümunələr: thankful for small mercies - kiçik şeylərlə xoşbəxt olmaq; slip one`s mind - ağlından çıxarmaq; get physical - zor tətbiq eləmək; do someone`s heart good - sevindirmək, xətrini xoş eləmək və s.

Yaxşı və pis konseptli idiomlar nitq prosesində, yəni kontekstdə gerçəkləşir. Bu tip ifadələrin mənası onu qəbul edənlərə - reseptorlara aydın olmalıdır. Əgər belə olmasa, dinləyən adam yəqin ki, idiomun komponentlərinin lüğəvi mənasına istinad edəcək, bütövün mənasını anlamayacaq və ya başa düşməyə çətinlik çəkəcəkdir.

İdiomların sintaktik dəyişikliyə məruz qala bilməsi kimi linqvistik xüsusiyyət bir çoxlarında maraq doğurur. Çünki bu xüsusiyyət idiomatikliyi psixolinqvistik hadisə kimi təqdim etməmizə şərait yaradır. İngilis dilindəki yaxşı və pis konseptli idiomatik ifadələr sırf psixolinqivistikanın tədqiqat obyekti olduğundan bu tip ifadələrdə sintaktik dəyişmə məna fərqinə gətirib çıxardır.

Yaxşı və pis konseptli idiomatik ifadələrin tərkibinə əlavə sözün qəbulu, tərkib komponentinin başqası ilə əvəzlənməsi, bəzi idiomlarda məchul növdə işlənmənin mümkünlüyü, başqalarında isə qeyri-mümkünlüyü bizə onların daşlaşmış, dəyişilməz, məntiqsiz elementlər olmamasını sübut etməyə imkan yaradır. Deməli ingilis və Azərbaycan dillərindəki idiomatik ifadələr həm quruluşu, həm də leksik baxımdan dəyişikliyə məruz qala bilən birləşmələrdir.

İngilis idiomlarının struktur xüsusiyyətləri Oxford nəşri olan Jennifer S W/ McMordinin müəllifliyi ilə nəşr olunan "English idioms" əsərində dəqiq şəkildə verilmişdir. İdiomlar haqqında ümumi məlumat verildikdən sonra isim və zərf komponentli idiomlar, isim komponentli, feil komponentli idiomlar kitabda yer almışdır. Maraqlıdır ki, əsərdə "bad" və "good" komponentli idiomlar da ayrılıqda verilmişdir. Əsərdə 16 bad komponentli, 32 "good" komponentli idiom verilmişdir (6).

Nəticə

Araşdırma sonunda bu nəticəyə gəldik ki, feillər kimi, feili idiomlar da bir ya iki halı idarə etmək qabiliyyətinə malikdir. Feili idiomatik ifadələrin böyük əksəriyyəti təkcə bir halı idarə edir. Elə idiomatik ifadələr var ki, onlar iki halı idarə edə bilir. Müasir ingilis dilindəki yaxşı və pis komponentli idiom və atalar sözləri birləşmə və cümlə tipində olurlar.

Ədəbiyyat

1. Məmmədova Ü. İngilis və Azərbaycan atalar sözlərinin struktur-semantik təhlili. Fil. ü. fəl. dok. avtoreferatı. Bakı, 2013, 29 s.
2. Амосова Н.Н. Современные состояние и перспектив фразеологии.//«Вопросы языкознания». Москва: 1966, №3. с.65-73
3. Кубрякова Е.С.Части с когнитивной точки зрения. Москва: Института языкознания РАН. Тамбовский Государственный университет. 1997, с. 84-92
4. Quliyev T. İngilis və Azərbaycan dillərində idiomatiklik və idiomların transformasiya yolları. Fil. ü. fəl. dok. diss. Bakı, 2012 ,140 s.
5. Кирилина А.В. Тендер: лингвистические аспекты. Москва: Изд-во «Институт социологии РАН», 1999, 180 с.
6. Oxford Learner"s Pocket. Dictionary. New edition. Reprinted, Oxford: Oxford University Press, 1999.

Structural features of idiomatic expressions of "good" and "bad" in modern English

Summary

In modern English, the terms "bad" and "good" are either idioms or proverbs in the form of parems. The idiom reflects these concepts, and the proverbs are formed in the form of word combinations and sentences. In modern Azerbaijani the verb idiomatic expressions come first and the verb component. In English, on the contrary - idioms are in the verb + name model. The verbal idiomatic expressions in English can be in confirmation and denial structures in accordance with the verb catalog of affirmation and denial. In English and

Azerbaijani, idiomatic expressions reflecting good and bad concepts are formed by adjective + noun, noun + noun models:

Various scientific sources were used in the creation of this article.

Структурные особенности идиоматических выражений с концепцией «хорошо» и «плохо» в современном английском языке

Резюме

В современном английском языке выражения с концепцией "плохо" и "хорошо" бывают или в виде идиом или же в виде пословиц. Идиомы и пословицы, отражающие эти концепции, формируются в форме словосочетаний и предложений. В современном азербайджанском языке в глагольных идиоматических выражениях именная часть стоит перед глагольным компонентом.

В английском языке же наоборот - идиомы бывают в модели глагол + имя. Глагольные идиоматические выражения в английском языке в соответствии с категорией подтверждения и отрицания глаголов могут быть в структурах подтверждения и отрицания. В английском и азербайджанском языках именные идиоматические выражения, отражающие концепцию хорошо и плохо, формируются с помощью моделей прилагательное + существительное, существительное + существительное.

При написании статьи использовались разные научные источники.

DOI: 10.36719/2020/REK/01/68-71

Leyla Qadir qızı Məcidova
Lənkəran Dövlət Univeriteti
kameliya-76@mail.ru

İMADƏDDİN NƏSİMİNİN HÜRUFİLİK İDEYALARINDA TƏRBİYƏVİ MƏSƏLƏLƏR (BEYNƏLXALQ YANAŞMADA)

Açar sözlər: *divan, əlyazmalar, qəzəl, hürufilik, ideyalar, hərflər, tərbiyə, əxlaq*
Key words: *divan, manuscript, ghazal, hurufism, ideas, letters, upbringing, morality*
Ключевые слова: *диван, рукопись, газель, хуруфизм, идеи, письма, воспитание, нравственность*

Giriş

Seyyid İmadəddin Nəsimi (Şamaxı, 1369-Hələb, 1417), böyük Azərbaycan şairi və Şərq poeziyası və fəlsəfi düşüncəsinin görkəmli siması, Azərbaycan dilində fəlsəfi poeziya məktəbinin yaradıcısı olmuşdur.

Yaşadığı dövrdə, 14-15 əsrin sonlarında, dini cəhalət hakim idi - vətəni monqol istilası ilə darmadağın edildi. Həm Şərqdə, həm də Qərbdə əsl humanist fikirləri təbliğ edən hər kəs - feodal zülmünə qarşı çıxmaqla və ya insanları öz güclərinə etibar etməyə çağırmaqla - ölüm və ya həbslə cəzalandırıldı və bütün mütərəqqi yazılar yandırıldı.

Hurufizm, müqəddəs kitabın bütün əsasını və hətta Tanrının özünün də yazılı məktublarını qəbul edirdi

Nəsimi poeziyasına dünyanın diqqətini cəlb etməklə bir daha Azərbaycana və onun mədəniyyətinə diqqəti cəlb edirik.

Bu, insan qarşısında özünü büruzə verdi. Nəsiminin şeirlərində tez-tez bu görüşlərin açıq-aşkar ifadələrinə rast gəlirik, məsələn, Ali Tanrının özü bəşəriyyətin oğlu olduğunu. Nəsimi oxucusuna deyir:

Ey bütün üzünüzdə səliqəli bir maddə görünən, görünüşünüz mərhəmətli və lütfkar Allahdır.

Nəsimi ümumi mənada “bütün” mənasını ifadə edən şəxsi mənasını istifadə etdi:

Sonum əbədidir və başlanğıcım ilkindir, əbədi olaraq mən varam.

Quranda insana Allahın bütün epitetlərini izah etdi:

Otuz iki ölməz məktub mənəm. Heç bir yoldaşım yoxdur, heç kimi yoxdur, əvəzedicisi məndə yoxdur

Digər monoteist məzhəblərdə olduğu kimi, İslam da iddia etdi: "Allahdan başqa tanrı yoxdur!". Nəsimi bu dogma ilə izah edərək dedi:

Bizdən başqa Allah yoxdur - bu, mütləq üzümüzdən pərdə çəkdiyimizi bilirikXV əsrin əvvəllərində Azərbaycanda yaranan mistik panteist doktrinası olan Hurufizmin təbliğatçısı və aparıcı nəzəriyyəçisi idi. Adı ərəbcə huruf sözündən və ya hərflərdən yaranmışdır. Hurufizm müqəddəs sayılan numerologiya və gematriya prinsipləri - nömrələrin hərflərə təyin edilməsindən və müqəddəs mətnlərdə sözlərin cəmlənməsi və ya manipulyasiyasından əldə edilən nömrələr. Nəsimi dilin zənginliklərindən qəzəllərində özünəməxsus bir ustalıqla istifadə edir. Bəzən

şair şeirlərini yalnız xitab və ifadələri təkrarlar üzərində qurur. Filosof şairin poeziyası çox tez bir zamanda Orta Asiya, Türkiyə, Türkiyə və İran xalqları arasında populyarlıq qazanır. Mənsur Həllacla birlikdə onun adı öz əqidəsi uğrunda qeyri-adi sədaqət və cəsurluq rəmzinə çevrilir. Onun əsərləri bir çox dillərə çevrilir və həmin dillərdə yazıb yaradan şairlər onu təqlid edirlər. nəsiminin şeirlərini xalq arasında avazla oxumaq və onun hürufi ideyalarını təbliğ etmək üstündə bir çoxları əzablara qatlaşır, hətta canlarında da keçirlər.

Yaradıcılığının ilk dövrlərində Nəsimi də ustadı Nəimi kimi sufizm mövqeyində dayanır və tanınmış sufi şeyxi Siblinin təlimini davam etdirir. Bu mərhələdə şair öz "Hüseyni", "Seyid Hüseyni", "Seyid" təxəllüsləri ilə yazır. Lakin X əsrin Sufi İran filosof şairi Mənsur Həllacın təlimi Nəsiminin ruhuna daha yaxın idi. İlk dəfə məhz o demişdi ki, "Mən allaham!" Bu cür küfr sayılan fikirlərinə görə mənsur Həllac daim təqiblərə məruz qalmış və nəhayət, öz ömrünü dar ağacında başa vurmuşdu. əqidəsi uğrunda bu cür fədakarlıq göstərməyə hazır olan Nəsimi də Mənsura heyran kəsilmiş və öz əsərlərində onu tərənnüm etmişdir. Maraqlıdır ki, şair hürufi təlimini qəbul etdikdən sonra da Həllaca vurğunluğundan qalmamışdı. Bu sözləri müəyyən mənada Nəsiminin uzun müddət sadiq qaldığı sufi fəlsəfəsi haqqında da söyləmək olar. Bununla əlaqədar olaraq Zümrüd Quluzadə yazır: "Nəsimi yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl Allah dayanır. İnsan üçün ən yüksək ülvi duyğu həmin sevgilinin vüsalına yetişmək, ona qovuşmaq, onda əriyib yox olmaqdır. Şair yazır ki, eşqi günah sayanların sözlərinə baxmayaraq, o bu yoldan çəkinməyəcək. Çünki yalnız bu yol insanı tanrıya, həqiqətə çatdıra bilər. Lakin tədricən Nəsiminin dünyagörüşündə sufilik hürufiliklə əvəz olunur. Bu, hər şeydən öncə şairin panteist görüşlərindəki dəyişilikdə əks olunur. Bu görüşlərin əsasında artıq eşq və sərxoşluq deyil, hərf, ağıl dayanmağa başlayır. Bu zamandan etibarən Nəsimi fəlsəfədə Nəiminin yaratdığı hürufiliyə tapınır və onun əsas müddəalarını təbliğ edir. Ancaq Nəsiminin təbliğ etdiyi hürufilik heç də Nəiminin yaratdığı təlimin eynilə təkrarı deyil. Qeyd etmək laızmdır ki, Nəsiminin Divanı Azərbaycanda 1972-ci ildə Həmid Məmmədzadə tərəfindən çap olunmuşdur və İranda da bir dəfə "Gecə qaranlığında simurq" adı ilə Seyid Əli Salehin təşəbbüsü, 1968-ci ildə Hüseyn Ahi, 1980-ci ildə Toruği nəşriyyatı vasitəsi ilə və 1972-ci ildə isə Nəsri Nei tərəfindən Cəlal Pendərinin səyi ilə çap edilmişdir. AMEA Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya üzrə elmlər doktoru Paşa Kərimov Ankara Milli Kitabxanasından böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadilli divanının iki nüsxəsinin surətini əldə edib. 83 vərəqdən ibarət birinci divan aydın nəsx xətti ilə köçürülüb. 308 vərəqdən ibarət olan ikinci divan da səliqəli və gözəl xətlə yazılıb. Qeyd edək ki, bu divan Nəsiminin əlyazma divanları içərisində ən irihəcmlilərdəndir. Divanın əvvəlində "Divani-həzrəti-seyyid" "Nəsimi qəddəsə sirülhid -əziz" mənası isə "Seyid Nəsiminin qəbri pak olsun divanı" sözləri yazılıb.

Həmçinin, 2019-cu ildə AMEA Məhəmməd Fizuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Paşa Kərimov böyük Azərbaycan şairi İmadəddin Nəsiminin divanının lirik şeirlər toplusunun Ankaranın Milli Kitabxanasında saxlanan iki əlyazma nüsxəsinin surətini əldə edib. Bu nüsxələr şairin "Hüseyni" təxəllüsü ilə yazdığı şeirlərin olması ilə diqqəti cəlb edir.

105 vərəqdən ibarət olan birinci əlyazmanın başlığı "Divani-Həzrət Seyyid-Nəsimi" kimi getsə də, buradakı şeirlərin çoxu "Hüseyni" təxəllüsü ilə yazılıb. 124 vərəqdən ibarət ikinci əlyazma divanında isə şairin həm Nəsimi, həm də Hüseyni təxəllüsü ilə yazdığı şeirləri vardır. Nəsimi divanının surətləri yeni əldə edilmiş nüsxələri şairin yaradıcılığının tədqiqi baxımından böyük maraq kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2019-cu ildə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) 650 illik yubileyi qeyd edilir. Nəsiminin yaradıclığı Azərbaycan dili və ədəbiyyatının inkişafında mühüm bir mərhələdir. Şairin sağlığında əsərləri Azərbaycan, yaxın Şərq, İraq, Suriya, Orta Asiyada geniş yayılmışdı. Nəsimi sadəcə Azərbaycan ədəbiyyatına deyil,15-ci əsrdən etibarən bütün türk ədəbiyyatına güclü təsir göstərmişdir. Şairin əsərləri əlyazmalar şəklində dünyanın bir sıra kitabxanalarında saxlanılır. Şaorin əsərləri dönə-dönə çap edilmiş, barəsində tədqiqat əsərləri yazılmışdı. YUNESCO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilmişdir. Onun seçilmiş əsərləri "Hardasan", "Məndə sığar iki cahan", "Bahariyyə" şeirləri təkcə Azərbaycanda deyil, digər ölkələrdə də tanınır və hamı tərəfindən öyrənilir.

"Bahariyyə" əsərində hürufilik ideyalarına rast gəlinir. Nəsimi öz əsərlərində hürufilik ideyalarına belə demişdir ki, bu yol xristian, yəhudilik yolu deyil, bu yol kamil insan yoludur. Nəsimi öz əsərində İsa peyğəmbərin rəğbətindən, qüdrətindən danışmışdır.

Dini fanatiklər bu 'bid'əti' eşidəndə gənci həbs etdilər və ona şeirin müəllifinin adını verməsini əmr etdilər. Gənclər bunun öz şeiri olduğunu söylədi və dərhal ölüm hökmünə məhkum edildilər. Nəsimi baş verənləri eşitdi və günahsız gənclərin sərbəst buraxılmasını tələb edərək edam yerinə getdi - özünü təhqir edən şeirin müəllifi adlandırdı. Din xadimləri Nəsimini diri-diri öldürməyə qərar verdilər. Dəhşətli ölümü ilə təsirli bir ləyaqətlə qarşılaşdı. İşgəncə zamanı ruhanilərdən biri Nəsimidən soruşdu: "Sən Allahsan deyirsən. Bəs niyə qan töküldükcə solğunlaşırsan? "Sualına Nəsimi cavab verdi:" Mən əbədiyyət üfüqündəki eşq günəşiyəm. Gün batanda rəngi solur." Nəsiminin şeirləri insanda doğruluğu, insan qəlbinin və ruhunun nəcibliyini və gözəlliyini tərifləyir və

beləliklə ədalətin zəfəri kimi də öz həyatını bir insan və birisi üçün qurban verən bir qəhrəman kimi öz yerini tutdu.

Bir çox şeirlərində, gözəlliyi ona bəxş etdiyi bir qadına dünyəvi ehtirası səbəb olan bir insanın düşüncələrini və əzablarını səsləndirir. Nəsimi Yaxın və Orta Şərqdə geniş yayılmış poetik formalardan - qəzəl, dördlük, qəsidə və məsnəvi (qafiyəli cütlər), klassik ərəb və fars poeziyasının formalarından istifadə etmişdir. Parlaq şeirləri türk poeziyasında bu formaların sonrakı inkişafına həlledici təsir göstərmişdir. Bir qəzəl qafiyə quruluşu aa, ba, ca, da və sair ilə birlikdə 7 və 14 cütdən ibarətdir. Son bənddə adətən müəllifin adını çəkilir. Qəzəllər ənənəvi olaraq gözəl bir qadın haqqında, sevgilinin əzabları, ayrılıq kədəri və görüş sevincləri haqqında şeirləri əks etdirir.

Maraqlıdır ki, orta əsrlərdə Nəsimi ermənilər arasında o dərəcədə məşhur idi ki, bəzi erməni mənbələri onun haqqında "xristianlığı qəbul edən bir şair" kimi danışırdılar. Tədqiqatçı Mirəli Seyidov bunu Nəsiminin dinlər arasındakı fərqə əhəmiyyət verməməsi, insanları dini mənsubiyyəti ilə deyil, mənəvi keyfiyyətləri ilə mühakimə etməsi ilə izah edir: istər xristian olsun, istər müsəlman olsun, insan artıq bir insan olduğuna görə dəyərlidir . Erməni şairləri Nəsiminin, xüsusən də Təbrizdə 17-ci əsrin sonu - 18-ci əsrdə yaşayan və işləyən Miranın irəli düşüncələrindən ilhamlanmışdılar. Oradakı ermənilər Azərbaycan dilində danışırdılar və Miran şeirlərinin çoxunu bu dildə yazırdı. Miranın əsərləri təkcə Nəsimi ilə deyil, həm də bütün Azərbaycan ədəbiyyatı ilə bağlıdır.

Azərbaycan ədəbi dilinin inkişafının ilkin mərhələsində şair və alimlər fars, ərəb və azərbaycan dillərində yazırdılar. Ərəb sözləri əsasən elmi, fəlsəfi və dini anlayışları ifadə etmək üçün istifadə olunurdu. Azərbaycan dilində yazan şairlər Fars dilində işləyən həmvətənlərinin - Nizami, Xaqani əsərləri qədər sevilmirdilər. Buna görə müəyyən ərəbizm və farsizmlər Azərbaycan ədəbi dilinə qəbul edildi.

Nəsimi əsərlərinin tədqiqatçısı Əbdüləzal Dəmirçizadənin fikrincə, Azərbaycan yazılı ədəbi dili XII-XIII əsrlərdə yaranmışdır. Tədqiqatçılar hesab edirlər ki, Nəsiminin ən böyük yaradıcılıq cəhəti 14-cü əsrin ikinci yarısında Fars dilinin bölgədə hakim olduğu dövrdə doğma Azərbaycan dilində işlənməsi idi. Yüksək təhsilli və parlaq bir istedad sahibi kimi Nəsimi bütün türkdilli xalqların və Azərbaycan poeziyasına -ədəbiyyatına yeni bir istiqamət verdi.

Nəsiminin yaradıcılığı ilə ilahi səviyyəyə qaldırılan bir müdrik insan haqqında fikri, sadə çirkinlik və vəhşi instinktlərdən azad, insan hüquqlarını həyata keçirən, özünü bir insan kimi dərk edən sadə insanlara həsr olunmuşdu. Yalnız Nəsiminin yaradıcılığı deyil, bütün həyatı əfsanə və nağılla əhatə olunmuş cəsarət və qürur məktəbidir, fikirlərə israr, nəsillər üçün ölüm qorxusu yoxdur. Azadlığı sevən şairə, sağlığında humanist əsərlərinə görə dərisi soyularaq mürtəce keşişlər tərəfindən verilən dəhşətli cəza bu böyük sənətkarı həm gələcək nəsil üçün, həm də müasir nəsillərə nümunə etdi.

Nəsiminin qəzəlləri hürufilik ideyaları ilə yanaşı tərbiyəvi nəsihətlərlə də zəngindir. Nəsimi ictimai-siyasi, əxlaqi mövzularda əsərlər yazmış, ana dilində yaranan fəlsəfi qəzəlin banisi olmuşdur. Gənclik illərində yazdığı əsərlərində Nəsimi insan gözəlliyi və məhəbbətini tərənnüm etmişdir. O həm məhəbbət, həm də didaktik-tərbiyəvi məzmunlu şerlərində xüdpərəsliyi, riyakarlığı. Vəfasızlığı kəskin tənqid etmişdir. Nəsimi hünərsiz adamların mənsəb sahibi olduğu, hünər sahiblərinin isə ehtiyac və səfalət pəncəəsində əzildiyi, elmə, istedada qiymət verilmədiyi feodal dünyasının haqsızlıqlarına qarşı üsyan edirdi. Nəsimi əsərlərində insana məhəbbət, insan şəxsiyyətinə, insan azadlığına hörmət mühüm yer tutur. O, insanı yaradıcı bir varlıq kimi ucaldır, zəkasının qüdrəti ilə dünyanın sirlərini açmağa qadir olduğuna dərin inam bəsləyir. Nəsimi insanı, özünü, nəticədə isə həqiqəti, dünyanı dərk etməyə çağırırdı. Buna görə də Nəsimi irsinin tədqiqatçıları onu “Odlar yurdunun Promoteyi”, “eşq fədaisi”, “idarəlilik rəmzi” kimi qiymətləndirmişlər. Nəsimiyə görə, həyatda ən böyük həqiqətdə, yaradıcı da, tükənməz sirlər mənbəyi də insandır. İnsanda haqqı görməyən kəs həqiqəti duya bilməz. Haqqı da yalnız kamil və yetkin insan görə bilər. Kamil insan öz ağıl və eşqi ilə insanların gözləri qarşısından zülmət pərdəsini qaldırmağa, həyata günəş kimi işıq saçmağa qadirdir. İnsan ağlı, idrakı kainatı, təbiəti və özünü dərk edə bilər.Çünki insanın xəyalı, fikir dünyası sonsuzdur. Kainatı, aləmi, insanı anlamaq üçün insan ağlı tərbiyəyə möhtacdır. İnsanı isə müəllim, murşid (ustad) tərbiyə edir. Ağlın tərbiyəsi üçün müəllim sözdən istifadə edir. Nəsimiyə görə, söz ucadır, onun yeri göylərdir. Söz yaradıcıdır, göy və səmadır, lövhə və qələmdir, dörd ünsürdür. Söz dənizinin hüdudu yoxdur. Buna görə də ustadsız, müəllimsiz heç kəs öz idrakını, şuurunu parlada bilməz.İnsan ustad və müəllimin rəhbərliyi altında dərk edir ki, bu çevrə aləm nədir. Göyün qübbəsi nədir? Yuvarlıq olan Günəş yer üzünə işığı nədən saçır? Od, su, torpaq və yeldən ibarət olanın adı nədən adəmdir? və s. O, bu məsələləri “Nədir?” rədifli şeirində verir və deyirdiki, özünü bilməyən sözünü də bilməz.

Nəsimi insanın gözəllik və səadətini, onun könül sərbəstliyi və mənəvi azadlığını, əqli-mənəvi yetkinliyini hər şeydən üstün tutur, insanı həyatın maddi və mənəvi gözəlliklərindən zövq almağa çağırır. Nəsimi nadanlığı, cahilliyi ən böyük bəla sayır. Şair öz zəmanəsində sözü bütöv, doğrucul və vəfalı insanı axtarır, lakin o, belə insanı tapa bilmir. Nəsimi bu dünyanı tikanlı bir bağa bənzədir və gülsüz yerdə gülzar axtarmağın mənasız bir iş olduğunu bildirir. Tikanlı dünya deyəndə yaşadığı ictimai mühiti, onun rəzalət və zülmünü nəzərdə tutur.

Nəticə

Nəsimiyə görə, ən kamil insan öz əqidə və məsləki uğrunda meydana atılan insandır. Belə insan böyüksüz olanlarla yoldaşlıq etmir, ədəb-ərkanı olan yol əhlini gözləməyi məsləhət bilir. Vəfalı dost əhdinə sadiqdir. Dost ilə olan hər bir kəsin işi uğurlu olur. O, cavanlıq çağlarını boş keçirənləri tənqid edib deyir ki, hər bir anın qədrini

bilmək lazımdır. O, dünyanın qoca bir qarı olduğunu və ona aldanmamağı tövsiyə edir. Nəsimi insanın nəyə qadir olduğunu "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!" adlı qəzəlində çox gözəl, fəlsəfi bir dildə vermişdir.

O, iki cahanın (maddi və mənəvi) insanın daxili aləminə sığdığını, lakin onun dünyaya sığmadığını, məkansız gövhər olub varlığa və məkanə sığmadığını, insanın zərrə, Günəş, dörd ilə beş, altı olduğunu, lakin bəyanə sığmadığını, Günəş, Ay, bal, şəkər olduğunu, lakin axıcı ruha sığmadığını, Haşimi, Qureyş oymağından olduğunu göstərir. Nəsimi həmin şeirdə "mən"desə də, o, insanı nəzərdə tutur. Çünki insan idrakı, insan düşüncəsi təbiətin intəhasız sirlərini dərk etməyə qadirdir. İnsan xəyalı bir anda Günəşi, Ayı, ulduzlar aləmini gəzib dolaşa bilir. İnsan başdan-başa qiymətli incidir, bənzərsiz bir gövhərdir, onda səmavi bir hüsn və lətafət var. İnsan ağlı və idarkı ilə yanaşı, təravət və gözəlliyi ilə seçilir. O, insanı ülviləşdirir, ucaldır, ona mənəvi və cismani əzab-əziyyət verənlərə qarşı öz etiraz sesini qaldırır. Nəsimi dünya və həyatı insandan ayrı təsəvvür etmir. Nəsimiyə görə, insan həm inci, həm sədəf, həm yaradıcı, həm qızılgül, həmdə yasəməndir. Bütün gözəlliklər, varlıq, yer və göy ona xidmət üçün yaranmışdır. İnsansız bütün aləm mənasız və miskin görünərdi. Nəsimi insan gözəliyini təbiət gözəlliyindən daha ülvi və mənalı sayırdı. Şairə görə, sanki təbiət, yer, göy öz gözəlliyini, təravətini insandan alır.

Ədəbiyyat

1. İmadəddin Nəsimi. Seçilmiş əsərləri: I cild. Bakı: "Lider", 2004.
2. İmadəddin Nəsimi. Seçilmiş əsərləri: II cild. Bakı: "Lider", 2004.
3. "Nəsimi və xalq poeziyası". Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Mütərcim, 2010. səh. 379-391.
4. Ziya Bünyadov (2009). "Nəsimi diri-diri dərisi soyularaq öldürülməyib" "Azərbaycan şərqşünaslığı" jurnalı; N1.
5. Nesimi. Composed by Hamid Arasli. Baku: Azerbaijan State Pulication House, 1973, 666 p.
6. Кныш А. «Khал» (essay) / Islam. Encyclopedic dictionary. Msocow: Science, 1991, 266 p
7. Yakar İbrahim. Seyid Nesiminin Shiir Anlayıshı / Evrene Sıghmayan Ozan Nesimi (First International Simposium materials on Seed Nasimi, June17-19, 2005). Prepared by Gulagh Oz. Ankara: 2006, p. 324-338
8. Attar A. Hurufilighin Dini ve İdeolojik Boyutları ve Seyid İmadeddin Nesimi / Evrene Sığghmayan Ozan Nesimi (First International Simposium materials on Seed Nasimi, June17-19, 2005). Prepared by Gulagh Oz. Ankara: 2006, p 28-46
9. http://www.pashakerimov.com/saytnew/?menu=home&submenu=readmore&id=893

Educational issues in Imadaddin Nasimi's ideology
(in international approach)

Summary

Born from the artistic genius and perception of the great art giants, each of the prominent artists of the medieval Azerbaijani poetry has entered a historical stage in literature and has become the most prominent figure in specific literary directions. Madaddin Nasimi's relationship with Fazlullah Naimi Astrabadi (1340-1394), a prominent creator of the doctrine of life and art, is also of interest. According to the sources, these relations are highly valued as mosque-student relations. Imadeddin Nasimi's immortal heritage is a rich and inexhaustible treasure of the national-spiritual existence and great ideals, feelings and thoughts of the Azerbaijani people. The people of Azerbaijan have reached the present high level of development, through the stages of formation and revival on the basis of these strong national-moral foundations and persistent great traditions.

Вопросы образования в идеологии Имададдина Насими (в международном подходе)

Резюме

Родившись от художественного гения и восприятия великих художественных гигантов, каждый из выдающихся художников средневековой азербайджанской поэзии вступил в исторический этап в литературе и стал наиболее заметной фигурой в конкретных литературных направлениях. Отношения Имадеддина Насими с Фазлуллой Наими Астрабади (1340-1394), выдающимся создателем учения о жизни и искусстве, также представляют интерес. По словам источников, эти отношения высоко ценятся как отношения между мечетями и студентами. Бессмертное наследие Имадеддина Насими - это богатое и неисчерпаемое сокровище национально-духовного существования, великих идеалов, чувств и мыслей азербайджанского народа. Народ Азербайджана достиг нынешнего высокого уровня развития через этапы формирования и возрождения на основе этих сильных национально-нравственных устоев и стойких великих традиций.

DOI: 10.36719/2020/REK/01/72-74

Şücaət Məşrif qızı Kərimova
Azərbaycan Dövlət İqtisad Universiteti
shujaetkarimova@gmail.com

ÇOXMƏNALI SÖZLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *çoxmənalılıq, praqmatika, işarə, kontekst, məna*
Key words: *polysemy, pragmatic, sign, context, meaning*
Ключевые слова: *полисемия, прагматичность, знак, контекст, значение*

Giriş

Zaman keçdikcə dil inkişaf edir, ətraf aləmin əşya və hadisələri haqqında biliklər artır, nəticədə çoxmənalı sözlərin yeni mənaları da yaranır. Bu da Azərbaycan dilçiliyində ingilis dilində mənanın inkişaf yollarını aydınlaşdırmağı, törəmə denotativ və konnotativ mənaların əmələgəlmə səbəblərini, çoxmənalılığın praqmatik əsaslarının və xüsusiyyətlərinin müasir linqvistikanın tələbləri səviyyəsində öyrənilməsini son dərəcə aktuallaşdırır. Məqalədə Azərbaycan dilçiliyində ilk dəfə olaraq ingilis dilinin çoxmənalı sözlərinin praqmatik əsasları və xüsusiyyətləri, əsas məna ilə törəmə məna arasındakı əlaqələr, polisemantın mənalarının budaqlanma mexanizmləri ilk dəfə öyrənilmişdir.

Sözlər dil sisteminin əsas, özək vahidləridir, onların məna tərəfləri kommunikasiya prosesinin zəruri şərtini təşkil edir. Məna olmazca, kommunikasiyanı gerçəkləşdirən dəyərli informasiya yaranmır.

A.Ələkbərov yazır: "*Leksik mənanın sistem, struktur və praqmatik-sintaqmatik cəhətdən öyrənilməsi vəzifəsi əvvəlcədən bir sıra ontoloji və metodoloji məsələlərin müzakirə olunmasını tələb edir. Aydındır ki, semasiologiyanın hər hansı xüsusi probleminin həlli bilavasitə tədqiqat obyektinin təbiəti ilə şərtləşən mühüm nəzəri məsələlərin bu və ya başqa cür başa düşülməsindən asılıdır. Məsələn, "polisemiya-sinonimiya" kimi mərkəzi semasioloji problem sözün dildə ayrıca, müstəqil leksik mənasını aydınlaşdırılmadan həll edilə bilməz*" [1, s.286].

Sözün leksik mənası məntiqi və psixoloji üsullarla tədqiq oluna bilir. Lakin bu halda mənanın inkişafı, daralması, genişlənməsi, bir mənadan digərinə keçid, kontekst daxilində yaxın mənalı sözlərin bir-birini əvəz etməsi, "sintaktika-semantika-praqmatika" üçlüyünün sözün məna sahəsinə nüfuz etməsi kimi məsələlər yalnız məntiqi və psixoloji üsullarla aşkarlanmır. Eyni səs kompleksinin müxtəlif hadisələri ifadə etmək üçün istifadə olunması onların arasındakı oxşarlıq və fərqləri aşkara çıxarmağa əsaslanır. Bu halda predmetlərin rəngarəngliyini və harmoniyasını əks etdirən assosiativ əlaqələr qanunu fəaliyyətdə olur. Təbii dilin əksər kateqoriyaları polisemantikdir, başqa sözlə desək, bir linqvistik forma iki və daha artıq mənaya malik olur. Dildə əmələ gələn hər bir yeni söz və eləcə də mövcud olmuş sözün yeni mənası praqmatikliklə sıx bağlıdır. Yəni sözün yaranmasında praqmatik relevant amillər öz rolunu oynayır. Bu amillərdən biri kontekstin praqmatik relevant parametrləridirsə, digəri yeni sözü yaradan insandır. Yeni sözün, yaxud yeni mənanın qəbul edilməsi də insan amilindən asılılığa görə praqmatik mahiyyətlidir. Yeni söz, yaxud yeni məna qazanmış söz dildə işləndikdə kontekstlərin də yeni relevant praqmatik cizgiləri əmələ gəlir. Dil həmişə kommunikativ yararlığını təmin etməlidir. Yeni ideyaları canlandırmaq üçün dil və xüsusən də leksika vəziyyətə uyğunlaşmalıdır.

F.de Sössür dili işarələr sistemi adlandırmışdır. Bu işarənin iki cəhəti var. 1) sintaktika-ifadə, 2) praqmatika-məzmun. İşarənin təbii xüsusiyyətləri ifadə planında əks olunur, məzmun isə işarə vasitəsiylə verilən informasiyadır, yəni işarənin informasiya bildirmə xüsusiyyətidir.

"Dil işarəsi dörd müxtəlif aspektdə özünü göstərir: 1) struktur-sintaktik; 2) semantik; 3) siqmatik; 4) praqmatik " [2, s.13].

Siqmatik aspekt adlandırmanı ehtiva edir. Predmet dil işarəsi ilə qeyd olunur, nişanlanır, adlandırılır. Bu halda söz adlandıran funksiyasını yerinə yetirir. Adlandıranın arxasında adlandırılan durur. Semantik aspektdə adlandıran məna daşıyıcısına çevrilir və beləliklə, leksem və leksik məna ortaya çıxır. Praqmatika dil işarələri ilə obyekt aləmin əşya və hadisələri arasında xarici əlaqələri bildirir və burada danışanın haqqında bəhs etdiyi əşya, fakt, hadisəyə münasibət nəzərdə tutulur. Nitqdə söz təcrid olunmuş şəkildə götürülmədiyinə görə leksik mənanın praqmatik aspektdə budaqlanması baş verir. Söz konkret bir mənanı çərçivələyə bilmir. Avtonom götürüldükdə ilkin assosiasiya bir leksik məna ilə səciyyələnirsə, nitqdə sözün məna dairəsi genişlənir, söz əlavə relevant əlamətlərin daşıyıcısına çevrilir.

Prof. O.Musayevin redaktorluğu ilə Azərbaycanda tərtib edilmiş ingiliscə-azərbaycanca lüğətdə ingilis dilindəki "*evening*" sözünün isim kimi üç mənası verilmişdir: *"evening 1. Axşam; in the ~ axşamüstü, axşamçağı; every ~ hər axşam; towards ~ axşama doğru, axşama yaxın; to work ~s axşamlar işləmək; 2. Axşam qonağlığı, əyləncə gecəsi; axşam; 3. gecə; literary ~ ədəbi gecə; musical ~ musiqi gecəsi"* [3, s.524].

Azərbaycan dilində *gecə* və *axşam* mənalarının sinonim və ya eyni götürülməsi məna sayının üçə çatmasına kömək etmişdir. Onu da qeyd edək ki, Azərbaycan dilində *musiqi axşamı, musiqi gecəsi, ədəbi axşam, ədəbi gecə* substitut kimi işlənir. "*Axşam sözünün mənası onun gündüz və gecə sözlərinin paradiqmasında aralıq yer tutmasından əmələ gəlir və gündüzün sonu kimi qiymətləndirilir*" [4, s.134]. Onu da qeyd edək ki, T.I.Vendinanın göstərdiyi aralıq mövqe özünü bir qədər doğrultmur. *Axşam, gecə* bir-birinə yaxın yerləşir. Zənnimizcə, burada *sübh, səhər, günorta, axşam, gecə* paradiqması real gerçəklik hadisələri arasındakı zamanı müəyyən səviyyədə dəqiqləşdirir.

“Am I correct that you were scheduled to meet with the curator of the Louvre this *evening*?” [5] –“Bu gün axşam siz Luvr kuratoru ilə görüşməliydiniz, mən düzmü deyirəm?” [6] Bu nümunədə *evening* sözü *axşam* mənasında işlənmişdir. *Axşam* sözü zamana görə qiymətləndirildikdə assosiativ olaraq yuxarıdan yatmaq vaxtı ilə məhdudlaşır. *Gecə* sözü isə davametmə müddətinə görə səhərin açılmasına qədər uzanır.

“Apparently, the curator's private office had become DCPC's makeshift command post for the *evening*” [5]. – “Bu gecə kuratorun kabineti məhkəmə polisinin mərkəzi idarəsinin əsl ştabına çevrilmişdi” [6]. Bu nümunədə *evening* artıq *gecə* mənasındadır. Kuratorun kabineti iş otağına çevrilib və orada toplaşanlar səhər açılana qədər də çalışa bilərlər.

“... a matching beaded tank top and *evening bag* from Mark Badgley” [5] - biserdən olan maykası və Mark Bedqlidən olan gecə çantası” [6]. Bu nümunədə *evening bag - gecə çantası* birləşməsinin tərkibində işlənən *evening* əslində çantanın növünün təyini və bu növün söz birləşməsi ilə adlandırılmasını təmin etmək məqsədi ilə işlənmişdir.

“*Dil iki müxtəlif işarələmə üsulunu birləşdirir. Biz onlardan birini semantik, o birini isə semiotik üsul adlandıracağıq. Semiotik üsul dil işarəsinə xas olan və ona bütöv vahid statusu verən işarələmə üsuludur…Semiotik olan (işarə) tanınmalıdır, semantik olan isə (nitq) anlaşılmalıdır. Dil mənalandırmanın iki müxtəlif ölçüdə baş verdiyi yeganə sistemdir. Başqa sistemlərdə mənalandırma birölçülüdür*” [7, s. 117].

Mənalandırmanın iki ölçüsü - tanıma və anlama bir-birindən ayrılmaz olsa da, bir-birini izləmə xüsusiyyətinə malikdir. Bu, iki ölçüdən tanıma birinci mövqedə durur, anlama onu izləyir, ondan sonra gəlir. Adresat ilk növbədə sözün əsas mənasına görə onu tanıyır. Bundan sonra ikinci proses başlanır ki, bunu hətta mənanın dəqiqləşdirilməsi ilə müqayisə etmək mümkündür.

Strukturun genişlənməsi nisbi mürəkkəb struktura uyğun gələn məna və ya birləşən işarənin birinin digərinin semantikasına təsiri müəyyən məqamlarda üzə çıxır. Söz müstəqil mənasını saxlayır, lakin birləşib yeni yaratdığı strukturdakı digər sözün semantikasında dəyişmələr əmələ gətirir.

Dildə söz dörd əsas münasibətə qoşulur: 1) xarici aləmin predmet və hadisələrinə münasibət; 2) anlayışa (məfhuma) mğünasibət; 3) insanın hiss və arzularına münasibət; 4) dilin başqa sözlərinə münasibət.

Qeyd olunan münasibətlərdən asılı olaraq sözün leksik məna strukturun müxtəlif növlərini ayırmaq mümkündür: 1) denotativ məna; 2) siqnifikativ məna; 3) emotiv məna; 4) struktur məna.

Denotativ məna sözün adlandırılan predmetə aidliyi ilə səciyyələnir. Burada səs cildinin konkret adlandırılan predmetlə münasibəti əsas götürülür. Sözün adlandırdığı predmet denotat adlandırılır.

Sözlə adlandırılan anlayış dilçilikdə siqnifikat adlandırılır. Siqnifikatın denotatdan fərqi cins-növ səviyyəsindədir.

Emotiv və ya konnotativ məna predmet və hadisələrin emosional, ekspressiv və qiymətləndirmə inikası ilə bağlı mənadır. Konnotasiya assosiativ münasibətlə bağlı qiymətləndirmə aldıqda eyni sözün yeni mənası əmələ gəlir. Konotasiya məcazlaşma ilə sıx bağlı hadisədir.

Struktur məna bir sözün başqa sözlərlə münasibəti fövqündə yaranır. Söz başqa sözlərlə sintaqmatik və paradiqmatik münasibətdə ola bildiyindən sintaqmatik struktur məna və paradiqmatik struktur mənalar fərqləndirilir. Sözlər arasında xətti münasibətlə, semantik distribusiya və valentliklə səciyyələnən məna sözün başqa sözlərlə məzmun münasibətlərindən doğur. Sözün semantik valentliyi onun dildəki distrubutiv imkanlarını təyin edir.

Nəticə

Təhlil göstərir ki, hər bir yaranan yeni bir sıra səbəblərə görə, praqmatik mahiyyət daşıyır. Hər şeydən əvvəl, yeni sözün və ya dildə işlənmiş sözün yeni məna qazanmasında praqmatik amillər mühüm rol oynayır. İkincisi yeni mənanın yaranmasında kontekstin praqmatik relevant parametrləri, həmçinin bu sözü yaradan şəxs iştirak edir. Üçüncüsü, yaranan yeni sözün cəmiyyətdə qəbul edilməsində həmin sözü dildə və nitqdə işlədəcək fərdlərlə bağlı praqmatik amillər öz rolunu oynayır. Dördüncüsü, dilə daxil olan yeni söz işləndiyi kontekstin praqmatik relevant xüsusiyyətləri özünə cəlb edir və özü yeni kontekst xüsusiyyətləri ilə əhatə olunur.

Ədəbiyyat

1. Ələkbərov A. Leksik semantikanın bəzi metodoloji məsələlərin // Azərbaycan dili müntəxabatı. III c. Bakı, AMEA Nəsimi adına Dilçilik İnstitutu nəşri, 2013, s. 286-299
2. Каверина О.Н. Типы семантических отношений в лексико-семантическом поле. Балашов: Изд. «Николаев», 2002. - 48 с.
3. İngiliscə - Azərbaycanca lüğət (Tərt.: O.İ.Türksevər (Musayev), P.O.Musayev, M.M.Nurəddinov və b.). Bakı: Qismət, 2003. 1696 s.
4. Вендина Т.И. Словообразование как способ дискретизации универсума//Вопросы языкознания. - 1999. № 2. - С. 27-50.
5. Dan Brown. The da Vinchi code// http://danbrown.com/the-davinci-code/
6. Den Braun. Da Vinçi şifrəsi// https://www.kitabyurdu.org
7. Abdullayev S. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı,“Victory”, 2013, 595 s.

Pragmatic features of the polysemantic words
Summary

Pragmatic bases and features of the polysemantic words in English are studying in the article. At the same time various types of lexical meaning structure of polysemantic word are explained. The usage of the same sound complex for expressing different phenomena and the similarities and differences between them are revealed with the given examples. The role of pragmatic relevant factors is noted in the creation of the new word.

Прагматические особенности многозначных слов
Резюме

В статье изучаются прагматические основы и особенности многозначных слов в английском языке. В то же время объясняются различные типы полисемантических слов в структуре лексического значения. Использование одного и того же звукового комплекса для выражения различных явлений, а также сходства и различия между ними раскрываются на приведенных примерах. Подчеркивается роль прагматически значимых факторов в создании нового слова.

DOI: 10.36719/2020/REK/01/74-76

Nigar Ramiz qızı Vəli
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
nigarveli83@gmail.com

RUS ƏDƏBİYYATININ GÜMÜŞ DÖVRÜNÜN İLK ƏDƏBİ CƏRƏYANI OLAN SİMVOLİZMİN TƏHLİLİ

Açar sözlər: *simvolizm, ədəbi cərəyanlar, rus ədəbiyyatının gümüş dövrü*
Key words: *symbolism, literary movements, the silver age of russian literature*
Ключевые слова: *символизм, литературные течения, серебряный век русской литературы*

Giriş

Simvolizm, akmeizm, futurizm, kubofuturizm, eqofuturizm, imajinizm, konstruktivizm kimi cərəyanları olan gümüş dövr rus ədəbiyyatı bir ədəbi mərhələ kimi özünə böyük diqqət çəkir. Bu dövrdə yazıb-yaradan şair və yazıçıların yaradıcılığındakı fərqli metodlar, dünyagörüşü sistemləri, yanaşmalar tədqiqi uzun illərdir ki, davam edən zəngin ədəbi material qaynağıdır. Sözügedən cərəyanların, onların əsas təmsilçilərinin fəaliyyətlərinin araşdırılmasına cildlərlə tədqiqat işi, saysız-hesabsız elmi məqalə həsr olunmuşdur. Amma ədəbi fenomen rus ədəbiyyatının gümüş dövrü hələ də gizli xəzinə olaraq qalmaqda davam edir.

Adları yuxarıda qeyd edilən ədəbi cərəyanlardan bəlkə də ən əsası simvolizmdir. Belə ki, simvolizm rus ədəbiyyatının gümüş dövrünün ilk ədəbi cərəyanıdır. Bu mənada onun ətraflı tədqiqi bütünlükdə dövrün tədqiq olunması işində açar rolunu oynaya bilər. Təbii ki, yüzlərlə təmsilçisi olan, inkişaf mərhələsi on illiklər sürmüş, ədəbi konsepsiyası açıqlanmış, manifesti elan olunmuş bir cərəyanı kiçik bir məqalədə ətraflı araşdırmaq mümkün deyil. Amma bu cərəyanın formalaşmasına təkan verən, onun tarixi inkişaf yolunu müəyyənləşdirən, bir ulduz kimi parlamasına və sönməsinə səbəb olan amillərə nəzər salmaq gələcək daha ətraflı tədqiqatlar üçün böyük əhəmiyyət daşıyır.

Problemin aktuallığı

Əslində, bir ədəbi cərəyan olaraq simvolizm Avropa ədəbiyyatında modernizmin ilk təzahürü kimi 1870-ci illərdə Fransada meydana gəlmişdir. Bu cərəyanın baniləri P.Verlen, S.Malarme, A.Rembo, Ş.Bodler hesab olunur. Amma simvolizmin müstəqil ədəbi cərəyan kimi tam formalaşması dövrü 1880-ci illərdir. Məhz həmin illərdə onun manifesti elan olunmuşdur.

Rusiyada isə simvolizm XIX əsrin sonu XX əsrin əvvəllərində, ölkə ağır siyasi böhran içində olan bir vaxtda formalaşmağa başlamışdır. Fransız simvolizmi bu cərəyana təkcə "adını" deyil, həm də hazır ifadə formaları vermişdir. Amma bununla belə rus şairləri fransız həmkarlarından heç də hər şeyi deyil, sadəcə özlərinə doğma olan şeyləri götürmüşlər. 1892-ci ildə gənc şairlər Valeri Yakovleviç Bryusov (Moskvada) və Dmitri Sergeyeviç Merejkovski (Peterburqda) yeni ədəbi cərəyan yaratdıqlarını bəyan etmişlər.

Fransız simvolistlərinin yaradıcılığı və Artur Şopenhauerin fəlsəfi təlimləri ilə yaxından maraqlanan V.Bryusov "Rus simvolistləri" adlı üç məcmuə yayımlamış və özünü rus simvolizminin banisi adlandırmışdır.

D.Merejkovski isə 1892-ci ildə "Müasir rus ədəbiyyatının tənəzzül səbəbləri və yeni cərəyanları" mövzusunda mühazirə ilə çıxış edərək on illər boyunca Çernışevskinin, Dobrolyubovun və Pisarevin təsiri altında olan rus ədəbiyyatının sosial ideyalarla həddən artıq çox maraqlandığı üçün dalana dirəndiyini vurğulamışdır. Merejkovskinin finkrincə yeni ədəbiyyatın əsas prinsipləri aşağıdakılar olmalı idi:

1) mistisizm;

2) simvollaşdırma;

3) bədii həssaslığın genişləndilməsi.

Merejkovski təxminən bu dövrdə "Simvollar" məcmuəsini dərc etdirmiş və bu məcmuənin işıq üzü görməsilə də rus simvolizmi meydana çıxmışdır.

Amma fransız simvolizmi kimi rus simvolizmi də yarandığı dövrdən etibarən yekcins deyildi. Adətən ədəbiyyat tədqiqatçıları bu cərəyanın Rusiyadakı təmsilçilərini xronoloji, coğrafi və ideoloji əlamətlərinə görə iki qrupa bölürlər. Xronoloji olaraq onlar birinci dövr təmsilçilərini "yaşlı nəsil" və ya dekadentlər adlandırırlar. Bunlara misal kimi D.Merejkovskinin, A.Dobrolyubovun, Z.Gippiusun, K.Balmontun, N.Minskinin, F.Soloqubun, V.Bryusovun adlarını çəkmək olar. İkinci dövrün, yəni "gənc nəsil"in təmsilçiləri sırasında isə A.Blok, A.Belı, V.İvanov, S.Solovyov, Y.Baltruşaytis kimi şairlər var. Coğrafi olaraq bu cərəyanın təmsilçiləri "moskvalılar"a (V.Y.Bryusovun ətrafında toplanan) və "peterburqlular"a ("peterburq mistikləri") bölünürlər. İdeoloji olaraq isə simvolistlər fərdiyyətçilər və vəhdətçilər (V.S.Solovyovun davamçıları) olaraq iki qrupda təmsil olunurlar.

XX əsrin əvvəllərində ədəbiyyata gəlmiş "gənc nəslin" nümayəndələri "yaşlı nəslin" nümayəndələri olan dekadentlərə qarşı çıxır və onları "qara cadugərlər" (şər tərəfdarları), özlərini isə "ağ cadugələr" (xeyir tərəfdarları) adlandırırdılar.

Rus simvolistləri öz sənət fəlsəfələrini və estetik prinsiplərini də özləri formalaşdırmışlar. Ancaq bu fəlsəfə və prinsiplər vahid bir struktura malik deyildi və daha çox fərqli dualist, subyektiv-idealist konsepsiyaların elektik qarışığından ibarət idi.

Rusiyada simvolizm iki istiqamətdə inkişaf edirdi:

1. Ədəbi cərəyan kimi;

2. Dünyagörüşü, özünəməxsus həyat fəlsəfəsi kimi.

Onu da qeyd etmək lazımdır ki, bu hər iki istiqamət bir çox tanınmış rus simvolistinin yaradıcılığında kəsişir. Bu kəsişmə xüsusilə Vyaçeslav İvanov və Andrey Belının yaradıcılığında mürəkkəb xarakter alaraq daha çox ikinci istiqaməti ön plana çıxarır (2,39).

Rus simvolistlərinin ən tanınmış təmsilçilərindən biri V.Bryusov yazırdı: "Simvolizmin məqsədi – bir sıra müqayisə edilən obrazlar vasitəsilə bir növ oxucunu hipnoz etmək, onda müəyyən hisslər oyatmaqdan ibarətdir". (1, 22). Bunu edə bilmək üçünsə forma seçimi çox vacib idi. Forma baxımından simvolistlər poetik dilə böyük əhəmiyyət verirdilər, dili yeni ifadə vasitələri ilə zənginləşdirməyə çalışırdılar. Onlar insan hisslərinin, təəssüratlarının, əhval-ruhiyyəsinin ifadəsinin yeni üsullarını axtarır, bununla da insanın mənəvi dünyasına dərindən baş vurmağa cəhd göstərirdilər. Təbii ki, belə olan halda onların insan mənəviyyatının güsgüsü olan fəlsəfə ilə təması baş verirdi.

Bunu diqqətə alan tədqiqatçıların bəziləri simvolizmin köklərini hətta antik fəlsəfi nümunələrdə axtarırlar. Məsələn, rus alim Aleksey Fyodoroviç Losev simvolizmin işarələrini Platonun yaradıcılığında axtararaq özünün "Antik simvolizm və mifologiya oçerkləri" əsərində yazır: "Platonizm elə simvolizmdir və onun üçün nə təzahürsüz mahiyyət, nə də mahiyyətsiz təzahür mövcuddur" (3, 259).

Simvolizmin ən parlaq nümayəndələrindən biri olan A.Blokun da dünyagörüşünün formalaşmasında Platonun fəlsəfəsinin böyük rolu olmuşdur. Hələ gənc yaşlarından A.Blok Platon və neoplatonizm ilə yaxından maraqlanmış, Sankt-Peterburq Universitetinin hüquq fakültəsinin tələbəsi olduğu illərdə isə bu marağı daha da güclənmişdir. Sonralar o, həyatının bu dövrünü tanrıya itaət və Platon dövrü adlandırmışdır.

Simvolistlərin rəğbət bəslədikləri bir başqa filosof A.Berqson idi. Çünki simvolizmə yaxınlığı Berqsonun incəsənət haqqında fikirlərindən deyil, onun bütün fəlsəfəsinin mahiyyətindən və xarakterindən doğurdu.

Amma heç şübhəsiz ki, rus simvolistlərinə ən ciddi təsiri alman filosofu Fridrix Nitsşe göstərmişdir. Simvolistlərdən ötrü modernləşdirilmiş Nitsşe ilk növbədə ən mürəkkəb fəlsəfi məsələlərdə öz fikirlərini səsləndirmək üçün istinad nöqtəsi, bir növ, azad fikirliliyin tramplini idi. "Zərdüşt belə buyurmuşdu" əsərinin müəllifinin dünya, həyat haqqında peyğəmbərcəsinə söylədiyi fikirlər rus simvolistlərini dərindən təsirləndirmişdi. Simvolistlərə görə Nitsşenin əxlaq, din, incəsənət, insan həyatı, fəlsəfə ilə bağlı dedikləri fani insanın qavraması çətin olan, təhtəlşüura və ya ali şüura ünvanlanan poetik kəhanətlər idi.

Tanınmış simvolistlərdən biri olan V.İvanovun fikrincə "Nitsşe tanrıya qarşı üsyan edən və tanrıya qarşı üsyanın qurbanı idi" (4,34). Simvolistlərin səyi ilə inqilabdan əvvəlki Rusiya mədəniyyətinin bir parçasına çevri-

lən F.Nitsşe rus oxucusu üçün tamam fərqli bir anlam daşımağaa başlamışdı. O, rus mədəniyyətinin gümüş dövründə baş verən və bütün dünyanı silkələyəcək XX əsr bolşevik inqilabını amansızcasına hazırlayan proseslərin özünəməxsus güzgüsü idi.

Göründüyü kimi rus simvolizminin dərin fəlsəfi-estetik kökləri vardır. Buna görə də bu cərəyan tədqiq olunarkən onun fəlsəfə, din, estetika və s. ilə bağlılıqları da mütləq tədqiqata cəlb olunmalıdır.

Nəticə

Simvolizm 1880-ci illərdən 1920-ci illərə qədər Rusiyada mürəkkəb inkişaf yolu keçmiş və üç-dörd ədəbi nəslin yaradıcılığını əhatə edən bütöv bir dövrə çevrilmişdir. 1920-ci illər simvolizmin qürubu kimi qələmə verilsə də, əslində, o dövrdən etibarən bu ədəbi cərəyan assimilyasiyaya uğrayaraq avanqardçıların, daha sonrakı ədəbi cərəyanların təmsilçilərinin yaradıcılığında uzun illər yaşamışdır. Beləliklə, XIX əsri XX əsrlə, romantikləri modernistlərlə bağlayan simvolizm ədəbiyyat tarixində bənzərsiz bir yerə sahib olmuşdur.

Ədəbiyyat

1. Брюсов В.Я. Собрание сочинений: в 7-ми т. М.: Художественная литература, 1975, Т. 6. Статьи и рецензии. Далекие и близкие, 656 стр.
2. Ермилова Е.В. Теория и образный мир русского символизма. М.:, 2003, 303 стр.
3. Лосев А.Ф. Очерки античного символизма и мифологии. М.: Изд-во «Мысль»,1993, 959 стр.
4. Иванов Вяч. Родное и вселенское. *М.*: Республика, 1994, 428 стр.

The analysis of the symbolism as a first literary stream in silver age of russian literature

Summary

Symbolism is a stream bringing together different poets e.g. K.Balmont, V.Bryusov, A.Beli and others of silver age of Russian poetry. Symbolists believe that the poem should be written by using figurative symbols, because these symbols help to express thought clearer. The article describes history of symbolism, specific features of the stream and its famous representatives. It is also mentioned that rejection of reality creates symbolism. A range of philosophers starting from ancient Greek philosopher Plato's views to F. Nietzsche, H. Bergson and other modern philosophers' systems affected the formation of symbolism aesthetics and philosophy.

Анализ символизма - первого художественного течения серебрянного века русской литературы

Резюме

Символизм - это художественное течение, видными представителями которого являлись многие поэты русской литературы серебряного века, такие как К.Бальмонт, В.Брюсов, А.Бели. Символисты считали, что стихи должны быть написаны с использованием образ-символов. Потому что эти символы помогают более четко выразить чувства и мысли. В статье рассказывается об истории символизма, об особенностях этого течения, о его известных представителях и отмечается, что отрицание реализма порождает символизм. Подчеркивается, что на формирование философии и эстетики символизма оказали влияние взгляды древнегреческого философа Платона, а также философские системы современных философов, таких как Ф.Ницше и А.Бергсон.

DOI: 10.36719/2020/REK/01/77-81

Zərifə İsmayil qızı Avilova
Azərbaycan Tibb Universiteti
shakarbsu@mail.ru

ORTA ƏSR AZƏRBAYCAN YAZILI ABİDƏLƏRİNDƏ İNDİKİ VƏ GƏLƏCƏK ZAMANLAR
(Məhəmməd Əmaninin "Divan"ı əsasında)

Açar sözlər: *Orta əsr, Məhəmməd Əmani, "Divan", indiki zaman, gələcək zaman, müasir Azərbaycan dili, dialekt və şivələr*
Key words: *medieval century, Mohammed Amani, "Divan", present tense, future tense, modern Azerbaijani language, dialects and syllables*
Ключевые слова: *средневековье, Мухаммед Амани, «Диван», настоящее время, будущее время, современный азербайджанский язык, диалекты и просторечия*

Giriş

XVI-XVII əsrin əvvəllərində yaşayıb-yaradan Azərbaycanın görkəmli şairlərindən biri də Məhəmməd Əmanidir. O, əsərlərinin xeyli hissəsini ana dilində yazmışdır. M.Əmaninin Azərbaycan dilində olan "Divan"ında işlənən feillərin zamanları və onların morfoloji formaları müasir Azərbaycan dilindəki feillərin zamanlarına, əsasən, uyğun olsa da bir sıra fərqli cəhətlər də özünü göstərir. Müasir Azərbaycan dilindən fərqli olaraq, M.Əmaninin "Divan"ında indiki zaman -r, -a+dur, ə+dür, -ay+tur//-əy+tür, -yor şəkilçiləri ilə düzəlir."Divan"da indiki zaman I şəxsdə -am, -əm şəxs sonluğu əvəzinə -min şəkilçisi ilə işlənir. Məsələn, *olayturmin (oluram), öləyturmin (ölürəm), solatürmin (soluram)* və s.

"Divan"da indiki zaman bəzən qeyri-qəti gələcək zaman, qəti gələcək və şühudi keçmiş zaman məzmununu ifadə edir. "Divan"da indiki və gələcək zamanların inkarı -maz//-məz, -man//-mən inkar şəkilçiləri ilə düzəlmişdir. "Divan"da müzare gələcək zamanda (qeyri-qəti gələcək zamanda) I şəxsin təki və cəmində -mar, -mər inkar şəkilçisindəki "r" səsinin "z"ya keçməsi də müşahidə edilir. Məsələn*: unutmazəm, çəkməzüz, olmazuz* və s. -man, -mən şəkilçisi "Divan"da indiki və gələcək zamanların inkarını ifadə edir. -manam, -mənəm şəkilçisi də "Divan"da indiki və gələcək zamanları düzəltmək üçün işlənmişdir.

M.Əmaninin "Divan"ında gələcək zaman həm müasir, Azərbaycan dilində olduğu kimi, -ar, -ər, -acaq, -əcək, həm də müasir ədəbi dilimizdən fərqli olaraq, -ac/-əc, -ğay/-ğəy və -a/-ə şəkilçiləri vasitəsilə düzəlmişdir. -ac, -əc // -acaq, -əcək şəkilçilərinin ixtisar olmuş formasıdır. -ac//-əc şəkilçisi vasitəsilə də "Divan"da qəti gələcək zaman (III şəxsdə) ifadə olunmuşdur.-a/-ə indiki-gələcək zamanlarını əmələ gətirmək üçün işlənən ən məhsuldar şəkilçidir. -a/-ə şəkilçisi indiki, qəti gələcək və qeyri-qəti gələcək zaman məzmunlarında da işlənir."Divan"da *-ğay//-ğəy* şəkilçisinin gələcək zaman məzmununda *-mı//-mu* sual ədatı ilə işlənməsinə də təsadüf edilir. Saitlə bitən feillərdə müzare gələcək zamanı ifadə etmək üçün -r şəkilçisi işlənir. Müzare gələcək zamanın -r şəkilçisi ilə işlənməsinə başqa klassiklərin əsərlərində, o cümlədən müasir Azərbaycan dilinin dialekt və şivələrində də təsadüf edilir.

"Divan"da indiki zaman əsasən -/y/ -ır, -ir, -ur, -ür və -r şəkilçisi ilə düzəlmişdir: *Qamaşub gözlərim bitab* ***olurmin****, Yüzü xurşidiğə qılğac nəzarə /s.5/; Necə kim, məqdur iryr ləfzi-yəmandən,* ***Yetirür*** *hər kimsəğə çün rahətü azar ləfz /s.12/; Andin ki, bəndə mətəkifi-kuyin olmuşam, Ey dost, reyətin gözə az* ***ittifaq olur*** */s. 24/. Zahirü batin qəmusin çün* ***bilür****, Məhz* ***xeyir irür****, hər işi lim* ***qılur*** */s. 3/; Gördi ki, bir kişi dəgür qapusin /s.34/; Ləbi-ləlin çü qılğac dürəfşanlığ, Berür əliğə İsa tək rəvanlığ /s.13/.*

-r. "Divanda sonu saitlə bitən sözlərdə indiki zamanı ifadə etmək üçün -r şəkilçisi işlənmişdir: *Bulaymu, ya rəb, ol gün kim, görəm cananə didarin, Bekami-dil* ***derəm*** *hər bir nəzər püxsari-gülzarın /s.3/; Neçük bulsun könüldə şadimanlıq, Çü* ***dersin*** *umma məndin mehribanlığ /s.13/; Yar təsiri məhəbbətdən* ***tanur****, Bir nəzərdə aşiqi simasidin /s.86/; Cümləsi* ***der*** *bizgə gərəkdir xərək, hiç cəhətdin tapaman bir çörək /s.32/.*

İndiki zamanda -r şəkilçisi M.Füzulinin dilində daha çox işlənmişdir. -r şəkilçisinin gələcək zamanı ifadə etməsinə müasir Azərbaycan dilinin dialekt və şivələrində də təsadüf edilir. "Divan"da indiki zaman daha səciyyəvi xüsusiyyətlərə malikdir. Burada indiki zamanı ifadə etmək üçün müasir dilimizdən fərqli olaraq, daha qədim şəkilçilərin işlənməsinə təsadüf edilir; ***-a+dur //-ə+dür.*** Məlum olduğu kimi, vaxtilə indiki zaman feilə -a, -ə feili bağlama şəkilçisi və -dur, -dür şəkilçisinin əlavəsi ilə ifadə olunmuşdur. Bu şəkilçinin /-a+dur//-ə+dür/ Azərbaycan dilinə məxsus olmadığına baxmayaraq, XIV-XVI əsr ədəbi dilimizdə təsadüf edilir. Bu şəkilçi /-a+turur/ qədim uyğur dilində də işlənir. Lakin türkdilli xalqların yazılı abidələrində, xüsusilə cığatay və qədim özbək dillərində ancaq XIV-XV əsrin axırlarından geniş işlənməyə başlamışdır.

-a+dur, -ə+dür şəkilçisindən -r səsinin düşməsi nəticəsində əmələ gələn *-a-du // -ə-dü* forması müasir Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində də özünü saxlamışdır.“Divan”da *-a-dur, -ə-dür; -adu, -ə-dü* indiki zaman şəkilçisi qəti gələcək zaman məzmununu ifadə edir: *Ey Əmani, necə yar eyləsə bipərvalıq; Ğəm yemə bir gün* **olur** *kim,* ***gəzədür*** *dərbədərin /s. 90/; Qaşın* ***görədüm*** *çü eyd şami, Erməs hacət nəzər hilalə /s. 4/.*

-ay+tur // -əy+tür. Quruluşu etibarilə -a-dur // -ə-dür şəkilçisinə oxşayan, lakin müzare gələcək zaman funksiyasında çıxış edən -ay+tur // -əy+tür şəkilçisinin M.Əmaninin dilində işlənməsi maraqlı xüsusiyyətlərdəndir. Bu şəkilçinin “Divan”da yalnız I şəxsdə -min şəxs sonluğu ilə /-am, -əm/ işlənməsinə təsadüf edilir: *Qaşi yayığa peyvəstə anın qurban* ***olayturmin****; Yüzi yayığa hər ləhzə baxıb heyran* ***bulayturmin****. Tolay tuzmin dedim likən bilaşübhə bilürmin kim; Yetişkəc vəsliğə soldum sövünməsdin* ***öləyturmin****. Əmani iştiyağım xakbusi-astaniğə...Nə nəvidür ki, til birlə ani hərgiz* ***solətürmin*** */s. 85/.* Qıpçaq tipli türk dillərinə məxsus olan bu şəkilçi göründüyü kimi, iki tərkib hissədən ibarətdir: **-ay** və **-turur**. Bu şəkilçinin birinci tərəfi /-ay/ qədim türk dillərində işlənən və bütün dövrlər ərzində çoxmənalılığı ilə diqqəti cəlb edən -ğay şəkilçisinin dilimizin inkişaf tarixində səs düşümü nəticəsində yaranmış -ay formal əlamətidir, ikinci tərəfi isə indiki zamanın qədim forması **-turur**//**durur**-un qısalmış formasıdır. **-ğay** və onun müxtəlif fonetik variantları **/-qay//-qey**; **-kay//-key**; **-ğa**, **-qa**, **-qe**; **-ka**//**-kə** qədim uyğur və özbək dillərində bir çox mənalarda, o cümlədən gələcək zaman məzmununda işlənən və məhsuldar şəkilçilərdən olmuşdur; **-yor.** “Divan”da indiki zamanı əmələ gətirmək üçün -yor şəkilçisindən də istifadə olunmuşdur: *Ey Əani, xarü zari-eşqi-dust; Çün olubsin bəs* ***duruyor izvətin*** */s.74/.*

B.Banq Osmanlı türkcəsində -yor şəkilçisi və onun mənşəyindən bəhs edərkən dolayısı ilə bu məsələyə toxunaraq deyir ki, türkcədə olan *-yor durur, turur* feilinin qısalmış şəkli olan *-dir* şəkilçisinin fonetik dəyişməsinin nəticəsində əmələ gəlmişdir. İndiki zamanda *-yor, yər//-yer* şəkilçisinin işlənməsinə dilimizin Qazax və Gədəbəy şivəsində rast gəlirik: *oxuyorsan, üşüyörüx. oxuyorsunuz, uşuyörsünüz və s.*

İndiki zamanda -yor, bəzi hallarda -yər şəkilçisi türkmən dilinin Ersari dialektində də işlənir: *alyor, qelyor, yazyor*. “Divan”da bir çox hallarda -ır, -ur şəkilçisinin məzmunca gələcək zamanı / qəti və müzare gələcək zamanları/ ifadə etməsinə də təsadüf edildi.

a) İndiki zaman müzare gələcək zaman məzmununda: *Aşiqi rütbeyi-aliğə* ***yetirür*** *bişək, Eşq şeydalığının möhnəti pişarişi /s.16/, Cananini istəyən keçər canidin, Barəstə* ***olur*** *ah ilə əfqanidin /s. 3/, həqdin* ***olur*** *bəndəğə çün lütfi xas, Ğəmdin edər bir səbəb ilən xilas /s. 35/, İqbal vəsl qədrini hicran çəkən* ***bilur****, İdbar mərk halətini can çəkən* ***bilur****, Bilmək deyil səlah, çü peykan çəkən* ***bilur*** */s. 59/.* Bu xüsusiyyət Azərbaycan dilinin Tovuz və Quba dialektlərində də özünü göstərir: *-... bəs döymü, camat muna nə der, bir ona çımxır, yoxsa belə olmaz.* İndiki zaman daha çox şərt budaq cümləsində müzare gələcək zaman məzmununda çıxış etmişdir*: Ləblərindin qılsan izhar, ey büti-əyyar, ləfz; Canımın guşiğə* ***olur*** *lələyi şəhvar ləfz /s.12/, Nisarə can qəbul olsa, Əmani; Bəsi minnət* ***irürmən*** *xaksarə /s.5/, Hərçənd cövr qılsan min zarü binəvayə; Şövqüm* ***olur*** *ziyadə, eşqin düşər bəlayə /s. 5/, Xəbər səmimğə, yetsə məqdəmindin;* ***Berürmin*** *cani, cana, mürdəganlıq /s. 13/, Çün nəzər etsə zər* ***olur*** *tirəxak; neçün edər giryəni ol zatipak /s. 33/, Bir zərrə tapsa ləməyi-mehrini tipəxak; Ay ilə günizə gecəvü gündüz* ***verür*** *ziya /s. 51/.*

b) İndiki zaman qəti gələcək zaman məzmununda: *Əmani tək* ***qılurmən*** *əz səri-sidq; Hicari-mərdümin can, ey pərivəş /s.10/, Ey Əmani, necə yar eyləsə bipərvalıq; Ğəm yemə, bir gün* ***olur*** *kim gəzədür dərbədərin /s.90/.* -ır, -er, -a, -du şəkilçilərinin qəti gələcək zaman məzmununda işlənməsinə müasir dilimizin Göyçay, Gədəbəy, Xudat, Bakı dialektlərində müşahidə edilir: *Bir gün eşitdi ki, Məliyəhmədə toy olur; - Analarına bu uğullar* ***diyədi*** *ki, ay ana, biziçün bacı ulmasa, biz baş götürüb* ***gidədux****.*

c) İndiki zaman şühudi keçmiş zaman məzmununda: *Hər çü yetürdi nəsibin ğeybdin; Cümlə işin xali* ***irür*** *eybdin /s. 35/, Mücibi-şər ilə edib şərti-əqd, Bey* ***qılur*** *balığı bacinsü nəqd /s. 33/.* -ır, -ur şəkilçisinin keçmiş zaman məzmununda çıxış etməsi əsasən canlı danışıq dilinin təsiri ilə əlaqədardır. XIV-XVIII əsrə aid yazılı abidələrdə, o cümlədən M.Əmaninin dilində göründüyü kimi, indiki və gələcək zamanları əmələ gətirmək üçün *-ır, -ur və -ar, -ər* şəkilçiləri məzmunca sinonim xarakteri daşıyır. Ə.M.Dəmirçizadə yazır: “...ilk təşəkkületmə dövründəki Azərbaycan dilində keçmiş zamanda vaqe olmuş işi ifadə etmək üçün müstəqil olaraq, ayrı-ayrı üç şəkilçi və iki köməkçi feil işləndiyi halda, indiki zamana məxsus müstəqil şəkilçi olmadığı kimi gələcək zamanı da ifadə edən xüsusi şəkilçi olmamışdır; hər iki zaman üçün /r //z / şəkilçiləri işlənmişdir. Bu hadisənin səbəbini izah etmək üçün ümumi dilçilik əsaslarına nəzər salaq... Belə hallarda çox zaman nisbətən daha əvvəl təşəkkül etmiş olan indiki zaman əlaməti müvəqqəti olaraq, gələcək zamanı da bildirmək üçün işlənir. Bu vəziyyətin Hind-Avropa dillərinin bir şoxunda da olduğunu mütəxəssislər təsdiq edirlər...” (Dəmirçizadə, Demək, dilimizin ilk təşəkkül dövründə əvvəlcə indiki zaman, sonrakı inkişaf prosesində isə gələcək zamanı ifadə etmək üçün formal əlamət yaranmışdır.M.Əmaninin “Divan”ında da başqa abidələrdə olduğu kimi indiki zaman şəkilçisinin məzmunca gələcək zamanı əvəz etməsinə lap çox təsadüf edilir. Bu da Ə.Dəmirçizadənin indiki və gələcək zaman şəkilçilərinin yaranma tarixi haqqındakı mülahizəsini tamamilə təsdiq etmiş olur. XI əsrin məşhur dilçisi M.Kaşğari də ümumən türk dillərində, o cümlədən oğuz, qıpçaq dillərində də “-r” hərfinin həm indiki zaman, həm

də gələcək zaman üçün işləndiyini "Kitabi-Divani-lüğat-ət-türk" əsərində ətraflı surətdə izah etmişdir.-ır, ur və -ar, -ər şəkilçilərinin ədəbi dilimizdə funksiyaca sabitləşməsi isə əsasən XVIII əsrdən bəri başlamışdır.

-maz//-məz, -man//-mən inkar şəkilçiləri. "Divan"da indiki və gələcək zamanların inkarı -maz//-məz, -man//-mən, -mam, -manam//-mənəm şəkilçiləri vasitəsilə düzəlmişdir. 1. **-maz//-məz.** Bu şəkilçi cümlənin məzmunundan asılı olaraq, həm indiki, həm də gələcək zaman funksiyasında işlənmişdir.**-maz//-məz şəkilçisi indiki zaman məzmununda:** *İdrak edə **bilməzəm** nədür sübh ilə şam əhvali-zəman /s.28/, türfə cövhərsən əya mirati-hüsn, Ahim **etməz** hiç əsər qəta sana /s.52/. Müttale` ol aləm ətvariğə **irməsmin** vəli, Bu cahan bağı irür səndin cüda zindan mana /s.53/* **-maz//-məz şəkilçisi gələcək zaman məzmununda:** *Ayrılıq yulduzi **batmaz**, Gecə vayımdan el **yatmaz**. Sənsiz könül nəstə **çatmaz**, Bilman nolacaqdur halum /s.43/. Bir riştə tut, Əmani ki, **tapməs küsəstəliğ**, Hər vəslin axırın çü görərsən vida olur /s.63/.*

"Divan"da müzare gələcək zamanda I şəxsin təki və cəmində -mar, -mər inkar şəkilçisindəki -r səsinin –z-yə keçməsi də müşahidə edilir, həm də burada I şəxsin cəmində -maz inkar şəkilçisi müasir dilimizdən fərqli olaraq, -z şəxs sonluğu ilə işlənmişdir: *Vəsfinin nəqli birlə dəmsazəm; Ləkçiyəzimi mən **unutmazəm** /s. 37/. **Çəkməzüz** ğəm hadisati – dəhridin; Dafei-xeyli-bəlasən, ya Əli /s. 98/. Ey Əmani, məsiyyət hərçənd kim, bihəddü həsr; naümid **olmazuz** həqq bar çü qəffarül-zünub /s. 48/.* İndiki və gələcək zamanı bildirmək üçün inkar feillərində "r"-nın "z"-laşması "Kitabi-Dədə Qoqud"dan XVIII əsrə qədər yazılı abidələrin dilində işlənmiş, XX əsrin ortalarından isə öz əhəmiyyətini tam şəkildə itirmişdir; 2. **-man, -mən** şəkilçisi "Divan"da indiki və gələcək zamanların inkarını ifadə etmək üçün işlənən ən məhsuldar şəkilçilərdəndir. -man, -mən şəkilçisi də cümlədə yerinə görə bəzən indiki, bəzən də müzare gələcək zaman məzmununu ifadə edir.**-mam, -məm şəkilçisi indiki zaman məzmununda:** *Cədinin picu xəmi etdi pərişan varaüm; hiç **bilmən** netey ol afeti-iman əlidin /s. 88/. Görə **bilmən** belə müztərr könlümi /s.31/; Edə **bilmən** hiç kimə izhari-dərd; Məhrəmi-razi nəhanim gəlmədi /ss14/. Hicran kar etdi canıma; **Bilmən** nolacaqdur halım /s. 43/, Cümləsi der bizgə gərəkdur xörək; Hiç cəhtdən **tapaman** bir çörək /s.32/. Görə **bilmən** yarı əğyar ilə həmdəm, neləyin /s.89/;* **-man, -mən gələcək zaman məzmununda:** *Cənnət gülün **iyləmən**; Sögülü yarumdan ayru /s. 47/, Hər dəmdə yüz cəfa yetirürsə könülğə yar; **Sayman** ki, zərrəvar vəfa iniqa oluyr /s. 63/, Min yil əgər şükr desəm mən həmin; Söyləyə **bilmən** dəxi mindin birin /s. 34/. Şeydalərü binəvalar içrə; Dibarını **bermən** iftixarə /s. 8/. Eşqinin ətvaridin özgəsini **ummanız**; Aşiqi-biçareyi-zari girif-tardin /s. 2/.*

-man, -mən inkar şəkilçisinin mənşəyi haqqında türkologiyada da müxtəlif fikirlər mövcuddur. M.Rəhimov -man, -mən inkar şəkilçisinin mənşə etibarilə türkmən dilinə məxsus olduğunu söyləyir. A.N.Borovkov Əlişir Nəvai dilinin morfoloji xüsusiyyətlərindən danışarkən Azərbaycan dili üçün səciyyəvi olan -man, -mən inkar şəkilçisinin Nəvainin dilində, eləcə də qədim türkmən dilində və müasir türkmən dilinin dialektlərində də işlən-diyini göstərir. Sonralar H.Mirzəzadə də A.N.Borovkovun bu fikrinə şərik olur və -man, -mən şəkilçisinin Azərbaycan dilinə xas olduğunu bütün dövrlərin yazılı abidələrindən /Xətai, Füzuli, Saib Təbrizi, Məsihi, Vaqif, Şakir, Zakir/, eləcə də XIX əsr ədəbiyyatı nümayəndələri və el şairlərinin dilindən gətirdiyi nümunələrlə təsdiq edir.

Gələcək zaman. Müasir Azərbaycan ədəbi dilində olduğu kimi, "Divan"da da gələcək zamanın iki forması vardır: qəti və müzare gələcək zaman. Dilimizin tarixi inkişaf mərhələsində qəti gələcək zaman -acaq, -əcək; müzare gələcək zaman isə -ar, -ər şəkilçiləri vasitəsilə düzəlmişdir. Başqa şəkilçilər isə /-a//-ə, -isar//-isər; -ası//-əsi/ müasir Azərbaycan ədəbi dili baxımından gələcək zamanı düzəldən arxaik şəkilçilər sırasına daxildir.

Qəti gələcək zaman. "Divan"da müasir Azərbaycan dilində olduğu kimi, -acaq, -əcək, həm də ədəbi dilimizdən fərqli olaraq, -ac/-əc, -ğay/-gəy və -a/-ə şəkilçiləri vasitəsilə düzəlmişdir. **-acaq şəkilçisi ilə düzələn qəti gələcək zaman:** *Əbədi şad **olacaqdur** ğəmdin; Hər kimi eyləsə dildari xilas /s.11/, Ömr peymanəsi çün kim **dolacaqdur** axır; Saqiya, lütf edə gər bir neçə peymanə mana /s. 57/, Hicran kar etdi canimə; Bilmən **nolacaqdur** halım /s. 43/, Çün şah Səfinin çirağı yanmış əzəldin; Rövşənlik ona ta dəmi-məhşər **olacaqdur** /s. 89/.*

XVI-XVIII əsrə qədər olan yazılı abidələrin dilində -acaq, -əcək şəkilçisi müasir dilimizə nisbətən az nəzərə çarpır. Bu azlıq sonralar təkmilləşmişdir.**-ac, -əc, -acaq, -əcək** şəkilçisinin ixtisar olunmuş formasıdır. Bu, /-ac, -əc/ şəkilçisi vasitəsilə də "Divan"da qəti gələcək zaman /III şəxsdə/ ifadə olunmuşdur:Xoş vəqt bul, ey dil, yenə canan **gələcəxdür**; Nabüd olan cism eviğə can **gələcəxdür** /s. 54/.Göründüyü kimi, verilən misralarda -əc şəkilçisi -əcək şəkilçisi məzmununda çıxış etmişdir. -əc şəkilçisi müxtəlif fonetik variantlarda /-ac, -əc; -as, -əs; -aş, -əş; -aj, -əj; -ıc, -ic, -uc, -üc, -c/ dilimizin əksər dialekt və şivələrində I şəxs təkdə gələcək zamanı bildirir. **-a//-ə.** Əsasən XIV-XV əsr Azərbaycan dilinin yazılı abidələrində feilin indiki-gələcək zamanlarını əmələ gətirmək üçün işlənən -a, -ə şəkilçisi M.Əmaninin əsərlərində də həmin zamanları düzəldən məhsuldar şəkilçilərdən olmuşdur. Bu isə şairin həm öz dövrünü, həm də özündən əvvəlki dövrün ədəbi dilinə hərtərəfli bələd sənətkar olduğunu göstərir. "Divan"da -a, -ə şəkilçisi ilə düzələn feillər müxtəlif məzmunlarda çıxış etmişdir. **İndiki zaman məzmununda:** *Bixab bulub hər şəb ta sübh **sayam** kəvkəb; Kim çəkmiş ola yarəb, bu haləti dişvarı /s.15/, Tar ağızdə əqd dəndanı irür nisbət ona; Kim, **tola** vəqti səhər gül qönçəsi şəbnəm bilə /s.7/;* **müzare gələcək zaman məzmununda:** *Gər tüşsə mənim sari güzari; Cananümin **ola** can nisari /s. 22/, İrür ümidim ol ki, qəbul **ola** müddəa; Halımin ərz*

eyləyə bilsəm məcalidə /s. 7/. Adət ***edə*** *arif ol şüarə; Kim, nitq* ***ola*** *mərziyül-ibarə /s. 7/. Ta kim* ***ola*** *kur ləinlər gözü; Rəmzi-Vilayət* ***bilə*** *həzrət özü /s. 33/;* **qəti gələcək zaman məzmununda:** *Bar hər bir tari-zülfidin könüldə yüz gireh; Bilmənəm ney vəzə müncər* ***edə*** *bu sevda məni /s. 20/, Qoya gər müqabil bulsa xəffasi; İməs mümkün* ***çəkə*** *nəqşini nəqqaş /s. 10/.*

-a//-ə şəkilçisinin qəti gələcək zaman məzmununda I şəxs təkdə / sual ədatı ilə işlənməsi: *Eşq oduna yandı bağrım; Yarəb* ***görəmmi*** *didarın? Dağdan ağır oldu halım; Yarəb* ***görəmmi*** *didarın? Vaqifi razi-nihanım; Yarəb* ***görəmmi*** *didarın /s. 43/.* Bu nümunələrdə işlənən görəmmi feili müasir Azərbaycan dili baxımından "görə biləcəyəmmi" mənasında işlənmişdir. **-ay/-ğay//-gəy** müasir Azərbaycan ədəbi dilində feilin arzu şəklinin formal əlaməti hesab edilən -a//-ə-nin qıpçaq qrupu türk dillərinə məxsus fonetik variantıdır. -ay/-ğay//-gəy "Divan"da müxtəlif mənalarda /əmr, arzu/, o cümlədən qəti və müzare gələcək zaman məzmununda da çıxış edir. **Müzare gələcək zaman məzmununda:** *Haləti yəhyül-izami* ***tapğaymin*** *gər bir səda; Yetsə can guşiğə ləlinin təqriridin /s. 87/. Məşuqdan olmasa işarə; Aşiq necə* ***yetgəy*** *iştiharə /s. 8/. Ey dil ki,* ***tapayfin*** *aqibət kam; Lütfü tərəhhemlə bevəchi-həsən /s. 22/. Dövləti-vəsl Əmani tapğay; Hicr rəğmiğə əcəl bersə aman /s. 89/;* **qəti gələcək zaman məzmununda:** *Yəqin bil görsə zahid ol sənəmni; Bədəl zünnarə* ***bulğaydur*** *ridasi /s. 16/. Aqibət* ***tapğay*** *həyati-cavidan; Sidq ilə canın cana qurban edən /s. 86/.Təğyir* ***tapmağaydur*** *başdin havayi zülfün /s.72/.* Müasir dilimiz baxımından misallarda tapğaymin feili "taparam", tapaysin "taparsan" tapğay və yetgey "tapar" və "yetər" mənasında, bulğaldur feili cümlənin məzmunundan asılı olaraq "bulacaqdur", tapğay – "tapacaqdur", tapmağaydur isə "tapmayacaqdur" mənasında işlənmişdir.

Qeyd edək ki, M.Əmani dilinin morfoloji xüsusiyyətlərini tədqiq edərkən müasir Azərbaycan dilindən fərqli olan bir çox morfoloji xüsusiyyətlərin qıpçaq, qarluq qrupu türk dillərinə uyğun olması müşahidə edilmişdir. -ğay, -gəy şəkilçisi də məhz qarluq qrupu türk dillərinə məxsus formal əlamətdir. Bu qrupa daxil olan orta əsr özbək və uyğur dillərində də müzare gələcək zamanı düzəltmək üçün -ğay, -qay, -kay, -keй şəkilçisindən istifadə edilmişdir: *alğayman və yaxud alğaŭmən /alaram/, alğaŭsən /alarsan/, alğay /alar/ və s.*

"Divan"da -ğay//-gəy şəkilçisinin gələcək zaman məzmununda -mı//-mu sual ədatı ilə işlənməsinə də təsadüf edilir: *Ol ki, əndamiğə hayil eyləmiş pirahənin; Yarəb* ***olğaymu*** *ki, bir vəch ilə* ***silkəy*** *damənin /s. 85/; Yarəb,* ***olğaymu*** *müyəssər kim, xilas* ***etgəy*** *məni; Dövləti-vəslin, nigara, hicrinin zindanidin /s. 86/.*

Müzare gələcək zaman "Divan"da -ar, -ər, -r şəkilçisi vasitəsilə düzəlmişdir: *Dürəfşanlıqlar* ***edər*** *ol ləli-xəndandin cüda /s. 52/; Bu səadət iki aləmdə* ***yetər*** *sidq əhliğə /s. 57/, Aşiqi qəmdin* ***edər*** *yari xilas, Öylə kim, bülbülü gülzari xilas /s. 11/; Ey Əmanı, mana bu fəxr* ***yetər****,* ***Edərəm*** *sirrimi səttarıma ərz /s. 12/, Məlum bulmagilər səb* ***ötər*** *mədar, ey dil; Qərardadə degil vəzi-ruzigar, ey dil /s. 80/.* -ar, -ər şəkilçisinin mənşəyi haqqında Ə.Dəmirçizadə yazır: "Güman etmək olar ki, müasir Azərbaycan dilində işlədilən -ar, -ər müstəqil işlədilməkdə olan "var" sözünün -var, -ar, -ər şəklində əvvəlcə indiki zaman, sonralar həm indiki zamanı, həm də müzare gələcək zamanı və nəhayət, müzare gələcək zamanı bildirmək üçün işlənmiş və tamam şəkilçi halına düşmüşdür. Bəzi ləhcələrdə **gidəvar**, **alavar** buna misal ola bilər".

Saitlə bitən feillərdə müzare gələcək zamanı ifadə etmək üçün -r şəkilçisi işlənir: *Ey məh bəsərim arizi-təbanını* ***istər****; Eyni-nəzəri nərgisi-məstanın* ***istər*** */s. 58/; Gözüm nəzzareyi-cananin* ***istər****; Məhəbbət dərdinin dərmanin* ***istər*** */s. 63/.* (Dəmirçizadə, 1959:89). Müzare gələcək zamanın -r şəkilçisi ilə işlənməsinə başqa klassiklərin əsərlərində, o cümlədən müasir Azərbaycan dilinin dialekt və şivələrində də təsadüf edilir. Gələcək zaman şəkilçisi bəzi hallarda indiki zaman məzmununu ifadə edir: *Görgəc səgu-kuyini təmənnüq əcəb irməs; Çün hər tün* ***edər*** *tövri-mühəbbanə bizimlə /s. 6/, Xəncəri bidadni bağrıma hər dəm* ***urar****; Türfə bu kim, hiç gəh zahir iməs yarəsini /s. 19/.* Bu cümlələrdə işlənən *edər, urar* feilləri indiki zaman məzmununu ifadə etmişdir.

Nəticə

M.Əmaninin dilində, habelə sonrakı əsrlərdə də -man, -mən şəkilçisinin feilin indiki və gələcək zamanların inkarını ifadə etmək üçün məhsuldar şəkildə işlənməsi, həmin şəkilçinin mənşə etibarilə Azərbaycan dilinə məxsus olduğunu göstərir. **-man, -mən** şəkilçisi ilə ifadə olunan müzare gələcək zamana da "Divan"da təsadüf edildi: *Məlum* ***olmam*** *təəllüqlərdin; Ər bulmasə hiç nəstəm /s. 52/, Hiç kimsə işi cahanda* ***itməm****; Tapmas əgər olsa xas, əgər am /s. 22/;***-manam, -mənəm** şəkilçisi "Divan"da indiki və gələcək zamanları düzəltmək üçün az da olsa, işləndiyi təsbit edildi: *Bar hər bir tari-zülfidin könüldə yüz gireh;* ***Bilmənəm*** *ney vəzə müncər edəbu sövda məni /s. 20/.*

XIV-XVIII əsr yazılı abidələrində indiki və gələcək zamanların inkişaf tarixini izləyən M.Rəhimov -manam, -mənəm şəkilçisinin indiki-gələcək zamanların inkarını əmələ gətirən -mam, -məm, -man, -mən şəkilçilərinin daha geniş yayıldığını və işlək olduğunu qeyd edir.

Ədəbiyyat

1. M.Şirəliyev. (1962). Azərbaycan dialektologiyasının əsasları. Bakı: Maarif.
2. M.Rəhimov. (1957). Azərbaycan dilinin XIV-XVIII əsrlərə aid yazılan abidələrində indiki və gələcək zamanların ifadəsi. "Dilçilik məcmuəsi", X c., ADU nəşri.
3. M.Ş.Şirəliyev. (1957). Bakı dialekti. Bakı: Maarif.
4. R.Ə.Rüstəmov. (1961).Quba dialekti, Bakı: Maarif.
5. Z.R.Rüstəmov. (1965). Azərbaycan dili dialekt və şivələrində feil. Bakı: Maarif.
6. Ə.M.Dəmirçizadə. (1959)."Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı: Azərtədrisnəşr.

Present and future tenses in medieval Azerbaijani written monuments
(Based on Mohammed Amani's "Divan")

Summary

One of the most famous Azerbaijani poets who lived and created at the beginning of the XVI-XVII century is Mohammed Amani. He wrote most of his works in his native language. Although the verbs and their morphological forms used in the Amani's "Divan" have different characteristics form the modern Azerbaijani verbs. The present tense on the Amani's "Divan" are made with -r,-a+dur,ə-+dür, -ay+tur//-əy+tür, -yor suffixes. Besides, the first person of the present tense on the "Divan" used with -min suffix. For example, olayturmin(oluram), öləyturmin (ölürəm), solatürmin(soluram) etc; The negative form of the present and future tenses in "Divan" is corrected with the suffix -maz//-məz//, -man//-mən; The suffix -man, -mən expresses the present and future tense in "Divan"; The suffix -manam, -mənəm is also used in "Divan" to correct present and future tenses.

The future tense in Mohammed Amani's "Divan" are formed as in the modern Azerbaijani language with -ar,-ər, -acaq, -əcək, suffixes and with -ac/-əc, -ğay/-ğəy, -a/-ə suffixes as in our modern literary language. -a/-ə suffixes are also used in the present, definite future and indefinite future tenses. İn verbs ending in a vowel, the suffix r is used to express the definite future tense.

Настоящее и будущее времена в средневековых письменных памятниках
(на материале «Дивана» М.Амани)

Резюме

В отличие от современного азербайджанского языка, в «Диване» М.Амани настоящее время образуется при помощи суффиксов -ч, -a+dur, ə+dür, -ay+tur//-əy+tür, -yor. Кроме этого, в «Диване» вместо настоящего времени I лица окончания -at, -ət используется суффикс -min: olayturmin (oluram), öləytürmin (ölürəm), solatürmin (soluram) və s. Настоящее время в «Диване» иногда выражается будущим предположительным, категорически будущим и прошедшим категорическим временами. В «Диване» отрицание настоящего и будущего времени образуется при помощи отрицательных суффиксов -maz//-məz, -man//-mən. Также в «Диване» в будущем предположительном времени наблюдается переход звука "r" на звук "z" в отрицательных суффиксах -mar, -mər I лица единственного и множественного числа. Например: unutmazəm, çəkməzüz, olmazuz и т.д. Суффиксы -man, -mən в «Диване» выражают отрицании настоящего и будущего времен. Суффиксы -manam, -mənəm в «Диване» тоже используются для образования настоящего и будущего времен. В «Диване» М.Амани как современном азербайджанском языке -ar, -ər, -acaq, -əcək, также в отличие от современного литературного языка, будущее время образуется при помощи суффиксов-ac/-əc, -ğay/-ğəy и -a/-ə; -ac, -əc это сопращённая форма окончаний -acaq, -əcək. При помощи суффиксов -ac//-əc в «Диване» выражается и категорически будущее время в III лице. Суффиксы -a/-ə являются самыми продуктивными суффиксами, используемые для образования настоящего и будущего времён. Они используется и в содержаниях настоящего, категорически будущего и будущего предположительного времен.

Для выражения будущего предположительного времени в глаголах, оканчивающееся на гласные используется суффикс -r в будущем предположительном, времени встречается и в других произведениях классиков, в том числе в диалектах современного азербайджанского языка.

DOI: 10.36719/2020/REK/01/82-84

Sevinc Seyfəddin qızı Əliyeva
AMEA Folklor İnstitutu
sevinc-aliyeva1989@mail.ru

ƏŞYA QURBANI MOTİVİ VƏ ONUN RİTUAL-MİFOLOJİ KÖKLƏRİ

Açar sölər: *folklor, Azərbaycan folkloru, ritual, qurban, qurbanvermə motivləri, əşya qurbanı*
Key words: *folklore, Azerbaijan folklore, ceremony, victim, sacrifice motives, thing sacrifice*
Ключевые слова: *фольклор, азербайджанский фольклор, ритуал, жертва, мотивы жертвоприношения, жертвоприношение предметов*

Məsələnin qoyuluşu: Qurbanvermə Azərbaycan mədəniyyəti, folkloru və məişətinin ayrılmaz tərkib hissəsidir. Milli folklor mədəniyyətimizdə qurbanvermə ağac pirləri ilə bağlı qurbanvermə, daş pirləri ilə bağlı qurbanvermə, su kultu ilə bağlı qurbanvermə, əcdad və müqəddəs kultları ilə bağlı qurbanvermə, müxtəlif mifik inanclarla bağlı qurbanvermə və İsmayıl qurbanı kimi qurbanvermə formalarını əhatə edir. Qurbanvermə motivləri içərisində əşya qurbanlarına da rast gəlmək olur. Bunlar ən müxtəlif formalarda ola bilir və mifik inanclarla bağlıdır.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd Azərbaycan folklorunda əşya qurbanı motivinin növlərini araşdırmaqla onların icra formalarını müəyyənləşdirmək, həmin motivin əsasında duran mifik təsəvvürləri bərpa etməkdir.

A.Nəbiyev inancların növlərindən danışarkən yazır ki, "xalq inanclarının müəyyən hissəsi əsatiri təsəvvürlərlə bağlı yaranmışdır. Bunların bir qismi qədim türk tayfalarının mifik təsəvvürləri ilə əlaqədar olmuşdursa, digəri zərdüştilik görüşlərinin təsiri ilə yaranmışdır" [7, s. 315].

Əşya qurbanlarının ən məşhurlarından biri gəlinin ayağının altında qab sındırılmasıdır. Birinə diqqət edək. Hazırda Ermənistan adlanan qondarma dövlətin ərazisində qalmış Loru-Pəmbək toy adətlərinə görə, gəlin bəy evinə çatan kimi ayağı altında qurban kəsirlər. Bəyin sağdışı nəmərini verib, gərdəkli gəlinə heyvanın qanını tapdaladardı, bir damcı da yengəsi qandan gəlinin alnına yaxardı. Otağa daxil olan zaman gəlin yerə qoyulmuş nəlbəkini ayağı ilə sındırardı. Başı üzərindən tüfəng atılardı ki, gəlin sağ-salamat bəy evinə qədəm basdı. Başından pul, şirniyyat tökülərdi [5, s. 89-90].

Gəlin evə daxil olandan edilən bütün davranış aktlarının hamısı qurbanvermə motivi ilə əlaqədardır. Bu, ilk olaraq gəlinin ayağının altında qurban olaraq heyvan kəsilməsindən başlanır.

Qurbanvermə ölüb-dirilməni bildirir. Gəlin qurbanvermə aktı ilə öz evinin qızı kimi ölür, yeni evin qızı kimi dirilir. Gəlinin ayağı ilə qanı tapdalaması, həmin qandan onun alnına vurulması da gəlinin yeni evə qovuşmasını simvollaşdırır. İsmayıl qurbanı mərasimlərində də bəzi bölgələrdə, məsələn, Biləsuvar-Muğan bölgəsində qurban kəsilmiş heyvanın qanından uşaqların alnına vururlar. Bu, birləşməni, qovuşmanı rəmzləndirir.

Heyvan qurbanının ardınca gəlinin ayağının altında nəlbəki (bəzi bölgələrdə nimçə) qoyularaq ona sındırtdırılması da qurbanvermədir və qurbanvermə növü kimi də çox qədim dövrlərə aiddir. Qab sındırılması növünə görə əşya qurbanvermədir. İnanclara görə, qabın sındırılması bəd nəzərin qaytarılmasına xidmət edir. Bu, qab qurbanvermənin magik mahiyyət daşıdığını göstərir. Elə göyə tüfəng atılması da magik ayindir. Hal anası ilə bağlı doğum mərasimlərindən məlumdur ki, hal anası doğuş zamanı ananın ciyərini oğurlamasın deyə kişilər çöldə hay-küy salır, göyə güllə atır, yaxud bıçaqla axar suyu doğrayırdılar. Burada da qab sındırılması, göyə güllə atılması gələcək ananı bəd gözdən və bəd ruhlardan qorumaq məqsədini daşıyır.

Qab evin əşyası kimi bəd ruhlara və bəd nəzərlərə verilən qurbandır. Bəd ruh bu qurbanla rəhmə gəldiyi kimi, gəlin qabı sındırmaqla ona gələn nəzəri magik ayinlə qaba yönəldir.

İnanclara görə, əldən yerə düşən şüşə qab qırılmasa, onu daşa vurub sındırarlar ki, evə bir ziyanlıq gəlməsin [1, s. 101].

Şüşə qabın əldən yerə düşməsi o əşyada kiminsə gözü olması deməkdir. Bu halda həmin əşya hökmən qurban verilməlidir. Qurbanvermə qabı sındırmaq şəklində həyata keçirilir.

Qeyd edək ki, bostanı bədnəzərdən qorumaq üçün itin kəllə sümüyünün ağaca keçirilib, torpağa sancılması [2, s. 63] da bədnəzərə verilən əşya qurbanı, bədnəzərin sındırılması mənasını daşıyır.

Əziz tutulan adama göz dəyməmək üçün başına bir çimdik duz çevirib oda atarlar ki, gözü götürməyənlərin gözü odda yansın [3, s. 389].

Burada duzun başa fırladılması onun bir əşya kimi qurban verilməsini göstərir. Bu zaman başına duz fırladılan adamın bütün qada-bəlası, ona dəymiş bəd nəzərlər həmin duza keçir və odda yandırılmaqla zərərsizləşdirilir. Bu, magik qurbanvermə ayinidir.

Bədnəzərə gəlmiş adamın başına üzərlik və duz çevirib deyirlər:

Şirin-şəkər balamda,
Düşmən basmaz qalamda.
Gözü qalan quduzdur,
Allah, oxa tutuzdur.
Gözün deşsin üzərrik,
Burnun eşsin üzərrik.
Üzərrik dana-dana,
Ocaqdan götür, sana.
Nəzəri bəd olanın
Gözləri odda yana [2, s. 86-87].

Burada duzun bədnəzərə gəlmiş adamın başına fırladılması əşya qurbanverməsi olub, qada-bəlanın duza ötürülməsi şəklində icra olunan magik ayindir. Belə hesab edirik ki, üzərlik də burada qurban verilən əşya rolunu oynayır. Çünki üzərliyi həm də yandırırlar. Bu, onu göstərir ki, üzərlik bədnəzərə gəlmiş adamdan qada-bəlanı özünə çəkir və onu yandırmaqla bəd nəzər zərərsizləşdirilir.

Fasiləsiz davam edən yağışın kəsilməsi üçün quru daş parşası tapıb, məhəllə divarının yağış düşməyən yerinə qoyarlar [3, s. 392].

Burada daş yağışın kəsilməsi üçün ya su kultuna, ya da ki Günəş (bəlkə də, od) kultuna verilən əşya qurbanıdır.

Yeni il axşamı axar sudan gətirilən suya ailə üzvlərindən hər kəs üç xırda daş, üç buğda dənəsi atırlar ki, pis, namərd adamın evdən daşı atılsın, əmin amanlıq olsun, dedi-qodu olmasın. Ailənin dolanışığı yaxşı olsun, evdə, eldə bin-bərəkət artsın, aclıq-qıtlıq olmasın. Şəhadət və baş barmaq arasında üç çimkə (çimdik – S.Əliyeva) torpaq atırlar ki, torpaq məhsuldar olsun. Yer üzərində müharibə olmasın, əmin-amanlıq, sülh olsun, torpağa yad göz baxmasın, torpaq üzərində nahaqdan qan tökülməsin. Üç damcı pak sudan içərlər ki, baxtı-yığvalı üzünə gülsün. Üç damcı suyu başına çiləyərlər ki, ağrı-bezar, qada-bala-xəstəliklər, bədnəzərlər onlardan uzaq olsun, üç damcı suya ürəyində tutduğu niyyəti deyib, bir damcısını sağ, bir damcısını önünə, bir damcısını sol çiynindən atarlar ki, arzu-istəyinə, niyyətinə qovuşsunlar [6, s. 8].

Qeyd edək ki, burada gördüyümüz əşya qurbanvermələri magik xarakterlidir:

- Üç xırda daş;
- Üç buğda dənəsi;
- Üç çimdik torpaq;
- Üç damcı sudan içmək;
- Üç damcı suyu başa çiləmək;
- Üç damcı su ilə ətrafa səpmək.

Başqa bir inanca görə, fırtına və küləyin tüğyan etdiyi vaxt od üstünə mum atarlar [3, s. 392].

Burada da mum oda kultuna verilən əşya qurbanıdır. Mumu atmazdan əvvəl niyyət edilməsi, odun istiliyi, sakit havanı rəmzləndirməsi bunu əşya qurbanverməsi kimi qəbul etməyə imkan verir.

Göy guruldayanda yerdən daş götürüb çaydanın, qazanın içərisinə atırlar ki, qada-bala onlardan uzaq olsun. Evdən bolluq, ağız şirinliyi əskik olmasın [1, s. 93].

Göy guruldaması göydən gələcək bəlanın əlamətidir. İnsanlar tez qabaqlayıcı tədbir görürlər. Tədbir magik xarakterlidir. Ancaq burada əşya qurbanvermənin izi var. Daşı götürüb çaydanın, qazanın içərisinə atırlar. Bu, rəmzi olaraq daşın bişirilməsini, yəni əşyanın bişmiş şəkildə qurban verilməsini ifadə edir.

Ağac bar gətirməyəndə onun ortasından misdən mismar vurulması, yaxud ağaca qurban qanının sürtülməsi [4, s. 12] ayinlərində mismar əşya qurbanverməsidir. Onun ağaca qurban verilməsini həmin ağaca qurban qanının sürtülməsi sübut edir. Bu iki magik akt bir-birinin sinonimi, bərabər mənaya malik əvəzedicisi kimi təqdim olunur. Yəni ya ağaca mismar vurulur, ya da qurban qanı sürtülür. Qurban qanı ilə mismarın eyniləşdirilməsi mismarı əşya qurbanı kimi qəbul etməyə imkan verir.

İşin elmi yenilik və nəticələri:

1. Folklor yaddaşında qorunub qalmış əşya qurbanvermə motivi ibtidai magik qurbanvermə ayinləri ilə bağlıdır. Onlar şəkilcə və məzmunca müxtəlif olmalarına baxmayaraq, hamısında magik qurbanvermə aktı bu və ya digər dərəcədə özünü qorumuşdur.

2. Azərbaycanda əşya qurbanlarının ən məşhurlarından biri gəlinin ayağının altında qab sındırılmasıdır. Gəlin evə daxil olandan edilən bütün davranış aktlarının hamısı qurbanvermə motivi ilə əlaqədardır. Bu, ilk olaraq gəlinin ayağının altında qurban olaraq heyvan kəsilməsindən başlanır. Qurbanvermə ölüb-dirilməni bildirir. Gəlin qurbanvermə aktı ilə öz evinin qızı kimi ölür, yeni evin qızı kimi dirilir. Gəlinin ayağı ilə qanı tapdalaması, həmin qandan onun alnına vurulması da gəlinin yeni evə qovuşmasını simvollaşdırır. İsmayıl

qurbanı mərasimlərində də bəzi bölgələrdə qurban kəsilmiş heyvanın qanından uşaqların alnına vururlar. Bu, birləşməni, qovuşmanı rəmzləndirir.

3. Gəlinin ayağının altında nəlbəki (bəzi bölgələrdə nimçə) qoyularaq ona sındırtdırılması da qurbanvermədir və qurbanvermə növü kimi də çox qədim dövrlərə aiddir. Qab sındırılması növünə görə əşya qurbanvermədir. İnanclara görə, qabın sındırılması bəd nəzərin qaytarılmasına xidmət edir. Bu, qab qurbanvermənin magik mahiyyət daşıdığını göstərir. Elə göyə tüfəng atılması da magik ayindir. Qab evin əşyası kimi bəd ruhlara və bəd nəzərlərə verilən qurbandır. Bəd ruh bu qurbanla rəhmə gəldiyi kimi, gəlin qabı sındırmaqla ona gələn nəzəri magik ayinlə qaba yönəldir.

Ədəbiyyat

1. Azərbaycan folkloru antologiyası. III kitab. Göyçə folkloru/Topl., tər.ed. və ön sözün müəllifi H.İsmayılov – Bakı: Səda, – 2000. – 767 s.
2. Azərbaycan folkloru antologiyası. IV kitab. Şəki folkloru, I cild/Tərt. ed. H.Əbdülhəlimov, R.Qafarlı, O.Əliyev, V.Aslan – Bakı: Səda, – 2000. – 497 s.
3. Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru, II cild/Topl., tərt. ed., söyləyicilər, toplayıcılar, qaynaqlar haqqında məlumatın, qeyd və şərhlərin müəllifi H.Əbdülhəlimov – Bakı: Səda, – 2002. – 494 s.
4. Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki-Zaqatala folkloru/Tərt. ed. İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva – Bakı: Səda, – 2005 – 549 s.
5. Azərbaycan folkloru antologiyası. XX kitab. Loru-Pəmbək folkloru/Topl. tərt.ed. H.İsmayılov, Ə.Ələkbərli – Bakı: Nurlan, – 2011. – 399 s.
6. Azərbaycan folkloru antologiyası. XXI kitab (Qazax örnəkləri)/Topl. M.Həkimov, tərt.ed. R.Xəlilov, Ə.Ələkbərli – Bakı: Nurlan, – 2011. – 399 s.
7. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə/A.Nəbiyev. – Bakı: Turan Nəşrlər Evi, – 2002. – 680 s.

The sacrifice of item and its ritual-mythological roots

Summary

Thing sacrifices are also popular among the sacrifice ceremonies in Azerbaijan. These can be in different forms and are related to mythical beliefs. The thing sacrifice motive is based on the primary magic sacrifice rite. One of the most famous of thing victims is the breaking the bowl by the bride's foot. All the behavior acts from the time of the bride enter the house are related with the motive of sacrifice. It starts with animal kill as a sacrifice under the bride's foot. The sacrifice displays the die and resurrection. The bride dies as the daughter of her own house by the act of sacrifice, and resurrect as the daughter of her new house. The plate is also considered as a victim that is sacrificing for evil spirits and evil eyes. The bride turns this evil eye to the plate by breaking it with the help of act of theoretical magic rite.

Мотив жертвоприношения предметов и его ритуально-мифологические корни

Резюме

Среди азербайджанских обрядов жертвоприношения также популярны приношения в жертву разных предметов. Они имеют разные формы и связаны с мифологическими верованиями. В основе мотива жертвоприношения предметов лежит первобытный магический ритуал. Одним из известных ритуалов жертвоприношения предметов является разбивание тарелки, или подстаканника ногой невесты. Все проведенные акты поведения невестой с ее первым появлением в доме мужа связаны с мотивом жертвоприношения. Это начинается с приношением в жертву барана под её ногами. Это означает одновременно как смерть, так и воскресение. Путем акта жертвоприношения невеста умирает как дочь своего дома, и заново воскрешается дочкой нового дома. Посуда, как предмет дома, также является жертвой, принесенной злым духам. Злой дух помилует невесту, принимая жертву, а невеста путем разбивания посуды перенаправляет порчи на посуду.

DOI: 10.36719/2020/REK/01/85-88

Sevinc Həmid qızı Rəsulova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
rasulova.s@mail.ru

UŞAQ NƏSRİMİZDƏ MAARİFƏ VƏ ELMƏ ÇAĞIRIŞ MOTİVLƏRİ (XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİ)

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, uşaq nəsri, maarif, elm, mövzu və ideya, XIX əsrin sonu, XX əsr, dərsliklər*
Key words: *Azerbaijani literature, children's prose, education, science, subject and idea, end of XIX century, XX century, textbooks*
Ключевые слова: *азербайджанская литеатура, детская проза, просвещение, наука, тема и идея, конец XIX века, XX век,учебники*

Giriş

XIX əsrin 30-40-cı illərində ilk maarifçilərimizdən başlayaraq Azərbaycan ictimai, ədəbi-mədəni və pedaqoji mühitində yeni tipli, müasir ruhlu məktəbə, maarifə və elmə maraq özünü göstərməyə başladı. Bu meyl tədricən artıb öz əhatə dairəsini genişləndirdi. XX əsrin əvvəllərində daha gur və miqyaslı şəkil aldı. Milli intibah dövrünün bu əhəmiyyətli, milli tərəqqi yolunda çox mühüm hadisəsi, təbii ki, bədii ədəbiyyatda da öz əksini tapdı. Uşaq poeziyasında olduğu kimi uşaq nəsrində də bu mövzuda bir sıra bədii əsərlər meydana gəldi. Belə əsərlərdə uşaq nasirləri böyüməkdə olan nəslə maarifin, məktəbin, elmin əhəmiyyətini anlatmaq, onları təhsil ocaqlarına cəlb etmək məqsədi güdürdülər. Həm də bunu milli dirçəliş və inkişafın birinci şərti sayırdılar. Belə bir təşəbbüsə Azərbaycanda ilk ana dili dərsliklərinin ərsəyə gəlməsi ilə bərabər başlanıldı.

Məlumdur ki, M.Ş.Vazeh və İ.İ.Qriqoryevin "Kitabi-türki" (1852) kitabı bizim ilk ana dili dərsliklərimizdəndir. Həmin dərslikdə verilən xeyli sayda atalar sözü və hikmətlərdən bir neçəsi maarif və elmin əhəmiyyəti barədədir.

A.O.Çernyayevskinin "Vətən dili" (1882, I hissə) dərsliyində "Uşaq və gözlük" adlı kiçik bir hekayə verilmişdir. Kiçik uşaq atasının gözlüklə kitab oxuduğunu görür. Onda kitab oxumağa həvəs yaranır. Ancaq belə hesab edir ki, kitab oxumağın səbəb və hikməti gözlükdədir. Atasına xahiş edir ki, ona da bir gözlük alsın. Ata oğlunun məqsədini anlayıb ona bir əlifba kitabı alır. Bu hekayə "Çeşmək" adı ilə azacıq dəyişdirilmiş şəkildə R.Əfəndizadənin "Uşaq bağçası" dərsliyinə də daxil edilmişdir. Onun süjeti K.D.Uşinskidən əxz edilmişdir.

Məktəbə, maarifə çağırış ruhlu hekayələrdə müəlliflər çox zaman obrazları kiçik yaşlı uşaqlar, yəni balacaların öz tay-tuşları arasından seçirlər. Məqsəd kiçiklərin öz həmyaşıdlarının timsalında onlara nümunə göstərməkdir. "İkinci il" dərsliyində "Növbət ilə məktəbə getmək" sərlövhəli kiçik bir hekayə verilmişdir. Anaları ölən və yetim qalan iki oğlan uşağı bağbanlara səbət toxuyub özlərini dolandırırlar. Bunlarda oxumağa böyük həvəs olduğu üçün həm də cümə məktəbinə gedirlər. Ancaq onların ikisinin cəmi bir cüt çəkməsi var. Buna görə də qışda qərara gəlirlər ki, növbə ilə hərəsi bir cümə çəkməni geyinib məktəbə getsinlər. Məktəbə gedən qardaş orada öyrəndiklərini gəlib o birisinə öyrətsin.

A.Şaiqin "Gülzar" dərsliyinə daxil etdiyi "Əşrəf", "Əşrəfin ev məşğələləri", "Əşrəfin gecələri" (11, 74) adlı yığcam süjetli hekayələrdə də nümunəvi şagird obrazı yaradılır. Əşrəf ağıllı, zirək, çalışqan bir şagirddir. O, oxumağın əhəmiyyətini yaxşı başa düşür. Ona görə də vaxtının çoxunu yazıb oxumağa sərf edir. Mənasız əyləncələrdən uzaq durur.

Sənətkar bədii sözün gücü ilə gənc nəsli başa salmağa çalışır ki, təhsil almaq nəinki insanı mənəvi cəhətdən zənginləşdirir, hörmət-izzət sahibi edir, eyni zamanda maddi-məişət cəhətdən də firavanlığa qovuşdurur, sıxıntı və çətinlikdən qurtarır. Əhməd Cavadın "Əmələnin qızı" (12, 108-109) hekayəsində əzabkeş, ailəsini çətinliklə dolandıran bir fəhlə surəti təsvir edilir. Fəhlənin zövcəsi ölür, özünün gözləri tutulduğu üçün işləyə bilmir. Məcburən dilənçilik etməyə başlayır. Yeganə bir qızını oxudur. Qız ağıllı və uzaqgörəndir. O, atasının əziyyətini itirmir. Oxuyub müəllimə olur. Həm özü başqalarına ehtiyac duymadan özünü dolandırır, həm də atasını dilənçilikdən qurtarır. Onu bu xoşagəlməyən məşğuliyyətdən xilas etdiyi üçün ata qızına dua edir.

İnsanın şərəfi, zinəti, yaraşığı nədədir? Malda, pulda, zəngin daş-qaşlarda, pal-paltardamı, yoxsa elmdə, maarifdəmi? F.Ağazadənin "Ədəbiyyat məcmuəsi"nə daxil etdiyi "Qadın yaraşığı" hekayəsində bu suala dolğun cavab verilir. Hekayənin məzmunu daha əvvəlki mənbələrdən əxz edilmişdir. Hekayədə qədim Romada imperatorun nüfuzlu və varlı məmurlarından birinin zövcəsi ilə başqa qadınların fikirləri müqayisə edilir. Başqa məmurların zəngin qadınları şöhrəti, ucalığı, şərəfi bahalı daş-qaşlarda, qiymətli bəzək-düzək əşyalarında gördükləri halda Roma imperatorunun həmin nüfuzlu məmurunun zövcəsi bu şan-şöhrəti, zinəti elmdə, ağıl və kamalda

görür. O, yaxşı təhsil alan, elmli övladlarını Romanın kübar xanımlarına göstərib "mənim zinətim bunlardır"– deyə qürurla cavab verir.

"Ədəbiyyat məcmuəsi"ndəki "Əbu Yusif" rəvayətində də elmin faydası məsələsinə toxunulur.

Uşaq nasirləri bir sıra nəsr nümunələrində öz mətləb və ideyalarını təlqin etmək üçün forma-struktur baxımından dialoqlardan geniş şəkildə istifadə edirlər. Elə hekayələr vardır ki, ümumiyyətlə, əvvəldən sona qədər bədii mətnin əsas hissəsi dialoq şəklində qurulmuşdur. Həm də dialoq iki şagird arasında gedir. Onlar həyatın rəngarəng məsələləri, xüsusilə də məktəb, maarif və elmə aid problemlərlə bağlı söhbətlər edir, bu barədə öz baxış və münasibətlərini bildirirlər. Belə bir kompozisiya quruluşundan istifadə etməklə müəlliflər həm kiçik oxuculara öz yaşıdlarının dili ilə təsir göstərməyə, onların fikri-mənəvi dünyasında bir oyanış yaratmağa çalışır, həm də ümumiyyətlə, dünyəvi məktəblərdə təhsil alan uşaqların oxumayan, məktəbə getməyən tay-tuşlarından əqli, elmi, mənəvi-əxlaqi cəhətlərdən, dünyagörüşü və s. baxımdan daha üstün olduğunu sübut etmək məqsədi izləyirdilər. Forma-struktur cəhətdən mükalimə şəklində qurulmuş hekayələrdən bunları göstərmək mümkündür: İslamzadə – "İki şagird – Həsən və Səməd" (3, 1906, № 3, 4, 6, 7); Məmmədhəsən Tahirzadə – "Zəki və Şövqü" (3, 1907, № 2, 8); "İki yoldaş – Heydər və Əkbər" (3, 1906, № 5); Əli Səfa – "Əhməd ilə Sadiqin söhbəti" (8, 1911, № 2); Cəfər Bünyadzadə – "Kamil və Aqil: məktəb həyətində" (8, 1914, № 2); Şəfiqə Əfəndizadə – "İlk məktəb – Müəllim nədir?" (8, 1914, № 8-9).

İslamzadənin – "İki şagird" hekayəsində Həsən və Səməd adlı iki şagirdin arasındakı söhbətdən bəlli olur ki, Səməd realnı məktəbdə, Həsən isə "rus-tatar" məktəbində oxuyur. Həsən əvvəllər 7 il mollaxanada oxumuş, amma heç bir şey öyrənə bilməmişdir. Onun atası mühafizəkar, köhnə fikirli bir şəxsdir, başına "rus şapkası" qoyanlardan, müasir düşüncə ilə yaşayıb yeni tipli təhsil ocaqlarına gedənlərdən xoşu gəlmir. Həsən və qohum-əqrəba çox çətinliklə onu razı salırlar ki, Həsəni "rus-tatar" məktəbinə göndərsin. Ancaq atası "rus-tatar" məktəbini bitirəndən sonra oğluna təhsilini davan etdirməyə icazə vermir. Bir neçə il sonra Həsən və Səməd yenidən Vladiqafqazda görüşürlər. Söhbət əsnasında bəlli olur ki, Səməd ali təhsil dalınca Moskvaya gedir. Həsən isə nəticədə pulpərəst və qumarbaz bir insana çevrilir. Göründüyü kimi, müəllif hekayədə təhsil alanın və təhsil almayanın aqibəti problemini qoyur. Birinci yol insanı xoşbəxtliyə, ikinci yol isə bədbəxtliyə gətirib çıxarır.

Dialoq şəklində yazılmış elə hekayələr vardır ki, buradakı dialoqlar əslində uşaqların idraki səviyyəsindən, təlqin imkanlarından yuxarıda dayanır. Lakin müəllif öz ideyasını kiçik oxuculara çatdırmaq naminə həmin ideya və mətləbləri uşaqların dili ilə ifadə edir.

M.Tahirzadənin "Zəki və Şövqü" hekayəsində deyilən fikrin aydın ifadəsini görürük. Məsələn, hekayədə Şövqü və Zəki adlı şagirdlər arasında belə bir mükalimə baş verir:

"Şövqü – Bizim cisimlərimiz, zahiri, maddi olduğumuzu göstərməsə də, mənəvi insan olduğumuzu isbat edə bilməz. Mənəvi insan olduğumuzu bizə gözəl əxlaqdan başqa heç bir şey bildirməz. Halbuki insana zahirdə deyil, mənəvi insan olmaq gərəkdir... Yemək, içmək ilə maddi və zahirimizi nə cürə məmnun edirsək, cismi-mənəvimizi də gözəl hal, əxlaq ilə qidalandırmalıyız.

Zəki – İnsan olan üçün bu aləmdə ən böyük zövq, ən böyük fayda, ən böyük təsəlli elm təhsil etməkdir... Sabah mədəmizin acdığını hiss edib necə ki, yemək-içməyi unutmuyuruq, öylə də hər gün, hər dəqiqə ruhumuzun qidasını verib onu zəiflikdən qurtarmalıyız" (3, 1907, №2).

Göründüyü kimi, bu iki şagirdin söhbəti əslində filosof baxışını, idraki cəhətdən yüksək səviyyəli fəzilət sahiblərinin görüşlərini, müdrik bir nəsihətçi öyüdünü xatırladır. Lakin müəllif öz ideyasının təlqini naminə onu şagirdlərin dili ilə ifadə edir. Belə bir təlqin üsulu təbii ki, ifrat təsir bağışlayır.

Aslan Hacıbəyovun "Səyin nəticəsi" (8, 1915, №12) hekayəsində çalışqan və tənbəllik edən iki şagirdin gələcək taleyi, aqibəti təsvir edilir. Lətif adlı şagird dərslərini yaxşı oxuyur, çalışqan və zəhmətkeşdir, orta məktəbi müvəffəqiyyətlə bitirib ali təhsil dalınca gedir. Nəhayət, ali təhsilini tamamlayıb tanınmış həkim olur. Onun sinif yoldaşı Cavad isə tənbəldir, dərslərində səy göstərmir, məktəbə gəlməyə həvəssiz yanaşır. Məktəbi birtəhər bitirsə də, sonra avara həyat tərzi keçirir. Bir gün o, xəstələnir. Keçmiş sinif yoldaşı Lətif həkim kimi gəlib onu müalicə edir və sağaldır. Cavad yalnız indi yaxşı oxumağın dəyərini anlayır. Lakin gecdir. Müəllif məqsədli olaraq belə bir süjet qurur. Nəticə çıxartmağı isə oxucunun öhdəsinə buraxır. Demək istəyir ki, bu obrazlara bax, ibrət götür. Elmli, təhsilli olmaq faydalıdır, yoxsa cəhalətdə qalmaq? Bunu özün müqayisə yolu ilə seç.

Əlbəttə, bu cür sadə məzmunlu süjetlərdən oxucu asanlıqla nəticə çıxara bilir. Anlayır ki, yaxşı oxuyub bir peşə, sənət sahibi olmaq həm cəmiyyət, həm də insanın özü üçün faydalıdır. Ona görə də elmə, maarifə can atmaq lazımdır.

Hüseyn Hövzinin "Balaca Firidun" (3, 1906, №12), M.A.Seyidəliyevin "Məktəb məhəbbəti" (8, 1912, № 4), Məhəmməd Quluzadənin "Məktəbə gedəcəyəm" (8, 1913, № 12), Əbdülbaqi İsmayılzadənin "Həsən və bacısı" (8, 1915, № 2) və s. hekayələrdə də zirək, düşüncəli, təhsilə meylli, elmin mahiyyətini anlayan şagird obrazları diqqəti cəlb edir. M.A.Seyidəliyevin "Məktəb məhəbbəti"ndə kasıb fəhlə Qubadın oğlu Aslan məktəbə gedib oxumaq arzusundadır. Təhsil almaq onun ən böyük istəyi və idealıdır. Lakin atası kasıb olduğu üçün oğulunu oxutdura bilmir. Aslan isə qayğıkeş atasının razılığı ilə vəziyyətdən çıxış yolu tapa bilir. Məktəbə gedib məktəb

müdirinə öz arzusunu bildirir, yalvarır ki, onu pulsuz olaraq təhsil ocağına qəbul etsinlər. Müdir uşağın bu istək və həvəsini görüb onun arzusunu yerinə yetirir. Aslan oxuyub ləyaqətli bir şəxs olur.

Ə.İsmayılzadənin "Həsən və bacısı" hekayəsində diribaş şagird Həsən öz bacısını da məktəbə həvəsləndirir. Eyni zamanda atasını da razı salır ki, bacısını məktəbə göndərsin.

Onu da nəzərə çatdırmaq lazım gəlir ki, haqqında söhbət açdığımız bu cür kiçik həcmli nəsr əsərlərində "gərgin süjetlər, mürəkkəb xarakterlər, kəskin konfliktlər nəzərə çarpmır. Süjetlərdəki dinamizmi, xarakterlərdəki çoxcəhətliliyi, situasiyalardakı əlvanlığı, çoxcəhətli əməli fəaliyyətə malik qəhrəmanları konkret olaraq müəyyən müsbət keyfiyyəti, məsələni öyrədən və ibrət verən hadisələr, nümunəvi qəhrəmanlar əvəz edir" (9, 177).

Uşaq nasirləri maarif mövzulu əsərlərində valideyn obrazları da yaradırlar. Valideynlər isə səciyyə etibarı ilə iki cürdür: müsbət və mənfi. A.Səfanın "Ata və oğul" (8, 1912, №4), Əlağa Qafarzadənin "Odunçu Səməd" (8, 1915, №3), "Türk balası" imzası ilə çap olunan "Zavallı Firidun" (8, 1914, №16) və s. hekayələrdə belə obrazların ümumiləşdirilmiş nümunəsini görürük.

A.Səfanın mükalimə şəklində qurulmuş "Ata və oğul" hekayəsində müasir dünyagörüşə malik, maarifə, elmə ayıq gözlə baxan, onun fərdin və millətin tərəqqisində rolunu aydın dərk edən bir ata surəti ilə tanış oluruq. Müəllif ideyasının ruporuna çevrilən bu ata nəinki oğlanların, hətta qızların da təhsil almasını, müasir elm və mədəniyyətə yiyələnməsini dövrün zəruri tələbi, xalqın yüksəliş yolunun vacib faktoru hesab edir. Oğlunun "Qızların oxuması nə üçün lazımdır?" sualına belə cavab verir: "Elm oxumaq hamıya lazımdır... Məktəb bir gül bağçasıdır. Bu bağçanın gülü də elmdir. Bu bağçaya girmək və xoş iyli güllər ilə ətirlənmək oğlanlardan artıq xanım qızlara lazımdır. Çünki qızlar böyüdükcə ana olacaqlar. Ananın oxumaqlığı isə onun övladının oxumaqlığı deməkdir. Elm oxumuş ana qucağında bəslənən uşaqlar təlim və tərbiyələri üçün birinci məlumatı özlərinin ilk məktəbi olan ana qucağında alırlar... Bir məmləkətin və ya bir millətin tərəqqisi yalnız kişilərin əlində deyil, bəlkə, o tərəqqiyə xanımların da qoşulması lazımdır..." (8, 1912, №4)

Atanın dili ilə deyilən bu fikirlər əslində dövrün mütərəqqi ziyalı elitasının ümumi baxış, ideya və münasibətinin ifadəsidir. Müəllif onu atanın dili ilə böyüməkdə olan nəslə təlqin edir.

Ə.Qafarzadənin "Odunçu Səməd" hekayəsində də müasir məktəbə rəğbət bəsləyən, oğlunu oxutmağa can atan, təhsil və elmin nurlu mahiyyətini övladına anlatmağa çalışan bir ata surəti ilə üzləşirik. Bu, Səməd kişidir. Səməd kişi odunçudur. Özü oxumamışdır. Kasıb bir həyat tərzi keçirir. Ailəsini odun kəsib satmaqla dolandırır. Vaxtilə atasının onu oxutmadığına təəssüf edir. İndi onun arzusu oğlu Xasını oxutmaq, onu bir elm və sənət sahibi kimi görməkdir. Oğluna da oxumağın faydasını başa salmağa təşəbbüs edir. Belə müsbət obrazların timsalında uşaq nasirləri valideynləri öz övladlarını oxutmağa təşviq edir.

"Türk balası" imzası ilə işıq üzü görən "Zavallı Firidun" hekayəsində isə avam, cahil və eqoist, elm və maarifin əhəmiyyətini lazımınca anlamayan bir ata obrazı təsvir olunur. Atanın cahilliyi, məktəbdə oxuyan oğluna eqoist və nadan münasibəti nəticədə uşağın xəstələnməsinə və ölümünə səbəb olur. Müəllif əsərdə maarifsizliyin, nadanlığın, mühafizəkarlığın hüznlü aqibətini açıb göstərir.

Sənətkarlar nəsr əsərlərində köhnə məktəblə yeni məktəbin, mollaxana ilə "üsuli-cədid" məktəblərinin müqayisəsinə də diqqət yetirirlər. Bu müqayisə zamanı ikincinin birincidən üstünlüyü əsaslandırılır. Mütərəqqi məfkurəli qələm sahibləri mollaxanadakı təhsil üsulunun təlim və tərbiyədə uşaqlara xeyirdən çox ziyan vurduğunu göstərir, buradakı müdərrisin (mollanın) şəxsiyyətinin, təlim üsulunun və verdiyi təlimin tamamilə nöqsanlı olduğunu bədii sözün obyektinə çevrilirlər. Yeni tipli məktəbi isə müasir, sağlam maarif və elm yolunun əsas məbədi kimi təbliğ edirlər. Aslan bəy Əlibəyovun "Qoca və şagird" (8, 1914, №4) hekayəsi bu tipli əsərlərin məzmun və ideyasını dolğun şəkildə ümumiləşdirir. Hekayədə göstərilir ki, bir qoca kişi oğlunu altı il mollaxanaya göndərir. Bir dəfə qoca kişiyə məktub gəlir. O, məktubu oxumaqdan ötrü oğluna verir. Lakin altı il mollaxanaya ayaq döyən uşaq məktubu oxuya bilmir. Məlum olur ki, bu altı ildə molla ona heç nə öyrətməmiş, təhsil vermək, elm öyrətmək əvəzində öz təsərrüfat işlərini gördürmüş, işə-gücə buyurmuş, boş vaxtlarında isə uşaq mollaxanada mürgüləməklə məşğul olmuşdur. Qoca kişi məcbur olub məktubu oxumaqdan ötrü bir "uşqol uşağı" çağırır. Bu şagird məktubu asanlıqla oxuyur. Altı illik xərc və zəhmətinin hədər getdiyini görən qoca oğlunu mollaxanadan çıxarıb "uşqola" göndərir. Beləliklə, bu hadisənin fonunda "uşqolun" mollaxanadan üstünlüyü ideyası öz bədii təcəssümünü tapır.

Nəticə

Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü və inkişafında maarifçi-realist mərhələ kimi səciyyələnən XIX-XX əsrlərin qovşağında poeziyada məktəbə, maarifə, elmə çağırış motivləri yalnız nəzm əsərlərin çərçivəsi ilə məhdudlaşmır. Zikr olunan mövzu və ideyada maraqlı nəsr nümunələri də ərsəyə gəlir.

Mövzu və ideya axtarışlarına gəldikdə uşaq ədəbiyyatında yenə bir rəngarənglik və əlvanlıq müşahidə olunur. Daha doğrusu, böyüməkdə olan nəslin mütaliəsi üçün yaradılan söz sərvəti nümunələri bir sıra mövzu və ideya istiqamətlərini özündə ehtiva edir. Bunlardan aparıcı və daha qabarıq nəzərə çarpan mövzulardan biri maarifə, məktəbə və elmə çağırış idi.

O dövrün mütərəqqi fikirli Azərbaycan ziyalıları aydın dərk edirlər ki, maarif bəşər övladını böyük amallara çatdıran nurlu yoldur. İnsanın idrak güzgüsünü cəhalətdən, kəsalətdən, rəzalətdən təmizləyib onu şövkətə və insanlığa qovuşdurar. Onun vicdanını saflaşdırıb nura boyayar, bəndəni dünyanın gizli sirlərindən xəbərdar edər, varlığın həqiqi mənzərəsini anladar, onu idraksızlıq və əqli cəhalət zülmətindən qurtarıb bəxtiyarlığa, səadətə çatdırar. İnsana ağıl, kamal, şərəf, ədəb və ürfan bəxş edər. Bəşərin, insanlığın dirçəliş və tərəqqisi, mədəni yüksəlişi, vəhşətdən qurtuluşu yalnız maarif və elmlə mümkündür. Maarifsiz bir qövm və ya insan qaranlıq səhrada azan çarəsiz yolçuya, yaxud kimsəsiz kora bənzəyər. Zülmün, ədalətsizliyin binası cəhalətlə bərbad olduğu kimi, maarifin gücü ilə abad olar.

Deyilən bu fikirlər, təbii ki, bütövlükdə maarifçiliyin əsas ideya-məfkurəvi kodeksinə daxil olan tezislərdən idi. Bizim uşaq ədəbiyyatımızda da bu tezislər ardıcıl şəkildə müdafiə edilirdi.

Ədəbiyyat

1. Babayev, Y.M. Azərbaycan uşaq nəsrinin inkişafı tarixindən (1905-1920):/filologiya elmləri namizədi dis. – Bakı, 1989. – 167 s.
2. Çernyayevski, A.O. Vətən dili (Rodnaya reç). I hissə: / A.O.Çernyayevski. –Tiflis: Ünsizadə, –1882. –28 s.
3. «Dəbistan» jurnalı. – Bakı: 1906-1908.
4. Əfəndizadə, R.İ. Bəsirətül-ətfal / R.İ.Əfəndizadə. – Badkubə: Tipoqrafiya Qubernskoqo pravleniya, – 1901. – 226 s.; II təb. – İstanbul: – 1907. – 137 s.
5. Əsgərli, F.F. Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı / F.F.Əsgərli. – Bakı: ADPU-nun nəşriyyatı, – 2009. – 435 s.
6. Həsənli, B.A. Azərbaycan uşaq ədəbiyyatı / B.A. Həsənli – Bakı: Müəllim, –2013. –511 s.
7. İsmayılov, Y.M. Abdulla Şaiqin həyat və yaradıcılığı / Y.M.İsmayılov. –Bakı: Azərnəşr, –1962. –210 s.
8. «Məktəb» jurnalı. – Bakı: 1911-1920.
9. Məmmədov, M.M. Pedaqoji mühit və uşaq ədəbiyyatı / M.M.Məmmədov, Y.M.Babayev, T.S.Cavadov – Bakı: Maarif, – 1992. – 288 s.
10. Rəsulova, S.H. Azərbaycan uşaq ədəbiyyatinin maarifçi-realist mərhələsi (XIX əsrin II yarısı – XX əsrin əvvəlləri) / S.H. Rəsulova. –Bakı: Elm və təhsil, –2018. – 293 s.
11. Şaiq, A.T. Gülzar / A.T. Şaiq. – Bakı: Orucov qardaşları mətbəəsi, –1912. – 287 s.
12. Şaiq, A.T. Milli qiraət kitabı / A.T. Şaiq. – Bakı: Birinci hökumət mətbəəsi, – 1919. – 228 s.

Motivation and scientific motives in our children's prose
(Late 19th - early 20th century)

Summary

The end of the XIX - the beginning of the XX century is an educationally realistic stage of children's prose of Azerbaijanis. During this period, a large number of both lyrical and epic works were created for children. At this stage, the themes and ideas of children's children's prose are multifaceted. One of these aspects is the draft motives of education, school, science. Our children's writers R.Efendizade, A.Shaig, A.Javad, Islamzade, M.Tahirzade, A.Safa, J.Buniadzade, S.Afandizade, H.Hovzi, A.Gafarzade and others wrote interesting stories on this subject.

In the article, we turned the works into the subject of studying examples of children's prose for children written on this topic, in the subject of research during the specified period.The article discusses the theme of prose works written on this topic, the idea of content, the world of images.

Мотивы призыва к образованию и науки в нашей детской прозе
(Конец 19 - начало 20 веков)

Резюме

Конец 19-го и начало 20-го века - просветительско-реалистический этап азербайджанской детской прозы. В этот период для детей были созданы как лирические, так и многие эпические произведения. На этом этапе тема и сфера нашей детской прозы многогранна. Одним из этих направлений является образование, школа, наука, мотивы призыва. Наши детские писатели Р. Афэндизадэ, А. Шаиг, А.Джавад, Исламзаде, М.Тахирзаде, А.Сафа, Дж.Бунядзадэ, Ш. Афендизадэ, Х. Ховзи, А. Гафарзаде и др. написали много интересных рассказов на перечисленные темы. Именно они стали объектом нашего исследования в статье. Рассмотрены тема, идейно-содержательные особенности, мир образов прозаических произведений, написанных на указанную тему.

DOI: 10.36719/2020/REK/01/89-91

Türkan Nazim qızı Əliyeva
Bakı Mühəndislik Universiteti
tueliyeva@beu.edu.az

ROBERTSON DEVİSİN "MANTİKOR" ƏSƏRİNDƏ QƏHRƏMANIN DAXİLİ "MƏN"İNİN KƏŞFİ

Açar sözlər: *dialektika, mənəvi həqiqət, özünüdərk, Yunq psixoanalizi, mifologiya*
Key words*: dialectic, moral truth, self-identity, Jungian psychoanalysis, myth*
Ключевые слова: *диалектика, духовная истина, самовыражение, юнговский психоанализ, миф*

Kanadanın görkəmli yazıçısı, dramaturqu, tənqidçisi və Toronto Universiteti nəzrində Massey Kollecinin yaradıcısı Robetson Devis bir sıra əsərlərin və yaradıcılığında zirvə sayılan dörd böyük trilogiyanın – Salterton, Deptford, Korniş və Toronto (bu trilogiyanın son əsəri yazılmayıb) müəllifidir. Robertson Devis özünü mənəviyyatçı və öz əsərlərini isə mənəvi əsərlər adlandırırdı. Bu cəhətdən fikrini ifadə etdiyi Deptford trilogiyasını yazmağının əsas səbəbi kimi "hər bir insan öz hərəkətlərinin nəticəsinə görə nə dərəcədə məsuliyyət daşıyır və insanda məsuliyyət hissi nə zamandan başlayır" sualını hesab edirdi. [1,66] Eyni zamanda onun əsərlərində kim yaxud nə mənəvi həqiqəti müəyyən edir sualına cavab axtarılır. Devisə görə fiziki dünyada yaşayan hər bir fərd mütəmadi olaraq özünü dünya ilə əlaqədə tapır və bu əlaqə özünü dərk etmənin yoxlanıldığı mən və materiya arasında baş verən dialektik proses zamanı gerçəkləşir. Yalnız dialektik proses zamanı biz mənəvi həqiqəti üzə çıxara bilərik [2]. Deptford trilogiyasının hər üç əsəri tarixi faktlar arasındakı əlaqəyə, bu faktların şəxsi dərkinə və təhlilinə və cəmiyyətin bu təhlilə olan münasibətinə əsaslanır. Hər üç qəhrəman – Ramsay ("Beşinci Personaj"), David Staunton ("Mantikor") və Magnus Eisengrim ("Möcüzələr Dünyası") – keçmiş həyatlarında baş verən hadisələri xatırlayır və bu hadisələri təhlil edirlər. Hər bir xarakter auditoriya seçdiyi və bu insanlarla öz mövqelərini paylaşdıqları zaman dialektik münasibət formalaşır. Həmin anda qəhrəman özünü dərk edir və eyni zamanda cəmiyyət tərəfindən edilən və xarakterlərin inkişaf və müdrikləşməsinə səbəb olan mühakimələri qəbul edir .

"Mantikor" əsərində Devis insanın özünü dərk etməsinə dialektika vasitəsilə necə nail olduğunu daha incəliklə təsvir edir. "Mantikor" əsəri baş qəhrəmanın məhdud dünyagörüşünü əks etdirən monoloq ilə başlayır, lakin əsər boyu biz Davidin bir neçə insanlarla qarşılaşması və dialoqu nəticəsində özünü dərk edərək dünyagörüşünü genişləndirdiyinin şahidi oluruq. David dini etiqadı üçün öz səbəbləri olan bir rasionalistdir. O eqosentrik dünyaya bağlanmış,lakin Dr.Von Haller ilə söhbətindən sonra öz daxili "mən"ini kəşf etmiş və özünü dərk etməyə başlamışdır. Dialektika nəticəsində o dünyaya yeni nöqteyi-nəzərdən baxmağa nail olur, belə ki, o artıq öz keçmişi və məni ilə qarşılaşmağa hazırdır.

Əsərin baş qəhrəmanı David ilə Dr.Von Haller arasındakı söhbət hər iki tərəfin əsaslandırdığı əks fikirlərə gətirib çıxarırdı. Dialektika nəticəsində David eqosentrik baxışın məhdudluğuna inanır və özünə və dünyaya qarşı daha yetkin düşüncələr formalaşdırmasına səbəb olur. Atası Boy Staunton kimi David əsərin əvvəlində anti-dialektik düşüncə tərzini əks etdirir. O psixiatristin qəbuluna getsə də etiraf edir ki, " Mən inanmıram ki, özü üçün nəsə edə bilməyən intelektual insanlara psixiatristlər kömək ola bilər". [3,3] "*I have never believed these people can do anything for an intelligent man he can't do for himself* ". O özünü "a man of reason" ("məntiqli adam") adlandırır və hətta psixoloji yardım almaq üçün qərarının da əsas məntiqi səbəbi olduğunu bildirir. [3,6] David qanunlara inanmasına baxmayaraq (bu inam onu tamamilə solipsizm olmaqdan qoruyurdu), o öz şüurunda sığınacaq axtarır və psixiatrlar barədə ehtiyatlı davranırdı. Eyni zamanda o qadınlara qarşı qərəzli idi və Dr.Von Hallerin onun problemini anlayacağına şübhə ilə yanaşırdı. Lakin von Haller öz ağlı və hadisələrə məntiqi yanaşması ilə Davidin qərəzinə üstün gəlməsinə nail olur. Xüsusilə o Davidə ümumi və tipik insan həyatından nümunələr verməklə çəkdiyi əziyyətlərdə tək və yalnız olmadığına inandırır. O vəkillərin istifadə etdiyi yanaşmayla müqayisə edilə biləcək metoddan istifadə edir:o dəlilləri təqdim edir və nümunələrə istinad edir. Bu yolla o Davidlə dialoq qurub fikir mübadiləsi apara bilir.

Dr.Von Haller Davidin müalicə almaq istəməsinin səbəbinin atasının qatili gerçəyini öyrənəndə hər bir insanın həyatında mütləq şəkildə qarşılaşdığı ölümlə bağlı təcrübələrdən nümunələr göstərərək deyir "hər bir insan üçün atasını itimək onun həyatında ən çətin anıdır" [3,9] Bununla o Davidə göstərmək istəyirdi ki,o yeganə əziyyətçəkən deyil. Von Haller hətta atasının öldürülməsi ilə bağlı fikirlə razılaşmadığını sübut etməyə çalışır. Von Haller Davidi faktlarla üzləşməyə məcbur edir. "Cənab Staunton heç kim bu daşı mərhumun ağzına məcburi dişlərini sındırmadan, şiddət izi buraxmadan qoya bilməz. Mən bunu etməyə çalışdım. Alınmadı. Məncə sizin atanız bu daşı özü qoyub ağzına." [3,11]

Dr.Von Haller faktlara əsaslanaraq əsaslı fikirlər irəli sürərkən, David bu faktlardan imtina edərək, atasının güclü xarakterinin və həyat eşqinin olmasını sübut gətirməklə özünə qəsd etmə fikrinin mümkün olmadığını deyir. Von Haller onun özünün də sübut kimi söylədiyi fikri dəlil gətirərək arqumentlərinin zəifliyini göstərir. David və von Haller arasındakı ilk dialoq hər iki xarakter arasında əlaqənin qurulması üçün çox vacibdir. Von Haller öz psixoloji sistemini passiv xəstənin üzərində tətbiq edən otoritar mütəxəssis deyil. Əksinə o öz analizlərini faktlara və insan təbiətinə əsaslanaraq verən və məntiqli inandırma vasitəsilə öz otoritarlığını quran təcrübəli dialektçidir.

Ailənin reproduktiv funksiyası nəsilartırma funksiyasıdır. Hər bir ailədə bu və ya digər mənada uşağın dünyaya gətirilməsi və nəsilin davam etdirilməsi nəzərdə tutulur. Tədqiqatlardan məlum olur ki, İnsan İnkişaf İndeksinə görə yüksək inkişaf səviyyəsinə malik olan ölkələrdə doğulan uşaqların sayına olan tələbat onların arzuedilən sayından çox olur. Bununla belə, kişilər və qadınların yaşı artdıqca onların nəsil artırmaq və övlada sahib olmaq istəyi də zəifləyir və get – gedə aradan qalxmağa başlayır.

Ailənin tərbiyəedici funksiyası dedikdə, valideynlik hisslərinin özünü reallaşdırmasını və uşaqların tərbiyə edilməsini nəzərdə tutur. Tərbiyəedici funksiya reproduktiv funksiya ilə sıx surətdə bağlılıq təşkil edir. Psixoloqlar qeyd edirlər ki, əgər uşağa doğulduğu gündən etibarən lazımı diqqət və qayğı göstərilmirsə, onun bəzi sosial keyfiyyətləri zəifləyir və uşağın həm əqli, həm də fiziki inkişafında müəyyən ləngimələr meydana çıxır. Bu isə uşağın yaxın adamlarla olan ünsiyyətə tələbatı ilə izah olunur. Bu nöqteyi – nəzərdən məlum olur ki, sağlam və normal ailə mühiti uşağın inkişafı üçün vacib rol oynayır. Baş vermiş müəyyən bədbəxt hadisələr nəticəsində heyvanlar arasında böyümüş uşaqlar haqqında yayılmış bəzi faktlar bizə sübut edir ki, ailə mühiti ilə yanaşı, sosial mühit və erkən tərbiyə də uşağın inkişafında həlledici rola malikdir. Ailə mühiti uşağın tərbiyəsinə birbaşa təsir göstərir. Aparılan tədqiqatlar göstərir ki, valideynlərindən ən azı birinin spirtli içkilərə, narkomaniyaya aludə olması uşaqların davranışlarında mənfi hallara və müəyyən kənara çıxmalara səbəb olur. Bunun səbəbi isə kiçik yaşlı uşaqların valideynlərini etalon kimi qəbul etmələri və onlara oxşamağa çalışmalarıdır. Bu zaman uşaqlar hansı davranışın pis, hansı davranışın yaxşı olduğunun fərqinə varmırlar.

Sosioloqlar və psixoloqlar ailədə uşaqların tərbiyəsinin üç stereotipini müəyyən etmişlər:

1. Uşağın mənafeyindən və mövqeyindən çıxış etmə - bu halda uşağın davranışına ifrat aludəçilik özünü göstərir. Yəni, ailədəki hər kəs uşağın nazı ilə oynayır. Heç kəs uşağı etdiyi səhv hərəkətinə görə məzəmmət etmir. Belə uşaqlarda isə məsuliyyət və valideyn qarşısında cavabdehlik hissi tərbiyə olunmur.

2. Peşəkarlıq – bu halda valideynlər öz övladlarının tərbiyələrindən özləri imtina edirlər və uşaqların tərbiyəsini peşəkarlara həvalə edirlər. Bu ailədə əmək fəaliyyətinə önəm verən valideynlərin dünyagörüşündən asılıdır. Onlar ailənin maddi təminatını daha üstün tuturlar. Belə valideynlərin tərbiyəsi sərt qadağalardan və hətta bəzən uşağın söyülüb – döyülməsindən ibarət olur. Bir çox hallarda uşağın yerli – yersiz cəzalandırılması, onun valideynlərindən ehtiyacı olan qayğını və mehribanlığı görə bilməməsi uşaqda valideynlərinə qarşı bir növ

inciklik yaradır. Bu isə öz növbəsində uşaqda qorxu və özünə qarşı insamsızlıq hissi yaradır, və belə uşaqlar ətraf mühitə uyğunlaşmaqda çətinlik çəkirlər.

3. Praqmatizm – bu elə tərbiyə üsuludur ki, məqsədi uşaqlarda işgüzarlıq, öz işini qaydaya salmaq bacarığı və ən əsası maddi mənfəət əldə etmək oriyentasiyası hazırlamaqdan ibarətdir.

Ailənin iqtisadi funksiyası dedikdə - ailənin iqtisadi tələbatlarının və təsərrüfat, məişət tələbatlarının ödənilməsi nəzərdə tutulur. Rekreativ funksiya - fiziki və intellektual gücün bərpasını, mənəvi funksiya – ünsiyyətə və birgə məşğuliyyətlərə olan tələbatların ödənilməsini, sosial funksiya – fərdin sosiallaşmasını və sosial nəzarəti, fizioloji funksiya isə fizioloji tələbatların ödənilməsini nəzərdə tutur. Ailənin həyat fəaliyyətində onun bir və ya bir neçə funksiyası reallaşmırsa, bu ailələri sosial risk ailələri adlandırırlar.

Ailə qurumundan bəhs edərkən onu sadəcə sosioloji anlayış kimi deyil, eyni zamanda hüquq elminin bir sahəsi kimi də nəzərdən keçirmək məqsədəuyğun olar.

Dövlət ailə hüquq normalarının köməyi ilə ailədə müəyyən münasibətləri nizama salır, habelə vəzifələrin meydana çıxma şəraitini müəyyənləşdirir.

- Nikah bağlanmasının şərtləri, nikaha xitam verilməsi, etibarsız sayılması
- Ailə üzvləri arasında əmlak və qeyri - əmlak hüquqları
- Digər qohumlar arasında əmlak və qeyri - əmlak hüquqları
- Valideyn himayəsindən məhrum uşaqların hər hansı bir ailəyə qəbul edilməsinin forma və metodları (http://elibrary.bsu.az/books_460/N_10.pdf)

Ailə hüququnun əsas əlaməti onun əsrlər boyu formalaşmaqda olan əxlaq normaları ilə vəhdət təşkil etməsidir. Bu mənada ailə hüququnun predmeti isə ailə üzvləri arasındakı münasibətlərin əsasını təşkil edən üzvlərin bir – birlərinə məhəbbətini və hörmət hisslərini təşkil edir. Daha qısa və konkret desək ailə hüququ nişanlanmaqdan başlamış və evlilik dövründə yaşanan bütün problemləri əhatə edən, qəyyumluq məsələlərini həll etmək gücünə sahib olan, uşaqların və qadınların hüquqlarını müdafiə edən, uşaqlara qarşı zorakılığa görə qanuni tələb olunan cəzaları təmin edən hüquq məhkəmələridir. Ailə hüququ cəmiyyətdə nizamın və ailə birliyinin qorunması üçün mütləqdir. Ailə quruluşu və ailə hüququ baxımından ortaya çıxa biləcək hər cür problem çox xüsusi və əhəmiyyətlidir, ailə məhkəmələri nizamın qorunması üçün bütün müraciətlərə cavabdehdir. Ailə qanunvericiliyi, ailə institutunun necə olmalı olduğunu və mümkün problemlərlə necə mübarizə aparacağını söyləyir. Mümkün problemlərdən qısaca danışsaq:

- Cinayət amilinin vacib olduğu boşanma halları
- Boşanma zamanı əgər uşaq varsa, uşağın kimin himayəsinə veriləcəyi barədə qərar vermək
- Uşaqlara və boşanmış həyat yoldaşlarına veriləcək alimentin təyin edilməsi və həll edilməsi

Sadalanan bütün problemlər həmişə ailə qanunverciliyi ilə həll edilir.

Cəmiyyətin ən kiçik bloku olan ailə birliyini qorumaq, dinc və təhlükəsiz bir cəmiyyətə salam söyləməklə sinonimdir. Xoşbəxt evlərdə doğulan uşaqlar da gələcəyə daha inamla baxır və öz ayaqları üzərində dayanmaq bacarığına çata bilərlər. İstəmədən də olsa məişət problemləri ilə üzləşə bilirik və bunları görməzlikdən gəlmək olmaz. Artan boşanmalar özü ilə bərabər bir çox problemlərin yaranmasına gətirib çıxarır. Ailə hüququna verilən əhəmiyyət də burada ortaya çıxır. Qanuni olaraq tənzimlənməyən bu məsələlər barədə qeyri – müəyyənlik bir çox böyük problemə səbəb ola bilər.

Ailə hüququnun nizamlanmasını təmin edən ailə münasibətləri qarşılıqlı məhəbbət və hörmətə, qarşılıqlı yardıma və məsuliyyətə əsaslanır, kənar şəxslərin ailənin işlərinə özbaşına müdaxiləsinə yol verilmir, ailə üzvlərinin hüquqları maneəsiz həyata keçirilir.

Nəticə

Məqalədə ilk olaraq ailə haqqında ümumi anlayış verilmiş və onun tarixi inkişafına nəzər yetirilmişdir. Ailə nikah münasibətlərinin necə yaranması, ailə üzvlərinin ailədəki rolu və həyata keçirdiyi funksiyalar göstərilmişdir. Cəmiyyətin inkişafının ayrı – ayrı dövrlərində ailənin növləri və xüsusiyyətləri ön plana çəkilmiş, sonda isə ailə nikah münasibətləri hüquq elminin bir sahəsi kimi nəzərdən keçirilmişdir.

Ədəbiyyat

1. F.Vahidov “Sosiologiya” 2008
2. Z.İ.Məmmədov , X.H.Orucov “Sosiologiya” 2006
3. M.D.Dəmirçiyeva “Ailə hüquqlarının məhkəmə müdafiəsi” 2012
4. http://eski.bingol.edu.tr/media/261497/3ailekurumu.pdf
5. https://dergipark.org.tr/tr/download/article-file/527373
6. http://www.uluchukuk.com/faaliyet-alanlari/aile-hukuku/

Family and marriage relations in the social and leqal sense
Summary

The article first gives a general idea of the family and its historical development is considered in the article. Creation of family marriages, the role of family members in family and their functions are informed. At the different stages of the development of the society, the types and characteristics of the family came to the fore, and finally, family and marriage relations were considered as a branch of jurisprudence.

Семейно-брачные отношения как юридическое понятие
Резюме

Прежде всего, в статье дается общее представление о семье и рассматривается ее историческое развитие. В ней показаны, как формируются семейные отношения в браке, роль членов семьи и выполняемые ими функции в семье. На разных этапах развития общества были выделены типы и особенности семьи. В заключение, семейные и брачные отношения рассмотрены как раздел юриспруденции.

DOI: 10.36719/2020/REK/01/113-118

Sevinc Usub qızı Hüseynova
AMEA Hüquq və İnsan Haqları İnstitutu
sevhuseyn@yahoo.com

CİNAYƏT MƏSULİYYƏTİNİN HÜQUQİ ƏSASLARI

Açar sözlər: *hüquqi məsuliyyət, cinayət məsuliyyəti, cinayət tərkibi, cinayət məsuliyyətinin əsasları, cinayət məsuliyyətinin əlamətləri, cinayət məsuliyyətinin növləri, qanunvericilik, ictimai təhlükəlilik*
Key words: *legal liability, criminal liability, crime, grounds for criminal liability, signs of criminal liability, types of criminal liability, legislation, public danger*
Ключевые слова: *юридическая ответственность, уголовная ответственность, состав преступления, основание уголовной ответственности, признаки уголовной ответственности, виды уголовной ответственности, законодательство, общественная опасность*

Giriş

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət hüquq normalarının sistemləşdirilmiş ifadəsidir. O iki hissədən ibarətdir: ümumi və xüsusi. Cinayət Məcəlləsinin ümumi hissəsinin maddələri təyinedici normalar olmaqla, cinayət məsuliyyətinin prinsiplərini və əsaslarını, həmçinin cinayət məsuliyyətindən və cəzadan azad etmənin şərtlərini müəyyən edir və möhkəmləndirir. Beləliklə, obyektiv olaraq elə bir vəziyyət yaranır ki, qanunverici cinayət məsuliyyətinin əsasının aktuallığını anlayaraq, definitiv yox, mücərrəd xarakter daşıyan müvafiq cinayət-hüquqi normanı ifadə edir.

Qanunvericilik təcrübəsi bilavasitə cəmiyyətin və dövlətin demokratik institutlarının formalaşdırılmasını təmin edir, onlara hüquqi fəaliyyət rejimi verir ki, bu da cəmiyyət üçün əlçatan olan məhkəmə hakimiyyətini təmin edir. Bu zaman ictimai münasibətlərin cinayətkar qəsdlərdən qorunmasına yönəlmiş cinayət qanunlarının yaradılması ilə bağlı qanun yaradıcılığı da böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, müvafiq maraqların cinayət əməllərindən qorunması məsuliyyət təhlükəsi ilə, habelə onun təqsirli şəxslərin üzərinə qoyulması yolu ilə həyata keçirilir.

Qeyd edilənlər cinayət məsuliyyəti kateqoriyasına, onun məzmununa, növlərinə dair araşdırmalara ehtiyac olduğunu göstərir. Burada əsas rol cinayət məsuliyyətinin müəyyən edilməsinin üzərinə düşür. Cinayət məsuliyyəti anlayışının problemi, onun növləri və əsasları cinayət törətmiş vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini qanuni surətdə məhdudlaşdıran hissədə də aktualdır. Bu cinayət məsuliyyətinin müvafiq maraqları ictimai təhlükəli əməllərdən qorunmaq, bəşəriyyətin əmin-amanlığını və təhlükəsizliyini təmin etmək və cinayətin qarşısını almaq üçün zəruri və kifayət qədər olan əməllərin öz məzmunu ilə əhatə olunmasını nəzərdə tutur. Bu problem ədalət prinsipinin və ondan irəli gələn cinayət-hüquqi prinsiplərin həyata keçirilməsi üçün bilavasitə baza kimi çıxış edir. Bu, həmçinin cinayət hüququnun nəzəriyyəsi və qanunvericilik praktikası üçün xüsusilə xarakterikdir.

Cinayət məsuliyyətinə keçid almadan öncə qeyd edək ki, hüquqi məsuliyyət – hüqugun tələblərini icra etməyə görə dövlət məcburiyyət tədbiridir. Yəni bu əslində dövlətin hüquqa zidd hərəkətlərə mənfi reaksiyasıdır.

Hüquq elmində hüquqi məsuliyyətə iki aspektdə yanaşılır: müsbət hüquqi məsuliyyət və mənfi hüququ məsuliyyət. Müsbət hüquqi məsuliyyət: cəmiyyət üçün müsbət, faydalı funksiya və sosial rolu həyata keçirmək üzrə hüquqi vəzifədən əmələ gəlir. Mənfi hüquqi məsuliyyət (retrospektiv) hüquq pozuntusu ilə əlaqədar əmələ gəlir və dövlət tərəfindən hüququ pozan şəxs barəsində (məhkəmə, prokurorluq, polis və s.) müvafiq sanksiyalar (azadlıqdan məhrumetmə, cərimə, zərərin ödənilməsi və s.) tətbiq edilməsi ilə bağlıdır.

Retrospektiv cinayət məsuliyyətinin məqsədlərinin xarakteri tamamilə cinayətin təbiətinə, ictimai həyatın gətirdiyi mənfi dəyişikliklərə bağlıdır. Cinayət nəticəsində ictimai əlaqələrin parçalanması, başqalarına ziyan vurma təhlükəsi yarandıqda, əxlaqi və siyasi zərər ictimai və fərdi ədalət duyğusuna səbəb olur. Retrospektiv cinayət məsuliyyətinin ümumi məqsədləri aşağıdakılardır: 1) cinayət qanunvericiliyi ilə qorunan və tənzimlənən ictimai əlaqələrin təşkili, quruluşu, təşkilatı, bərpası; 2) ictimai və fərdi şüurda mənəvi və siyasi zərərin kompensasiyası (1).

Hüquq normalarının pozulmasında təqsirli olan şəxslərə verilən dövlət öhdəlikləri hüquqi məsuliyyətin müxtəlif formalarında ifadə edilir. Buna görə də hüquqi məsuliyyətin dörd əsas növü fərqləndirilir: onlar hüquq pozuntusunun növlərindən asılı olaraq əmələ gəlir: cinayət məsuliyyəti, mülki məsuliyyət, inzibati məsuliyyət, intizam məsuliyyəti.

Qeyd olunduğu kimi, hüquq normalarının pozulmasında təqsirli olan şəxslərə tətbiq edilən dövlət məcburiyyəti hüquqi məsuliyyətin müxtəlif formalarında ifadə olunur. Onlardan biri də cinayət məsuliyyətidir. Hüquqi məsuliyyətin digər formalarından o ciddiliyi və sərtliyi ilə fərqlənir.

Tətbiq olunan cinayət qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti aşağıdakı növlərə bölünür: hökmlə əlaqəli olmayan cinayət məsuliyyəti; cəzanın tətbiqi ilə əlaqəli, lakin məhkəmənin hökmü qanuni qüvvəyə minən zaman icra olunmadan cinayət məsuliyyəti; şərti olaraq tam və ya qismən yerinə yetirilməyən hökmlə bağlı cinayət məsuliyyəti; tibbi xarakterli məcburi tədbirlər ilə əlaqədar cinayət məsuliyyəti; məcburi tərbiyə tədbirləri ilə əlaqədar cinayət məsuliyyəti; ölüm hökmü və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına əsasən cinayət tərkibi ilə əlaqəli cinayət məsuliyyəti.

Cinayət məsuliyyəti – hüquqi məsuliyyət növlərindən biri, törədilən cinayətin hüquqi nəticəsi kimi cəza formasında məcburiyyət tədbirlərinin tətbiqi ilə təqsirkarın mühakimə edilməsini nəzərdə tutur. Cinayət məsuliyyətinə cəlbetmə cinayət işi başlama, istintaq aparmaq və məhkəmə baxışı mərhələlərindən ibarətdir. Cinayətin törədilməsi ədalət mühakiməsini həyata keçirən dövlət və təqsirli şəxs arasında spesifik hüquqi münasibətlər əmələ gətirən hüququ faktdır. Məzmununa görə bu hüquq münasibətləri dövlət tərəfindən onun hüquq-mühafizə orqanlarının cinayəti tədqiq etmək vəzifəsində və konkret şəxsin təqsirini sübut edən kifayət qədər əsaslar olduqda onu cinayət məsuliyyətinə cəlbetmə hüququnda ifadə olunur. Cinayət etmiş şəxs üçün bir tərəfdən cinayət məsuliyyəti daşımaq vəzifəsi, digər tərəfdən isə qanunla yalnız həmin növ əməllərə görə müəyyən edilmiş sanksiya hədlərində cəzalandırılmasını tələb etmək hüququ əmələ gəlir. Cinayətə hazırlıq, cinayətə qəsd, cinayətdə iştirakçılığa görə də cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasına (maddə 25) görə hamı qanun və məhkəmə qarşısında bərabərdir. Cinayət hüquq sahəsində bu o deməkdir ki, təqsirli şəxslər eyni əməllərə görə eyni məsuliyyət daşımalıdır. Yalnız qanunda nəzərdə tutulan hallarda və cəzanı fərdiləşdirmə məqsədilə bu prinsipin pozulmasına yol verilir. Cinayət məsuliyyəti ümumi xarakter daşıyır. Bu, o deməkdir ki, yalnız bir subyekt – dövlət və daha konkret olaraq, dövlətin yalnız bir orqanı – məhkəmə cinayət məsuliyyətinə cəlb etmək və onu tətbiq etmək səlahiyyətinə malikdir.

Yalnız faktiki olaraq baş vermiş hüquqazidd əmələ görə məsuliyyətə cəlbetmə prinsipi ancaq təqsirli şəxslərin məsuliyyətə cəlb olunması prinsipi ilə tamamlanır. Azərbaycan Respublikasının Konstitusiyasına (maddə 63) əsasən hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır (2).

Cinayət məsuliyyəti şəxsi xarakter daşıyır, yəni konkret cinayəti yalnız şəxsin özü törədən, yaxud onun törədilməsində iştirak edən şəxs məsuliyyətə cəlb olunur. Bu o deməkdir ki, heç bir şəxs kollektiv məsuliyyət prinsipinə görə, yaxud da təqsirli şəxslə yaxın qohumluq əlaqəsində və s. əlaqədə olmağa görə məsuliyyətə cəlb edilə bilməz. Cinayət məsuliyyəti cəmiyyət üçün daha təhlükəli olan əməllərə – cinayətlərə görə müəyyən edilir. Cinayət məsuliyyətinə cəlb edilən və barəsində cəza tətbiq edilən şəxs cəzanı çəkib qurtardıqdan sonra, habelə onun məhkumluğu ödənildikdən və ya götürüldükdən sonra cinayət məsuliyyətinə cəlb etmənin bütün hüquqi nəticələri aradan qalxır.

Cinayət məsuliyyətinin əsas məqsədi məhkumun islah edilməsidir. Cinayət hüququnun tənzimedici funksiyasına əsasən cinayət törədən şəxslər barəsində tənbehlə bağlı məcburi təsir tədbirləri tətbiq edilir. Cəza

tədbirləri bir daha qanununu pozmamaq, gələcəkdə yenidən cinayətlər törətməmək üçün tətbiq edilir. İkinci məqsəd cinayətkarların yenidən cinayət törədilməsinin qarşısını almaqdır (xüsusi xəbərdarlıq). Cinayət məsuliyyətinin üçüncü məqsədi antisosial davranışa meyilli olan şəxslər tərəfindən cinayətlərin qarşısının alınmasıdır (ümumi xəbərdarlıq). Bu məqsəd cinayət məsuliyyətinin qaçınılmazlığının təmin edilməsi və cinayət qanunu ilə təsir tədbirlərinin tətbiq edilməsi yolu ilə əldə edilir (3).

Cinayət məsuliyyətinin faktiki olaraq reallaşdırılması şəxslərin ibtidai istintaq mərhələsində müttəhim qismində cəlb edilməsi anından başlayır. Cinayət məsuliyyəti işə məhkəmə baxışı ittiham hökmünün çıxarılması mərhələsində davam edir, o həm də təyin olunmuş məhkəmə cəzasının real icrası mərhələsində də mövcud olur. Cinayət məsuliyyəti, cinayət hüquq münasibətlərinin aradan qaldırılmasının aşağıda göstərilmiş hallarında xitam olunur: Cəza müddətinin bitməsi, cinayət məsuliyyətindən azad etmə, amnistiya və yaxud əfv etmə haqqında akta görə.

Qeyd edək ki, tərbiyəvi və tibbi xarakterli məcburi tədbirlərin tətbiqi cinayət məsuliyyətinin məzmununa daxil deyildir. Dövlətin cinayət məsuliyyətinə cəlb etməkdən imtina etməsi iki əsasla – ümumi və xüsusi əsasla həyata keçirilir. Cinayət məsuliyyətindən azad etmənin ümumi əsasları CM-in 72, 73, 74, 75, 81-ci maddələrində, cinayət məsuliyyətindən azad etmənin xüsusi əsasları isə CM-in 144, 214, 234, 274, 312-ci və s. maddələrində təsbit edilmişdir (4, 107).

Cinayət məsuliyyətinin əsaslarının müəyyən edilməsinə qanunvericilik və cinayət hüquq nəzəriyyəsi iki aspektdən yanaşır: hüquqi və faktiki əsaslar. Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır. Buradan belə bir nəticə çıxır ki, cinayət məsuliyyətinin vacib və yeganə əsasları törədilmiş əməldə qanunda göstərilmiş cinayət tərkibinin mövcud olmasıdır.

Cinayət tərkibi – törədilmiş əməli konkret cinayət növü kimi xarakterizə edən əməllərin məcmusu, cinayət məsuliyyətinin zəruri əsasıdır. Şəxs cinayət məsuliyyətinə o zaman cəlb oluna bilər ki, onun hərəkətlərində müəyyən cinayət tərkibi olmuş olsun. Cinayət tərkibi dörd qrup əlamətlərdən ibarətdir ki, onlar cinayətin obyektini, onun obyektiv tərəfini, cinayətin subyektini və onun subyektiv tərəfini xarakterizə edir.

Cinayətin obyekti başlıca olaraq həmin maddənin CM-nin Xüsusi hissəsinin sistemində tutduğu yer ilə müəyyən edilir (mülkiyyət əleyhinə olan cinayətlər, ədalət mühakiməsi əleyhinə olan cinayətlər və s.). Cinayətin subyektinin ümumi əlamətləri – cinayət məsuliyyətini əmələ gətirən yaş, anlaqlıq – CM-nin Ümumi hissəsinin müvafiq maddələrində (CM-in 2, 3, 14, 20, 25, 26, 31-ci maddələri) nəzərdə tutulmuşdur, konkret cinayətin tərkibini ifadə edən dispozisiyada isə subyektin xüsusi əlamətləri göstərilir (məsələn, vəzifəli şəxs, müstəntiq, prokuror, hakim, şahid, zərərçəkmiş şəxs, ekspert). Cinayətin obyektiv tərəfini – hərəkətin (hərəkətsizliyin) özünü və onun nəticələrini, habelə cinayətin subyektiv tərəflərini (təqsirin forması, motivi, məqsədi) xarakterizə edən əlamətlər bu cinayəti nəzərdə tutan normanın dispozisiyasında göstərilir. Bu əlamətlərin birinin olmaması şəxsin hərəkətlərində bütövlükdə cinayət tərkibinin olmamasına sübutdur və həmin cinayət məsuliyyətinin aradan qaldırır. Cinayət hərəkəti sona çatdırıldıqda da (cinayətə hazırlıq və cinayətə qəsd), habelə iştirakçılıq zamanı da cinayət tərkibi olur. Cinayət etməkdən könüllü imtina cinayət tərkibini istisna edir.

Cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə görə cinayət tərkibləri fərqləndirilir: əsas tərkiblər; məsuliyyəti yüngülləşdirən halı nəzərdə tutan tərkiblər; məsuliyyəti ağırlaşdıran halı nəzərdə tutan tərkiblər; məsuliyyəti xüsusilə ağırlaşdıran halı nəzərdə tutan tərkiblər.

Əsas tərkiblər elə tərkiblərdir ki, belə tərkiblərdə məsuliyyəti ağırlaşdıran, yaxud da məsuliyyəti yüngülləşdirən halları xarakterizə edən tərkib əlamətləri nəzərdə tutulmur. Əmlakı oğurlama (CM 177.1-ci maddə), həmçinin qəsdən adam öldürmə (CM 120.1-ci maddə) cinayətlərini misal göstərmək olar. Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürmə (CM 122-ci maddə), zəruri müdafiə həddini aşmaqla adam öldürmə (CM 123-cü maddə) nəzərdə tutan tərkiblər məsuliyyəti yüngülləşdirən halı olan tərkiblərdir. Bu tərkiblərin hər birinin əsasında qəsdən adam öldürmənin tərkib əlamətləri (CM-in 120.1-ci maddəsi) – əsas tərkib durur.

Məsuliyyəti ağırlaşdıran halı olan tərkiblər də əsas tərkiblərin köməyi ilə yaradılır. Məsələn, qəsdən adam öldürmə cinayət tərkibinə – əsas tərkibə məsuliyyəti ağırlaşdıran bir sıra halları xarakterizə edən əlamətləri daxil etməklə CM-in 120.2-ci maddəsində nəzərdə tutulan məsuliyyəti ağırlaşdıran halı olan tərkiblər müəyyən edilmişdir.

Cinayətin elementlərinin səciyyələndirmə üsuluna görə, yaxud tərkib əlamətləri quruluşunun xarakterinə görə cinayət hüquq elmi cinayət tərkiblərinin üç növünü fərqləndirir: 1) sadə; 2) mürəkkəb; 3) alternativ.

Sadə cinayət tərkibləri bir obyektə qəsd edən konkret cinayət əməllərini səciyyələndirir Əmlaka ziyan vurma (CM 184-cü maddə), qəsdən adam öldürmə (CM 120.1-ci maddə) və s. bu kimi tərkiblər sadə tərkiblərə misal olaraq göstərmək olar.

Mürəkkəb cinayət tərkibləri iki obyekti, iki və ya daha artıq hərəkəti, bir-biri ilə bağlı olan nəticəni

nəzərdə tutur. Məsələn, Quldurluq (CM 181-ci maddə) cinayəti eyni vaxtda həm mülkiyyətə, həm də şəxsiyyətin həyat və ya sağlamlığının təhlükəsizliyi ilə bağlı münasibətlərə qəsd edir.

Alternativ cinayət tərkiblərini nəzərdə tutan normaların dispozisiyalarında eyni hüquqlu iki və ya daha artıq kriminal hərəkət göstərilir. Dispozisiyada göstərilən hərəkətlərdən birinin törədilməsi məsuliyyətin yaranması üçün əsas olur. Məsələn, CM-in 274-cü maddəsi dövlətə xəyanətə görə məsuliyyət müəyyən edir. Bu maddənin dispozisiyasında sadalanan hərəkətlər (hərəkətsizlik) alternativ xarakterlidir (6, 128-129).

Cinayətin obyektiv cəhətini xarakterizə edən, tərkibə daxil edilən əlamətlərin kombinasiyasına görə cinayət tərkiblərinin üç növü fərqləndirilir: 1) maddi tərkiblər; 2) formal tərkiblər; 3) kəsik tərkiblər.

Misal olaraq, maddi tərkiblərə CM-in 263-cü maddəsini, formal tərkiblərə CM-in 321.1-ci maddəsini, kəsik tərkiblərə isə CM-in 217-ci maddəsini göstərmək olar. Qeyd edək ki, əməllərin kriminallaşdırılması ilk növbədə onların ictimai təhlükəlilik əlamətinə əsaslanır. Buna əsasən də cinayətlərə görə məsuliyyət müəyyən edən tərkiblər hansı quruluşa (maddi, formal, kəsik) malik olmasından asılı olmayaraq, onların əsasında cinayətlərin maddi anlayışı durur.

Demək, cinayət məsuliyyətinin əsasına ancaq konkret əməldə hərəkət və ya hərəkətsizlikdə ifadə olunan cinayətkar davranış xidmət edə bilər. Şəxsiyyətin cəmiyyət əleyhinə olan baxışları, yaxud fikir və düşüncələri və digər mənəvi mənfi xassələri cinayət məsuliyyətinin əsasını təşkil edə bilməz. Cinayət qanunu (Cinayət Məcəlləsi) "əməl", "hərəkət", "fəaliyyət", "davranış" terminlərini xatırlatmaqla yanaşı, cinayətlərin insan fəaliyyətinin bütün növlərini onların mürəkkəbliyindən asılı olmayaraq təşkil etməsini də özündə ehtiva edir (5, 52).

Bu Məcəllə ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir (CM maddə 19). Yəni cinayət məsuliyyətinə cəlb etməyə imkan verən müəyyən yaş həddi olmalıdır. CM-nin 20.1-ci maddəsinə görə cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. CM-nin 20.2-ci maddəsinə əsasən on dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə (maddə 120), adam oğurlamağa (maddə 144), terrorçuluğa (maddə 214), adamları girov götürməyə (215) ağırlaşdırıcı hallarda xuliqanlığa (maddə 221.2 və 221.3) və s. cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilir.

Yuxarıda qeyd edilən maddənin məzmunundan belə nəticə çıxır ki, 14 yaşından 16 yaşına qədər yetkinlik yaşına çatmayanlar qəsdən törədilən cinayətlərə görə məsuliyyət daşıyırlar. Bununla belə, bir sıra cinayətlərə görə cinayət məsuliyyəti şəxsin yalnız 18 yaşına çatması ilə əmələ gəlir. Məsələn, hərbi xidmət keçməkdən boyun qaçırma (CM, maddə 321) və s.

Anlaqlılıq – şəxsin öz hərəkətlərini ölçüb-biçmək və onlara rəhbərlik etmək qabiliyyətinin olmamasında, yəni ictimai-təhlükəli əməli törətdiyi zaman xəstəlik vəziyyətində olmasında ifadə olunur. Cinayət Məcəlləsinin 21-ci maddəsinin 1-ci hissəsinə əsasən ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Qüvvədə olan cinayət qanunvericiliyi patoloji sərxoşluq istisna olmaqla, fizioloji sərxoşluq vəziyyətində cinayət törətmiş şəxsləri anlıqlı hesab edir. Cinayət Məcəlləsinin 23-cü maddəsinə əsasən, səbəbindən asılı olmayaraq (alkoqollu içkilərin qəbulu, narkotik vasitələrdən və ya digər güclü təsir edən maddələrdən istifadə nəticəsində) sərxoş halda cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad olunmur. Demək, adi sərxoşluq vəziyyətində cinayət törətmiş şəxs (dərəcəsindən asılı olmayaraq) anlaqlı hesab olunduğuna görə, cinayət məsuliyyəti daşıyır.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi yalnız fiziki şəxsləri cinayətin subyekti kimi tanıyır. Hüququ şəxslər cinayətin subyekti hesab edilmirlər. Lakin Azərbaycan Respublikasının 7 mart 2012-ci il tarixli Qanunu ilə CM-ə 15-2-ci fəsli əlavə edilmişdir. Bu fəslin normalarında dairəsi konkret müəyyən olunan fiziki şəxslərin törətdikləri cinayətlərlə bağlılığı olan hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi nəzərdə tutulmuşdur (6, 58).

Hazırda qüvvədə olan CM-də qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalətlilik və humanizm kimi prinsiplər təsbit edilmişdir (7). Bu o deməkdir ki, respublikamızda cinayət-hüquq yaradıcılığı və qanunun praktikada tətbiqi fəaliyyəti ancaq sözü gedən prinsiplərə söykənir. Bunun bariz nümunəsi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanında Cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması məsələsinin xüsusi yer almasıdır. Fərmanın başlıca məqsədi məhkəmə təcrübəsinin stabilləşdirilməsi, məhkəmə aparatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması, məhkəmə icraatının və məhkəməyə müraciət qaydalarının təkmilləşdirilməsi sahəsində islahatları genişləndirməkdir. Fərmanda həmçinin cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə müvafiq qanun layihələrini hazırlanması nəzərdə tutulmuşdur (8).

Xüsusi olaraq qeyd edək ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən hər hansı bir cinayət əməli qanunun müvafiq maddəsi ilə cəzalandırılır. Bununla yanaşı, əmənin ictimai təhlükəlilik dərəcəsi də fərqləndirilir. Törədilən əmənin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması təqdirəlayiqdir. Həmçinin cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi daha münasibdir.

Böyük ictimai təhlükə törətməyən cinayətlər və az ağır cinayətlərə görə sanksiyaların yumşaldılması, əsasən mülkiyyət və iqtisadi fəaliyyət sahəsi ilə bağlı bəzi cinayətlərin dekriminallaşdırılması məqsədəmüvafiqdir. Eyni zamanda azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi təqdirəlayiqdir.

Nəticə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində mövcud olan cinayət tərkibinin bütün əlamətlərini özündə əks etdirən əmənin törədilməsi cinayət məsuliyyətinin əsasıdır. Qanunverici cinayət-hüquqi norma adlandırılmış əsas problemini qəti olaraq həll edib. Orada birbaşa qeyd edilir ki, şəxsin əmənində bu Məcəllədə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətləri olduğu halda cinayət məsuliyyətinə cəlb olunur. Deməli, cinayət tərkibinin bütün əlamətlərini özündə əks etdirməyən və ya Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş tərkibin heç bir əlamətini ehtiva etməyən əməl onu törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsas ola bilməz. Əgər bu, baş verirsə, bununla da Cinayət Məcəlləsinin və cinayət məsuliyyətinin prinsipləri pozulur: qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 3-cü maddəsinə uyğun olaraq: cinayət məsuliyyəti insanın fikrinə, əqidəsinə və psixi vəziyyətinə görə deyil, ancaq ictimai-təhlükəli əmələ görə, başqa sözlə, insanın zahiri aləmdə təzahür edən iradi davranış aktına görə yaranır; ictimai-təhlükəli əməli törətməkdə təqsirli olan şəxs cinayət məsuliyyətinə alınır, cəzalandırılır; cinayət məsuliyyəti insanın ancaq cinayət qanununda nəzərdə tutulan əməli törətməsinə görə yaranır; törədilən cinayətə görə şəxsin əmənin, habelə şəxsiyyətinin mühakimə edilməsi və cəzanın tətbiqi ancaq dövlət adından məhkəmənin hökmü ilə təsbit edilir.

Ədəbiyyat

1. Уголовное право. Общая часть: Учебник / Н.А.Бабий, А.В.Барков, И.О.Грунтов и др.; Под Ред. В.М.Хомича, – Мн.: Тесей, 2002, 496 с.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: “Hüquq Yayın Evi”, 2019, 116 s.
3. Артемова В.Н., С.А.Балашенко, А.В.Барков и др. Основы права: Учебник/Под редакцией Г.Б.Шишко, 2006, 416 с.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. Bakı: “Hüquq Yayın Evi” nəşriyyatı, 2018, 724 s.
5. Qurbanov H. Əmənin cinayət olmasını istisna edən hallar (müasir və gələcəyə baxış kontekstində). Bakı: “Təhsil”, 2014, 176 s.
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. I hissə, Bakı, “Hüquq yayın Evi”, 2018-ci il, 704 s.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: “Hüquq yayın Evi”, 2017, 756 s.
8. president.az›articles//Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi... Azərbaycan Respublikası Prezidentinin Fərmanı ... Bakı şəhəri, 3 aprel 2019-cu il.

Leqal basis of criminal liability

Summary

It is clear from the article that the basis of criminal liability is the Commission of an act that reflects all the characteristics of a crime provided for by the Criminal code of the Republic of Azerbaijan. Criminal liability exists and is carried out only within the framework of criminal law relations.

The article deals with the basics of criminal responsibility, in particular, the concept of criminal responsibility, its basics – mainly the composition of the crime, the principles of criminal responsibility, research and application. The article analyzes the basics of criminal liability, which is the most seriously and merchant form of legal liability, and discusses the purpose, characteristics and types of criminal liability.

Правовые основы уголовной ответственности

Резюме

Из статьи ясно, что основанием уголовной ответственности является совершение деяния, отражающего все признаки преступления, предусмотренного Уголовным кодексом Азербайджанской Республики. Уголовная ответственность существует и осуществляется только в рамках уголовно-правовых отношений.

В статье рассматриваются основы уголовной ответственности, в частности, понятие уголовной ответственности, ее основы – в основном состав преступления, принципы уголовной ответственности, исследования и применения. В статье анализируются основы уголовной ответственности, которая является наиболее строгим и жестким формой юридической ответственности, а также обсуждаются цель, характеристики и виды уголовной ответственности.

DOI: 10.36719/2020/REK/01/118-121

Sübhan İlqar oğlu Şirinov
Bakı Dövlət Universiteti
subhan.shirinov@gmail.com

ƏMƏK HÜQUQUNDA ATTESTASİYANIN SUBYEKTLƏRİ

Açar sözlər: *attestasiya, hüquq münasibətləri, subyekt*
Key words: *certification, legal relations, subject*
Ключевые слова: *аттестация, правоотношения, субъект*

Giriş

Attestasiyanın subyekti həmişə əmək hüquq münasibətlərinin subyekti kimi çıxış edir. Lakin əmək hüquq münasibətlərinin bütün subyektləri deyil, yalnız vəzifəsi xüsusi siyahıda nəzərdə tutulanlar və ya ayrı-ayrı kateqoriya işçilərin attestasiyasını müəyyən edən normativ aktlarda birbaşa göstərilənlər attestasiyanın subyekti kimi çıxış edirlər. Məqalədə attestasiyanın subyektləri təhlil edilmiş, təklif və tövsiyələr irəli sürülmüşdür.

İşçilərin attestasiya yalnız işəgötürənin və ya müvafiq orqanın birtərəfli hərəkətləri deyil o hüquq münasibətləri sistemidir. Attestasiyaya bu aspektdən diqqət yetirdikdə ilk növbədə onun subyektlərini ayırmaq gərəkdir. Attestasiyanın iştirakçıları xüsusi hüquqi statusa, yəni normativ aktla müəyyən edilən hüquq, vəzifə və təminantlara malikdirlər. Prof. V.İ.Mironov qeyd edir ki, əmək hüququnun subyektləri bu sahənin predmetinə daxil olan əmək münasibətlərinin və onlarla sıx bağlı olan münasibətlərin qanunvericiliyin tələblərinə müvafiq surətdə hüquqi nəticələr doğuran hərəkətlər törətməyə qabil olan iştirakçılardır (12, s 93). Attestasiya öz növbəsində həm əmək münasibətləri və həm də onlarla sıx bağlı olan münasibətlərə aiddir. Prof. A.M.Qasımov qeyd edir ki, sırf əmək münasibətlərinin və onlarla bilavasitə bağlı olan münasibətlərin iştirakçıları qismində yalnız əmək sahəsində (muzdlu əmək sahəsində) status (əsas) hüquqların müəyyən sisteminə malik olaraq əmək müqaviləsi bağlamaqla onları realizə etmiş, yəni əmək hüquq münasibətlərinin və onunla bilavasit bağlı olan hüquq münasibətlərinin tərəfinə çevrilmiş şəxslər(vətəndaşlar) çıxış edə bilər (10, s 134-135). Attestasiyanın subyektləri həmişə əmək münasibətlərinin subyektləridir.

Attestasiyanın şamil edildiyi şəxslərin dairəsi genişdir, lakin bu məsələdə aydınlıq yoxdur. Hazırda işəgötürənlər attestasiya üzrə mərkəzləşdirilmiş normativ aktlar çərçivəsində attestasiya olunanların kateqoriyalarını özləri müəyyən edə bilərlər. Mərkəzləşdirilmiş akt olmadıqda işəgötürənlər lokal aktlar vasitəsilə attestasiya olunan kateqoriyaları müəyyən edirlər ki, bu da məqsədəuyğun hesab edilir, çünki bazar iqtisadiyyatı şəraitində işəgötürənə bu və ya digər işçinin tutduğu vəzifəyə və ya yerinə yetirdiyi işə nə dərəcədə uyğun olduğunu bilmək xüsusilə vacibdir.

Attestasiyadan keçməli olan işçilərin konkret dairəsi "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 97 №-li qərarı ilə müəyyən edilir (3).

Lakin bəzi kateqoriya işçilərin attestasiyasının keçirilməsi mərkəzləşdirilmiş qaydada, normativ aktlarlarda təsbit olunub.

1. Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Ədliyyə orqanlarında qulluq keçmə haqqında Qanunun 17.1-1ci maddəsinə görə yalnız müvafiq vəzifələrdə azı bir il çalışan ədliyyə orqanları işçilərinin attestasiyası keçirilə bilər. Hər bir ədliyyə orqanı işçisinin attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir. AR-in Nazirlər Kabinetinin 17 oktyabr 2017-ci il tarixli 445 nömrəli qərarını ilə təsdiqlənmiş "Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası"nın 1.7-ci bəndinə görə müvafiq vəzifədə bir ildən az qulluq keçən işçilər, stajorluq müddətində olan işçilər, uşağının 3 (üç) yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə çalışan işçilər və eyni vəzifədə azı üç dəfə attestasiya edilərək, tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş işçilərin attestasiyası keçirilmir (6).

2. Miqarasiya orqanlarının işçilərinin attestasiyası keçirilməsi Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə" və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 noyabr 2017-ci il tarixli 492 nömrəli qərarını ilə təsdiqlənmiş "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası" ilə tənzimlənir. Qaydanın 1.3-cü bəndinə görə miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə azı bir il çalışan miqrasiya orqanları işçilərinin attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir. Həmin Qayda attestasiyası keçirilməyən miqrasiya orqanlarının işçilərinin dairəsini belə müəyyən edir: bir vəzifədə beş ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan işçilər; hamilə qadınlar; uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər); tutduğu vəzifədə faktiki olaraq bir ildən az müddətdə qulluq keçən işçilər; eyni vəzifədə azı üç dəfə attestasiya olunaraq, tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş işçilər; vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlil olmuş işçilər; Xidmətin rəisi və onun müavinləri(8).

3. Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında" Əsasnamənin 56-cı bəndinə görə yalnız müvafiq vəzifədə azı 1 il xidmət edən və 5 (beş) ildə bir dəfədən çox olmayaraq vergi orqanının vəzifəli şəxslərinin attestasiyası keçirilə bilər. Attestasiya keçirilməyən vergi orqanının vəzifəli şəxslərinin dairəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16 noyabr 2017-ci il tarixli 493 nömrəli qərarını ilə təsdiqlənmiş "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası Qaydası"nda öz əksini tapmışdı. Qeyd olunan Qaydanın 1.5-ci bəndinə görə attestasiyaya cəlb edilməyən vəzifə şəxslər: Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş vəzifəli şəxslər; bir vəzifədə (peşədə) 5 (beş) ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan vəzifəli şəxslər; hamilə qadınlar; uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər); bir vəzifədə (peşədə) azı üç dəfə attestasiya olunaraq, tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş vəzifəli şəxslər(5).

4. "Diplomatik xidmət haqqında" 8 iyun 2001-ci iltarixli Qanunun 14.1-1 ci maddəsinə görə, yalnız müvafiq vəzifələrdə azı bir il çalışan diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin attestasiyası keçirilə bilər. Hər bir diplomatik xidmət əməkdaşının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxsin attestasiyası beş ildə bir dəfədən çox olmayaraq keçirilir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli 499 nömrəli qərarını ilə təsdiqlənmiş "Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin xidməti attestasiyasının keçirilməsi Qaydası"nın 15-ci bəndinə görə Aşağıdakı diplomatik orqan əməkdaşları attestasiyadan keçirilmirlər: diplomatik nümayəndəlikdən və ya konsulluqdan geri çağırıldıqdan sonra bir ildən az müddətdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində müvafiq vəzifəni tutanlar; staj və sınaq dövründən sonra daimi qulluqda bir ildən az müddətdə xidmət keçənlər vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) alanlar və əlil olanlar; Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlara layiq görülənlər; bir vəzifədə beş ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan işçilər; hamilə qadınlar; uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifəni tutan qadınlar (uşağını təkbaşına böyüdən kişilər); eyni vəzifədə azı üç dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilənlər(4).

5. Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin 115-ci bəndinə əsasən Yalnız müvafiq vəzifələrdə azı bir il çalışan gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyası keçirilə bilər. Hər bir gömrük orqanının vəzifəli şəxsinin beş ildə bir dəfədən çox olmayaraq attestasiyası keçirilə bilər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 noyabr 2017-ci il tarixli 517 nömrəli qərarını ilə təsdiqlənmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nın 1.4-cü bəndinə görə, Gömrük orqanlarında hər bir vəzifəli şəxs 5 (beş) ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilir. Əsasnamə və Qayda da müvafiq olaraq "keçirilə bilər" və "keçirilir" ifadələrindən istifadə olunur. Bu da öz növbəsində təcrübədə mütləq qaydada attestasiyanın keçirilib keçirilməməsi sualına aydınlıq gətirmir. Qaydanın 1.7-ci bəndinə görə eyni vəzifədə azı üç dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş vəzifəli şəxslər attestasiya olunmurlar (7).

6. Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 45-ci bəndinə görə Hər bir daxili işlər orqanları əməkdaşının attestasiyası beş ildə bir dəfədən çox olmayaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 noyabr 2017-ci il tarixli 517 nömrəli qərarını ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın 1.4 bəndinə vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlil olmuş əməkdaşlar; Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş əməkdaşlar; hamilə qadınlar; uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər); bir vəzifədə faktiki olaraq bir ildən az müddətdə çalışan əməkdaşlar; eyni vəzifədə azı üç dəfə attestasiyadan keçirilərək, tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş əməkdaşların attestasiyası keçirilmir (2).

7. Azərbaycan Respublikasının 22 iyun 2010-ci il tarixli Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında Qanunun 17.1 maddəsinə görə "...fövqəladə hallar orqanlarında kiçik, orta və böyük rəis heyəti vəzifələrində çalışan əməkdaşların attestasiyası keçirilir". Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 iyun 2018-ci il tarixli 270 nömrəli qərarını ilə təsdiqlənmiş "Fövqəladə hallar orqanları əməkdaşlarının attestasiyası Qaydası"nın 1.2-ci bəndinə görə Hər bir fövqəladə hallar orqanlarının əməkdaşının 5 (beş) ildə bir dəfədən çox olmayaraq attestasiyası keçirilə bilər. Qaydanın 1.4-cü bəndinə görə hamilə qadınların, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınların (uşağını təkbaşına böyüdən kişilərin); tutduğu vəzifədə faktiki olaraq 1 (bir) ildən az müddətdə qulluq keçən əməkdaşların attestasiyası keçirilmir(9).

Bəzi sosial kateqoriyaya aid işçilərin attestasiyasının keçirilməməsi AR ƏM-nin 66-cı maddəsində nəzərdə tutulub:

- vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlil olmuş işçilər;
- Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş işçilər;
- bir vəzifədə (peşədə) beş ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan işçilər;
- hamilə qadınlar;
- uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);
- yaşı 18-dən az olan işçilər;
- bir vəzifədə (peşədə) faktik olaraq bir ildən az müddətdə çalışan işçilər;
- eyni vəzifədə (peşədə) azı üç dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş işçilər;
- kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutulan hallarda attestasiya olunmayan işçilər;
- Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilər;
- Azərbaycan Respublikasında dövlət ümumi təhsil və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində işləyən təhsilverənlər (1).

Bəzi alimlər, xüsusilə L.N.Anisimov və V.N.Tolkunova qeyd edirlər ki, daha az müdafiə olunan kateqoriya işçilərin attestasiyasına qadağa onların əmək hüquqlarına əlavə təminat kimi baxılmalıdır (11, s 29-30; 13, s 137).

AR ƏM-nin 66-cı maddəsində o cümlədən yuxarda qeyd olunan digər normativ hüquqi aktların mətnlərində bir vəzifədə bir ildən az müddətdə çalışan işçilər attestasiyadan keçirilmir. Attestasiyanın subyekti ola bilmək üçün tələblərdən biri də işçinin yoxlanılacağı vəzifədə azı bir il işləmiş olmasıdır. Görünür, burada

AR ƏM-nin 51-ci maddəsi ilə ziddiyyət var. Fikrimizcə, işin üç (altı) ayı qurtardıqdan sonra işçi tutduğu vəzifəyə uyğun gəlir və sınaq müddəti ərzində işçi özünü doğrultmaması əsası ilə vəzifədən azad etmək olmaz. Sınaq işçinin peşəkarlıq səviyyəsini, müvafiq əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədi ilə müəyyən edilir, attestasiya zamanı isə peşəkarlıq səviyyəsinin yoxlanılması, ixtisasına, sənətinə müvafiq olaraq tutduğu vəzifəyə (peşəyə) uyğun olub olmaması müəyyənləşdirilir, yəni bu parametrlər üzrə sınağın və attestasiyanın hüquqi təbiəti üst-üstə düşür.

Buradan belə çıxır ki, sınaq və attestasiyadan azad olan müddətlər də eyni olmalıdır. Yəni üç (altı) ay iş kifayətdir ki, işçini attestasiyaya cəlb olunanların dairəsinə daxil etmək mümkün olsun.

Nəticə

Məlumdur ki, hər bir münasibətdə onların fəal iştirakçıları kimi səciyyələndirilən subyektlər mövcuddur. Attestasiyanı tənzimləyən qanunvericilik inkişaf etdikcə onun subyektlərinin dairəsi də dəyişir və genişlənir. Bazar münasibətlərinin bərqərar olduğu müasir dövrdə bəzi ixtisaslar və peşələr öz əhəmiyyətini artırmış, bəziləri isə əksinə azaltmışdır. Buna görə də, attestasiya olunan subyektlərin dairəsi bütün bunlar nəzərə alınmaqla müəyyən edilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi
2. "Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
3. "Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
4. "Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin xidməti attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
5. "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası Qaydası" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
6. "Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
7. "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
8. "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
9. "Fövqəladə hallar orqanları əməkdaşlarının attestasiyası Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
10. Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Letterpress nəşriyyat evi, 2016, 840 s.
11. Анисимов Л.Н. Расторжение трудового договора. Монография. М.: Бератор-Пресс, 2003, 299 с.
12. Миронов В.И. Трудовое право: Учебник для вузов. СПб., Питер, 2009 864 с.
13. Толкунова В.Н. Трудовое право. Курс лекций. М.: ООО ТК Велби, 2002, 320 с.

Subjects of certification in labor law

Summary

İbn Sinaya görə, bütün bu hadisələr arasında məqsədəuyğunluq mövcuddur. Hər varlıq bir məqsəd üçün yaradılmış, ən sadə orqanizmlərdə belə istisna yoxdur. Səbəb-nəticə əlaqəsi baxımından araşdırıldığında da səbəblər zahiri görüntülərdir. Məsələn, eşitmə hadisəsində qulaq və beyin zahiri səbəbdir. Bütün bu faktları var edən, səbəbləri yaradan mütləq varlıqdır. Əgər səbəblər ortadan qalxdığında görmə hadisəsi reallaşmırsa görməyi səbəbləri ilə var edən uca bir varlıq var deməkdir. Bütün səbəblərin səbəbi bu hüdudsuz varlıqdır. Mütləq inayət sahibi olan Allah yaratdıqları varlıqlar arasında birə-bir əlaqələr var edərək insanı düşüncəyə və təşəkkürə istiqamətləndirir. Belə ki canlılarda sinir sisteminin sərt sümüklər arasında qorunması təsadüf ola bilməz. *"Yalnız burada, əgər bütün sinirlər beynindən çıxsaydı, çox böyük olması lazım olduğunu ifadə etməliyik. Məsələn əl və ayaqlara gedən sinirlər bu vəziyyətdə daha uzun bir yol qət etmək məcburiyyətində qalacaqdılar və beləcə daha çox incimə təhlükəsiylə qarşılaşama riski daha çox olacaq və eyni zamanda ayaq və ombanın böyük əzələləridə sıxılma və boşalma hərəkəti icra edə bilməyəcək qədər zəif düşəcəklərdi. Bundan ötəri uca Allah beynin alt qisimindən nurğanı çıxararaq, böyük bir lütf etmiş oldu. Onurğa iliyi beyindən-qaynaqdan çıxan bir kanal kimidir, belə ki sinirlər beyindən çıxaraq, bu sinirləri qəbul edən onurğa beyin orqanların beyinə yaxınlaşması təmin etdi. Bu səbəblərdən dolayıdır ki, uca Allah onurğa deyilən sərt sümükdən sərt bir kanala onurğa iliyi yerləşdirmək sürəti ilə onun xüsusi bir formada qorunmasını təmin etmişdir."*

Göründüyü kimi filosof İbn Sina tibbin qanunları deyə adlandırdığı bu əsərində zaman zaman tibbi mövzular üzərinə şərhlər də edərək tibb fəlsəfəsini davam etdirir. Bir mənalı olaraq İbn Sina insan anatomiyasının dizayn

edicisi olaraq mütləq yaradıcıya işarə edir. Bədənimizdəki daxili orqanlarımızın qorunması ila əlaqədar olaraq da bu təsbitləri edərək fəlsəfi şərhlər əlavə edir. *"Qabırğalar sinə onurğası ilə birləşirlər və ağciyərləri sanki bir qəfəs kimi qucaqlayırlar. İlk on bir sinə sümüyünün həm spinal çıxıntıları, həm də transvers çıxıntıları (transversprocess) vardır, ancaq on ikinci sinə sümüyünün heç bir transvers çıxıntısı yoxdur. Sinə sümüyünün transversal çıxıntıları, həyati orqanların yerləşdiyi nahiyyələrdə daha böyük və daha güclü olduqları üçün fərqli ölçülərə malikdir. Bu sinə sümüklərinin transvers çıxıntıları, digər sinə sümüklərin qabırğalarla birləşən transvers çıxıntıları ila müqaisə etdikdə, onlara nisbətlə çox daha güclü və daha qalındır. Beləcə, üstdən yeddi sinə sümüyün spinal çıxıntıları çox böyük və eninə çıxıntıları (transvers) ürəyi qorumaq üçün qalındır. "* Bütün bu faktları nəzər alsaq, uyğunlaşma və nizama şahid olarıq. Çox dəqiq hesablamalarla var edilmiş varlıqları mütləq bir yaradıcının qənaətinə verməsək təsadüfün əsəri olaraq qəbul etmək məcburiyyətində qalarıq. Belə bir vəziyyətdə ağıl bu paradoksu qəbul edə bilməz.

İbni Sina varlıqların yaradılışı ilə əlaqədar çox əhəmiyyətli detallara nəzər yetirərək tibb ilə əlaqədar fəlsəfi yanaşmalarını dərinləşdirmişdir. Var olan varlıqların hər birinə aid yaradılış formaları necədir?. Sualına yenə özü şərhlərində cavablar tapır. Onurğanın müxtəlif sümüklərdən təşkil olunması izah edilərkən, məqsəd müəyyən bir ölçüdə də olsa izah olunur. Burada qeyd etmək lazımdır ki, onurğanın fibroz həlqələri mümkün olan ən yaxşı formada yəni silindrik sütun şəklində olduğundan bir tək parça kimi hərəkət edir, belə ki, sarsıntı və travmalara qarşı bədənin arxa qisimini qoruyur. İbni Sinaya aid olan bu cür ifadələrə Qəzalidə də rast gəlmək mümkündür. İbni Sina ombanın (femur) baş hissəsindəki estetik və rahat quruluşu izah edərkən mövcud vəziyyətin xaricindəki ehtimalları canlandırmışdır *"Əgər femurun başı normal vəziyyətdə olduğu kimi, içə doğru meyletməmiş olsaydı, deformasiya yaranardı və normal tarazlıq və qıçlar üzərində simmetrik duruş təmin edilməzdi. O şərh edir: Yaradılanların ən yaxşı formada yaradılması mütəal varlığın mütləq məlumat sahibi olmasını tələb edir. Orqanizmlər arasındakı uyğunluğu yaradan, onların ehtiyaclarını bilən və qarşılayan eyni şəxsdir."* Buradan da görüldüyü kimi filozofumuz, yaradıcının yardımını, inayətini xatırladaraq insanların yaradılışını fərq etmələrinin lazım olduğunu və varlıqdakı gözəlliyin arxasında inayət sahibinin görülməsinin lazım olduğunu ifadə edir.

Nəticə

Fəlsəfə, həyatın sorğulanması, görünüşlərdən çox varlıqların pərdə arxasının araşdırılmasıdır. Fəlsəfə əlaqəli olduğu elmlərin öz strukturlarına müdaxilə etmə həvəsində deyildir. Davamlı bitməyən bir araşdırma enerjisini bütün elmlərlə paylaşma səyindədir. Fəlsəfənin quru və lazımsız proses olduğu qəbulu son dərəcə səhv bir anlayışdır. Fəlsəfi yanaşmalar vasitəsilə elmi konseptual araşdırmalar əldə edə bilərik. Tibb fəlsəfəsinə nəzər yetirdikdə isə insanın öz maddi və mənəvi quruluşu müzakirə obyektinə çevrilir. Bu dualitetin maddi qisimində insanın bütün orqanizminin fəlsəfi analizləri başa düşülür. Məsələn hüceyrəni əsas götürərək araşdırılmasındakı zehni fəaliyyətlər və düşüncələr nəticəsində hüceyrənin pərdəsindən nüvəsinə qədər, estetik quruluşun hal, xüsusiyyət üzərindəki heyrət və heyranlıq tibb fəlsəfəsinin mənbəsini təşkil edir. Digər tərəfdən, qanın axıcılıq və hüceyrələr arası köməkləşmələri, qidalanma və həyatın davamı üçün yaradılmış olan sistematik nizamın mükəmməlliyi fəlsəfi suallara mənbəlik edərək tibb fəlsəfəsinin əsas anlayışlarını doğurur. Bütün bədənin analizinin nəticəsində əldə edilən məlumatlarla birlikdə tibb fəlsəfəsinə aid anlayışlar və suallar meydana çıxır. Eyni anatomik quruluş üzərində çox fərqli fəlsəfi görüşlər ortaya çıxa bilər. Əhəmiyyətli olan tibbi fəlsəfi fikirlərin yaradılması və əhəmiyyətinin qavrana bilməsidir. Fəlsəfə sualları ilə birlikdə başlayan tibbi sorğulamalar da birbaşa tibb fəlsəfəsinin inkişafına gətirib çıxarır. Hər cür intellektual fəaliyyətdə fəlsəfə və fəlsəfi əsasların töhfəsi var. Fəlsəfənin fikri fəaliyyət olduğunu daha əvvəl də ifadə edilmişdik. İndi bir robotun istehsalını və ya tibbdə istifadə edilən elektron bir dövrəni əsas götürək, robotun ilk öncə bir beyin tərəfindən hazırlanması, daha sonra təcrübi olaraq layihənin reallaşması lazımdır. Burada biz fikri fəaliyyət olaraq dizaynı görürük ki, elə fəlsəfə bu nöqtədə başlayır və elmə fikri əsasları formalaşdırmada köməkçi olur.

Ədəbiyyat

1. İbn Sina (2004). *Metafizik*, çev. Ekrem Demirli, Ömer Türker, İstanbul: Litera Yayıncılık.
2. İbn Sina (2004). *Risaleler*, çev. Alparslan Açık Genç, M. Hayri Kırbağoğlu, Ankara
3. TOPDEMİR, Hüseyin Gazi (2009). *İbni Sina, Doğunun Sönmeyen Yıldızı*, İstanbul: Say Yayınları.
4. İbn Sina (2006). *Sofistik Deliller - Safsata,* çev. Ömer Türker, İstanbul: Litera Yayıncılık.
5. Ə.N.PAŞAYEVA "İbn sinanın aristotel məntiqinə gətirdiyi yeniliyi və bunun islam mütəfəkkirlərinə təsiri" Bakı Universitetinin Xəbərləri 2015 № 2, 98-107.

Ibn Sina and the medical philosophical concept
Summary

In the article Ibn Sina and the philosophical concept of medicine are discussed. Uzbekistan's Bukhara city in the world from the current Ibn Sina (980) in his time been faced with various social problems. Apart from medicine, Ibn Sina was also interested in other sciences of the time. Physics, psychology, philosophy and religion has taken elmlərilə works related items.

The concept of medical philosophical covers the explanations of philosophy about medical science. Because Philosophy philosophically developed for each science point of view, he has expressed his opinions about the medical science. Ibn Sina made deeper philosophical approaches to medicine, addressing very important details about the creation of beings.

Ibn Sina ve tibbi felsefe kavrami
Özet

Makalede İbn Sina ve tıp felsefi kavramı ele alınmaktadır. Özbekistan'ın şimdiki Buhara kentinde dünyaya gelen İbni Sina (980) yaşadığı dönemde çeşitli sosyal sorunlarla karşılaşmıştır. İbn Sina tıptan başka zamanın diğer bilimleri ile de ilgilenmiştir. Fizik, psikoloji, felsefe ve din elmlərilə ilgili eserler kaleme almıştır.

Tıbbi felsefi kavramı felsefenin tıp ilmine dair açıklamalarını kapsamaktadır. Felsefe her bilime yönelik felsefi bakış açıları geliştirdiğinden, tıp bilimi hakkındaki görüşlerini de ifade etmiştir. İbni Sina varlıkların yaratılışıyla ilgili çok önemli ayrıntılarına değinerek tıpla ilgili felsefi yaklaşımları derinleştirmiştir.

DOI: 10.36719/2020/REK/01/134-138

Günəş Əmrayıl qızı Cəbrayılova
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universiteti
g.jabrayilova@yandex.ru

MÜXTƏLİFLİKLƏR DİALOQUNDA TOLERANT MÜNASİBƏTLƏRİN FORMALAŞMASI

Açar sözlər: *şəxsiyyətlərarası münasibətlər, şəxsiyyət modeli, fərqlilik, tolerant, intolerant, mədəni plüralizm, "başqası"*
Key words: *interrelationships, model of personality, distinction, tolerance, intolerance, cultural pluralism, "other"*
Ключевые слова: *межличностные отношения, модель личности, различие, толерантность, нетерпимость, культурный плюрализм, «другое»*

Giriş

Cəmiyyətin ümumi rifahı, onun tolerantlıq səviyyəsi məhz hər bir insanın mədəni səviyyəsindən asılıdır. Hər bir insanın mədəniyyəti nitq mədəniyyətindən, öz fikirlərini ifadə etmək bacarığından başlayır. Bəzən insanlar işlətdikləri sözlərin mənasına səhlənkar yanaşaraq çox danışır, sözlərin çoxluğu ilə deyilən fikrin mənasını dəyərsizləşdirirlər. Bildiyimiz kimi, hər bir söz həmsöhbətin şüuruna və təhtəlşüuruna təsir vasitəsidir. Tolerantlığa yanaşmada mədəni-tarixi və semantika fərqləri vardır. Müxtəlif mədəniyyətlərdə tolerantlıq fərqli anlaşılır, bu da əsasən, xalqların tarixi təcrübəsindən asılıdır. Yerli mədəni konteksdə dözümlülüyün xüsusi cəhətləri mərhəmət və lütfdür. Latın etimoloji lüğətlərdə, Avropa dilləri lüğətlərində tolerantlıq dözüm və dəstək kimi izah edilir. İngilis dilində Oksford lüğətinə müvafiq olaraq, tolerantlıq "şəxsiyyəti və ya əşyanı etirazsız qəbul etməyə hazır olma bacarığı", fransız dilində "başqasının azadlığına, fikirlərinə, davranışına, siyasi və ya dini baxışlarına hörmət etməkdir". Çin dilində isə tolerant olmaq, "başqalarına münasibətdə insani olmaq, insaniliyi göstərməkdir", fars dilində "dözüm, mətinlik, barışa hazır olmaqdır".

Tolerantlıq sosial münasibətlərin yeni tipi kimi müxtəlif mədəniyyətlər və sivilizasiyaların həm qarşılıqlı əlaqələri sahəsində, həm də transformasiya mərhələsindəki sivilizasiyaların öz daxilində mövcud olan bir problemdir. Cəmiyyətdə xeyli sosial, o cümlədən marko və mikro səviyyədə münaqişələrin mövcudluğunun inkarı nəticəsində həll edilməməsi, güclü siyasi və dövlət təzyiqinin dağılmasından sonra dağıntıya, nihilizmə və dözülməzliyin nəhəng sosial enerjisinin azad olmasına gətirib çıxarda bilər.

“Sosial-mədəni tolerantlıq” şəxsiyyətin mənəvi keyfiyyətidir, digər insanların etnik, milli və ya mədəni mənsubiyyətindən asılı olmayaraq, onlara dözümlü münasibəti ilə səciyyələnir. Sosial-mədəni tolerantlıq fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlü münasibətdir, müxtəlif mədəni qrupların və ya onların nümayəndələrinin xüsusiyyətinə münasibətdə zəruridir. O, özgüvənin və öz mövqeyinin etibarlılığını anlamağın, ideya cərəyanının hamı üçün açıq olmasının əlamətidir, digər fikirlərlə müqayisədən çəkinmir və mənəvi rəqabətdən qorxmur. Beləliklə, şəxsiyyətin inkişafının iki yolu müəyyən edilir: intolerant və tolerant. İntolerant yol özünün üstünlüyü, məsuliyyəti başqalarının üzərinə qoymaq, təhlükə hissi, güclü hakimiyyət arzusu ilə seçilir. O biri yol azad insanın yoludur, həm özünü, həm başqalarını tanıyır. Özünə yaxşı münasibət ətrafdakı insanlara və dünyaya müsbət münasibətlə yanaşı mövcuddur. Tolerantlıq-intolerantlıq həmişə bir etnik qrupun digərinə münasibəti problemidir. Məhz buna görə tolerantlığı psixoloji cəhətlər sırasına aid edirik, çünki bu cəhətlər qruplararası qarşılıqlı əlaqənin və etnik eyniləşmənin transformasiyasının tədqiqatında xüsusilə böyük əhəmiyyət kəsb edir. Tolerant insanlar digər insanlarla münasibətlərə və əlaqələrə istiqamətlərlə və eyni zamanda nisbi müstəqilliklə xarakterizə olunur, bu zaman özlərinin və ətrafdakıların maraqları arasında balansı saxlamağa çalışırlar. XX əsrin ortalarında Amerika psixoloqu Qordon Olport şəxsiyyətin tipologiyasını tolerantlıq-intolerantlıq müstəvisində qurmuşdu. “Qordon Olport, A.Maslounun araşdırmalarında yetkin, özüaktuallaşan şəxsiyyətlərdə özünəyetərlilik, müstəqillik, digər insanlarla harmonik münasibətlərin qurulmasına üstünlük verilməsi haqqında fikirləri görürük, halbuki tolerantlıq özüaktuallaşmanın zəruri şərti olsa da, kifayət şərti deyildir” [5, səh. 14]. “Tolerant və intolerant sınaq iştirakçıları arasındakı ən böyük fərqlər hakimiyyət dəyərinin əhəmiyyətində özünü göstərir. İntolerant sınaq iştirakçıları tərəfindən daha yüksək qiymətləndirilən hakimiyyət sosial status, insanlar və resurslar üzərində dominantlıq kimi qəbul edilir” [3].

Xeyirxahlığın dəyəri tolerant subyektlər üçün daha böyük əhəmiyyət kəsb edir, nəinki intolerant. Xeyirxahlıq “yaxınlarının rifahının qorunmasına və artırılmasına maraq və pozitiv qarşılıqlı əlaqə və affiliasiya ehtiyacından yaranan dəyər” kimi dərk edilir. [3, səh. 29]. Tolerant insanlar məsuliyyəti digər insanların üzərinə qoymur, onlar özləri məsuliyyət daşıyırlar. İntolerant insanlar həyatlarında və ətrafda baş verənlərə məsuliyyətdən boyun qaçırırlar. İntolerant şəxsiyyətlər dünyanı iki hissəyə ayırırlar: qara və ağ. Onlar üçün insanlar yaxşı və pisdir, həyatda yalnız bir düz yol vardır. Onlar insan qruplarını “özümüz” və “özgə” qruplarına ayırırlar. Onlar nəyəsə neytral münasibət bəsləyə bilmirlər, nəyisə ya təsdiqləyir, ya da inkar edirlər. Tolerant insan isə dünyanı müxtəliflikdə tanıyır və istənilən fikri dinləməyə hazırdır. Yumor hissi və öz üzərində gülmək bacarığı tolerant şəxsin əsas xüsusiyyətidir. Belə insan özünü başqalarından üstün hesab etmir. İntolerant insan nizamlı, güclü hakimiyyətə malik avtoritar cəmiyyətdə yaşamağa üstünlük verir. Tolerant insan azad, demokratik cəmiyyəti seçir. “Oxşar cəhətlərin təsvirini Reymond Kettelin 16-amilli şəxsiyyət modelində görürük. Tolerantlığın şəxsiyyət mənşəyi “emosional davamlılıq-davamsızlıq” (C amili), “tabelilik-dominantlıq” (E amili), “sərtlik-hissiyyatlılıq” (I amili), “etibaretmə-şübhələnmə” (L amili), “praktiklik-inkişaf etmiş təxəyyül” (M amili), “konservativlik-radikallıq” (Q1 amili) kimi şəxsi cəhətlər vasitəsilə göstərilə bilər. Araşdırmalarımızda bu şəxsi cəhətlər və şəxsiyyətin kommunikativ tolerantlıq səviyyəsi arasında əlaqə müəyyən edilmişdir” [4].

Tolerantlığın mədəni-fəlsəfi təhlili dominant sosial-mədəni xüsusiyyətlərin mədəni plüralizmin, etiqad dözümünün, müsbət özünü eyniləşdirmənin, fərdiliyin əhəmiyyətini aşkar etməyə imkan verdi. Tolerantlıqda sərhədlər genişdir, baş verənlər insana aid olmayana qədər, onun üçün önəm daşımır. Beləliklə, tolerantlıqda şəxsiyyətin həssaslıq həddi aşağıdır, yəni tolerantlıq reaksiyanın passiv forması kimi çıxış edir. Tolerant olmaq insanların xarici görkəminə, mövqeyinə, maraqlarına, davranışına, dəyərlərinə görə fərqləndiyini qəbul etmək, belə insanların öz fərdiyyətini qoruyub saxlamaqla yaşamaq haqlarının olduğunu anlamaq deməkdir. Fəlsəfi-mədəni anlamda tolerantlıq sivil dünya mədəniyyətinin zəngin müxtəlifliyinə hörmət etmək, onu tanımaq və adekvat dərk etməkdir, çünki bu, insan fərdiliyinin, şəxsi mədəniyyətinin özünüifadə və özünü tanıtma formalarıdır. Bu zaman “şəxsiyyətin keyfiyyətləri” və “başqasını”, yəni Mən olmayanı, məndən fərqlənəni, mənə oxşamayanı və s. tanımaq anlayışının müəyyən edilməsinə zərurət yaranır.

Tolerantlığın əsasları konstitusiyalarda göstərilir. Bu, cinsindən, irqindən, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq, sosial müavinətlərdən bərabər istifadə etmək, milli azlıqların dillərinin mədəniməxsusluğunu qoruyub saxlamaq və inkişaf etdirmək, dini etiqad məsələlərində azadlıq deməkdir, elə bir azadlıq ki, heç bir kəsin hüquqları və qanuni maraqları pozulmur. Dövlət tərəfindən belə ictimai normaların qoyulması ilə müxtəlif sosial qruplara mənsub olan insanların inancları qorunur. Bu zaman avtoritar cəmiyyətdə hakim elitanın cəza-sərəncam alətinə çevrilən dövlət orqanları avtomatik rəqabətli cəmiyyətdə insan hüquq və azadlıqlarını müdafiə edən demokratik institutlara çevrilir, nəticədə rəqabət ideyasını qoruyub saxlamağa nail olur. Tolerantlıq fenomeninin differensiallaşmış dərkinə təbii tolerantlıq və əxlaqi tolerantlıq daxildir. Təbii tolerantlıq balaca uşağa xas olan marağı, etimadı nəzərdə tutur. Bu keyfiyyətlər uşağın “Mənini” müəyyən etmir, çünki şəxsiyyətin formalaşması prosesi fərdi və sosial təcrübəni hələ

ayırmamışdır. Əxlaqi tolerantlıq insanın xarici "Məni" ilə assosiasiya edən dözümdür, o, əksər insanlara xasdır, psixoloji müdafiə mexanizmlərindən istifadə edərək, öz emosiyalarını cilovlamaq səylərində özünü göstərir. Burada müəyyən şərtilik yer tutur, yəni insan daxilindəki dözümsüzlüyü büruzə vermir. Mənəvi tolerantlıq terminoloji planda paradoks yaradır, "əxlaqi və mənəvi" sinonim sözlərinin mənası burda ayrılır. Əxlaqi tolerantlıqdan fərqli olaraq, mənəvi tolerantlıq mütəxəssislərin dilində tanıma və etimad bildirərək, insanın daxili Məni, mahiyyəti ilə uzlaşır. Ona özünün və başqasının daxili aləmini dərk etmək və tanımaq, özünün və başqasının dəyərləri və rəmzlərinə, məqsəd və arzularına, hiss və duyğularına hörmət etmək daxildir. Bu bacarıq şəxsiyyətə imkan verir ki, həyatda qarşılaşdığı gərginlik və münaqişələrdən qorxmasın və onlara tab gətirsin. Tolerant şəxsiyyət özündə başqalarına yaxşı münasibət, bağışlamağı bacarmaq, səbir, yumor hissi, həssaslıq, etimad, altruizm, fərqlərə dözüm, özünü idarə etmək bacarığı, mərhəmət, başqalarını qınamamaq, humanizm, dinləmək bacarığı, hər şeylə maraqlanan, təsəlli vermək və s. bu kimi bacarıqları özündə cəmləşdirir.

Tolerantlıq başqalarını olduğu kimi tanıyır və onlarla razılaşma əsasında qarşılıqlı təsir göstərir. Tolerantlıqda indifferent olmamalı, özünün maraqları qurban verilməməlidir. İlk növbədə tolerantlıq maraqlı tərəflərin qarşılıqlı və fəal mövqeyini təxmin edir. O, öz dəyərləri və maraqlarına malik olan və tələb olunan anda onları müdafiə edən, eyni zamanda digər insanların mövqeyinə və dəyərlərinə hörmətlə yanaşan kamil şəxsiyyətin həyat mövqeyinin mühüm tərkib hissəsidir. Tolerantlıq ruhunda tərbiyə tolerantlıq və tolerant şəxsiyyət anlayışlarının öyrənməsindən ibarət deyildir. Onun tərkib hissələri olan empatiyanı, etimadı, təxəyyülü, həssaslığı, təsəlli hissini inkişaf etdirmək lazımdır. Ümumbəşəri dəyərlərin prioriteti kimi tolerant şəxsiyyətin xüsusiyyətlərinin dominant formalaşma üsulu çıxış edir: mədəni plüralizm, etiqad dözümü, müsbət özünü eyniləşdirmə, fərdilik. Tolerantlıq anlayışı mədəni-fəlsəfi antropologiya üçün müəyyən qədər yenidir, halbuki tolerantlıq fenomeninin özü əhəmiyyətinə görə ontoloji olaraq insanın həyatındadır. Bu səbəbdən tolerantlıq, şübhəsiz, fəlsəfi antropologiyanın və mədəniyyət fəlsəfəsinin tədqiqat predmetinə çevrilməlidir.

Etnik dözümsüzlük etnik eyniləşmənin böhranlı transformasiyalarının əhəmiyyətli real təzahür formasıdır. Etnik dözümsüzlüyün əsasını digər millətlərdən olan şəxslərə yüksək həssaslıq təşkil edir. O geniş şəkildə özünü göstərə bilir – davranışda özünü gerçəkləşdirməyən yüngül narahatlıq və əsəbi narazılıqdan tutmuş diskriminasiyalı davranışın müxtəlif formalarından, soyqırıma qədər. Dözümlülük prinsipi Amerika psixoloqu Karl Rocersin "tamfəaliyyətli şəxsiyyət" və qeyri-yönləndirici terapiya kontekstində daha parlaq ifadə olunur. Başqa insana, xüsusilə yaranan problemlərin həllində köməklik göstərmək yönləndirmə ilə deyil, insanın azadlıq və pozitiv dəyişmələr üçün səylərinə istinadla mümkündür. Bu, insanın tam, qeydşərtsiz qəbul edildiyində mümkün olur, empatik anlama və konqruentlik nəticəsində şəxsiyyətin özünüifadə, özü haqqında gerçək təsəvvürləri, "real Mən" və "ideal Mən" arasında ziddiyyətlərin aradan qaldırılması, daha insani, özünə və ətrafa dözümlü münasibətin istiqamətləri stimullaşır. Dözümlülük qeyri-zorakılıq mövqeyinin daxili çevik bir mexanizmi kimi çıxış edir, o, başqa insana, özü və öz baxışları ilə onun müqayisəsində qəbul edilib anlaşılmasına istiqamətlənir. Dözümlü olmaq kamil, yetkin şəxsiyyətin ifadəsidir. Dözümlülük ünsiyyət və fəaliyyət tərəfdaşını daha yaxşı anlamağa imkan verir, ünsiyyət prosesini optimallaşdırır. Bərabər hüquq şəraitində dözümsüzlük kənarlaşma, laqeydlik, etinasızlıq, diqqətsizlik, yadlıq kimi özünü göstərir. Davranışda bu xüsusiyyətlər əsəbiləşdirən, fikirlərə zidd olan hər şeyin şüurlu inkarında, uzaqlaşdırılmasında özünü göstərir.

Tolerantlıq şəxsiyyətin ruhi-mənəvi keyfiyyəti kimi getdikcə müasir insana daha çox gərəkli olur, şəxslərarası qarşılıqlı əlaqələrdə isə o, şəxsiyyətin digər mənəvi keyfiyyətlərindən və dəyərlərindən, inanclarından əhəmiyyətli dərəcədə fərqlənir.

YUNESKO-nun Baş konfransı tərəfindən 1995-ci ildə qəbul edilmiş Tolerantlıq prinsiplərinin Bəyannaməsinə əsasən, "tolerantlıq dünyamızın zəngin mədəni müxtəlifliyinə, bizim özümüzü ifadə formalarına və insan fərdiliyinin təzahür üsullarına hörmət etmək, onu tanımaq və düzgün anlamaq deməkdir. Bu, müxtəliflikdə ahənglik, sülhü əldə etməyi mümkün edən fəzilətdir. Tolerantlıq müharibə mədəniyyətini sülh mədəniyyəti ilə əvəz edir." YUNESKO-nun səyləri nəticəsində son on illərdə tolerantlıq anlayışı artıq beynəlxalq termin olmuş, dünya problematikasının əhəmiyyətli əsas sözünə çevrilmişdir. "1995-ci ilin Tolerantlıq prinsipləri Bəyannaməsində tolerantlıq "dünyamızın zəngin mədəni müxtəlifliyinə, özümüzü ifadə formalarına və insan fərdiliyinin təzahür üsullarına hörmət etmək, onları tanımaq və düzgün anlamaq" kimi müəyyən edilir" [2].

BMT-nin Baş Assambleyasının dinlər və inanclar əsasında hər növ diskriminasiyanın ləğv edilməsi haqqında 25 noyabr 1981-ci il tarixli Bəyannaməsində deyilir ki, ləyaqət və bərabərlik hər insana məxsusdur və bütün üzvdövlətlər BMT ilə əməkdaşlıqda irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamı üçün əsas azadlıqların və insan haqlarının qorunmasında və ümumi hörmətdə birgə və müstəqil olaraq, köməklik göstərməyə və həvəsləndirməyə tədbirlər görməyə borcludurlar. Ümumdünya insan haqları Bəyannaməsində və

insan haqlarına dair beynəlxalq sənədlərdə qanun qarşısında qeyri-diskriminasiya və bərabərlik prinsipləri, fikir, vicdan, din və ya inanc azadlığı hüququ bəyan edilir. Həmçinin deyilir ki, insanın əsas azadlıqları, xüsusilə hər hansı fikir, din və ya inanclar hüququnun tapdalanması və ya pozulması, xüsusilə xarici ölkələrin digər dövlətlərin daxili işlərinə qarışmasına xidmət edən müharibələrin və ağır insan iztirablarının birbaşa və ya bilavasitə səbəbidir, və xalqlar və dövlətlər arasında nifrətin qızışdırılmasına gətirib çıxarır.

Nəticə

Cəmiyyətdə siyasi və ideoloji opponentlərin mümkün arqumentləri kimi zorakılığın istifadəsi, məcburiyyətin inkar edilməməsi siyasi mədəniyyətdə davamlı qeyri-zorakılıq və tolerantlıq ənənələrinin olmamasının göstəricisidir. Bu, açıq kütləvi etiraz doğurmayaraq, ən qatı ekstremizmi belə dəstəkləyir. İqtisadi böhranın ağırlığı ilə, kütləvi işsizlik və inflyasiya şəraitində genişlənən və dərinləşən sosial differensiasiya ilə əhalinin əksər hissəsi həyatın keyfiyyəti uğrunda deyil, həyat, yaşamaq uğrunda mübarizəyə sürüklənmişdir ki, bu da tolerantlığın inkişafını əngəlləyir. Bu sosial-iqtisadi şəraitə uyğunlaşa bilməyən insanlar öz imkanlarını gerçəkləşdirə bilmir, məişət zəminində törəyən ailədaxili münaqişələr asanlıqla millətlərarası savaşa çevrilir. Nəzarət edilə bilməyən miqrasiya nəticəsində rəqabətə davamlı olmayan yerli infrastruktur ağır zərbələrə məruz qalır, əmək bazarında çətinliklər yaranır və nəticədə qeyri-sağlam rəqabət peyda olur və bütün günahlar isə "gəlmələrin" üzərinə atılır. Bu vəziyyətdə aydındır ki, miqrasiya axınına nəzarət edilməli, xarici əmək resurslarına tələbat nəzərə alınmaqla tənzimlənməlidir. Ekstremizm ünsürlərinin qarşısının alınması üçün güclü hüquqi baza yaradılmalıdır. Cəzanın qaçılmazlığı, hüquq-mühafizə və məhkəmə orqanlarının səmərəli fəaliyyəti həm günahkarların ədalətli cəzalandırılması, həm də potensial ekstremist-qanun pozucularının qarşısının alınması üçün zəruridir.

Tolerantlıq İngiltərə və Amerikada ideal prinsip qismində deyil, zərurətdən, cəmiyyətin monolit birliyi parçalanandan sonra qurulmuşdu. Yuxarıdan cəmiyyətə dini birlik yeridilmədikdə, cəmiyyətdə daha çox sülh-əmin amanlıq olar. Maraqlıdır ki, tolerantlıq problemi ilk dəfə olaraq, qərb sivilizasiyasında dini səviyyədə yaranmışdı, dini tolerantlıq azad cəmiyyətdə əldə edilmiş digər azadlıqlara təkan verdi. Digər çatışmazlıq cəmiyyətin ciddi pozulmağa yol vermədiyi minimal əxlaq standartlarının qoyulmasının zəruriliyidir, cəmiyyətin sui-qəsdlərdən və xəyanətlərdən, azadlığı və ədaləti məhv etməyə çalışan fanatik və totalitar siyasi hərəkatlardan müdafiəsinin zəruriliyidir. Bu sahədə dözümsüzlüyə dözümsüzlük norma kimi çıxış edərkən, ehtiyatlı olmaq lazım gəlir ki, ənənədən ən adi kənarlaşma azadlıq və tolerantlığın fundamental dəyərlərinə xəyanət kimi qəbul edilməsin. Müasir azad cəmiyyətlərin əksəriyyətində iqtisadi böhranlara yol verməmək və insanların minimal rifahını və təhlükəsizliyini təmin etmək üçün sahibkarlığın nə dərəcədə dövlət tərəfindən idarə edilməsi haqqında mübahisələr daim aparılır. Bu mübahisələrin son qərarı yoxdur, olmamalıdır, çünki azadlıq dəyəri kimi, təhlükəsizlik dəyəri də, bəzi münasibətlərdə uyğunlaşmasalar da, onların qorunub saxlanması arzuolunandır.

Ədəbiyyat

1. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı: Nurlar, 2014, 240 s
2. Декларация принципов толерантности//:www.tolerance.ru/dedar.html
3. Карандашев В.Н. Методика Шварца для изучения ценностей личности: концепция и методическое руководство. СПб: Речь, 2004
4. Лузаков А.А., Сухих Е.С. Стиль оценивания как фактор толерантности личности // Личность и бытие: личность и социальная реальность: Матер. Всерос. науч.-практ. конф. Краснодар: Кубан. гос. ун-т, 2003
5. Олпорт Г. Личность в психологии. СПб: Смысл, 1998

Formation of tolerance relations in varieties dialogue

Summary

Today it is important to find the main problems of tolerance formation in multicultural regions for preparation of complex of social-pedagogical measures on the development of tolerance in the modern society and making recommendations on applying tolerance consciousness. Investigation of modern problems of tolerance, controlling preparation level of complex of measures, analysing the state legal acts regulating these problems, studying tolerance problems in psychology and pedagogy and other such issues cause every country to think. Tolerance has been investigated as socio-cultural phenomenon of human life, quality peculiarities of tolerance of modern human have been analysed as cultural-philosophical anthropology, philosophy of personality and socialized personality by the author in the article. Social tolerance reflecting patience form of people who are mutual connected with each other and formation problem of tolerance in modern society are also investigated in the article.

Формирование толерантных отношений в диалоге разнообразия

Резюме

Сегодня стало актуальным разработка комплекса социально-педагогических мер по развитию толерантности в современном обществе, а также выявление основных проблем формирования толерантности в поликультурных регионах для подготовки рекомендаций по внедрению толерантного сознания. Исследовать современные проблемы толерантности, контролировать уровень подготовки комплекса мер, проанализировать государственно-правовые акты, регулирующие эти сферы, изучать проблемы толерантности в психологии и педагогике и другие вопросы - в центре внимания каждой страны. В статье автор исследовал толерантность как социокультурный феномен человеческой жизни, а также проанализировал качественные особенности толерантности современного человека в свете культурно-философской антропологии и философии личности, и социализированной личности. В статье также исследуется проблема социальной толерантности, отражающей форму терпимости взаимосвязанных, взаимодействующих людей, и формирования толерантности в современном обществе.

DOI: 10.36719/2020/REK/01/138-139

İmamə Azər qızı İsmayılova
Bakı Mühəndislik Universiteti
ismayilovaimame125@gmail.com

HÜRUFİZM TƏRİQƏTİNİN TƏŞƏKKÜL TARİXİ VƏ ƏSASLARI
(Tezislər)

Açar sözlər: *Hürufizm, Fəzlullah Nəimi, panteizm*
Key words: *Hurufism, Fazlullah Naimi, pantheism*
Ключевые слова: *Хуруфизм, Фазлулла Наими, пантеизм*

Azərbaycan orta əsrlər ictimai, dini-fəlsəfi, ədəbi-mədəni gerçəkliyində sufizmdən sonra öz əksini tapan ikinci bir təriqət cərəyanı da hürufilikdir. Hürufilik dini-fəsləfi təriqət kimi XIV-XV yüzilliklərdə təzahür edir. Sufi və ismaili fəlsəfəsindən bəhrələnən hürufilik fəlsəfəsi nisbətən ardıcıl materialist yönümlü panteizmi və mistik pərdə altında məhəbbətlə ağlı birləşdirərək varlığın dərkini təbliğ edən ideya cərəyanı idi. Panteist dini-fəlsəfi düşüncəni əsas götürən bu cərəyan XIV-XV yüzilliklər Azərbaycan ədəbi-mədəni mühiti və bədii fikri ilə o qədər sıx qovuşur ki, onu nəzərə almadan həmin dövr ədəbiyyatımızı bir bütöv olaraq dərk etmək mümkün deyil. Panteizmə görə Allah var, ancaq o, təbiətdən, insandan və əşyadan kənarda deyil, onun mahiyyətindədir.

Hürufilər "vəhdəti-vücud" konsepsiyasını ciddi bir nəzəriyyə kimi qəbul edirlər. Onların əqidəsinə görə, Allah yeganə reallıq və həqiqətdir. Varlıqda istər maddi, istrəsə də mənəvi olsun Tanrı həqiqətindən başqa heç bir həqiqət mövcud deyil. Yaradan da, yaradılan da yeganə reallıq olan Haqqın zatına bağlıdır və bütöv bir vəhdət təşkil edir.

Hürufiliyi başqa təriqət, cərəyan, təlimlərdən əsaslı şəkildə fərqləndirən xüsusiyyət hürufilərin hər şeyi *söz* və *hərflərlə* əlaqələndirmələri idi. Məhz təriqətin adı da buradan irəli gəlir. Onlar belə hesab edirlər ki, Allah kainatı və insanı "kon" (ol) əmrindən yaratmışdır. Deməli, söz (hərf) həm yaradılışın səbəbi, həm də özüdür.

Fəlsəfənin banisi Fəzlullah Nəimi Astrabadi əl-Hürufi olmuşdur. O, "Cavidani-Kəbir", "Məhəbbətnamə", "Ərşnamə" və s. əsərlərində hürufilik fəlsəfəsini şərh etmişdir. Hürufiliyin araşdırılmasında F.Nəiminin davamçısı olan Əliyyül Əlanın "Kürsinamə" əsərindən bizə məlum olum olur ki, bu təlimin formalaşması bir neçə mərhələdən keçmişdir. Ədibə görə, birinci mərhələdə F.Nəimi mövcudatın fərqinə varmış, ikinci mərhələdə hərf elmini yaratmış, üçüncü mərhələdə isə bu təlimi açıq şəkildə elan etmişdir. Hüürufilik baxışlarını yaradanların və yayanların əsaslandığı ideoloji baza "Qurani-Kərim" və onun təfsirləridir. Təriqətin banisi Fəzlullah Nəimi "Cavidannamə" əsərini Quran ayələrinin şərhi şəklində yazmışdı. Onun məqsədi "Qurani-Kərim"də əks olunmuş gizli məqamları ortaya çıxarmaq və bir çox ayələrin üzərindən sirr pərdəsini açmaq idi.

Hürufilik kodeksində insan təkcə mənəvi keyfiyyət, qüdrət və əzəmətinə görə deyil, zahiri görünüşü, camal gözəlliyi, hüsn və surəti də Tanrı surətinin təcəllisi hesab olunurdu. Belə ki, insan surətcə də çox gözəl yaradılmışdı və hürufilərə görə, onun hüsnündə ilahinin camal gözəlliyinin nişanələri vardır.

Hərflər kainatın sirrini ehtiva edir. Namazda insanın növbə ilə aldığı vəziyyətlər qiyam, rüku, səcdə uyğun olaraq ərəb hərflərini, əlif (ا), dal (د), mim (م) hərflərinə uyğun olmaqla Adəm kəlməsini ifadə etməkdədir. Hürufilər də hərfləri insan surəti ilə əlaqələndirmiş, onları insan sifətinin müəyyən hissələrini əks etdirdiyini hesab edirdilər. Məsələn, insanın üzündə «Allah» sözü yazılmışdır. Belə ki, insanın burnu ərəb əlifbasındakı «əlif» (ا), burun pərləri «lam» (ل), gözü isə «he» (ح) hərflərinə bənzədilir ki, «Allah (الله) kəlməsi də bu hərflərin birləşməsindən yaranır. Yaxud hürufilər insanın üzündə «Fəzl» sözünün oxunduğunu iddia edirdilər. İnsanın üzündəki 7 xətt (4 kiprik, 2 qaş, 1 baş tükü) hürufizmdə Tanrının insanın camalındakı atributu və sübutu kimi mənalandırılırdı. F.Nəimi yazırdı:

Çar misra, hər do əbru, muye-sər,
Həft xətində əz-Xodaye-dadkər.
(4 kiprik, 2 qaş, başın tükü,
Xuda sənin 7 xəttindədir).

Eyni zamanda, insanın simasındakı bu 7 xətt Quranın ilk surəsi olan «Həmd» surəsi ilə müqayisə olunurdu. 7 ayədən ibarət olan «Həmd» Quranın ilk surəsi olmaqla, həm də bu müqəddəs kitaba giriş hesab olunur. Həmçinin Qurandakı əsas ilahi hikmətin bu surədə cəmləndiyi qeyd olunur. Hürufilərin təbirincə, insanın üzü də bir növ ona girişdir və insanı tanıdan əsas obyektdir. Bu obyektdə də Haqq zatının təcəllisi və atributu olan 7 xətt mövcuddur.

Hürufilik insanı Allaha doğru çağırmaqla təkəbvürə deyil, ucalığa səsləyir. İnsan qəlbi Allahı zikr etməklə aram olur ("Qurani-Kərim"), təkəbbürdən, xudbinlikdən, naqislikdən, narahatlıqdan təmizlənir. Əslində İslam monoteizmi ilə Hürufilik panteizmində ziddiyyət, qarşıdurma və ya inkar yoxdur. Əksinə, Hürufilik panteizmi İslam monoteizmini aydınlaşdırır, konkretləşdirir. O mənada ki, yaradılan heç bir şey sadəcə özbaşına buraxılmayıb, hər bir şey yaradanını ifadə etməklə onunla əlaqədə və nəzarətdədir. Hürufizm təriqəti insana fəal mövqe təlqin edərək ətrafı da kamilləşdirməyə çalışır. İnsanı şərəfli mövqeyə ucaldır.

Ədəbiyyat

1. Güntay Gəncalp – "Hürufilik nədir, nəyə deyilir" 06.12.2012
2. Qabil Əliyev – "İmadəddin Nəsimi və hürufilik hərəkatı
3. Yaqub Babayev. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı, "Nurlan", 2007. – 108 səh.

DOI: 10.36719/2020/REK/01/139-142

Tərgül Əliyəddin qızı Cəfərova
AMEA Fəlsəfə İnstitutu
thargulb@gmail.com

AZƏRBAYCANDA TƏHSİL VƏ DAVAMLI İNKİŞAF

Açar sözlər: *Davamlı inkişaf, davamlı təhsil, təhsil, insan inkişafı, insan potensialı*
Key words: *Sustainable development, continued education, education, human development, human potential*
Ключевые слова: *Устойчивое развитие, непрерывное образование, образование, человеческое развитие, человеческий потенциал*

Bir məfhum kimi, "təhsil" praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusudur. YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur.

Bununla belə, bütün milli-siyasi qruplar (millətlər və dövlətlər) qəbul edirlər ki, onların davamlı gələcəyi təhsil proseslərindən asılıdır. 1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdıki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir (1.s.2).

O qeyd edirdi ki, "sosial qrupun hər bir üzvünün doğuluş və ölümünün qaçılmazlığı" təhsili labüd edir, zira bu bioloji dövriliyə baxmayaraq, "qrupun həyatı davam etməlidir" (2. s. 3).

BMT tərəfindən Dünya ölkələrinin Davamlı İnkişafa keçməsi XXI əsrdə əsas prioritet kimi qəbul edilmişdir. Bu qərar BMT Baş Asambleyasının 2015-ci il 25-27 sentyabr tarixində keçirilən 70-ci sessiyasında və həmin vaxtda təşkil edilmiş Dünya Sammitində qəbul edilmişdir. BMT Baş Asambleyasının tövsiyyəsi əsasında Dünya Sammiti 2015-2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı irəli sürülən bu məqsədləri həyata keçirmək üçün öhdəlik götürmüşlər. 2030-cu ilə kimi Dünya ölkələri tərəfindən davamlı inkişafla bağlı bir sıra məqsədlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Cəmiyyətdə əhalinin inklüziv və bərabər keyfiyyətli təhsillə təmin olunması-2000-ci ildən 2015-ə kimi inkişaf etməkdə olan regionlarda ümumi ibtidai təhsillə təminat 91%-ə çatmışdır. Bundan sonrakı mərhələdə əlverişli peşə hazırlığına və keyfiyyətli ali təhsil almaq imkanına nail olmaq.

Davamlı İnkişaf Təşəbbüsü (ESD) Lens Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Təhsilinin on illik (DESD, 2005- 2014) proqramı vasitəsilə bu çətinliklərə cavab vermək üçün BMT Üzv Dövlətlərinə dəstək verməyə hazırdır. ESD Lens DESD-in məqsədlərini dəstəkləyir və üzv dövlətlərdəki siyasətçilər və təcrübəçiləri təhsili davamlı inkişafa yönəldən, xüsusən formal təhsil sisteminin yenidən yönlədilməsini təşviq edir. BMT-nin Davamlı İnkişaf Təhsilinin on illik (DESD)-in ümumi məqsədi ölkələr üçün davamlı inkişafa aid olan anlayışları, bacarıqları, dəyərləri milli təhsil planlarının həyat tərzi və davranışdakı dəyişiklikləri daha sürətlə təmin etməyə imkan verən bütün aspektlərə inteqrasiya etməkdir. Davamlı Təhsil bütün təşəbbüsləri tamamlayır və Minilliyin İnkişaf Məqsədlərini gücləndirir. Davamlı İnkişaf üçün Təhsil hər yerdə təhsilin keyfiyyətini və münasibliyini yaxşılaşdırmaq potensialına malikdir (4.s.4).

Təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir və insan inkişafı indeksində də 3 əsas komponentdən biri kimi əks olunmuşdur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasında və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təhsil hüququ ən vacib insan hüquqları sırasında təsbit edilmişdir.

Davamlı inkişaf üçün ən vacib və həlledici amillər təhsil və idarəetmə ilə bağlı olduğuna görə dünya birliyi fəaliyyətini bu istiqamətdə qurmuşdur. Hələ 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda (Braziliya) keçirilən "İnkişaf və ətraf mühit" adlı beynəlxalq sammitində ölkə və hökumət başçıları təhsilin inkişaf üçün həlledici faktor olduğu barədə razılığa gəlmişdilər. 2002-ci ildə isə Yohannesburqda (CAR) keçirilən sammitdə davamlı inkişaf sahəsində təhsilin əsas prioritetlərindən biri olması barədə müvafiq qərar qəbul edilmişdir. Bu təşəbbüsü yüksək dəyərləndirən BMT davamlı inkişaf üçün təhsil üzrə dekada elan etmişdir (2005-2014-cü illər) (6).

İnsan inkişafının ən mühüm səciyyəvi aspektləri, məsələn, səlahiyyətlənmə, demokratik idarəçilik təsisatlarının inkişafı, insanlar arasındakı əməkdaşlıq, ədalətlilik (hər bir insana qarşı), dayanıqlıq (gələcək nəsillərin rifahını qurban vermədən indiki nəslin ehtiyaclarının təmin edilməsi) və insan təhlükəsizliyi kimi aspektlər təhsil ilə birbaşa bağlıdır. Bütün sosial sistemin davamlı inkişafı da öz növbəsində bu aspektlərin reallaşmasından asılıdır (5.s.313).

Təhsilin insan inkişafında rolundan danışanda söhbət mütləq iki istiqamətdən birinə yönəlir: ya təhsilin insan potensialının artırılmasına təsiri, yada təhsilin insan kapitalının yaradılmasında rolu müzakirə olunur. İnsan inkişafı konsepsiyasında "insan potensialı" anlayışı öz əhatə dairəsinə görə "insan kapitalı" kateqoriyasından daha genişdir. İnsan kapitalı nəzəriyyəsi baxımından, təhsilə sərmayələrin məqsədi əmək məhsuldarlığını artırmaqdır. İnsan inkişafı yanaşması tərəfdarlarının fikrincə isə iqtisadi inkişafın əsas məqsədi insanın özüdür.

İnformasiya və kapitalın qlobal diffuziyasının yaratdığı çağırışları önləmək üçün inkişaf etməkdə olan ölkələrin qarşısında əslində bir fundamental sual durur: belə bir mühitdə sağ qalmaq və möhkəmlənmək üçün insan potensialının səviyyəsinin yüksəldilməsi üçün ən səmərəli, dayanıqlı və təsirli strategiya hansıdır? Bu sualın cavabı (və ya cavabsızlığı) hər bir dövlətin milli inkişaf strategiyasının istiqamətlərinə, deməli təhsil sisteminin prioritetlərinə həlledici təsir göstərir.

Məlum olduğu kimi, iqtisadi artım insan potensialının inkişafı, xüsusilə də ölkə əhalisinin təhsil səviyyəsinin yüksəldilməsi üçün şərait yaradır. Bununla yanaşı, təhsil özü-özlüyündə iqtisadi artımın və milli sərvətin formalaşdırılmasının vacib şərtidir.

2011-ci il martın 16-19-da Rumıniyanın Konstanta şəhərinin Ovidius Universitetində Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyası tərəfindən təşkil olunmuş "Davamlı inkişaf üçün təhsil və idarəetmə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Həmin konfransda Azərbaycanda iştirak etmişdir. "Davamlı inkişaf üçün təhsil və idarəetmə-2011" konfransı BMT-nin Akademik Təsir (Academic İmpact) proqramı çərçivəsində təşkil edilmişdi. Bu proqram insan haqları, savadlılıq, davamlı inkişaf və münaqişələrin həlledilməsi ilə bağlı BMT tərəfindən qəbul edilən 10 prinsipin aktiv dəstəklənməsi, ali təhsil müəssisələri və biznes cəmiyyətlərinə fəaliyyətlərini bu prinsiplər üzərində qurmaları üçün kömək məqsədi daşıyırdı (3.s.8).

Son illərdə Azərbaycan inkişaf etmiş ölkələr sırasında yer almaq üçün çoxsaylı layihələrə imza atmışdır. Təhsil sistemi öndə gedən prioritet sahələrdən biri olaraq ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Azərbaycan Respublikasında təhsilin səviyyəsinin yüksəldilməsi məqsədilə Təhsil Nazirliyinin təşəbbüsü ilə "SABAH" qrupları 2014/2015-ci tədris ilində yeddi baza ali təhsil müəssisəsində yaradılmış ən aparıcı layihə-

lərdəndir. Layihənin əsas məqsədi ali təhsilin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq keyfiyyətli kadr hazırlığının təmin edilməsidir.

SABAH qruplarına qəbul 3 mərhələdən ibarət olmaqla müsabiqə yolu ilə aparılır. Müsabiqədə Respublikanın istənilən ali təhsil müəssisəsində yalnız tələb olunan ixtisaslar üzrə bakalavr pilləsinin I kursunda əyani əsaslarla təhsil alan və orta akademik göstəricisi 61-dən yuxarı olan tələbələr iştirak edə bilərlər.

SABAH qruplarına seçilmiş 755 tələbə 2014/2015-ci tədris ilini sentyabr ayından elmi-pedaqoji potensialı, tədris-laboratoriya və maddi-texniki bazası yüksək olan 7 ali təhsil müəssisəsində II kursdan təhsillərini davam etdirmişlər. Hazırda "SABAH" qrupları 12 baza ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 45 ixtisas və 2300-dən artıq tələbəni əhatə edir.

2015/2016-cı tədrisili üçün SABAH qruplarına aparılmış qəbul nəticəsində 881 tələbə qəbul olunmuşdur və bununla SABAH tələbələrinin ümümi sayı 1636 nəfər olmuşdur. 2014/2015-ci tədris ili ilə müqayisədə Mədəniyyət və incəsənət ixtisas qrupunda əlavə olunması ilə baza ali təhsil müəssisələrinin sayı 7-dən 11-ə, ixtisasların sayı isə 34-dən 45-ə çatdırılmışdır. Yeni tədris ili üçün yenilənmiş SABAH yataqxanasında 300-dən artıq tələbənin yerləşdirilməsi üçün şərait yaradılmışdır.

SABAH-in üstünlükləri dedikdə-SABAH qrupları tələbələrə əlavə təqaüd, bölgələrdə qeydiyyatda olanlar üçün gündə 3 dəfə qidalanma daxil olmaqla ödənişsiz yataqxana xidməti, xarici mübadilə proqramları, müasir təşkilat və müəssisələrdə tədris və istehsalat təcrübələri, əmək bazarında daha cazibədar namizədlərə çevrilmə kimi üstün imkanlar təklif edir (7).

1.Proqramın strategiyası müasir cəmiyyətdə yaşamaq üçün lazım olan bilik və təcrübənin adi şəkildə ötürülməsindən sürətlə dəyişən şərtlərə uyğunlaşmağa keçmək, sosial inkişafın planlaşdırılmasında iştirak etmək və atılan addımların nəticələrini əvvəlcədən görməyi öyrənməkdir. Təhsil davamlı inkişafa nail olmaq üçün ilkin şərtlərdən biridir və demokratiyanın inkişafı, idarə olunması üçün önəmli vasitədir.

Təhsil sisteminin müasirləşdirilməsi insanlarda ağır vəziyyətlərdə daha kreativ düşünmək qabiliyyətlərini inkişaf etdirməyə kömək edəcək. Yalnız bundan və insanların bir-birlərinə qarşılıqlı hörmət və tolerantlıq göstərməyin öyrədilməsindən sonra dünya birliyi nəzərdə tutulan planlarını reallaşdıra bilər.

2.Hər bir ölkə davamlı və iqtisadi inkişaf üçün təhsilin milli strategiyasını hazırlamalı, bu strategiyanın həyata keçirilməsi üçün müəyyən plan qəbul etməli, təhsil sistemini müasirləşdirmək məqsədilə normativ sənədlər hazırlamalıdır. Prezident İlham Əliyevin təhsil işçiləri qarşısına qoyduğu "Azərbaycanın iqtisadi potensialını intellekt kapitalına çevirək" vəzifəsini rəhbər tutaraq, ölkə təhsilini, elmini daha da inkişaf etdirmək, ali təhsilimizin Avropa təhsil sisteminə uyğunlaşdırılması istiqamətində daha böyük uğurlara imza atmaqda iddialıyıq. Azərbaycan, başqa ölkələr kimi, davamlı inkişafa keçmək üçün öz fəaliyyətini gücləndirmişdir. Bu fəaliyyətin əsas istiqamətini həm də təhsil sisteminin məqsədyönlü şəkildə müasirləşdirilməsi təşkil edir (4).

Azərbaycanda 2018-ci ildə **Paşa Həyat Sığorta Davamlı Təhsil** məhsulunu təqdim etdi. Davamlı Təhsil məhsulu tələbələr üçün hazırladığı xüsusi layihədir. Belə ki, ödənişli təhsil alan tələbənin valideynlərindən birinin istənilən səbəbdən ölüm və bədbəxt hadisə nəticəsində I qrup əlillik alması halları ilə qarşılaşdığı təqdirdə onun övladının təhsil müddətinin sonuna qədər ödəməli olduğu təhsil haqqının «PAŞA Həyat Sığorta» şirkəti tərəfindən ödənilməsini nəzərdə tutan sığorta məhsuludur.

Davamlı Təhsil məhsulunun üstünlükləri:
- Sığorta məbləği: Təhsil haqqının qalan hissəsi və müddətli həyat sığortası.
- Tələbə təhsili dayandırarsa: Təhsil mərkəzi istifadə olunmamış illərə görə təhsil haqqını sizə geri qaytaracaq.
- Sığorta haqqını onlayn və partnyor bankların filiallarında ödəmək mümkündür.

Məhsulun şərtləri:
- Məhsul üzrə sığorta haqqı birdəfəlik və ya illik ödənilə bilər.
- Sığorta məbləği maksimum 100.000 AZN minimum 5.000 AZN təşkil edir.
- Sığorta məbləği birdəfəlik ödənilir.

Əməkdaşlıq etdiyimiz özəl təhsil müəssisələri:
- Bakı Modern Təhsil kompleksi
- Xəzər Universiteti Dünya məktəbi
- XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiyalar Mərkəzi
- Türk Dünyası Atatürk Liseyi (6).

Azərbaycanda davamlı inkişafla bağlı təhsil sistemində köklü dəyişikliklər aparılmasına başlanmışdır. Müstəqilliyin bərpasından sonra davamlı insan inkişafına dair monitorinqlərə start verilmiş və 1995-ciildə bu sahədə

vəziyyəti qiymətləndirən ilk milli hesabat dərc edilmişdir. Həmin dövrdən başlayaraq insan inkişafına dair hesabatlar hazırlanmaqdadır.

Qeyd etdiyiniz amillər dünyanın inkişafında keyfiyyətcə yeni bir mərhələdən xəbər verir. Qloballaşmanın son məqsədi vətəndaş cəmiyyətinin qurulmasıdır. Təhsil strategiyası qlobal cəmiyyətin tələblərinə cavab verməlidir. Bu gün elmin vətəni yoxdursa, sabah təhsilində vətəni olmayacaqdır. Bu, qlobal cəmiyyətin tələbidir. Hazırda bütün dünyada üçüncü minilliyin yeni təhsil modelinin intensiv axtarışları gedir. Təhsilin inkişafının yeni modelinin konturları tezliklə - ən yaxın on illiklərdə formalaşdırılmalıdır. Yeni təhsil modeli indiki və gələcək nəsillərin tələblərinə cavab verməlidir.

Ədəbiyyat

1. D.John. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: NY, 1997.434c.
2. D.John. Democracy and Education. Introduction to the Philosophy of Education. Free Press: NY, 1997. 434c.
3. The impact of development education and education for sustainable development interventions: a synthesis of the research. 2017 The Author(s). Published by Informa UK Limited, trading as Taylor & Francis Group2017. 20c.
4. United Nations Decade of Education for Sustainable Development (2005-2014). Education for Sustainable Development Lens: A Policy and Practice Review Tool. Education for Sustainable Development in Action Learning & Training Tools no. 2 – 2010 UNESCO Education Sector. C 99.
5. Телешова И.Г. Образование и человеческое развитие. В кн. «Человеческое развитие: новое измерение социально-экономического прогресса». Под общ. ред. проф. В.П. Колесова. М: Права человека, 2008. 636 с.
6. http://anl.az/down/meqale/azerbaycan/2011/aprel/166136.htm.
7. http://sabah.edu.az/az/

Education and sustainable development in Azerbaijan

Summary

The article dedicates that the education is a key component of the human development. At the same time, the most important and crucial factors for sustainable development are related to the education and governance, the world community has set up its activities in this direction.

The article emphasizes the importance of reforms in education for sustainable development. Emphasizes that Sustainable Development has the potential to improve the quality and relevance of education. At the same time, the role of education in raising the human potential or the role of education in the creation of human capital is highlighted.

Образование и устойчивое развитие в Азербайджане

Резюме

В статье говорится, что образование является ключевым компонентом развития человека. Дается понять, что поскольку наиболее важные и решающие факторы устойчивого развития связаны с образованием и управлением, мировое сообщество начало свою деятельность в этом направлении.

В статье подчеркивается важность реформ в образовании для устойчивого развития. Подчеркивается, что устойчивое развитие имеет потенциал для повышения качества и актуальности образования.

В то же время подчеркивается роль образования в повышении человеческого потенциала, а так же роль образования в создании человеческого капитала. В статье отмечается, что такие аспекты человеческого развития, как расширение прав и возможностей, развитие институтов демократического управления, сотрудничество между людьми, справедливость, устойчивость и безопасность человека, напрямую связаны с образованием.

TARİX VƏ SİYASİ ELMLƏR
HISTORY AND POLITICAL SCIENCES
ИСТОРИЯ И ПОЛИТОЛОГИЯ

DOI: 10.36719/2020/REK/01/143-146

Sevil Şivəxan qızı Bəhrəmova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
sevil_behremova@mail.ru

HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

Açar sözlər: *Heydər Əliyev, din və dövlət, milli ideya, milli mənəvi dəyərlər, dini tolerantlıq, dini etiqad, islam mədəniyyəti*
Key words: *Heydar Aliyev, religion and state, national idea, national moral values, religious tolerance, religious belief, islamic culture*
Ключевые слова: *Гейдар Алиев, религия и государство, национальная идея, национально-нравственные ценности, религиозная терпимость, религиозные убеждения, исламская культура*

Din-dövlət əlaqələri müasir dövrün ən aktual problemlər sırasına daxildir. Xüsusilə də İslam şərqində hal-hazırda çox problemli məsələlərdən biridir. Lakin ölkəmizdə Ulu öndər Heydər Əliyevin dövlət-din münasibətləri nəzəriyyəsi sağlam əsaslar üzərində qurulmuşdur. Azərbaycanda din-dövlət əlaqələri dünyəvilik prinsipi ilə tənzimlənmişdir. Lakin bizim tətbiq etdiyimiz dünyəvilik modeli dini cəmiyyət həyatından çıxarma məqsədini güdən bir dünyəvilik modeli deyildir. Azərbaycanın dünyəvilik modeli öz ifadəsini Ulu Öndərin bu sözlərində tapmışdır: "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Heydər Əliyevin nəzərdə tutduğu dünyəvilik modeli din və dövlət işlərinin bir-birindən ayrıldığı, lakin dövləti təşkil edən xalqın təməl dəyərlərindən biri kimi dini dəyərlərin hörmətlə qarşılandığı və qorunduğu bir modeldir. Məhz bu anlayış sayəsində dövlətin birbaşa vəzifəsi olmasa da, bir çox dini məbəd və abidələr dövlət tərəfindən bərpa olunur, Azərbaycanda fəaliyyət göstərən müxtəlif dinlərə məxsus icmalara dövlət tərəfindən mütəmadi maddi yardımlar verilir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkədə dövlət din münasibətləri gün-gündən yaxşılaşmağa başladı. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada mövcud olan digər dinlərə də qayğı göstərirdi.

Tarix və mədəniyyət abidələrinin mühafizəsi, dini dəyərlərin dirçəlməsinə dair qərar və sərəncamlar dini tədbirlərin, forumların keçirilməsi, bir sıra dini abidələrin və məscidlərin bərpası, məktəblərin açılması müstəqilliyimiz bərpa edildikdən sonra dövlətin əhalinin dini dəyərlərinə xüsusi diqqət yetirməsini əks etdirir. İslam Konfransı təşkilatına üzv olmağımız, müsəlman ölkələri ilə sıx diplomatik və iqtisadi əlaqələrin yaradılması Heydər Əliyev tərəfindən İslamın Azərbaycan dövlətçiliyindəki yeri və rolunu müəyyənləşdirmiş olur.

Milli ideya, milli özünüdərk və müasir Azərbaycan mövzusu SSRİ dağılandan sonra xüsusi əhəmiyyət kəsb etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində müstəqil Azərbaycan dövlətində milli ideya milli quruculuğun əsas təməl prinsipi, dövlətçiliyin mühüm istinad nöqtəsi kimi təşəkkül tapmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdəki dini dözümlülük, ümumiyyətlə, tolerantlıq mühiti daha da möhkəmlənmiş, ümummilli lider Heydər Əliyevin dövlət-din siyasətinə uyğun olaraq tolerantlıq dövlət həyatının prioritet istiqamətinə çevrilmişdir. Ümummilli Lider dəfələrlə öz çıxışlarında bildirirdi ki, "Dünyəvi dövlət ateist dövlət demək deyil, ... dövlət fəaliyyətində şəriəti deyil, demokratiya qanunlarını rəhbər tutur" (1, s.43).

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalq tərəfindən hakimiyyətə gəlişi ilə milli mənəvi dəyərlərimizə münasibətdə, xüsusən də dövlət-din münasibətlərində yeni mərhələ açılmağa başlayır (2, s.26). Müstəqillik illərində nümayiş etdirdiyi siyasi iradə bir daha göstərdi ki, istər sovet illərində, istərsə də müstəqillik dövründə bu insanın dinimizə, milli mənəvi dəyərlərimizə münasibəti dəyişməz olmuş, onlara hörmət heç bir zaman itməmişdir.

Postsovet məkanında ilk dəfə olaraq milli azlıqlar və etnik qrupların hüquq və azadlıqlarının qorunması, həmçinin dilinin və mədəniyyətinin inkişafına dövlət yardımı haqqında Fərman Azərbaycan Respublikasında

imzalanmışdı. Heydər Əliyev Azərbaycan Respublikası Prezidenti kimi ilk dəfə 1998-ci il 18 iyun tarixli imzaladığı sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdi (3, 1998, 19 iyun). Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti kimi yeni təsisatlar yaradılmış, hüquq mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişləndirilmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır. Nəhayət Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 dekabr 2001-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) vəzifəsi təsis edildi (3, 2001, 28 dekabr).

Azərbaycan dünyada ənənəvi dinlər olan İslamın, xristianlığın, iudaizmin, məscidin, kilsənin və sinaqoqun dinc, yanaşı fəaliyyət göstərdiyi, tolerantlığın mövcud olduğu nadir ölkələr sırasındadır. Məsələn, artıq 160 ildir Azərbaycanda "Bibliya" çap olunur. 2001-ci ildə Böyük Britaniyanın Lordlar palatasında "Dünyəvi dövlətdə dinlərin birgəyaşayışı: Azərbaycanın pozitiv təcrübəsi" adlı seminarın keçirilməsi göstərdi ki, ölkəmiz hələ onillik müstəqil inkişaf dövründə dini tolerantlıq və dözümlülük nümunəsi imicini qazanmışdır (4).

Tarixən xristian və yəhudilərlə münasibətdə azərbaycanlılar daim dözümlü münasibət göstərmiş, hətta hakimiyyət pillələrində həmin din mənsublarına müəyyən yerlər verilmişdi. Bu cəhətdən dini etiqad azadlığının və dini qurumların qanuni fəaliyyətinin təmin edilməsi istiqamətində 1993-2003-cü illər ərzində bütün zəruri şərait yaradılmışdır. Dövlətimizdəki dini dözümlülük, ümumiyyətlə, tolerantlıq mühiti ümummilli liderimiz Heydər Əliyevin "Dövlət və Din" konsepsiyasına uyğun olaraq inkişaf etmiş, dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. 1998-ci il mayın 13-də Ulu Öndər Prezident sarayında ölkənin din xadimləri ilə görüşərək bir daha müxtəlif dinlərin birliyini vurğulamış və ona müstəsna dərəcədə əhəmiyyət vermişdir (5, s.49-50).

Respublika əhalisi arasında mənəvi birliyi, müxtəlif dünyagörüşlərinə, dinlərə mənsub adamlar arasında qarşılıqlı münasibətləri sivil qaydalar əsasında nizamlamaq məqsədilə 1995-ci ildə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən "Avrasiya İslam Şurası" təsis edildi. Missionerlərin fəaliyyətinin qarşısını almaq və İslam dəyərlərini qorumaq məqsədi ilə Qafqaz Müsəlmanları İdarəsində tanınmış elm və din xadimlərinin iştirakı ilə Elmi-din məsləhət şurası yaradıldı. 1996-cı ildə Azərbaycan Respublikası gənclərinin I forumunda çıxış edərək Heydər Əliyev gənclərin milli mənəvi dəyərlərimizə təhlükə yarada biləcək fanatizmdən uzaq olmağı məsləhət görürdü. 1997-ci il yanvarın 8-də isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda pozucu və destuktiv xarici missionerlərin fəaliyyəti qadağan edildi (3, 1997, 9 yanvar).

Dini təriqətlərin humanitar təşkilat adı altında qeydiyyatdan keçməsinə nəzarət gücləndirilmişdi. 1997-ci ildə Milli Məclis «Dini etiqad azadlığı haqqında» Qanuna dəyişiklik edərək ölkəmizdə vətəndaşlığı olmayanların və əcnəbilərin dini təbliğatla məşğul olmalarına qadağa qoyan müddəa daxil etdi. Bununla qeyri-ənənvi təriqətlərin, totalitar, ekstremist sektaların nümayəndələrinin məktəblərdə, uşaq bağçalarında, hərbi hissələrdə moizələr oxunmasının qarşısı alınmışdı. Beləliklə də, bilavasitə ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycanda milli mənəvi dəyərlərimisə ziyan vura biləcək bütün pozucu təbliğatın və yad dini ünsürlərin fəaliyyətinin qarşısı alınmışdı.

Heydər Əliyevin din siyasəti təkcə ölkənin siyasi sabitliyinə, insanların rahat şəkildə fəaliyyətinə deyil, həm də bu sabitliyin rəhni olan əsrlərlə insanların şüurunda formalaşmış dini ənənələrin müdafiəsinə istiqamətlənmişdi. Ulu Öndər bu barədə deyirdi: "Millilik, İslamilik ümumbəşəri dəyərlərin sintezi ilə xalqı inkişaf etdirə bilər. İndi dünyadakı bəzi mərkəzlərdə "İslam fundamentalizmi, İslam ekstremizmi, fanatizmi" haqqında da fikirlər söylənilir. Müqəddəs kitabımız Qurani-Kərim heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Kimsə bu fundamentalizm, ekstremizm meyillərini İslam dinindən istifadə edərək yaradır və inkişaf etdirirsə, onlar İslamın əsas prinsiplərindən müəyyən qədər uzaqlaşırlar. Biz İslam mədəniyyətini, İslam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın" (6, s.13).

1999-cu ildə "Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişir. Qanun milli, ideoloji, dini mənsubiyyətindən asılı olmayaraq, ümumiyyətlə, terrorizmə qarşı mübarizənin hüquqi və təşkilatı əsaslarını müəyyən edərək, terrorizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini müəyyənləşdirir (7).

Həmin il Bakıda "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfransın keçirilməsi Azərbaycan dövlətinin dini tolerantlığa verdiyi önəmin mühüm təzahürü oldu. 1999-cu ildən etibarən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 16 noyabr Tolerantlıq Günü kimi qeyd edilməyə başlanmışdır.

2001-ci il yanvarın 25-dən ən nüfuzlu regional beynəlxalq təşkilatlardan olan və əsas məqsədini insan hüquqlarının müdafiəsi təşkil edən Avropa Şurasının bərabər hüquqlu üzvü olan Azərbaycan Respublikası həmin ilin dekabrın 25-də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya

qoşulmuş, milli qanunvericiliyin həmin Konvensiyanın tələblərinə və Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürmüşdü (8, s 75).

Zaman dini qurumlarla iş üzrə müvafiq mərkəzi icra hakimiyyəti orqanının yaradılması zərurətini aktuallaşdırdı. Bu o dövr idi ki, bölgədə missionerlik fəaliyyəti, zərərli dini cərəyanların yayılması, bir sıra ölkələrin dövlət-din münasibətləri modelini Azərbaycana tətbiq etmək cəhdləri müşahidə olunurdu. Bu şəraitdə xarici dövlətlərin ölkəmizdə maraqlarının həyata keçirilməsində din amilindən yararlanmaq istədiklərini qabaqcadan duyan ulu öndər Heydər Əliyev dini məsələlərə böyük uzaqgörənlik və həssaslıqla yanaşaraq, vətəndaşlarımızın dini məsələləri ilə yaxından məşğul olacaq mərkəzi icra hakimiyyəti orqanının yaradılmasını vacib saydı. Ona görə də Prezident Heydər Əliyev 21 iyun 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman imzaladı və Dövlət Komitəsinin qarşısında Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoydu. Beləliklə də, dövlət-din münasibətlərini tənzimləyən hökumət üzvü statusunda mərkəzi icra hakimiyyəti orqanı MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanda yaradıldı (9). Komitənin əsas məqsədlərindən biri də dini etiqad azadlığının təmin edilməsi ilə yanaşı, Azərbaycanda dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanması, dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizmə və ekstremizmə keçməsinin qarşısının alınması idi (1, s. 7-9).

Azərbaycan Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" qanunun müvafiq müddəalarının həyata keçirilməsini təmin etmək məqsədilə respublikada mövcud olan dini icmalar yenidən qeydiyyata alındı. Bu qanuna görə, Azərbaycan Respublikasında vətəndaş hüququna malik olan "Hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir". "Dini etiqad azadlığı haqqında" qanununa əsasən, dövlət orqanlarına dini azadlığın həyata keçirilməsində yalnız dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə görə və beynəlxalq öhdəliklərə müvafiq olan hüquq və azadlıqların mühafizəsi üçün zəruri hallarda məhdudiyyət qoymağa icazə verilir (10).

Heydər Əliyevin səyi nəticəsində İslam dininin nümunəvi obrazı dünyaya nümayiş olundu. Ölkəmizdə məscidlərlə bərabər, çoxlu sayda kilsə, sinaqoq bərpa edildi, yeniləri tikildi. Dini fəaliyyətin tənzimlənməsi üçün Dini işlər üzrə Dövlət Komitəsi yaradıldı, dini təhsilin və dini təbliğatın hüquqi normativ aktları qəbul edildi.

Nəticədə, Ulu Öndər Heydər Əliyevin Azərbaycandakı din siyasətini onun hakimiyyətinin iki mərhələsi ilə əlaqələndirmək olar: birinci mərhələ - Sovet dövlət nümayəndəsi kimi; ikinci mərhələ, müstəqil Azərbaycan Respublikasının prezidenti kimi. Amma hər iki dövr üçün ümumləşdirici bir cəhəti qeyd etmək olar – hər iki mərhələdə Ümummilli Lider millətsevər, xalqın mənəvi hisslərinə həqiqi vətənpərvər bir insan kimi yanaşaraq, onu repressiya və yad ünsürlərdən qoruya bilmişdir. Məhz onun hakimiyyətinin ikinci mərhələsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olundu, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə tam şərait yaradıldı, Azərbaycan dünyada tolerant dövlət imicini qazana bildi.

Ədəbiyyat

1. Əliyev R. Dövlət və din (çıxışlar və məqalələr toplusu), Bakı: Avropa, 2006, 94 s.
2. Əl-Fərəh Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.
3. "Azərbaycan" qəzeti (1993-2017-ci illər)
4. Hüseynova S. Dini dözümlülük və tolerantlıq Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi kimi - http://news.lent.az/news/118474
5. İsgəndərov A. Təzəpir məscidi: dini-ruhani ocaq, milli mənəviyyat abidəsi və parlaq memarlıq əsəri kimi- http://525.az/site/?name=xeber&news_id=9270
6. Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XVIII kitab. Bakı: Oktyabr 1998 – dekabr 1998/ Burax. məs. Ramiz Mehdiyev. Bakı: Azərnəşr, 2006, 552 s.
7. Terrorizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu http://www.e-qanun.az/ alpidata/ framework/data/3/f_3855.htm
8. Həsənli A. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı. Nur. Art, 2014, 236 s.
9. Hüseynov S. Azərbaycan dini tolerantlığa və sabitliyə töhfə verən örnəkdir/ "Xalq" qəz., 2002, 11 oktyabr
10. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının qanunu. Əlavələr və dəyişikliklərlə. http://scwra.gov.az/docs/169/

Heydar Aliyev and state-religious relations in the independent Azerbaijan Republic
Summary

The article presents the state and religion relations, one of the most pressing problems of the modern world. It is also based on the historical facts that Azerbaijan is one of the few countries in the world where traditional religions, Islam, Christianity, Judaism, mosques, churches and synagogues exist, where there is peace and tolerance. A large number of churches and synagogues were restored in the country along with mosques.

Гейдар Алиев и государственно-религиозные отношения
в независимой Азербайджанской Республике
Резюме

В этой статье описываются отношения государства и религии, одна из самых актуальных проблем нашего времени. Это также основано на исторических фактах, что Азербайджан является одной из немногих стран в мире, где существуют традиционные религии, ислам, христианство, иудаизм, мечети, церкви и синагоги, где царит мир и терпимость. В стране было восстановлено большое количество церквей и синагог, а также мечети.

DOI: 10.36719/2020/REK/01/146-149

Sevinc Valeh qızı Muxtarova
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
seva_mukhtarova@mail.ru

QARABAĞ MƏDƏNİYYƏTİNİN ARXEOLOJİ ABİDƏLƏRİ

Açar sözlər: *Qarabağ mədəniyyəti, abidə, kurqan, üzərliktəpə, mağara*
Key words: *Karabakh Culture, monument, kurgan, Uzarliktepe, cave*
Ключевые слова: *Культура Карабаха, памятник, курган, Узерликтепе, пещера*

Təsadüfi deyildir ki, Azərbaycanın bütün bölgələrində tarixin müxtəlif dövrlərinə aid çoxsaylı arxeoloji abidələr aşkar edilib. Bu abidələrin ən qədimlərinin yaşı milyon illərlə ölçülür. Arxeoloji abidələrlə çox zəngin olan Azərbaycan bölgələrindən biri də Qarabağdır. Aran (düzən) və dağlıq hissələrdən ibarət olan Qarabağın bütün ərazisi tarixin müxtəlif dövrlərinə aid arxeoloji abidələrlə zəngindir. Bu abidələr hələ XIX əsrdən tədqiqatçıların diqqətini cəlb etmişdir.

Qarabağın arxeoloji abidələri haqqında ilk dəfə ətraflı məlumatı S.Veyssenqof vermişdir [4, s.64-69]. Təkcə Azərbaycanda deyil, bütün Avrasiya ərazisində ən qədim insan məskənləri də Qarabağda aşkar edilib öyrənilmişdir. 1891-1898-ci illərdə Şuşada Realni məktəbində müəllim işləyən mənşəcə alman olan E.Resler Qarabağda tunc dövrünə aid çoxlu qəbir abidələrini qeydə alaraq tədqiq etmişdi. Buraya Şuşa və atrafı, Daşaltı, Çanaxçı, Mehtikənd, Axuaxı, Ballıqaya, Sırxavənd, Xaçmçay, Qarabulaq, Gülablı və s. daxildir [2, s. 6-7].

Qarabağın arxeoloji abidələrinin öyrənilməsində əsas dönüş 1926-cı ildə başlandı. O zaman Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyətin rus alimi akademik İ.İ.Meşşaninovun başçılığı və azərbaycanlı alimlərin (İ.Cəfərzadə, Ə.Ələkbərov) iştirakı ilə təşkil etdiyi xüsusi arxeoloji ekspedisiya Qarabağın arxeoloji abidələrini planlı şəkildə öyrənməyə başladı. Bu ekspedisiya Qarabağın Xocalı nekropolu kompleksində və ona yaxın ərazidə kurqan və daş hörgülü (daş sənduqə) qəbir abidələrini tədqiq etmişdi. Akademik İ.İ.Meşşaninovun rəhbərliyi ilə 1927-1933-cü illərdə Mil-Qarabağ düzənliyində və Dağlıq Qarabağda daha geniş arxeoloji tədqiqatlar aparılmışdı [7, s.217-240].

Qarabağda M.Hüseynovun rəhbərliyi ilə ilk dəfə olaraq paleolit dövrünə aid qədim insanların Azıx və Taqlar kimi mağara düşərgələri aşkar edilərək tədqiq olundu. [7, s. 24-79] Bununla yanaşı, arxeoloji tədqiqatlar zamanı ərazidə eneolit və ilk tunc dövrlərinə aid təpələr şəklində qalmış çoxsaylı yaşayış yerləri də aşkar edilərək elmi dövriyyəyə daxil edildi. Bunlardan İ.Nərimanovun rəhbərliyi ilə öyrənilən İlantəpə, Çalaqantəpə və Leylatəpəni, Q.İsmayılovun rəhbərliyi ilə arxeoloji qazıntılar aparılmış çoxtəbəqəli Qaraköpəktəpə, Günəştəpə, Uzuntəpə, Şomulutəpə və s. abidələrini göstərmək olar. 1980-ci ildən bu ərazidə arxeoloji tədqiqatlar aparmağa H.F.Cəfərovda qoşuldu. Onun rəhbərliyi ilə aparılan sistemli qazıntılar nəticə-

sində Qarabağ mədəniyyətinin arxeoloji abidələri Mil-Qarabağ düzü, Quruçay və Köndələnçay vadisini əhatə etmişdir. Bu qrupa aid abidələrdə qara rəngli cilalı və basma naxışlı keramika üstünlük təşkil edir. Azərbaycanın cənub rayonları üçün xarakterik olan boyalı keramika bu qrupda az yayılmışdır [3, s.144].

Mil düzünün arxeoloji cəhətdən tədqiq olunmuş yeganə qədim yaşayış yeri Üzərliktəpədir. Bu abidə Ağdam şəhərindən şərqdə, coğrafi cəhətdən əlverişli mövqedə yerləşir. Yaşayış yeri düzgün olmayan oval plana malikdir. Onun şimaldan cənuba doğru ən geniş dairəsinin diametri 202 m-dir. Arxeoloji qazıntılar 484 m^2 sahədə aparılmışdır. Təbii təpə üzərində salınan yaşayış yerində mədəni təbəqənin qalınlığı 3 m-dir. Arxeoloji qazıntılar zamanı 3 tikinti qatı aşkar olunmuşdur. Birinci tikinti qatı müxtəlif məqsədli çalaların olması ilə xarakterizə edilir. Onların bir hissəsi mətbəx artıqları və küllə dolmuşdur. İçərisinə saman döşənmiş çalalardan isə heyvanları saxlamaq üçün istifadə olunmuşdur. Bu təbəqədə dirəklərdən düzəldilmiş yaşayış binasının qalıqları aşkar olunmuşdur. Onun divarları qalın çubuqlardan toxunmuş və gillə suvanmışdır. Binanın dam örtüyü ağac qabıqları ilə, torpaq döşəməsi isə həsirlə örtülmüşdür. Döşəmədə gil qab qırıqları, dağılmış ocağın içərisində gil soba qalıqları aşkar olunmuşdur. Ocaqdan tapılan gil butənin içərisində donmuş metal ərintisi olduğu müəyyən edilmişdir. Ocağın yaxınlığından çay daşından dəstələr, sürtgəclər və daş qəliblər əldə edilmişdir. Bu təbəqədən aşkar olunan gil əşyalar mətbəx və məişət qabları olmaqla 2 qrupa bölünmüşdür. Keramika məmulatı boz və ya qara rəngdə bişirilmişdir. Məişət qabları yaxşıca cilalanmışdır. Qablar müxtəlif motivli cızma ornamentlərlə naxışlanmışdır [5, s.144]. Üzərliktəpə tipli tapıntılar Qarabağın başqa yaşayış yerlərində də aşkar olunmuşdur. Bu yaşayış məskənlərindən Göytəpəni (orta təbəqəsi), Rəsultəpə, Nərgiztəpə, Çinartəpə, Ağtəpə, Çaqqalıtəpə, Toxmaktəpəni və b. göstərmək olar. Bu abidələrdə də Üzərliktəpədə olduğu kimi qara cilalı saxsı qablar (onlar üçün səciyyəvi naxışlarla) tapılır. Lakin ölçüsü (5 hektar) və ətrafına müdafiə divarı çəkilməsi baxımından Üzərliktəpə ilə Çinartəpə yaşayış yeri daha çox yaxınlıq təşkil edir [5, s. 47-55].

Azıx mağarasının X-VII təbəqəsindən aşkar olunmuş əmək alətləri tipoloji xüsusiyyətlərinə, hazırlanma texnikasına, qəlpə qoparma üsuluna və istifadə olunan xammalın tərkibinə görə genetik cəhətdən bir-biri ilə bağlı olub vahid bir mədəniyyətin məhsuludur [1, s. 91]. Bu mədəniyyət Azıx, Tağlar və Azərbaycanın cənub-qərbindəki digər mədəniyyətlərin qaynağı olmuşdur. Ümumi qalınlığı 4,5 m olan bu təbəqə mağaranın ən qədim çöküntüləri olmaqla eyni təbii şəraitin məhsuludur. Qədim insanların yaşadığı Paleolit düşərgələrinə dünyanın bir çox yerlərində rastlansa da, çoxtəbəqəli Azıx mağarası təbəqələrin ardıcıl yerləşməsinə görə nadir abidələrdən biridir. Azıx mağarasının yeganə bənzəri hələlik Olduvay abidəsidir. Elə buna görə də Azıx mağarasından aşkar edilmiş əmək alətlərinin tipoloji təsnifatında və adlandırılmasında M.M.Hüseynov Olduvaydan aşkar edilmiş bənzər alətlərin adından istifadə etmişdir. Azıx mağarasının X-VII qatlarının fauna qalıqları olduqca pis saxlanmışdır. Onların bir çoxu çürüdüyündən hansı heyvanlara aid olduğunu təyin etmək mümkün olmamışdır. Aşkar olunan heyvan sümükləri maral, antilop, quş, gəmirici və yırtıcı heyvanların lülə sümüklərinin parçalarından, buynuz qırıqlarından ibarətdir. Azıx mağarasının qədim sakinlərinin əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur [3,s.10].

Görkəmli Qafqazşünas alim İdeal Nərimanovun fəaliyyəti sayəsində Qarabağın eneolit dövrü abidələri yetərincə öyrənilmiş və geniş tədqiqat obyekti olmuşdur. Qarabağ düzənliyində onlarla bu dövr abidəsi mövcuddur. Əhalinin oturaq həyata keçməsini göstərən bu yaşayış yerləri əsasən çay kənarlarında, axmazlara, bulaqlara, bir sözlə, daimi su mənbələrinə yaxın yerlərdə salınmışdır. Arxeoloji qazıntılar zamanı bu dövrün abidələrində metal əşyalara çox az hallarda rast gəlinir. Bunlar da əsasən nadir hallarda tapılan bəzək predmetləridir. Yuxarıda qeyd olunduğu kimi bu dövrdən də əvvəllər(neolit dövründə) insanlar artıq mənimsəmə təsərrüfatından (ovçuluq və toplayıcılıq) istehsal təsərrüfatına (əkinçilik və maldarlığa) keçmişdilər. Bu dövrə aid bütövlükdə Azərbaycanda, o cümlədən Qarabağda çoxlu yaşayış yerləri aşkar edilib öyrənilmişdir. Bunların sırasında Ağdam rayonu ərazisindəki Leylatəpə yaşayış yeri xüsusilə diqqəti cəlb edir. 1984-1990-cı illərdə burada arxeoloq İ.Nərimanov qazıntılar apararaq o vaxta qədər Azərbaycanda məlum olmayan yeni arxeoloji mədəniyyətin qalıqlarını aşkar etdi [9,s.88]. İ.Nərimanov Sovet Arxeoloji ekspedisiyası tərkibində Mesopotamiyanın Xalaf-Übeyd mədəniyyətləri abidəsi olan III Yarımtəpə qazıntılarında iştirak etmişdi. Leylatəpədə aşkar edilən məişət qalıqları III Yarımtəpə abidəsinin tapıntılarına çox oxşayırdı. Bu fakta əsasən müəllif Leylatəpə mədəniyyətinin daşıyıcılarının qədim zamanlarda Mesopotamiyadan köçüb gələnlərə məxsus olması ideyasını irəli sürmüşdür. İ.Nərimanov Azərbaycanda bu mədəniyyətin yaranmasını Mesopotamiyadan (V minilliyin sonu - IV minilliyin 1-ci yarısı) Übeyd mədəniyyəti qəbilələrinin buraya köçməsi ilə əlaqəndirmişdir. Kür-Araz arxeoloji mədəniyyətinin son mərhələsinə aid A.A.İessenin rəhbərliyi ilə qazılan böyük Üçtəpə kurqanı özünün bəzi xüsusiyyətlərinə görə Cənubi Qafqazın ilk tunc dövrü abidələri arasında xüsusi yer tutur. Bu kurqanın çox böyük ölçüləri (diametr 150 m hündürlüyü 15m), qəbir kamerası (14, 30x2, 70x2, 60 m) göstərir ki, orada öz dövründə çox böyük nüfuza malik olmuş qəbilə başçısı dəfn olunmuşdur. Üçtəpə kurqanının tikintisinə çoxlu insanların əməyi cəlb olunmuşdur. Bu böyük işin təşkili

ictimai quruluşun kifayət qədər yüksək inkişaf səviyyəsini tələb etməli idi. Hesablamalar göstərib ki, kurqanın örtüyünün tikintisi 3500m^3. təşkil etmişdir [8, s.153-192].

Qarabağın ilk tunc dövrü abidələrinin arasında Borsunlu kurqan qəbiristanlığı xüsusi yer tutur. Abidə düzənlə dağətəyi sərhədində, İncəçay çayının orta axarında, Borsunlu kəndinin yaxınlığında yerləşir. Kurqanların örtükləri torpaq, daş və torpaq qarşıqlı töküntüdən ibarətdir. Düzən yerlərin kurqanları özlərinin möhtəşəmliyi ilə seçilirlər [2, s. 79-88; 2, s. 32-35]. Ən qədim kurqanlar e.ə III minilliyin əvvəllərinə aiddirlər. Onlardan cəmi beş kurqan öyrənilmişdir. Belə kurqanların birində üç təbəqəli kollektiv dəfn aşkar edilmişdir. Hər qat ayrı-ayrılıqda örtülmüşdür. Digər kurqanda da kollektiv dəfn, ancaq kremasiya (ölüləri yandırılma) mərasimi ilə həyata keçirilmişdir. Üçüncü kurqanda isə yalnız bir nəfər bükülü vəziyyətdə dəfn olunmuşdur. Bütün kurqanlara dəfn avadanlığı kimi Kür-Araz mədəniyyətinin başlanğıc mərhələsi üçün səciyyəvi olan saxsı qablar qoyulmuşdur.

Xocalı-Gədəbəy mədəniyyətinə mənsub olan qədim etnik-mədəni massivin tarixinin öyrənilməsində Xocalı abidələrinin müstəsna əhəmiyyəti var. Qafqazda Xocalı kompleksi qədər müxtəlif tip abidələr qrupunun bir yerdə toplusuna təsadüf olunmamışdır. Burada təkcə kurqanların beş tipinin varlığı müəyyənləşdirilmişdir. Bundan başqa Xocalı kompleksi öz tərkibində daş qutuları, menqir, labirinti xatırladan daş hasar (Haça-təpə kurqanı rayonunda) və s. birləşdirir. Maraqlıdır ki, çoxsaylı arxeoloji abidələr yalnız bir tarixi dövrü – e.ə. XIV-VIII əsrlərə aid son tunc və ilk dəmir dövrünü əks etdirir.

Xocalı abidələri içərisində kurqanlar xüsusi yer tutur. Kurqan qruplarına İ.Meşşaninovun tipoloji əlamətləri nəzərə alınmaqla haqlı olaraq doğru adlandırdığı "böyük kurqan çölündə" və Qarqarçayın sol sahilindəki "daşlı çöldə" daha çox təsadüf olunur. "Böyük kurqan çölü" qrupu qərbdə iki böyük menqir və labirintvari daş hasarla qonşuluqda yerləşən möhtəşəm Haçatəpə kurqanı ilə məhdudlaşır. Kiçik kurqanlar qrupu əksər halda Xocalı çayının sol sahilində, ona tökülən İlisu çayı sahilində yerləşmişdir. Daş qutulara qeyd olunan sahələrin hər üçündə, habelə Xocalı kəndindən şimalda, "Boz dağın" ətəyində təsadüf edilmişdir [2, s.169-174].

Xocalı abidələri kompleksinə daxil olan qəbir abidələrinin müqayisəli təhlilinə keçməzdən əvvəl burada aşkar olunmuş və bir çox xüsusiyyətləri ilə özünə analoq bilməyən müəmmalı tikili haqqında məlumat verməyi lazım bilirəm. Söhbət Haçatəpə kurqanı yaxınlığında yerləşən labirintvari tikili qalığından gedir. Sahəsi 9 hektara yaxın olan bu tikili Xocalı çayının sağ sahilində, "Qaladibi" Xocalısının şərqində yerləşir. XX əsrin 70-ci illərində onun şimal-şərqində Xocalı aeroportu salınıb. Tikili nəhəng hasarı xatırladır. Onun özül hissəsi çal-çarpaz düzülmüş yastı daşlardan, divarı hər iki üzdən enli sal daşlardan hörülmüş, onların arası isə kiçik daş parçaları ilə doldurulmuşdur. Hörgü işində birləşdirici məhluldan istifadə edilməmişdir. Hasar divarının eni 4 m-ə çatır. Xocalıda beş kurqan tipinin (qrupunun) varlığı müəyyən edilmişdi və bu bölgü çox vaxt əsas kimi qəbul olunmuşdur:

1. Böyük ölçülü, torpaqdan tökülmüş konusvari quruluşlu, zirvəsinin şərq hissəsində daş tökülmüş kurqanlar;
2. Böyük ölçülü, torpaqdan tökülmüş, zirvəsindəki çökəyə daş tökülmüş kurqanlar;
3. 2-ci tiplə eyni olan, lakin çökəyinə daş tökülməmiş kurqanlar;
4. Kiçik ölçülü, konusvari örtüyü yastılanmış torpaq kurqanları;
5. Çay daşlarından ucaldılmış, böyük ölçülü kurqanlar.

Əslində isə kurqanların xarici görünüşü onları üç tipə və ya qrupa bölməyə imkan verir:

1. kiçik ölçülü torpaq kurqanlar;
2. böyük ölçülü torpaq kurqanlar;
3. daş örtüklü böyük kurqanlar.

Xronoloji baxımdan kiçik ölçülü torpaq kurqanlar daha qədimdir; dövr etibarilə ikinci yerdə böyük ölçülü torpaq kurqanlar, üçüncü yerdə isə daş örtüklü kurqanlar durur. Kurqanların dövrləşməsi təkcə burada tapılan arxeoloji materiallarla deyil, habelə kurqanların özünün biri digərinə nisbətdə yerləşməsi ilə də müəyyən olunur. Bütövlükdə, müxtəlif illərdə Xocalıda 40-dan yuxarı qəbir abidəsi qazılmışdır.

Son 50 ildə Azərbaycan alimlərinin Qarabağ ərazisində arxeoloji, etnoqrafik, epiqrafik, paleocoğrafi, paleoantoloji və paleoantropoloji elmi tədqiqatlar ən qədim zamanlardan - yəni Quruçay mədəniyyətindən başlamış Azərbaycan xalqının bu torpaqlarda yaşadığını, zəngin maddi və mənəvi mədəniyyət yaratdığını elmi əsaslarla sübuta yetirmiş, Qarabağ ərazisində müəyyən olunmuş Quruçay, Aşel, Mustye, Üst paleolit, Mezolit, Neolit və Tunc dövrünün arxeoloji mədəniyyətləri bu diyarın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu söyləməyə əsas vermişdir.

Ədəbiyyat

1. Babayev İ, Qaqoşidze Y, Knauss F Azərbaycan-Almaniya-Gürcüstan Beynəlxalq Şəmkir-Qaracəmirli arxeoloji ekspedisiyanın çöl tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2008 s. 136-139 və s.

2. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində. Bakı, Elm, 2000. 6. Cəfərov H.F. Xocalı arxeoloji abidələr
3. Vəli Baxşəli oğlu Baxşəliyev. Azərbaycan arxeologiyası (Ali məktəb tələbələri üçün vəsait). - Elm, 2007, 239 s.
4. Вейссенгоф С. Сведения о Мильской степи // Известия Кавказского общества История и археология. Тифлис, 1884, Т. 1, вып.
5. Кушнарева К.Х. Поселение эпохи бронзы на холме Узерлик-тепе около Агдама. МИА №67, М.-Л., 1957.
6. Материалы и Исследования по Археологии СССР. № 67, М.-Л., 1957
7. Мещанинов И.И. Краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский Край снаряженной в 1926 Баку, году Обществом изучения Азербайджана. Сообщ. ГАИМК. Ленинград, 1926.
8. Мунчаев Р.М Урукская культура (Месопотамия) и Кавказ // Археология, Этнография и фолькло ристика Кавказа. Махачкала, 2007. 33. Нариманов И.Г Находки баз кол. Нариманов И.Т, Ахундов Н.Т.
9. Лейлатепе. Поселение, традиция, этап в этнокультурной истории Южного Кавказа. Баку, 2007.

Archaeological monuments of the Karabakh culture

Summary

Archaeological monuments of the Karabakh culture surround the Mil-Karabakh Plateau, Guruchay and Kundalchay valley. Karabakh Paleolithic cave camps, such as Azykh and Taglar, have been discovered and investigated. The only archaeological site of the Mill Plateau is the ancient settlement of Uzarliktepe, which has been studied in Aghdam city. The Khojaly-Gadabay culture is of particular importance in the study of the history of the ancient ethnic and cultural massif. In the Caucasus, there were no collections of different types of monuments, such as the Khojaly complex. Archaeological cultures of the Guruchay, Asheli, Mustye, Upper Paleolithic, Mesolithic, Neolithic and Bronze Age settlements in the Karabakh region have allowed us to say that Azerbaijan is one of the ancient civilizations.

Археологические памятники карабахской культуры

Резюме

Археологические памятники карабахской культуры окружают Миль Карабахское нагорье, Гуручай и Кундальчайскую долину. Пещерные лагеря палеолита Карабаха, такие как Азых и Таглар, были обнаружены и исследованы. Единственным археологическим памятником Мельничного плато является одно из древнейших поселений с древними укреплениями Узарлыктапа, изученное в городе Агдам. Ходжалинско-гадабайская культура имеет особое значение при изучении истории древнего этнокультурного массива. На Кавказе не было совпадения группы памятников разных типов, таких как Ходжалинский комплекс. Археологические культуры поселений Гуручай, Ашели, Мустье, Верхнего Палеолита, Мезолита, Неолита и Бронзового века в Карабахском регионе являются основой древней цивилизации Азербайджана.

DOI: 10.36719/2020/REK/01/150-152

Гюнель Садагат гызы Алиева-Мамедова
Бакинский государственный университет
gunel-aliyeva-mamedova@hotmail.com

ВАЖНЕЙШИЕ АСПЕКТЫ ПРЕТЕНЦИОЗНОЙ ПОЛИТИКИ ТУРЦИИ В РЕГИОНЕ В XXI ВЕКЕ

Ключевые слова: *Турция, внешняя политика, многовекторная политика*
Açar sözlər: *Türkiyə, xarici siyasət, çox vektorlu siyasət*
Key words: *Turkey, external policy, multi-vector policy*

Введение

После развала СССР Турция объявила о начале многовекторной политики. В эти годы страна активизировала свою внешнюю политику на Ближнем Востоке, в Центральной Азии, на Южном Кавказе, а также на Дальнем Востоке. Как нам известно, внешняя политика - это деятельность государства на международной арене, а сущность внешней политики состоит в способности государства отстаивать национальные интересы. Таким образом, в 90-ые гг. XX века Турция становится проводником западных идей и американских интересов в новообразованных странах Центральной Азии и Южного Кавказа.

В 90-ые годы XX века наблюдалась тенденция движения мирового сообщества, включая Турцию, к однополюсному миропорядку при определяющем доминировании США, которые практически контролировали все основные международные политические и финансовые организации. Являясь ведущей политической, экономической и военной державой мира, Соединенные Штаты Америки стремились сохранить и упрочить своё глобальное лидерство в долгосрочной перспективе, осознавая наряду с этим растущее значение региональных государств, в том числе Турции (1, с.4).

В условиях благоприятных обстоятельств руководство Партии справедливости и развития провозгласило претенциозную цель - превращения Турции в одну из ведущих мировых держав (2, с.16).

Во внешней политике Турции был принят неосманистский проект «нулевых проблем с соседями» Ахмета Давутоглу (бывший премьер-министр Турции в 2014-2016 гг.) и расширение сферы своего влияния на территориях, ранее входивших в Османскую империю. Итак, проект «нулевых проблем с соседями» и «создание зоны стабильности вокруг Турции» стал базовым принципом для Турции. При всём этом правящая партия имеет политическую стратегию, которая основывается на четырех принципах.

1) АКП пытается предстать как «заботливая» организация, для которой не чужды эффективность и инновации в процессе удовлетворения народных потребностей;

2) АКП активно проводит политику оказания услуг избирателям. Она фокусируется на преодолении бедности и помощи самым нуждающимся слоям общества, что отличает ее от правящих партий и коалиций прошлого;

3) АКП энергично продвигает политику, нацеленную на развитие турецкой промышленности на основе финансовой стабильности и сильной экономики;

4) АКП работает на рост глобальной привлекательности Турции, изменяя ориентацию внешней политики – с Запада в сторону восточного и южного направлений (3, с.49).

Например, на протяжении всей истории с Ираном у Турции были очень сложные и натянутые отношения. Однако, сегодня тренд сближения двух стран на лицо. Одним из основных факторов, оказывающих сильное воздействие на позицию Ирана в отношении Турции, является сирийский кризис. Участие Ирана в этом кризисе носит и политический, и военный характер.

На отношение иранского руководства к Турции положительно влияет также позиция Турции в отношении антииранских санкций США. В августе 2018 г. министр иностранных дел Турции М. Чавушоглу вновь заявил, что «мы не будем применять санкции США против Ирана». Очевидно, также, что наличие курдской проблемы ещё больше сближает позиции двух стран (2, с.18).

В направлении Израиля, в начале XXI века (в 2010 году инцидент «Mavi Marmara») ситуация изменилась, и жесткая позиция Турции в отношении этой страны помогла турецкому руководству получить значительную поддержку в исламском мире, прежде всего, со стороны арабских стран. С началом «Арабской весны» Анкара постаралась поставить себя в качестве лидера мировой суннитской уммы, ответственного за мир и стабильность на Ближнем Востоке. Это, безусловно, вызвало недовольство региональных лидеров - Саудовской Аравии и Египта.

В сирийском направлении Анкара активно **использовала религиозные факторы своей внешней политики еще до открытого вмешательства в вооруженный конфликт (военные операции – «Щит Евфрата», «Оливковая ветвь», «Источник мира») (4).** Поворотным пунктом во внешней политике Турции стало решение Реджеп Эрдогана, когда он решился на демонстративный конфликт с Дональдом Трампом из-за закупки российских С-400. Когда американское руководство пригрозило туркам санкциями, те, сразу же поставили вопрос о дальнейшем существовании военных баз США на территории Турции. Для США военные базы, особенно в Инджирлике, очень важны. Ведь Турция обладает особым стратегическим положением в регионе и это позволяет контролировать Ближний Восток, Балканы, Черное море, Кавказ. Эрдоган считает, что именно Анкара, а не Москва или Вашингтон, должна играть первостепенную роль в вопросах внешней политики на ближневосточном пространстве, особенно, в тех странах, которые некогда входили в состав Османской империи (5).В целом, преобразовав внешнеполитический курс страны на основе своей концепции, Давутоглу смог опровергнуть мнение многих аналитиков, считавших, что с окончанием холодной войны Турция неминуемо превратится из фланговой страны НАТО в периферийную. Последовательная сбалансированная политика, согласованно проводимая премьер-министром Турции Давутоглу, президентом Эрдоганом и министром иностранных дел Чавушоглу, превращает Турцию в ключевую страну региона и делает непозволительным игнорирование ее участия в международных процессах (6, с.38). Внешняя политика Турции приобретает определённые очертания, которые в ближайшем будущем смогут значительно повлиять на стратегический баланс всего Ближневосточного региона.

Проводимая Турцией операция в Африне («Оливковая ветвь») против вооружённых курдских формирований, которые по своей внешнеполитической ориентации являются проамериканскими, ещё раз доказывает наличие отрицательной динамики в турецко-американских отношениях. Вооружая курдские отряды самообороны, являющиеся прямой угрозой национальной безопасности Турции на протяжении долгих лет, Вашингтон рискуют потерять стратегического союзника в регионе (7). Как представляется, Турция старается обрести реалистичное и рациональное видение своей особой роли в регионе, своего значения для интеграции и стабильности в нем - а, следовательно, и для своей собственной интегрированности и политической стабильности.

Выводы

Из проделанного анализа, мы можем прийти к выводу, что благодаря новому направлению внешней политики «soft power», что подразумевает способность достичь поставленной цели путем воздействия на поведение других акторов не через принуждение, а через сотрудничество и убеждение, вырабатываются основы многовекторной политики Турции.

Можно с уверенностью сказать, что на современном этапе Турция всё больше усиливает свои позиции не только в пределах региона, но и за её пределами и это возможно, приводит уже к созданию многополюсного мира, и появлению абсолютной темноты на ближневосточной политической картине «американской улицы».

Литература

1. Алиева-Мамедова Г. Турецко-американские отношения в условиях нового миропорядка (1991-2007 гг.). Баку: N print studiya, 2016, 176с.
2. https://www.imemo.ru/files/File/ru/publ/2019/2019_03.pdf- Современная Турция: тренды развития и значение для России // под редакцией И.Я. Кобринской, Л.С.Вартазаровой, С.В.Уткина (дата обращения – 03.02.2020)
3. https://www.pglu.ru/upload/iblock/839/bostanov.pdf - Бостанов М.Глобализационные тенденции внешней политики Турецкой Республики в регионе Леванта (дата обращения – 03.02.2020)
4. https://interaffairs.ru/news/show/21163 - Исаев А. Внешняя политика Турции: от идеологии к прагматизму (в поисках геополитической парадигмы)
5. urkishnews.com/ru/content/2019/12/26/ - Политика Турции: путь к новой войне на Ближнем Востоке
6. http://pglu.ru/editions/young_science/detail.php?SECTION_ID=-3280&ELEMENT_ID=135340 Газаева Р. Внешняя политика Турции на современном этапе (дата обращения 30.01.2020)
7. https://vpoanalytics.com - Мустафаев М. Трансформация внешней политики Турции через призму конституционных реформ
8. https://www.dissercat.com - Мрасси Р. Эволюция концептуальных основ внешней политики Турецкой республики: 1923-2009 (дата обращения 25.01.2020)

Türkiyənin XXI əsrdə bölgədəki iddialı siyasətinin ən vacib tərəfləri

Xülasə

Əminliklə söyləyə bilərik ki, indiki mərhələdə Türkiyənin təkcə bölgə daxilində deyil, hüdudlarından kənarda da mövqelərini getdikcə daha da gücləndirdiyini söyləmək mümkündür. Bu isə öz növbəsində çoxqütblü bir dünyanın yaranmasına və "Amerika küçəsi" nin Yaxın Şərq siyasi mənzərəsində mütləq qaranlıqlığın yaranmasına səbəb olur.

The most important aspects of Turkey's pretentious policy in the region in the 21st century

Summary

We can say with certainly that at the present stage, Turkey is increasingly strengthening its positions not only within the region, but also outside its borders. This is possible, is already leading to the creation of a multipolar world, and the emergence of absolute darkness in the Middle East political picture of the "American street".

DOI: 10.36719/2020/REK/01/152-156

Raya Yaşar qızı Əliyeva
AMEA Hüquq və İnsan Haqları İnstitutu
aliyevaraya1@gmail.com

MÜASİR İNFORMASİYA TEXNOLOGİYALARININ "ƏRƏB BAHARI"NDA ROLU

Açar sözlər: *"Ərəb baharı", müasir informasiya texnologiyaları, sosial şəbəkələr, İŞİD, Yaxın Şərq.*
Key words: *"Arab Spring", modern information technology, social networks, ISIS, Middle East.*
Ключевые слова: *"Арабская весна", современные информационные технологии, социальные сети, ИГИЛ, Ближний Восток.*

Giriş

Texnoloji inkişafla bağlı olaraq gündən-günə kütləvi informasiya vasitələrinin fərdlərə təsiri artmaqda və dünyanı yenidən formalaşdırmaqdadır. Radio və televiziya ilə yanaşı güclü bir potensiala sahib olan internet şəbəkəsi də demək olar ki, informasiya məkanında sərhədləri ortadan qaldırmış güclü inteqrasiya mühiti yaratmışdır. Sistemli bir şəkildə özünü yeniləyən və əhatə dairəsini genişləndirən internet texnologiyaları böyükdən kiçiyə hər kəsin diqqətini çəkərək çağımızın ən önəmli kommunikasiya vasitəsinə çevrilmişdir. Son on ilə nəzər salsaq görərik ki, başda sosial media olmaqla internet çıxışları beynəlxalq münasibətlər və dünyada gedən proseslərə təsirdə televiziya və qəzet kimi ənənəvi media vasitələrini geridə qoymuşdur.

Müasir informasiya texnologiyalarının "Ərəb baharı"nın meydana gəlməsi və inkişaf dinamikasına təsiri.

Müasir kommunikasiya vasitələrinin yeni əsrdə əsas aktor kimi çıxış etməsinin səbəblərini aşağıdakı üstünlükləri ilə əlaqələndirə bilərik:

1. Kommunikasiyanın çox cəhətli olması tək mənbədən alıcıya deyil, eyni zamanda alıcıdan mənbəyə də bilgi axınını təmin edir. Göndərilən məlumat digər istifadəçilərlə birgə qarşılıqlı müzakirə oluna bilir.
2. Zaman və məkan anlayışını aradan qaldırması. Artıq internet istifadəçiləri günün istənilən vaxtında harada olmalarından aslı olmayaraq internet şəbəkələrinə qoşularaq yeniliklərdən məlumatlana bilirlər.
3. İnformasiyanın paylaşıldığı mühitin daha azad və sərbəst olması.

2011-ci ildə meydana çıxan "Ərəb oyanışı" olaraq da adlandırılan "Ərəb baharı" bölgədə domino effekti yaradaraq "diktatura" rejimlərinə qarşı olan etirazları geniş miqyasda yaymışdır. Bu etirazlar tək Yaxın Şərqdə deyil, həmçinin bütün dünyada əks-səda vermişdir.

"Ərəb baharı"nın yaranması və yayılmasında müasir informasiya texnologiyalarının, xüsusilə sosial medianın rolu haqqında yanaşmalar iki istiqamətdə özünü göstərir:

1. Passiv təsirə malik olmuşdur. Çünki sosial media mühitində insanlar arasında pərakəndəlik olur ki, bu da üsyanların məqsədinə çata bilməsi üçün mühüm şərt sayılan mərkəzləşmənin qarşısını alır. Eyni zamanda, sosial mediada olan məlumat çoxluğu diqqət mərkəzinin tez-tez dəyişməsinə səbəb olur. Bunlar isə "Ərəb baharı"nda özünü göstərən mövcud reallıqlarla səsləşmir.

2. Aktiv rola malikdir. “Ərəb baharı”nın baş verməsi və yayılmasında müasir informasiya texnologiyalarının rolu böyükdür, hansı ki, bu məqalədə aktiv istiqamət üzrə izah verilmişdir.

Sosial medianın “Ərəb baharı”nın inkişaf dinamikasına təsirinin müsbət istiqamətdə olması bir sıra araşdırmalarda da təsdiqini tapmışdır. “Dubai School of Government" qrupunun 2011-ci ilin yanvar ayında hazırladığı “Ərəb sosial media hesabatı" da sosial medianın istifadəçilərin fikirlərinin formalaşmasında mühim rol oynadığı qənaətinə gəlinmişdir [1]. Həmin qrup tərəfindən 2011-ci ilin may ayında yeni bir hesabat hazırlanmışdır. Hesabatda yer alan Misir və Tunisdən olan istifadəcilərin feysbuk sosial şəbəkəsini hansı məqsədlə istifadə etməsi haqqında anketin nəticələrindən aydın olur ki, misirli istifadəçilərin təxminən 85 faizi, Tunisli istifadəçilərin isə təxminən 86 faizi feysbuk sosial şəbəkəsini “hərəkətləri təşkil etmək və istiqamətləndirmək", “ölkə daxilindəki mövcud vəziyyətlə bağlı məlumat yaymaq" məqsədilə istifadə edirlər [2]. Həmin tarixə nəzər salsaq aydın görə bilərik ki, 2011-ci ilin yanvar və may ayları arasında Tunis və Misirdə “Ərəb baharı”nın dağıdıcı dalğaları özünü daha qabarıq şəkildə göstərmişdir. Ölkə prezidentləri olan Zeynalabdin ben Əli və Hüsnü Mübarək istefa vermiş, xalqın etirazları yüksək səviyyəyə çatmışdır. Məqsədlərinə çatdıqlarını düşünən hər iki ölkə vətəndaşları əllərindəki imkanlardan istifadə edərək öz sevinclərini dünyaya çatdırmaq, bir-birilərindən xəbərdar olmaq və müəyyən hərəkətləri həyata keçirmək üçün təşkilatlanmaq məqsədilə sosial medianın üstünlüklərindən istifadə etmişlər.

“Ərəb baharı”nda sosial media başda olmaqla müasir informasiya texnnologiyaları önəmli aktor kimi çıxış etsə də, bu təsir hər bir ölkədə müxtəlif şəkildə özünü göstərmişdir. Bunu ölkələr üzərindən izah etsək, daha aydın olar.

“Ərəb baharı”nın meydana gəldiyi Tunis bölgədə sosial medianın daha az təsirli olduğu ölkələrdəndir. Əhalisinin 67 faizi internet istifadəçisi olduğu halda onlar arasında sosial şəbəkə istifadəçilərinin sayı daha azdır [3]. Buna səbəb ölkədə sosial media istifadəsinə qarşı yönəldilən maneələr idi. Tunisdə sosial media çıxışların başlamasında deyil, daha çox onun gedişində etirazçıları əlaqələndirərək mərkəzləşdirilməsində böyük xidmət göstərmişdir. Bu da etirazların artan templə inkişafına şərait yaradaraq onun təsir dairəsini genişləndirmişdir. Tunisdə ilk çıxışlar daha yüksək rifah əldə etmək məqsədilə 4 yanvar 2011-ci ildə başladı. Nəticədə on gün sonra, 14 yanvar 2011-ci il tarixində Tunis prezidenti Zeynalabidin ben Əliistefa edərək ölkədən qaçdı. Bu hadisələr uzun müddətli diktatura rejmində yaşayan ərəb ölkələri üçün bir ümid işığı oldu və çıxışlar digər ölkələrə də yayılmağa başladı.

Misir inqilab gedişində sosial medianın ən çox təsir gücünə malik olduğu ölkələrdən biridir. Əhalisinin 14.7 faizinin internet istifadəçisi olduğu Misirdə baş verən çıxışları “sosial media inqilabı“ adlandırsaq daha doğru olar [3]. Bu ölkədə hələ etirazlardan əvvəl sosial mediadan istifadəsi geniş yayılmışdı. Xalq bu virtual kommunikasiya vasitəsindən istifadə edərək mövcud rejimə qarşı fikirlərini səsləndirir, müxalif qüvvələr isə insanlara öz səsini çatdırırdı. Nəticədə isə sosial media insanların kütləvi formada mərkəzləşib meydanlara tökülməsinə şərait yaratdı. Misirdə inqilab xüsusilə feysbuk sosial şəbəkəsi üzərindən idarə olunurdu. Eyni zamanda Misirdə etirazçıların daha çox insanı öz sıralarına cəlb etməsində sosial media ilə yanaşı, cümə namazlarından sonra əhali arasında paylanan əl broşürlərinin də önəmli rolu olmuşdur.

Liviyada gərginləşən vəziyyətin və 17 fevral 2011-ci il tarixində başlayan xalq həyəcanlarının qarşısını almaq üçün prezident Müəmmər Qəzzafi müəyyən cəhdlər göstərməyə çalışsa da “Ərəb baharı”nın alovu onu da “taxtından” saldı. Liviyada sosial media fəaliyyətinin ən yüksək nöqtəsinə Müəmmər Qəzzafinin öldürüldüyü videonu dünyaya yaymaqla çatdı [4]. Qəzzafi anadan olduğu Sirt şəhərindən çıxarkən NATO tərəfindən həyata keçirilən əməliyyatla dayandırılmış və silahlı müxalifət qüvvələri tərəfindən öldürülmüşdür. Bu anlar cib telefonu vasitəsilə qeydə alınaraq bütün dünyaya yayılmışdır.

Əhalisinin 34.2 faizinin internet istifadəçisi olduğu Suriyada müxalifət sosial mediadan aktiv şəkildə istifadə etmişdir [5]. Bəşər Əsəd və BƏƏS partiyasının ölkəyə xarici jurnalistlərin daxil olmasına yaratdıqları maneələr sosial medianı xüsusilə xəbər paylaşımı üçün önəmli bir platforma, xarici media üçün isə ölkədə baş verən proseslərdən xəbərdar ola bilmək üçün bir mənbə halına gətirmişdir. Beləliklə, “facebook”, “twitter” və “youtube”də davamlı olaraq ölkə daxilində baş verən proseslərlə bağlı xəbər paylaşan müxalif qüvvələr öz səslərini bütün dünyaya çatdırmağı bacardılar. 15 mart 2011-ci ildə Suriyada başlayan etirazlar qarışıq və çoxtərəfli olması ilə digərlərindən fərqlənirdi. Burada Suriya xalqının maraq və istəklərilə bərabər ABŞ və Rusiya başda olmaqla Türkiyə, İran kimi dövlətlərin də maraqları toqquşur. Bu da həll prosesini mümkünsüz hala gətirir. Rusiya Bəşər Əsədi bu regionda son ümid yeri kimi görür və bunun üçün də onun hakimiyyətini dəstəkləyir. ABŞ insan haqlarının boğulmasını əsas gətirərək özünün dəstəklədiyi “demokratik“ idarəçiliyin yaradılmasını istəyir. Türkiyə isə sərhədləriinin təhlükəsizliyi məsələsini ortaya ataraq öz mənafeyinə uyğun olan variantı tapmağa çalışır. Ümumiyyətlə, böyük dövlətlərin maraq və gözləntiləri “Ərəb baharı”nın inkişaf istiqamətlərini müəyyənləşdirir.

Başda Tunis, Misir, Liviya, Suriya, Bəhreyn, Yəmən kimi ölkələrdə görünən “Ərəb baharı” bütün dünyaya müasir informasiya texnologiyaları və sosial paylaşım şəbəkələri vasitəsilə yayılmışdır. Sosial medianın

“Ərəb baharı”na birbaşa təsir etməsi elmi araşdırmalarla da sübuta yetirilmişdir. Vaşinqton Universitetində aparılan “Ərəb baharında sosial medianın rolu“ adlı araşdırmada Şimalı Afrikadan Yaxın Şərqə yayılan azadlıq və demokratiya hərəkatını sosial medianın sürətləndirdiyi nəticəsinə gəlinmiş və onun azadlığın əldə edilməsində çox təsirli bir silah olması qənaəti vurğulanmışdır [6].

Misirin keçmiş prezidenti Hüsnü Mübarəkin istefa etdiyi həftə boyunca paylaşılan tvitlərin sayı 2300-dən 230.000-lərə qədər yüksəlmiş və bu mövzulu tvitlər sosial şəbəkənin gündəmini zəbt etmişdir. Tvitlərin sayının bu cür sürətlə artmasını mütəxəssislər “kəpənək effekti“ ilə izah edirlər. Çünki “twitter”dəki paylaşımların əhatə dairəsi digər şəbəkələrdən daha genişdir və bu da müxalif qüvvələrin işini asanlaşdırır.

Baş verən proseslərin genişlənməsinin qarşısını almaq üçün kütlənin göstərdiyi reaksiya və etirazlar çox vaxt radio və televiziya üzərindən azad və geniş şəkildə yayımlanmırdı. Ancaq internet daha azad bir mühit yaratdığı üçün istifadəçilər sosial şəbəkə üzərindən “Ərəb baharı” ilə bağlı bütün proses və yeniliklərdən xəbərdar ola, bu barədə öz fikirlərini yaza və görüntülər paylaşa bilirdilər. Belə qarışıq vəziyyətdə insanların sosial media vasitəsilə əlaqə saxlaması, yeniliklərdən xəbərdar olması, birlik və bərabərlik nümaiş etdirməsi etirazların daha da dərinləşməsinə səbəb oldu. Çünki müxalif qrupların özlərini tam şəkildə ifadə etdikləri və məqsədlərini ortaya qoya bildikləri yeganə platforma sosial şəbəkələr idi. Xalq birlik və mübarizə ruhunu burada görüb hiss edərək coşdu. Həmçinin, baş verən olayların sodial mediada yer alması digər ölkələrin xalqlarını da hərəkətə gətirdi. Qonşuluğundakı hadisələri bütün gerçəklikləri ilə oxuyan insanlarda “eyni dini və coğrafiyanı bölüşürük, yaxın dillərdə danışırıq, onlar edə biliblərsə biz də bacara bilərik” fikri formalaşmışdır. Eyni zamanda, müasir informasiya texnologiyalarının inkişafı ilə bağlı olaraq hadisələrin baş verdiyi anda sosial media üzərindən yayılması, fərqli ölkələrdən olan insanların ortaq məqsədli qruplarda gizli şəkildə öz fikirlərini bölüşərək fəaliyyət istiqamətlərini müəyyənləşdirmələri bütün regionlarda üsyanların demək olar ki, eyni anda başlamasına, bununla da geniş miqyas alaraq daha dağıdıcı və təsirli olmasına gətirib çıxardı. Bunun nəticəsidir ki, bəzi ölkələrdə hakimiyyət dəyişiklikləri baş verdi.

Müasir informasiya texnologiyalarının “Ərəb baharı” çərçivəsində özünü göstərən terror təşkilatlarının fəaliyyətinə təsiri.

Ərəb oyanışının baş verdiyi ərazilərdə üsyan dalğalarının təsirilə idarəçilik strukturlarının sıradan çıxması, ölkələrdə olan sabitliyin aradan qalxması regionda olan azlıqların, fərqli maraqlar güdən qrupların fonunda bir sıra terror qruplaşmalarının baş qaldırmasına səbəb oldu. Təbii ki, müasir informasiya texnologiyaları bu məsələyə də təsirsiz qalmamış və proseslərin hərəkətverici qüvvəsi kimi özünü göstərmişdir.

İnternet qlobal terrorizm üçün çox önəmli bir vasitədir. O terrorist qruplar arasında planlama, idarəetmə, nəzarət və kommunikasiyanın təmin olunması üçün geniş imkanlar yaradır. Terror təşkilatları öz tərəfdaş kütlələrini böyütmək və diqqət çəkmək məqsədilə xüsusilə sosial şəbəkələrdən geniş istifadə edirlər. Bir növ sosial media onların işlərini asanlaşdırır, desək, yanılmarıq. Bu pəncərə vasitəsilə terror təşkilatları insanlar arrasında rahat şəkildə öz məlumatlarını yaya və PR apara bilirlər. Bir neçə onillik öncə hər hansı bir qrup bildirişlərini yaymaq və gücünü nümayiş etdirmək üçün ya televiziya binasına, ya da onun yayım tezliyinə daxil olmalı idi. Bu isə kifayət qədər təhlükəli və maliyyə tələb edən bir iş idi. İndi isə bunun üçün bir neçə sosial şəbəkə hesabı və sayt yaratmaq kifayət edir. Həmçinin, bu texnologiyalar terror qruplaşmalarının maliyyə ehtiyaclarını ödəmək üçün kibercinayətkarlıq yolu ilə müxtəlif şəxslərin bank hesablarından gizli şəkildə pul köçürülməsini də təmin edir. Bu faktı “Ərəb baharı” gedişində önəmli bir faktor kimi özünü göstərən İŞİD üzərindən aydın izah edə bilərik.

İŞİD siyasi arenada göründüyü ilk vaxtlardan sosial medianın imkanlarından bacardığı qədər geniş istifadə etməyə çalışmışdır. Aparılan araşdırmalar bu yöndə bəzi maraqlı faktları üzə çıxarır. Amerikada “RAND Corparation“ tərəfindən “twitter” sosial şəbəkəsində 770 min istifadəçinin 23 milyon ərəbcə tvitinin analiz edilməsi nəticəsində hazırlanan hesabata görə İŞİD tərəfdarı olan istifadəçilərin say göstəriciləri ona qarşı olanlardan altı dəfə azdır [7]. Lakin paylaşımlara nəzər salarsaq, İŞİD-ə tərəfdar məzmunlu yazıların sayca çox olduğunu görərik. Bu da insanlarda psixoloji yanılma yaradır. Onlar bu terrorist təşkilatın gücünün və tərəfdaşlarının əslində olduğundan daha çox olmasını düşünərək ona qarşı vahimə və ya simpatiya hissi keçirirlər. Hesabata görə, tvitlər arasındakı say fərqinin bu formada olmasına əsas səbəb tərəfdar olan qrupun sosial media üzərindən sistemli şəkildə fəaliyyət göstərməsidir. Heç bir hadisənin baş vermədiyi normal günlərdə İŞİD tərəfdarları ona qarşı olanlardan 50 faiz çox paylaşım edir. Burunla da sosial mediada öz həmfikirlərinin çox olması kimi fikir yaratmağa nail olurlar.

İnternet sayəsində virtual məcralardan davamlı olaraq istifadə edən təşkilat özünə və ya üzvlərinə qarşı olan insanlara tədbiq etdiyi bənzərsiz şiddət növlərini sosial media hesablarından paylaşaraq şiddəti təbii hala gətirmişdir. Baş kəsmək, maşının arxasına bağlayaraq sürümək, qəfəsin içində boğmaq kimi işgəncə görüntülərini İslamın cəzalandırma metodları olaraq normal bir hal kimi göstərən İŞİD bu yolla çatmaq istədiyi məqsədlər aşağıdakılar kimi qruplaşdırıla bilər:

1. Sözdə özünün qüdrətini sübut etmək, başda siyasi aktorlar olmaqla ölkələrin təhlükəsizlik strategiyalarına meydan oxumaq.

2. Sistemli fəaliyyət sayəsində daim gündəmdə qalmaq. Beləliklə, tərəfdaşlarının güvən və rəğbətini qazanmaq, onların təşkilat sıralarını tərk etməsinə imkan verməmək.

3. Daha çox insanla əlaqə qurmaq və onların hesabına öz sıralarını genişləndirmək.

Araşdırmalar göstərir ki, İŞİD-in sosial mediada yaratdığı bu məğlubedilməz imic fərqli ölkələrdən olan bir çox yeniyetmə və gənci özünə çəkir. Cəmiyyətdə xor görülən, kiçildilən insanlar, xüsusən də yaşadıqları ölkələrdə xoş qarşılanmayan miqrant gənclər öz güclərini sübut etmək, qarşılaşdıqları haqsızlıqlara cavab vermək məqsədilə İŞİD-ə qoşulurlar [8].

Kiçik bir müqayisə aparsaq sosial media üzərində İŞİD-ə dair müzakirələrin Əl-Qaidəninkindən daha çox olduğunu görə bilərik. Çünki İŞİD sosial mediada psixoloji hiylələrdən məharətlə istifadə edərək insanları manipulyasiya edir. “Bunu paylaşın!”, “Bunu dəstəkləyin!” kimi söz oyunlarından istifadə edərək öz “uğurlarını“ yayır və tərəfdarlarının sayını artırır. Təbii ki, bu kimi hiylələrə fikir verməyən gənclər bu böyük tamın bir parçası olaq niyyətilə dolayı yolla ona xidmət etmişolurlar. Əl-Qaidə isə “YouTube”da uzun müzakirə videoları yayaraq bir növ süstlük yaratmış olur və gəncləri özündən uzaqlaşdırır.

İŞİD digər sosial şəbəkələrə nisbətdə “facebook”dan daha az istifadə edir. Çünki, “facebook” istifadəçiləri əsasən bağlı profillərdən istifadə etdiklərindən ancaq ətraflarındakı insanlarla əlaqə qura bilirlər. Lakin bununla belə, yenə də təşkilat bu şəbəkə üzərindən təbliğat apararaq öz tərəfdarlarının sayını artırmağa çalışır. “Facebook” bunun qarşısını almaq üçün İŞİD tərəfarı olan bir çox hesabı silmişdir. Buna cavab olaraq İŞİD facebookun qurucusu M.Zukerbergi təhdid edən video yayımlasa da, digərləri kimi bu görüntülər də internet üzərindən silinmişdir. Daha sonra təşkilat özünün “5elafabook.com“ adlı “facebook” saytını qursa da, onun da ömrü bir gündən çox çəkmədi [9].

Müasir informasiya texnologiyaları və sosial media “Ərəb baharı”nın yaranması və inkişafında mühim rola malik olsa da, bu prosesi sırf onların adı ilə bağlamaq doğru olmazdı. Çünki ərəb xalqının baş qaldırmasında ölkə daxilindəki ziddiyyətlər, sosial qruplar arasındakı fərqlər, idarəçilik sistemlərindəki çatışmazlıqlar birbaşa rol oynamışdır. İnformasiya texnologiyaları isə bu dəyişikliklərin həyata keçirilməsində bir vasitə olmuşdur.

Ədəbiyyat

1. Mourtada, Racha, Fadi Salem, and Dubai School of Government. “Arab Social Media Report.” 1, (01.2011).
2. Mourtada, Racha, Fadi Salem, and Dubai School of Government. “Arab Social Media Report.” 2, (05.2011).
3. “Internet Users Statistics for Africa.March 31 , 2019.” https://www.internetworldstats.com/stats1.htm (01.05.2019).
4. https://www.alarabiya.net/articles/2011/10/20/172836.html (18. 01. 2020).
5. "Internet Usage in the Middle East.March 31, 2019 "https://www.internetworldstats.com/stats5.htm#me (01.05.2019).
6. "Sosyal medyanın Arap Baharı'ndaki rolünün bilimsel kanıtı." (23.10.2017), http://www.esiber.com/sosyal-medya/sosyal-medyanin-arap-baharindaki-rolunun-bilimsel-kaniti/ (03.05.2019).
7. RAND Corporation " Examining ISIS Support and Opposition Networks on Twitter" (s.9,10), 2016.
8. "Gençlerin IŞİD'e Katılma Nedeni Horlanmak" (16.02.2016), https://www.amerikaninsesi.com/a/genclerin-isid-e-katilma-nedeni-horlanmak/3193540 (07.05.2019).
9. İŞİD Facebook'a el attı”, 10.03.2015), https://www.google.com/amp/s/m.sabah.com.tr/ dunya/ 2015/03/10/isid-facebooka-el-atti/amp (10.05.2019).

The role of modern information technologies in the “arab spring”

Summary

The role of modern information technology, especially social media, surely has been significant for the “Arab Spring”, which began in Tunisia and covered the Middle East and North Africa in becoming such a massive and regional movement. Even the use of these new facilities as a means of organizing and communicating during the speeches allows us to call the waves of revolt as a "social media revolution". During the “Arab Spring”, social media spread common goals to other countriesby eliminating the physical boundaries between states and formed a single idea by conquering the Arabian geographical agenda. As a result, alarms commenced in many countries, “the dictators” have been overthrown, and the process is still ongoing.

Роль современных информационных технологий в "арабской весне"

Резюме

Большую роль в превращении «арабской весны» в Тунисе, на Ближнем Востоке и в Северной Африке в такое массовое и региональное массовое движение, несомненно, сыграли современные средства массовой информации, особенно социальные сети. Использование этих новых возможностей даже в качестве средства организации и коммуникации позволяет нам называть волны восстаний «революцией социальных сетей». Во время «арабской весны» социальные сети нарушив физические границы между государствами, распространяя свои цели на другие страны и захватив повестку дня арабской географии сформировали единую идею. В результате во многих странах был поднят ажиотаж, диктаторы были свергнуты и данный процесс продолжается и по ныне.

DOI: 10.36719/2020/REK/01/156-158

Nilufər Şahhüseyn qızı Ağayeva
AMEA Naxçıvan Bölməsi,
Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNƏ DÖVLƏT QAYĞISI (1990-2002-ci illər)

***Açar sözlər**: Heydər Əliyev, Naxçıvan, Naxçıvan Dövlət Universiteti, elmi tədqiqat müəssisəsi*
***Key words**: Heydar Aliyev, Nakhchivan, Nakhchivan State University, Scientific Research Institute*
***Ключевые слова:** Гейдар Алиев, Нахчыван, Нахчыванский государственный университет, Научно-исследовательский институт*

Giriş

Özündə çoxminillik yaşayış, mədəniyyət, dövlətçilik tarixini daşıyan Azərbaycanın alınmaz qalası olan Naxçıvanda elmin və təhsilin inkişafı özünəməxsus qədim ənənələrə söykənir. Burada dahi şəxsiyyətlər, dünya görüşlü alimlər, elm, sənət adamları, istedadlı maarifçilər yetişmişdir. İnsana, sənətə, sənətkara və maarifə yüksək qiymət verilmişdir. Məhz bunun nəticəsidir ki, Naxçıvanda elm və sənət məktəbi yaranmış, minlərlə alim, müəllim, həkim, şair, yazıçı, rəssam, bəstəkar, memar, sərkərdə, diplomat, görkəmli dövlət xadimi və s. şəxsiyyətlər bu məktəbi bitirmiş Naxçıvan ziyalılar ocağı, alimlər yurduna çevrilmişdir. Bu gün Naxçıvanda fəaliyyət göstərən elmi-tədqiqat qurumlarının içərisində içərisində Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri vardır. Naxçıvan Dövlət Universitetinin keçdiyi yola nəzər salarkən belə bir qənaətə gəlmək olur ki, Naxçıvanımızın bu gününü, onun elmini, mədəniyyətini, alimlərini, habelə iqtisadiyyatını, mənəvi-psixoloji vəziyyətinin, bir sözlə, bütövlükdə yaşadığımız ictimai mühiti bu təhsil ocağından ayrılıqda təsəvvür etmək olmaz. İndiyədək Naxçıvan Dövlət Universitetinin 30 mindən çox məzunu olmuşdur (6).

1960-cı illərdə Sovetlər birliyində ali təhsil ocağı olmayan yeganə Muxtar Respublika Naxçıvan idi. Bunun üçün də burada ali təhsil müəssisəsinin açılması zəruri idi. Naxçıvan Dövlət Universiteti 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. Sonralar regionun ehtiyacları nəzərə alınaraq 12 iyul 1972-ci il tarixli Azərbaycan SSR Nazirlər Sovetinin 214 nömrəli qərarı əsasında Naxçıvan MSSR Nazirlər Sovetinin 206 nömrəli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bazası əsasında Naxçıvan şəhərində Naxçıvan Pedaqoji İnstitutunun təşkil edilməsi haqqında qərar qəbul edildi. Bundan sonra Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin 9 yanvar 1973-cü il tarixli protokolunda Naxçıvan Dövlət Pedaqoji İnstitutuna akademik Yusif Məmmədəliyevin adının verilməsi haqqında qərar qəbul edilmişdi (3, v.40).

Müstəqil ali məktəbin yaradılması regionun elmi-mədəni inkişafına, burada ziyalı potensialının artmasına, maarifçilik hərəkatına müsbət təsir göstərmişdir. Naxçıvan Pedaqoji İnstitutunun yaradılması 1990-cı il 29 dekabrda Naxçıvan Dövlət Universitetinin təşkili üçün mühüm elmi-pedaqoji baza funksiyasını yerinə yetirmişdir (1).

Azərbaycan xalqının dahi lideri Heydər Əliyev ilk dəfə hələ Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə (1969-1982) Naxçıvan Dövlət Universitetində olmuşdur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq bu qədim diyara gələn dövlət başçısı 4 oktyabr 1974-cü ildə Naxçıvan Dövlət Pedaqoji institutunun müəllimləri və tələbə heyəti ilə görüşmüşdür (2, s.10).

Bu görüş universitetin tarixi üçün mühüm əhəmiyətə malikdir. Məhz həmin görüşdən sonra muxtar respublikanın rəhbər orqanlarının diqqəti gənc Naxçıvan Dövlət Pedaqoji İnstitutuna daha geniş miqyasda yönəldilmişdir. Artan qayğı və diqqət Pedaqoji institutun maddi-texniki bazasının möhkəmləndirilməsi, burada yeni ixtisasların açılması ilə nəticələnmişdir. Hətta Naxçıvanda mövcud Pedaqoji institutun bazasında müstəqil dövlət universitetinin yaranması zərurəti haqqında ilk fikirlər də həmin tarixi görüşdə Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Regionda universitet yaratmaq ideyasını Heydər Əliyev Naxçıvanın Muxtar Respublika statusu daşıması, diyarın özünəməxsus coğrafi mövqeyi, strateji əhəmiyyəti kimi inkar-olunmaz amillərlə əsaslandırmışdır.

Heydər Əliyevin Naxçıvan Dövlət Universiteti ilə münasibətlərində XX əsrin doxsanıncı illərinin əvvəllərindəki əlaqələr xüsusi yer tutur. Bu illərdə (1990-1993-cü illərdə) Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin nümayəndələri taleyin hökmü ilə Moskvadan Naxçıvana gəlmiş Heydər Əliyevin ətrafında olmuş, onun muxtar respublikada apardığı çox cəhətli işlərə dəstək vermişlər. Naxçıvan Dövlət Universitetində "Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili" mövzusunda 12 oktyabr 1992-ci il tarixdə keçirilmiş beynəlxalq simpozumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin iştirakı və çıxış etməsi mühüm hadisəyə çevrilmişdir. Əvvəla, bu fakt uzaqgörən böyük siyasətçi Heydər Əliyevin Naxçıvan Dövlət Universitetini bir daha ictimaiyyətin diqqət mərkəzinə çəkməsinə şərait yaratmışdır, ikincisi, Heydər Əliyevin simpoziumda iştirakı qonşu ölkələrdən - Türkiyə Cümhuriyyətindən və İran İslam Respublikasından dəvət olunmuş alimlərin də iştirak etdiyi beynəlxalq elmi tədbirin daha yüksək səviyyədə keçirilməsini təmin etmişdir. Nəhayət, Heydər Əliyevin simpoziumdakı dərinməzmunlu nitqi həmin elmi forumun qarşıya qoyduğu məqsədlərini həyata keçirməsi baxımından da mühüm əhəmiyyətə malik olmuşdur. Belə ki, möhtərəm Heydər Əliyevin beynəlxalq simpoziumdakı nitqində irəli sürülən dəyərli mülahizələr ölkədə bazar iqtisadiyyatının, sərhədyanı ticarətin mahiyyəti, təşkili və gedişatı, məqsəd və vəzifələri haqqında ilk əsaslı, proqram xarakterli fikirlər idi. Müstəqillik şəraitində bazar iqtisadiyyatına keçid və sərhədyanı ticarət kimi tamamilə yeni olan məsələlər haqqındakı həmin mülahizələr təkcə muxtar respublikada yox, bütövlükdə Azərbaycanda bu istiqamətdə düşünülmüş tədbirlərin müəyyən edilib həyata keçirilməsinə istiqamət vermişdir. Bundan başqa, Naxçıvanda keçirilən simpoziumda səslənən yeni, sərrast və uzaqgörən fikirlər müstəqilliyin başlanğıc mərhələsində ciddi suallar qarşısında qalmış iqtisad elmini də istiqamətləndirmiş və zənginləşdirmişdir. Həmin qiymətli tezislər dinləyici kimi simpoziumda təmsil olunan yeni gənc iqtisadçı nəslin yetişib formalaşmasına da müsbət təsir göstərmişdir.

Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyində görkəmli dövlət xadimi Heydər Əliyevin iştirak etməsi bu ali təhsil ocağının tarixi salnaməsinin ən parlaq səhifəsini təşkil edir. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyev yubileyin keçirildiyi günü (12 novabr 1992-ci iI) Naxçıvan Dövlət Universitetinə həsr etmişdir. O, universitetin ərazisini gəzmiş, kollektivin ayrı-ayrı üzvləri ilə söhbətlər aparmış, mövcud problemləri öyrənmiş, çıxış yolları haqqında dəyərli tövsiyələr vermiş, universitetə əməli köməklik göstərmişdir (2, s.13).

Heydər Əliyev yubileydə çıxış edərək demişdir: “İndi Azərbaycan müstəqil bir dövlət kimi dünyanın hər bir ölkəsi ilə müstəqil əlaqə yaratmağa və bu əlaqələrdən öz ölkəsinin gələcək inkişafı üçün istifadə etməyə malik olan bir dövlətdir. Bu baxımdan Naxçıvan Dövlət Universiteti indi sərbəst bir ali məktəbdir. Onun Azərbaycanın bütün ali məktəblərini inkişaf etdirməyə daha da əlverişli şərait var və eyni zamanda, dünyanın bütün ölkələri ilə, orada olan ali məktəblərlə, elm mərkəzləri ilə, elm ocaqları ilə əlaqə saxlamağa imkanları vardır. Çox yaxşı haldır ki, artıq bu sahədə müəyyən addımlar atılıb... Bu gün Naxçıvan Dövlət Universitetinin bu yubiley mərasimində İran İslam Respublikasının və Türkiyə Cümhuriyyətinin ali məktəblərinin və dövlət adamlarının iştirakı buna sübutdur. Sizi əmin edə bilərəm ki, Naxçıvan MR Ali Məclisi bu sahədə Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə lazımi köməklik edəcək və lazım olan şəraiti yaradacaqdır... Artıq bundan sonra sizin hazırlayacağınız ali təhsilli kadrlar gərək daha yüksək kriteriyalara, yüksək tələblərə uyğun olsunlar. İndi artıq siz keçmiş Sovetlər İttifaqının çərçivəsində olan təcrübəni yox, bütün dünya təcrübəsini gərək mənimsəyəsiniz, ondan səmərəli istifadə edəsiniz və ali təhsil işinin təşkilini daha müasir səviyyədə qura biləsiniz” (7).

Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyindəki mühüm əhəmiyyətə malik bu nitqi sözün əsl mənasında o vaxtkı çətin vəziyyətdə olan muxtar respublikamızda ali təhsilin inkişafına müsbət təsir göstərmişdir. Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 6 mart 1997-ci il tarixli qərarı ilə yaradılmış "Heydər Əliyev Universiteti" tələbə gəncliyə müstəqil dövlətçiliyimizin ideoloji aspektlərinin elmi əsaslarla aşılanması sahəsində siyasi-mənəvi tərbiyə qurumu kimi çox səmərəli fəaliyyət göstərir. Bu yeni tipli dövlətçilik məktəbinin 5 aprel 1997-ci ildə keçirilən ilk məşğələsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov «Heydər Əliyevin həyatı və fəaliyyəti universitetdir» mövzusunda çıxış etmiş, bu siyasi tərbiyə məktəbinin qarşısında duran vəzifələri qeyd etmişdir. “Heydər Əliyev Universiteti” yarandığı gündən bu günədək 216 məşğələ keçirilmişdir (5).

1972-ci ildə Naxçıvan Pedaqoji İnstitutunun yaradılması ideyası məhz ulu öndərə məxsus olmuşdur. 11 oktyabr 1999-cu ildə universitetin 1600 yerlik yeni tədris korpusunun açılışında çıxış edən ümummilli lider XX əsrin 70-ci illərindəki uzaqgörən təşəbbüsü xatırlayaraq demişdir: "Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir... Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir..." Naxçıvan Dövlət Universitetinə daim qayğı ilə yanaşan Heydər Əliyevə 9 oktyabr 1999-cu il tarixli elmi şuranın qərarı ilə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru ünvanı verilmişdir. Dahi lider 12 iyun 2002-ci il tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək özünüidarə statusu, muxtariyyət hüququ vermişdir (4, s.12-13).

Nəticə

Ümumiyyətlə Naxçıvan Muxtar Respublikasında ali təhsil sahəsində həyata keçirilən hər bir siyasət burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

Ədəbiyyat

1. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti "Azərbaycan" qəzeti, 7 may 2013.
2. Həbibəyli İ. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Bakı, 2002, 80 s.
3. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), fond 1, siy1, iş 232.
4. "Naxçıvan Dövlət Universiteti 50 ildə" adlı elmi konfransın materialları. "Qeyrət" nəşriyyatı, 2017,172s
5. http://ndu.edu.az/az/content/135/
6. http://nakhchivan.preslib.az/az_c2.html.
7. http://ndu.edu.az/az/content/335/

State care to Nakhchivan State University
(1990-2002 years)

Summary

The article discusses how the Nakhchivan branch of the API, opened in 1967 in Nakhchivan, later transformed into an institute and a university. This research institution has been particularly noted for the high care provided by the state. It was also mentioned that Heydar Aliyev visited several times to Nakhchivan State University and He especially noted in his speech this university will play an important role in the education of young people in the future.

Государственная забота о Нахчыванском государственном университете
(1990-2002 гг.)

Резюме

В статье рассказывается, как Нахчыванский филиал АПИ, открытый в 1967 году в Нахчыване, впоследствии превратился в институт и университет. Это научно-исследовательское учреждение было особенно отмечено высокой заботой, предоставляемой государство. Также было отмечено, что Гейдар Алиев посетит Нахчыванский государственный университет и в своем выступлении отметил, что этот университет будет играть важную роль в воспитании молодежи в будущем.

DOI: 10.36719/2020/REK/01/159-161

Fuad Firuz oğlu Babayev
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
fuad_ewc@mail.ru

YERLİ ÖZÜNÜİDARƏETMƏ HAKİMİYYƏTİNƏ DAİR BEYNƏLXALQ STANDARTLAR

Açar sözlər: *yerli özünüidarəetmə hakimiyyəti, bələdiyyə, idarəçilik, beynəlxalq*
Key words: *local self-government, municipal, international*
Ключевые слова: *местное самоуправление, муниципалитет, управление, международный*

Yerli özünüidarəetmə hakimiyyəti xalq hakimiyyətinin forması olduğundan, şəxslərin hüquq və əsas azadlıqlarının təminatı ilə bağlı olduğundan bu idarəçilik forması üzrə xarici ölkələrin qanunvericilik təcrübəsi ilə bərabər, həm də beynəlxalq standartların da öyrənilməsi zərurəti var[10]. Hakimiyyətin, idarəçiliyin şəxslərin mülki, siyasi, iqtisadi, sosial, mədəni və s. hüquqları ilə bağlı olduğunu nəzərə alsaq bu sahədə beynəlxalq standartları təsbit edən bir sıra beynəlxalq aktlar diqqət mərkəzinə gəlir [1]. Bunlardan həm ümumi xarakterli, ümumiyyətlə, insan hüquqlarına aid olan beynəlxalq aktları, həm də bilavasitə yerli idarəetmə orqanlarına həsr edilmiş beynəlxalq sənədlər qeyd edilə bilər.

Ümumi xarakterli beynəlxalq aktlara misal olaraq İnsan hüquqları haqqında ümumi bəyannamə (1948), İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Pakt (1966), Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt (1966), İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında (1950) Avropa Konvesiyası və s. qeyd edə bilərik [2]. Şəxslərin idarəçilik və hakimiyyət sferasında hüquqlarını tənzimləyən İnsan hüquqları haqqında ümumi Bəyannamənin 21-ci maddəsi siyasi hüquqları ehtiva edir. Həmin maddədə qeyd edilir ki,

1. Hər kəsin özünün ölkəsinin idarəçiliyində birbaşa və ya azad seçilmiş nümayəndələri vasitəsilə iştirak etmək hüququ vardır.
2. Hər kəsin özünün ölkəsində dövlət xidmətinə daxil olmaq üçün bərabər hüquqları vardır.
3. Xalqın iradəsi hökumətin hakimiyyətinin əsası olmalıdır; bu iradə özünü gizli səsvermə və ya digər bərabər formada sərbəst səsverməni təmin edən mütəmadi və saxtalaşdırılmayan ümumi və bərabər seçki hüquqi ilə ifadə edilməlidir.

Sadaladığımız məsələlər Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktda daha geniş məzmunda göstərilmişdir. Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktın 25-ci maddəsində qeyd edilir ki, hər bir vətəndaşın hər hansı ayrı-seçkilik və hər hansı bir əsassız məhdudiyyət olmadan:

a) dövlət işlərinin idarə olunmasında həm birbaşa, həm də azad şəkildə seçilmiş nümayəndələri vasitəsilə iştirak etmək; b) seçicilərin azad iradələrini təmin edən, ümumi və bərabər dövri şəkildə keçirilən seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilmək imkanı və hüququ olmalıdır. Həmin beynəlxalq hüquq norması daxili təcrübədə real seçkilərin, o cümlədən bələdiyyə seçkilərinin təmininə də yönəlmişdir. Qeyd etdiyimiz ümumi xarakterli beynəlxalq aktlar yerli özünüidarə üçün təməl hüquqları (standartları) ehtiva etdiyi halda, bu sahədə qəbul edilmiş spesifik beynəlxalq aktlar müvafiq standartlara əsaslanaraq daha spesifik məsələlərin həllinə yönəlmişdir. Belə aktlardan ən əhəmiyyətlisi şübhəsiz ki, Yerli özünüidarə haqqında Avropa Xartiyasıdır (1985). Yerli özünüidarə haqqında Avropa Xartiyasının əhəmiyyəti ondan ibarətdir ki, dünyanın inkişaf etmiş dövlətlərinin yerli özünüidarə sahəsindəki təcrübəsi, yerli özünüidarə sahəsində fəaliyyət prinsipləri onda təsbit edilmiş və universal aktın da yaradılmasını təşviq etməkdədir [3].

Xartiya preambula və üç hissədən ibarətdir. Yerli özünüidarə haqqında Avropa Xartiyasının birinci bölməsində əhatə olunmuş 10 maddədəki 31 bənddən iyirmisi (10-u mütləq, 10 istəyə görə) Avropa Şurasına daxil olmuş və Xartiyaya qoşulan dövlətlər üçün vacib sayılır. Xartiyanın məqsəd və ideyalarının zəruriliyi preambulada öz ifadəsini tapmışdır. Preambulada qeyd edilir ki, yerli özünüidarənin təşkilinə münasibətdə Xartiyada yerli özünüidarənin mühüm prinsip və təminatları müəyyən edilir:

1) milli qanunvericilikdə yerli özünüidarə prinsipinin tanınması (mad.2);
2) yerli özünüidarə sistemində birbaşa və nümayəndəli demokratiya prinsiplərinin uzlaşdırılması (mad.3 b.2);
3) yerli əhəmiyyətli məsələlərin həllində subsidiarlıq prinsipi (mad.4 b.3);
4) yerli özünüidarənin səlahiyyətləri hüdudunda müstəqilliyi (mad.4 b.2);
5) yerli özünüidarə orqanlarının fəaliyyətinin qanunauyğunluğu (mad.4 b.1);
6) yerli özünüidarənin ərazi quruluşunun sabitliyi (mad.5);
7) yerli özünüidarənin təşkilati müstəqilliyi, onun təşkili modelinin müxtəlifliyi (mad. 6, b.1);

8) yerli özünüidarənin müəyyən edilmiş səlahiyyətlərindən asılı olaraq bələdiyyə fəaliyyətinin müstəqilliyinin maliyyə təminatı hüququ (mad.9);

9) yerli özünüidarənin fəaliyyətinə dövlətin özbaşına müdaxiləsinin yolverilməzliyi (mad.8);

10) yerli özünüidarənin məhkəmə müdafiəsi hüququ (mad.11) və s.

Yerli hakimiyyətlər arasında beynəlxalq əlaqələrin formalaşdırılması tədricən genişlənməkdə olan proses olduğundan bu sahədə də norma yaradıcılığı genişlənməkdədir. Demokratik inkişaf, yerli hakimiyyətləri təşviq etmək məqsədilə Ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası (1980) [4], Çərçivə Konvensiyasına Əlavə Protokol (1995), 2 saylı Protokol (1998) qəbul edilmişdir.

Çərçivə Konvensiyasına Əlavə Prtokolda:

- ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı gücləndirmək məqsədilə Çərçivə Konvensiyasını təkmilləşdirmək;
- transsərhəd layihələrin inkişafını dayandıran inzibati, hüquqi, siyasi və psixoloji maneələri aradan qaldırmaq;
- sərhəd ərazilərində yerləşən ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək və s. ehtiva edilib.

Əgər Çərçivə Konvensiyasına Əlavə Protokol sərhəd bölgəsi icmalarının, hakimiyyət orqanlarının transsərhəd əməkdaşlığına həsr edilibsə, Çərçivə Konvensiyasına 2 saylı Protokol isə ümumi sərhədi olmayan dövlətlərin ərazi icmalarının əməkdaşlığına həsr edilib. Preambulada qeyd edilir ki, ərazi icmaları və yerli hakimiyyətin öz funksiyalarının daha da səmərəli yerinə yetirilməsi üçün nəinki sərhədyanı dövlətlərin qonşu rayonları (sərhədyanı rayonlarda əməkdaşlıq), həm də ümumi sərhədi olmayan dövlətlərin regionları ilə fəal əməkdaşlıq etməsini, eləcə də birgə maraqların olmasını və bütün bunların yalnız sərhədyanı əməkdaşlıq üzrə təşkilatlar və ərazi icmaları və yerli hakimiyyətlərin assosiasiyaları çərçivəsində deyil, həmçinin ikitərəfli əməkdaşlıq kontekstində həyata keçirildiyini nəzərə alaraq bu Protokolu qəbul edirlər.

Yerli özünüidarə hakimiyyəti ilə bağlı məsələləri tənzimləyən siyasi hüquqlarla əlaqədar beynəlxalq standartı təsbit edən aktlardan "Yerli səviyyədə ictimai həyatda əcnəbilərin iştirakı haqqında" Avropa Konvensiyası əcnəbilərin yerli məsələlərin həllində iştirakı ilə bağlı münasibətləri tənzimləyir. Yerli və Regional Hakimiyyət Konqresinin "Yerli səviyyədə ictimai həyatda əcnəbilərin iştirakı haqqında" tövsiyəsi də həmin məsələlərə həsr olunmuşdur [5].

Yerli özünüidarə hakimiyyətinin təsis edilməsi və onun fəaliyyəti cəmiyyətin daxili inteqrasiyası, hər cür etnik, dini və s. istiqamətli separatizmin qarşısının alınması ilə əhəmiyyətlidir [10]. Bu mənada 5 noyabr 1992-ci ildə Avropa Şurası tərəfindən qəbul edilmiş "Regional dillər və azlıqların dilləri haqqında" Avropa Xartiyası, Avropa Şurasının 1 fevral 1995-ci ildə qəbul etdiyi "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyası plüralist və həqiqi demokratik cəmiyyətin etnik, mədəni, dil və dini özünəməxsusluğa hörmətlə yanaşması ideyasının təzahürü olmaqla milli azlıqlara məxsus olan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, onların qanun qarşısında bərabərliyinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir.

Konvensiyanın 15-ci maddəsi nəzərdə tutur ki, Tərəflər milli azlıqlara məxsus olan şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, o cümlədən ictimai işlərin, xüsusən onlara aid olan ictimai işlərin idarə olunmasında səmərəli iştirakı üçün zəruri şərait yaratmağı öhdələrinə götürməlidirlər [6].

Yerli özünüidarə hakimiyyəti ilə əlaqədar beynəlxalq standartların təsbit edildiyi geniş əhatəli tövsiyələr də qəbul edilmişdir. Bunlardan ərazi icmaları və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında nümunəvi Avropa Konvensiyası bu sahədə müxtəlif səviyyəli beynəlxalq əməkdaşlığın nümunəvi qaydalarına, razılaşmalarına həsr edilib. Ölkələr arasında ərazi icmalarının və hakimyyət orqanlarının əməkdaşlığını təşviq edən dövlətlərarası model razılaşmalar yerli xalq hakimiyyəti üzrə münasibətlərin unifikasiya olunmuş qaydada tənzimlənməsinə yönəlib.

Yerli özünüidarə üzrə tövsiyə xarakterli beynəlxalq aktların bir qismi də həmin qurumun sərbəst fəaliyyətinin təməl şərtlərindən maliyyə, iqtisadi təminata həsr edilib. Yerli özünüidarə haqqında Avropa Xartiyasının maliyyə məsələləri üzrə müddəalarının inkişafının davamı olaraq Yerli və Regional Hakimiyyət Konqresinin "Avropada regionlaşmanın vəziyyəti və perspektivləri haqqında" qətnaməsində 83 (1999) qeyd olunur ki, müxtəlif regional qurumlar maliyyə müstəqilliyinə malik olmalıdırlar, lakin bunun milli və ya federal dövlətin bütövlüyü mənafeyinə zidd olmaması üçün maliyyə vəsaitlərinin yenidən bölüşdürülməsi mexanizmi mövcud olmalıdır [7].

Avropa Şurası üzvü olan dövlətlərin yerli özünüidarəyə görə cavabdehlik daşıyan nazirlərinin 1996-cı il Lissabon konfransında hazırlanan rəydə qeyd olunurdu ki, müvafiq maliyyə ehtiyatları olmadan yerli demokratiya mövcud ola bilməz [8]

Yenə də Avropa Şurasının Yerli və Regional Hakimiyyət Konqresinin "Avropada sosial möhkəmliyin amili kimi - regional iqtisadi əməkdaşlıq haqqında" 1999-cu il 86 saylı Qətnaməsində göstərilir ki, milli iqtisadi siyasət çərçivəsində yerli özünüidarə orqanları səlahiyyətlərini həyata keçirmək üçün o dərəcədə maliyyə imkanlarına malik olmalıdırlar ki, səlahiyyətlərini həyata keçirərkən onlar üzərində sərbəst sərəncam versinlər və həmin

maliyyə vəsaitlərinin həcmi onların üzərinə qoyulmuş səlahiyyətlərə mütənasib olmalıdır [9].

Beləliklə, yerli özünüidarə hakimiyyəti ilə əlaqədar beynəlxalq standartları fərqləndirməli olsaq, o halda yerli özünüidarənin:

- demokratik təsisat olaraq insan hüquqlarının realizəsi vasitəsi olması;
- inteqrasiya prosesinin stimullaşdırdığı üçün hər cür ayrımçılığın qarşılanmasında siyasi-hüquqi vasitə olması qeyd edilməlidir.

Ədəbiyyat

1. Бондарь Н.С. Гражданин и публичная власть: Конституционное обеспечение прав и свобод в местном самоуправлении. Учебное пособие. М.: Городец. 2004, 352с.
2. Международное публичное право. Сборник документов. т. 1. М.: БЕК, 1996, 373с.
3. О предварительном проекте Всемирной хартии местного самоуправления. http://www.coe.Int/T/R/Clrae/rRussiandocl
4. Европейская рамочная конвенция о приграничном сотрудничестве территориальных сообществ и властей // Совет Европы и Россия. Сборник документов. М.: Юридическая литература. 2004, 928с.; Проект Резолюции о межкультурном и межрелигиозном диалоге: инициативы ртветственность местных властей (12(4)). ДВЕНАДЦАТОЕ СЕССИЯ (Страсбург, 31 мая-2июня 2005 г.).http://www.coe.int/T/R/Clrae/ГRussian doc1; Резолюция 104 (2000). О демократической стабильности через трансграничное сотрудничество в Европе. http://www.coe.int/T/R/Clrae/ГRussian doc
5. Recommendation 115 of the Congress of Local and Regional Authorities on the participation of foreing residents in local public life: consultative bodies; Recommendation 159 of the Congress of Local and Regional Authorities of the Council of Europe on Regional ombudspersons: an institution in the service of citizens rights; Recommendation 76 of the Congress of Local and Regional Authorities on the participation of foreign residents in local public life
6. Рамочная Конвенция о защите национальных меньшинств // Совет Европы и Россия. Сборник документов. М.: Юридическая литература, 2004, с.80
7. Проект Резолюции 83(1999). О состоянии и перспективных регионализации в Европе. http://www.coe.int/T/R/Clrae/rRussian dock Recommendation 98 of the Congress of Local and Regional Authorities on the draft world charter of local selfgovernment State of discussions
8. Финансовые ресурсы местных властей по отношению к их компетенциям: анализ принципа субсидарности. Докладчик: Жан-Клод Фрекон (Франция), Страсбург, 20 апреля 2000, с.9
9. Рекомендация 69 (1999). О региональном экономическом партнерстве - как факторе укрепления социальной сплоченности в Европе. http://www/coe.int.
10. Səlimzadə.M. Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktiki məsələlər. Bakı, “Elm və təhsil” 2010.

International standards on local self-governance

Summary

As local self-government is a form of people's power, it is related to ensuring the rights and fundamental freedoms of individuals, it is necessary to study the international standards of this type of governance in parallel with the practice of foreign countries. Civil, political, economic, social, cultural, etc. A number of international acts defining international standards in this area come to the fore. Of these, it would be appropriate to analyze both general and international human rights instruments, as well as international documents directly related to local governments.

Международные стандарты на местное самоуправление

Резюме

Поскольку местное самоуправление является формой народной власти, оно связано с обеспечением прав и основных свобод людей, необходимо изучать международные стандарты такого типа управления параллельно с практикой зарубежных стран. Гражданские, политические, экономические, социальные, культурные и др. Ряд международных актов, определяющих международные стандарты в этой области, выходят на первый план. Из них было бы целесообразно проанализировать как общий характер, так и международные документы по правам человека, а также международные документы, непосредственно связанные с местными органами власти.

DOI: 10.36719/2020/REK/01/162-164

Aydan Məlikməmməd qızı Ağayeva
Azərbaycan Turizm və Menecment Universiteti
agayevaaydann@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞMASI TARİXİ

Açar sözlər: *siyasət, gənclər siyasəti, gənclər forumu, inkişaf*
Key words: *politicy, youth policy, youth forum, development*
Ключевые слова: *политика, молодежная политика, молодежный форум, развитие*

Giriş

Bir millətin, dövlətin gələcək inkişafının bünövrəsi məhz elə gənclərdən başlayır. Ölkədə bütün sahələrin, dövlətçiliyin bərqərar olunması və daimi olaraq öz mövcudluğunu saxlaması hər zaman yüksək səviyyəli kadrların hazırlığından və onların aparıcı qüvvə kimi fəaliyyətindən asılıdır.

Azərbaycanda həyata keçirilən gənclər siyasətinin əsas qayəsi məhz elə ilk gündən milli dəyərlərə söykənən, vətəninə, millətinə bağlı müasir düşüncəli gənc nəslin formalaşdırılması və ölkənin inkişafı naminə bu gənc nəslin potensialından istifadə edilməsidir. Dönüb Azərbaycan tarixinə nəzər saldıqda, onun hər mərhələsində ölkəmizin inkişafında gənclərimizin özünəməxsus rol oynadığının şahidi oluruq.

***

Gənclər siyasəti – gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən müvafiq ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir. (1) Sözügedən istiqamət çox geniş spektrı- təhsil, tərbiyə, sağlamlıq, gənclərin intellektual və mənəvi inkişafı, asudə vaxtın səmərəli təşkili, hüquqlarla bağlı maarifləndirmə tədbirləri, ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakçılıq, gənclər təşkilatlarının birgə fəaliyyətinin təmin edilməsi və başqa sahələri əhatə edir.

Ölkəmizdə gənclər tarixin bütün zamanlarda cəmiyyətin həyatında həlledici rol oynamış, xalqımızın əldə etdiyi uğurlarda və həyata keçirilən köklü islahatlarda onların böyük əməyi olmuşdur. Dövlət müstəqilliyin əldə edilməsində də gənclərin əvəzsiz xidmətlərindən bəhs etmək olar. Sovet imperiyasına qarşı azadlıq mübarizəsində, Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatında gənclərimiz daim ön sıralarda düşmənlərlə mübarizə aparmışlar. Həmin dövrdə o zamana qədər mövcud olan SSRİ gənclər təşkilatı olan komsomol təşkilatının mühüm tərkib hissəsi- Azərbaycan komsomol təşkilatını müstəqillik əldə ediləndən sonra yenidən təşkilatlandırmaq, gəncləri dövlət siyasətinin icrasında başlıca subyekt roluna gətirmək labüd xarakter daşıyırdı.

Ötən əsrin 70-ci illərində Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması bir neçə əsaslı dəyişikliklərə səbəb oldu. Belə ki Liseyin fəaliyyətə başlaması ilə gənclərimizdə hərbi peşələrə maraq və vətənpərvərlik hissləri daha da yüksəldi. Hal-hazırda Silahlı Qüvvələrimizdə qulluq edən əksər generallar, zabitlər məhz elə həmin hərbi liseyin məzunlarıdır. (4)

1970-1980-ci illərdə, ümumilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə ölkədə uşaq və gənclərin mənafeyi naminə dövlət siyasəti həyata keçirilmişdir. Belə ki bu dövr ərzində yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış və müasir ixtisaslara yiyələnmişlər. Məhz Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində Sovetlər İttifaqının 50-dən artıq şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsilə yiyələnməsinə, öz sahəsi üzrə yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. (2.,səh.4)

Keçən əsrin 90-cı illərində ölkədə baş verən proseslərin kəskin xarakter daşımağa başladığı dövrdə dövlətin və onun xalqının rifahını təmin edə biləcək islahatların həyata keçirilməsi və yeni addımların atılması labüd xarakter daşımağa başlayırdı. Elə həmin ərəfədə nəinki rəhbərliyin, həm də ölkə gənclərinin də qarşısında duran vəzifə və öhdəliklər dəyişirdi. Uzaqgörən dövlət başçısı gənc nəslin rifah halının yaxşılaşdırılması, dövrün tələbinə uyğun olaraq, onların hüquq və tələbatlarının tam şəkildə təmin olunması üçün əsaslı addımlar atmağa başladı. İlk öncə 1994-cü il 26 iyun tarixində Gənclər və İdman Nazirliyi yaradıldı. Nazirliyin yaradılması ilə dövlət gənclər siyasətində yeni və mühüm işlər həyata keçirməyə başladı, nazirliyin rayonlar üzrə yerli strukturları formalaşdırıldı, gənclərin mənəvi tərbiyəsi, fiziki inkişafı, hüquqları barədə məlumatlandırılma səviyyəsinin yüksəldilməsi, beynəlxalq arenada iştirakçılığı və gənclər təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi bu tarixdən etibarən daha da artmışdır. (4)

I Gənclər Forumu haqqında icmal 1996-cı ildə həyata keçirilən I Gənclər Forumunda gənclərin ali təhsilə yiyələnməsi və bir mütəxəssis olaraq formalaşdırılması ilə bağlı həyata keçirdiyi siyasət haqqında ümumilli liderimiz öz çıxışında bu cür vurğulamışdır: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-

yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışıq. Mən bugün çox böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm."

Forumda təklif edilən məsələlərdən biri keçmiş zamanlarda respublikamızda, Vətənimizdə gənclər təşkilatına məxsus olan əmlakın yenidən gənclərin öhdəliyinə verilməsi ilə bağlı idi. Heydər Əliyev bu məsələyə münasibət bildirərək qeyd etmişdir: Həm idman, bədən tərbiyəsi təşkilatlarının əmlakının dağıdılması, həm də gənclər təşkilatları əmlakının dağıdılması ilə bağlı çoxlu çıxışlar oldu. Bunlar həqiqətdir, dağıdılıblar. Ancaq, eyni zamanda bəzi hissəsi qalmışdır. Müstəqil Azərbaycan Respublikası keçmiş illərdə ölkədə olan bütün əmlakın və mülkiyyətin varisidir. Məhz bu səbəbdən gənclərə aid olan bütün əmlak, hesab edirəm ki, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə verilməlidir". (3, səh. 94)

1996-cı ilin fevral ayında keçirilən gənclərin I Forumu dövlət gənclər siyasətində keyfiyyətcə yeni mərhələnin, bu sahədə atılacaq daha böyük addımların bağlanğıcı oldu. Bu forumda dövlət rəhbərin uzun və dərinmənalı çıxışı bundan dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bundan sonrakı uzunmüddətli fəaliyyət planına çevrildi, respublikamızın hər yerində, bütün dövlət və sosial qurumlarda gənclərlə işin canlanmasına səbəb oldu. Ölkə rəhbəri Heydər Əliyev 1996-cı il 2 fevral və 1999-cu il 29 iyulda keçirilən Gənclər Forumunda şəxsən özü iştirak edərək, ölkə gəncinin problemləri və əsas hədəfləri ilə şəxsən tanış oldu. İlk Forumun nəticələri nədən ibarət idi? 1997-ci il fevralın 1-də gənclərin I Forumunun ildönümü münasibətilə Heydər Əliyev bir qrup gənclə görüşdü və fevralın 2-nin Azərbaycan o gündən etibarən 2 fevral Azərbaycanda Gənclər günü olaraq qeyd olunmağa başladı. Eləcə də, I forumdan sonraki dövr gənclər siyasəti, həmçinin bədən tərbiyəsi və idman sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə əlaqədar olmuşdur.

Həyata keçirilən I Gənclər Forumu bütün gələcək təşəbbüslərin ilk addımı oldu.

II Gənclər Forumu haqqında icmal 1999-cu ildə ölkə prezidenti Heydər Əliyevin də iştirakı ilə Azərbaycanda II Gənclər Forumu baş tutdu. Məhz həmin ildə Prezident "Dövlət Gənclər Siyasəti haqqında" Fərman imzaladı. Həmin sənəddə gələcəkdə həyata keçiriləcək gənclər siyasətinin bütün istiqamətləri öz əksini tapmışdı. Qəbul edilmiş dövlət proqramları, imzalanmış sərəncamlar, fərmanlar, eləcə də digər qanunlar gənc nəslin əsas qüvvə kimi, həmçinin mənəvi cəhətdən formalaşmasına, sosial problemlərin həll olunmasına, gənclərin özünə və eyni zamanda cəmiyyətə faydalı məşğulluğunun təmin edilməsinə, idmanın yeniyetmə və gənclər arasında kütləviləşməsinə müsbət təsir göstərdi.(5)

2 mart Gənclər Forumunda çıxış edən ulu öndər respublikanın ictimai-siyasi həyatında gənclərin fəal iştirakçılığının təmin edilməsi, dövlət orqanlarının məhz elə gənclərin problemlərinin həll edilməsinə yönəltməklə bağlı tövsiyyələr vermişdir. Ulu öndər II Forumda öz çıxışı zamanı bunları qeyd etmişdir: "Siz Azərbaycanın gələcəyisiniz. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti məhz bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız". O gəncləri hər zaman dövlət quruculuğunda və cəmiyyətin gələcək inkişafında fəal iştirakçı kimi görürdü.

2003-cü ilin 13 oktyabr tarixində Azərbaycan gənclərinin III Forumu baş tutdu. Bu forum ötən forumlardan daha öncəki zamanlarda həyata keçirilən işlərin layiqincə dəyərləndirilməsi ilə müşayiət olundu və gənclərə azərbaycançılıq məfkurəsinin aşılanmasının gələcək yolları müəyyənləşdirildi. Bu tarixdən etibarən alınan qərarların yerinə yetirilməsi üçün ölkənin bütün qüvvələri- məsul qurumlar, təşkilatlar, dövlət orqanları səfərbər edildi.

Nəticə

Geniş aspektdən baxsaq, ulu öndər Heydər Əliyevin dövlətin və cəmiyyətin inkişafı üçün müəyyənləşdirdiyi gənclər siyasəti 5 istiqaməti ehtiva edirdi:

- Milli-mənəvi dəyərlərin müdafiəsində gənclərin rolunun artırılması;
- Gənclərin tariximizə, köklərimizə bağlı, vətənpərvərlik ruhunda tərbiyə olunması;
- Gənclərin intellektual potensialının artırılması üçün təhsil və mədəniyyət sahəsində ciddi islahatların həyata keçirilməsi;
- Gənclərin təşkilatlanması yolu ilə onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşdirilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması;
- Gənclərin dövlət idarəçiliyi sahəsində rolunun və məsuliyyət hissinin daha da artırılması, onların beynəlxalq aləmə inteqrasiyasının, bu arenada təmsilçiliyinin təmin edilməsi (6)

Bugün gənclərin fiziki, mənəvi və əqli inkişafının təmin edilməsi, sosial müdafiəyə ehtiyacı olan gənclərə xüsusi qayğının göstərilməsi, xaricdə təhsil alan və təhsil almaq istəyən gənclərin bütün ehtiyaclarının qarşılanması, gənclərin ümumi problemlərinin həlli dövlət tərəfindən həyata keçirilir. Bu əsası ulu öndər

Heydər Əliyev tərəfindən qoyulan uğurlu siyasətin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və bu yeni strategiyaların müəyyənləşdirilməsi, həyata keçirilməsinin bariz göstəricisidir.

Ədəbiyyat

1. Gənclər Müstəqil Azərbaycanın gələcəyinin qurucularıdır, Azərbaycan Gənclərinin II Forumunun materialları "Azərbaycan Qəzeti" 4-9 mart 1999-cu il
2. "Gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu" Bakı-2009, s.4.
3. "Gələcək Gənclərindir". Əbülfəhs Qarayev. 2004, Bakı Azərbaycan Nəşriyyatı. 496 s/s.94
4. https://mod.gov.az/az/pre/25624.html
5. http://anl.az/down/meqale/baki_xeber/2014/may/371233.htm
6. http://xidmet-is.az/gencler-siyaseti/ulu-onder-heyder-eliyev-ve-gencler-strategiyasi/

Forming youth policy in the Republic of Azerbaijan

Summary

The aim of youth policy is to create terms for learning, opportunity and experience, which enable young people to develop knowledge, skills and competences. This allows young people to play an active role in society and their personal development.

More than 30 % of Azerbaijan population is consists of young people, the youth strategy is a priority direction for the government. İn this regard, youth policy model of Azerbaijan can be an example for other countries. All these achievements are the results of Heydar Aliyev's successful strategy.

Today youth policy is carried out on a high level under the leadership of President Ilham Aliyev.

История формирования молодежной политики в Азербайджанской Республике

Резюме

Целью молодежной политики является создание условий для обучения, возможностей и опыта, которые позволяют молодым людям развивать знания, навыки и компетенции. Это позволяет молодым людям играть активную роль в обществе и их личном развитии.

Более 30% населения Азербайджана состоит из молодежи, молодежная стратегия является приоритетным направлением для правительства. В этой связи модель молодежной политики Азербайджана может служить примером для других стран. Все эти достижения являются результатом успешной стратегии Гейдара Алиева. Сегодня молодежная политика проводится на высоком уровне под руководством Президента Ильхама Алиева.

DOI: 10.36719/2020/REK/01/164-167

Айгюль Фикрет гызы Эфендиева
Бакинский славянский университет
aygul185@gmail.com

АЗЕРБАЙДЖАНО-УКРАИНСКИЕ СВЯЗИ В ГУМАНИТАРНОЙ СФЕРЕ

Ключевые слова: *Азербайджан, Украина, гуманитарный, политика, культура, образование, наука, соглашения*
Açar sözlər: *Azərbaycan, Ukrayna, humanitar, siyasət, mədəniyyət, təhsil, elm, saziş*
Key words: *Azerbaijan, Ukraine, humanitarian, politics, culture, education, science, agreements*

Введение

Гуманитарные связи занимают особое место в системе отношений в современном мире. По своему масштабу они охватывают обширную сферу человеческой жизни: от отношений между конкретными индивидами до очень важной части системы межгосударственных отношений, даже объединяющей в себе объединения государств – блоки. Хотя гуманитарные связи, сближающие и примиряющие людей, исторически являются основным актом человеческого развития, тем не менее, в разных исторических условиях появляются новые оттенки в их содержании. Поэтому культурные связи являются неотъемлемой частью общественной жизни.

Культурные связи понятием «культура» охватывают все сферы науки, религии, искусства, спорта, здравоохранения и пр. Гуманитарные связи иногда могут преодолеть самые трудные барьеры и охватить обширное географическое пространство. Ренессанс во Франции XVI века вышел далеко за пределы Европы и охватил более широкое пространство, а его выход за рамки межгосударственных отношений можно объяснить общечеловеческой природой культуры. Культурология доказала, что культура обладает наследственностью, а ее создатель является ценным достоянием всего человечества, и это культурное наследие открыто для носителей разных культур. Поэтому прямое или косвенное осуществление культурных отношений воздействует на ее содержание. Изучение древневосточного или древнегреческого наследия может осуществляться и косвенным образом, но эффект его воздействия по-прежнему сохраняется. Изучая наследие, созданное носителями нашей культуры, мы в то же время налаживаем с ними культурные связи. Эти отношения могут быть межгосударственными или индивидуальными, и обладают разными статусами. Учитывая это, Г.В.Головина пишет, что культура является неотъемлемой частью общественной жизни и должна рассматриваться как неотъемлемая часть общей политики государства. Это общественное явление, которое появляется в результате взаимодействия людей и является ключевым элементом человеческого развития, важной частью их жизни, основным фактором духовного обогащения. Благодаря этому обеспечивается гармоничное развитие членов общества и проявляется творческий потенциал. Культура - это не только нагромождение произведений, созданных как сокровища, не только изучение культуры цивилизованных народов, но и общение с ними, жизненно важная необходимость.

В отличие от 90-х годов прошлого столетия, XXI век предъявил новые критерии подхода к системе международных отношений. Причиной этого стал развал мировой системы социализма и создание современной системы межгосударственных отношений, основанной на новых принципах и общности интересов. В тот период в Восточной Европе и на всем постсоветском пространстве шел процесс формирования новой политико-экономической системы. Глобальные перемены, происходящие в странах данного региона, с необходимостью требовали определения иных подходов не только в политико-экономической, но и в гуманитарной сфере межгосударственных отношений. Наконец, в XXI веке эти государства вступили в качественно обновленную стадию развития, требующую всесторонней модернизации системы международных отношений. В целом, для этого периода характерна тенденция всеобщей глобализации, которая, являясь политическим процессом, заняла прочное место во внешней политике стран мирового сообщества. Эти особенности наиболее отчетливо проявились в гуманитарной политике, как одной из составляющих внешнеполитического курса государства. Как правило, основное содержание гуманитарных связей во внешнеполитическом курсе государства не ограничивается их донорской ролью. Вместе с тем, эти связи – один из важнейших компонентов межкультурной коммуникации. В действительности гуманитарная политика любого государства является фактором, налаживающим «мосты» между странами и народами, что не только полностью оправдано на современном этапе, но и с необходимостью требует своего дальнейшего развития.

Следует отметить, что трансформацию можно считать один из способов формирования новых гуманитарных отношений. Осуществление политики гуманитарной безопасности в процессе общественно-политической реорганизации независимых республик, появившихся на мировой арене после развала советского государства, проявилось, прежде всего, в новых критериях. Установка этих критериев, соответствующих новым общественно-политическим отношениям на фоне обращения к проверенной практике государств мира, направляет гуманитарную трансформацию и проясняет ее содержание. Сущность понятия «гуманитарная трансформация» сводилась к замене идеи «дружбы народов» (составлявшей основу советской политики) новой гуманитарной концепцией. В то время на первый план выдвигались принципы формирования гуманитарной политики в передовых, развитых странах, а также определения ее места в мировой системе гуманитарной политики. При определении направлений внутренней и внешней политики государства в процессе трансформации следует учитывать и анализировать такие серьезные факторы, как гражданская солидарность и недопустимость противостояния – нюансы, требующие взвешенного подхода с точки зрения гуманитарной стратегии. Во время перехода к новым общественно-политическим отношениям в сфере гуманитарной политики Азербайджанского государства были учтены как внутренние, так и внешние стратегические факторы. Эта продуманная и удачная политика в данном направлении, обладающая важной дипломатической ценностью, является в то же время одним из факторов, обеспечивающих успех Азербайджанской Республики на мировой политической арене. Следовательно, исходя из системы новых отношений, выход на новую политическую арену с необходимостью требует формирования внутри государства соответствующих общественно-политических взглядов, создания собственной политической концепции в международном аспекте.

В современной политической литературе часто можно встретить термины «гуманитарная политика», «гуманитарная безопасность», «мягкая сила» – понятия, которые охватывают разные стороны гуманитарных отношений и, вместе с тем, пересекаются в сфере гуманитарной безопасности **[1].** Данный вопрос сближается по своему содержанию с проблемой гуманитарной безопасности всего человечества. Поэтому заместитель Генерального секретаря Организации Объединенных Наций в своем выступлении особо отметил, что в XXI веке гуманитарная безопасность не ограничивается защитой государства от внешних захватчиков и угроз, но также требует борьбы против движений внутри страны, применяющих силу и ведущих народ к деградации **[2].** Понятие «международная гуманитарная связь» охватывает очень широкий круг вопросов.

Критерии для гуманитарных отношений в политике ведущих мировых лидеров имеют относительные различия. Например, в России, как мы уже упоминали, за основу берется единая государственная идеология, в Великобритании и Америке гуманитарные связи принимаются в контексте «культурной дипломатии», тот же нюанс более четко проявляется и в китайской дипломатии, а немецкие дипломаты склонны считать «культурную политику» прежде всего направлением пропаганды. Внешняя (в том числе гуманитарная) политика азербайджанского государства опирается на такие важные политические принципы, как построение демократического, правового государства, обеспечение территориальной целостности страны и создание мощной экономики. В настоящее время суверенитет страны и обеспечение ее территориальной целостности лежат в основе гуманитарной концепции нашего государства. Государственная гуманитарная политика – это системная политика; в любых обществах она охватывает все структуры, от отдельных лиц до крупных коллективов и стран. Эта черта ярко проявляется в украинско-азербайджанских отношениях. Как отмечает Владислав Каневский: «Азербайджано-украинские связи никогда не прерывались, а только углублялись»**[3].** Сотрудничество между Украиной и Азербайджанской Республикой в культурно-гуманитарной сфере осуществляется в рамках имплементации двусторонней договорно-правовой базы и характеризуется интенсивным культурным и научным обменом между двумя странами путем участия их представителей в фестивалях, совместных творческих проектах, научных конференциях, спортивных соревнованиях и других мероприятиях в Украине и АР **[4].** В начале XXI века были заключены ряд договоров протоколов и соглашений в сфере культуры, науки и образовании, между Азербайджаном и Украиной которые заложили фундамент для сотрудничества в этих областях. В целом, и в наступившем новом столетии гуманитарное сотрудничество между Азербайджаном и Украиной продолжала оставаться важным фактором взаимопонимания, доверия, укрепления межнациональных связей. В целом, благодаря достигнутым договоренностям и подписанным документам было заложена надлежащая договорно-правовая база в отношениях между Украиной и Азербайджаном, созданы прекрасные возможности для дальнейшего расширения двустороннего сотрудничества. Безусловно, огромное значение в формировании двусторонних отношений между Азербайджаном и Украиной имеют контакты на высшем уровне, в результате чего создается прочная договорно-правовая база взаимоотношений с этими странами, которая охватывает все сферы сотрудничества– политическую, экономическую, гуманитарную. Именно в ходе официальных визитов и переговоров на высшем уровне вырабатывается общность позиций на международной арене.

Заключение

Таким образом, за последнее десятилетие Азербайджанской Республике удалось наладить всесторонние контакты со славянскими странами, В целом, налаживание и развитие взаимосвязей Азербайджанской Республики со славянскими странами на современном этапе происходит достаточно динамично и плодотворно, что, в свою очередь, призвано способствовать укреплению гуманитарных, политических и экономических позиций нашей страны.

Литература

1. https://cyberleninka.ru/article/n/myagkaya-sila-kak-instrument-politicheskoy-kommunikatsii-i-gumanitarnoy -diplomatii/viewer
2. politike.ru\termin\ qumanitarnaya-bezopasnost.html.
3. https://vesti.az/politika/vladislav-kanevskij-azerbajdzhano-ukrainskie-svyazi-nikogda-ne-preryvalis-a-tolko-uglublyalis-381826
4. https://azerbaijan.mfa.gov.ua/ru/embassy/324-kulyturno-gumanitarne-spivrobitnictvo-mizh-ukrajinoju-ta-azerbajdzhanom

Humanitar sahədə Azərbaycan-Ukrayna əlaqələri
Xülasə

Ümumilikdə, müasir dövrdə Ukrayna-Azərbaycan humanitar münasibətləri normativ-müqavilə bazasının daha da genişləndirilməsi, imzalanmış sazişlərin tam həcmdə reallaşdırılması üçün real perspektivlərə malikdir ki, bu da hər iki ölkə arasında ikitərəfli əməkdaşlığın səviyyəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb ola bilər.

Azerbaijani-Ukrainian relations in the humanitarian sphere
Summary

In general, at the present stage, Ukrainian-Azerbaijani humanitarian relations have real prospects for further expansion of the regulatory and contractual framework, the implementation of signed agreements in full, which can contribute to a significant increase in the level of bilateral cooperation between the two countries.

DOI: 10.36719/2020/REK/01/167-169

Əzizə Ayaz qızı Gülümcanlı
AMEA Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
ezizeayaz@gmail.com

NEFT İSTEHSALINDA AZƏRBAYCAN VƏ SİNQAPUR ƏLAQƏLƏRİ

Açar sözlər: *Sinqapur, neft, qaz, Azərbaycan, Socar, "Keppel", əməkdaşlıq*
Key words: *Singapore, oil, gas, Azerbaijan, Socar, Keppel, cooperation*
Ключевые слова: *Сингапур, нефть, газ, Азербайджан, Socar, Keppel, сотрудничество*

Giriş

Sinqapur neft məhsullarının emalı və yarimkeçiricilərin istehsalı üzrə dünyanın ən böyük mərkəzlərindəndir. Bir çox mütəxəssislər hesab edirlərki, Sinqapur sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün ən yaxşı yerdir. Dünyanın 3000-dən çox nəhəng şirkətləri məhz bu dövlətdə yerləşirki, bu da Sinqapurun maliyyə infrastrukturunun və bazar iqtisadiyyatının geniş sürətli inkişafına gətitib çıxarmışdır. Belə ki, Sinqapur müxtəlif illərdə dünyada bizneslə məşğul olmaq üçün ən asan ölkə (Doing Business 2011 Report), Xarici Ticarət və İnvestisiyalar üzrə Dünya lideri (The Globalization İndex 2010, KOF Süiss Economic İnstitution), Asiya-Sakit oken hövzəsi və bütün dünya üzrə ən yaxşı biznes mühiti olan ölkə (Country Forecasts December 2009, Ecenomist İntelligence Unit), İntellektual mülkiyyətin qurulması üzrə dünyada birinci ölkə (Global Competitiveness report 2010-2011,World Economic Forum) hesab edilib.

Sinqapurun iqtisadiyyatı müəssisələr arası əməkdaşlığa və onların xüsusi ittifaqlarda birləşməsinə yönəldilib. Bu yeni texnologiyaların tətbiqi və yeni məhsulun istehsalına başlaması zamanı daha yaxşı nəticələrə nail olmaq və əməyin səmərəli bölgüsü üçün edilir.

Cənub-Şərqi Asiya regionunun həyatında mühüm rol oynayan Sinqapurla Azərbaycanın xarici siyasət kursunda əlaqələri mühüm istiqamətlərdən birini təşkil edir. Beynəlxalq siyasi, iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi coğrafi baxımdan uzaq xalqların yaxınlaşmasına və nəticə etibarilə möhkəm sülhün bərqərar olmasına kömək edir. Azərbaycan və Sinqapur beynəlxalq münasibətlərin məhz bu istiqamətdə inkişafında maraqlı olduqlarını nümayiş etdirilər. Sinqapurun Azərbaycanla əlaqələri genişləndirmək istəyi ölkəmizin son zamanlar əldə etdiyi böyük uğurlarla şərtlənir. Sinqapur Azərbycanla bütün sahələrdə əməkdaşlıq əlaqələrini daha da genişləndirməkdə maraqlıdır. Hətta bu maraq öz əksini cənab prezident İlham Əliyevin çıxışında da tapmışdır: "Təbiidir ki, ölkələrimiz arasındakı münasibətlər olduqca uğrurla inkişaf edir. Bir çox sahələrdə və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal şəkildə işləyir və əməkdaşlıq edirik."[1] Sinqapurun keçmiş prezidenti Toni Tan da iki ölkə arasındakı əlaqələrə toxunaraq qeyd etmişdirki, münasibətlərimiz ümumi maraq və qarşılıqlı ehtirama söykənir. Daha iri dövlətlərlə əhatə olunmuş kiçik ölkələr kimi, biz beynəlxalq təşkilatların və çoxtərəfli

[1] Глава МИД Сингапура: «Я искренне желаю развития отношений между Азербайджаном и Сингапуром" https://1news.az/news/glava-mid-singapura-ya-iskrenne-zhelayu-razvitiya-otnosheniy-mezhdu-azerbaydzhanom-i-singapurom Baki: 20 Mart 2010, 00:13

forumların əhəmiyyətini alqışlayırıq. Buna görə də təəccublü deyilki ölkələrimiz Qoşulmama hərəkatında və "Kiçik dövlətlərin forumu" kimi beynəlxalq tədbirlərdə yaxşı əməkdaşlıq edirlər.

Sinqapur və Azərbaycan arasında nəzərə çarpan ümumi oxşarlıqlar, energetika və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində əldə edilmiş nəaliyyətlər dövlətləraarası münasibətlərin inkişafında öz sözünü deyir. Sinqapurun iqtisadi cəhətdən sürətlə inkişaf etməsi, həmçinin Azərbaycanın iqtisadi baxımdan lider rolunu oynaması, regionda və beynəlxalq aləmdə nüfuzunun daim artmasıkimi oxşarlıqlar əlaqələrimizin genişlənməsi üçün yaxşı zəmin yaradır. Azərbaycanla Sinqapur arasında neft və qaz sektoru daha geniş əməkdaşlıq sahəsidir. Sinqapur əslində neft və qaz təbii ehtiyatları olan ölkə deyil. Ancaq onların böyük neft-qaz şirkətlərinin fəaliyyətini dəstəkləmək üçün geniş imkanları var. Azərbaycan da bu xidmətlərdən istifadə edən ölkələrdən biri olmuşdur.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın neft strategiyasının mövcudluğu mühüm hadisələrlə əlamətdar olmuşdur. Onun hakimiyyəti dövründə Azərbaycan bir çox xarici neft şirkətlərini cəlb etdi, bir sıra pay bölgüsü sazişi imzaladı, sistematik olaraq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri çəkdi, bir sıra dəniz yataqlarının işlənməsi layihələri həyata keçirildi və Dövlət Neft Fondu yaradıldı.

Dünya səviyyəli texnologiyaların cəlb edilməsi məqsədilə Sinqapurun "Keppel" şirkəti 1997-ci ildə Azərbaycana dəvət edildi və ARDNŞ ilə tərəfdaşlıq əsasında Bakida "Gəmiqayırma zavodu" yaradıldı. Bu regionda qurğuların inşası, təmiri və təkmilləsdirilməsi üzrə beynəlxalq zavoddur. Tarixdə ilk dəfə olaraq, ARDNŞ-Keppel Alyansı Xəzər dənizində bir sıra digər uğurlara imza atdı, bölgədəki ilk özünüqaldıran qazma qurğusu, ilk buzlara davamlı üzən anbar tikdirib istifadəyə verdi.

Neft strategiyasının inkişaf etməsinə prezident İlham Əliyevin yeni bir SOCAR-Keppel Gəmiqayırma zavodunun tikintisi böyük təkan vermişdir. Bu təkan prezident İlham Əliyevin müəyyən etdiyi yeni neft strategiyasına bir dəstək qiymətləndirilir. Bir çox Sinqapur şirkətləri, o cümlədən "Keppel" şirkəti neft və qaz şirkətlərinin əməliyyatlarına dəstək vermekdə davam edirlər. Keppel və ARDNŞ Xəzər Gəmiqayırma şirkətinin Bakida təsis edilməsi ilə öz tərəfdaşlığını başlatdılar. Bu şirkət həm mülki həm də donanma gəmilərini qurmaq və təmir etmək gücünə sahibdirlər.

Bakı Gəmiqayırma zavodunun tikintisinə 2010-cu ilin mart ayında başlanılmışdır və 2013-cü il 20 sentyabr tarixi açılış tarixi kimi tarixə düşmüşdür. Müəssisənin iqtisadi cəhətdən əhəmiyyətinə nəzər salsaq, görərikki, müəssisə Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılığını aradan qaldırdi, Xəzər donanmasını müasirləşdirməyə imkan verdi. Müəssisənin istehsal prosesində lövhəəymə, metalkəsmə, profiləymə, 3D borukəsmərəqəmsal avadanlığı kimi texnoloji avadanlıqlardan istifadə olunmuşdur. Bu zavodda "Keppel" şirkətinin 10 % paya malik olduğu tərəflər – ARDNŞ, AİŞ VƏ Keppel zavodu – arasında imzalanmış nizamnamədə oz əksini tapmışdır. Hətta zavodun bütün operatorluq işi Sinqapurun " Keppel" şirkətinə həvalə edilmişdir.Bütün bunlar da Sinqapur və Azərbaycan iqtisadi əlaqələrinin gözəl təzahürüdür, yeni formasıdır.

Yanvar 2018-ci ildə Sinqapurun "Keppel" gəmiqayırma korporasiyası Azərbaycanda "Caspian Shipyard Company" (CSC) MMC-nin könüllü şəkildə ləğvini açıqlayıb.

Bu barədə korporasiyanın rəsmi saytında yerləşdirilmiş məlumatda deyilir.

Qeyd olunur ki, CSC ləğvolunma proseduruna 26 avqust 1997-ci il tarixli "AzerFELS" ("Keppel Offshore & Marine Ltd" şirkətinin törəmə şirkəti), SOCAR və "Lukoil Europe Holdings BV" arasında imzalanmış şirkətin yaradılması haqqında müqavilə müddətinin başa çatmasından sonra başlayıb.

"Keppel" şirkəti Azərbaycanda fəaliyyətini "Bakı gəmiqayırma zavodu" MMC-də iştirak payı çərçivəsində davam etdirəcək. Bütün bunlar Sinqapur və Azərbaycan əlaqələrinin uzunmüddətli inkişafının davam edecəyinin bariz nümunələrindən biri kimi qiymətləndirilir.

Nəticə

Azərbaycan və Sinqapur arasında həm siyasi həm də iqtisadi əlaqələrin inkişaf xüsusiyyətlərini səciyyələndirsək, hər iki dövlətin əlaqələrinin uzunmüddətli olacağına şübhəsiz dəlalət verir. Həm Sinqapurun həm də Azərbaycanın artmış və artmaqda olan inkişafı bu ölkələrin dünya üzrədə perspektivlərinin böyüyüb genişlənməsinə gətirib çıxarır.

2009-cu ildə yaranan qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı sürətlə böyüməyə davam edərək 9,3 faiz böyümə əldə etdi və bu, dünyada ən yüksək göstəricidir. Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişaf konsepsiyasının formalaşmasının və şaxələndirilməsinin baş tutması üçün çoxlu sayda Sərəncamlar, Fərmanlar vermiş, bu sahənin inkişaf prosesləri daim ciddi səviyyələrdə müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.

Sinqapur öz ölkəsindəki neft qurğularının istifadəsi üçün Azərbaycan neftindən istifadəyə maraqlıdır.

Ədəbiyyat

1. Глава МИД Сингапура: «Я искренне желаю развития отношений между Азербайджаном и Сингапуром" https://1news.az/news/glava-mid-singapura-ya-iskrenne-zhelayu-razvitiya-otnosheniy-mezhdu-azerbaydzhanom-i-singapurom Baki: 20 Mart 2010, 00:13
2. http://www.anl.az/down/meqale/azerbaycan/2012/noyabr/279277.htm Azərbaycan.-2012.- 24 noyabr.- S.1.
3. "Azərbaycan iqtisadiyyatı: Reallıqlar və perspektivlər" Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev. Bakı: «Turxan» NPB, 2016. -536 s.
4. Rza Talıbov. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində Bakı, «Elm və təhsil», 2015, 312 səh.

Azerbaijan-Singapore relations in oil production

Summary

The development of the Singapore state and its opening to the world is mainly based on economic relations.The establishment of economic and political relations between Singapore and Azerbaijan is one of the main goals of Azerbaijan's foreign policy. The construction of oil industry enterprises between the two countries and others. Agreements can also be considered as part of this policy.

Азербайджанско-сингапурские отношения в нефтедобыче

Резюме

Развитие сингапурского государства и его открытие миру в основном основано на экономических отношениях.

Установление экономических и политических отношений между Сингапуром и Азербайджаном является одной из основных целей внешней политики Азербайджана. Строительство предприятий нефтяной промышленности между двумя странами и др. Соглашения также могут рассматриваться как часть этой политики.

DOI: 10.36719/2020/REK/01/169-173

Fuad Firuz oğlu Babayev
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
fuad_ewc@mail.ru

AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ ÖZÜNÜİDARƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *yerli özünüidarə, bələdiyyə, idarəçilik, yerli özünüidarənin təkmilləşdirilməsi*
Key words: *local self-government, main directions of improvement*
Ключевые слова: *местное самоуправление, основные направления*

İlk növbədə bildirmək istərdim ki, Azərbaycan Respublikası K onstitusiyasının 7-ci maddəsinin 1-ci bəndində qeyd olunur ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi və unitar respublikadır. Bu sadalanan amillərin mövcud olması üçün onların hər hansısa bir rəsmi sənəd üzərində yazılması vacib deyildir. Hətta Koreya xalq demokratik Respublikasının adında belə demikratiklik əks olunub, lakin gəlin baxaq bu ölkədə demokratiklikdən söhbəti gedə bilərmi ? Əlbəttə xeyr. Ona görə də hər bir ölkədə demokratikliyi şərtləndirən amillər olmalıdır. Demokratikliyi şərtləndirən amillərə nəzər salsaq görərik ki, ilk növbədə Azərbaycan Respublikasında olduğu kimi hakimiyyətin mənbəyinin xalqa məxsus olması, hakimiyyətin bölgü prinsipi əsasında təşkil olunması, dövləti idarə edən orqnların seçkilər əsasında formalaşması və bunlarla yanaşı yerli özünüidarəetmə hakimiyyətinin bərqərar olması da vacib şərtlərdən biridir.

Cəmiyyətin müasir inkişafının xüsusiyyətləri dövlət hakimiyyətinin əksmərkəzləşdirilməsilə bağlı olan əsas problemlərdən biridir. Son dövrlərdə getdikcə daha çox ölkə "yerli muxtariyyət" şuarı altında islahatlar həyata keçirir, bu ölkələr "açıq" və demokratik cəmiyyət quruculuğu istiqamətində mühüm addımlar atır, onlar üçün hakimiyyətin üfüqi bölgüsü ilə yanaşı, şaquli bölgüsü də mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Əksmərkəzləşdirmə idarəetmənin demokratikləşdirilməsinin və səmərəliliyinin artırılmasına şərait yaratmaqla,

hakimiyyəti xalqa yaxınlaşdırdığı üçün siyasi və inzibati əksmərkəzləşdirmə məsələləri, xüsusilə qərb ölkələrində siyasətçilərin, tədqiqatçıların diqqətini getdikcə daha çox cəlb etməkdədir [1].

Hesab edirəm ki, dünya təcrübəsini nəzərə almaqla əksmərkəzləşdirmə siyasətinin həyata keçirilməsi üçün aşağıdakı şərtlər tələb olunur:

- əksmərkəzləşdirmə dəqiq və daxili ziddiyyətlərdən azad hüquqi sistem çərçivəsində həyata keçirilməlidir;
- hakimiyyətin bütün səviyyələri üçün aydın olan islahat konsepsiyası işlənib hazırlanmalıdır;
- islahatlar ətraflı işlənilmiş səlahiyyət bölgüsü sisteminin olmasını tələb edir;
- səlahiyyətlərin ötürülməsi məcburi addım yox, idarəetmənin səmərəliliyinə nail olmağa yönəldilmiş könüllü və şüurlu hərəkət olmalıdır;
- səlahiyyətləri genişləndirilən orqan cavabdehliyin də artdığını dərk etməli və qəbul etməlidir;
- hakimiyyət subyektləri arasındakı münaqişələri həll etmək mədəniyyəti və siyasi elitaların konsolidə olunmasının müəyyən dərəcəsi mövcud olmalıdır.

Yerli və xarici təcrübəni nəzərə almaqla işlənib hazırlanacaq strategiyanın məqsəd və vəzifələrinin reallaşdırılması səlahiyyətlərin dövlət idarəetmə və yerli özünüidarəetmə orqanları arasında rasional bölüşdürülməsi, hakimiyyətin müxtəlif səviyyələri arasında səmərəli qarşılıqlı fəaliyyətin və əməkdaşlığın təşkil olunması, qərar qəbulu proseslərinin bilavasitə vətəndaşlara maksimum yaxınlaşdırılması əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa və bütövlükdə dövlətin və cəmiyyətin idarə olunmasındakı mövcud problemləri sistemli şəkildə həll etməyə imkan verəcəkdir.

Bu strategiyanın məqsəd və vəzifələrinin reallaşdırılması dövlət idarəetmə sistemində yerli özünüidarəetmənin dayanıqlı mövqelərinin təmin olunmasına, yerli özünüidarəetməyə Konstitusiya zəmanətlərini təmin edəcək ş əraitin yaradılmasına və yerli özünüidarəetmə sisteminin real müstəqilliyinə gətirib çıxarmalıdır ki, bunun üçün aşağıdakı məsələlərin səmərəli həlli tələb olunur [2]:

a) yerli özünüidarəetməyə münasibətin dəyişdirilməsi və onun hakimiyyət quruculuğunun əsası kimi etiraf olunması;

b) yerli özünüidarəetmə orqanlarının və dövlət hakimiyyət orqanlarının səmərəli qarşılıqlı fəaliyyət sisteminin yaradılması.

Azərbaycanda həyata keçirilən əksmərkəzləşdirmə siyasəti bələdiyyələrdə a) demokratik hesabatlılığın və cavabdehliyin gücləndirilməsi; b) idarəetmənin səmərəliliyinin artırılması; c) maliyyə müstəqilliyinin təmin edilməsinə şərait yaratmalıdır. Bu baxımdan əksmərkəzləşdirmə siyasəti yerli özünüidarəetmənin inkişafının maliyyə-iqtisadi, təşkilati və hüquqi aspektləri ilə bağlı bir sıra məsələləri əhatə etməlidir.

Məlum olduğu kimi, əhaliyə lazım olan həcmdə ictimai xidmətlərin göstərilməsini təmin edə biləcək zəruri maliyyə-iqtisadi bazasının olmaması Azərbaycanda yerli özünüidarəetmə orqanlarının ən kəskin problemlərindən biridir. Bu sahədə əsas çatışmazlıqlar aşağıdakılardan ibarətdir:

- bütün səviyyə büdcələrinin formalaşdırılması sisteminin qeyri-şəffaflığı;
- həvalə olunmuş səlahiyyətlərlə onların yerinə yetirilməsinə ayrılmış maliyyə vəsaitlərinin uyğunsuzluğu;
- yerli büdcələrin formalaşdırılmasında xərc prinsiplərindən istifadə olunması. Bu, büdcə prosesinin bütün iştirakçılarını büdcə vəsaitlərinə qənaət etməkdənsə, bu vəsaitləri daha çox xərcləməkdə maraqlı edir.

Ona görə də yerli özünüidarəetmə əksmərkəzləşdirmə siyasətinin maliyyə-iqtisadi aspektləri aşağıdakıları əhatə etməlidir:

- bələdiyyələrin kifayət qədər maliyyə-iqtisadi və resurs bazasının, bələdiyyə mülkiyyətinin formalaşdırılması sahəsində tədbirlərin reallaşdırılmasını nəzərdə tutan maliyyə-iqtisadi əsasların yaradılması;
- yerli büdcələr, büdcədənkənar fondlar, yerli vergi və ödənişlər, kommunal ödəmələr, bələdiyyə müəssisələrinin maliyyəsi kimi yerli maliyyə institutlarına əsaslanan yerli maliyyələrin formalaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi;
- yerli özünüidarəetməyə dövlətin maliyyə yardımı mexanizmlərinin yaradılması.

Azərbaycanda büdcə sisteminin əsas vəzifəsi büdcə prosesinin və büdcələrarası münasibətlərin düzgün nizamlanmasından ibarətdir. Büdcələrarası münasibətlərin yeni sistemi yaradılmalıdır ki, burada müxtəlif səviyyə büdcələri arasında gəlirlərin paylanması və xərclər sahəsində səlahiyyətlərin bölüşdürülməsi qaydaları, yerli büdcələrin həcminin hesablanması və büdcələrarası transfertlərin metodologiyası müəyyənləşdirilməlidir.

Azərbaycanda yeni büdcələrarası münasibətlər funksiyaların, səlahiyyətlərin və cavabdehlik sferalarının icra hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanları arasında dəqiq bölgüsünün aparılmasını tələb edir. Yerli icra hakimiyyətləri və yerli özünüidarəetmə orqanları haqda mövcud qanunvericiliyə və normativ-hüquqi aktlara görə bu orqanların funksiyalarının və səlahiyyətlərinin müəyyənləşdirilməsində geniş təkrarlanmalara yol verilmişdir. Bu isə uyğun sahələrdə onların, xüsusilə də yerli özünüidarəetmə orqanlarının cavabdehliyinin qeyri müəyyənliyinə gətirib çıxarır, onların praktik fəaliyyətinin nəticələrinə dövlət və ictimai nəzarətin zəifləməsinə səbəb olur. Əksmərkəzləşdirmə siyasəti yerli büdcələrin gəlir bazasının onların xərc səlahiyyətlərinə uyğun-

suzluğunu, yerli özünüidarəetmə orqanlarının maliyyə hüquqlarının pozulmasını aradan qaldırmağa yönəldilməlidir. Yaxşı düşünülməmiş büdcə əksmərkəzləşdirməsi müxtəlif iqtisadi potensiallı reqionlarda sosial xidmətlərlə təminat sahəsində bərabər olmayan şəraitin yaranmasına gətirib çıxara bilər. Ona görə də əksmərkəzləşdirmə siyasətinin reallaşdırılması zamanı mümkün risklər nəzərə alınmalı və onların neqativ təsirləri barədə qabaqcadan xəbərdarlıq edilməlidir.

Əksmərkəzləşdirmə siyasətinin hüquqi aspektlərinə gəldikdə deyə bilərik ki, hüquqi normaların dəqiq və mükəmməl olmaması yerli özünüidarəetmə orqanlarının rəhbərləri ilə yerli icra hakimiyyəti orqanlarının rəhbərləri arasındakı münasibətlərdə əlavə gərginliyin yaranmasına və onların işində çətinliklərin meydana gəlməsinə səbəb olur [4]. Buna görə də qanunvericilikdə aşağıdakı xarakterli dəyişikliklərin edilməsinə ehtiyac yaranmışdır:

- yerli özünüidarəetmə orqanlarına verilən müstəsna səlahiyyətlərin qanunvericiliklə dəqiq müəyyənləşdirilməsi;
- bələdiyyələrin yerli büdcə hesabına maliyyələşdirilən müstəsna səlahiyyətlərinin tam siyahısının dəqiq müəyyən edilməsi və Azərbaycan Respublikasının büdcə sistemi haqqında qanunu ilə razılaşdırılması;
- yerli özünüidarəetməyə yardım və inkişaf sahəsində konsepsiya və proqramların işlənib hazırlanması, yerli özünüidarəetmə orqanlarının maliyyə müstəqilliyinin genişləndirilməsi üçün büdcə sistemində islahatların aparılması;
- qanunvericilikdə yerli özünüidarəetmə orqanlarına verilmiş səlahiyyətlərin yerinə yetirilməsini qiymətləndirmək üçün tələblər (standartlar) müəyyənləşdirilməlidir. Qanunda həmçinin bu səlahiyyətlərin yerinə yetirilməməsinə görə məsuliyyət və onun reallaşdırılması mexanizmləri də müəyyən edilməlidir. Bu məsələlərin həlli əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə nəzarətə, səlahiyyətlərini yerinə yetirmədiyinə görə yerli özünüidarəetmə orqanlarının fərdi məsuliyyətinin müəyyənləşdirilməsinə imkan verərdi;
- hakimiyyət səlahiyyətlərinin əksmərkəzləşdirilməsi prinsipindən çıxış edərək mərkəzi və yerli icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları arasında yeni qarşılıqlı münasibətlər sistemi yaradılmalı, yerli icra hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanlarının əməkdaşlığının institusional əsasları müəyyənləşdirilməlidir;
- icra hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanları arasındakı qarşılıqlı münasibətlərdəki problemlər kompleksinin həllini təmin etmək üçün "həvalə olunmuş səlahiyyətlər haqqında" qanun qəbul olunmalı və bu qanunda səlahiyyətlərin həvalə olunması qaydaları və şərtləri, onların resurs təminatı məsələləri ətraflı şəkildə öz əksini tapmalıdır.

Nəzarət isə sadəcə prosedurlara əməl olunmasına və proseslərin yerinə yetirilməsinə deyil, planlaşdırılmış və qiymətləndirilə bilən konkret nəticələrə nail olunub-olunmadığını müəyyənləşdirmək məqsədilə həyata keçirilməlidir [5]. Fikrimcə, yerli özünüidarəetmənin inkişafı sahəsində dövlət siyasəti aşağıdakı istiqamətlərdə formalaşdırılmalıdır: vətəndaşların yerli özünüidarəetməni həyata keçirmək sahəsindəki konstitusiya hüquqlarının reallaşdırılmasının təmin edilməsi; yerli özünüidarəetmə orqanlarının konstitusiya səlahiyyətlərinin reallaşdırılması üçün şəraitin təmin olunması; yerli özünüidarəetməyə dövlət zəmanətlərinin reallaşdırılmasının təmin edilməsi.

Vətəndaşların yerli özünüidarəetmə hüququnun həyata keçirilməsi üçün başlıca şərt əhalinin yerli özünüidarəetmədə iştirakının müxtəlif formalarını reqlamentləşdirəcək və əhalinin rəyinin bələdiyyələrin fəaliyyətində nəzərə alınacağına zəmanətləri müəyyənləşdirən qanunvericilik normalarının olmasından ibarətdir. Lakin normativ-hüquqi təminatdan başqa həm də əhalinin geniş təbəqələrinin yerli özünüidarəetmədə iştirakını real təmin etməyə istiqamətlənmiş dövlət siyasətinin olması da lazımdır. Eyni zamanda, yerli özünüidarəetmə orqanları da öz iş qabiliyyətliliyini sübut etməli, əhaliyə yerli problemləri həll etmək bacarığını nümayiş etdirməlidir.

Azərbaycanda bələdiyyələrin gələcək inkişafı baxımından əksmərkəzləşdirmə siyasəti çərçivəsində xüsusi dövlət yardımı proqramları işlənib hazırlanmalıdır. Belə bir proqramın işlənib hazırlanması və həyata keçirilməsi dövlət siyasəti tədbirləri sistemində birinci mərhələ ola bilərdi.

Yerli özünüidarəetmə sisteminin inkişafı prosesini ləngidən əsas səbəblərdən biri də bu sahədə ənənələrin, elmi təminatın və kifayət qədər ixtisaslı kadrların olmaması və bələdiyyə qulluqçularının bir hissəsinin peşəkarlığının aşağı olmasından ibarətdir. Doğrudur, son illərdə yerli özünüidarəetmənin kadr tərkibinin səviyyəsi xeyli yaxşılaşmışdır, lakin bunu kifayətedici hesab etmək olmaz [6]. Bütövlükdə respublikamızda, demək olar ki, bələdiyyə qulluğunun peşəkarlaşdırılması problemi hələlik həll olunmamışdır və yeni tip mütəxəssislərin formalaşdırılmasına istiqamətlənmiş olan bələdiyyə qulluqçularının peşəkar hazırlığı və ixtisasının artırılması sisteminin yaradılması özünün ilkin mərhələsindədir.

Elə bu səbəbdəndə Azərbaycanda yerli özünüidarənin sisteminin inkişafının ən aktual məsələlərindən biri onların fəaliyyətinin peşəkarlaşdırılmasından və uyğun olaraq kadr təminatından ibarətdir. Respublikamızda yerli özünüidarəetmə sisteminin inkişafı bələdiyyə idarəçiliyini idarəetmə fəaliyyətinin yeni sferası kimi formalaşdırır

və bələdiyyə idarəetməsinin peşəkarlaşdırılması vəzifəsi bu gün heç kimdə şübhə doğurmur. Bu, ona görə baş verir ki, bu gün yerli özünüidarəetmə orqanlarının həll etməli olduğu məsələlər əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqlənir. Peşəkarlığın kifayət qədər olmaması yerli özünüidarəetmə orqanlarının işində kəskin şəkildə nəzərə çarpır. Belə ki, yerli özünüidarəetmənin uğur qazanmasının əsas şərtlərindən biri heyətin təşkilati dəyişiklikləri həyata keçirməyə hazırlığından asılıdır. Burada hər şeydən əvvəl, yerli səviyyədə kadrların siyasi təhlili həyata keçirməyə, maliyyə idarəçiliyini, sahibkarlığı inkişaf etdirməyə bacarığı olan uyğun peşəkar hazırlığı nəzərdə tutulur. Belə hazırlıq səmərəli yardım sisteminin, işə qəbul proqramının, kadrların motivasiyası və irəli çəkilməsinin olmasını tələb edir. Buna görə də respublikamızda yerli özünüidarəetmə sistemi üçün kadr hazırlığı sisteminin yaradılmasına xüsusi ehtiyac duyulur. Bələdiyyə orqanları üçün kadr hazırlığı sisteminin yaradılması hər şeydən əvvəl, bu kadrların cavab verməli olduğu yüksək peşəkarlıq səviyyəsinə tələblərin formalaşdırılmasını, bu səviyyəni təmin etməyə imkan verən tədris planları və hazırlıq proqramının olmasını, tədrisdə yeni təlim metodlarından və texnologiyalarından istifadə olunmasını tələb edir.

Bələdiyyələrin fəaliyyətinin planlaşdırılması idarəetmənin ən vacib funksiyası olub ərazinin inkişaf strategiyası və taktiki məsələlərlə bağlı olur. Qeyd etmək lazımdır ki, hazırda bələdiyyələrdə həyata keçirilən tədbirlər əsasən bir il üçün planlaşdırılır. Belə qısamüddətli planlaşdırma bələdiyyələrin inkişafının strateji (perspektiv) məsələlərinin həllinə imkan vermir və bir çox hallarda bələdiyyənin inkişafının bütün istiqamətlərini əhatə edə bilmir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, vəziyyətin normallaşdırılması üçün yerli özünüidarəetmənin müasir idarəetmə metodları əsasında inkişaf strategiyasının işlənib hazırlanması daha perspektivli ola bilər.

Azərbaycan bələdiyyələrində informasiya texnologiyalarından istifadənin səviyyəsi olduqca aşağıdır. Yerli özünüidarəetmə orqanları bu sahədə planlı idarəetmə fəaliyyəti ilə məşğul olmur, informasiya sistemlərinin işlənib hazırlanması və tətbiqi məsələlərinə kifayət qədər diqqət yetirmirlər. Aydındır ki, yerli özünüidarəetmənin səmərəliliyi onun fəaliyyətinin informasiya şəffaflığının yüksəldilməsindən birbaşa asılıdır. Buna görə də yerli özünüidarəetmənin informasiya təminatını yaxşılaşdırmaq üçün informasiya texnologiyalarından istifadə etməklə müxtəlif sistemlər işlənib hazırlanmalı və tətbiq olunmalıdır [7].

Beləliklə, hesab edirəm ki, Azərbaycan Respubliasında yuxarıda qeyd etdiklərimi nəzərə alaraq işlənib hazırlanan və həyata keçirilən əksmərkəzləşdirmə siyasəti sonda əhalinin, yerli özünüidarəetmənin və dövlət hakimiyyətinin qarşılıqlı fəaliyyətinin səmərəli sisteminin yaradılmasına gətirib çıxarmalıdır. Bu sistemin səmərəli fəaliyyəti bələdiyyə qurumlarının əhalinin mənafelərinə uyğun olaraq dayanıqlı inkişafını təmin etməyə imkan verəcəkdir.

Ədəbiyyat

1. Чанг Дук Чжун, Глобализация и децентрализация: сравнительный анализ на примере Кореи, М., 2002
2. Yanq R., Azadov E. Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər. Bakı - 2005
3. Гневко В.А., Когут А.Е., Развитие местного самоуправления и проблемы кадрового обеспечения. - СПб.: 1996. - 128с.
4. Холлис Г., Плоккер К. На пути к демократической децентрализации: перестройка региональных и местных органов власти в новой Европе, М., 1995
5. Səlimzadə M. Yerli özünüidarəetmə hakimiyyətinin əsasları: nəzəri və praktiki məsələlər. Bakı, "Elm və təhsil" 2010
6. Qəndilov S.T. Heydər Əliyev və dövlət idarəçiliyi // "Heydər Əliyev - müstəqil Azərbaycan dövlətinin qurucusu" kitabında. Bakı - 2003
7. Əhmədov F. Azərbaycanda bələdiyyələrin fəaliyyətində kompüter texnologiyalarının tətbiqi. «XX-XXI: İki əsrin nadir dövlət xadimi və lideri» mövzusunda elmi sessiyanın materialları. Bakı – 2003

Main directions of improvement of local self-government in the republic of Azerbaijan

Summary

The main goal of the decentralization policy implemented in the Republic of Azerbaijan is to define the functions, responsibility boundaries between different levels of government, to create favorable conditions for the effective functioning of local government, and to use local self-government as one of the bases of a democratic state. To achieve these goals, a number of specific actions need to be carried out intentionally. Today, the state should also participate in defining the directions and stages of the policy of decentralization, in developing practical mechanisms and tools for the realization of its goals.

Основные направления совершенствования местного самоуправления в республике Азербайджан

Резюме

Основной целью политики децентрализации, проводимой в Азербайджанской Республике, является определение функций, границ ответственности между различными уровнями управления, создание благоприятных условий для эффективного функционирования местного самоуправления и использование местного самоуправления в качестве одной из основ демократического государства. Чтобы достичь этих целей, ряд конкретных действий должен быть выполнен намеренно. Сегодня государство также должно участвовать в определении направлений и этапов политики децентрализации, в разработке практических механизмов и инструментов для реализации своих целей.

DOI: 10.36719/2020/REK/01/173-176

Nurlana Vasif qızı Əliyeva
AMEA Naxçıvan Bölməsi
Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu
nurlana.aliyeva@yahoo.com

NAXÇIVANIN İNZİBATİ ƏRAZİ QURULUŞUNDA DƏYİŞİKLİKLƏR (1924-1940-ci İLLƏR)

Açar sözlər: *inzibati ərazi quruluşu, Naxçıvan, erməni işğalı, mərhələ, dəyişiklik, Ermənistan*
Key words: *administrative territorial structure, Nakhchivan, armenian occupation, stage, change, Armenia*
Ключевые слова: *административно-территориальное устройство, Нахчыван, армянская оккупация, этап, изменение, Армения*

Naxçıvan qədim insanların ilk məskənlərindən biri, bəşər sivilizasiyasının mühüm ərazilərindən olub, əlverişli coğrafi şəraitdə yerləşən bir diyardır. Bu diyar tarixi inkişafın müxtəlif mərhələlərində bir çox dövlətlərin diqqətini cəlb etmiş və hücumlara məruz qalmışdır. Bununla belə bəzən bir sıra dövlətlər tərəfindən işğal olunsa da həmişə mənsub olduğu dövlətlər və əhali tərəfindən müdafiə olunmuş, Azərbaycanın əzəli və əbədi ərazisi kimi qorunub saxlanılmışdır.

1921-ci il martın 16-dan başlayaraq Naxçıvan bölgəsi əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan MSSR, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır. 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Konstitutusiyasında Naxçıvan Muxtar Respublikasına Azərbaycan Respublikasının tərkibində muxtar dövlət statusu verilmişdir. Şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə Türkiyə Cümhuriyyəti (sərhəd xəttinin uzunluğu 11 km), cənubda isə İran İslam Respublikası (sərhəd xəttinin uzunluğu 204 km) ilə həmsərhəddir. Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində Azərbaycan SSR MİK tərəfindən təsdiq edilmiş Naxçıvan MSSR haqqında əsasnamənin qəbulu ilə başlanmışdır. Əsasnaməyə görə, Naxçıvan Azərbaycan SSR-in tərkib hissəsi kimi ona Muxtar Respublika şəklində daxil olurdu. Naxçıvanın Azərbaycanla qarşılıqlı münasibətləri Azərbaycanın Konstitusiyası ilə müəyyənləşdirilirdi. Bu əsasnamə MR-in ictimai, siyasi, iqtisadi həyatını tənzimləyən əsas qanunverici akt olmuşdur. Bununla da Naxçıvan özünün qanunverici orqanları, icra hakimiyyəti olan muxtar quruma çevrilmişdi.

Naxçıvan ölkəsinin 1924-cü ilə aid kartoqraf N.Rıbakov tərəfindən tərtib edilmiş xəritəsini əsas götürərək bu dövr haqqında məlumat əldə etmək mümkündür. Burada Naxçıvan ölkəsinin ərazisi və əsas yaşayış məntəqələri öz əksini tapmışdır. Xəritədə Naxçıvanla Ermənistan arasındakı "mübahisəli ərazilər" xüsusi olaraq göstərilmişdir. Bunlar indiki Şərur, Kəngərli, Babək, Şahbuz rayonları ilə Ermənistan SSR arasındaki 279 hektar ərazi və Ordubad rayonu ilə Zəngilan arasında qədim Azərbaycan torpağı olan Zəngəzurun bir hissəsidir. Həmçinin Kilit və Qarçevan əraziləri də Naxçıvan ölkəsinin sərhədləri içərisində yer almışdır (4, s.155).

Azərbaycanın müxtəlif ərazilərinə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı ermənilər torpaq iddiaları ilə çıxış etmiş və bu niyyətlərindən əl çəkməmişlər. Bir çox hallarda onlar məqsədlərinə nail olmuşlar. "Böyük Ermənistan" yaratmaq sevdası ilə yaşayan ermənilər hiylə ilə torpaqlarımızı işğal etmişlər. Ermənilər tərəfindən Zəngəzur mahalı, Göyçə torpaqları, Vedibasar ərazisi əlimizdən alınmışdır. Naxçıvan Şimali Azərbaycandan ayrı düşmüşdür. Kərki kəndi işğal olunmuşdur.

Məlumdur ki, Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı onun ərazisi 114 min kvadrat kilometr idi. Bunun 97,4 min kvadrat kilometri mübahisəsiz, 16,6 min kvadrat kilometri "mübahisəli ərazilər" idi (1, s. 422).

1920-ci ilə qədər ermənilər öz məqsədlərinə nail ola bilməmişlər. Ancaq onlar məkrli siyasətləri nəticəsində mərhələ-mərhələ arzularına gerçəkləşdirə bilmişlər. Zaqafqaziyada Sovet hakimiyyətinin qurulduğu dövrdə Azərbaycanın tarixən Naxçıvanla bağlı olan Zəngəzur, Dərələyəz, Qəmərli, İrəvan və Göyçə mahalları və b. bölgələri Rusiyanın havadarlığı ilə Ermənistan tərəfindən ələ keçirildi. Ermənistan Naxçıvanın müxtəlif ərazilərini gizli və aşkar şəkildə ələ keçirməyə cəhd göstərmişdir. 1920-ci ilin yayında Azərbaycanın Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəz kimi mübahisəsiz torpaqları uğrunda Sovet Rusiyası ilə Ermənistan arasında hərbi əməliyyatlarla yanaşı, danışıqlar da davam etdirilmiş, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə edilmişdi. N.Nərimanov V.İ.Leninə məktubunda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdı. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın isə istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." (4, s. 158-159).

1921-ci ildə Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyənin səlahiyyətli nümayəndələrinin RSFSR-in nümayəndəsinin iştiraki ilə imzaladıqları Qars müqaviləsi ilə öz üzərlərinə öhdəliklər götürmüşlər. Müqavilənin birinci maddəsində göstərilir ki, "razılığa gələn tərəflər ərazi məsələləri barədə əvvəlki müqavilələrin qüvvəsini itirmiş hesab edirlər. Zaqafqaziya Respublikaları bir-birinə qarşı ərazi iddiaları ilə tələb qaldırmamağı və üçüncü bir ölkəyə də bu imkanı verməməyi öhdəsinə götürürlər" (4, s.159).

Qars müqaviləsinin 3-cü əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan ölkəsi Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edib. "Naxçıvan ərazisi" başlığı altında verilən əlavədə Ermənistan SSR ilə Naxçıvan Muxtar Respublikası arasındaki sərhəd xəttinin keçdiyi əsas nöqtələr aşağıdakı kimi göstərilib:

(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Qərbi Daşburun (3142) dağına, oradan Şərqi Daşburun (4108) dağına, Cəhənnəm dərəsi, Bağırsaq dağının (6607 və ya 6587) - su ayrıcı xətt üzrə Ravona (bulaq) cənubunda qutarır. Oradan da keçmiş İrəvan Qafqazının və Şərur-Dərələyəz xəttini izləyərək 6629 yüksəkliyindən Kömürlü dağ (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayad dağ (7868), (Qurd qulaq) kəndi Gamasor dağ (8160) - 8022 rəqəmli təpə və Göy dağ (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhəddinin şərqi (6, s. 431).

Naxçıvanın sərhədləri dəqiq göstərilsə də, ermənilər məqsədli surətdə sonrakı illərdə tərtib edilmiş xəritələrdə arzularını gerçəkləşdirmişlər. Belə ki, 1924, 1928, 1932-ci illərdəki xəritələrdə Naxçıvan ərazisi dəqiq göstərilsə də,1929, 1942-ci illər və daha sonraki illərdə tərtib edilmiş xəritələrdə saxtakarlığa yol verilmiş və beləliklə Arazdəyən stansiyası bölgəsindən 400 hektar, Şahbuz ray onunun Kükü ərazisindən 450 hektar ərazi Ermənistan SSR ərazisinə qatılmışdır (4, s. 160).

1924-cü ildə Rıbakov tərəfindən tərtib edilmiş xəritə öz obyektivliyi, təkmil və dəqiqliyi ilə seçilir. Bu xəritədə Sədərək kəndinin "Həsənqulu bağı" deyilən ərazi düzgün olaraq Naxçıvan Muxtar Respublikası ərazisinə daxil edilmişdir. 1929-cu il xəritəsində isə, əksinə "Həsənqulu bağı" Ermənistan SSR ərazisi kimi göstərilmişdir.

1924-cü ildə Naxçıvan MSSR-də 3 qəza (Şərur, Naxçıvan, Ordubad) və 12 dairə təşkil olunmuşdur (7, s. 39; 9, s. 95). 1925-ci ildə qəzalar ləğv edilmiş, dairələrin sayı 10-a çatdırılmışdır: 1. Baş Noraşen rayonu (53 kənd), 2. Qıvraq rayonu (19 kənd), 3. Cəhri rayonu (14 kənd), 4. Tumbul rayonu (30 kənd), 5. Nərimanov rayonu (30 kənd), 6. Əbrəqunus rayonu (29 kənd), 7. Culfa rayonu (4 kənd), 8. Ordubad rayonu (20 kənd), 9. Parağa rayonu (15 kənd), 10. Aza rayonu (ll kənd) (2, s. 34).

1925-ci ildə Naxçıvan MSSR-in inzibati ərazisində təşkil olunan rayonlardan biri Aza rayonudur. Aza rayonu Yuxarı Aza, Aşağı Aza, Kələntər Dizə, Der, Baş Dizə, Sumbatan Dizə, Qoşadizə, Düylün, Düylün Dizə, Gilançay və Dəstə kəndlərini əhatə etmiş və 1930-cu ildə təşkil olunan Ordubad rayonunun tərkibinə daxil edilmişdir. Arxiv materiallarının verdiyi məlumata görə Cəhridə inzibati rayon mərkəzi 1925-ci ildə təşkil olunmuş, rayon Cəhri, Şeytanabad, Əznəbürd, Buzqov, Lizbirt və Kərməçataq kəndlərini əhatə etmiş, 1930-cu ildə ləğv olunaraq Naxçıvan rayonunun (indiki Babək rayonu) tərkibinə daxil edilmişdir. Qıvraqda inzibati rayon mərkəzi 1925-ci ildə təşkil olunmuş və 1930-cu ildə Baş Noraşen rayonu ilə birləşdirilmişdir. 1925-ci ildə təşkil olunan Tumbul və Cəhri rayonları 1930-cu ildə Naxçıvan rayonunun tərkibinə daxil edilmiş və rayonun mərkəzi Naxçıvan şəhəri olmuşdur. Nərimanov inzibati rayon kimi 1925-ci ildə təşkil edilmiş və Yuxarı Şahbuz adı Nəriman adı ilə əvəzlənmişdir. 1930-cu ilin əvvəllərində Şahbuzun əvvəlki adı bərpa edilmiş və ərazi Şahbuz rayonu adlandırılmışdır. 1925-ci ildə təşkil olunmuş Parağa rayonu 15 kəndi əhatə etmiş və 1930-cu ildə Ordubad rayonunun tərkibinə daxil edilmişdir. 1925-ci ildə təşkil olunmuş Tumbul rayonu 30 kəndi əhatə etmiş və 1930-cu ildə Naxçıvan rayonunun (indiki Babək rayonu) tərkibinə daxil edilmişdir (3, s. 185-188).

1926-cı ildə Naxçıvan MSSR (Naxçıvan Sovet Sosialist Respublikası) 8 dairəyə - Baş Noraşen, Qıvraq, Tumbul, Nərimanov, Əbrəqunus, Culfa, Parağa və Ordubad dairələrinə bölünmüş və Şərur, Naxçıvan, Culfa və Ordubad rayonlarına ayrılmışdır. 1930-cu ilin avqust ayında bu rayonlara daha iki müstəqil rayon -Şahbuz və Əbrəqunus

rayonları əlavə edilmiş, beləliklə, muxtar respublikada altı rayon olmuş və 1948-ci ildə Əbrəqunus rayonu Culfa rayonu ilə birləşdirildikdən sonra Naxçıvan MSSR inzibati cəhətdən beş rayona bölünmüşdür (2, s. 34).

1930-cu ildə respublikanın rayonlaşdırılması ilə əlaqədar Naxçıvan ərazisində əvvəllər təşkil edilmiş 8 dairə 5 rayona (Naxçıvan rayonu, Noraşen rayonu, Əbrəqunus rayonu, Ordubad rayonu və Şahbuz rayonu) bölünmüş və 242 yaşayış məntəqə adı qeydə alınmışdır. Ancaq müxtəlif səbəblər üzündən kəndlərin boşaldılması, ucqar ərazilərdə yerləşən kəndlərin münasib ərazilərə köçürülməsi və s. nəticəsində bu günkü adlarla müqayisədə 77 kənd adı başqa adla əvəzlənmiş, yaxud ləğv edilmişdir. Belə ki, Həsəncan, Məmmədhəsənli, Naxış-Nərgiz, Ovçular, Parçı, Qaratağlar, Quşçulu, Sinidizə, Sürəməlik, Şurabad, Təzə-Hacıvar, Əskikənd və s. kimi adlar ancaq arxiv materialları və digər mənbələrdə yaşayır (2, s. 36-37).

Naxçıvanı "böyük Ermənistana" birləşdirə bilməyən ermənilər fürsət düşdükcə himayədarlarının köməyi ilə Naxçıvan ərazisindən müəyyən torpaqları qopara bilmişlər. 18 fevral 1929-cu ildə Zaqafqaziya MİK-nin qərarı ilə 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinin şərtləri kobud surətdə pozularaq Naxçıvanın 9 kəndi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndlərinin, Ordubad qəzasının Qorçevan kəndinin, habelə Kilit kəndi torpaqlarının birhissəsinin əkin sahələri və otlaqları ilə birlikdə Ermənistana SSR-ə verilməsi nəticəsində Naxçıvanın MSSR-in ərazisi 657 kvadrat kilometr azaldı (10, s. 29).

1929-cu ildə Zaqafqaziya Federasiyası Mərkəzi İcraiyə Komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məskənlərindən biri olan Sədərəyin bir sıra yaylaq və yurd yerləri də zorla alınıb erməni daşnaklarına verilmişdir. Həmin yaylaq və yurd yerləri bunlardır: Ərmik, Havuş, Qaşqay, Camışbasan, Haçıc, Əmoğlu, Qaraxəç (Sovetaşen adı qoyublar), Birəli, Şatırgünbəzi (Armaş adlandırıblar), Çanaqçı, Günnüt, Baxçacıq, Yelpin, Qozulça, Palantökən, Asnı, Atdaşı, Kalafaağıl, Hortun, Dübəkli, Alpayoqquşu, Sultanbulağı, Şamo, Danzik, Qədili, Arazdöyən, Gəfərli, Daşxırman, İtölən, İtoturan, Kərki, Yanıq, Gennişik, Ağbulaq, Qaraağac, Kabatağı oğlu və Həsənqulu bağları, Qaraçoban, Nadirin düzü, Qızıldaş (5, s. 106). Göründüyü kimi, heç bir hüquqi əsası olmayan bu qərarla, Türkiyə hökumətinin razılığı və xəbəri olmadan Qars müqaviləsinin şərtləri pozulmuş, Naxçıvan Muxtar Respublikasının 10-a yaxın kəndi, əkin sahələri, otlaqları, biçənəkləri və sair ilə birlikdə əlimizdən alınmışdır.

1930-cu ildə isə Aldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmişdir. Erməni millətçilərinin Naxçıvana qarşı ərazi iddiaları ilə bağlı törətdiyi qanlı cinayətlər Kərki kəndindən də yan keçməmişdir. Hələ 1938-ci ildə Kərki torpaqlarının bir hissəsi Azərbaycan hökumətinin razılığı ilə Ermənistana verilmişdi. Bu barədə protokola Azərbaycan MİK-in işçiləri- ermənilər Qadakçiyan və İsaakyan qol çəkmişdilər. Kənd ərazisinin digər bir hissəsi isə 1969-cu ilin mayında Azərbaycanın o zamankı rəhbərliyinin "səxavəti" üzündən Ermənistana "bağışlanmışdı". Beləliklə Kərkinin bütünlüklə işğal edilməsinə əlverişli şərait yaranmışdı. 1990-cı il yanvarın 15-də Kərki ermənilər tərəfindən işğal edildi (8, s. 294).

Tarixin sonraki mərhələrində ermənilər daha da azğınlaşmış, artıq ayrı-ayrı əraziləri yox, bütövlükdə Naxçıvanın Ermənistana verilməsini dövlət səviyyəsində qaldırmışlar. Lakin onların arzuları ürəklərində qalmış, məsələni öz xeyirlərinə həll edə bilməmişlər. Keçən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində Ermənistan hərbi yolla Naxçıvan Muxtar Respublikasına təcavüz etsə də, məqsədinə nail ola bilməmişdir. Ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı erməni işğalından xilas etmişdir (4, s. 162).

Bu gün də erməni xisləti, erməni təbliğatı öz işindədir. Onlar beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün saxta təbliğatlarını işə salmış, Naxçıvanla, onun tarixi və abidələri ilə bağlı heç bir elmi əsası olmayan uydurmalar irəli sürür, kitablar çap etdirir, konfranslar keçirirlər. Respublika ziyalıları, elmi ictimaiyyət ermənilərin bu uydurma təbliğatlarını ifşa etməli, beynəlxalq ictimaiyyətə doğru-düzgün məlumat çatdırmalıdırlar. Bunun üçün bütün vasitələrdən istifada etməlidirlər. Xalqımızın ümümmilli lideri Heydər Əliyevin dediyi kimi, "... bütün bu iddiaların əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Azərbaycanın ərazi bütövlüyünü nəinki indiki dövrdə, gələcək nəsillər üçün də qoruyub saxlamalıyıq.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm, 2001, 672 s.
2. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
3. Bağırov A. Onomalogiya problemləri, I cild. Bakı: Elm və təhsil, 2010, 436 s.
4. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012, 191 s.
5. Hacı Seyidov. T. Bu zorakılıq, haqqsızlıq xalqının qan yaddaşından heç vaxt silinməyəcək. (Naxçıvan MR-nın statusu). Bakı: 2009, 107 s.
6. İ.E.Atnur. Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921). Naxçıvan: Əcəmi, 2013, 496 s.
7. Naxçıvan Tarixi Atlası. Bakı: 2010, 55 s.

8. Naxçıvan Ensiklopediyası. I cild. Naxçıvan: 2005, 356 s.
9. Naxçıvan Ensiklopediyası. II cild. Naxçıvan: 2005, 376 s.
10. Səfərli F. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər // Azərbaycan MEA Xəbərləri. İçtimai və humanitar elmlər seriyası, 2012, № 1, s. 29.

Changes in administrative territorial structure of Nakhchivan (1924-1940)

Summary

The article deals with the changes took place in the administrative territorial structure of Nakhchivan in 1924-1940. During these years there had been fundamental changes in Nakhchivan's historical geography. In 1924, 1929 and 1930, some of our lands were taken from us and given to the armenians. In later stages of history, the armenians became even more rebellious, and they raised the issue of transferring Nakhchivan to Armenia at the state level. But their wishes did not come true, they could not solve the issue in their favor. In the late 1980s, early 1990s, Armenia attacked the Nakhchivan Autonomous Republic by military means but failed to achieve its goal. Living and working in Nakhchivan, great leader Heydar Aliyev saved Nakhchivan from armenian occupation.

Изменения в административно-территориальном устройстве Нахчывана (1924-1940-е годы)

Резюме

В статье рассказывается об изменениях, произошедших в административно-территориальном устройстве Нахчывана в 1924-1940 годах. За эти годы в исторической географии Нахчывана произошли коренные изменения. В 1924, 1929 и 1930 годах некоторые наши земли были захвачены и переданы армянам. На более поздних этапах истории озверевшие армяне на государственном уровне подняли вопрос передачи не только отдельных территорий, но и в целом всего Нахчывана Армении. Но их мечты остались в их сердцах, они не смогли решить вопрос в свою пользу. В конце 1980-х, начале 1990-х годов Армения агрессивно напала на Нахчыванскую Автономную Республику, но не достигла своей цели. Проживание и деятельность великого лидера Гейдара Алиева в Нахчыване спасли Нахчыван от армянской оккупации.

DOI: 10.36719/2020/REK/01/176-180

Sevda Əli qızı Həsənova
Bakı Avrasiya Universiteti
sevda.hesenova.73.mail.ru

REGİONLARDA MƏŞĞULLUQ VƏ İŞSİZLİYİN TƏMİN OLUNMASINDA ƏMƏK BAZARININ FORMALAŞMASININ ROLU

Açar sözlər: *Əmək bazarı, əmək ehtiyatları, səmərəlilik, kadr hazırlığı, sosial-iqtisadi inkişaf, əmək miqrasiyası, məşğulluq, işsizlik.*
Key words: *Employment, unemployment, labor resources, socio-economic development, labor migration*
Ключевые слова: *Рынок труда, трудовые ресурсы, трудовая миграция, социально-экономическое развитие, обучение, занятость, безработица, эффективность.*

Giriş

Məşğulluq bir insanın iş tapmaq və fəaliyyət göstərmək, eyni zamanda bir işdən digərinə uğurlu keçid etmək qabiliyyətidir. Məşğulluq əldə etmək, saxlamaq və dəyişmək imkanı hər kəsin yaşaması və həyatda uğur qazanması üçün zəruridir. Məşğulluq sahəsinin və əmək bazarının inkişafının əsas parametrlərinin perspektiv qiymətləndirilməsi bütövlükdə regionların sosial-iqtisadi inkişafının proqnozu əsasında verilir. Dinamik və rəqabətədavamlı iqtisadiyyatı təmin etmək üçün əmək bazarı yaxşı işləyən, sürətlə yeni bacarıqlara yiyələnə biləcək yüksək ixtisaslı işçi qüvvəsinin mövcudluğunu zəruri şərt kimi qəbul edilir. Əmək bazarı problemlərinin müəyyənləşdirilməsi məlumatların və təhlilin mövcudluğuna əsaslanmalıdır. Əmək bazarı ictimai bir sistem olmaqla işəgötürənlərin və muzdlu işçilərin maraqlarını uyğunlaşdıran münasibətləri tənzimləyir. Ümumiyyətlə, əmək bazarı əməyin işə götürülməsi, təchizatı ya da onun alqı-

satqısı ilə əlaqəli sosial münasibətlər sistemi kimi başa düşülür. Əmək bazarındakı mərkəzi münasibətlər - işləyən işçi qüvvəsinin yaşayış vasitələri üçün mübadiləsi, yəni real əmək haqqı üçün münasibətlərə əsaslanır. Bu cür münasibətlər tələb mexanizmi vasitəsi ilə həyata keçirilir. Dövlət bu prosesdə iştirak edir, minimum əmək haqqını, iş gününün uzunluğu, işsizlik müavinətlərinin miqdarı və bir sıra digər parametrləri təyin edir.

Əmək bazarı iqtisadiyyatın vacib bir hissəsini təmsil etməklə regionlarda məşğulluğun yaradılması, istehsal və gəlir əldə etməsində böyük rol oynayır. Əmək bazarı məlumat sistemləri məşğulluq və əmək siyasətinin əsasını təmin edir. Məlumat sistemləri daha yaxşı hədəflənmiş siyasətlərin müəyyənləşdirilməsi, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi barədə informasiya verir. Əmək bazarı təhlil edilərkən aşağıdakı əsas məqamlara diqqət edilməlidir:

1. Regional məşğulluq, o cümlədən məşğulluq səviyyəsi, məşğulluq nisbətindəki gender boşluğu və özünüməşğulluq formaları haqqında məlumatlar;
2. Bölgələr üzrə iş məmnuniyyətinə xüsusi diqqət yetirmək;
3. Regional işsizlik: gənclərin işsizliyi və uzunmüddətli işsizlik də daxil olmaqla iki struktur məsələnin təhlili.

Məşğulluq, işdəki insanların sayını ölçür və iş yerlərinin sayından fərqlənir. Çünki bəzi insanların birdən çox işi vardır. Məşğulluq işçilərdən, öz-özünə işləyənlərdən, ödənişsiz ailə işçilərindən və dövlət tərəfindən dəstəklənən təlim və məşğulluq proqramlarında olan insanlardan ibarətdir. Ödənilməyən ailə işçiləri, rəsmi bir əmək haqqı və ya maaş almayan, lakin bu müəssisənin qazancından faydalanan ailə biznesində işləyən insanlar hesab olunur. Hökumətin dəstəklədiyi təlim və məşğulluq proqramları seriyasına bu proqramlara daxil olanların hamısı aid deyil. Buraya yalnız hər hansı bir iş forması, iş təcrübəsi və ya işlə əlaqədar təlim, işçilərə və ya özünə işləyən seriyalara daxil olmayan insanlar aiddir. Bu proqramlar üzrə heç bir iş təcrübəsi və ya işlə əlaqədar fəaliyyətlə məşğul olmayan insanlar məşğulluq hesablamalarına daxil edilmir. Onlar işsiz və ya iqtisadi cəhətdən fəal deyildir. İş qabiliyyəti ömür boyu davamlı, təcrübə qazanma prosesidir. O, yeni biliklər, məqsədyönlü şəkildə öyrənmə və əmək bazarındakı müxtəlif dəyişikliklər nəticəsində məşğulluq əldə etmək və saxlamaq potensiallarını artırmaq üçün bazara çıxmağa kömək edən bacarıqlardır.

Əmək bazarının təhlili regionlarda cari və gələcək bacarıq ehtiyacları haqqında biliklərin yaranmasına, yenilənməsinə və yayılmasına kömək etmək üçün vacib bir məsələdir. Özəl məşğulluq agentlikləri işçilərin iş yerlərinə uyğunlaşdırılmasında və əmək bazarı funksiyalarının təkmilləşdirilməsində getdikcə daha çox rol oynayır. İşçi qüvvəsi və əmək bazarı haqqında məlumat, ölkənin iqtisadiyyatı üçün vacibdir. İşsizliyin təmin olunması istiqamətində formalaşan məqsədli əmək bazarının təşkili üçün vacib olan şərtlər bunlardır:

1. İşgüzar rəqabətə və iqtisadi inkişafa təkan verən ixtisaslı işçi qüvvəsinin yaradılması;
2. Karyeranın gücləndirilməsi və yaxşı iş üçün bacarıq əldə etmək,iqtisadi imkan və karyera yüksəlişinin təmin edilməsi;
3. İşin sürətlə dəyişən mahiyyətinin dərk edilməsi və onun işçi qüvvəsinə necə təsir etməsinin müəyyənləşdirilməsi;
4. İşçi qüvvəsi təlimi və təhsil fondlarına səmərəli xərcləmənin idarə edilməsi.

Əmək bazarı, həm də iş bazarı olaraq, işçilərin təchizatı və işəgötürənlər tərəfindən tələbatın təmin olunduğu əməyə olan tələb və təklifi ifadə edir. Hər hansı bir iqtisadiyyatın əsas tərkib hissəsidir və kapital, mal və xidmətlər bazarları ilə sıx bağlıdır. Makroiqtisadi səviyyədə əmək bazarına tələb və təklif, beynəlxalq bazar dinamikası, habelə immiqrasiya, əhalinin yaşı və təhsil səviyyəsi kimi amillər əsaslı təsir göstərir. Əmək bazarının makroiqtisadi mənzərəsini təsvir etmək çətin ola bilər, lakin bir neçə məlumat nöqtəsi investorlara, iqtisadçılara və siyasətçilərə onun sağlamlığı haqqında bir fikir verə bilər. Birincisi işsizlikdir. İqtisadi gərginlik dövründə iş tələbi təklifi geridə qoyur, işsizlik artır. Yüksək işsizlik dərəcələri iqtisadi durğunluğu şiddətləndirir, sosial vəziyyətə kömək edir və çox sayda insanı normal həyat sürmək imkanından məhrum edir. Əmək məhsuldarlığı əmək bazarının və iqtisadiyyatın sağlamlığının daha bir vacib nöqtəsidir, o, hər saatda əmək məhsulu istehsalını ölçür. İqtisadiyyatda məhsuldarlıq son illərdə texnologiyanın inkişafı və digər səmərəliliyin artırılması səbəbindən yüksəlmişdir. Makroiqtisadi nəzəriyyəyə görə, əmək haqqının artımının məhsuldarlıq artımından geri qalması, işçi qüvvəsinin təklifin tələbdən üstün olduğunu göstərir. Bu baş verdikdə, əmək haqqı aşağı düşür, çünki işçilər az sayda iş üçün yarışır.

Əmək potensialı bütövlükdə cəmiyyət olaraq həm fərdi şəxslərin, həm də müxtəlif işçi qruplarının bütün əmək imkanlarının məcmusudur. Bir işçinin əmək potensialı onun mənəvi keyfiyyətlərini, əmək fəaliyyətində iştirak imkanlarını, müəyyən şərtlər daxilində müəyyən nəticələr əldə etmək bacarığını, əmək prosesini yaxşılaşdırmaq imkanını əks etdirir.

Əmək potensialının keyfiyyət xüsusiyyətlərinə aşağıdakı komponentlər daxildir:

- İşçinin psixofizioloji sağlamlıq vəziyyəti; iş qabiliyyəti, sinir sistemi və insan sağlamlığından asılı olan digər fiziki və psixoloji imkanlar; sağlam həyat səviyyəsi, əməyin təhlükəsizliyi, ətraf mühitin vəziyyəti, tibbi xidmətin səviyyəsi;
- Sosial-demoqrafik vəziyyət; yaşı, cinsi, ailə vəziyyəti, insanın əmək potensialının sosial mühitdən asılılığı, sosial ədalət və sosial təminat;
- İxtisas; təhsilin və ixtisas biliklərinin səviyyəsi, əmək qabiliyyəti, yenilik etmə bacarığı, zəka, yaradıcılıq, peşəkarlıq;
- İntelekt səviyyəsi; cəmiyyətin inkişafının müxtəlif aspektləri, elmi-texniki, iqtisadi və mədəni nailiyyətlər, təhsil səviyyəsi üzrə bilik və təcrübənin toplanması.

Azərbaycanda əmək ehtiyatlarının əsas hissəsini əmək qabiliyyəti yaşında olan əhali təşkil edir. Əmək ehtiyatlarından səmərəli istifadə olunmasında iş yerlərinin attestasiyası əsas rol oynayır. İş yerlərinin attestasiyası yüksək bacarıqlı kadrların cəlb olunmasına, məhsuldarlığın və keyfiyyətin yüksəldilməsinə təsir göstərir. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, yüksək rəqabətli dünya bazarında yüksək səviyyəli kadr potensialı olan ölkələr liderlik edir.

İqtisadi cəhətdən fəal əhali ictimai faydalı fəaliyyətlə məşğul olanlar da daxil olmaqla gəlir gətirən və işsiz, fəal iş axtaran və işə başlamağa hazır olan əhalinin bir hissəsidir. Statistik göstəricilərə əsasən respublika üzrə iqtisadi fəal əhali 2015-ci ildə 231,0 min nəfər, 2016-cı ildə 233,5 min nəfər, 2017-ci ildə 235,5 min nəfər,2018-ci ildə isə 237,4 min nəfər təşkil etmişdir. İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar 2015-ci ildə 231,0 min nəfər, 2016-cı ildə 233,5 min nəfər, 2017-ci ildə 235,5 min nəfər, 2018-ci il üzrə də 237,4 min nəfər təşkil etmişdir.

Məşğulluq statusu ictimai baxımdan faydalı işlərdə çalışan işçi qüvvəsi üçün müəyyən edilir. Buraya gəlir əldə etmək üçün mal və xidmətlər istehsalına əmək təklif edən insanlar qrupu, birbaşa pul gətirməyən və ya mal və xidmət istehsalı ilə birbaşa əlaqəli olmayan lakin gəlir yaradan ictimai faydalı əməkdə iştirak edən insanlar qrupu daxildir. Birinci qrupa iqtisadiyyatın dövlət sektorunda, kooperativlərdə, özəl sektorlarda çalışan vətəndaşlar, ikinci qrupa isə istehsaldan ayrılmaqla orduda xidmət edən vətəndaşlar və tələbələr daxildir.

Ölkəmizdə son illərdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi regionlarda iqtisadi inkişafın təmin olunmasından ibarətdir.İnkişaf strategiyasınınuğurla həyata keçirilməsindəregionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş Dövlət Proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) əsaslı əhəmiyyət kəsb edir. Ölkəmizdə uğurlaicra olunan bu proqramlar regionlarda investisiya mühitinin yaxşılaşdırılmasına, sahibkarlıq və biznes fəaliyyətinin inkişaf etdirilməsinə, infrastrukturun yaxşılaşdırılmasına, məşğulluğun təmin olunmasına və yoxsulluğun minimuma endirilməsinə imkan yaratmışdır.

Hazırda bu imkanlardan çıxış edərək ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda, o cümlədən kənd yerlərində iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi inkişaf gündəliyində ön plana çıxmışdır. [1]

Eyni zamanda əhalinin sosial rifahının yaxşılaşdırılması, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, məşğulluq sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi istiqamətində ardıcıl olaraq Dövlət Proqramları qəbul edilmişdir. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı regionlara investisiya qoyuluşunun artmasına, yeni iş yerlərinin açılmasına, innovasiya fəallığının artırılmasına, məşğulluğun səviyyəsinin yüksəldilməsinə və səmərəliliyin artırılmasına təkan vermişdir. Dövlət Proqramının əsas məqsədi yerli istehsalın dünya bazarında rəqabət qabiliyyətinin gücləndirilməsi, yeni texnologiyalar və innovasiyaların tətbiq edilməsi vasitəsilə əmək bazarının inkişaf etdirilməsi, əmək bazarının tələblərinə uyğun olaraq peşə təhsilinin təkmilləşdirilməsi və müasir tələblərə cavab verən təhsil proqramlarının hazırlanması, təklif edilmiş işçi qüvvəsi ilə mövcud olan iş yerləri arasında balansın təmin edilməsi, məşğulluq və işsizlik səviyyəsinin real qiymətləndirilməsidir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın da əsas məqsədi əmək bazarında insan kapitalının inkişaf etdirilməsi ilə ölkədə məşğulluğun təmin edilməsi və yoxsulluğun azaldılası, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi istiqamətində əsaslı tədbirlərin görülməsindən ibarət olmuşdur. Məşğulluq strategiyasının icrası dövründə işsizlik səviyyəsi 7,3 faizdən 5 faizədək, yoxsulluq səviyyəsi 29,3 faizdən 4,9 faizədək azalmış, əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə, orta aylıq nominal əməkhaqqı 3,8 dəfə artmışdır. [2]

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycan Respublikası üzrə məşğul əhalinin sayı 2017-ci ildə 4822,1 min nəfər, 2018-ci ildə isə 4879,3 min nəfər olmuşdur. Gəncə-Qazax iqtisadi rayonu üzrə bu göstərici 2017-ci ildə 644,3 min nəfər, 2018-ci ildə isə 650,8 min nəfər təşkil

etmişdir. Məşğulluq orqanlarında işsizlik statusu verilmiş şəxslər Azərbaycan Respublikası üzrə 2017-ci ildə 38481 nəfər, 2018-ci ildə 20088 nəfər olmuşdur. Gəncə-Qazax iqtisadi rayonu üzrə isə bu göstərici 2017-ci ildə 2640 nəfər, 2018-ci ildə isə 1326 nəfər təşkil etmişdir. 2018-ci ildə ölkədə iqtisadi fəal əhalinin sayı 2005-ci illə müqayisədə 753,0 min nəfər artaraq 5133,1 min nəfər olmuş, onların da 4879,3 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 253,8 min nəfərini isə işsiz əhali təşkil edir.

Respublikamızda son dövrlərdə aparılan iqtisadi islahatların nəticəsində əmək bazarında müsbət göstəricilər əldə olunmuşdur. Belə ki, 2005-ci ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 30,3 faizini təşkil edirdisə, 2018-ci ildə bu göstərici 23,7 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,3 dəfə artmışdır.

Ölkə ərazisi üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 2019-cu ilin yanvar ayının əvvəli üçün 20,1 min nəfər təşkil etmişdir. İşsizlər arasında qadınların xüsusi şəkisi 2005-ci ildə 51,6 faiz idisə, bu göstərici 2018-ci ildə 37,2 faiz olmuşdur. Rəqabətə davamlı əmək bazarın əsas amillərindən ən vacibi regionlarda əhalinin ixtisası, peşə bacarığı və təhsil səviyyəsi hesab olunur. Regionlar və müxtəlif peşə qrupları üzrə məşğulluğun səviyyəsi bir-birindən fərqlənir. Ölkədə baş verən sosial-iqtisadi dəyişikliklərə, əmək bazarındakı peşə və ixtisaslara olan tələbata uyğun olaraq regionlarda əmək resurslarına olan tələbat da müxtəlif olur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən ölkənin məşğul əhalisinin 30%-dən çoxu müvafiq təhsil səviyyəsinə malikdir.

Nəticə

Bütün qeyd edilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlinir ki, elmi nailiyyətlərə əsaslanan innovasiyaların tətbiqi regionların sosial-iqtisadi inkişafına təkan verir. Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək üçün insan kapitalının inkişafı, müasir bilik və bacarıqlara yiyələnən kadrların mövcudluğu əsas şərtdir. Bu baxımdan ölkədə peşə təhsilinin inkişafı istiqamətində Dövlət Proqramları hazırlanıb və həyata keçirilib. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsilinin və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Bu sənəd əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadr hazırlığı prosesini inkişaf etdirmək məqsədi daşıyır. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strategi baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir. [3] Strateji Yol Xəritəsində peşə təlimi və təhsilinin inkişaf etdirilməsi istiqamətində hədəflər müəyyən olunmuşdur. Əsas hədəflər peşə inkişafı proqramlarının tərtibatı, işəgötürənin peşə təhsili və təlimi sisteminə inteqrasiyası və maliyyələşdirmə sisteminin yaradılmasıdır. Peşə təhsili müəssisələrində hazırlanan kadrlar müasir əmək bazarının tələblərinə cavab verməlidir. Çünki hazırda ölkədə mövcud olan işsizlik problemi yalnız iş yerlərinin məhdudluğu ilə bağlı deyil. Bu sahədə mövcud problem işsiz və ya iş axtaranların müasir əmək bazarının tələblərinə cavab verə bilməməsidir. Regionlarda ixtisaslı kadr qıtlığının mövcudluğu məşğulluğun səviyyəsinə mənfi təsirini göstərir. Ona görə də bu sahəyə diqqət artırılmalıdır. Ölkədə peşə məktəblərinin maddi-texniki bazası gücləndirilməlidir. Müasir əmək bazarının tələblərinə cavab verən ixtisaslara daha çox yer verilməlidir. Peşə təhsili müəssisələri əmək bazarı ilə əlaqəli surətdə fəaliyyət göstərməlidirlər. Kadr hazırlığında qabaqcıl ölkələrin təcrübələrindən istifadə olunmalıdır. Ona görə də əmək bazarı daim izlənilməli və monitorinqi aparılmalıdır.

Ədəbiyyat

1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Bakı, 29 yanvar 2019-cu il. [1. səh.2], 184 s.
2. "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası", [2.səh.1], 11 s.
3. "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafəna dair Strateji Yol Xəritəsi" /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. [3. səh.3], 52 s.
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008, 2009-2013, 2014-2018)
5. Azərbaycan Respublikası Statistika Komitəsinin "Statistik məlumat bazası"
6. Effective local strategis to boost quality job creation, employment and participation. Report for the G20 Labour and Employment Ministerial Meeting Melbourne, Australi, 10-11 september 2014
7. С.Г.Ермолаева «Рынок труда» учебное пособие, Екатеринбург Издательство Уральского Университета, 2015
8. https://www.stat.gov.az
9. http://www.president.azhttp:
10. www.economist.com.
11. www.iqtisadiyyat.com

The role of the labor market in ensuring employment and unemployment in the regions

Summary

The article analyzes the actuality of the problems of the bilateral relations between labor market and employment in the regions of our Republic. One of the main directions of the socio-economic policy of the government of the Republic of Azerbaijan is to ensure full and affordable employment of the population of the regions. The role of the labor market is one of the most important issues while ensuring employment. Studying the situation in labor market is important both in ensuring employment and in analyzing the opportunities for increasing people's living standards. The levels and the types of the employment, the distribution of the employed population by the type of the activity, unemployment rate, economically active population working for hire and for free are the key indicators of the labor market. The article deals with the current state of the regional labor market, development directions, problems in employment and the measures taken in the direction of the labor market regulation in our country.

Роль рынка труда в обеспечении занятости и безработицы в регионах

Резюме

В статье анализируется роль рынка труда в достижении социально-экономического развития и обеспечения занятости в регионах.

Рынок труда, будучи важной частью экономики, играет большую роль в создании региональной занятости, в сокращении безработицы, в расширении производственных площадей, в получении высокого дохода. При анализе рынка труда, должны быть проведены исследования региональной занятости и региональной безработицы. Проведенные анализы помогают в формировании, обновлении и распространении в регионах знаний о текущих и будущих потребностях в навыках.

Эффективное деление производительных сил между регионами, обеспечение экономического развития регионов – является одним из ключевых задач. В то же время важным фактором является развитие человеческого капитала, который является потенциальным индикатором общества, отвечающего требованиям современного рынка труда.

Совершенствование системы профессионального образования в соответствии с требованиями рынка труда является важной проблемой. Все действия, предпринимаемые в этом направлении, могут повысить конкурентоспособность национальной рабочей силы. Это, в свою очередь, обеспечит их интеграцию в международный рынок труда.

PEDAQOGİKA VƏ PSİXOLOGİYA
PEDAGOGY AND SYCHOLOGY
ПЕДАГОГИКА И ПСИХОЛОГИЯ

DOI: 10.36719/2020/REK/01/181-183

Афет Самед гызы Искендерова
Азербайджанский университет языков
afa.iskenderli@mail.ru

СПОСОБЫ ПРЕПОДАВАНИЯ ГРАММАТИКИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

***Ключевые слова**: грамматика, подход, навык, дедуктивный подход, индуктивный подход*
***Açar sözlər**: qrammatika, yanaşma, bacarıq, deduktiv üsul, induktiv üsul*
***Key words**: grammar, approach, skill, deductive approach, inductive approach*

Введение

В настоящее время обучение английского языка рассматривается как обучение коммуникативной деятельности, умению общаться. Студент получает возможность пользоваться языком в его коммуникативной функции, прежде всего на уроке, поэтому внимание учителя направлено на поиск методов для совершенствования урока английского языка, повышение его эффективности.

Изучение иностранных языков составляют несколько аспектов. Одним из таких аспектов является грамматика. В обучении иноязычному говорению грамматика занимает важное место, на котором базируется лексика. Обучение грамматике, а также распознавание грамматических форм в речи и письме происходит посредством формирования грамматических навыков. До сих пор ещё можно услышать среди учителей высказывания, подобные следующим: «Мои студенты грамматику знают, но они говорят и читают с ошибками» или наоборот. «Мои студенты умеют говорить и читать, но они не знают грамматику». Поэтому очень важным является в настоящее время использование коммуникативного подхода при изучении грамматике. Нет сомнения, что знание грамматических правил необходимо для успешного владения языком.

С одной стороны, в настоящее время грамматика является не целью, а одним из важных средств обучения иностранному языку. С другой стороны, студенты при изучении грамматики иностранного языка, не понимают ни практической значимости изучения грамматических терминов и понятий, ни целей грамматического анализа [1, с.39].

В этом случае возникает вопросы: как повысить интерес учащихся к изучению такого сложного раздела как грамматика? Как мотивировать процесс обучения?

Прежде всего, необходимо поставить перед собой, то есть перед учителем, четкие цели. Студенты должны знать и понимать для чего они делают то или иное задание или изучают определенные правила.

Следующее что нужно сделать – это разнообразие заданий. Все задания, которые даются студентам, должны быть внимательно и тщательно отобраны учителем. Выполнение однотичных заданий быстро утомляет студентов, и они теряют интерес к их выполнению.

Также необходимо подумать о самом уроке, то есть о его первой и основной части – Presentation. Только хорошо продуманная презентация нового материала не отолкнет студента, а наоборот вовлечет его в дальнейшее изучение грамматики.

Нужно понимать, что все, что учитель должен сделать на уроке английского языка – это показать примеры в такой форме, чтобы они смогли понять и использовать их на практике.

Коммуникативный подход оказал значительное влияние на методы преподавания всех аспектов английского языка, в особенности грамматики.

В рамках данного подхода основной акцент делается на развитие навыков и умений разговорной речи, в связи, с чем грамматическому аспекту отводится второстепенная роль. Грамматика изучается в процессе общения на языке. Студент сначала осваивает и запоминает слова, выражения, языковые формулы, и только потом начинает разбирать, что они собой представляют в смысле грамматики. В процессе деятельности с грамматическим материалом у студентов постепенно накапливаются

языковые знания и начинают формироваться грамматические навыки. Грамматические навыки делятся на две группы: рецептивные и продуктивные.

К продуктивным навыкам относятся: умение образовывать и употреблять грамматические формы и конструкции, выбирать их в зависимости от ситуации общения, распознавать грамматические конструкции при чтении, а также использовать грамматические явления в письменной речи.

К рецептивным грамматическим навыкам относятся: узнавание грамматической конструкции и соотнесениее ее со смысловым значением, умение отличать одни грамматические конструкции от других, определение структуры простого предложения и порядок слов в английском предложении, определение структуры сложного предложения, устанавливать логические, временные, сочинительные и подчинительные отношения и связи между элементами предложения.

Процесс формирования грамматических навыков может организовываться с точки зрения различных методических подходов. При обучении грамматике английского языка используется два подхода:

1) Дедуктивный подход состоит в том, что преподаватель сначала дает новый материал, поясняет основные правила, после чего студент выполняет ряд упражнений;

2) Индуктивный подход рассчитан на самостоятельное выведение грамматических правил исходя из ряда примеров, которые дает преподаватель.

Основное преимущество дедуктивного подхода, заключается в том, что он позволяет дать новый материал за достаточно короткие сроки и оставляет больше времени на отработку темы, однако он ограничивает самостоятельную активность студентов.

В рамках дедуктивного подхода, преподавание нового грамматичкского материала можно разделить на три основных этапа [2, с.67]:

1) Пояснение нового материала (Presentation): преподаватель записывает ряд примеров с новыми для студентов грамматическими конструкциями, поясняет случаи их употребления, записывает примеры образования вопросительных и отрицательных конструкций, примеры кратких ответов и т.д.;

2) Отработка (Practice): студенты выполняют ряд несложных упражнений, которые сражу же проверяются всей группой. На данном этапе особенно важна обратная связь и контроль со стороны преподавателя за правильностью усвоения нового материала;

3) Продуктивные упражнения (Production): включают такие задания, как составление диалогов, обсуждение различных тем, нахождение сходств и различий на иллюстрациях, составление рассказов и т.д.

С точки зрения индуктивного подхода, грамматика рассматривается как некий ребус, который должны решить студенты. Например, при изучении темы Past Simple преподаватель записывает пример She played tennis yesterday, He worked in the garden last week, etc. после чего студенты самостоятельно выводят правило для образования прошедшего времени, затем выполняется ряд упражнений на отработку. Применение индуктивного подхода подразумевает активное использование различных средств наглядности – иллюстраций, карточек с записанными словами и т.д.

При обучении грамматике преподаватель должен создавать различные коммуникативные и условно-коммуникативные ситуации для закрепления грамматических навыков, т.е. ознакомить студентов с грамматическим материалом, провести и выход в речь этого материала. Коммуникативной подход предполагает формирование грамматических навыков с учетом условий функционирования грамматических структур в речи, т.е. готовит студентов к использованию речевых грамматических навыков в реальной жизни.

При введении новых грамматических явлений важно обратить внимание студентов не только на форму, но также по значение и употребление этого явления [3, с.25]. Зная смысл и коммуникативную функцию изучаемой структуры, студенты не просто заучивают модель, но и могут правильно использовать ее в речи. Для того чтобы обсуждение новой формы вызвало интерес у студентов, можно ввести ее в рассказе, игре и т.д. Например при ознакомлении с Present Continuous Tense Form я, указывая на себя, говорю

I am speaking, а когда читаю я говорю I am reading. Таким образом, комментируя свои действия, я несколько раз повторяю речевые образцы в Present Continuous Tense Form, а затем прошу студентов выполнять действия и комментировать их.

Отрабатывая, структуры в Past Simple Tense Form я использую прием цепочки. Каждому студенту предлагается поучаствовать в составлении рассказа на определенную лексическую тему, например: “Our holiday”. Я придумываю первое предложение: We went to London last year. А студенты продолжают сочинять рассказ, добавляя по одному высказыванию по цепочке.

Для того чтобы тема Second Conditional не казалось студентам не интересной, я объсняю эту тему следующим образом:

Today I'll explain to you unreal condition. И далее я говорю: I am a teacher and I work at the university. But if I were a doctor I would work at the hospital. If I were a shop assistant I would work in a shop. Я заканчиваю презентацию так: But these were only my dreams. Unfortunately, I am not a doctor, I am not a shop assistant.

Заключение

Таким образом, использование данных приёмов позволяет сделать занятия интересными для учащихся, что повышает их мотивацию, чтобы у студентов не было страха при узучении грамматического материала, и соответственно, способствует реализации коммуникативного подхода в обучении грамматики английского языка.

Литература

1. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. Пособие для учителя. М., 2004. 284 с.
2. Пассов Е.И., Залесова Е.Г. Методика обучения иностранным языкам: «Формирование грамматических навыков», комплект пособий №9, Воронеж 2002, 142 с.
3. Соловова Е.Н. Методика обучения иностранным языкам. Базовый курс лекций. М.: Просвещение, 2005, 239 с.
4. Harmer Jeremy. How to teach English. Longman, 1999, 150 p.
5. Thornbury Scott. How to teach grammar. Longman, 1999, 200 p.

İngilis dili dərslərində qrammatikanın tədrisi üsulları

Xülasə

Bu məqalə ingilis dili dərslərində qrammatikanın tədrisi üsullarından bəhs edir. Xarici dilin öyrənilməsinin bir neçə aspektləri var. Bu aspektlərdən biri qrammatikadır. Qrammatikanı öyrənmək xarici dilin öyrənilməsinin ən əhəmiyyətli aspektlərindən biridir, çünki dolğun kommunikasiya qrammatika olmadan baş verə bilməz. Heç bir şübhə yoxdur ki, qrammatik qaydaları bilmək dil öyrənmək üçün zəruridir. Qrammatikanı öyrənmək və fikirləri düzgün ifadə etmək, həmçinin nitqdə və yazıda qrammatik formaları tanımaq qrammatik bacarıqların yaranması ilə baş verir. Qrammatik biliklər tələbələrin şifahi və yazılı nitq bacarıqlarının inkişafına xidmət edir.

Methods of teaching grammar at english lessons

Summary

This article deals with methods of teaching grammar at English lessons. There are a few aspects of the study of foreign languages. Grammar is one of these aspects. Studying grammar is one of the most important aspects of studying of a foreign language because full communication can’t happen without grammar. There is no doubt that knowing grammar rules is important for learning a language. To study grammar and to express opinions correctly and also recognition of grammatical forms in speech and writing occurs by means of formation of grammar skills. Grammar knowledge serves the development of oral and written speech skills of students.

DOI: 10.36719/2020/REK/01/184-186

Aysel Balasultan qızı Şeydayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı
turan.sheydayev@mail.ru

İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRD NİTQİ ÜZƏRİNDƏ DİL HADİSƏLƏRİNİN MÜŞAHİDƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *oxu, dil hadisələri, oxu vərdişləri, pedaqoji ustalıq, intonasiya*
Key words*: reading, language events, reading habits, pedagogical skills, intonation*
Ключевые слова*: чтение, языковые мероприятия, навыков чтения, педагогическое мастерство, интонация*

Məlumdur ki, dilin bir məfhum, norma, qrammatik kateqoriya kimi öyrənilməsi prosesi ibtidai siniflərdən başlanır. Belə bir şəraitdə ibtidai sinif müəlliminin daha dərin hazırlığa malik olması, Azərbaycan dilinin nəzəri məlumatlarını dərindən bilməsi, öyrənmə və öyrətmə metodikasının rəngarəngliyi böyük əhəmiyyət kəsb edir. Geniş dünyagörüşünə malik, intellekt qabiliyyətli, təfəkkürü inkişaf edən, yeniliklərdən baş çıxara biləcək gənclərin hazırlanması təkcə alimlərin araşdırmaları və bu araşdırmaların tətbiqi nəticəsində mümkün ola bilməz. Bunun üçün müəllimlər də mütəmadi tədqiqat xarakterli, məqsədyönlü müşahidələr qurmağı və nəticələr əldə etməyi özlərinə borc bilməlidirlər. İbtidai siniflərdə oxu materialları üzərində dil hadisələrinin müşahidəsini təşkil etmək üçün təbii ki, müasir dövrün tələbi olan fəal təlim metodlarına müraciət etmək daha səmərəli nəticə verəcəkdir. Oxu prosesində dil hadisələrini müşahidə etməyə başlamazdan əvvəl müəllim mövzunun əsas ideyasını, özünün və dərsin məqsədlərini, mühüm anlayışları qabaqcadan müəyyən etməlidir. İbtidai siniflərdə oxu materialları üzərində fonetik, leksik və qrammatik vahidlərdən dil hadisələrinin müşahidəsinin təşkili ümumilikdə şagirdlərin düzgün oxu vərdişlərinin inkişafında mühüm rol oynayır. Düzgün ədəbi tələffüz və dil hadisələri haqqında ətraflı nəzəri məlumata sahib olan müəllim, təbii ki, şagirdlərin nitq və təfəkkürünün inkişafında müsbət təsir göstərə bilər. Müəllim şagirdləri düzgün ədəbi tələffüzə yiyələndirmək məqsədilə mətni müşahidə, nümunəvi nitqi müşahidənin, rəngarəng üsul və vasitələrdən istifadə etmək yolu ilə optimal nəticələrə nail olmalıdır.

Ümumi danışıq dilinin xüsusiyyətlərinin tədqiqi ədəbi dilin öyrənilməsi üçün də xüsusi əhəmiyyətə malikdir. Fərdi ədəbi dil xüsusiyyətlərinə malik nitqin formalaşması prosesi şagirdlərdə ibtidai siniflərdən başlayır. Bu səbəbdən də dilin qanunları, hadisələri, ədəbi dil xüsusiyyətlərinin ibtidai sinif materialları üzərində tədqiq etmək vacibdir.

Bir sıra məktəblərdə apardığımız müşahidələrin nəticələrinə diqqət edək. Quba dialektinin lüğət tərkibində ədəbi dilimizin qədim dövrlərinə aid yazılı abidələrdə işlənən onlarca söz bu günə qədər sadalanmaqdadır. Məhz bu səbəbdən Quba məktəblərində təhsil alan şagirdlərin nitqində müxtəlif dil hadisələri olduqca qabarıq şəkildə özünü biruzə verir.

Assimilyasiya-danışıq dilinə xas olan assimilyasiya hadisəsi bir çox dialekt və şivələrdə olduğu kimi Quba dialektində də geniş yayılmış fonetik hadisələrdəndir.Bu hadisə təsir qüvvəsinə görə tam və yarımçıq, təsir istiqamətinə görə isə irəli və geri olur.

Tam irəli assimilyasiya-

rl-rr- fikirləşdi-fikirrəşdi, hazırlıq-hazurruğ

nl-nn-cavanlıq-cuvannuğ, uzunluq-uzunnnuğ, nd-nn-başından-başunnan ,ixtalatlarunnan-söhbətlərindən, dl-dd-savadlı-savaddı, ld-ll-aldatmaq-allatmağ

Heca düşümü hadisəsi bir sıra dialekt və şivələrdə olduğu kimi Quba dialektində və həmin dialektdə danışan şagird nitqində də özünü göstərir:

tökməyəcəyəm-tükümcağam, yemirəm-yimnəm, dəqiqə-dəgə

Ədəbi dildən fərqli olaraq Aşağı Xuc, Çartəpə, Xucbala kənd şivələrində və ümumiyyətlə Quba dialektində sözlərin əvvəlində , ortasında və axırında samitlərin (h,y,n,m, k,t,d,) artımına və düşümünə rast gəlirik.Bu hadisə şagird nitqində daha qabarıq əks olunur.

Hülməg-ilmək, hindi-indi,itələmək-yitələmağ,zəif-zayıf, zirək-zirəng, bəlkə-bəlkəm,palto-paltik

- Sözün əvvəlində hürmək-ürmağ, hörük-ürüg,yuxarı-uxarı
- Söz ortasında-milçək-miçəg, köhnə-künə, Teyyub-Tiyib
- Söz sonunda yoxdur-yuxdi,dəst-dəs,buzov-buzo

Quba dialektinin şivələrində saitlərin artımı hadisəsi də müəyyən yer tutur.Saitlər sözün əvvəlinə proteza, həm sözün ortasına epenteza artırıla bilər. Stəkan-iskan, spor-ispor

Dissimilyasiya danışıq dilinə xas olan hadisələrdən biridir.Bu hadisədə eyni cinsdən olan 2 səsdən biri həmin sözdən az və ya çox dərəcədə fərqlənən başqa bir səslə əvəz olunur, ya da tamamilə düşür. Dissimilyasiya da assimilyasiya hadisəsi kimi irəli və geri olur:

1. İrəli dissimilyasiyaya aid nümunə: R-l Bu hadisə adətən özünü alınma sözlərdə göstərir:qaral-qərar, zərəl-zərər, qurtaldum-qurtardım
2. Geri dissimilyasiya aid nümunə: ç-ş qaşdı, keşdi, c-j ağajda, sajda

Və ya şagirdlərin dilindən bayatılara baxaq:

Məs giyibbar, məsi var
Yaxada dügməsi var
Dindirmağa quymadi
Bir zalum nənəsi var. və s

Bu nümunələrdən aydın olur ki, bu gün dialekt və şivələrdə müxtəlif dil hadisələri (fonetik, morfoloji, sintaktik) qabarıq şəkildə özünü büruzə verir, bu zaman isə məktəbdə şagirdlərin nitqində bir sıra ədəbi tələffüzdən fərqli danışıq müşahidə olunur. Ailədə və məktəbdənkənar cəmiyyətdə bu cür danışıqla əhatə olunan şagirdin nitqində ədəbi tələffüz normalarının gözlənilməsi, bu normalara uyğun nitq vərdişlərinin aşılanması müəllim üçün olduqca çətinlik törədir.

Ümumilikdə bu hadisə və qanunlar ümumi inkişaf prosesi ilə, dildən istifadə edənlərin anlaşma tələbatı ilə əlaqədar olaraq hər bir dilin lüğət tərkibində, qrammatik quruluşunda, fonetik sistemində, morfologiya və sintaksisində baş verir. Bütün bu hadisə və qanunların öyrənlməsi tədqiqi və tətbiqi dilimizin inişafının göstəricisidir. Məhz bu səbəbdən də istər ana dili proqramlarında, istərsə də ana dili fənn kurikulumlarında nitq inkiaşfı məsələsinə xüsusi yer verilmişdir. Ümumiyyətlə məktəblərdə aparılan müşahidələrə əsaslanaraq deyə bilərik ki, bu gün ibtidai sinif şagirdlərinin oxuduqları materiallarında dil hadisələrinin müşahidəsi üzərində iş lazımi səviyyədə aparılmır. Bəzən bu dil hadisələri danışıq aktında nöqsanlar kimi qələmə verilir. Belə ki ibtidai sinif şagirdlərinin oxuduqları bədii əsərlər, seyr etdikləri təbiət mənzərələrinin onlarda yaratdığı hiss və duyğuları şahid olduqları hər hansı bir hadisəni ifadə etdikləri zaman dil hadisələrinə müraciət etməli olurlar. Bu zaman kənardan müşahidəçi müəllim ya dilçi onların nitqlərindəki bəzi nöqsanları aradan qaldırmağı tapşırır. Bu müəllimlər tərəfindən müşahidə olunan "nöqsanlar" isə adətən dildə oxu materialları üzərində müşahidə olunan dil hadisələri olur.Onu da qeyd etmək lazımdır ki, şagirdlərin Azərbaycan dilindən orta təhsili yalnız biliklər əsasında başa vurmaqla orta-ixtisas və ya ali təhsil müəssisələrinə imtahan verməsi o deməkdir ki, indiki təhsil sistemində gənclərin yazılı və şifahi nitq vərdişlərinin yaradılmasına və təkmilləşdirilməsinə az əhəmiyyət verilir. (3 səh 5)

Müəllim dialekt və şivələrin təsirinin güclü olduğu yerlərdə tədris apararkən ilk öncə müşahidə aparmalı, daha sonra isə işini elə sistemli və ardıcıl qurmalıdır ki, şagird sabah müstəqil həyata atılarkən nitqində problemlə qarşılaşmasın, fikirlərini ədəbi tələffüz normalarına, nitq mədəniyyətinə uyğun ifadə edə bilsin. İbtidai siniflərdə dil hadisələrini müşahidələrdən düzgün istifadə təlimin keyfiyyətini əsaslı şəkildə yüksəldir.

1. Oxu materialları üzərində dil hadisələrinin müşahidəsi şagirdlərin qrammatik –linqvistik biliklərini meydana çıxarır.
2. Müşahidələrin planlı qurulması şagirdlərdə düzgün, şüurlu, savadlı oxunun yaranmasına səbəb olur.
3. Müşahidələr şagirdlərin bacarıqlarına müsbət təsir göstərir.
4. Müşahidə metodundan səmərəli istifadənin orfoqrafik və orfoepik vərdişlərin müşahidəli qavranılmasına optimal təsir edir.

Məhz bütün bunları nəzərə alaraq oxu vərdişlərinin aşılanmasınn səmərəli yollarını tapmaq üçün ümumtəhsil məktəblərində yeni pedaqoji və metodik yanaşmalar, yeni metodik düşüncə tərzi, habelə şagirdlərin nitqinin inkişafı üçün dil hadisələrinin daha dərindən tədqiqi vacibdir.

Ədəbiyyat

1. Ana dili I sinif üçün dərslik. Bakı 2008
2. Azərbaycan dili və ədəbiyyat Metodika və təcrübə. Müəllimlər üçün vəsait. Bakı 2005
3. V.Qurbanov. Azərbaycan dilinin tədrisi metodikası. Müəllim nəşriyyatı. Bakı 2014
4. N.Abdullayev, Z.Məmmədov. Müəllimin nitq mədəniyyəti. Bakı 2001
5. N.Abdullayev, Z.Məmmədov.Azərbaycan dili təlimində ifadəli nitq üzrə aparılan işlər. Bakı 1996
6. N.Ə.Abdullayev. Orfoqrafiya və orfoepiya təlimi məsələləri. Bakı 2008

The importance of observation of language events on student speech in primary classes

Summary

The article talks about the teaching of reading skills. The reading process is a complicated process. Just taking into account the need to find effective ways of encouraging reading habits. To do this, first of all, new

pedagogical and methodological approaches in secondary schools is important. Most importantly, from the primary grades reading materials while conducting surveillance on the study and application of methods.

Важность наблюдения за языковыми событиями
в ученической речи в начальных классах

Резюме

В статье говорится о преподавании навыков чтения. Процесс чтения является сложным процессом. Просто учитывая необходимость поиска эффективных путей стимулирования навыков чтения. Для этого, прежде всего, новые педагогические и методические подходы в средних школах является важным. Самое главное, от начальных классах чтение материалов при проведении наблюдений по изучению и применению методов.

DOI: 10.36719/2020/REK/01/186-188

Aygün Cavanşir qızı Musayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
aygun.musayeva-88@mail.ru

UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA HİSSLƏRİN ROLU

***Açar sözlər**: qloballaşma, şəxsiyyət, hisslər, uşaq və yeniyetmə, davranış*
***Key words**: globalization, personality, feelings, child and teenager, behevior*
***Ключевые слова**: глобализация, личность, чувства, детей и подростков, поведение*

Giriş

Müasir dünya mühüm və mürəkkəb dəyişikliklərin şahididir. Elm və bilik sahələrinin genişlənməsi, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı dünya miqyasında qloballaşma prosesini daha da genişləndirmiş və qloballaşmadan doğan sürətlənmə, dəyişikliklər insanların fərdi və ictimai həyatına da yeni-yeni təsirlər göstərməkdədir. Məhz qloballaşan dünyamızda baş verən bu cür dəyişikliklər insan şəxsiyyətinə, ümumilikdə qeyd etsək insan psixologiyasına təsirsiz ötüşmür. Bu gün Azərbaycanda özünəməxsus şəkildə inkişaf yolu keçən psixologiya elmi yüksək bilik və bacarığa, mütərəqqi dünyagörüşünə malik olan, xalqımızın milli, mənəvi, mədəni dəyərlərinə və ümümbəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən, şəxsiyyət yetişdirilməsi uğrunda çaba göstərən bir elm olaraq irəliləməkdədir. Gərginliyi və dəyişikliyi ilə seçilən müasir dövrdə baş verən hadisələr insan psixologiyasında müəyyən mənada insanlara təsir edir, onların psixikasında müəyyən izlər qoyur. Insan psixikasında özüməxsus yer alan insan hissləri bu təsiri və dəyişikliyi, gərginliyi daha çox təzahür etdirən bir proses kimi ortaya çıxır. Insan hisslərinin onun şəxsiyyətinin formalaşmasında göstərdiyi təsiri araşdırmaq qarşıya qoyulan problemin əsas başlıca məqsədidir.

Problem uşaq və yeniyetmə şəxsiyyətinin formalaşmasında hisslərin təsiri baxımından araşdırılır. Başlıca məqsəd isə şəxsiyyətin inkişafına təsir edən hissləri düzdün istiqamətdə formalaşdırmaqdan ibarətdir.

Hisslər insan beynində onun real münasibətlərinin, yəni tələbatlar subyektinin onun üçün əhəmiyyəti olan obyektlərə münasibətlərinin inikasıdır. Insan hissləri ictimai-tarixi xarakter daşıyır. Yəni insan hisslərinin əsas mənbəyi ictimai həyatdır, insanlar arasındakı qarşılıqlı münasibətdir, cəmiyyət miqyasinda mövcud olan birgə yaşayış qaydalarının gözlənilməsidir. Hisslər qüvvə, davamlılılıq və surətə görə müxtəlif növlərə ayrılır. Bunlar insanın emosional halətindən də asılıdır [1]. Müasir psixologiyada insanın emosional halətlərinin öyrənilməsinə xüsusilə böyük əhəmiyyət verilir. Bu isə təsadüfi deyildir. İnsanda əmələ gələn, günlərlə davam edən emosional halətlər təkcə onun əmək məhsuldarlığına deyil, həm də psixi sağlamlığına, ətraf adamlara mühüm təsir göstərir. Insan hisslərinin çoxluğu, rəngarəngliyi onun özünün ətraf varlığa münasibət bəsləməsindən irəli gəlir.

Müasir dövrümüzə nəzər salsaq görərik ki, yaşadığımız dövr surətli inkişafı və gərginliyi ilə seçilən bir dövrdür. Sözsüz ki, bu inkişaf və dəyişmələr şəxsiyyətin formalaşmasında vacib olan psixoloji amillərə də öz təsirini göstərir. Bu dəyişikliyə məruz qalan sahələrdən biri də yuxarıda qisa da olsa məzmununa toxunduğumuz insan hisslərridir. Hisslər şəxsiyyətin formalaşmasında əhəmiyyətli rola malikdir. Insanın ictimai

həyata, əxlaq normalarına olan münasibətini onların hissləri vasitəsilə təyin etmək mümkündür. Buraya biz əxlaqi, zehni və estetik hissləri daxil edirik. Insan hissləri onun şəxsiyyətinin formalaşmasında da böyük rola malikdir. Bu baximdan uşaq və yeniyetmə şəxsiyyətinin formalaşmasında hisslərin rolu və təsiri danilmaz bir faktdır.

Uşağın həyatında əxlaqi hisslərin çox böyük əhəmiyyəti vardır. Onlar uşağın duyğularını, qavrayışını, təsəvvürlərini, təxəyyülünü müəyyən dərəcədə zənginləşdirir. Uşağın emosiyaları artıq erkən yaşlarda sosial xarakter daşıyır və yaşlılarla, yaşıdları ilə ünsiyyətdə əmələ gəlir. Birinci yaşın axırında və ikinci yaşa keçdikdə oyun ünsiyyəti əsasında yaşıdlarla ünsiyyətdə olmaq cəhdi, rəğbət hissi özünü göstərir. Məktəbəqədər yaşda rəğbət hissi ilə yanaşı yoldaşlıq və dostluq hissləri də formalaşır. Uşaq yalnız bilavasitə müşahidə etdiyi adamın hisslərini başa düşmür, o həm də onun həyacanını təsəvvür edir, dərdinə şərik olur, özünü onun yerinə qoymağı bacarır. Beləliklə, məktəbəqədər yaşlıə uşaq dərdə şərik olmağı, başqasına rəğbət göstərməyi bacarır. Bədii obrazın tərbiyəedici təsiri də bununla izah edilir. Məktəbəqədər yaşda vətənə məhəbbət, digər millətlərdən olan adamlara rəğbət və məhəbbət kimi yüksək əxlaqi hisslərin rüşeymləri özünü göstərir. Bu yaşda formalaşan yüksək mənəvi hisslər arasında uşağın əxlaqi inkişafı üçün şəxsi ləyaqətinin, utancaqlıq hissinin, insaf hissinin və borc hissinin xüsusi əhəmiyyəti vardır. Şəxsi ləyaqət hissi ikinci-üçüncü yaşda özünü göstərir. Əvvəlcə o, davranışın zahiri formaları ilə əlaqədardır (uşaq təzə, gözəl paltarı ilə fəxr edir). Lakin dörd yaşdan sonra o, artıq davamlı xarakter daşıyır. Yaşlıların hərəkəti onun artan imkanlarına cavab vermədikdə uşaq inciyir və etiraz edir.

Utanc – uşaqda öz təsiri üzündən pis hərəkət etdiyinə görə utanmaqla, sıxıntı keçirməklə ifadə olunur. Davranış normaları haqqında biliyi formalaşdıqca uşaq utanmaq hissi keçirməyə başlayır. Utanmaq hissinin ilk rüşeymi davamsız və zəif olur. Üç yaşlı uşaq cəzadan qorxur, özünün pis hərəkətlərindən utanır. Bu da utancaqlıqda, sıxılmaqda, cəsarətsizlikdə özünü göstərir. Lakin özündən narazılıq hissi hələ şüurlu deyildir. Uşaqda ilk utanmaq hissi yaramaz hərəkətlərinə görə "heç utanırsan?" – deyə məzəmmət edən yaşlıların sözü ilə yaranır. Lakin yaşlıların tələbi hələ uşağın inamına çevrilməmişdir. Utanmaq hissi tədricən uşaq şəxsiyyətinin əxlaqi keyfiyyətləri ilə daha sıx birləşir və sosial xarakter alır.

Məktəbəqədər böyük yaşda təcrübə genişləndikcə şüur, şəxsi ləyaqət hissi inkişaf etdikcə uşaqların özünü göstərmə dairəsi genişlənir. Uşaq ətrafdakıların ona münasibətlərini – onun hərəkətlərinə irad tutmalarını, narazılıqlarını fərqləndirməyə başlayır.

Borc hissi – mürəkkəb hisslərdən ibarətdir, onun təsiri ilə uşağın davranışı yaranır. Bu hiss, onun ilk əlamətləri üç-dörd yaşında olan uşaqlarda müşahidə olunur. Uşağın hərəkətləri yaşlılar tərəfindən tərifləndikdə razılıq hissi kimi özünü göstərir. Pis hərəkət yaşlılar tərəfindən tənqid olunduqda uşaq pərt olur, utanmaq hissi keçirir. Yaşlıların uşaqların hərəkətlərini qiymətləndirdikcə, o, emosional hal keçirir. Bunlar onun hərəkətlərinin motivi deyil, ne də onları müşayiət etmir [5]. Beş-altı yaşında olan uşaqlar isə emosional halı öz hərəkətləri, davranışları prosesində keçirirlər.

Uşağın əxlaqi hissləri onları əhatə edən yaxın adamların xeyirxahlığından, həssaslığından, vərdiş etdiyi fəaliyyətdən, onun mütəşəkkilliyindən, düzgün rəhbərlikdən, valideynlərin, tərbiyəçinin tərif və ya məzəmmət etməsindən, irad tutmasından, sonralar isə həmyaşıdların qiymət verməsindən, onların münasibətlərindən asılıdır. Kiçik məktəbyaşı dövründə zehni hisslər də özünəməxsus xüsusiyyətə malik olur. Onlar hər şeyi bilməyə, öyrənməyə həvəs, təlim tapşırıqlarını icra edərkən qarşılaşdığı çətinlikləri aradan qaldırmağa inam və şübhə, müstəqillik, məsələni həll etdikdən sonra özündən razılıq, öz "kəşfləri" ilə fəxr etmək, mənmunluq və s. hisslər diqqəti cəlb edir, emosional müvazinətliliyi böyüklərin hisslərinə yaxınlaşmış olur [4]. Bu yaş dövründə estetik hisslərin formalaşması da uşaq şəxsiyyətində müsbət keyfiyyətlərin toplanmasına şərait yaradır. Bu yaş estetik zövqün tərbiyəsi üçün əlverişli zəmin olur. Təsviri incəsənətin, musiqinin və s. təsiri ilə estetik hisslər sürətlə inkişaf edir. Kiçik məktəb yaşının sonunda biz artıq estetik zövqünə, gözəlliklərə münasibətinə görə heç də yaşlılardan fərqlənməyən şəxsiyyətlə üzləşirik.

Yeniyetmənin şəxsiyyətinin formalaşmasında da hisslərin rolu böyükdür. Yeniyetmə yaşında müxtəlif hisslər meydana çıxır ki, bu da eyni zamanda onun şəxsiyyətində yeni keyfiyyətlərin əmələ gəməsinə səbəb olur. Yeniyetməlik dövründə şəxsiyyətin strukturunda nəzərə çarpan əsaslı dəyişikliklərdən biri, yeniyetmənin özünüdərketməsinin inkişafında keyfiyyətli irəliləyiş baş verməsindən ibarətdir. Psixoloji ədəbiyyatda yeniyetmənin özünüdərk etməsində baş verən bu spesifik törəməni, adətən yaşlılıq hissi adlandırırlar. Bədii, tarixi əsərlərdən və yaşlı nəslin xatirələrindən məlum olur ki, Qarabağ müharibəsi illərində uşaqlar tez "yaşlılaşmışlar". Çünki onlar məcburi qaçqınlıq və köçkün həyatı yaşamış, maddi sıxıntı çəkmiş, valideynlərinə kömək etməli olmuşlar [3]. Deməli, uşaq yaşlılarla çiyin-çiyin çalışdıqca o, nəinki obyektiv cəhətdən, həm də psixoloji baxımdan özünün yaşlandığını hiss edir.

Kiçik məktəblidən fərqli olaraq, yeniyetmələrdə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yaranır. Yeniyetmənin öz davranış və rəftar xüsusiyyətlərini, şəxsiyyətinin digər əlamətlərini dərk etməsi sadəcə psixi keyfiyyət olaraq qalmır. Bu sahədə özünüdərketmə şagirdə öz şəxsiyyətindəki,

davranışındakı qüsurları aradan qaldırmaq, müsbət keyfiyyətləri inkişaf etdirmək imkanı verir. Ona görə də müəllim və valideynlər yeniyetmələrin özünü qiymətləndirməsinə, özünüdərketməsinə tələbatının formalaşmasının qayğısına qalmalıdır.

Yeniyetmə yaşında meydana çıxan tipik hadisələrdən biri də ilk məhəbbət hissidir. Bu yaş dövründə yeniyetmənin cinsi yetişmə prosesinin gedişində əks cinsə seçici simpatik münasibətin təzahürü kimi ilk məhəbbət hissi baş qaldırır. Məhəbbət hissi VI-VIII siniflərdə oxuyan uşaqların psixoloji aləmində bir şimşək kimi çaxır. Yeniyetmələrdə daxili hisslərin ecazkar qüvvəsi baş qaldırır, toxunulmaz ülvi duyğular onların bütün varlığına elə güclü təsir göstərir ki,sanki o sehrli bir qüvvənin çıxılmaz təsiri altina düşmüş olur. Bu yaşda onların uşaq məsumluğu ilə çulğalaşmış ilk məhəbbət hissinə ehtiyatla və hörmətlə yanaşmaq lazımdır. Əks halda yeniyetmə onları ələ salan valideynlərdən, müəllimdən bərk inciyir, onlara etinasızlıq göstərir. Ə.Ə.Əlizadə qeyd edir ki, belə hallar yeniyetmələrdə stress və frustrasiya hallarının yaranmasına gətirib çıxarır [2]. Təbii ki, bu xüsusiyyətlər öz növbəsində formalaşmağa doğru gedən yeniyetmə şəxsiyyətinə mənfi təsir göstərir.

Göründüyü kimi, uşaq və yeniyetmə şəxsiyyətinin formalaşmasında hisslərin rolu boyukdür. Məhz bu baxımdan uşaq və yeniyetmələrdə hissləri düzgün formalaşdırmaq lazımdır ki, onların şəxsiyyətində natamamlıq kompleksləri meydana çıxmasın.

Nəticə

Beləliklə, qeyd edə bilərik ki, insan hissləri çox və rəngarəngdir. Bu rəngarənglikdə uşaq hissləri xüsusilə maraqlı xüsusiyyətləri ilə nəzərə çarpır. Uşaq şəxsiyyətinin formalaşdırılmasında hisslərin rolunu qiymətləndirərkən onların davranışa təsiri məsələləri ön plana keçir. Bəlkə də doğru qeyd etmək olar ki, uşaq şəxsiyyətində formalaşmağa başlayan hisslər onların davranışının təzahürü kimi ortaya çıxır. Uşaq şəxsiyyətini milli, mədəni və mənəvi baxımdan düzgün formalaşmış şəxsiyyətə çevirmək üçün müsbət mənada təzahür edən hissləri onlarda inkişaf etdirməyin əsas meyar olmasını müəyyənləşdirmək vacib amillərdən biridir.

Uşaqlarda hisslərin düzgün formalaşdırılması cəmiyyətin tamlığa sahib şəxsiyyətlərə sahib olması və bu zəmində müasir dünyanın mənəvi mədəniyyət anlamını özündə əks etdirən vətəndaşları yetişdirməsinə şərait yaratmış olur. Cəmiyyətimizdə milli, mədəni, mənəvi və ümumbəşəri dəyərləri özündə əks etdirən, uşaq və yeniyetmə şəxsiyyətinin mükəmməl istiqamətdə inkişafını təmin edən hissləri formalaşdırmaq bu günün aktual məsələləri sırasındadır.

Ədəbiyyat

1. R.İ.Əliyev. Psixologiya. Bakı.Nurlan, 2008
2. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Bakı, 2006.
3. Ə.Ə.Qədirov, İ.N.Məmmədov. “Uşaq psixologiyası”, Bakı, 1996.
4. N.Z.Çələbiyev. “Uşaq psixologiyası”. Bakı, 2005.
5. M.Vəliyev, A.Mustafayev. “İnkişaf və yaş psixologiyası”, Bakı, 2013

The role of feelings in shaping a child’s personality

Summary

The urgency of the chosen topic is that the problem of proper formation of feelings in chiuldren is one of the main problems. It is important to study feelings that occur at different ages and their impact on the child's personality. Moral, mental and aesthetic feelings influence children's behavior. It is an undeniable fact that the events taking place around them and their impact on child psychology. In this regard, it is important to properly direct the feelings formed in children.

Роль чувств в формировании личности ребенка

Резюме

Актуальность выбранной темы заключается в том, что проблема правильного формирования чувств у детей является одной из основных проблем. Важно изучить чувства, возраст, и их влияние на личность ребенка. Как моральные, так и интеллектуальные и эстетические чувства влияют на поведенческие характеристики детей. Неоспорим тот факт, что происходящие вокруг них события и их влияние на детскую психологию. В связи с этим важно правильно руководить чувствами, сформированными у детей.

DOI: 10.36719/2020/REK/01/189-191

Fatma Ağası qızı Əsədova
Bakı Slavyan Universiteti
fatya.asadova @ mail.ru

İNTEQRASİYANIN MÜASİR TƏHSİLDƏ MÖVQEYİ

***Açar sözlər**: inteqrasiya, təhsil, konsepsiya, gələcəyə baxış, kurikulum*
***Key words:** integration, education, conception, vision of the future, curriculum*
***Ключевые слова:** интеграция, образование, концепция, видение будущего, учебная программа*

Giriş

Hazırda dünya yeni bir "inteqrasiya dalğası" yaşayır. İnteqrasiya artıq bir isti qamətdə deyil, təhsildə, mədəniyyətdə, musiqidə və s. kimi sahələrdə özünü göstərir. "İnteqrasiya" termini ötən əsrin sonundan etibarən daha çox istifadə olunmağa başlamışdır. Təhsildə inteqrasiya müasir dövrdə gedən sosial, psixoloji, pedaqoji amilləri özündə birləşdirmiş və tədris prosesinin düzgün və sistemli qurulması əhəmiyyətini xeyli artırır.

Müasir dövrdə ölkəmizdə təhsil sistemi inkişaf etdirən strateji, ümummilli və ümumdövlət əhəmiyyət daşıyan fəaliyyət sahəsinə çevrilmişdir. Hazırda təhsil məzmununun inkişaf etdirilməsi baxımından məqsədyönlü iş gedir. Göstərilənlər ümumtəhsil məktəblərdə pedaqoji kadr hazırlığının daha da təkmilləşdirilməsinə xidmət edir və bu cəhətlərin zəruriliyini ortaya qoyur.

İnteqrasiya təhsili həm strateji mövqedən inkişaf etdirir, həm də təhsildə son nəticədir. Bu baxımdan, ümumtəhsil məktəblərinin əsas vəzifəsi fənlərin tədrisi prosesində tam və ya bütöv halda biliklər verməkdən ibarətdir.

Müasir zamanda inteqrasiya qlobal dünyanın təhsil aləmində aparıcı yer tutur. Ona görə də informasiyanın genişləndiyi bir dövrdə cəmiyyətin sürətlə və dəyişkən dinamikasını izləmək və ona müvaze olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir. Başqa sözlə, inteqrasiyaya müasir təhsilin sadə epitetlərindən biri kimi, şou xarakterli anlayış kimi yanaşmaq olmaz."Təhsildə inteqrasiya dəb, növbəti kampaniya deyildir. O, bu gün insan fəaliyyətinin bütün sferasını xarakterizə edən, əks etdirən bir tendensiyadır". (6.)

Təhsildə inteqrasiyanın, əsasən, yeniliyi ondan ibarətdir ki, inteqrasiya nəticəsində yalnız bir fənnin deyil, eyni zamanda, bir neçə fənnin xüsusiyyətləri təhlil olunur.Təhsildə inteqrasiya bir növ yeni elm sahəsi formalaşdırır. İnteqrasiya təhsil sistemində dəyişiklik edən və onu inkişaf etdirən yeni konsepsiya kimi çıxış edir.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" sənədində təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulmuşdur. İnteqrativ kurikulum şagirdyönümlü, humanistləşən təhsilin fəlsəfəsidir və təlim strategiyalarının qurulması işində böyük rol oynayır. (5,s.110) Göstərilən sənəddə ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur.

Müasir dövr və həyat tərzi şagirdlərdən bizi əhatə edən ətraf - aləm haqqında tam təsəvvür yaratmağı tələb edir. Bu, fənlərin inteqrasiyası müxtəlif hissələrin sadəcə birləşməsi deyil, həmin hissələrin bir-biri ilə əlaqəli şəkildə, üzvi surətdə birləşməsidir. Bununla təlimə fənlərarası əlaqələrin yeni forması, inteqrasiyadan başlamaq məqsədəuyğun hesab olunur. Məqsədə çatmaq üçün təhsildə inteqrasiyanın rolu qaçılmazdır. Təhsildə inteqrasiyanın təşəkkülü təhsilin daha keyfiyyətli və yüksək potensiala malik olma qüvvəsini daha da artırır. "Təhsildə inteqrasiya" anlayışı ilkin olaraq, onun mənasını düşünməyi tələb edir. "İnteqrasiya" sözü formal xarakter daşıyır. Bu termin həyatın bütün sahələrinə şamil olunur. "İnteqrasiya " sözünün mahiyyətini bilmək üçün onun mənasını aydınlaşdırmaq və başa düşmək lazımdır. "İnteqrasiya" latın sözü olub, mənası"integer"-bütöv, bütövləşmə denəkdir. Əslində sözün etimalogiyasına nəzər salsaq, inteqrasiyanın siyasi proses kimi məzmun və vəzifəsini daha aydın ifadə etdiyini müşahidə edə bilərik. "İnteger" sözündən yaranan "inteqrativ" sözü də latın dilindən tərcümədə "bərpa", "tamamlanan" mənalarını ifadə edir.

Hazırkı dövrümüzdə inteqrasiya prosesi qlobal mövzulardan birinə çevrilmişdir. Hər hansı informasiyanın dərk olunmasında, həmin informasiya haqqında daha geniş təsəvvürə malik olmaq üçün inteqrasiya önəmli səciyyə daşıyır. Əldə edilmiş informasiyanın daha əhatəli şəkildə, genişləndirilərək yayılması və öyrədilməsi mühüm amildir. Ona görə də elm və texnologiyanın genişləndiyi, inkişaf etdiyi bir dövrdə cəmiyyətin sürətlə və yüksək səviyyədə dəyişkən dinamikasını izləmək üçün, ona uyğun şəkildə inkişaf etmək üçün birləşmələr, bütövləşmə, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri hesab olunur.

Məsələyə başqa yöndən yanaşsaq, inteqrasiya təhsilin epitetlərindən biri kimi, şok, şişirtmə xarakterli anlayış kimi yanaşmaq düzgün hesab edilə bilməz. "İnteqrasiya" anlayışı təhsilin bütün strukturunu təşkil edən elementlərinə aid olduğu üçün, son zamanlarda "inteqrativ təlim", "inteqrativ fənn", "inteqrativ dərs" və s. kimi anlayışlara daha çox rast gəlinir. Təhsildə inteqrasiya dəb deyil. İnteqrasiya müəyyən sübutlara və dəlillərə söykənən anlayış xarakteri daşıyır. O, insan fəaliyyətini bu gün xarakterizə edən tendensiya kimi çıxış edir. ABŞ filosofu və pedaqoqu Parker təhsilin inteqrasiyası ilə bağlı qarşımızda duran məsələlərə aydınlıq gətirir:" Təhsilin inteqrasiyası məqsəd deyil, strategiyadır. Bu strategiyadan istifadə etməklə dərs planlarını zənginləşdirmək, şagirdlərin anlama imkanlarını dərinləşdirmək və onların ideyalarını ümumiləşdirmə bacarığını artırmaq mümkündür". (5,s.109) Deməli, müəllim dərsdə inteqrasiyanı məqsədə çevirməli deyil, əksinə, dərsin məqsədinə nail olmaq üçün inteqrasiyadan vasitə kimi istifadə etməlidir.

İnteqrasiya ilə bağlı əsas cəhətlərdən biri də fənlərarası və fəndaxili inteqrasiyanın nəzərə alınmasıdır. İnsanlar elmi, məntiqi təfəkkürü formalaşdırmaq, inkişaf etdirmək üçün daim interaktiv təlimdən istifadə etmişlər. Ona görə də, klassik və ənənəvi pedaqoji təlimdə bu məsələyə yer ayrılmış, fənlərarası və fəndaxili əlaqələrdə bu prinsipdən əsas metod kimi danışılmışdır.

Müasir dövrdə informasiyanın çoxalması, elm və texnikanın inkişafı əlaqələrin sıxlaşmasına, sistemli və ardıcıl şəkildə qurulmasına səbəb olmuşdur. Xüsusilə də, təhsildə bu özünü daha aydın göstərir. Fənlərarası və fəndaxili inteqrasiyanın təhsil müstəvisinə gətirilməsi, bunu mühüm təhsil siyasətinin prinsipindən hesab edilməsi də məqsədəuyğun hesab olunur. Məhz buna görə, təhsil sahəsində keçirilən fənlərin, o cümlədən təlimin məzmunu, təşkili və idarə olunması parametrlərində onun ciddi nəzərə alınması barədə nəticələrə gəlinmişdir.

Belə bir fikrə gəlmək olar ki, fənlərarası və fəndaxili münasibətlərin sadəcə bir əlaqə çərçivəsində deyil, inteqrasiya xarakteri daşıması da bu münasibətlərin daha sıx əlaqələnməsinə, möhkəmlənməsinə, onların bütöv bir proses kimi çıxış etməsinə şərait yaradır.

Təhsil proqramında (kurikulumda) inteqrasiya əsas tələblərdən biri kimi çıxış edir. Burada bütün hissələr arasında inteqrasiyanın gözlənilməsinə xüsusi diqqət yetirilir. Hər bir fənnin əsasında duran yeni təhsil proqramının məzmun, strategiya və ya qiymətləndirmə ilə bağlı olan hissələrdə bağlılıq yaradılmış, onlar bütöv bir konseptual sənəd kimi formalaşdırılmışdır.

Fənlər üzrə təhsil proqramlarında(kurikulumda) inteqrasiya fənnin tədris olunmasında əsas məzmun komponentlərindən biri hesab olunur. Təhsil proqramının məzmununda fənlərarası və fəndaxili inteqrasiyanın gözlənilməsi, dövlət standartlarında əlaqəli şəkildə istifadə olunması, onların konkret olaraq göstərilməsi və istifadəyə verilməsi, inteqrasiyanın ciddiliyini sübut edir. Hər hansı bir dərsliyin yazılmasında inteqrasiya bir tələb kimi yerinə yetirilir. Ona görə dərslikləri və ya dərs vəsaitlərini tərtib edənlər bu kimi meyarları gözləməli və dərsliklər də təhsil proqramının tələblərinə uyğun şəkildə tərtib edilməlidirlər. Bu baxımdan interaktiv təlimlə bağlı qanunauyğunluqları bilməli və fəaliyyətlərinin əsasına gətirməlidirlər.

Yeni təhsil siyasətində təlimin inteqrativ məzmununu ardıcıl şəkildən davam etdirilməsi, yeni texnologiyalar əsasında mənimsədilməsini tələb edir. Başqa sözlə, inteqrativ təhsil yeni təlim texnologiyalarının vacibliyini əsas sayır və texnologiyalarının olmasını zəruri hesab edir.

Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında ölkəmizdə aparılan təhsil islahatında, onun məzmununda gedən dəyişikliklərə xüsusi qiymət verilir. Konsepsiyada qeyd edilir ki, "Təhsilin məzmunca yeniləşməsinə istiqamətlənmiş islahat tədbirləri görülmüş, Azərbaycan təhsilinin Avropa təhsil məkanına inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atılmışdır."(7,s.28)

Hazırda aparılan işlərə, islahatyönümlü tədbirlərə və onların sürətinə gələcəyin prizmasında daha yüksək tələblər qoyulur. "Azərbaycan-2020:gələcəyə baxış" inkişaf konsepsiyasında qeyd olunur ki, Azərbaycan təhsilinin dünya və Avropa məkanına inteqrasiyası güclənəcəkdir". Bu fikir ulu öndər Heydər Əliyevin 90-cı illərin sonunda Azərbaycan təhsilinin dünya və Avropa təhsilinə inteqrasiya olunması barədə söylədiyi fikrinin davamı kimi səslənməklə müasir dövrdə təhsil sahəsində vəzifələrimizi müəyyənləşdirir.

Nəticə

Müasir dövr və həyat tərzi şagirdlərdən bizi əhatə edən ətraf aləm haqqında tam təsəffür yaratmağı tələb edir. Bu, fənlərin inteqrasiyası müxtəlif hissələrin sadəcə birləşməsi deyil, həmin hissələrin bir-biri ilə əlaqəli şəkildə, üzvi surətdə birləşməsidir.

Ölkəmizdə aparılan təhsil islahatlarından da göründüyü kimi, əsas fəaliyyət istiqamətlərindən biri təhsildə inteqrasiyanın formalaşdırılması olmuşdur. Fənlərarası və fəndaxili inteqrasiyanın təhsil müstəvisinə gətirilməsi də məqsədəuyğun hesab olunur.

“Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası”(Milli kurikulum) nda əsas prinsip hesab olunan inteqrasiya şagirdlərin təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşün formalaşmasına kömək edir.

Ədəbiyyat

1. “Azərbaycan - 2020: gələcəyə baxış” inkişaf konsepsiyası
2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulum). ”Kurrikulum” jurnalı, 2008,№1.
3. Azərbaycan Respublikasının Milli Kurikulumu. E-mail: kurikulum@mail.ru
4. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, Hüquq ədəbiyyatı,2009.
5. Əhmədov A. Kurrikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, ”Kövsər”, 2008.
6. Əhmədov A.,Abbasov Ə.Azərbaycan müəllimi.-2013-10 may.
7. https://president.az/files/future_az.pdf
8. Qəhrəmanov A. “Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim kursunun iştirakçıları üçün təlim materialı, Bakı,2012.
9. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, ”Mütərcim”, 2007.
10. Məmmədova A., Əsədova F. V sinifdə Azərbaycan dili dərslərində “Kurikulum” proqramının tətbiqi vəziyyəti. Bakı,”Mütərcim”, 2017.

The role of integration in modern education

Summary

The world is now experiencing a new “wave of integration”. Integration develops education both strategically and is also the end result in education. From this point of view, the main task of secondary schools is to give full or complete knowledge in the process of teaching subjects. As a result of integration, the characteristics of not only one subject but also several subjects are analyzed. Integration in education forms a new field of science.

The article notes that integration acts as a new concept that changes and develops the education system. The article also notes the importance of bringing interdisciplinary integration into the educational dimension.

Развитие интеграции в образовании

Резюме

Новый мир переживает «волну интеграции». Интегрированное образование является как стратегическим, так и полезным в образовании. В связи с этим основное развитие средних школ заключается в том, чтобы иметь возможность развивать их в целом или в процессе преподавания предметов. Интеграция не может улучшиться хорошо, но в то же время характеристики нескольких дисциплин развиваются. Новое научное направление интегрируется в образование. В статье отмечается, что развитие и совершенствование системы интеграционного образования является новой концепцией. Другая документация может затем обеспечить междисциплинарное и интегрированное обучение и подготовку.

DOI: 10.36719/2020/REK/01/192-194

Фидан Имран гызы Рагимова
Бакинский славянский университет
e.n.g.i@rambler.ru

РОЛЬ ИНТЕРАКТИВНОГО МЕТОДА В ОБУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Ключевые слова: *интерактивный метод, мотивация, навык, критическое мышление, взаимодействие*
Açar sözlər: *interaktiv metod, motivasiya, bacarıq, tənqidi təfəkkür, qarşılıqlı əlaqə*
Key words: *interactive method, motivation, skill, critical thinking, interaction*

Введение

В последние годы в педагогическом образовании происходят большие изменения, которые охватывают практически все стороны учебного процесса. Всё чаще поднимается вопрос о применении современных педагогических технологий в обучении иностранным языкам. Появляются новые методы обучения, которые, в свою очередь, представляют не только различные технологии средства обмена и передачи информации, с помощью которых осуществляется учебный процесс, но и одну большую систему методов обучения, направленных на развитие коммуникативных знаний учащихся, улучшение навыков речи. Основная задача иностранного языка состоит в обучении практическому овладению иностранным языком, в формировании базисных знаний, то есть способности осуществлять иноязычное и интернациональное общение с носителями языка.

На сегодняшний день перед преподавателями иностранного языка стоит проблема поиска путей повышения познавательного интереса студентов к изучению языка, укрепления их положительной мотивации в учении. Одной из возможностей решения данной проблемы является использование технологии интерактивного обучения. Слово «интерактив» пришло к нам из английского от слово “interact”. “Inter” – это «взаимный», “act” – действовать. Интерактивный метод – это метод взаимодействия, режим диалога, беседы. Он ориентирован на более широкое взаимодействие студентов не только с преподавателем, но и друг с другом и на доминирование активности учащихся в процессе обучения [1, с.80]. Этот метод предполагает со-обучение, причем и студенты и педагог являются субъектами учебного процесса. Учитель выступает в роли организатора процесса обучения, лидера группы, фасилитатора, создателя условий для инициативы учащихся.

В традиционной системе учитель обычно опирается на сильного студента, ведь он быстрее схватывает материал, быстрее его запоминает, а слабый отсиживается на уроке. Уроки, проведённые в интерактивном методе, позволяют включить всех студентов в активную работу, обеспечить каждому студенту посильное участие в решении проблем, в результате слабые обретают некоторую уверенность в собственных силах, сильные ощущают пользу, помогая товарищам понять материал. Если при традиционной системе обучения учитель и учебник были основными источниками знаний, то при интерактивном методе учитель выступает в роли организатора самостоятельной познавательной деятельности студентов, знания же студенты получают в результате своей активной познавательной деятельности. В процессе работы в интерактиве у студентов формируются коммуникативные навыки, способность к сотрудничеству и взаимодействию, развивается критическое мышление. Учебный процесс протекает таким образом, что практически все студенты оказываются вовлеченными в процесс познания, они имеют возможность понимать и рефлектировать по поводу того, что они знают и думают. Совместная деятельность студентов в процессе познание, освоение учебного материала означает, что каждый вносит свой индивидуальный вклад, идет обмен знаниями, идеями, способами деятельности. Происходит это в атмосфере взаимной поддержки, что позволяет студентам не только получать новое знание, но и развивать свои коммуникативные умения: умение выслушивать мнение другого, взвешивать и оценивать различные точки зрения, участвовать в дискуссии, вырабатывать совместное решение. Таким образом, использование интерактивных методов помогает повысить эффективность учебного процесса.

Планируя свои уроки, я думаю не только о том, чтобы ученики запомнили новые слова, ту или иную грамматическую структуру, но и стремлюсь создать все возможности для развития индивидуальности каждого студента. Чтобы поддержать интерес студентов к своему предмету, стараясь понять, какие методы могут увлечь студентов. Мы, учителя иностранного языка, постоянно ищем резервы повышения качества и эффективности обучения. Считаю, что наша главная задача – добиваться того, чтобы не пропадал интерес к изучению иностранного языка.

В качестве интерактивных были предложены и широко используются следующие методы преподавания: кластер, сравнительная диаграмма, пазл, метод проблемного изложения, метод анализа ситуаций, метод

Jigsaw, метод мозгового штурма, метод критического мышления, ролевые игры, метод Insert и многие другие.

Рассмотрим некоторые методы интерактивного обучения иностранным языкам.

Работа в группах – это одна из самых популярных стратегий, так как она дает всем студентам возможность участвовать в работе, практиковать навыки сотрудничества. При таком форме работы мои студенты добываются поставленной цели, сотрудничая друг с другом. На таких уроках все студенты работают и они проявляют речевую самостоятельность. Вся группа заинтересована в усвоении учебной информации каждым ее членом, поскольку успех команды зависит от вклада каждого, а также в совместном решении поставленной перед группой проблемы. Каждый получает возможность реализоваться в том, что является его сильной стороной и получать помощь в том, в чём он слабее других. Моя работа в этом направлении показала, что групповая форма организации учебного труда обладает рядом достоинств: она способствует повышению мотивации и учению, учит объективно оценивать себя и других. Технология обучения в сотрудничестве способствует повышению эффективности овладения английском языком, повышает мотивацию студентов и улучшает результативность их учебного труда.

Кластер – объединение нескольких тем для более детального рассмотрения. Его можно применять на любом этапе, как в начале урока, так и при завершении занятия и закрепления пройденной темы. Так, при работе с использованием метода кластер, который применяется для стимуляции познавательной деятельности студентов, развития их памяти и пространственного мышления, работа протекает следующим образом [2, с.95]. Например, я записываю в центре классной доски тему (ключевое слово), прошу студентов сделать то же в тетрадях, а затем подумать и записать вокруг данного слова (словосочетания) всё, что приходит им на ум в связи с предложенной темой. Затем студенты обмениваются своими идеями при работе в парах, делятся ими со всем классом и фиксируют их на доске и тетрадях. Наглядным примером применения данного метода является кластер по теме **“Hobby”**:



И очень любимая мной технология – **Brainstorm**. **Мозговой штурм** можно прекрасно использовать при *обучении иностранному языку*. Очень важно для студентов то, что в таком задании не может быть неправильных ответов, все, что они скажут, вспомнят или придумают, будет изначально правильным. Также развивается творческое и ассоциативное мышление, таким образом, закрепляются в памяти слова и выражения, и убирается *языковой барьер*. Например, одной из тем изучаемой на уроках английского языка является **Food**. Я спрашиваю у студентов, что для вас значит понятие ”food”. Члены каждой группы обмениваются мнениями. С моей точки зрения этот приём позволяет заставить студентов размышлять путем мозговой атаки студенты называют все, что они знают и думают по теме. Роль учителя – роль проводника.

Я привела всего лишь несколько примеров использование интерактивных технологий при изучении английского языка. И сразу видно, что занятия, построенные в интерактивном режиме, вызывают интерес у студентов. Наверное, потому что, нарушается привычный и надоевший порядок на уроке, когда студенты не пассивные слушатели, а активные участники учебного процесса.

Заключение

Таким образом, именно интерактивные методы позволяют создавать учебную среду, в котором теория и практика усваиваются одновременно, а это даёт возможность студентам развивать мировоззрение, логическое мышление, связную речь, формировать критическое мышление, выявлять и реализовать индивидуальные возможности. При этом процессе студенты ищут связь между новыми и уже полученными знаниями, формируют свои собственные идеи и мысли с помощью различных средств, учатся сотрудничеству.

Литература

1. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. Пособие для учителя. М.: Просвещение, 2005, 284 с.
2. Кашлев С.С. Технология интерактивного обучения. – Мн.: Белоруссия, 2005, 160 с.
3. Конышева А.В. Современные методы обучения английскому языку. Минск – 2011, 304 с.
4. Суворова Н. Интерактивное обучение: Новые подходы - М.: Вербум, 2005, 42 с.
5. Щукин А.Н. Современные интенсивные методы и технологии обучения иностранным языкам: Учебное пособие. – М., 2008, 186 с.

İngilis dilinin tədrisində interaktiv metodun rolu

Xülasə

Bu məqalə ingilis dilinin tədrisində interaktiv metodun rolundan bəhs edir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, tələbələr bilavasitə biliyi öz subyektiv mülahizələri əsasında mənimsəyir, tələbələr öz fikirlərini ifadə edirlər. Müəllim isə tələbələrə istiqamət verir. İngilis dilinin tədrisində interaktiv metodun tətbiqinin əsas məqsədi tələbələrdə kommunikativ bacarıqların yaradılması və inkişaf etdirilməsindən ibarətdir.

Role of interactive method in teaching english

Summary

This article deals with the role of interactive method in teaching English. The goal of this method is that the students gain knowledge according to their subjective opinions, they express their own opinions. But the teacher directs his/her students.

The main purpose of using interactive method in teaching English is to form and develop communicative skills in students.

DOI: 10.36719/2020/REK/01/194-197

Günay Musa qızı Quluzadə
Bakı Slavyan Universiteti
gunay_quluzade00@mail.ru

FERMA ƏDƏDLƏRİ, FERMA NÖQTƏSİ VƏ FERMA TEOREMLƏRİ

Açar sözlər: *Pyer Ferma, teorem, mahiyyət, isbat, nəticə, düstur, nöqtə, üçbucaq*
Key words: *Pierre Ferma, theorem, essence, proof, result, formula, point, triangle*
Ключевые слова: *Пьера Ферма, теорема, суть, доказательства, результат, формула, точка, треугольники*

Pyer Ferma 17 avqust 1601-ci ildə Fransada dünyaya gəlmişdir. O, XVII əsrin ən nəhəng riyaziyyatçılarından biridir. Ədədlər nəzəriyyəsi, həndsə, cəbr, riyazi analiz (maksimum və minimumların tapılma üsulları), ehtimal nəzəriyyəsilə məşğul olmuşdur. Rene Dekartla birlikdə analitik həndəsənin yaradıcılarından biridir. Ədədlər nəzəriyyəsində onun iki teoremi – Fermanın böyük və kiçik teoremləri xüsusilə məşhurdur. O, heç bir kitab yazmamışdır (o vaxtlar elmi jurnallar da yox idi). Ondan yalnız dostlarına yazdığı məktublar qalmışdır. Lakin bu məktublarda riyaziyyata aid faktlar Fermanı Fransanın ən böyük riyaziyyatçılarından birinə çevirir. P.Ferma və B.Paskalın bir-birinə, yazdıqları məktublardakı faktlar Ehtimal nəzəriyyəsinin inkişaf tarixinin başlanğıcıdır. Fermanın əyriyə toxunan düz xəttin qurulmasına, əyrixətli trapesiyanın sahəsinin tapılmasına, əyrinin uzunluğunun hesablanmasına tətbiq etdiyi, üsullar

diferenesial və inteqral hesabının yaradılmasına yol açdı. Bunlara baxmayaraq, Fermanı məşhurlaşdıran onun ədədlər nəzəriyyəsinə aid işləri olmuşdur. Fermanı həlli olmayan məsələlər daha çox maraqlandırırdı. Onun ən məşhur "mümkünsüzlük" haqqında təklifi Fermanın böyük teoremidir .

Ferma ədədləri haqqında. XVII əsrin məşhur riyaziyyatçısı Pyer Ferma $2^{2n} + 1$ şəklində olan ədədləri öyrənmişdir. Bu ədədləri Ferma ədələri adlandırırlar. Alim qəbul etmişdi ki bu ədədlərin hamısı sadə ədədlərdir. Onun buna əsası da vardır. Ona görə ki, n=0; 1; 2; 3; 4 qiymətləri üçün, həqiqətən Ferma ədədləri sadə ədədlərdir. Ancaq XVIII əsrdə Leonard Eyler göstərdi ki, $2^{25} +1 = 2^{32} + 1 = 4294967297$ ədədini 641 və 6700417 sadə ədədlərinin hasili şəklində göstərmək olar. Digər tərəfdən yuxarıda göstərilən beş ədəddən başqa sadə Ferma ədələrinin olması məlum deyil. Maren Mersenə (1588-1648-ci illərdə yaşamış Fransız rahibi, həmçini riyaziyyatçısı, əgər 2^n -1 sadə ədəddirsə onu Mersen ədədi adlandırırlar) ünvanladığı məktublarının birində Pyer Ferma belə bir təklif irəli sürür ki, n ikinin qüvvətidirsə $2^n + 1$ şəklində olan ədədlər mütləq sadədir. Ferma həmçinin bilirdi ki, n ikinin qüvvəti deyilsə, onda $2^n + 1$ ədədi sadə deyil. Bu vaxta kimi isə yüz ildən də çox Fermanın hipotezi yaşadı. Sonra yoxlanılan bütün Ferma ədədləri mürəkkəb oldular və ilkin fərziyyəyə tam zidd olan bir təbii fərziyyə meydana gəldi: bəlkə Ferma ədədlərinin arasında sadə ədəd olanlarının sayı sonludur? Ferma ədədlərinin kifayət qədər ümumi xassələri bəllidir. Məsələn, istənilən iki Ferma ədədi qarşılıqlı sadə ədədlərdir. Karl Qauss hələ 19 yaşının tamam olmasına 1 gün qalmış isbat etmişdir ki, düzgün n-bucaqlı, pərgar və xətkeşin köməyilə yalnız və yalnız onda qurula bilər ki (hələ lap qədimlərdən yunan və bir sira digər yerlərdəki məşhur alimlərə məlum olan düzgün 3, 4, 5, 6, 15 bucaqlıların qurulmasından başqa), onun tərəflərinin sayı n= $2^{2n} + 1$ şəklində göstərilə bilsin və bu da ki, Ferma ədədinin ümumi halıdır. Qeyd edək ki, Qauss bu kəşfilə neçə minillərdir ki alimləri narahat edən hansı düzgün bucaqlıları xətkeş və pərgarın köməyilə qurmaq olar sualına cavab tapmış oldu, həmçinin n=2 olduqda çevrəni düzgün 17 bərabər hissəyə bölməyin mümkünlüyünü isbat etmiş oldu (n=3 olduqda 257 olar). Ferma ədədlərinin sadə ədədlərin öyrənilməsində ümumnəzəri əhəmiyyəti aşağıdakı teoremlə ifadə olunur: Əgər $a \geq 2$ və $a^n + 1$ sadədirsə, onda "a" cütdür.

Ferma nöqtəsi. Həndəsədə çox gözəl bir teoremin adı Fermanın adı ilə bağlıdır. Bu üçbucaqda Ferma-Toriçelli nöqtəsinin tapılmasıdır. Bu nöqtə keçmişin ən böyük 3 riyaziyyatçısının adı ilə bağlıdır. İlk dəfə onun haqqında Pyer Fermanın işlərində danışılır. O, ABC üçbucağının daxilində elə F nöqtəsinin yerləşməsi haqqında məsələni tələb edirdi ki, FA+FB+FC cəmi minimal olsun. İsveçrə alimi Yakob Şteyner bu məsələyə daha ümumi halda baxmışdır: o, 3 məntəqəni birləşdirən ən qısa yol şəbəkəsinin tapmağa çalışırdı. Məlum olur ki, şəbəkə mütləq bir nöqtədə birləşən düzxətli yollardan ibarət olmalıdır, belə ki, yollardan biri nöqtəyə çevrilə bilər. Belə qoyuluşda məsələ sırf praktiki əhəmiyyət daşıyır, məsələn, naqil şəbəkələrinin çəkilişində belə bir məsələni həll etmək lazım gəlir.

Nöqtənin qurulması. Fermanın klssik məsələsinin həlli üçün belə bir fiziki modeli bu formada qurmaq olar: Hər hansı lövhə üzərində bir üçbucaq çəkək. Onun təpələrinə mismar vuraq, bütün mismarlardan ucunda eyni ağırlıqda yük olan sap keçirək və nəhayət, sapların digər boş qalmış uclarını bir nöqtədə düyünləyək. Yüklər buraxıldıqda sapı dartacaqlar. Bu halda sapların sallanmış hissələrinin uzunluqları cəmi ən böyük, düyündən mismarlara qədər olan məsafələrin cəmi isə ən kiçik olacaq. Beləliklə, yüklərin buraxıldığı andan etibarən, düyün bizim axtardığımız nöqtə olacaq. Üçbucağın verilən şərtləri ödəyən bu nöqtəsini civə barometrinin ixtiraçısı kimi tanınan Evangelista Toriçelli qurmuşdur. Belə nöqtə yalnız bucaqları 120-dən böyük olmayan üçbucaqlarda mövcuddur və bu nöqtə Ferma nöqtəsilə üst-üstə düşür, yəni söhbət eyni bir minimal cəm nöqtəsinin qurulmasından gedir. Toriçelli qurmasından fərqli olaraq bu nöqtə üçbucağın bucaqlarından biri 120-dən böyük olduqda belə həll olunur, və bu halda F nöqtəsi kor bucaq təpəsilə üst-üstə düşür. Bu nöqtəni belə də almaq olar: üçbucağın tərəfləri üzərində onun xaricində hər tərəfin ölçüsünə uyğun olaraq müvafiq düzgün üçbuçaqlar quraq. Sonra isə əvvəlcədən verilmiş üçbucağın təpəsini onun qarşısındaki tərəf üzərində qurulmuş düzgün üçbucağın təpəsilə birləşdirək. Hər üç parça bir-birlərilə 60 bucaq əmələ gətirirlər və yalnız bir nöqtədə Toriçelli yaxud da Ferma nöqtəsində kəsişirlər.



Fermanın kiçik teoremi – natural ədədlərin bölünməsi nəzəriyəsində ən fundamental faktlardan biridir. Teoremin ifadəsi belədir: Əgər p sadə ədəddirsə, a ədədi p-yə bölünməyən natural ədəd olarsa, onda a^{p-1} ədədi p-

yə bölünəndə qalıqda 1 qalır. Teoremi başqa cür belə ifadə etmək olar: "Əgər p sadə ədəd, a ixtiyari natural ədəddirsə, (a^p-a) ədədi p-yə bölünür." Ferma bu teoremin isbatını saxlamamışdır. Teoremi ilk dəfə L. Eyler isbat etmişdir.

Fermanın böyük teoremi Bu teorem Diofantın "Hesab" kitabının ikinci hissəsində, 8-ci məsələnin qarşısında yazılmışdır: "Verilən kvadartı iki kvadrata ayırın". Başqa sözlə desək, verilmiş a ədədi üçün $x^2 + y^2 = a^2$ tənliyini rasional həllərini tapmaq tələb olunur. Bu da ki bizlərə çox yaxşı tanış olan Pifaqor teoremidir və onun sonsuz sayda həlli var. Ferma qeyd etmişdir: "Kubu iki kuba, kvadratın kvadratını iki kvadratın kvadratına, ümumiyyətlə dərcəsi ikidən böyük sonsuzluğa qədər heç bir qüvvəti bütün həmin dərəcəli iki qüvvətə ayırmaq olmaz. Mən bunun həqiqətən çox gözəl isbatını tapmışam, ama onun üçün yer olduqca azdır". Başqa sözlə $x^n + y^n = z^n$ qeyri-müəyyən tənliyinin n≥3 olduqda, heç bir rasiolnal həlli yoxdur. Bu təklif Fermanın böyük və ya sonuncu teoremi adlanır. Onun isbatını riyaziyyatçılar 356 ildən çox axtarmalı olmuşlar.

Teoremin isbatı. Fermanın özü yalnız n=4 halında teoremin isbatını saxlamışdır. Leonard Eyler bu teoremi n-in 3 və 4, Lejandr n-in 5, Dirixle isə 7 qiymətləri üçün isbat etdi. Leonard Eyler teoremin n=3 halını isbat etməsindən 30 il keçdikdən sonra bu halı 1768-ci ildə yenidən isbat etdi. Bu teoremlərin hər birinin isbatının hər iki hal üçün olduqca mürəkkəb və uzun olduğunu nəzərə alaraq burada onun isbatlarını vermirik. . Bunun üçün tamamilə yeni bir ideya tələb olumurdu. O, burda çox cəsarətli bir addım atmışdır. Bu ideyanın mahiyyəti adi tam ədədlərə aid məsələlərin tədqiqində a+b $\overline{-n}$, şəklində olan xəyali ifadələrin tətbiqindən ibarətdir. Eyler öz isbatında α = a+b $\overline{-3}$ şəklində ifadəyə baxmışdır. Lakin bütün bunlarla və adları sadalanayan məsələlərlə əlaqədar olaraq Eyler öz mülahizəsini əsaslandırmadı və bu məsələlə yenə də Ferma teoreminin isbatı ilə bağlı yenidən XIX əsr riyaziyyatçıları qarşısında dayandı. Ümumiyyətlə, bu halların isbatı üçün tamamilə yeni bir ideya lazım idi ki, bunu da Ferma tapmışdır: bu sonsuz enmə metodudur. Ferma təsdiq etmişdir ki, özünün ədədlərə aid ən məşhur teoremlərini o məhz bu üsulla isbat etmişdir. Enmə üsulu bu gün də ədədlər nəzəriyyəsinə mühüm rol oynayır. Teoremin isbatına müxtəlif mükafatlar vəd olundu və bu teoremi isbat etməyə cəhd göstərən və ya teoremi isbat etdiyini düşünən böyük bir fermatistlər ordusu əmələ gəldi. Riyaziyyat kafedralarına hər il teoremin minlərlə isbatı təqdim olunurdu. Bununla belə, bu isbatların hamısında səhvlər var idi. n-in 100-dən kiçik, hətta 619-dan kiçik qiymətləri üçün də teorem isbat olundu, amma bunlar hələ də Böyük Ferma teoreminin isbatı demək deyildi. Ömrünü-gününü tənliyi doğru bərabərliyə çevirən n-i tapmağa həsr edənlər də, yəni teoremi inkar etməyə çalışanlar da oldu… 1 mart 1847-ci ildə fransız riyaziyyatçısı və fiziki Qabriel Lame Paris Elmlər Akademiyasının iclasında böyük teoremin yeni isbatını məruzə etmişdir. Digrə məşhur farnsız riyaziyyatçısı Liuvill bu barədə yazırdı: "edilən cəhdlər mənə göstərdi ki, əvvəlcə kompleks ədədlər üçün "hasil yalnız bir üsulla sadə vuruqlarına ayrıla bilər" elementar fərziyyəsinə analoji teoremi müəyyən etmək lazımdır. Lamenin fikri məndə yalnız bu fikri təsdiqlədi, burda doldurulası boşluq yoxdur ki?" Bu qeydlər sayəsində riyaziyyatın bu bölməsi bir ilə yaxın müddətdə fransız riyaziyyatçılarının diqqət mərkəzində oldu. Bu sahə ilə Lamenin özü və digər alimlər intensiv şəkildə məşğul oldular. Onların tədqiqatları nəticəsində tam ədədlərin toplama, vurma və bölməyə nəzərən xassələrini ən ümumi şəklidə ifadə edən yeni bir riyazi obyekt – halqa anlayışı formalaşdı. Həmçinin sonralar alman riyaziyyatçısı Böyük teoremlə məşğul olarkən cəbrə yeni mühüm obyektlər – ideallar daxil etmişdir.

1955-ci ildə 28 yaşlı yapon riyaziyyatçısı Yutaka Taniyama riyaziyyatın tamamilə başqa bir sahəsinə aid hipotez irəli sürür. "Taniyama hipotezi" adlanan bu hipotezə görə hər bir elliptik əyriyə bir modulyar forma uyğun gəlir. İkiölçülü əyrilərlə 19-cu əsrdə kəşf olunmuş dördölçülü funksiyalar arasındakı bu uyğunluq bir çox riyaziyyatçılara absurd və paradoksal görünürdü. 1958-ci ildə Taniyama intihar edir… 70-ci illərdə bu hipotezlə maraqlananların sayı artır. Amma bu hipotezi də isbat etmək heç kəsə nəsib olmur. 1985-ci ildə riyaziyyat tarixində ekstravaqant yapon hipotezi ilə böyük Ferma teoremini birləşdirən bir hadisə baş verir. Alman riyaziyyatçısı Gerxard Frey maraqlı bir fikir irəli sürür: "Taniyama hipotezi isbat olunarsa Böyük Ferma teoremi də isbat olunacaq". Frey müəyyən çevirmələrlə Ferma tənliyini Taniyama hipotezindəki elliptik əyri tənliyinə gətirməyə nail olmuşdu. Freyin tam əsaslandıra bilmədiyi bu hökmünün dəqiq isbatını 1986-cı ildə Kaliforniya Universitetinin professoru Kennet Ribet verir. Beləliklə, isbat olunur ki, Ferma teoremi Taniyama hipotezinin bir nəticəsidir. Deməli, Taniyama hipotezini isbat etmək, həm də Ferma teoremini isbat etmək demək idi! Məhz bu Uayls tərəfindən şərh edilmişdir. Belə hünəri heç kim kifayət qədər az tanınan riyaziyyatçıdan gözləmirdi.

1993-cü ildə Kembridcdə ədədlər nəzəriyyəsinə həsr olunmuş konfransda ABŞ-dan olan ingilis alimi Endryu Uayls Taniyama hipotezini isbat etdiyini deyir və bu isbatı təqdim edir. Uaylsın ideyası xn + yn = zn tənliyi və y2=x(x-an)(x-cn) tənliyi ilə verilən elliptik əyrilər arsındakı çox yaxşı əlaqəyə əsaslanıb. İlk dəfə ona fransız riyaziyyatçısı İv Elleqarş diqqət yetirmişdir. Bu, əlbəttə, əsl sensasiya idi və böyük cəsarət tələb edirdi. Təqdimat uğurla keçir və isbatda səhv tapan olmur, amma bununla bərabər, isbat 6 hissəyə bölünərək, yoxlanılmaq üçün aparıcı mütəxəssislərə təqdim olunur. 2 aydan sonra resenzentlərdən biri olan Nik Kats teoremin isbatının müəyyən yerində bir boşluq olduğunu, əsaslandırmanın zəif olduğunu üzə çıxarır. Ümumilikdə isə onun ideyalarının müasirliyi, dərinliyi və gözəlliyi təsdiq olundu. Ömrünün 20 ildən artığını bu teorem üzərində gizli

çalışan Uayls bu xəbərdən sarsılır. Uayls bu ilkin isbatı 1993-cü il 23 iyulda Kembricdə İsaak Nyuton adına Riyaziyyat institutunda oxuduğu mühazirələrində şərh etmişdir. Bu iş gərgin yaradıcı əməyin məhsulu idi. Uaylsın etirafına görə arvadından başqa heç kəs onun bu sahədə işlədiyini bilmirdi. Amma özündə güc tapıb keçmiş aspirantı və dostu Riçard Teylorla bərabər yaranmış vəziyyətdən çıxış yolu axtarır. Bir ildən də az müddətdə onlar isbatdakı probeli bağlamağa nail olurlar və 1994-cü ilin oktyabrında Uayls isbatın düzəldilmiş-korrekt variantını Sürixdə keçirilən riyaziyyat üzrə növbəti Beynəlxalq Konqresə təqdim edir. Bütün riyaziyyat aləmi onun məruzəsini, əlbəttə ki, səbirsizliklə gözləyirdilər. Təbii ki, Uayls isbatı çıxış növbəsinə kimi tamamalamaq istəyirdi, amma o, buna müvəffəq olmadı. Həmkarları onu məruzədən əvvəl auditoriyanın yanındakı pilləkənlərdə oturub necə işlədiyinin şahidi oldular. Uayls kafedraya qalxarkən onu donmuş vəziyyətdə gözləyən zala isbatı tam yerinə yetirmədiyi xəbərini verdi. Zal onu dostcasına alqışladı. Artıq konqresdən bir ay sonra Uaylsın özünün sözlərinə görə əsas ideyası işıqlandı və yaranmış boşluğu nəhayət ki doldura bildi. Bu dəfə isbat son dərəcə dəqiq yoxlanmalara davam gətirdi və çap olundu. Bax beləcə 350 il tarixi olan böyük teoremin isbatı sona çatdı. 1995-ci ilin yayında Priston Universitetində dərc olunan "Annals of Mathematics" yəni, "Riyaziyyat salnaməsi" jurnalı bütünlükdə bu teoremin isbatına həsr olunmuşdur. 100 səhifədən çox həcmə malik olan isbat iki məaqaləyə bölünərək bütün məqaləni tam tuturdu. İsbatın əsas hisəsi təxminən 10 il bu məşhur problem üzərində çalışan Prinston universitetinin professoru 42 yaşlı Endri Wilesə məxsus idi. Son mərhələdə isə Oksford universitetinin professoru Riçard Teylor qoşulmuşdur. O, Uaylsın ilkin isbatında olan boşluğu aradan qaldırmağa kömək etmişdir. Təbii olaraq belə bir sual meydana çıxır: Ola bilərmi ki, bizə gəlib çatmayan Fermanın isbatı(əgər bu olsaydı) Uaylsın variantına analoji olsun? Bu sualla bağlı Uaylsın fikri belə idi: "Ferma belə isbatı verə bilməzdi. Bu iyirminci əsrin isbatıdır". Fermanın böyük teoremi, elə bil ki, xüsusi xarakter daşıyır. Onu isbat etmək cəhdləri riyaziyyatı yeni ideyalar, nəzəriyyələr, üsullar ilə zənginləşdirdi. Bu teoremin danılmaz əhəmiyyəti məhz bundadır. XX əsrdə böyük teoremlə sürətlə inkişaf edən riyazi nəzəriyyəylə cəbri həndəsənin əlaqəsi üzə çıxdı. Məhz bu nəzəriyyə çərçivəsində müvəffəqiyyət əldə olundu. Ferma teoreminin isbatında çoxlu riyaziyyatçıların əməyi olmuşdur.

Ədəbiyyat

1. "Uşaqlar üçün ensiklopediya. Riyaziyyat.", Bakı, "Şərq-Qərb", 2008. səh.606
2. Fermat, Pierre de // 1911 Encyclopædia Britannica - 11 - New York City: 1911. - Vol. 10. - P. 275.
3. Ферма Пьер // Большая советская энциклопедия: [в 30 т.] / под ред. А. М. Прохорова - 3-е изд. - М.: Советская энциклопедия, 1969.
4. http://www.nytimes.com/1983/07/19/science/german-is-hailed-in-math-advance.html
5. https://az.wikipedia.org/wiki/Pyer_Ferma
6. http://www.imm.az/exp/2017/04/27/fermanin-kicik-teoremi/

Ferman's numbers, Ferman's point and Ferman's theorems

Summary

Pierre Farm lived in the 17th century. He has not written any books. He has only letters to his friends. His work has made him famous for his theory of numbers. The famous 17th century mathematician Pierre Ferma studied the numbers in the form of $2^{2n} + 1$. His theorems have become more popular. It took 360 years to prove these theorems. Famous mathematicians have tried to prove the theorem. The English scientist Andrew Wiles proved the theorem. The proof of the theorem was published in 1995 in the journal "Annals of Mathematics".

Числа Фермы, точка Фермы и теоремы Фермы

Резюме

Ферма Пьера жила в 17 веке. Он не написал ни одной книги. У него есть только письма своим друзьям. Его работа сделала его известным своей теорией чисел. Знаменитый математик 17-го века Пьер Ферма изучил числа в виде $2^{2n} + 1$. Его теоремы стали более популярными. Потребовалось 360 лет, чтобы доказать теоремы. Известные математики пытались доказать теорему. Английский ученый Эндрю Уайлс доказал теорему. Доказательство теоремы было опубликовано в 1995 году в журнале "Анналы математики".

DOI: 10.36719/2020/REK/01/198-200

Günay Salman qızı Kazımova
Gəncə Dövlət Universiteti
gunaykazimova@rambler.ru

İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ TƏLİMİNİN MAHİYYƏTİ VƏ NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *kurikulum, təlim, şagird, fəal təlim, müəllim*
Key words: *curriculum, learning , student, active learning, teacher*
Ключевые слова: *куррикулум, обучение, студент, активное обучение, учитель*

Giriş

Təhsil tarixinə nəzərə salsaq, görərik ki, istər və orta əsrlərdə, istərsə də sonuncu yüzillikdə cəmiyyətin hər bir üzvünün təhsil sistemindən gözləntisi eyni olub - təhsil prosesinin iştirakçısı olaraq yaxşı təhsil almaq, yetkin biliklərə, kamil idraka sahib olmaq.

Təlim mühiti həmişə təhsil subyektlərində əqli biliklərin inkişafına yönəldilir. Onun səmərəliliyi də bununla əlaqələndirilir. "Əqli tərbiyə bilik, intellektual bacarıq və vərdişlər sisteminə yiyələnməyi, təfəkkürü və əqli keyfiyyətləri inkişaf etdirməyi, idrak motivlərini formalaşdırmağı nəzərdə tutur. Şagirdin öyrənmə fəaliyyəti təlim vəzifələrinin yerinə yetirilməsinə yönələn idrak əməliyyatlarının sistemi kimi özünü göstərir. Şagırd tədris tapşırığını əməli şəkildə və ya fikrən yerinə yetirərkən istər-istəməz psixoloji fəaliyyətdə olur. Şagird öyrənmə fəaliyyəti zamanı təkcə bilik və ya bacarıq əldə etmir, o, həm də psixi səy göstərir, düşünür; onda öyrənmək, başa düşmək, dərk etmək bacarıqları formalaşır. Öyrənmənin, bilik əldə etmə bacarığının əsasında isə bir sıra idrak əməliyyatları durur" (rem.org).

Müasir təhsil tarixi zərurət olaraq xarici aləmin faktları, qanunauyğunluqları haqqında obyektiv biliklərin ötürülməsi sistemi kimi xeyli mürəkkəbləşib. Xüsusilə, məktəb fənlərinin böyük əksəriyyəti elmin ayrı-ayrı sahələrinə uyğunlaşdırılmışdır. Nəticələr göstərir ki, şagirddən çox şey tələb etmək uğurlu nəticələr vermir. Ona özünüinkişafın yollarını öyrətməklə həyata hazırlamaq daha əhəmiyyətlidir. Bu sahədə Azərbaycan pedaqoqlarından N.M.Kazımov "Milli pedaqogika yollarında" (4), Y.Ş.Kərimov "Təlim metodları" (3), Ə.Ə.Ağayev "Təhsil prosesi: ənənə və müasirlik" (2), A.N.Abbasov "Pedaqogika" (1), "İnteraktiv kurikulum" (F.Kərimova, M.Əhmədova, G.Varella və b. ingiliscədən tərcüməsi), Z.Veysova "Fəal/interaktiv təlim" (5) və b. əsərlərdə münasibət bildirilir.

Şəxsiyyətin formalaşdırılmasını tələb edən praktika yeni və birtərəfli olduğundan onda elə məqamlar var idi ki, bu məqamlar ənənəvi pedaqogikada olmadığından hələlik təlimə keyfiyyətlə tətbiq etmək çətin idi. Yeni tədqiqatların nəticələri isə müasir cəmiyyətin şərtlərinə hesablanmışdı və müasir təhsildə onlarla bağlı olanların yenidən qurulması vacib idi. "Elkonin Davidov" sistemində yeni tipli məktəbin yaradılması işinə yönəldilmiş fəaliyyətin strategiyasını şəxsiyyətəyönəlik təhsil deyil, "inkişafetdirici təhsil" təşkil edir (7).

Müstəqil Azərbaycan Respublikasının təhsil tarixində ilk dəfə 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" adlı sənəd hazırlandı və təklif və rəylər nəticəsində yenidən nəzərdən keçiriliən fənn kurikulumları 2007-ci ildə təsdiq olundu. İbtidai təhsil səviyyəsi üzrə ibtidai təlimin məzmunu və təşkili ilə bağlı zəruri məsələləri özündə əks etdirən təsdiq olunmuş konsepsiya artıq tətbiq olunmağa başladı. Hazırda tətbiq edilən kurikulumun əsas məqsədi bacarıq və vərdişlərə malik şəxsiyyət yetişdirməkdir və bu məqsəddə fənlər sadəcə məqsədə çatmaq üçün vasitədir.

Milli kurikulumun məzmununa uyğun olaraq bütün digər fənlərdə olduğu kimi, ibtidai siniflərdə Həyat bilgisi fənninin tədrisində də ümumi tələblər vardır. Bu tələblər kurikulum materiallarında aydın şəkildə təsbit olunur. Sənəddə, ilk növbədə fənnin əhəmiyyəti, məqsəd və vəzifələri açıqlanır. Göstərilir ki, "Həyat bilgisi fənni fərdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər formalaşdırmağa və təkmilləşdirməyə kömək edən inteqrativ fəndir. Həyat bilgisi konkret bir elmin əsaslarını öyrətmir. Bu fənn ümumtəhsil məktəblərində tədris olunan təbiət və sosial fənn sahələrinə aid müəyyən elementləri əhatə edir. Bu cür geniş əhatə dairəsinə malik olan fənn şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin həyata keçirilməsinə istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir" (8).

Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır. Onlar özlərini bu aləmin bir hissəsi kimi dərk edir, təbiətdə və cəmiyyətdə müşahidə etdikləri hadisələri, dəyişiklikləri və bunlar arasındakı əlaqələri araşdırmaq, təhlil etmək, nəticələr çıxarmaq, proqnoz vermək, fikir və istəklərini düzgün ifadə etmək bacarıqlarına yiyələnirlər.

Bu fənnin əhəmiyyəti mənbələrdə peşəseçiminə kömək etməsi baxımından da yüksək qiymətləndirilir. Özündə təniət və dəqiq elmlərin əsasını ifadə etdiyindən şagirdlər Həyat bilgisi fənninin tədrisi zamanı öz mövqelərini, maraq və istiqamətlərini də müəyyənləşdirmək imkanı əldə edirlər. "Şüurlu peşəseçiminə hazırlığına hələ I-IV siniflərdə başlamaq lazımdır. İbtidai sinif müəllimlərinin təcrübəsində peşəseçimi bir qayda olaraq epizodik xarakter daşıyır. Hazırkı metodiki vəsaitlər aşağı siniflərdə dərs zamanı, eləcə də sinifdənxaric işdə peşəseçimi işinin təşkilində və həyata keçirilməsində kömək etmək üçündür" (9).

"Həyat bilgisi" fənni üzrə ibtidai və ümumi orta təhsil səviyyəsi üçün aşağıdakı ümumi təlim nəticələri müəyyən edilmişdir. İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə şagird bunları bilməlidir: - öz hüquqlarını dərk etməsini, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, onu əhatə edən insanlara həssas münasibət bəsləməsini nümayiş etdirir, həmin məsələlərlə bağlı şəxsi fikirlərini bildirir; - insan həyatı və sağlamlığının qorunmas ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını izah edir; - düzlük, ədalətlilik, humanistlik, rəhmdillik nümayiş etdirir, bu mənəvi keyfiyyətlərin mahiyyəti barədə mülahizələrini şərh edir; - təbiətə, ekologiyaya həssas və qayğıkeş yanaşmaqla təbiət hadisələri üzərində mü şahidələr aparır və onlara münasibət bildirir; - cəmiyyətdə baş verən hadisələri öz yaş səviyyəsinə uyğun şərh edir:

"Həyat bilgisi" fənninin məzmunu onun məzmun xətlərinin əsasında qurulur. "Həyat bilgisi" fənninin, ibtidai və əsas təhsil səviyyəsi üzrə ümumi təlim nəticələrinə əsaslanaraq,onların əldə olunmasını təmin edən və hər iki təhsil pilləsi üçün ümumi olan aşağıdakı məzmun xətləri müəyyən edilmişdir:

1. Təbiət və biz
2. Fərd və cəmiyyət
3. Mənəviyyat
4. Sağlamlıq və təhlükəsizlik

Təbiət və biz məzmun xətti üzrə şagirdlər insanın mühitlər qarşılıqlı əlaqəsi haqqında bilik və bacarıqlara yiyələndirilir. Belə ki, onlar təbiətdə baş verən hadisə və proseslər üzərində müşahidələr aparır, onların təsirini öz üzərində hiss edir, öz fəaliyyəti ilə təbiətə təsir göstərir.

Fərd və cəmiyyət. Bu məzmun xətti üzrə şagirdlər öyrənirlər ki, insan insan, bir tərəfdən, yaşadıqları mühitə - cəmiyyətə təsir göstərir, onu dəyişdirir, digər tərəfdən də özləri dəyişir və cəmiyyətləri ilə birlikdə inkişaf edirlər.

Mənəviyyat**.** Bu məzmun xəttinin fənnə daxil edilməsində başlıca məqsəd məktəbin qarşısında duran ən mühüm vəzifələrdən birinin-milli və bəşəri dəyərlərə əsaslanan tərbiyənin daha dolğun, daha sistemli və nəticəyönümlü şəkildə mənimsədilməsidir.

Sağlamlıq və təhlükəsizlik. şagirdlərin hələ ibtidai məktəb səviyyəsindən başlayaraq öz sağlamlıqları və təhlükəsizlikləri ilə bağlı bilik və bacarıqlara sistemli şəkildə yiyələnməsi zəruri həyati tələbat kimi meydana çıxır. Bu məzmun xətti sağlamlığı təmin edən və ona təhlükə törədən amillər barədə biliklərin əldə olunmasını,bacarıqların formalaşdırılmasını təmin etməyə xidmət edir.

Bütün bunlar Həyat bilgisi fənninin tədrisində müəllimlər tərəfindən qurulan təlim strategiyaları vasitəsi ilə reallaşdırılır.

Nəticə

İbtidai siniflərdə Həyat bilgisi dərslərində fəal təlim şəraitində qurulan dərs prosesində şagirdlər öz fəaliyyətini planlaşdırır, qrup işinə uyğunlaşdırır, hərəkətlərin ən mürəkkəb hissələrindən tutmuş ən sadələrə qədər öz fikirlərində ümumiləşdirərək ifadə edə, təsvirini verə bilirlər.

Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2010, 356 s.
2. Ağayev Ə.Ə. Təhsil prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006, 136 s.
3. Kərimov Y.Ş. Təlim metodları. Bakı: Təhsil, 2007, 270 s.
4. Kazımov N.M. Milli pedaqogika yollarında. Bakı, Ağrıdağ, 2001, 442 s.
5. Veysova Z.A. Fəal/interaktiv təlim. Azərbaycan Respublikası Təhsil Nazir¬liyi, UNİ CEF, 155 s.
6. Каминский В.Ю. Использование образовательных технологий в учебном процессе // Завуч, 2005, №3, с.4-15
7. http://www.kurikulum.az
8. http://www.blogspot.com

Essence and theoretical foundations of teaching world knowledge in initial classes

Summary

The article discusses the features of life sciences in primary school. These issues are clarified based on the requirements for subject curricula. It is reported that the teaching of Life Science is based on content

standards. These standards are implemented by topics covered in the textbooks. Each content line has its own tasks. Content lines include nature and us, individuals and society, morality, health and safety.

Суть и теоретические основы обучения познания мира в началных классах
Резюме

В статье рассматриваются особенности наук о жизни в начальной школе. Эти вопросы уточняются исходя из требований к предметным учебным планам. Сообщается, что преподавание наук о жизни основано на стандартах содержания. Эти стандарты реализуются по темам, описанным в учебниках. Каждая строка контента имеет свои задачи. Содержательные линии включают природу и нас, людей и общества, мораль, здоровье и безопасность.

DOI: 10.36719/2020/REK/01/200-204

Könül Sahib qızı Hüseynova
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
konul-adpu@mail.ru

ALİ TƏHSİLDƏ PORTFOLİO TƏLƏBƏLƏRİN TƏLİM NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜHÜM VASİTƏSİ KİMİ

Açar sözlər: *portfolio, təqdimat, kolleksiya, işçi materiallar, məqsədyönlülük, qiymətləndirmə*
Key words: *portfolio, presentation, collection, working materials, purposefulness, assessment*
Ключевые слова: *портфолио, представление, коллекция, рабочие материалы, целенаправленность, оценка*

Giriş

Təhsil sistemində, o cümlədən ali təhsildə aparılan islahatlar, mütərəqqi dünya təhsil sisteminə inteqrasiya və Boloniya prosesinə keçidlə əlaqədar qarşıda duran yeni vəzifələri ənənəvi metod və vasitələrlə həyata keçirmək çətindir. Uzun dövr ərzində, əsasən, bilikərin verilməsi və yoxlanılmasına əsaslanan klassik təhsil paradiqması müasir təlimin yüksək keyfiyyətini təmin etmək baxımından kifayət deyildir. Ənənəvi qiymətləndirmə metod və vasitələri yazılı və şifahi sorğular, ev tapşırıqları, məqbul və imtahanlar tələbələrin (şagirdlərin) bilik və bacarıqlarını, o cümlədən peşə səriştələrini hərtərəfli üzə çıxarıb obyektiv qiymətləndirməyə o qədər də imkan vermir. Xüsusən şifahi sorğular çox vaxt aparır, az miqdarda tələbəni qiymətləndirməyə imkan verir, yorucu və darıxdırıcı olur, cavab verməyən tələbələrin sorğu ərzində boş oturmalarına, kənar işlə məşğul olmalarına gətirib çıxarır. Qiymətləndirmə, əsasən, kəmiyyət baxımından, həm də birtərəfli ancaq müəllim tərəfindən aparılır, bəzən də subyektiv xarakter daşıyır və tələbələrin (şagirdlərin) narazılığına səbəb olur. Onlar qiymətləndirmədə, xüsusən, özünüqiymətləndirmədə iştirak etmir, təlim prosesinin subyektinə çevrilmirlər. Bu da ondan irəli gəlir ki uzun müddət təhsil avtoritar "subyekt-obyekt" paradiqmasına əsaslanmış, təhsilalanların müstəqillik və məsuliyyətinin, təlimin daxili motivlərinin inkişafına, öz fəaliyyətini planlaşdırmaq, qərar qəbul etmək, özlərinin və yoldaşlarının işini qiymətləndirmək bacarıqlarının formalaşmasına imkan verməmişdir.

Hazırda təhsilə yeni yanaşmalar, yeni paradiqmalar təhsilin digər sahələrində olduğu kimi, qiymətləndirmədə, eləcə də onun vasitə və metodlarında, müəllim-tələbə münasibətlərində humanizm prinsipinə əsaslanan yeni dəyişiklikləri nəzərdə tutur. Təhsil sistemində yeni, innovativ qiymətləndirmə vasitələrinin tətbiqi bu baxımdan zərurətə çevrilmişdir. Əlbəttə, yeni qiymətləndirmə vasitə və metodları ənənəvi vasitələri inkar etmir. Nəzarət və qiymətləndirmə prosesində onların da öz yeri vardır. İndiyədək tətbiq olunan yoxlama və qiymətləndirmə metodları, o cümlədən şifahi sorğu bir çox xüsusiyyəti ilə – təşkili baxımdan sadəliyi, əks əlaqəni təmin etməyin operativliyi, tələbələrdə (şagirdlərdə) bilik və bacarıqların səviyyəsini vaxtında üzə çıxarmaq, korreksiya işi aparmaq və canlı ünsiyyət qurmaq imkanı ilə seçilir. Bu metodun əsas nöqsanı tələbələri (şagirdləri) qismən əhatə etməsi, qiymətləndirmədə müəyyən subyektiv hallara yol açılması, universal səciyyə daşıması, çox vaxt aparması, təhsilalanların qiymətləndirməyə cəlb olunması üçün lazımi şərait yaratmaması ilə bağlıdır.

Ənənəvi qiymətləndirmə vasitələrində öyrədənlərin fəal, öyrənənlərin isə passiv olması, yoxlama və qiymətləndirmə prosesində gərginlik, qorxu və həyəcan keçirməsi, emosional və fiziki yüklənməyə məruz

qalması təlimin humanist prinsipləri baxımından təminedici hesab olunmur. Bununla yanaşı, ənənəvi qiymətləndirmə vasitələri daha çox təlimin nəticəsinə təhsilalanların bilik və bacarıqlarının üzə çıxarılıb qiymətləndirilməsinə yönəlir; təlim prosesinin özü, tələbənin mənimsəmə prosesi onun təşkili vəziyyəti, səviyyəsi, inkişaf dinamikası, bir növ, arxa plana keçir; təlim nəticələrindən asılı olaraq operativ korreksiya işi aparmağa imkan olmur.

Yeni qiymətləndirmə sistemi təlimdə müşahidə olunan bu nöqsanları aradan qaldırmağa təkcə təlim nəticələrini yox, həm də onun formalaşması prosesini qiymətləndirməyə, onun səmərə və keyfiyyətini artırmağa xidmət edir. Belə vasitələrdən biri təhsilalanların fərdi nailiyyət qovluğu – portfoliodur. "Portfolio" latınca "port" və "folum" sözlərindən düzəlib, "mühafizə etmək" mənasını verir. Portfolio – təhsilalanın fərdi nailiyyətlərinin qeydə alınması, toplanması və qiymətləndirilməsi vasitəsidir. O, tələbənin (şagirdin) təkcə təlim prosesində deyil, habelə auditoriyadankənar vaxtlarda əldə etdiyi təlim nailiyyətlərini, şəxsi inkişafını, təlimə və fənnə motivasiyanın dəyişməsini, habelə peşə səriştələrini müəyyən etməyə və dəyərləndirməyə imkan verir. Təhsilin hər hansı bir mərhələsində keçirilən birdəfəlik sorğu, yoxlama və qiymətləndirmə ilə müntəzəm gedən belə fərdi inkişafı kəmiyyət və keyfiyyət baxımından ölçmək mümkün deyildir [1].

Portfolio ideyası təhsildə yeni olsa da, çox qədim tarixə malikdir. Bu ideya uzun müddət cəmiyyətin müxtəlif sahələrində, o cümlədən foto, model, dizayn, arxitektura sahələrində hər hansı insanın bacarıq və səriştələrini qiymətləndirmək vasitəsi kimi tətbiq olunmuşdur. Rəssamlar, fotoqraflar, mühəndislər öz işlərindən ibarət albomları təqdim etməklə özlərinin yaradıcılıq imkanlarını nümayiş etdirmişlər. Bu proses hazırda da özünü göstərir və yeni-yeni sahələri əhatə edir (dövlət qulluğu, investisiya, biznes sahəsi və s.).

Təhsildə portfoliodan istifadə ideyası keçən əsrin 80-ci illərində ABŞ-da meydana gəlmiş, 90-cu illərdə isə daha çox inkişaf etmişdir. Amerika təhsil mütəxəssisləri portfolionun təlim və inkişafetdirici rolunu yüksəkqiymətləndirmişlər: portfolio təhsilalanın fərdi inkişafını izləməyin mühüm vasitəsi (*Fray*), onun affektiv və koqnitiv inkişafının göstəricisi (*Staff*) kimi səciyyələndirmişlər. Portfolio Avropa təhsil məkanında da geniş yayılmışdır: dil və başqa sahələrdə Avropa portfeli və ya portfoliosu rəsmi sənədi kimi qəbul edilmiş [2] və təhsil sistemində tətbiq olunur. Dünya təhsil məkanında təlim nəticələrinin qiymətləndirilməsinə yanaşmanı dəyişmək zərurəti yaranmışdır. Bu isə qiymətləndirmə fəlsəfəsinə yenidən baxmağı nəzərdə tutur. Təhsilin humanist paradiqmasına görə, təlimin mərkəzində, deməli, diqqət mərkəzində təhsilalan, onun fəaliyyəti, inkişafı durmalıdır. Başqa sözlə, o, təlimin yalnız obyekti yox, subyekti kimi fəaliyyət göstərməlidir; təlim özünütəhsillə, qiymətləndirmə özünüqiymətləndirmə ilə birləşməlidir. Bu baxımdan, ənənəvi qiymətləndirmə təhsilalanların fəallığına, şəxsi səyinə əsaslanan yeni qiymətləndirmə vasitələri ilə inteqrasiyada həyata keçirilməlidir. Belə vasitələr içərisində dünya təhsil təcrübəsində geniş istifadə olunan portfolio mühüm yer tutur. O, fasiləsiz təhsil prosesində fasiləsiz və çevik qiymətləndirməni təmin etməyə imkan verən qiymətləndirmə vasitəsidir. Ali məktəbdə portfolionun tətbiqi zərurəti, bir tərəfdən, keçilən nəzəri bilikləri tətbiq etməklə təlim bacarıq və vərdişlərinin inkişafına, digər tərəfdən isə tələbələrdə pedaqoji peşə səriştələrinin formalaşmasına kömək göstərir. Bu sonuncu isə mütəxəssis hazırlığının keyfiyyətini, peşəkarlıq səviyyəsini yüksəltmək baxımından çox vacibdir. Belə ki, pedaqoji ixtisaslar üzrə kadr hazırlığında peşə səriştələrinin aşılanması yaxşı təmin olunmur; bu vəzifə, əsasən, pedaqoji təcrübədə həyata keçirilir. Pedaqoji təcrübədə isə əsas diqqət tələbənin fənn üzrə nəzərdə tutulan sınaq dərsləri deməsinə yönəldilir; ən mühüm səriştələrin formalaşdırılması təmin olunmur. Tələbələr müəllim üçün tələb olunan qabiliyyətlər və səriştələrə (didaktik, kommunikativ, konstruktiv, təşkilatçılıq və s.) yaxşı yiyələnmədən məktəbdə pedaqoji fəaliyyətə başlamalı olur və müəyyən çətinliklərlə qarşılaşırlar. Müntəzəm həyata keçirilən portfolio vasitəsilə bu boşluğu müəyyən dərəcədə doldurmaq olar [3].

Təhsildə "portfolio" anlayışı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur:

1) portfolio təhsilalanın müəyyən təlim müddətində fərdi nailiyyətlərinin qeydə alınması, toplanması və qiymətləndirilməsi vasitəsi kimi; bu zaman portfolio tələbənin (şagirdin) müxtəlif sahələr üzrə göstərdiyi səyi və qazandığı nailiyyətləri nümayiş etdirən iş və fəaliyyət nəticələrinin kolleksiyası formasında çıxış edir;

2) təhsilananın bilik, bacarıq və münasibətlərinin monitorinqi üçün müəllim və tələbə (şagird) tərəfindən istifadə olunan xüsusi və sistemli şəkildə təşkil olunan sübutların yığımı kimi;

3) təhsilalanın əldə etdiyi təcrübə və nailiyyətləri sənədləşdirən və bunlara dair çoxcəhətli informasiyaları əks etdirən işçi qovluq (fayl) kimi.

Bu anlayışlar bir-birini inkar etmir; hər üç hal ifadə forması etibarilə müxtəlif olsa da, mahiyyət etibarilə, demək olar ki, eynidir. Portfolio təhsilalanların müxtəlif fəaliyyət növlərində (təhsil, yaradıcılıq, sosial, əmək, estetik, kommunikativ və b.) əldə etdikləri nəticələri hesaba almağa və qiymətləndirməyə imkan verir.

Portfolio müasir nəzarət- qiymətləndirmə vasitələrini əvəz etmir, onları daha da zənginləşdirir. Hazırda inkişaf etmiş ölkələrin bir çoxunun ali və orta ixtisas təhsili müəssisələrində portfoliodan geniş istifadə olunur. O, təhsildə müxtəlif məsələlərin həllinə kömək edir: ayrı-ayrı fənlər və maraq dairələri üzrə bilik və təcrübələri sistemləşdirməyə, tələbəyə öz inkişafının istiqamətini (məsələn, gələcək peşə fəaliyyətini)

müəyyənləşdirməyə imkan verir; müəllim və mütəxəssislər tərəfindən müəyyən sahə üzrə tələbəyə məsləhət verməyi asanlaşdırır; ona öz inkişaf səviyyəsini (təlim və ya peşəkarlıq üzrə) obyektiv qiymətləndirməyə yardım edir [4].

Portfolio təlimdə bir çox funksiyanı yerinə yetirir. Onlar aşağıdakılardan ibarətdir:

Məqsədyönlülük funksiyası – təlim məqsədlərinin həyata keçirilməsinə, tələbənin (şagirdin) öz fəaliyyətini məqsədyönlü şəkildə qurmasına kömək edir.

Diaqnostik funksiya – müəyyən dövr ərzində baş verən dəyişiklik və inkişafı, ona təsir edən amilləri müəyyən edir.

Motivasiya funksiyası – bilik və bacarıqların mənimsənilməsi nəticələrini, müsbət irəliləyişi daha da sürətləndirməyə, uğur sevinci yaratmağa imkan verir.

Nəzarət funksiyası – görülən işləri və onların hansı səviyyədə icra edilməsini dəqiqləşdirməyə kömək göstərir.

İnkişafetdirici funksiya – tələbənin (şagirdin) öz inkişafını görməyə, zehni qüvvə və bacarıqlarını, müstəqillik və fəallığını artırmağa təkan verir.

Korreksiyaedici funksiya – tələbəni (şagirdi) öz çətinliklərini, nöqsanlarını görməyə və aradan qaldırmağa yönəldir.

Reytinq funksiyası – tələbənin (şagirdin) qazandığı uğurların miqyasını, qrupdakı mövqeyini görməyə və onu daha da yaxınlaşdırmağa imkan verir.

Qiymətləndirmə funksiyası – tələbənin (şagirdin) özünün təlim nəticələrini və fəaliyyətini qiymətləndirməkdə ifadə olunur.

Monitorinq funksiyası – tələbənin (şagirdin) inkişaf səviyyəsini və dinamikasını müəyyənləşdirməyə imkan verir [5].

Göründüyü kimi, portfolio təlimdə çox müxtəlif funksiyaların həyata keçirilməsini təmin edir. Bu da onu müasir qiymətləndirmənin səmərəli metodu kimi səciyyələndirməyə əsas verir. Portfolio təlimdə mühüm pedaqoji vəzifələrin həllinə kömək edir. Həmin vəzifələr sırasında aşağıdakıları göstərmək olar:tələbələrin (şagirdlərin) yüksək təlim motivasiyasını təmin etmək; onların fəallıq və müstəqilliyini inkişaf etdirmək; təlim və özünütəhsil imkanlarını genişləndirmək; təhsilalanların refleksiv və qiymətləndirmə fəaliyyət vərdişlərini inkişaf etdirmək; “öyrənməyi öyrənmək” bacarığını – məqsəd qoymaq, öz təlim fəaliyyətini planlaşdırmaq və təşkil etmək, nəticələri yoxlamaq və qiymətləndirmək bacarıqlarını formalaşdırmaq; tələbələrin (şagirdlərin) təhsilini fərdiləşdirməyə, fərdi meyl və qabiliyyətlərini inkişaf etdirməyə əlverişli şərait yaratmaq; onların gələcək peşə bacarıqlarının formalaşmasına və stimullaşdırılmasına kömək göstərmək.

Ali məktəblərin təcrübəsində portfolionun aşağıdakı bölmələrdən ibarət olan quruluşu daha çox tətbiq olunur: "Təqdimat", "Kolleksiya", "İşçi materiallar", "Nailiyyətlər". Portfolio üzrə işdə onun struktur ünsürlərinin hər birinin məqsədi, məzmunu, vasitə və metodlarının düzgün müəyyənləşdirilməsi və həyata keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

"Təqdimat" bölməsində portfolio müəllifi – tələbə özünü münasib vasitələrlə təqdim edir. Belə vasitələr foto, rəsm, esse (yığcam sərbəst inşa, oçerk), tərcümeyi-hal və s. şəklində ola bilər. Təqdimat formasını tələbənin özünün sərbəst seçməsi daha yaxşı olar. Sərbəst seçim refleksiyanı – insanın öz fəaliyyətini təhlil edib qiymətləndirməsi prosesini dərinləşdirməyə və onun yaradıcılıq səviyyəsini yüksəltməyə imkan verir.

Portfolionun ikinci –***"Kolleksiya"*** bölməsində fənn üzrə zəruri informasiyaları əks etdirən materiallar toplanır. Bu materiallara müxtəlif mənbələrdən əldə edilən əsas nəzəri biliklər, faktlar, əlavə ədəbiyyatlardan, qəzet və jurnallardan, komputerdən toplanan informasiyalar, maraqlı məlumatlar, lüğət və ensiklopedik bilgilər, illustrasiyalar və s. daxildir. Toplanmış materiallar və informasiyalar fənnin müvafiq mövzusunun öyrənilməsində istifadə olunur, digər mövzularla bağlı materiallardan isə vaxtında həmin mövzuların öyrənilməsində istifadə edilir.

Portfolionun "Kolleksiya" bölməsinə toplanan materiallar fənnin müvafiq mövzusu ilə bağlı olub, dərslikdəki informasiyaları əsaslandırmağa, dərinləşdirməyə və genişləndirməyə, ayrı-ayrı hallara tətbiqinə xidmət edir, son nəticədə onları daha yaxşı öyrənməyə və dərk etməyə səbəb olur. [6]

Portfolionun üçüncü bölməsi –***"İşçi materialları"*** fənnin müvafiq mövzuları ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq tələbənin özünün yerinə yetirdiyi işləri əks etdirir. Buraya tələbənin müstəqil, yaradıcı xarakterli işləri daxildir: qrafik işlər (sxemlər, cədvəllər, diaqramlar), yaradıcı müstəqil işlər (layihə işləri, tədris və əməli xarakterli məsələ və problemlərin həlli, yoxlama işləri və test tapşırıqlarının icrası, elmi konfranslarda, olimpiada və müsabiqələrdə, yarışlarda iştirak) və s. daxildir. Belə işlər həm təlim prosesində, həm də auditoriyadankənar vaxtlarda icra edilə bilər.

Portfolionun sonuncu bölməsi – ***"Nailiyyətlərim"*** tələbənin portfolio üzrə iş müddətində fənnin (kursun) mənimsənilməsi sahəsində əldə etdiyi nailiyyətləri əks etdirir.Bu bölməyə tələbənin gündəliyi, iş dəftəri ilə yanaşı

əldə etdiyi nailiyyətləri əks etdirən materiallar, sənədlər daxildir: tələbənin fənn üzrə olimpiada, müsabiqə və yarışlarda, elmi konfrans və seminarlarda iştirakını göstərən sertifikat, fəxri fərman, təşəkkür və mükafatlar, dərc etdirdiyi məqalələr, kurs və yoxlama işlərindən aldığı ballar, kollokvium və fərdi iş balları, kitab və məqalələrə yazdığı xülasələr, tələbənin fənn üzrə fəaliyyətini və onun nəticələrini əks etdirən refleksiv təhlil, tələbələrin bir-birinin fəaliyyətinə və portfolio üzrə işinə verdikləri rəylər, xasiyyətnamələr və s.

Portfolio ilə iş zamanı fənnin mənimsənilməsi üçün məcburi olan işlərə (icra edilmiş tapşırıqlara, tərtib olunmuş icmallara, yerinə yetirilmiş laborator və praktik işlərə, test, sxem, məsələ və problemlərin həllinə) xüsusi diqqət yetirilməlidir.

Portfolio üzrə işin texnologiyası bir neçə mərhələdən ibarətdir. Tədqiqat göstərir ki, bu işin aşağıdakı üç mərhələdə qurulması daha səmərəlidir.

Birinci mərhələdə (hazırlıq mərhələsində) müəllimin təlimatı əsasında tələbələr işin mahiyyəti, məzmunu və təşkili məsələləri ilə tanış olur və özlərinin fərdi yanaşmalarına uyğun olaraq portfolio üzərində işi planlaşdırır: məqsəd və vəzifələri, mərhələləri və hər mərhələdə görüləcək işin məzmununu (bölmə və mövzuları), nəzarət və qiymətləndirmə qrafikini və formalarını müəyyənləşdirirlər.

İkinci mərhələ qəbul olunmuş plana və ayrılmış vaxta uyğun olaraq tələbənin portfolio üzərində bilavasitə işi ilə bağlıdır. Bu dövrdə portfolionun müvafiq bölmələrinə daxil ediləcək materialların fərdi axtarışı, toplanması və sistemləşdirilməsi həyata keçirilir. İşlərin icrası müxtəlif templərdə, həm təlim prosesində, həm də dərsdənkənar vaxtlarda müstəqil şəkildə yerinə yetirilir.

Üçüncü (yekun) mərhələdə tələbələr özünüqiymətləndirmə yolu ilə portfolio üzərində fəaliyyətlərinin refleksiyasını həyata keçirirlər. Bu isə müxtəlif formalarda olur: tələbənin müəllimə fərdi hesabatı, kiçik qrup şəklində müzakirə, portfolio-konfrans və s. Tədqiqat göstərir ki, tələbənin portfolio üzərində işlə bağlı qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq gördüyü işlərə və əldə etdiyi nailiyyətlərə dair yazılı təhlil aparması (müvafiq materialları əlavə etməklə) daha səmərəlidir.

Portfolionun qiymətləndirilməsi zamanı onun bölmələrinin, tərkib ünsürlərinin kəmiyyət və keyfiyyət göstəricilərini nəzərə almaq lazımdır. Mövcud mənbələrdə bu məsələ üzrə vahidlik yoxdur. Bəzi tədqiqatlarda (S.C.Peyp, M.Çoşanov və b.) portfolioya daxil edilən materialların hərtərəfli olması, səviyyəsi, onların məzmununa və tərtibinə təhsilalanın orijinal və yaradıcı yanaşması əsas göstəricilər kimi qeyd edilir [7]. Bu göstəricilər isə portfolio və onunla işin mahiyyətini tam səciyyələndirmir, onun yalnız zahiri tərəfini əks etdirir; tələbənin bilik və bacarıqları mənimsəmə səviyyəsinə portfolionun təsiri, əldə olunan nailiyyətlər qiymətləndirmədən kənarda qalmışdır.

Nəticə

Portfolio qiymətləndirmənin alternativ bir vasitəsi olmaqla ona yeni yanaşmanın həyata keçirilməsinə imkan verir: ənənəvi qiymətləndirmədən fərqli olaraq təkcə təhsilalanların bilik və bacarıqlarını yox, habelə onların təlim səylərini, biliklərin tətbiqi ilə bağlı praktik fəaliyyət nəticələrini müəyyən edib dəyərləndirməyə yönəlir. Portfolionun pedaqoji fəlsəfəsi belədir ki, müəllim təlimdə müəyyən fənn və bölmə üzrə tələbənin bilmədiyini və bacarmadığını yox, bildiyini və bacardığını üzə çıxarıb qiymətləndirir; bilik və bacarıqların kəmiyyət və keyfiyyət tərəflərini vəhdətdə nəzərdən keçirir; əsas diqqəti ancaq qiymətləndirməyə deyil, həm də tələbənin özünüqiymətləndirməsinə verir. Bununla da təhsilin humanist paradiqması təmin edilmiş olur.

Ədəbiyyat

1. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı: Elm və təhsil, 2016, 455 s.
2. Bloom B.S. Taxonomy ofEducational Objektives. Vol.1: Cognitive Domain, New York: McKay. 1956, 115 p.
3. Çağdaş dövr və təhsil. IX Respublika elmi-praktik konfransının materialları. Bakı: Bakı Universiteti, 2017, 348 s.
4. Təhsildə tarixilik və müasirlik. X Respublika elmi-praktik konfransının materialları, 2018, 342 s.
5. Əliyev B.H., Əliyeva K.R.Yaradıcı müəllim hazırlığının bəzi məsələləri. Bakı Universiteti xəbərləri, 2008, s.180-187
6. Педагогическая энциклопедия. М.: Сов. энциклопедия, 1965, 912 с.
7. Qardaşov T., Cavadov İ. Təhsildə monitorinq sistemi və onun növləri // Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2004, N1, s.35-38
8. https://www.edu.gov.az

Important way of evaluation of the results of training of portfolio studentsin higher education

Summary

Portfolio implements new approach as being alternative tool of evaluation: unlike traditional evaluation it turns to identify and evaluate not only the knowledge and skills of learners, but also their learning efforts, and the results of practical activities related to the application of knowledge.The pedagogical philosophy of Portfolio is that the teacher reveals and assesses what the student knows and how is his/her capacity , not he/she does not know; reviews quantitative and qualitative aspects of knowledge and skillstogether; focuses not only on assessment but also self-esteemof students. Thus, the humanistic paradigm of education is provided.

Портфолио как важное средство оценки результатов учения требованиямв высшем образовании

Резюме

Портфолио, являясь альтернативой оценки, дает новую возможность проведения ее в жизнь: в отличие от традиционной отметки, она направлена не только на оценку знаний и способностей обучающихся, но также и на определение и оценку их учебных усердий, результатов практической деятельности, связанной с применением из знаний.Педагогическая философия портфолио такова, что учитель оценивает не только то, чего студент не знает в определенных предметах и отделах, а выявляет оценивает знания и способности студента; изучает совместно качественные и количественные стороны; основное внимание уделяет не только оценке, но и самооценке студента. Этим гуманистическая парадигма образования становится обеспеченной.

DOI: 10.36719/2020/REK/01/204-207

Rabiyyət Bilal qızı İmaməliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
selcan.imamaliyeva.95@bk.ru

ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİLDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ

Açar sözlər: *pedaqoji texnologiyaları, tədris prosesi, texnoloji yanaşma, elektron löhvə, İKT avadanlıqları, kompüter qurğuları*
Key words: *pedagogical technologies, educational process, technological approach, electronic equipment, ICT equipment, computer devices*
Ключевые слова: *педагогические технологии, учебный процесс, технологический подход, электронное оборудование, ИКТ, компьютерные устройства*

XX əsrin 50-ci illərindən başlayaraq alimlərin axtarışları başqa istiqamət götürdü. Proqramlaşdırılmış təlim, daha sonra informatika, kibernetika və sistemli yanaşma təlim prosesini texnologiya kimi başa düşmək üçün bir əsas oldu. Başlıca ideya öyrədici (təlimedici) texnologiyanı ekranda canlandırmaq ideyası idi.

XXI əsrin müasir tələblərinə uyğun olaraq dünyanın müxtəlif ölkələrinin təhsil sistemi daim dəyişməkdə və yenilənməkdədir. Bu tələblərə uyğun olaraq təhsilin məzmunu təlim prosesində yeni prosedual bacarıqların, informasiyadan istifadə etmə bacarıqlarının inkişafı ilə bağlıdır. Bundan əlavə təhsilin məzmunu elmin və bazar iqtisadiyyatında mövcud olan problemlərin yaradıcı və fərdi təhsil proqramlarına uyğun olaraq həll edilməsi ilə də əlaqədardır. Əvvəlki dövrlərdə informasiyanın ötürülməsinin ənənəvi üsulları şifahi və yazılı nitq, telefon və radio əlaqələri idi. Daha sonra yuxarıda qeyd olunan ənənəvi üsullar öz yerini komputer vasitəsilə təlimə və qlobal telekommunikasiya şəbəkələrindən istifadəyə verdi. Pedaqoji prosesin ən mühüm tərkib hissəsi müəllimlərin və şagirdlərin şəxsiyyətəyönümlü qarşılıqlı şəkildə fəaliyyətidir.

İndiki müasir dövrdə təhsil texnologiyalarının psixoloji, pedaqoji planda təkmillləşdirilməsi aşağıda göstərilənlərlə müəyyən olunur:

-təlimdə yaddasaxlama funkisyasının mənimsənilməsini təmin edən əqli inkişaf prosesi ilə əvəz edilməsi;

-orta səviyyəli şagirdə yönəlmiş təlimdən diferenlaşdırılma və fərdiləşdirilmə yönümlü təlimə keçirilməsi.

Bu yuxarıda göstərilən iki amil təhsil texnologiyalarının təkmilləşdirilməsini təmin edir.

Texnologiya termini nədir? "Texnologiya" termini dedikdə müəyyən bir işin ardıcıl şəkildə yerinə yetirilməsi zamanı istifadə edilən əməliyyatların, priyomların, məqsədəuyğun şəkildə birliyidir. Pedaqoji texnologiyalar dedikdə isə qarşıya qoyulan məqsədə nail olmaq üçün ardıcıl şəkildə həyata keçirilən priyomları, optimal təlim metodları və istifadə edilən vasitələrin əvvəlcədən lahiyələşdirilmiş prosesidir. Pedaqoji texnologiyalar aşağıdakı təsnif olunur:

-Təlim prosesinin texnologiyaları

-Tərbiyə prosesinin texnologiyaları

-İnkişaf texnologiyaları

-Diaqnostika texnologiyaları

Bu təsnifatdan aydın şəkildə görünür ki, pedaqoji texnologiyalar geniş mənada pedaqoji sistemi əhatə edir.Pedaqoji texnologiyaların əksinə olaraq isə təlim texnologiyaları yalnız təlim prosesini əhatə edir.Təlim texnologiyalarına əsasən təlimin məqsədi şagirdlərin fikirlərini, onların davranış tərzlərini və emosianal hislərini dəyişməkdir. [6,s.11]

Şəxsiyyətyönümlü təhsildə yeni təlim texnologiyalarından istifadə etmək zəruri əhəmiyyət kəsb edir.Bu baximdan İKT-nin tədris prosesində tədbiqidə zəruridir. Tədris prosesində müəllim ilə şagird arasındakı interaktivliyin, təhsil alanların daha obyektiv və optimal şəkildə qiymətləndirilməsinin son nəticəsidir. Beynəlxaq aləmdə informasiya-kommunikasya texnologiyalarının (İKT) tədris prosesinə tətbiqi təhsil sisteminin ayrılmaz bir hissəsinə çevrilmişdir. Hazırda təhsil müəssələrini informasiya-kommunikasya texnologiyaları olmadan təsəvvür belə etmək mümkün deyildir. Tədris sistemində kompüterlərdən istifadə edilməsi hər şeylə maraqlanan, çox daha dərin məlumat əldə etməyə çalışan məktəbli üçün sağlam informasiya mühitinin formalaşmasına kömək etməkdədir. Kompüterlər müəllimlər və şagirdlər arasında elektron formalı vasitəçi rolunu oynayır, təlim-tədris prosesini daha maraqlı, rəngarəng edir və onu intensivləşdirir.

İnformasiya və kommunikasya texnologiyalarından istifadə olunmaqla modern və yeni interaktiv təhsil modelinin reallaşdırılması məktəb rəhbərliyinin və müəllim kollektivinin qarşısına yeni tələblər qoymaqdadır. Pedaqoji heyətin İKT(informasiya və kommunikasya texnologiyaları) savad yükünü artırmadan, tədris prosesinə və təlimə innovativ şəkildə yanaşmasını formalaşdırmadan informasiya və kommunikasya texnologiyalarının təhsil sisteminə səmərəli formada tətbiq edilməsinə nail olmaq mümkün deyildir. Yeni dövrün tələblərindən irəli gələn dəyişikliklərin ümumtəhsil məktəblərində səmərəli və uğurla tətbiq olunması avtomatik şəkildə müəllimlərində təlim-tədris prosesinə fərqli formada yanaşmasını zəruri edir. Məhz bu səbəbdəndir ki, müəllimin İKT(informasiya və kommunikasya texnologiyaları) bacarıqlarına yiyələnməsi, təlim-tədris prosesində İKT(informasiya və kommunikasya texnologiyaları) bu bacarıqlardan pedaqoji bir alət kimi istifadə etməsi zəruri prosesdir.

Müasir müəllim:

1. şagirdə öyrənmə üsullarını öyrətməli, onlarda sərbəst şəkildə ona lazım olan məlumatı düzgün mənbələrdən axtarmaq, tapılmış məlumatı sistemləşdirmək və özü üçün yararlı informasiyaları seçmək, seçilmiş informasiyaları analiz etmək və məlumatı özününküləşdirərək məsələyə münasibətini bildirmək bacarığı formalaşdırmalıdır;

2. şagirdə özünə inamı aşılamalı və auditoriya qarşısında öz fikirlərini təqdimetmə bacarığı formalaşdırmalıdır;

3. istənilən fənnin tədrisində sadalananların həyata keçməsi üçün şagirdləri yeni informasiya texnologiyalarından istifadəyə yönəltməlidir. İnformasiya və kommunikasya texnologiyalarının köməyi ilə şagird məlumatı əldə etməyə çalışır, onun düşüncəsi inkişaf edir.Kompüter texnologiyalarından istifadə müəllimi şagirdlər üçün yeganə həqiqət söyləyən informasiya mənbəyi olmaqdan azad edir. İnformasiya və kommunikasiya texnologiyalarının tədris zamanı tətbiqi müəllimədə bir çox imkanlar yaradır. O, dərsdə vaxta qənaət edir, məlumatı dəqiq çatdırır, fərqli texniki vasitələrindən eyni anda istifadə edir, daha böyük həcmdə məlumatı çatdırır, məktəb laboratoriyalarında reallaşdırılması mümkün olmayan prosesləri modelləşdirir. İnformasiya-kommunikasya texnologiyaları ilə tədris ənənəvi tədris üsulundan daha üstündür. Müəllimlər informasiya və kommunikasya texnologiyalarının tədrisdə tətbiqinin müsbət nəticələr verdiyini vurğulayırlar. Yeni texnologiyaların tədrisdə tətbiqi dərs prosesini canlandırdığı və sinifdə ən zəif oxuyan şagirdin də belə prosesdən kənarda qalmadığını qeyd edirlər. Dərs prosesinin informasiya və kommunikasya texnologiyalarının tətbiqi sayəsində maraqlı keçirilməsi istənilən

şagirdin diqqətini tədris prosesinə yönəldir. Məsələn,interaktiv "MİMİO" aparat və qurğuları təlim-tədris prosesini təkcə şagirdlər deyil, həmçinin müəllimlər üçün də əyləncə prosesinə çevirir. Ona görə də yeniliklər təlim və tərbiyyə prosesinin optimallaşmasına kömək edir. Ümumiyyətlə, artıq kompüterlər tədricən təhsildə yalnız informatikanın tədrisi prosesinin aləti olmaqdan çıxaraq bütövlükdə dərs prosesinin güclü inkişaf alətinə çevrilmişdir.

İnformasiya və kommunikasya texnologiyalarının təhsildə sistemli tətbiqi zamanı əldə olunan nəticələr göstərməkdədir ki, informasiya texnologiyaları təhsil mühitini tam dəyişdirir,dərs prosesinin yeni mərhələyə keçməsinə imkan yaradır. İnformasiya kommunikasya texnologiyalarının geniş və hərtərəfli tətbiqi nəticəsində insan fəaliyyəti dəyişikliklərə məruz qalır, tamamilə yeni reallıqlar, dəyərlər, sosial psixoloji mühit formalaşır. Dövlətimizin Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin İKT (informasiya və kommunikasya texnologiyaları) ilə təminatı Proqramı" bu istiqamətdə atılmış ən əhəmiyyətli addımdır.

Müasir dərs prosesinin bütün mərhələləri şagirdin maraq dairəsinə, yaş səviyyəsinə uyğun qurulması vacib amildir.Belə ki müasir dərsi informasiya və kommunikasya texnologiyaları olmadan təsəvvür etmək çətindir. Müasir dərs dedikdə, ilk növbədə, göz önündə İKT(informasiya və kommunikasya texnologiyaları) bacarıqları olan müəllim və kompüter, proyektorla təchiz olunmuş, müasir tələblərə cavab verən sinif otağı canlanır. İnformasiya və kommunikasya vasitələrinin köməyi ilə şagirdlərdə həm intellektual və yaradıcılıq bacarıqları, həm də müxtəlif informasiya növləri ilə işləmək bacarıqları inkişaf edir. Müasir şəraitdə müəllimdən şagirdlərin şəxsi keyfiyyətlərinə arxalanan üsullardan istifadə olunması tələb edilir.Müasir müəllim tədris zamanı müasir tələblərə cavab verən dərs hazırlamaq üçün informasiya və kommunikasya texnologiyalarını effektli tətbiq etməlidir. Eləcə də, dərs prosesinin gedişi zamanı internet resurslarından istifadəyə üstünlük verərək şagirdləri internetdən düzgün istifadə etməklə kreativ biliklərə yiyələnməyə sövq etməlidir. Elektron metodik vəsaitlər fənn müəlliminin resursudur və dərsə hazırlıq prosesində metodik kömək göstərir. Elektron dərs prosesinin üstünlüklərindən biri də odur ki, dərs prosesinin bütün mərhələləri slaydlarda öz əksini tapır. Bu da dərsin operativliyini artırır. Dərs zamanı informasiya və kommunikasya texnologiyalarının son yeniliklərindən biri olan "ağıllı" lövhədən istifadə olunması isə şagirdlərin dərs prosesinə diqqət və marağını artırır,onları axtarışa sövq edir. Qeyd etmək lazımdır ki, rəqəmsal tədris resursları yazılı vəziyyətdə təqdim oluna bilməz. Əks halda onun didaktik keyfiyyəti itirilmiş olur.

Hazırda müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlü-inkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır:

1) Əməkdaşlıqla təlim texnologiyası;
2) Layihələr metodu ilə təlim texnologiyası;
3) Modulla təlim texnologiyası.

Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası – bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir.

Layihələr metodu ilə təlim texnologiyası – fəal təlimdə şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun qurulmuş olur. Metodun əsas mahiyyəti uşaqların əldə etdikləri biliklərin həyatda onlara lazım olmağını göstərməkdir.

Modulla təlim texnologiyası – Təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübənin öyrənilməsini tələb edir.

Görkəmli tədqiqatçı alimlərdən A.Mehrabov, Ə.Ağayev, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov və b. texnoloji yanaşmanın strukturunu şaquli və üfuqi olmaqla iki yerə bölürlər. Belə texnoloji yanaşmanın şaquli strukturunda bir-birilə əlaqəli – meta, makro, mezo və mikrotexnologiyaları ayırmaq lazımdır.

Matetexnologiya – sosial pedaqoji səviyyədə təhsil sahəsində sosial siyasəti həyata keçirməyə imkan verən ümumpedaqoji (ümumdidaktik, ümumtərbiyə) texnologiyadır.

Makrotexnologiya və ya təhsil sahələri üzrə texnologiya hər hansı təhsil sahəsini təlim-tərbiyə prosesinin müəyyən istiqamətini, ümumpedaqoji və ümummetodiki səviyyədə fənnin tədrisi ilə bağlı fəaliyyət sahələrini əhatə edir.

Mezotexnologiya və ya lokal modul texnologiya təlim-tərbiyə prosesinin ayrı-ayrı hissələri (modulları), xüsusi, didaktik, metodik və ya tərbiyənin müəyyən bir problem sahəsi ilə bağlı məsələləri həll etmək üçün tətbiq olunan texnologiyadır.

Mikrotexnologiya – pedaqoji prosesin subyektləri arasındakı operativ məsələlərin, qarşılıqlı əlaqələrin, yazı vərdişlərinin həlli ilə bağlı texnologiyadır. Belə texnologiyalara misal olaraq yazı vərdişlərinin formalaşdırılması, subyektin (şəxsiyyətin, tədris prosesinin iştirakçılarının) şəxsi keyfiyyətlərinin korreksiyası üçün treninqlərin təşkili ilə bağlı texnologiyaları göstərmək olar. [3,s.11]

Ədəbiyyat
1. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.
2. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, 2005
3. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, 2006.
4. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Dərs vəsaiti. Bakı, 2008.
5. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı, 2011.
6.ƏliyevA., Şəxsiyyətyönümlü təlim texnologiyalarındankimyanın tədrisində istifadə // Kurikulum, 2013 №1, səh10-12

The need to use new learning techonologies in personality-oriented education

Summary

Teachers who use new technology in the teaching process say that ICT tools with their resources greatly simplify the learning process, making it dynamic and fast. The addition of a computer to the educational system also helps to better organize the learning process and to increase the students' interest in lessons. Because computer lessons are more fun and memorable for students. The use of multimedia tools, automated learning systems, computer training programs, animated tutorials, interactive boards has a positive effect on students' thinking and, ultimately, improves the quality of their results.

Необходимость использования новых технологий обучения в личностно-ориентированном образовании

Резюме

Учителя, которые используют новые технологии в процессе обучения, говорят, что инструменты ИКТ с их ресурсами значительно упрощают процесс обучения, делая его динамичным и быстрым. Добавление компьютера в систему образования также помогает лучше организовать учебный процесс и повысить интерес учащихся к урокам. Потому что компьютерные уроки веселее и запоминаются для студентов. Использование мультимедийных инструментов, автоматизированных систем обучения, компьютерных обучающих программ, анимированных учебных пособий, интерактивных досок оказывает положительное влияние на мышление учащихся и, в конечном итоге, повышает качество их результатов.

DOI: 10.36719/2020/REK/01/207-210

Rəhimə Cümşüd qızı Babayeva
Azərbaycan Dillər Universiteti
b.rahima23@mail.ru

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ LEKSİKANIN TƏDRİSİ

***Açar sözlər**: leksika, leksik bacarıqlar, üsul, ünsiyyət, şifahi nitq*
***Key words**: lexis, lexical skills, method, communication, oral speech*
***Ключевые слова**: лексика, лексические навыки, способ, общение, устная речь*

Giriş

Hal-hazırda ingilis dilinin öyrənilməsi və bu dildə kommunikativ unsiyyət yaratmaq günün aktual tələbidir. Buna görə də tələbələr ingilis dilində kommunikativ vərdişlərə interaktiv metod vasitəsilə dərsdə yiyələnə bilərlər. Müasir tədris metodlarından istifadə etməklə müəllim tədrisin keyfiyyətini yüksəltmək üçün dərslərin effektivliyini artıra bilər. Düzgün seçilmiş metod və üsullar tələbələrin ingilis dili dərslərinə marağını artırır, onları kommunikativ ünsiyyətə girməyə, fikirlərini sərbəst ifadə etməyə sövq edir, tələbələrdə ingilis dilində ünsiyyət yaratmağa meyl yaranır və müəllimin seçdiyi metod və üsullar tələbələri daha da fəallaşdırır. Bunun üçünsə müəllim dərsi rəngarəng, tələbələrin marağına uyğun şəkildə təşkil etməlidir.

İngilis dilinin leksikasının öyrənilməsi müasir metodikada ən aktual mövzulardan biridir, leksika şifahi kommunikativ fəaliyyətin tərkibinə daxildir və şifahi ünsiyyət zamanı istifadə edilir. İngilis dilini öyrənən

tələbə ilk növbədə həmin dilin leksikasını bilməlidir, yəni ingilis dilində danışmaq üçün lazımi söz ehtiyatına malik olmalıdır.

Bəs leksika nədir? Leksika dilin söz toplusu, onun lüğət tərkibidir. Leksikanın tədrisi mürəkkəb bir prosesdir. Bu prosesi yerinə yetirmək üçün üsullar axtarılmalıdır. Metodistlərin bu sahə haqqında fikir ayrılıqları var. Bir qrup metodist sübut etməyə çalışır ki, tələbələrə yalnız şifahi danışıq nitqi öyrədilməlidir. Digər bir qrup isə sübut etməyə çalışır ki, şifahi nitq üçün söz ehtiyatı lazımdır. Tələbələrin söz ehtiyatı olmasa onlar necə danışa bilərlər? N.İ.Qez yazır ki, tələbələrin nitqini düzgün inkişaf etdirmək üçün ona leksik materialı öyrətmək lazımdır. Leksika dilin əsasıdır, onsuz nitqi təsəvvür etmək olmaz [1, s.100].

Dilin leksikası nitq fəaliyyətinin: eşidib-anlama, danışma, oxu və yazının ən mühüm komponentidir. Dilin leksikası qrammatika və fonetika ilə sıx əlaqədardır. Bunların biri digərini tamamlayır. Leksik material eşidib-anlama, danışıq, oxu və yazı kimi nitq fəaliyyətinin dörd növünü intensivləşdirir, tələbə leksik material əsasında öz fikrini başqasına çatdırır. Tələbələrdə leksik bacarıq və vərdişlər həm leksik vahidlərin nitqə daxil olması, həm də lüğət, mətnlə iş prosesi zamanı, leksik tapşırıqların yerinə yetirilməsi, leksikanın nitqdə aktivləşdirilməsi əsasında yaranır və onlarda yaradıcı təfəkkürü inkişaf etdirir.

Metodistlərin leksik bacarıqların formalaşması haqqında müxtəlif fikirləri var. Məsələn, S.F.Şatilova görə, leksik bacarıq sözün istifadə olunması və sözun əmələ gəlməsi kimi komponentlərdən ibarətdir [2, s.84]. E.İ.Passovun fikrincə, leksik bacarıq söz birləşmələrinin əməliyyatından ibarətdir [3, s.50]. Qeyd etmək lazımdır ki, sözlərin istifadəsi təkcə sözləri bilmək deyil, onların nitqdə istifadə etmək bacarığını da tələb edir. Bu problem iki yolla həll olunur: nəinki öz nitqində leksikadan istifadə etməyi öyrənmək, həmçinin, onu digərlərinin nitqində başa düşmək. Leksik bacarıq ekspressiv və reseptiv leksik bacarıqlardan ibarətdir.

İngilis dilinin leksikasının öyrənilməsi prosesində ənənəvi olaraq üç əsas mərhələ mövcuddur:

1) Tanışlıq
2) İlkin mənimsəmə
3) Müxtəlif növ nitq fəaliyyətində leksik bacarıq və vərdişlərin inkişaf etdirilməsi

İlk iki mərhələ adətən bir mərhələdə, yəni leksikanın təqdimatı mərhələsində verilir. Təqdimat mərhələsi leksikanın öyrənilməsində mühüm rol oynayır. Leksika üzərindəki bütün sonrakı iş bu mərhələnin effektivliyi və məqsədyönümlüyündən asılıdır. İngilis dilinin leksikasının tədrisi müəllimdən xüsusi ustalıq tələb edir. Bu ustalıq ona görə lazımdır ki, tələbə öyrəndiyi sözü uzun müddət yaddaşında saxlasın və şifahi nitqdə ondan istifadə edə bilsin. Bunun üçün müəllim nə etməlidir? O, hansı üsullardan istifadə etməlidir? Müəllim dərsin məqsəd və vəzifələrinə, tələbələrin bilik səviyyələrinə və leksik minimumun düzgün seçilməsinə uyğun olan üsullardan istifadə etməlidir.

Təqdimat yeni leksik vahidin tanışlığı və ilkin mənimsəməsini birləşdirən, leksik materialın aktiv təlimi olan ilkin mərhələdir. Tanışlıq mərhələsində iş sözün forma, məna və istifadəsi üzərində cəmləşir. Birinci mərhələdə yeni sözün mahiyyətinin öyrənilməsi baş verir. Bu mərhələnin başlıca vəzifəsi sözün, yaxud frazeoloji birləşmənin mahiyyətini tələbələrə çatdırmaqdan və onun nitqdə istifadə etmək bacarığını göstərməkdən ibarətdir. Növbəti mərhələdə tələbələr vahid nitq situasiyalarında leksik nitq əlaqələrinin yaranması üçün məşq edirlər. Sonuncu mərhələdə tələbələr dinamik leksik nitq əlaqələrini yarada bilirlər, daha doğrusu yeni sözləri ünsiyyətdə sərbəst istifadə edə bilirlər.

Təqdimat mərhələsində yeni sözun mənasının açıqlanması aşağıdakı üsullarla verilir:

1) tərcüməsiz üsul
2) tərcümə üsulu

Tərcüməsiz üsullara əşyaların, şəkillərin, cədvəllərin, slaydların və s. nümayişi aiddir. Bu üsul məsələn, ailə, meyvə, tərəvəz, heyvan, idman növləri, hərəkət və məşğuliyyətləri təsvir edən real əşyalar sözün mənasının açıqlanması üçün tətbiq edilir. Bu üsul vasitəsilə tələbələrin qarşılıqlı fəaliyyətini təşkil etmək asandır. Məsələn, əgər ingilis dili dərsində mövzu idman haqqındadırsa, bu zaman müxtəlif idman növlərini təsvir edən bir sıra şəkillər skiing, skating, swimming, running, cycling, windsurfing kimi terminlərin izah edilməsi üçün lazımlıdır. Dərsdə bu şəkillər vasitəsilə tələbələrin şifahi nitqini inkişaf etdirmək üçün müəllim və tələbələr arasında dialoq qurmaq məsləhətdir. Məsələn:

T: Can you swim?
S: Yes, I can.
T: When did you learn to swim?
S: At the age of five.
T: Who taught you to swim?
S: My brother.
T: How often do you go swimming?
S: Every week.

Leksikanın təqdimatı zamanı rəngli slaydların istifadə edilməsinin vacibliyini qeyd edərək sözlərlə aşağıdakı iş üsulu təklif olunur:

Ekranda tələbələr şəhərin, kəndin, bağın, evin, mənzilin təsvirini görürlər. Slaydda təsvir olunanların əyaniliyi bir qayda olaraq sözün mənasının açıqlanmasına vaxt sərfini tələb etmir. Tələbələr müəllimi dinlədikdən və slaydda olan sözləri birlikdə və ayrılıqda tələffüz etdikdən sonra onların istifadə olunmasını əvvəlcə yeni öyrəndikləri leksika ilə birlikdə məşq edirlər. Məsələn, bütün yeni sözləri I live in a... konstruksiyası ilə demək təklif edilir.

Tələbələr deyirlər: I live in a village.
I live in a house.
I live in a flat.

Bundan sonra məşq məlum nitq nümunələri vasitəsilə dialoq şəklində davam etdirilir:

T: Where do you live?
S: I live in a village.
T: Where is your house?
S: It is near the forest.
T: Is there a garden in front of your house?
S: Yes, there is.

Beləliklə, əgər müəllim yuxarıda qeyd olunan üsullardan istifadə etməklə yeni sözləri izah edərsə, onları cümlələrdə işlədərsə, tələbələrin özlərinə həmin sözlərə aid cümlə qurmağı öyrədərsə, onda tələbələr həmin sözləri yaxşı mənimsəyərlər.

Tərcüməsiz üsullara həmçinin definisiyalar verməklə sözlərin tapılması, sadalama, sinonim və antonimlər vasitəsilə sözlərin mənasının açıqlanması kimi üsullar da aiddir.

Hal-hazırda tərcüməsiz üsullardan ingilis dili dərslərində çox istifadə olunur. Bu üsullar vasitəsilə tələbələr sözü yaxşı mənimsəyirlər, yadda saxlayırlar və yeri gəldikdə nitqdə düzgün istifadə edirlər. Tərcüməsiz üsullar tələbələrin ingilis dili dərslərinə olan marağını artırır, onların dərsdə fəallağına imkan verir, tələbələrin şifahi nitqini inkişaf etdirir. Bu üsullardan istifadə etməklə tələbələr bir-biri ilə ingilis dilində ünsiyyət yaratmaq imkanı əldə edirlər.

Tərcümə üsulları vaxt baxımından əlverişlidir. Onlar aktiv lüğətə daxil olmayan sözlərin izah edilməsi üçün istifadə olunur. Tərcümə üsullarının sözün xarici dildən ana dilinə tərcüməsi və tərcümə-şərh kimi növləri var.

Nəticə

Beləliklə, yuxarıda deyilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, ingilis dilinin leksikasının öyrənilməsi uzunmüddətli bir prosesdir. Bu prosesdə istifadə olunan üsullar müxtəlif məzmuna və istiqamətə malikdirlər. Müəllim dərs prosesində bu üsullardan istifadə etməklə tələbələri həvəsləndirməli və onların nitq vərdişlərinin inkişaf etdirilməsi üçün şərait yaratmalıdır. Bu üsullardan istifadə etməklə leksik materialı demək olar ki, tələbələr tez yadda saxlayırlar. Bir sıra hisslər əsasında tələbələrdə qeyri-ixtiyari yadda saxlama bacarığı və həmçinin uzunmüddətli yaddaş yaranır. Tələbələr öyrəndikləri yeni sözləri öz cümlə və dialoqlarında istifadə etməyə səy göstərirlər, onlar bir-biri ilə ünsiyyətdə olurlar, dilə yaradıcı yanaşmağı öyrənirlər və tələbələrdə yaradıcı təfəkkür inkişaf edir. Tələbələr yeni söz öyrənən zaman yaradıcı olmalı, onlar yeni sözləri öyrənib yalnız əzbərləməməlidirlər, yeni sözləri müxtəlif situasiyalarda istifadə etməyi bacarmalı və bunu vərdişə çevirməlidirlər.

Ədəbiyyat

1. Гез Н.И., Ляховицкий М.В., Миролюбов А.А. Методика обучения иностранным языкам. М.: Высшая школа, 1982, 234 с.
2. Шатилов С.Ф. Методика обучения немецкому языку в средней школе: Учебное пособие для студентов педагогических институтов. М.:Высшая школа, 1986, 212 с.
3. Пассова Е.И., Кузнецова Е.С. Формирование лексических навыков. Учебное пособие. Воронеж.: Альтернатива, 2002, 142 с.
4. Соловова Е.Н. Методика обучения иностранным языкам. Базовый курс лекций: пособие для студентов педагогических вузов и учителей. М.: Просвещение, 2005, 239 с.
5. Thornbury S. How to teach Vocabulary. Pearson Education Limited, 2004, 200 p.

Teaching vocabulary at english lessons
Summary

This article deals with teaching vocabulary at English lessons. Teaching English vocabulary is one of the most actual problems in modern methodology of teaching a foreign language. Teaching English vocabulary is a long complicated process. Different methods are used in ths process. Using these methods the teacher encourages the students, creates situations to develop the students' communicative skills.

Обучение лексики на уроках английского языка
Резюме

Данная статья рассматривает обучение лексики на уроках английского языка.

Обучение лексики английского языка одной из самый актуальных проблем в современной методике обучения иностранным языкам. Обучение лексики английского языка – это длительный сложный процесс. В этом процессе используется разные способы. Используя эти способы учитель мотивирует студентов, создает условия для развития в их речи коммуникативных умений и навыков.

DOI: 10.36719/2020/REK/01/210-214

Sevinc Tofiq qızı Vəliyeva
Naxçıvan Dövlət Universiteti
veliyeva_1979@bk.ru

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ TƏBİƏTƏ HƏSSAS VƏ QAYĞIKEŞ MÜNASİBƏT FORMALAŞDIRMAĞIN PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *kiçikyaşlı məktəblilər, təbiət hadisələri, təbiətə qayğı, təbiətə həssas münasibət, ekoloji mühit, ekoloji təhsil, ekoloji tərbiyə, ekoloji mədəniyyət, psixoloji təsir, psixoloji yanaşmalar*
Key words: *younger students, natural phenomena, taking care of nature, sensitive to nature, ecological environment, environmental education, ecological culture, psychological effect, psychological approaches*
Ключевые слова: *младшие школьники, природные явления, забота о природе, чувствительное отношение к природе, экологическая среда, экологическое образование, экологическое воспитание, экологическая культура, психологическое воздействие, психологические подходы*

Giriş

Kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağın pedaqoji əsasları ilə yanaşı, psixoloji əsaslarının da müəyyənləşdirilməsinə zəruri ehtiyac vardır. Ona görə ki, pedaqoji prosesdə kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdıran zaman müəyyən pedaqoji prinsiplərə, üsul və vasitələrə istinad olunarkən problemin əsas tərəflərindən birinin həlli nəzərdə tutulursa, kiçikyaşlı məktəblilərə psixoloji cəhətdən düzgün yanaşılması isə problemin, əsas tərəflərindən ikincisinin həlli nəzərdə tutulur. Əslində, kiçikyaşlı məktəblilərə həssas və qayğıkeş münasibətin öyrədilməsi psixoloji cəhətdən ona görə zəruri sayılır ki, onların yaş dövrləri, həssaslığı, qayğıkeş yanaşmaları və bu işə münasibət bəsləmələri psixoloji cəhətdən düzgün əsaslandırılmalıdır. İkinci bir tərəfdən həssaslıq, qayğıkeşlik, hiss və emosiyalardan yaranan psixoloji halətlərdir. Bu halətlərin öyrənilməsi üçün kiçikyaşlı məktəblilərə yaş dövrlərinə görə psixoloji cəhətdən düzgün yanaşmaq lazım gəlir. Psixoloji ədəbiyyatda göstərilir ki, insanın hissləri onların münasibətləri ilə bağlıdır. Bizim məqaləmizdə də belə psixoloji bağlılıqlar vardır. İlk növbədə, biz uşaqların hisslərini öyrənməyi önə çəkmişik. Psixoloji ədəbiyyatda göstərilir ki, hisslər insanın münasibətləri və emosiyaları ilə bağlıdır. Bu cəhəti nəzərə alaraq, ona aşağıdakı kimi tərif verilib: hiss və emosiya insanin dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən psixi prosesdir (1, 153). Bu tərifə əsaslansaq deyə bilərik ki, kiçikyaşlı məktəblilərin hiss və emosiyalarına məqsədyönlü şəkildə təsir göstərildikdə onların dərk etdiyi təbiət hadisələrinə bəslədikləri münasibətləri üzə çıxartmaq mümkündür. Kiçikyaşlı məktəblilərin hissləri onların gücünə və güclərinin davamlılığına görə müxtəlif cür təzahür edir. Elmi psixologiyada kiçikyaşlı uşaqların hisslərini onların emosional haləti də adlandırırlar. Unutmaq olmaz ki, kiçikyaşlı məktəblilərin hər biri emosional olmağı ilə fərqlənir. Lakin həmin emosionallıq özünü I sinif şagirdlərində bir cür, II sinif

şagirdlərində isə başqa cür göstərir. III və IV sinif şagirdlərinin emosionallığı, əlbəttə ki, I və II sinif şagirdlərinin emosionallığından ciddi şəkildə fərqlənir. Ona görə kiçikyaşlı məktəblilərin təbiətə həssas və qayğıkeş münasibətlərini aşkara çıxarmaq məqsədi ilə onların emosional vəziyyətlərini diqqət mərkəzində saxlamaq lazım gəlir. Xüsusilə I sinif şagirdlərində davamlı emosional hallar olduqda belə onlar həmin emosional halları büruzə verməkdə çətinlik çəkirlər. Çünki onlar utanırlar. Utancaqlıqları onlarda emosional halların müşahidə olunmasına mane olur. Bunun üçün onlarda müəyyən əhvali-ruhiyyə yaratmaq lazım gəlir. Əhval - çox zəif cərəyan edən emosional halətdir. Məsələn, insan qəmgin, şad, əzgin, gümrah, qüssəli və s. hallarda ola bilər, lakin onlar zəif cərəyan etdiklərindən o qədər də aydın surətdə nəzərə çarpmır və çox kəskin xarici ifadəyə malik olmur (1, 163).

Təcrübə və müşahidələr göstərir ki, kiçikyaşlı məktəblilərdə əhval emosional halət olaraq müxtəlif xarakterə malik olur. Birincisi ona görə ki, onlar müxtəlif tip ailələrdən məktəbə gəlirlər. Məhz bu baxımdan kiçikyaşlı məktəblilərin əhvalları ailələrdəki vəziyyətə görə dəyişir. Psixoloqlar göstərirlər ki, əhvallar xeyli müddət: həftələrlə, aylarla davam edə bilər.

İkincisi, kiçikyaşlı məktəblilərin öz həmyaşıdları ilə münasibətləri kəskinləşəndə onların əhvalları pozulur. Çox vaxt tənəffüslərdə oyun zamanı yoldaşları arasında yaranan münaqişələr onların əhvallarını pozur. Belə vəziyyət bəzən dərslərin sonuna qədər davam edə bilər.

Əhvalın bəzən səbəbi tam aydın olmur. Belə ki, insan özündə bu və ya digər əhvalın səbəbini, necə əmələ gəldiyini bəzən aydın dərk edə bilmir. Çünki əhvalı çox zəif qıçıqlayıcılar belə dəyişə bilir. Məsələn, adam acıqlı olduqda ən cüzi şeylər belə (birinin bərkdən gülməsi, stola toxunması və s.) onun əhvalını pozur. Buna görə də əhvallar stenik və astenik ola bilir (1, 163). Təcrübə göstərir ki, I sinif şagirdləri, eləcə də II sinif şagirdləri təlim prosesində müəyyən çətinliklərlə üzləşirlər. Məhz bu zaman onların əhvalı pisləşir. Onların pisləşən əhvalını yaxşılaşdırmaq üçün, ilk növbədə, onları təbiətə, təbiətin qoynuna çıxarmaq lazımdır. Təbiətdə güllərə, çiçəklərə, yaşıllıqlara tamaşa edən kiçikyaşlı məktəblilərin xoş əhvala malik olmaları üçün şərait yaranır. Bu şəraitdən istifadə edən müəllimlər, o cümlədən sinif müəllimləri onları təbiətin qoynuna apararkən onların təbiət hadisələrinə qayğıkeş münasibət bəsləmələri üçün müəyyən şərait yaratmalıdırlar. Əslində, ibtidai siniflərdə təlim prosesində kiçikyaşlı məktəblilərin təbiətin qoynuna aparılması ilə bağlı bir çox göstərişlər, səbəblər və zərurətlər mövcuddur. Tutaq ki, bir sıra fənlərin tədrisində kiçikyaşlı məktəblilərin açıq havaya, məktəb həyətinə, yaşıl meydançaya, məktəbin əmək sahələrinə, tədris təcrübə stansiyalarına aparılması zərurəti yaranır. Fikrimizcə, belə hallarda kiçikyaşlı məktəblilərin təbiətə həssas və qayğıkeş münasibətlərinin formalaşdırılması üçün yaranan şəraitdən müəllimlərin, o cümlədən ibtidai sinif müəllimlərinin istifadə etmələri çox vacibdir. Unutmaq olmaz ki, ibtidai siniflərdə bir çox fənlərin tədrisi prosesində şagirdlərin ekoloji tərbiyəsinin inkişaf etdirilməsi və onların təbiətə həssas və qayğıkeş münasibət bəsləmələri üçün yaranan imkanlardan bütün sinif müəllimlərinin istifadə etmələri nəinki lazımdır, hətta vacibdir. Çünki, ilk növbədə, açıq havada keçilən dərslər, məşğələlər, tədbirlər kiçikyaşlı məktəbliləri təbiət hadisələri ilə üzləşdirir. Bu zaman onların əhvalında, yaxşı mənada, irəliləyiş baş verir. Belə hallarda ibtidai sinif müəllimləri şagirdlərin diqqətini təbiətə, təbiət hadisələrinə, atmosferin təmizliyinə, hidrosferin saflığına, biosferin estetik və əxlaqi hisslər oyatmasına yönəltməlidirlər. Məhz belə anlarda kiçik məktəblilərin əhvalında müəyyən dəyişiklik baş verir. Onların təsəvvür və düşüncələrində təbiətə həssas və qayğıkeş münasibət bəsləmək elementləri yaranır.

Əhval insanın təsəvvür və düşüncəsinə, onların məzmun və istiqamətinə, ətraf aləmə bəslədiyi münasibətə təsir göstərir. Adamda şad və gümrah əhval olduqda ətrafdakı hər bir şey insana xoş təsir bağışlayır. Hər şey onu vəcdə gətirir. Qəmgin olduqda isə əksinə, hər şey ona sönük və mənasız görünür (1, 163). Təcrübə və müşahidələr göstərir ki, ibtidai siniflərdə şagirdlərə təbiətlə, təbiət hadisələri ilə, ekoloji mühitlə bağlı məlumatlar verərkən bəzən müəllimlər yüksək səviyyəli əhvali-ruhiyyə nümayiş etdirmirlər. Bunun isə bir çox səbəbləri vardır. Ən başlıca səbəblərdən biri ibtidai sinif müəllimlərinin ailələrində baş verən ziddiyyətlərlə bağlı olur. Yəni ibtidai sinif müəlliləri məktəbə gəlməmişdən qabaq öz ailələrində ailə münasibətlərinin gərginləşməsi hesabına əsəbləşirlər. Psixoloqlar göstərirlər ki, insan əhvalın qulu olmamalı, əksinə həmişə mənfi əhvallara qarşı mübarizə aparmağı bacarmalıdır. Bir də ki insan əhvalının sirayətetmə xüsusiyyəti vardir. Məsələn, müəllimin gümrah əhvalı, qəmginliyi və ya süstlüyü çox vaxt asanlıqla şagirdlərə də keçir. Odur ki, nə kimi xoşagəlməz hadisənin baş verməsinə baxmayaraq, müəllim öz əhvalının əsiri olmamalıdır. İmtahan vaxtı müəllimin gümrahlığı, şad əhvala malik olması şagirdlərə müsbət təsir edir, onların qüvvələrini sanki səfərbərliyə alır (1, 163). İbtidai sinif müəlliminin özünü səfərbərliyə alması uşaqlara psixoloji cəhətdən müsbət təsir göstərir. Bir çox hallarda aşağı əhvala malik olan ibtidai sinif şagirdlərinə də rast gəlinir. Təcrübə göstərir ki, ailədə, ailə üvzləri arasında olan xoşagəlməz söhbətlər, sinif yoldaşları arasındakı anlaşılmaz mübahissələr ibtidai sinif şagirdlərinin əhvallarını pozan amillərdir. Belə ziddiyyətlər şagirdlərin əhvalına çox mənfi göstərir.

Bəzən şagirdlər piyada məktəbə gəlməli olurlar. Piyada gələrkən üzləşdikləri ziddiyyətlər çox vaxt şagirdləri stressə salır. Kənd məktəblərinə piyada gələn ibtidai sinif şagirdlərinə, hətta itlər hücum edir. Bu zaman şagirdlər stressə düşürlər.

Stress (ingiliscə stress - təzyiq, gərginlik deməkdir) – insanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Yəni qəflətən təhlükəli vəziyyətdə və ya mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul etmək, hərəkət etmək lazım olarkən insanda özünü büruzə verən haldır. Müasir dövrdə, elmi-texniki tərəqqi şəraitində insanlarda belə emosional halətlər tez-tez müşahidə olunur. Şagirdlər imtahan verəndə, sərnişinlər təyyarədə uçanda, operator qəza ilə rastlaşanda, rəhbər işçi mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul etdikdə çox vaxt gərginlik keçirir və stresə düşürlər (1, 166). Şagirdlərin isə stress keçirmələri onların təbiətə və təbiət hadisələrinə olan münasibətlərini dəyişir. Stressə düşən şagirdlər isə təbiətdəki gözəllikləri görmür, onlardan zövq ala bilmirlər. Daha doğrusu, stress ibtidai sinif şagirdlərinin hisslərini korlayır. Bu zaman onlar, təbiətin, təbiət hadisələrinin, təbiət gözəlliklərinin, yaşıllıqların, rənglərin estetik dəyərini duya bilmir, qavramaqda çətinlik çəkir və qiymətləndirə bilmirlər. Şagirdlərin düşdükləri belə stresslər emosional stresslər adlanır. Təcrübə və müşahidələr göstərir ki, ibtidai sinif şagirdləri, əsasən, emosional stresslərlə üzləşirlər. Bəzi hallarda onlarda informativ streslər də müşahidə olunur.

Psixoloji streslərin özləri də iki yerə ayrılır: informativ və emosional streslər. İnformativ streslər informasiyanın həddən ziyadə çoxluğu şəraitində, yəni insanin qarşıya çıxan məsələləri vaxtında həll edə bilməməsi, məsul qərarları lazımi sürətlə qəbul etməkdə çətinlik çəkməsi hallarında baş verir.

Emosional streslər isə daha çox təhlükəli, qorxulu vəziyyətlərdə, ciddi inciklik şəraitində baş verir. Bu halda insanın psixi proseslərinin, emosional halətlərinin, fəaliyyətin motivasiyasının ciddi təbəddülata uğraması, orada müəyyən dəyişikliklərin baş verməsi özünü göstərir. Hətta bu vəziyyətdə insanın nitq və hərəki fəaliyyətində pozğunluqlar baş verir. Yəni emosional streslər bir sira psixosomatik xəstəliklərin törənməsi ilə nəticələnə bilir (1, 168). Təcrübə göstərir ki, ibtidai siniflərdə şagirdlərin təbiətə, təbiət hadisələrinə, təbiət gözəlliklərinə, yaşıllıqlara, çiçəklərin, güllərin, ağacların əkilməsinə, becərilməsinə istiqamətləndirilməsi formal şəkildə qurulduqda şagirdlər etiraz edirlər. Şagirdlərin etirazları müəllimlərin sərt hərəkətləri, ciddi, lakin formal təhdidləri yatırılır. Bu zaman şagirdlər stressə düşə bilirlər. Belə hallar müəllimlər yalnız sinif şəraitində bu işləri nəzəri şəkildə həll etməyə çalışdıqları zaman baş verir. Şagirdlər təbiətə, təbiət gözəlliklərinə, yaşıllıqlara münasibətlərinin söz vasitəsilə, müəllimlərin şərhləri vasitəsilə süni şəkildə yaradılmasına qarşı çıxırlar. Onlar açıq havada, təbiətin qoynunda, bağlarda, bağçalarda, bostanlarda, çay kənarında, göl qırağında, dağlarda, dərələrdə ekoloji mühiti öz gözləri ilə görmək istəyirlər. Onlar yaşıllıqlara qayğı ilə yanaşmağı sevirlər. Ağac əkməyi, gülləri, çiçəkləri becərməyi xoşlayırlar. Lakin müəllimlər bütün bu hadisələri sözlə təsvir edərkən onlarda ekoloji hissləri yox, bir növ, əxlaqi hissləri oyatmağa çalışırlar. Doğrudur, ibtidai sinif müəllimləri bir çox hallarda təbiət hadisələrini, təbiət gözəlliklərini şərh edərkən şagirdlərə əxlaqi hisslər aşılayırlar. Məsələn, II sinifdə "Biz təbiətin övladlarıyıq" başlığı altında verilən mövzuları şərh edərkən ibtidai sinif müəllimləri şagirdlərə belə bir informasiya verirlər: "Təbiətə biz ana təbiət deyirik. Ona görə ki, təbiət bizi hava, su və müxtəlif qidalarla təmin edir. Biz həmin havanı, suyu və qidaları qəbul edərək böyüyürük, inkişaf edirik, müxtəlif peşələrə sahib oluruq və müxtəlif vəzifələr daşıyırıq. Çalışdığımız vəzifələrdə qazanc əldə edirik. Həmin qazancla evlər tikirik, geyinirik, bəzənirik, səyahətlər edirik. Bütün bunları isə bizə bəxş edən ana təbiətdir. Ona görə ana təbiətə qarşı biz həm böyük sevgimizi, məhəbbətimizi bildirməli, eyni zamanda, ana təbiətə qarşı naxələf olanlarla mübarizə aparmalıyıq". Belə informasiyalar şagirdlərdə əxlaqi hissləri yüksəldir. Şagirdlər ana təbiətə dərin sevgi hissləri nümayiş etdirirlər. Onlar təbiətə naxələf çıxanlara qarşı mübariz olmağa çalışırlar. Deməli, təlim-tərbiyə prosesində şagirdlərdə təbiətə, təbiət hadisələrinə qarşı yaradılan hisslərin bir qismi əxlaqi hisslər hesab olunur.

Əxlaqi hisslər müəyyən cəmiyyət miqyasında mövcud olan əxlaq normalarına bəslənən subyektiv münasibətlə bağlıdır.

Əxlaqi hisslərin obyekti ayrı-ayrı adamlar, insan qrupları, insanlar arasındakı münasibətlər, ictimai həyat hadisələri və qanunları, eləcə də adamın öz hərəkət və rəftarı ola bilər. Əgər həmin hadisələrə münasibət mövcud cəmiyyətin birgəyaşayış qaydalarına uyğun gəlirsə, müəyyən davranış normalarına müvafiqdirsə, o zaman insanda müsbət əxlaqi hisslər yaranır. Xeyirxahlıq, dostluq, rəğbət, yoldaşlıq, kollektivçilik, məsuliyyət hissləri belə hisslərdəndir. Bəzən də insan mövcud əxlaq normalarına uyğun hərəkət etmir, öz mənafeyini cəmiyyətin mənafeyindən üstün tutur. Bu zaman onda fərdiyyətçilik, bədxahlıq, düşmənçilik, paxıllıq və s. kimi mənfi hisslər kök salır. Öz yaramaz hərəkət və rəftarının ictimai əxlaqa uyğun gəlmədiyini dərk edən, bunun üçün dərin iztirab keçirən adamda isə təəssüf, peşmançılıq, utancaqlıq, xəcalət çəkmək kimi əxlaqi hisslər nəzərə çarpır. (1, 176). Bir çox hallarda belə əxlaqi hissləri təbiətə xoş münasibətlə tənzimləmək olur. Stressə düşən şagirdləri təbiətin qoynuna aparmaqla onları ovundurmaq, özünə gətirmək, onlarda xoş əhvali-ruhiyyə yaratmaq mümkün olur. Bu zaman onlarda yaranan əxlaqi hisslər

bir çox hallarda estetik hisslərə çevrilir. Əslində, təbiət, təbiət hadisələri, yaşıllıqlar, yaşıl çəmənlər, saf sular, dağ çayları, zəngin meşələr, al-əlvan çiçəklər, meyvəli bağlar, səmanın gözəllikləri, dağ çayının estetik görkəmi, dənizin göz oxşayan ləpələri, göy qurşağının rəngarəng görünməsi, parlayan ulduzların sayrışması şagirdlərin daha çox bədii zövqlərini formalaşdırır. Başqa sözlə desək, belə mənzərələr şagirdlərin estetik hisslərini inkişaf etdirir. Çünki təbiət gözəllikləri həm də insanların estetik hisslərinin formalaşmasına səbəb olur. Təbiət gözəllikləri təsvir olunan tablolara, incəsənət əsərlərinə tamaşa edən şagirdlərin bədii zövqləri inkişaf edir.

Estetik hisslər təbiətin, incəsənət əsərlərinin gözəlliyini qavramaq, dərk etməklə əlaqədardır. Çünki insanlar ictimai təcrübədə dünyanın gözəlliyini də əks etdirmək qabiliyyəti əldə etmişlər. Bu zəmində insanda müxtəlif estetik hisslər təşəkkül tapmışdır (1, 177). İnsanda təşəkkül tapan estetik hisslər vasitəsilə o, təbiət hadisələrini normal şəkildə duyur, onun gözəlliklərini qavrayır və yüksək şəkildə qiymətləndirir. İbtidai sinif şagirdlərinə təbiət haqqında verilən məlumatlar da onlarda müəyyən estetik hisslər oyadır. Onlar təbiət hadisələrinə, təbiət gözəlliklərinə vurğunluqla tamaşa edərək zövq alırlar. Bunu nəzərə alan ibtidai sinif müəllimləri şagirdlərin estetik hisslərinə də diqqətlə yanaşmalıdırlar. Məsələn, II siniflər üçün tərtib olunan "Həyat bilgisi" dərsliyində "Biz təbiətin övladıyıq" başlığı altında verilən şərhlər və həmin şərhlərə uyğun təqdim olunan şəkillər daha çox şagirdlərdə estetik hisslər oyadır. 30-cu səhifədə təqdim olunan dənizin şəklinə baxanda suyun yaşıl və göy rənglərə uyğun çalarlarla görünməsi, səmadakı buludların gözəllikləri, qumlu sahillərin dəniz suları ilə həmahəng görünməsi şagirdlərdə estetik hisslər oyatmış olur. Yaxud həmin səhifədəki meşənin təsviri uşaqların estetik hisslərinə ciddi təsir göstərir. Ağacların uca qaməti, yaşıl budaqlar, ağacları əhatə edən bitkilərin yaşıllıqları və bu kimi estetik görüntülərdən şagirdlər yüksək zövq alırlar. Onların belə zövq almalarına isə əsas səbəb onlarda estetik hisslərin oyanmasıdır. Yaxud 31-ci səhifədə təsvir olunan dağ çayı və yaxud dağların ətəyində gölün təsviri uşaqların estetik hisslərinin oyanmasına səbəb olur. Onlar dağlardan süzülüb axan, öz məcrasına sığmayan, daima kükrəyən, coşan, ağ köpüklərə qərq olan dağ çayından hədsiz dərəcədə zövq alırlar. Həmçinin, ağ buludların əhatəsində yerləşən dağın ətəyindəki gölə tamaşa edən şagirdlər sakit axan suyun paklığına valeh olurlar. Gölün ətrafındakı küknar ağacı, yaşıllıqlar, çəmənliklər şagirdlərin estetik hisslərini coşdurmuş olur. Psixoloqlar göstərirlər ki, insanın estetik hisslərinin ilk mənbəyi təbiətin gözəlliyidir. Bundan sonra insana gözəllik hissini təlqin edən, həmin təbiəti obrazlarla əks etdirən bədii ədəbiyyat, incəsənət əsərləri və musiqidir. İnsanın özünün hərəkət və rəftarları da bu və ya digər estetik hiss doğura bilər. Təsadüfi deyildir ki, tarix boyu mütəfəkkirlər insan gözəlliyinə böyük qiymət vermişlər. "İnsan dünyanın əşrəfidir" deyən dahi Nizami, "İnsanı daima inkişaf edən təbiətin son əsəri" hesab edən Höte, "Yer üzündə ən böyük gözəllik insan gözəlliyidir" deyən Pestalotsi bu fikrə təsadüfən gəlməmişlər. Çünki insanin fiziki və mənəvi gözəlliyi bir sira estetik hisslər doğurur (1, 178). Hansı ki, bu estetik hisslər çox zaman əxlaqi hisslərlə vəhdət təşkil edir. Əxlaqi hisslərin estetik hisslərlə vəhdət təşkil etməsi şagirdləri təbiət gözəlliklərinə daha sıx bağlayır. Bəzən insanın estetik hissləri əxlaqi hissləri ilə birləşir. Məsələn, insan bəzən Vətənin təbii mənzərələrindən də gözəl mənzərələrə rast gələ bilər, ondan həzz alar, lakin bir az kecən kimi həmin gözəllik insanın gözündə başqalaşır, sanki Vətən həsrəti hissinin təsiri altında öz cazibədarlığını itirir, adam artıq darıxmağa başlayır, Vətənin quru çölləri belə insanın nəzərində dəyişir, gözəlləşir. Daha cazibədar olur və insanı özünə çəkir (1, 178-179). Psixoloqlar sübut edirlər ki, bu zaman zehni hisslər də özünü göstərmiş olur. Yəni estetik hisslərlə əxlaqi hisslərin vəhdəti zehni hisslərin yaranmasına səbəb olur. Hansı ki, zehni hisslər təbiət hadisələrini daha güclü şəkildə dərk edir. Yəni zehni hisslər vasitəsilə insanın idrak fəallığı yüksəlir.

Nəticə

Deyilənləri yekunlaşdıraraq qeyd etməliyik ki, kiçikyaşlı məktəblilərə təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrədən zaman onlara göstərilən psixoloji təsirlər onların bütövlükdə ekoloji tərbiyəsini formalaşdırmış olur. Ona görə də kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağın psixoloji əsaslarının da öyrədilməsi, haqqında danışılan problemin hərtərəfli həllinə köməklik göstərmiş olur.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya / Ali məktəblər üçün dərslik / Bakı: Çinar-Çap, 2002
2. Kərimova B., Mehdiyeva G. Həyat bilgisi (2-ci sinif dərslik). Bakı: Aspoliqraf, 2014
3. Sadıqov F. Pedaqogika (dərs vəsaiti). Bakı: Adiloğlu, 2012
4. Ümumi psixologiya (A.V.Petrovskinin redaktəsilə). Bakı: Maarif, 1982

Psychological basis for forming a sensitive and caring attitude in younger students
Summary

The article deals with the psychological bases of forming a sensitive and caring attitude towards younger pupils. It is shown that in order to form a sensitive and caring attitude to younger children, it is important to consider the psychological basis of the problem, as well as refering to the relevant pedagogical basis. When it comes to teaching younger children how to be sensitive and caring about nature, it is essential to learn about their feelings and emotions first and foremost. This is because elementary school teachers need to learn the psychological conditions, such as the sensitivity and concern arising from their feelings and emotions when teaching younger children how to be sensitive to nature.

Психологические основы формирования чувствительного и бережливого отношения к природе у школьников младшего возраста
Резюме

В статье речь идет психологических основах формирования чувствительного и бережливого отношения к природе у школьников младшего возраста. Имеется ввиду что, для формирования бережливого отношения к природе у школьников младшего возраста наряду с педагогические основу данной проблемы. В первую очеред важно изучить чувства и эмоции школьников о время обучения бережливого отношения к природе. Поэтому, учителья начальных классов во время занятий по обучению школьников чувствительному и бережливому отношению к природе должны изучать психологические состояния чувствительности и бережливости появляющиеся у учеников от эмоции и чувств

DOI: 10.36719/2020/REK/01/214-219

Şirincan Əvəz qızı Məmmədova
Bakı şəhəri, 126 saylı məktəb
shirincan@inbox.ru

TƏHSİLDƏ TEXNOLOGİYALARIN TƏTBİQİ

Açar sözlər: *fasiləsiz təhsil, peşəkar inkişaf, İKT bacarıqları, şəxsiyyət, təfəkkür, səriştəlilik, təhsilalan, fəaliyyət, inteqrasiya imkanları, səriştəli müəllim, demokratik müəllim, insan kapitalı, faydalı saytlar*
Key words: *compulsory education, professional development, ICT skills, personality, thinking, competence, learner, activity, integration capabilities, competent teacher, democratic teacher human capital, useful sites*
Ключевые слова*: непрерывное образование, профессиональное развитие, навыки ИКТ, личность, мышление, компетентность, ученик, деятельнсть, возможности интеграции, компетентный учитель, демократичный учитель, человеческий капитал, полезные сайты*

Elmin hüdudları üfüq xəttinə oxşayır:
biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır
Pyer Buast

Giriş

Məqalədə müasir dövrün vacib tələblərindən olan fasiləsiz təhsildən bəhs olunur. İnnovativ müəllimin öz fəalliyyətində nəzərə alacağı yeniliklərin əsas xarakterik cəhətləri qabardılır. Bu prosesdə müəlim peşəkarlığının təkmilləşdirilməsi yolları göstərilir və təkliflər verilir.

Yeni texnologiyalara ehtiyac nədən irəli gəlir?

Azərbaycanda elmin, pedaqoji fikrin, təlim-tərbiyə ənənələrinin yaranma tarixi min illər əvvələ təsadüf edir. Qobustan, Gəmiqaya qayaüstü yazılı abidələri əcdadlarımızın öz düşüncələrini yazı şəklində ifadə etmələrinin ilkin cəhdləri kimi sonralar həmin ərazilərdə yazı mədəniyyətinin yaranıb formalaşmasında müstəsna rol oynamışdır. Bu sadə təsvirlər Azərbaycanda yaşamış qədim insanların həyatlarından, yaşam tərzindən ilkin məlumatlar verməklə yanaşı, onların ətraf dünya haqqındakı təsəvvürlərini də nümayiş etdirir. Nəsillər arasındakı tarixi bağlar uzandıqca insanların həyat tərzi və ətraf aləmi qavramaq imkanları da genişlənir. "Nələri və hansı həcmdə öyrətmək?" sualı mütəxəssisləri həmişə düşündürmüşdür. Kamil insan

idrakının, elminin, həyat təcrübəsinin gücündən bəhrələnməklə daim həqiqət axtarışındadır. Artıq insanlar elmi təkcə kamilliyə yetmək naminə deyil, həm də dünyanı fəth etmək naminə öyrənirlər.

Çağdaş dünyanın planetdə baş verən müsbət və mənfi dəyişikliklərə nəzarət edib onları tənzimləyəcək mükəmməl bir mexanizmə böyük ehtiyacı var. "Qalib gələcəkmi cahanda kamal?" sualı müasir zamanımız üçün daha aktualdır. Çünki dünyanın və insanlığın taleyinin bir raket düyməsinin qəfil basılacağı qorxusundan asılı olduğu bu günkü həssas məqamda sivilizasiyanı yalnız soyuq başla düşünməyə qadir aqil insanlar xilas edə bilər. Yaşadığımız planetin təhlükəsiz sabahı ağılın və kamalın təntənəsindən keçir. Bu isə toplumu zəkanın oyanışına, özünü dərketməsinə, mənəvi kamilliyə, sülhə, əmin-amanlığa sövq edir.

XXI əsrdə dünyanın siyasi-iqtisadi ağırlıq mərkəzi Avropadan Asiyaya, qlobal miqyasda götürsək, Avroatlantik məkandan Avrasaiya məkanına keçməkdədir. Azərbaycan da bu bölgədə yerləşdiyinə və ümumtürk toplumunun bir parçası olaraq bu proseslərdən kənarda qala bilməz. Azərbaycan geosiyasi və geocoğrafi baxımdan elə bir məkanda yerləşir ki, onun vətəndaşı daha açıq zəkaya, iti ağıla yiyələnməlidir ki, Qərbdən Şərqə, Şimaldan Cənuba əsən "soyuq küləklər" onu "üşütməsin", əxlaqında, mənəviyyatında kataklizmlər yaratmasın. Tarix toplumların və dövlətlərin "fövqəlgüclərin" asılılığından qurtulmaq yolunu güclü milli müstəqillikdə, iqtisadi stabillikdə və özünəinamda görür. Təəssüflə qeyd etməliyik ki, ölkəmiz üç minillik dövlətçilik tarixinin yalnız min ilində müstəqil söz sahibi ola bilib...

Çağdaş innovasiya mühiti iqtisadi gəlir əldə etmək, yeniliyin praktik tətbiqinə, zehni düşüncənin yaratdığı məhsulların bazara çıxarılmasına, neft kapitalının insan kapitalına çevrilməsinə təkan verərək, cəmiyyəti və dövləti xarici bazardan və digər xarici təsirlərdən daha az asıllığa gətirib çıxarmaqla, getdikcə daha çox müstəqilliyə və özünəinama istiqamətləndirir. Bu mənada hər bir kəs yaşadığı ərazinin mütləq sahibi olmaq üçün özünü dəyişməyə məhkumdur. Ancaq bu dəyişmələr, baş verəcək istənilən inteqrasiya və qloballaşma türk mədəniyyətinin min illər boyu formalaşmış ulusal qaynaqlarını zədələməməlidir. Təsadüfi deyil ki, bu gün mütərəqqi dünyanın əsas hədəf saydığı multikultral dəyərlərin Azərbaycan modeli bütün dünyada qəbul edilir və hətta bir sıra Avropa universitetlərində bu təcrübə tədris olunub öyrənilir.

Açıq və demokratik cəmiyyətdə böyümüş insanda düşüncə tərzi daha mütərəqqi, innovasiyaya meyilli, təşəbbüskar olur. Demokratiya görünən bir hədəf yox, insanın həyatı boyu sona çatmayan bir proses və ikiqat etimad deməkdir. Əməkdaşlıq, dialoq, həmrəylik demokratiyanın əsas elementlərindəndir. Arı min bir çiçəkdən şirə çəkib sonda bu zəhmətini dünyanın ən nadir nemətlərindən olan bala çevirdiyi kimi, şagird potensialının da praqmatik yanaşma ilə yetişdirilib yönləndirilməsi cəmiyyətin ən böyük uğuru hesab edilə bilər. Yoxsa yabançı və kənar təsirlər bu kövrək potensialı cəmiyyətin zərərinə də yönəldə bilərlər.

Bir acı reallığı unutmaq olmaz ki, istənilən səhv qərarın nəticəsi həmişə ağrılı və dağıdıcı olur. Sərbəst və açıq müzakirələr isə hər bir insanda xırda nöqsanları belə üzə çıxarır. Bu isə səhv qərarları və addımları əngəlləyir. Müasir demokratik toplumlarda azad vətəndaş öz hüquqlarını bilən və ictimai məsuliyyət daşıyan, hüquqları dövlət tərəfindən təminat altında olan, qanunların formalaşmasında iştirak edən, azad düşünən, fikrini sərbəst ifadə edən, özünə inamlı, üzərinə düşən vəzifələri anlayan, başqalarının haqlarına hörmətlə yanaşan, fərqlilikləri qəbul edən insandır. L.Tolstoyun çox dəyərli bir kəlamı var: "İnsan kəsrə bənzəyir, sürətdə onun dəyəri, məxrəcdə isə onun özü haqda fikirləri dayanır. Məxrəc nə qədər böyük olarsa, kəsrin qiyməti bir o qədər az olar". Bu kəlam "millətə məhəbbətin özünə məhəbbətə olan nisbətidir" mənasının başqa bir formada ifadəsidir. Belə bir vətəndaşı formalaşdıracaq təhsil sisteminin yaradılması milləttin qələbəsidir. Təhsil - insanın mənəvi siması olub, bilavasitə mədəniyyət, təlim-tərbiyə və mənəvi dəyərlərin təsiri altında formalaşır. Burada insanın qazandığl biliyin həcmi əsas deyil, ondan sərbəst olaraq istifadə emək keyfiyyəti əsadır. Müasir dövrümüzün inkişafı, tərəqqisi, yaxud da problemlərinin həlli, yalnız və yalnız təhsilimizin inkişafından asılıdır desək, yəqin ki, yanılmarıq.

Təhsil nəsillərdən-nəsillərə ötürülən maddi bir miras, hədiyyə və ya istehlak malı deyil, öyrənilməsi, qorunması və inkişaf etdirilməsi zəruri olan bir həyat tərzidir. Məktəbi heç də gəlişigözəl söz xatirinə "Müqəddəs məbəd" adlandırmamışlar. Bu məbəddə yalnız bilikli insanlar deyil, hər şeydən əvvəl, mənəviyyatlı insanlar yetişdirmək əsas şərtdir. Təsadüfi deyil ki, dövrün, zamanın tələbinə görə müxtəlif vaxtlarda ümumi təhsilin təlimlə bağlı məzmun istiqamətləri dəyişsə də, təhsil alanların mənəvi tərbiyəsinə verilən tələblər dəyişilməz qalır. Xatırladaq ki, ümumi təhsil illəri insanın elə bir yaş dövrünə təsadüf edir ki, həmin zaman kəsiyində o, həyatda ilk kövrək addımlarını atır, yaxşı ilə pisi ayırd etməkdə, baş verən hadisələrin əsil mahiyyətini anlamaqda hələ çətinlik çəkir, şübhələr və qeyri-müəyyənliklər içərisində vur-nuxur. Həm də çox vaxt həyatda müxtəlif insanların nümunəsində söz və əməl əksliyinin şahidi olur. Belə bir təzadlı vəziyyətdə, yetkin və mütərəqqi təhsil sistemi uşaq və yeniyetmələr üçün etibarlı kompas rolunu oynayır. Həm də onların düzgün səmti itirməsinin qarşısını alır. Ona görə də məktəbdə elə bir stabil pedaqoji iqlim və təlim-tərbiyə mühiti hökm sürməlidir ki, uşaqlar bütün şübhələrdən azad olsunlar. Onlarda həyata və insanlara dərin inam və etibar hissi formalaşsın. Müstəqil surətdə düşünüb həqiqəti axtarıb tapmağın yollarını öyrənsinlər, mənəvi cəhətdən saf və əqidəli böyüsünlər. Tomas Cefferson yazırdı: "Cəmiyyətin

maksimum səviyyədə gücündən istifadə etməsi üçün xalqın özündən daha etibarlı bir qaynaq olduğunu düşünmürəm. Əgər xalqın öz nəzarət imkanlarını ağıllı formada tətbiq etməsi üçün kifayət qədər maarifləndirilmədiyini düşünürüksə, bunun həlli –xalqın nəzarət haqqını əlindən geri almaqda deyil, insanların beyinlərini, düşüncələrini aydınlatmaqdadır."

Heç bir millət öz təhsilinin yerində sayması ilə barışmamalıdır. Bu həqiqəti qəbul etməyənlər, təbii ki, dünyanın inkişaf sürətindən çox geri qalacaqlar. Ona görə də hər bir vətəndaş daima təhsilə xüsusi diqqət yetirməlidir. A.R.Dyerdi yazırdı: "Kəşf etmək hamının gördüyünü görmək, lakin hələ heç kəsin ağlına gəlməyəni düşünmək deməkdir". Bu deyilənlərdən isə belə bir həqiqət ortaya çıxır: insan öz potensialını özünə xərcləyəndə az, ətrafa xərcləyəndə isə daha çox xoşbəxt olur. Bu düşüncə "bazar qanunları"nın at oynatdığı çağdaş dövrümüzdə bir qədər utopik görünsə də, gələcəyin düzgün seçimə məhkum olduğu yeganə xilas yoludur. Görün həzrət Peyğəmbərimiz (Muhəmməd s.ə.v.) min dörd yüz il bundan öncə dediyi sözlərlə bu durumu nə qədər dürüst şəkildə ifadə edib: "Mənim ümmətimdən hər bir ağıl sahibinə bu dörd şey vacibdir: elmi eşitmək, onu öyrənmək, yaymaq və ona əməl etmək".

Bir sıra kosntruktivizm nəzəriyyələrinə istinadən demək olar ki, öyrənmə fəal və reflektiv proses kimi öyrənənin təcrübəsini və düşüncəsini əlaqələndirməyə imkan verir. Şagirdlər arasında baş tutan sosial əlaqə zəmnində müşahidə olunan tənqidi münasibət, əməkdaşlıq və fikir mübadiləsi öyrənənin qarşısında çoxsaylı perspektivlər açır. Fikir mübadiləsi konkret fərdin anlayışını zənginləşdirir. Şagirdin öyrənməsini dəstəkləyən təlim mühitinin-yəni şəxsiyətyönümlü siniflərin təmin edilməsi müəllimlərin öhdəsinə düşən əsas vəzifədir. Öyrənmə təcrübə ilə sosial münasibətlərin məhsuludur. Bunları şərti olaraq belə də qruplaşdırmaq olar:

1. Öyrənən öyrənmə prosesinə daha öncə qazandıqları bilik, bacarıq və təcrübəni gətirir. Hər bir öyrənənin dünyanı necə dərk etməsinə təsir edən əvvəlki təəssüratları var.

2. Öyrənmə daxilən idarə olunur və əlaqələndirilir. Öyrənən məlumatları qəbul edir, şəxsi baxışlarına uyğun emal edir və onda yeni düşüncə formalaşır.

3. Bilik quruculuğu bir çox üsullarla – çeşidli vasitələrdən, təcrübələrdən istifadə etməklə həyata keçirilir. Şagirdlər əvvəlki bilik, bacarıq və təcrübələrini tədris prosesinə gətirir ki, bu da onların sinifdə öyrənəcəklərinə ilkin baza rolunu oynayır. Təcrübəli müəllimlər bunun üçün bəzən tədrisin səmərəliliyini artırmaq məqsədilə qabaqlayıcı ev tapşırıqları verir.

4. Öyrənmə yeni konseptual strukturların, əqli modellərin qurulması məqsədilə məlumatların beyinə yerləşdirilməsi (qəbul ediməsi), mənimsənilməsi (qavranılması), yaxud qəbul edilməməsi (rədd edilməsi) prosesidir. Hər bir insan sonsuz sayda məlumata, müəyyən qədər ideyaya malik olur. Öyrənmə prosesində yeni bilik əvvəlkilərlə uzlaşırsa, o zaman asanlıqla qəbul edilir. Hər bir mövzu yeni olduğu qədər də əvvəlkilərlə bağlıdır. Bu bağlılığı isə məhz müəllim yaradır. Əgər yeni informasiya öyrənənin düşüncə tərzinə uyğun deyilsə, o zaman öyrənən bu informasiyanı necə qəbul etməyi özü seçir. O, ya yeni düşüncə tərzi formalaşdırır, ya da bu informasiyanı qəbul etmir.

Son illər mütəxəssislərin daha tez-tez işlətdikləri fasiləsiz təhsil termini təhsilin sosial effektivliyini artırmaq üçün mövcud təhsil səviyyəsinin müsbət istiqamətdə dəyişilməsinə yönələn bir prosesdir. Fasiləsiz təhsil sistemi insanın ömrü boyu bir şəxsiyyət kimi formalaşması üçün davamlı təhsil almasını nəzərdə tutur. Fasiləsiz təhsilin əsas mərhələlərini şərti olaraq belə qruplaşırmaq olar:

a) insanın müstəqil həyata daxil olması üçün təlim, tərbiyə və təhsili;

b) insanın müxtəlif praktiki fəaliyyəti ilə bağlı olan yetkin yaşda tədris fəaliyyətini istiqamətləndirmək üçün nəzərdə tutulan təhsili.

Birdəfəlik təhsildən – fasiləsiz təhsilə keçid zamanın tələbidir və əlavə pedaqoji təhsil almaq, peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün müxtəlif üsullarla fasiləsiz təhsil almaq imkanlarını əhatə edən vahid təhsil sistemi kimi başa düşülür. Üstünlüyün maddi resurslara deyil, əmək ehtiyatlarına və sosial kapitala əsaslanmasıdır. Bu prosesdə müəllim metodoloji (pedaqoji-psixoloji) bacarıqları, ümumi mədəni səviyyəni əks etdirən bacarıqları, fənyönümlü bacarıqların tələblərinə cavab vermək üçün öz fəaliyyətini sinif otağı ilə məhdudlaşdırmamalıdır Fasiləsiz təhsil sistemi peşəkarlığın inkişafının müstəqil, ictimai və dövlət formalarını özündə birləşdirir. Birdəfəlik təhsildən fasiləsiz təhsilə keçid hər bir öyrədən qarçısında ciddi tələblər qoyur. Ölməz şairimiz B.Vahabzadə dediyi kimi: "Mən atamı ötmüşəm, məni ötür övladım", yaxud "Vaxtın dəyirmanında daş əridi qum oldu" ifadələri artıq bu günün dünən olmadığını anlatmaqdadır.

Təhsil cəmiyyətin barometrdir. Sistemli təhsilə yiyələnən yeniyetmə "bu, mənə lazımdırmı, nə üçün mən bunu öyrənməliyəm?" kimi şablon suallardan azad olur. Təhsildə sistemli dəyişikliklər "müəllim-şagird" ənənəvi formatına da aiddir. Məktəblilər parta arxasında oturub həyəcanla lövhə qarşısına çağırılacaqlarını gözləmir, bunun yerinə kiçik qruplar arasında qurulan əməkdaşlıqda müxtəlif problemlər müzakirə edirlər.

Texnoloji imkanlar müəllimə öz şagirdlərinə təklif etdiyi resurslardan daha səmərəli istifadə etmək imkanı yaradır. Unutmaq olmaz ki, bu günün şagirdi texnologiyalar dövründə yetişmişdir və kifayət qədər

məlumatlıdır. Bu günün müəllimi texnologiyalar sahəsidə şagirdinin ondan çox məlumata malik ola biləcəyindən çəkinməməli, əksinə onlardan da nə isə öyrənmək imkanını səmimi dəyərləndirməlidir.

İnternet şəbəkəsi şagirdlərə dünyanın müxtəlif ölkələrindən olan mütəxəsisslərlə, eləcə də öz həmyaşıdları ilə əlaqə saxlamaq və əməkdaşlıq etmək imkanı verir. İnternetdən müxtəlif məlumat toplayan şagird özü öz fəaliyyətini bir növ istiqamətləndirir. Onlar hansı mənbələrdən istifadə etməyi və hansı əlaqələri qurmağı özləri sərbəst seçir. Müəllimlərin müəyyənləşdirdiyi parametrlərdən asılı olaraq şagirdlər öz mövzularına və apardıqları araşdırmalara nəzarəti tam şəkildə öz əllərində saxlaya bilir. Yaradıcı öyrətmə komanda şəklində öyrətmə mühiti yaradır.

Müəllim texnoloji sahədə bilməlidir:

- Hər bir müəllim ilk növbədə öz metodik bloqunu yaratmalı (http://tariximizbizim.blogspot.com-müəllif);
- Müxtəlif proqramlarda işləməyi (offise proqramları, ActivİnsprieMimio, Smart və s);
- Fənninə dair faydalı saytları - http://www.informatik.az, http://www.e-derslik.edu.az/site/index.php, http://www.informatik.az/, https://edupres.ru http://edcommunity.ru/, https://www.mindomo.com, http://web 2edu.ru/)
- Şagirdlər üşün test, tapşırıq proqramlarını (məs: https://learningapps.org/)
- Yarışma xarakterli çalışma proqramlarını (məs: http://puzzing.ru/create http://www.jigidi.com/, müəyyən vaxt ərzində Pazzl-da xəritənin yığılması kimi) ;
- Şagirdləri ilə birgə qoşulmağın mümkün olduğu onlayn lahiyələri (məs: eTwinning kimi);
- Yerli və beynəlxalq (istər müəllim, istərsə də şagirdlər üşün) müsabiqələri (məs; http://musabiqe. edu. az/);
- Bir neçə xarici dili ilkin səviyyədə (bu beynəlxalq lahiyələrdə işləmək üşün çox vacibdir)
- Təhsillə bağlı virtual əməkdaşılq saytlarını;
- Yaradıcılıq proqramlarını, veb alətlərdən istifadə etməyi (http://www.kizoa.com/, https://prezi.com, http://www.photodex.com/proshow/web, https://www.magisto.com, http://www.postermywall.com/, http:// www.voki.com/, http://ru.bloggif.com/ və s.);
- Dərs prosesində paralel siniflərlə (digər məktəblərlə) əlaqə (Skype vasitəsilə) qurmağı;
- Müxtəlif texnoloji vasitələrlə işləməyi (kompüter, printer, planşet, proyektor, elektron lövhə və s.);
- Audio, video resurslardan istifadə etməyi;
- Şagirdlərə verilən tapşırıqları onlayn şəkildə izləməyi və qiymətləndirməyi. Həmçinin müxtəlif müzakirə mövzularının yalnız məktəbdə deyil, konkret vaxtda (məs: Skype vasitəsilə) müzakirəsini təşkil etməyi. Belə müzakirələrə valideynlər və digər əlaqədar qurumlar da qoşula bilər;
- Müxtəlif onlayn əlaqə vasitələrini (https://e.mail.ru, https://www.linkedin.com, https://twitter.com, https://www.facebook.com/, https://www.whatsapp.com/, https://who.is/whois/massencer.com, https: //www. skype.com/ru/)
- Müxtəlif sorğuların keçirilməsinə uyğun proqramları (https://help.surveymonkey.com/)

Hər bir müəllim fənni ilə bağlı nələri bilməlidir:

- Yeni dərsliklərlə köhnələr arasındakı fərqli məlumatları;
- Yeni yanaşmaların əsaslandığı qaynaqları;
- Fənninə aid yerli və beynəlxalq saytları (http://tarix.info/, http://prezentacii.com/http://www.history.az/, http://historu.ru/)
- Saytlara uyğun təqdimatlar hazırlamağı və yerləşdirməyi, yaratdığı resursa münasibəti, ondan nə dərəcədə istifadə olunduğunu izləməyi (lazım gəldikdə doğru və yanlış bildiyi fikirlərə münasibət bildirməyi);
- Fənni ilə bağlı olan yarış və müsabiqələrdə iştirak etməyi;
- Variativ-alternativ dərsliklərlə tanış olmalı;
- Ekskursiya və müzeylərin mövzuya uyğun zamanlarda təşkil etməli. Mümkünsə yeni mövzunu elə orada tədris etməyi;
- İdrak Taksonomiyasının tələblərinə cavab verən təlim üsullarından daha çox istifadə etməyi;
- Fənninin inteqrasiya imkanlarını mükəmməl bilməli;
- Pilot lahiyələrdə iştirak etməli;
- Hər bir mövzunu müasirliklə əlaqələndirməyi (sözügedən hadisə ilə bağlı: ərazi, mədəniyyət, əhali, sosial-iqtisadi vəziyyət, miqrasiya, köçkünlük və qaçqınlıq, ərazi iddiaları, deportasiya, Azərbaycanla bağlılığı, təhsil və s.);

• Vaxtaşırı istər valideynlər, istərsə də şagirdlər arasında tədrisə dair anonim (Survey Monkey vasitəsilə, ya da yazılı) sorğular keçirməli;

• Fənn aylıqları, fənn gecələri keçirməklə yeni ideyalar verməli;

• Valideyn - şagird - məktəb tandemini qorumalı və hətta eyni layihələrdə birgə iştirak etməli (məs: "İdeya-2017" kimi - http://www.community.az/);

Beynəlxalq təcrübə ilə bağlı bilməlidir:

• Onlayn seminar və vebinarları;

• Beynəlxalq trenerlərin ölkə daxilindəki treninqlərində iştirak;

• Beynəlxalq və milli kurikuluma aid dərsliklərin işlənmə mexanizmini;

• Müxtəlif ölkələrin müəllimləri ilə onlayn əlaqələr qurmağı və onların təcrübəsi ilə öz təcrübəsini müqayisə etməyi. Həmçinin öz təcrübəsini də onlarla bölüşməli (https://www.etwinning.net/en/pub/about. htm, http://www.globalteacherprize.org/);

• Beynəlxalq müsabiqələrdə (Global Teacher Prize, eTwinning) qalib gəlmiş müəllimlərin iş təcrübəsi ilə maraqlanmalı;

• Müxtəlif saytlarda işləməyi (https://infourok.ru, http://www.metod-kopilka.ru/, http://prezentacii.com/, https://www.tes.com http://schoolservis.blogspot.com/http://resourced.classflow.co.uk/promethean-planet/#.VRpRFfysVTk, http://www.metod-kopilka.ru/;

• İngilis, rus dilləri ilə bağlı biliyini daim artırmalı;

• Qabaqcıl təhsil sisteminə malik ölkələrdəki tədris sistemini (məs: Finlandiya, İsveç, Yaponiya);

• Əlçatmaz deyil, əlçatan olmalı;

İnnovasiya mühiti iqtisadi gəlir əldə etmək məqsədilə, yeniliyin praktik tətbiqini, innovasiyaların bazara çıxarılmasını zəruri edir. Rəqabət mühitindən əməkdaşlıq mühitinə keçid iştirakçı tərəflərə qazanc gətirir. Bunun üçün sərhədlər yox, təhsilə münasibətin mahiyyəti dəyişməlidir. Hər bir müəllim özünü konkret sosial sifarişi (məktəbin, şəhərin, ölkənin və s.) yerinə yetirən bir şəxs kimi hiss etməlidir.

Vaxtaşırı müəyyən sorğuların keçirilməsi onun işinə cox müsbət təsir göstərə bilər. Bir sinfin nümunəsində keşirilən sorğunun nəticələri artıq hər kəsdə aydın təsəvvür formalaşdırır. Hesabatlılıq hər bir müəllimdə öz zəif nöqtələrini dəqiqləşdirməyə, işini bu istiqamətdə qurmağa stimul verir. Misal olaraq, 19 şagird arasında keçirilən sorğudan alınan nəticə bir çox məsələlərə aydınlıq gətirməyə imkan yaradır.



Bu tip sorğuların valideynlər arasında da keçirilməsi ümumi işin gedişinə müsbət təsir göstərə bilər. Məsələn:

1. Təhsil sahəsinə nəzarətin həyata keçirilməsində öz iştirakınızı necə görürsünüz?

1	*Hökümətdə təmsil olunmaqla*	
2	*VMA-da iştirak etməklə*	
3	*QHT-də iştirak etməklə*	
4	*Bilmirəm*	
5	*Seçkili orqanlarda təmsil olunmaqla*	
6	*Başqa fikir*	

2. Sizcə təhsilin inkişafı üçün hansı sahələrə daha çox vəsait ayrılması məqsədəuyğundur?

1	*Müasir tələblərə cavab verən dərsliklərin hazırlanmasına*	
2	*Yeni-innovativ kadr potensialının hazırlanmasına*	
3	*Yeni texnologiyaların tətbiqinə*	
4	*Beynəlxalq lahiyələrdə iştiraka*	
5	*Beynəlxalq təcrübələrin öyrənilməsinə*	
6	*Başqa fikir*	

3. Sizcə təhsilimizin inkişafına nə mane olur?

1	*Dərsliklərin tələblərə uyğun hazırlanmaması*	
2	*Müəssisə rəhbərlərinin yeniliklərə açıq olmaması*	
3	*Təhsilverənlərin yeni sistemi çətinlikə dəstəkləməsi*	
4	*Repititorluq fəaliyyəti*	
5	*Tələblə təklifin uzlaşmaması*	
6	*Beynəlxalq təcrübələrin, yerli xüsusiyyətlərə uyğunlaşdırılmadan tbiq edilməsi*	
7	*Bilmirəm*	

Nəticə

Bütün təhlil və təcrübələrdən çıxış edərək gəldiyimiz qənaət bizə deməyə əsas verir ki, bütöv Azərbaycanın davamlı iqtisadi inkişafı və əbədi müstəqilliyini təmin edəcək yollar yüksək, innovativ və davamlı təhsildən keçir. Dahi şairimiz Nizami Gəncəvinin yazdığı kimi: "Qüvvət elmdədir başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz".

Ədəbiyyat

1. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün tarix fənn kurikulumu. http://portal.edu.az/ index. php? r=article/blog&id=6&mid=5&lang=az
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası 3. "Azərbaycan-2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası. http://www.president.az/ 29.12.2012
4. Müəllimlərin Peşəkar fəaliyyətinin təkmilləşdirilməsi. Copyright İnternational-School Online 2005
5. Almaniya Xalq Universitetləri birliyinin beybəlxalq əməkdaşlıq İnstitutu. Vətəndaş təhsili. (Təlim vəsaiti). Bakı-2011
6. C.Feyziyev. Türk Dövlətləri birliyi. Bakı-2013
7. Ş.Əsgərov. Təhsilimiz dünən, bu gün və sabah. Bakı-2003

Application of technologies in education

Summary

The innovative approach of the modern education system. The article, which is the important requirements of the modern era is dedicated to continuous education. The main characteristic of the innovative aspects of the innovations will take into account the teacher's own activity exaggerated. And suggestions for ways to improve the professionalism of teacher in this process is given.

Применение технологий в образовании

Резюме

Инновационный подход современной системы образования. Статья, которая является важным требованием современной эпохи, посвящена непрерывному образованию. Главной характеристикой инновационных аспектов нововведений станет преувеличение личной деятельности учителя. И даются предложения по способам повышения профессионализма учителя в этом процессе.

DOI: 10.36719/2020/REK/01/220-223

Svetlana Arif qızı Nəsibli
Mingəçevir Dövlət Universiteti
nesibli.lana@mail.ru

İSİM, SİFƏT VƏ SAY MÖVZULARI ÜZRƏ ƏSAS MƏFHUMLARIN FƏAL TƏLİM ÜSULLARI İLƏ TƏDRİSİ METODİKASI

Açar sözlər: *morfologiya, isim, sifət, say, metodika, fəal təlim, üsul.*
Key words: *morphology, noun, adjective, number, methodology, active learning, method.*
Ключевые слова: *морфологией, существительных, прилагательных, числах, методы, активное обучение, методы.*

Giriş

Azərbaycan dilinin bu günə qədər keçdiyi inkişaf yoluna müasir mövqedən nəzər salanda onun tədrisinin fərqli metod və üsullarla həyata keçirildiyini görürük. Son dövrlərdə orta məktəblərdə təlimin kurikulum əsasında aparıldığını nəzərə alsaq, metodika dərsliklərində fəal təlim və onun üsullarından mövzuya uyğun necə istifadə etməyin qayda-qanunları haqqında ixtisas müəllimlərinə düzgün məlumatlar verilməkdədir. Bu gün Azərbaycan məktəbinin tədris proqramları, tədris bazası, resursları, elmi-metodiki potensialı fəal təlimin imkanlarından əsaslı şəkildə istifadəyə zəmin yaradır. Azərbaycan dilindən tədris olunan müxtəlif mövzular üzrə fənn müəllimlərimizi, pedaqoji təcrübə keçən tələbələrimizi kurikulumun məzmununa, fəal təlim texnologiyalarına əsaslanan müasir təlimlə tanış etmək, onun əhəmiyyətini müəyyənləşdirmək üçün prof.H.B.Balıyevin "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr" (2007) dərsliyinin xüsusi rolu vardır. Həmin dərslikdə bugünkü təlim sistemində aktuallığını itirməyən elmi-metodiki yanaşmalardan ətraflı şəkildə bəhs olunmuşdur.

Müasir təlimdə şagirdlərin nitq bacarıqlarının formalaşdırılması və inkişafının mətn üzrə iş əsasında qurulduğunu nəzərə almaqla nitq situasiyalarında dil qaydalarına (isim, sifət, say, əvəzlik, feil, zərf və s.) keçidi təmin etmək və bu qaydaları real nitqə tətbiq etmək üçün mənimsətmək bu gün öz aktuallığını qoruyub saxlamaqdadır. Mövzu ilə bağlı olaraq məqalədə Azərbaycan dili tədrisi metodikası elminin Azərbaycan dili proqramının məzmununu, məktəblərimizdə dil qaydaları üzrə veriləcək biliklər haqqında bacarıq və vərdişlərə yiyələnmək yollarını araşdırmasından, bu zaman fəal təlimin hansı üsullarından necə istifadə etməyin zəruriliyindən bəhs etməyə çalışacağıq.

Azərbaycan dili proqramında (2002) qrammatikanın iki əsas bölməsindən biri olan morfologiya bəhsi VI-VII siniflərdə tədris olunur. Kurikulum təliminə görə isə morfologiyaya aid dil qaydaları V-VI siniflərdə mənimsədilir.

Morfologiya yunan mənşəli iki sözün (morphe-"forma", loqos–"elm") birləşməsindən yaranıb və sözün formasını öyrənən dilçilik bölməsidir [1, s.203].

Kurikulum proqramında morfologiya təliminin məzmununa əsas (isim, sifət, say, əvəzlik, feil, zərf) və köməkçi (qoşma, bağlayıcı, ədat, modal sözlər, nida) nitq hissələrinin mənimsədilməsi daxildir. Nitq hissələri ilə bağlı hər bir məfhumun düzgün və elmi tədrisi morfologiya təlimində qarşıda duran konkret didaktik vəzifələrdən biridir. Doğru yanaşma olaraq Azərbaycan dili morfologiyasının tədrisinə isimlərdən başlanılması daha məqsədəuyğundur. Fənn müəllimi isim mövzusu ilə bağlı şagirdlərə nəyi necə tədris etməli olduğunu mütləq bilməlidir. İsmin hal, mənsubiyyət, xəbərlik kateqoriyalarının şəkilçilərini şagirdlərə müxtəlif təlim üsulları ilə nəzərə çatdırmaq müəllimdən böyük metodik ustalıq tələb edir. Məsələn: Fənn müəllimi isim mövzusunu tədris edərkən fəal-interaktiv təlimin metod və texnikalarından olan anlayışların çıxarılması təlim üsulundan istifadə edə bilər. Müəllim aşağıdakı sxem vasitəsilə mövzunun adını şagirdlərdən almalı, daha sonra onlar üçün çətinlik yaradan bölmələri mənimsətməyə çalışmalıdır.



Elektron lövhədə nəzərə çatdırılan bu sxem vasitəsilə şagirdlər sual işarəsinin yerində "İsim" sözünün olmasını qeyd edirlər.

İsimlərin əlaqəyə girdiyi sözlərin tələbi ilə dəyişməsi hallanma adlanır. İsmin altı halı var. Bunların içərisində yalnız adlıq hal neytraldır, onun morfoloji göstəricisi yoxdur. Morfoloji sualı kim?, nə?, hara? suallarıdır. Yiyəlik və təsirlik halların qeyri-müəyyənlik situasiyasına görə şagirdlər adlıq, yiyəlik, təsirlik hallarını qarışdırırlar. Müəllim adlıq, yiyəlik və təsirlik halları bir-birindən fərqləndirmələri üçün aşağıdakı nümunələri şagirdlərin diqqətinə çatdıraraq onların yaradıcı fəallığını artırmaq üçün stimullaşdırıcı suallardan istifadə etməlidir.

a) **Pəncərə** gecədən açıq qalmışdı.
b) **Pəncərə** şüşəsi parlaq görünürdü.
c) Ata **pəncərə** düzəltmək üçün ustanı çağırtdırdı.

Beyin həmləsi ("əqli hücum") fəal-interaktiv metodu öyrənənlərin diqqəti ilə diqqəti yuxarıdakı üç cümləyə yönləndirilərək "pəncərə" sözünün bu cümlələrdə hansı hallarda olduğu soruşulur. Fərqli cavablar alındıqdan sonra müəllim cümlələrdəki fərqləndirilmiş sözlərin hansı hallarda olduğunu geniş izahlarla möhkəmləndirməyi qarşıya məqsəd qoymalıdır. Hər üç cümləyə diqqət etsək görərik ki, buradakı "pəncərə" sözləri zahiri cəhətdən nə? sualına cavab verir. Həmin sözləri fərqləndirmək üçün onlara, yəni sözlərə müəyyən yiyəlik hal (-ın^4), müəyyən təsirlik hal (-ı^4) şəkilçilərini artırmağın vacibliyi diqqətə çatdırılır.

Qeyd kimi onu vurğulamaq lazımdır ki, qeyri-müəyyən yiyəlik və qeyri-müəyyən təsirlik hallı sözləri müəyyən hala çevirmək üçün o şəkilçiləri həmin sözlərə bərpa etmək məqsədəuyğundur. Yəni nümunələrdəki sözlərə baxsaq görərik ki, a. variantındakı sözü pəncərənin, ya da pəncərəni formasında işlətmək mümkün deyil. Ona görə də bu söz adlıq haldadır. b. variantındakı sözü pəncərənin şüşəsi şəklində işlədə bildiyimiz üçün bu sözün əvvəlki forması qeyri-müəyyən yiyəlik hal, c. variantındakı sözü isə pəncərəni düzəltmək şəklində deyə bildiyimiz üçün əvvəlki forması qeyri-müəyyən təsirlik hal olduğu anlaşılır. Adlıq, yiyəlik, təsirlik haldakı bu tipli sözləri fərqləndirmək üçün fənn müəllimi fərqli nümunələr, çalışmalar, test tapşırıqları və s. kimi metodik üsullardan istifadə edə bilər.

İsim mövzusunda öyrənənlərə çətinlik yaradan digər məsələ mənsubiyyət və xəbərlik kateqoriyalarının tədrisidir. Müəllim mənsubiyyət və xəbərlik kateqoriyasını izah etmək üçün cədvəllərdən istifadə edərək onların fərqli xüsusiyyətlərini göstərə bilər.

Mənsubiyyət kateqoriyası	**Şəxs-xəbərlik kateqoriyası**
1)Əşyanın hansı şəxsə mənsub olduğunu bildirmək üçün işlədilir;	1)Şəxs-xəbərlik məzmunu yaratmaq üçün sözlərə artırılır;
2)-ım^4, -ın^4, -ı^4(-sı^4), -ımız^4, -ınız^4, -ları^2 (-sı^4) şəkilçiləri ilə düzəlir;	2)-am^2, -san^2, -dır^4, -ıq^4, -sınız^4, -dır^4(lar^2) şəkilçiləri ilə düzəlir;
3)Şəkilçilərinin hamısı millidir, dörd cür yazılır, vurğu qəbul edir.	3)Şəkilçiləri iki və dörd cür yazılır, vurğu qəbul etmir.

Təbii ki, bu məqamda oxşar xüsusiyyətlərin göstərilməsi də olduqca vacibdir. Onda öyrənənlərin mövzunu mənimsəmə göstəricisi kəmiyyət və keyfiyyət baxımından yüksək nəticə verər. Oxşar cəhətlər kimi bunları qeyd etmək gərəkdir: hər üç şəxsə görə dəyişmək, I-II şəxslərin yalnız insan anlayışı, III şəxsin isə həm insan, həm də cansız əşyalara aidliyini bildirmək. Fərqli xüsusiyyət kimi şəxs-xəbərlik kateqoriyasının inkarının "deyil" sözü, nə, nə də inkar bağlayıcısı ilə düzəlməsi, xəbərlik şəkilçilərinin bəzən ixtisar oluna bilməsi də nəzərə çatdırılmalıdır. Məs: Mən müəlliməm, sən isə şagird və s.

Ümumi qrammatik mənasına görə əşyanın əlamət və keyfiyyətini bildirən, necə?, nə cür?, hansı? Suallarından birinə cavab verən əsas nitq hissəsinə sifət deyilir. Sifət mövzusunun tədrisi zamanı bu nəticəyə gəlmək olur ki, bu bölmədə öyrənənlərə çətinlik yaradan sifətin substantivləşməsidir (isimləşməsidir). Bildiyimiz kimi, sifətlər cümlədə aid olduqları ismi əvəz etdikdə sifətə məxsus xüsusiyyətlərin itirilməsi ilə ismin xüsusiyyətlərini qazanaraq isimləşir. Sifətlər isimləşərkən necə?, nə cür?, hansı? suallarına cavab verməyi, cümlədə təyin olmaq və əşyanı təyin etmək xüsusiyyətlərini itirir. Məs: Xain qorxaq olar – Xain <u>adam</u> qorxaq olar. Cavanlar yaşlılara nisbətən cəld işləyirdilər – Cavan <u>oğlanlar</u> yaşlı <u>kişilərə</u> nisbətən cəld işləyirdilər və s. [5,s.111-112].

Bilirəm	**İstəyirəm bilim**	**Öyrəndim**
1)Sifət adi halda necə, nə cür, hansı suallarına cavab verir.	Hər iki halda morfoloji və sintaktik cəhətdən cümlədə nə götürülür?	1)Adi halda morfoloji cəhətdən sifət, sintaktik cəhətdən təyin olur;
2)Sifət isimləşərkən kim, nə sualına cavab verir.		2)İsimləşərkən morfoloji cəhətdən sifət, sintaktik cəhətdən mübtəda, tamamlıq, xəbər olur.

İsimləşmədəki çətinliyi aradan qaldırmaq üçün morfoloji və sintaktik sualların verilməsi üzrə təkrar iş aparılmalı, diqqət ona yönəldilməlidir ki, sifət əlamət baxımından rəngin, həcmin, keyfiyyətin adını bildirir və onun isimləşməsi təbii dil prosesidir [1, s.210]. Fənn müəllimi bu çətinliyi aradan qaldırmaq və ətraflı izah vermək üçün BİBÖ (Bilirəm, İstəyirəm Bilim, Öyrəndim) fəal təlim üsulundan istifadə etməklə mövzu üzrə tədrisin keyfiyyətini yüksəldə, onu yaxşı mənimsədə bilər.

Elmi ədəbiyyatda sayın mənimsədilməsindəki çətinliklərdən biri onun məna növlərinin sayının müxtəlif şəkildə verilməsidir [5, s.124]. Sayları mənaca miqdar və sıra saylarına bölmək daha doğru elmi-metodiki yanaşmadır. Şagirdlər arasında çətinlik yaradan əsas məsələ kəsr saylarının ayrıca məna növü kimi götürülməsidir. Ancaq onların nəzərinə çatdırmaq lazımdır ki, kəsr sayları miqdar saylarının bir növüdür, onu ayrıca məna növü kimi götürmək doğru deyil. Söz assosiasiyası təlim üsulundan istifadə etməklə sayın məna növlərinə aid nümunələr qeyd edərək müəllim şagirdlər arasında müzakirə yaratmalıdır. Müəllim lövhədə beş, az, xeyli, onda bir, altıncı və s. kimi nümunələr qeyd etməklə şagirdlərə sayları mənaca qruplaşdırmağı qarşıya tapşırıq olaraq qoymaqla onların bu cəhətdən fikri fəallığını artırmalıdır. Mövzunun yüksək səviyyədə mənimsənilməsi bu cür müzakirədən asılıdır.

Sayla bağlı digər mübahisəli məsələlərdən biri isə az, çox, xeyli, bir qədər sözlərinin say, yoxsa miqdar zərfi kimi işlənməsidir. Müəllim bu məqamda təlimin elə bir metodologiyasından yaradıcı şəkildə istifadə etməlidir ki, şagirdlər gələcəkdə bu sözləri yerinə görə fərqləndirməyi bacarsınlar. Müəllim bunları fərqləndirmək üçün aşağıdakı nümunələrdən istifadə edərək həmin sözlərdən sonra əşya məfhumu bildirən söz gəldikdə az, çox, xeyli sözlərinin nitq hissəsi kimi say, hərəkət məfhumu bildirən sözlər gəldikdə isə nitq hissəsi kimi zərf olduğunu nəzərə çatdırmaqla məsələyə aydınlıq gətirə bilər. Məs: az adam-az danışmaq, çox kitab-çox yatmaq, xeyli adam-xeyli oturmaq və s. Bu cür nümunələri cümlə şəklində də şagirdlərin diqqətinə çatdırmaq təlimin keyfiyyətini olduqca artırır. Bunun üçün müəllim dərslikdəki mətnlər üzrə düzgün iş qurmaqla mətndəki əsas nitq hissələrini qruplaşdırmağı tapşırıq kimi qarşıya qoyaraq öz metodik ustalığını da nümayiş etdirmiş olur.

Nəticə

Məqalə mövzusunun tədqiqi zamanı toplanmış elmi faktlar təhlil olunmuş və aşağıdakı nəticələr əldə edilmişdir:

1. Orta məktəbdə Azərbaycan dili təliminin əsas didaktik vəzifəsi şagirdlərin şifahi və yazılı nitq vərdişlərini inkişaf etdirməkdir. Buna görə də ilk növbədə fonetika, leksikologiya, morfologiya (əsas və köməkçi nitq hissələri), sintaksisdən proqrama daxil edilən və öyrədilən dil qaydalarının nitq inkişafı üçün praktik əhəmiyyəti nəzərə alınmalıdır;
2. Müasir təlim prizmasından baxsaq, "məqsəd" standartlarının tələbinə uyğun nəticəyə nail olmaq;
3. İsim, sifət, say mövzuları üzrə dil qaydalarının fəal təlim üsulları ilə necə?, nə üçün? və harada? suallarına cavab verməklə şagirdlərə şüurlu şəkildə mənimsətməyə çalışan, Azərbaycan dili tədrisi metodikası elmini tamamilə yaxşı qavrayan dil-ədəbiyyat müəllimi fikrini bu barədə düzgün, elmi cəhətdən əsaslandırmalıdır.

Ədəbiyyat

1. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Qismət", 2014, 384 s.
2. İsmayılov R., Cəfərova D., Xudiyeva G., Qasımova X. Azərbaycan dili. 5-ci sinif. Bakı, 2016
3. İsmayılov R., Cəfərova D., Məmmədova S. Azərbaycan dili. 6-cı sinif. Bakı, 2013
4. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan dili proqramları, Bakı, 2002
5. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Elm və təhsil", 2010, 400 s.

Methodology of teaching basic concepts on nouns, adjectives and numbers in active learning methods

Summary

The correct and scientific teaching of each conception of speech is one of the specific tasks facing morphology. İt is better to start with the nouns in the teaching of the morphology of the Azerbaijani language. The subject teacher should know what to teach and how to teach students about topics such as nouns, adjectives and numeric parts. One of the main objectives of the training is to use active learning related methods to attract the attention of the learners.

Методика обучения основным понятиям о существителъных, прилагателъных, числах в методах активного обучения

Резюме

Правилъное и научное обучение каждому поняатию речи является одной из конкретных задач стоящих перед морфологией. Лучше начинатъ с существителъных в преподавании морфологии азербайджанского языка. Учителъ предметник должен знатъ чему и как учитъ своих учеников по предмету существителъных, прилагателъных и числителъных. Одно из основных целей тренинга является использование активных методов обучения, связанных с предметом, чтобы привлечъ внимание учащихся.

DOI: 10.36719/2020/REK/01/223-225

Tamara Bidat qızı Məmmədova
Bakı Slavyan Universiteti
tamara64@bk.ru

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ FƏALİYYƏT METODU TEXNOLOGİYASINDAN İSTİFADƏ

Biliklərə aparan yeganə yol fəaliyyətdir.
Bernard Şou

***Açar sözlər**: ibtidai sinif, riyaziyyat dərsi, metodika, fəaliyyət metodu texnologiyası*
***Key words**: elementary school, mathematics lesson, methodology, technology of the activity approach*
***Ключевые слова:** начальная школа, урок математики, методика, технология деятельностного подхода*

Giriş

Ölkəmizdə əsas prioritet məsələlərdən biri keyfiyyətli təhsil almaqdır. Təhsil də öz növbəsində fərdi yanaşmaya diqqət yetirərək, təhsil fəaliyyəti prosesində əldə olunan nailiyyətləri modernləşdirir. Təhsildə innovativ texnologiyalardan istifadə tədris prosesinin bir hissəsinə çevrilir və bu dəyişikliklər müəllim qarşısında yeni vəzifələr qoyur:

- müasir informasiya cəmiyyətinin tələblərinə uyğun şəxsiyyətin yetişdirilməsi və inkişaf etdirilməsi;
- şagirdlərdə tədrislə bağlı suallara müstəqil olaraq cavab tapma və onları analiz etmə bacarığının inkişaf etdirilməsi;
- şagirdlərə fərdi yanaşma;
- şagirdlərdə kommunikativ vərdişlərin inkişaf etdirilməsi;
- pedaqoji fəaliyyətin həyata keçirilməsində yaradıcı yanaşmanın tətbiqinə yönəlmə.

Təhsilimizin qarşısında qoyulan yeni standartların əsasını fəaliyyət metodu texnologiyası təşkil edir. Bu metod təhsil və tərbiyənin əsas nəticələrinin seçilməsinə, şagirdlərin universal təlim fəaliyyətinə yiyələnməsinə, yəni öyrənmə bacarığına şərait yaradır. Nəticə olaraq, müəllimin qarşısında qoyulan məqsədlər də dəyişir: müəllim təlim prosesini yalnız universal bilik, bacarıq və vərdişlərə yiyələnmə prosesi kimi deyil, eyni zamanda şəxsiyyətin formalaşması, öyrənməyə motivasiya prosesi kimi qurmalıdır. İbtidai siniflərdə ən çox istifadə olunan metod təhsilin fəaliyyət metodudur: şagird bilikləri hazır şəkildə deyil, müəllimin rəhbərliyi ilə idrak fəaliyyəti prosesində əldə edir. Metodun sayəsində biliklərə daha dərindən yiyələnən şagirddə özünüinkişaf üçün hazırlıq formalaşır.

Fəaliyyət- ilk növbədə nəticəyə yönələn məqsədyönlü sistemdir, yəni bu yanaşmada nəticə əvvəlcədən müəyyən olunur. Ikincisi, yalnız əks əlaqə olarsa hər hansı nəticəyə gəlmək olar, üçüncüsü- fəaliyyət metodundan istifadə edərkən uşaqların yaş səviyyəsi və qavrama qabiliyyəti nəzərə alınmalıdır.

Fəaliyyət metodu texnologiyasından hər bir müəllim istifadə edə bilər. Fəal təlimdə fərdi və qrup şəkilli iş formalarından istifadə etmər olar. İlk dərslərdən uşaqlara verilən tapşırıqlarda onlardan yaradıcı yanaşma tələb olunmalıdır. Bu metodun digər metodlardan fərqi ondadır ki, şagirdlər özləri sərbəst olaraq riyazi anlayışları, qaydaları «kəşf» edirlər. Müəllim isə yalnız istiqamətləndirir, yekunlaşdırır, anlayış və qaydaların dəqiq izahını verir. Beləliklə, şagirdlər öz elmini yaratmış olur. Fəaliyyət metodu texnologiyasından istifadə

zamanı müəllimin və şagirdin dərsdə rolu dəyişdiyindən dərsin strukturu da dəyişir. Belə dərsin əsasını «problemli dərs» təşkil edir.

Yeni mövzunun öyrənilməsi dərsində fəaliyyət metodu texnologiyasının tətbiqini nəzərdən keçirək:

Təşkilati hissə: motivasiya, şagirdlərin fəaliyyətə cəlb olunması.

Məsələnin qoyuluşu: problem situasiyanın yaradılması.

Şagirdlər tərəfindən yeni materialın açılması.

Yeni materialın möhkəmləndirilməsi.

Özünü yoxlama üçün sərbəst iş.

Mövzunun ümumiləşdirilməsi, təkrarı.

Dərsin yekunlaşdırılması.

Refleksiya. (L.Q. Petersona görə)

Belə struktura malik dərs inkişafetdirici dərs adlanır, çünki belə dərs fəaliyyəti prosesində şagirdlərdə ya yeni bacarıqlar formalaşır, yaxud onlarda olan bacarıqlar tənzimlənir.

Nümunə üçün fəaliyyət metodu istifadə olunan bir dərs fraqmentinə baxaq:

Mövzu: Tənlik həlli

Riyaziyyat 4 sinif, N.Qəhrəmanova

Məqsəd:

- təlimə müsbət motivasiya formalaşdırmaq
- alınan informasiya əsasında idraki məsələləri sərbəst həll etmə bacarığı formalaşdırmaq, məntiqi əlaqə yaratmaqla
- öz fəaliyyətini təşkil və tənzim etmək
- qrupda işləmə bacarığı formalaşdırmaq, öz təklifini əsaslandırmağı bacarmaq
- «tənlik» anlayışını bilmək, tam və hissə arasında əlaqə əsasında tənliyin həllini nəzərdən keçirmək
- tənliklərin yoxlanılması bacarığını möhkəmləndirmək.

Problemin qoyuluşu: Aşağıdakı tənlik həllərinin hansının doğru olduğunu tap:

3 + x = 7	3 + x = 7	3 + x = 7
x= 3+7	x = 7 - 3	x = 7 – 3
x = 10	x = 4	x = 3



Cavabı tapmaq üçün həll alqoritmınə baxaq:

Alqoritmin addımlarını şagirdlər özləri müəyyən etməlidirlər, müəllim yalnız frontal sorğu aparmaqla nəticəni ümumiləşdirir.

Beləliklə, fəaliyyət metodundan istifadə yeni biliyə yiyələnmək üçün motivasiya verməklə yanaşı, uşaqlarda problemə yaradıcı yanaşma, problem həllində effektli üsulların tapılması, ona lazım olan informasiyanı əldə etmə, kritik düşünmə və disukussiya etmək bacarığını formalaşdırır.

Nəticə olaraq, qeyd etmək istərdim ki, fəaliyyət metodu təlim texnologiyaları qarşısına qoyulan tələblərə cavab verir və müasir təlim məqsədlərini reallaşdırmaqla şagirdin bir şəxsiyyət kimi yetişməsinə kömək edir. Bu metod sayəsində şagird problemə bir neçə tərəfdən baxmağı, həlləri analiz etməyi, ümumidən xüsusi halı ayırmağı, yaxud xüsusi halların köməyilə ümumiləşmə aparmağı öyrənir. Bu bacarıqlar isə ona yalnız dərs prosesində deyil gündəlik həyatında da lazım gələcək. Fəaliyyət metodundan istifadə edərkən çalışmaq lazımdır ki, uşaqlar sərbəst olsunlar, öz qüvvələrinə inansınlar, fikirlərini deməkdən çəkinməsinlər. Fəaliyyət metodu inteqrativ xarakter daşıyır, tədrisə ənənəvi yanaşmaya əsaslanır və mövzunu bloklar, modullar şəklində öyrənmək üçün daha effektivdir.

Nəticə

İnsan oxuduğunun 10%-ni, gördüyünün 20%-ni, müzakirə etdiyinin 50-70%-ni, həyatda rast gəldiyi problemin müstəqil aşkar edib həll edərkən 90%-ni yadda saxlayır. Psixoloqlar sübut etmişlər ki, insanlar ən yaxşı o informasiyanı mənimsəyir ki, onu kiminləsə müzakirə edirlər. Başqalarına izah etdiklərini isə daha yaxşı yadda

saxlayırlar. Fəaliyyət metodu dərsdə buna şərait yaradır: problem, onun həlli və alınan nəticə diskussiyada müzakirə edilir.

Fəaliyyət metodu tədrisdə fəaliyyət, sistemlik, psixoloji komfort və yaradıcı yanaşma metodundan istifadə edilən zaman effektiv olur. Bu metodların hər biri uğurlu təhsil və inkişaf üçün uşaq şəxsiyyətini hərtərəfli formalaşdırmağa xidmət edir. Fəaliyyət metodu ilə dərs keçmək üçün problemli təlim texnologiyası, tədqiqat fəaliyyəti texnologiyası, informasiya-kommunikasiya texnologiyası, proyekt fəaliyyəti təşkili texnologiyası və qrupda işləmə texnologiyalarından istifadə edilməlidir.

Fəaliyyət metodu təlimlə bərabər tərbiyə prosesində də mühüm rol oynayır, şagirdi şəxsiyyət kimi formalaşdırır. Şagird özünü qiymətləndirməyi, özfəaliyyətini tənzimləməyi, qrupda işləməyi öyrənir, yəni o, həyata hazırlanır.

Onu da qeyd etmək lazımdır ki, Milli kurikulumda qoyulan standartların həyata keçirilməsinin əsas şərtlərindən biri fəaliyyət metodudur. Sənəddə məzmun standartlarının quruluşunda məzmun standartlarının bilik və fəaliyyətdən ibarət olduğu göstərilir. Riyaziyyat fənnindən bir neçə məzmun standartına nəzər salaq:

2.1. Ədədi və dəyişənli ifadələr haqqında **təsəvvürü olduğunu nümayiş etdirir;**

2.1.1. Sadə ədədləri **oxuyur və yazır**.

2.1.2. Sadə ədədi ifadələrin **qiymətini hesablayır**.

2.1.3. Dəyişənli ifadələr haqqında **ilkin təsəvvürü olduğunu nümayiş etdirir**.

2.1.4. Şifahi şəkildə söylənmiş **riyazi fikri yazılı ifadə edir.**

Diqqət etsək görərik ki, məzmun standartları bilik (adi şrift) və fəaliyyətdən (qalın şrift) ibarətdir.

Bu yeni texnologiyanın müəllifi rus metodisti L.Q. Petersondur. Bu texnologiya proqramın mənimsənmə nəticələrini formalaşdırmaqla yanaşı şagirdlərin gələcəkdə uğur qazanmasını təmin etmək üçün onlarda fəaliyyət bacarığını və şəxsi keyfiyyətləri inkişaf etdirir.

Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008
2. Петерсон Л.Г., Кубышева М.А., Кудряшова Т.Г. Требование к составлению плана урока по дидактической системе деятельностного метода. М., 2010. С 4-22.
3. Сухов В.П. Системно-деятельностный подход в развивающем обучении школьников, Уфа, 2012. С 122-127.

The technology of the activity approach in mathematics lessons in elementary school

Summary

The aim of this work is to study and apply the technology of the activity approach in mathematics lessons in elementary school. The article provides an example of compiling a fragment of a lesson on the basis of the activity approach using a specific example. The advantages and disadvantages of this method are considered. In conclusion, it is said that this method helps the children to develop a cognitive motive and a specific educational goal, to develop in schoolchildren the ability to control their actions, to perform certain actions by students to acquire knowledge and to consciously put the acquired knowledge into practice.

Технология деятельностного подхода на уроках математики в начальной школе

Резюме

Целью данной работы является исследование и применение технологии деятельностного подхода на уроках математики в начальной школе. В статье приводится пример составления фрагмента урока по принципу деятельностного подхода на конкретном примере. Рассматриваются положительные и недостатки этого метода. В заключении говорится, что этот метод помогает развитию у детей познавательного мотива и конкретной учебной цели, формированию у школьников умения контролировать свои действия, выполнению учениками определённых действий для приобретения знаний и осознанно применять приобретённые знания на практике.

DOI: 10.36719/2020/REK/01/226-228

Təranə Ələsgər qızı Nuriyeva
Azərbaycan Dillər Universiteti
tarana.nuriyeva@yahoo.com

İNGİLİS DİLİNİN ÖYRƏDİLMƏSİNDƏ KOMMUNİKATİV TAPŞIRIQLAR METODU

***Açar sözlər**: İngilis dili, kommunikativ tapşırıq, tədris metodikası, kommunikativ tapşırıq metodu*
***Key words**: English language, communicative task, teaching approach, task-based learning*
***Ключевые слова**: Английский язык, коммуникативная задача, методика преподавания, метод коммуникативных заданий*

Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa eylər əhlin ol miqdar söz.
M.Füzuli

Sözlər fikirlərimizin qiyafətləridir. Sözün qüdrəti danılmazdır. Leksik olaraq, bir şey və ya hadisə haqqındakı anlayışın səslə ifadəsindən ibarət olan nitq vahididir, kəlmədir. Dil və nitq mənalarına gələn sözdən keçmişdən – günümüzə istifadə edildiyi kimi, gələcəkdə də hər kəs ehtiyacı olduğu qədər istifadə edəcək. İngilislərin təbiricə desək "Sözlər qılıncdan kəskindir." (Words cut more than swords.)

Elə müəllimin də əsas silahı sözdür, xüsusilə də dil müəllimlərinin. İkinci dili öyrənən tələbələr üçün sözləri yadda saxlamaq bir qədər çətin olur. Necə edək ki, tələbələrimiz sözləri öyrənərkən onları gözəl qavrasın və rahat şəkildə işlətsin. Məhz bu ehtiyacdan doğaraq məqalədə sözlərin kommunikativ yolla öyrədilməsindən bəhs etmişəm. Sözü sadəcə əzbərləməklə yadda saxlamaq olmaz. Xarici dil öyrənən tələbə əvvəlcə öyrəndiyi dildəki sözü düzgün tələffüz etməli, onun izahını bilməli, cümlələrə tətbiq etməli, dialoq qurmalıdır ki, yaddaşında saxlaya bilsin.

Xarici dil bilmək – yad bir nitqi həmin dildə başa düşmək qabiliyyətinə malik olmaq və öz fikirlərini həmin dildə ifadə etmək deməkdir. Bir-biri ilə bağlı olan bu iki komponentə uyğun olaraq tapşırıqlar kommunikativ yolla həyata keçirilir.

Belə tapşırıqların işlədilməsi müəllimə imkan verir ki, tələbələri ədəbiyyat, incəsənət əsərləri ilə tanış etsin, lazımı əsərləri oxumağı məsləhət versin, Vətənə, öz xalqına məhəbbət hissləri aşılasın.

Greet / g ri: t / - to say hello to sb. or to welcome them.

Explanation and uses

-It means to express one's kind feeling at meeting or in a letter.

We greet each other by saying, "Good morning!", "How do you do!"

When we write a letter, we greet a person with the words: "Dear sir, mem" etc.

We always greet our older friends, everyone whom we know. It is impolite not to greet one another. When we see an older person, we greet him/her, make a little bow & smile.

If we see a person for the second time the same day, you simply nod your head and smile.

E.g. 1. Greet them politely!
2. I have greeted her.
3. I greeted her while I was walking.
4. I'll greet them if I see them.

A short dialogue

-What has he told you do?
-He has told me to greet them politely.
-He has told me not to look angry while greeting people.
-Do you always greet your friends politely?
-Yes, I always greet my friends politely.
-I always have a kind word to greet small children.
-I try to answer greetings politely.
-I like when people greet me politely.
-What is he always polite in?
-He is always very polite in greeting people?
-Must we greet people politely?
-Certainly, we must greet people politely.

It is pleasant, people are in a better mood if they greet each other politely, if all are polite, if all are smiling. Am I right? I think you are right.

It makes our life more beautiful, doesn't it?

English /ˈ ɪ ŋg lɪ ʃ /

-the language, originally of England, now spoken in many other countries and used as a language of international communication throughout the world.

Explanation

People who live in England are English. They speak English. English is their mother tongue. I know a little English. I can speak and understand it a little. I can read, translate and write it a little, so I know a little English. Do you know English?

Michel speaks French. She is French. Her mother tongue is French. She writes books in French. She is a French writer. Those who know French can read books which are written in French.

Practice

1. Jack knows English.

-Well, he knows English but his French is better, I think.

Jane knows English.

Lili speaks French.

Jill writes German.

2. The letter was written in English very well.

-No wonder, the letter was written by a student who knows English very well.

The composition was written in English very well. (lived in England for a long time)

The report was made in English very well. (knows English best of all)

The lesson was given in English very well. (the teacher who lived in England for a long time)

Conversation

Imagine that you have received a letter which is written in English. You have never learned English and certainly you cannot read a letter which is written in English.

What will you do now? Must you ask someone who knows English to help you?

I think I must ask someone who knows English to read and translate the letter.

How will you do it?

I will say, "Will you help me to read and translate a letter written in English?"

Will you thank the man who helps you to read and translate the letter written in English?

-I'll certainly thank the man if he helps me to read and translate the letter written in English.

How will you thank him?

-I'll say, "Thank you very much for your help."

To what conclusion may you come? It is useful to know some foreign languages, isn't it?

-It's very useful to know some foreign languages.

What foreign languages do our students learn at university?

-Our students learn English, German, French, Spanish and other languages at university.

Will you try to know your English better in the future?

Dilin əsas materialı olan sözlər ünsiyyət zamanı ideya və fikirlərimizin çatdırılmasında mühüm rol oynayır. Məşhur Britaniyalı dilçinin (Wilkins) sözlərilə desək insanlar az şeyləri qramatikasız təsvir edə bilərlər, lakin onlar sözsüz heç nə ifadə edə bilməzlər.

Bu tipli tapşırıqların yerinə yetirilməsi müəllimdən daimi kömək tələb edir. Sözlərin çoxsaylı nümunələr, atalar sözləri, dialoqlarla verilməsi dərs zamanı kommunikativliyi daha da artırır və tələbələrdə canlanma yaradır.

Hal-hazırda İngilis dilinin öyrədilməsində kommunikativ metod ən effektli üsul hesab edilir. Kommunikativ metod məhz ünsiyyətin yaradılmasına, müxtəlif mövzularda danışma bacarığının inkişafına yönəldilir. Bir xarici dilin öyrənilməsi sözlərin öyrənilməsi ilə başlayır. Sözlər olmasa dinləmə, danışıq, oxu, yazı və tərcümə kimi dil vərdişləri də olmaz. Verilmiş kommunikativ tapşırıqlarda sözlərlə yanaşı qrammatik qaydalar da mənimsənilir.

Ədəbiyyat

1. Oxford Advanced Learner's Dictionary of Current English. Oxford University Press, New 7th edition 2005.
2. Richards, Jack C. (2006). Communicative language teaching today. USA: Cambridge University Press.
3. Whong, Melinda (2011). Language Teaching: Linguistic Theory in Practice. Edinburgh: Edinburgh University.
4. Richards, Jack C.; Rodgers, Theodore S. (2014). Approaches and Methods in Language Teaching. (3rd ed.). Cambridge: Cambridge University Press.

Communicative Tasks Method in Teaching English

Summary

This article is devoted to the practical substantiation and benefits of a series of lessons on teaching unprepared foreign language speaking using the method of communicative assignments. The practical significance of the study is that it analyzed the potential of the communicative task method to improve speaking skills. The communicative classroom is a very different place from classrooms using the other teaching styles, such as the traditional grammar-translation method of the academic style. The teacher has the role of equal and helper rather than the wise expert of the academic style. In addition, within the framework of the above – mentioned method, a series of lessons for teaching foreign – speaking was developed and improved.

Метод коммуникативных заданий в обучении английскому языку

Резюме

Данная статья посвящена практическому обоснованию и разработке серии уроков по обучению неподготовленному иноязычному говорению с использованием метода коммуникативных заданий. Практическая значимость исследования состоит в том, что в нем был проанализирован потенциал метода коммуникативных заданий в обучении говорению. Упражнения, используемые на занятиях по иностранному языку содержат: конкретную направленность на обучение, например, на усвоение лексического материала, конкретную задачу, конкретное речевое действие. Одно из главных целей при выборе метода коммуникативных заданий является увеличение активности студента. К тому же, в рамках вышеупомянутого метода была разработана и апробирована серия уроков обучения иноязычному говорению.

DOI: 10.36719/2020/REK/01/228-230

Xumar Tofiq qızı Novruzova
Bakı Slavyan Universiteti
novruzovaxumar@gmail.com,
Tariyel Tərlan oğlu Ağayev
H.Əliyev adına hərbi məktəb
agayev_t@gmail.com

RİYAZİYYATIN TƏDRİSİNDƏ DIRIXLE PRİNSİPİNİN TƏTBİQLƏRİ

Açar sözlər: *Dirixle, riyaziyyat, əksini fərz etmə metodu, praktika*
Key words*: Dirixle, mathematics, method of conjecture, practice*
Ключевые слова*: Дириксль, математика, метод гипотез, практика*

Giriş

Məlumdur ki, Milli Kurikulumda şagirdlərin praktik bacarıq və vərdişlərinin inkişaf etdirilməsinin ön plana çəkilməsi nəzərdə tutulur. Riyaziyyat fənninin tədrisində bu problemin həlli üçün ən səmərəli üsul praktika ilə, həyatla bağlı olan məsələlərdən geniş istifadə etməkdir. Dirixle prinsipi riyaziyyatda çox geniş tətbiq sahələrinə malik olub, bir çox teoremlərin isbatı, məsələlərin həlli üçün olduqca əlverişlidir. Bu prinsip riyazi isbat üsulu olan «əksini fərz etmə» üsulunun formalarından biri kimi təzahür edir. Prinsipin çox sadə formada ifadə olunması imkan verir ki, ibtidai siniflərdə şagirdlərə məhz bu prinsipin köməyilə məntiqi

məsələlərin həlli öyrədilsin. Lakin məktəb kursunda bu prinsip tədris edilmədiyindən, onunla bağlı tədqiqat aparılması zərurəti mövzunu aktual edən ən vacib amildir.

Alman riyaziyyatçısı P.Dirixlenin (13.02.1805-05.05.1859) adı ilə bağlı olan bu prinsip çoxluqlar nəzəriyyəsi və kombinatorika məsələlərinin həlli üçün əlverişli üsul verir. Ümumi halda, Dirixle prinsipinə görə, n+1 sayda obyekti n sayda yerə yerləşdirdikdə, ən azı bir yerdə iki obyekt yerləşər.

Dirixle prinsipinin tətbiqi riyaziyyatda "dovşan və qəfəslər" və ya "quşlar və qəfəslər" adı ilə məşhurdur. Bu prinsipə görə, dovşanların sayı qəfəslərin sayından çox olarsa, heç olmasa bir qəfəsdə iki dovşan olacaq. Və ya, qəfəslərin sayı dovşanların sayından çox olarsa, heç olmasa bir qəfəs boş olacaq. Məsələn, 7 dovşanı 9 qəfəsə qoysaq, hər qəfəsə bir dovşan qoymaqla, 2 qəfəs boş qalar. Yaxud, 9 dovşanı 7 qəfəsə qoysaq, 2 dovşana qəfəs çatmadığından, eyni bir qəfəsdə 1-dən artıq dovşanı qoymalıyıq. Şəkildə dovşanları (+) –la işarə etsək, alarıq: [1]

İlk baxışdan çox sadə və primitiv görünən bu prinsip həndəsədə, xətti bərabərsizliklər sistemlərinin həllində, ədədlər nəzəriyyəsinin bir çox məsələlərində tətbiq edilir. Dirixle prinsipinin tətbiqində əksini fərz etmə üsulundan istifadə edilir. Bunu misallarda nəzərdən keçirək. Belə bir məsələyə baxaq.

Məsələ. Mağazaya 25 yeşik alma gətirildi. Hər yeşikdə yalnız bir növ alma olduğunu və cəmi üç müxtəlif növ alma gətirildiyi məlumdur. Satıcı israr edir ki, mağazada içində eyni alma növü olan 9 yeşik yoxdur. Satıcı düz deyirmi? [2]

Dirixle prinsipinə görə, 25 yeşik – "dovşanlar", almanın 3 növü – "qəfəslər"dir. 25=3*8+1olduğunu nəzərə alsaq, alarıq ki, almanın 3 növü 24 yeşikdə və əlavə 1 yeşikdə olmalıdır. Bu isə o deməkdir ki, 9 yeşikdə eyni növ alma ola bilər.

Bu nəticəyə aşağıdakı kimi məntiqlə də gəlmək olar. Heç olmasa bir növ almadan yalnız bir yeşikdə olsa belə, yerdə qalan 24 yeşikdə qalan iki növ alma olar. Bu məntiqlə, iki növdən biri də yalnız bir yeşikdə olsa, yerdə qalan 23 yeşikdə eyni növ alma olacaq. Yəni bu halda satıcı yanılır. Digər tərəfdən, üç növ almanın hərəsinin 8 yeşikdə olduğunu fikirləşsək, yenə də yerdə qalan bir yeşikdə bu 3 növdən biri olmalıdır. Deməli, hər bir halda azı 9 yeşikdə eyni növ alma var.

Məsələ. Məktəbdə 370 nəfər şagird oxuyur. İsbat edin ki, onlardan heç olmasa ikisi eyni gündə anadan olub.

Həlli. Bu məsələdə "dovşanlar" şagirdlərin sayı, "qəfəslər" ilin günlərinin sayıdır. Şagirdlərin sayı ilin günlərinin sayından çox olduğundan, heç olmasa iki şagird eyni gündə anadan olmalıdır. Əksini fərz etsək ki, bütün şagirdlər müxtəlif günlərdə anadan olub, 370>366 (və ya 365) olduğundan, qalan 4 şagird ilin günlərindən birində anadan olmuşdur. Şagirdlərin sayı ilin günlərinin sayından çoxdursa, məsələnin həlli aydındır. Yəni heç olmasa iki şagird eyni gündə anadan olmuşdur.

Məsələ. Göstərək ki, ixtiyarı üç natural ədəddən elə ikisini seçmək olar ki, onların cəmi cüt ədəddir.

Bütün natural ədədləri iki qrupa bölə bilərik – tək və cüt. Burada aşağıdakı hallar ola bilər.

1. hər üç ədəd eyni – cüt ədədlər qrupundadır.
2. hər üç ədəd eyni – tək ədədlər qrupundadır.
3. ədədlərdən ikisi eyni qrupda, biri digər qrupdadır.

1-ci halda hər üç ədəd eyni qrupa daxil olduqda, onların hər üçü cüt ədəddirsə, ikisinin cəminin cüt olması aydındır. (məsələn, 4+8=12)

2-ci halda hər üç ədəd eyni qrupa daxil olduqda, onların hər üçü tək ədəddirsə, iki tək ədədin cəminin cüt olması da aydındır. (məsələn, 3+5=8)

3-cü halda ədədlərdən ikisi eyni qrupdadırsa, yəni ya cüt, ya da təkdirsə, əvvəlki hallara görə onların cəmi cüt olacaq. Yəni hər üç halda üç ədəddən heç olmasa ikisinin cəmi cütdür.

Məsələ. 20 turistin arasında ən yaşlı turistin 35, ən kiçik turistin isə a)16, b) 17 yaşı var. Turistlər arasında eyni yaşda olan heç olmasa iki turist varmı? [3]

a) Burada "dovşanlar" – turistlərin sayları, "qəfəslər" isə turistlərin yaşıdır.

Əksini fərz etsək, yəni 20 turistin hamısı müxtəlif yaşlardadırsa, ən kiçiyinin 16, ən böyüyünün isə 35 yaşı ola bilər.

b) Bu halda ən kişiyinin 17, ən böyüyünün isə 35 yaşı varsa, həm də hamısı müxtəlif yaşlardadırsa, 17-dən 35-ə kimi 19 müxtəlif yaşlı turist ola bilər. Lakin turistlərin sayı 19 deyil, 20–dirsə, deməli heç olmasa iki turist eyni yaşdadır.

Məsələ. Yeşikdə iki rəngdə kürəciklər var – ağ və qara. Yeşiyə baxmadan ən azı neçə kürəcik çıxarmaq lazımdır ki, onların arasında iki müxtəlif rəngdə - yəni həm ağ, həm də qara kürəcik olsun?

Burada kürəciklər – Dirixle prinsipindəki "dovşanlar", ağ və qara rənglər isə "qəfəslər"dir. Bu prinsipə görə, dovşanların sayı qəfəslərin sayından çox olmalıdır ki, bir qəfəsdə iki dovşan olsun – yəni baxdığımız məsələdə kürəciklərin sayı rənglərin sayından artıq olsun. Deməli, ən azı 3 kürəcik çıxarmaq lazımdır.

Məsələ. Tərəfi 1-ə bərabər olan düzgün altıbucaqlının daxilində 7 nöqtə qeyd olunmuşdur. İsbat edin ki, bu nöqtələrdən heç olmasa ikisi arasındakı məsafə 1-dən böyük deyil. [4]

Həlli. Altıbucaqlını altı düzgün üçbucağa ayıraq. Onda bu üçbucaqların hər biri tərəfi 1-ə bərabər olan bərabərtərəfli üçbucaq olar. Nöqtələrdən ikisi eyni üçbucağın daxilində yerləşər, çünki Dirixle prinsipinə görə 6 üçbucaq (qəfəs) və 7 nöqtə (dovşan) var. Onda bu iki nöqtə arasındakı məsafə həmin üçbucağın tərəfindən – yəni 1-dən böyük ola bilməz.

Nəticə

Dirixle prinsipindən istifadə edərək, riyaziyyatın müxtəlif sahələrinə aid məsələləri həll etmək olar. Tədqiqatdan aydın oldu ki, aşağıdakı tip məsələlərin həlli üçün Dirixle prinsipindən istifadə edilməsi məqsədəuyğundur:

- Nöqtə, düz xətt və müstəvinin qarşılıqlı vəziyyətlərinin müəyyən edilməsinə aid həndəsi məsələlər;
- Obyektlərin sayının müəyyən edilməsinə aid kombinator tipli məsələlər;
- Ədədlər nəzəriyyəsinə aid olan məsələlər;
- Yaş və ad günlərinə aid məsələlər və s.

Praktika ilə, həyati bacarıqlarla bağlı olan və qeyri-standart həll üsulu tələb edən bu tip məsələlər üçün Dirixle prinsipi sadə və əlverişli üsul verir. Baxılan məsələlər göstərdi ki, şagirdlər həm tədris prosesində, həm də həyatda bu prinsipdən istifadə edərək, müsbət nəticələr əldə edə bilərlər. Bu səbəbdən Dirixle prinsipinin daha geniş öyrənilməsi və tətbiqi məqsədəuyğundur.

Ədəbiyyat

1. Айгнер М., Циглер Г. Принцип Дирихле и двойной счёт. Глава 22 // Доказательства из Книги. Лучшие доказательства со времён Евклида до наших дней. М.: Мир, 2006, 256 с.
2. Алфутова Н.Б, Устинов А.В. Алгебра и теория чисел. Сборник задач для математических школ. 3-е изд., М.: МЦНМО, 2009
3. Дирихле принцип, ящики // Математическая энциклопедия (в 5 томах). М.: Советская Энциклопедия, 1982. Т. 2.
4. Знак Е.И. Разбиения целочисленных решёток и принцип Дирихле // Математическое просвещение. 2015. Вып. 19 (третья серия). с. 241-248.

Applications of dirixle principle in teaching mathematics

Summary

The problems that are solved using the Dirichlet principle are selected and systematized in the article. The way to solve problems using this principle allows you to solve some logical problems that are difficult to solve in other ways. The solution to such problems is a fascinating occupation, since most of them require not only knowledge of a certain program material, but also logical thinking.

Применение принципа Dirixle в обучении математике

Резюме

В статье отобраны и систематизированы задачи, решаемые с помощью принципа Дирихле. Способ решения задач с помощью данного принципа позволяет решать некоторые логические задачи, которые сложно решать другими способами. Решение таких задач увлекательное занятие, поскольку для решения большинства из них требуется не только знание определенного программного материала, но и логическое мышление.

DOI: 10.36719/2020/REK/01/231-233

Yeganə Xanoğlan qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
yeganememmedova.doc@gmail.com

MƏKTƏBƏHAZIRLIQ QRUPUNDA NİTQ İNKİŞAFI MƏŞĞƏLƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *məktəbəqədər təhsil müəssisəsi, məktəbəhazırlıq qrupu, nitq inkişafı*
Key words: *preschool educational institution, school preparatory group, speech development*
Ключевые слова: *дошкольное образовательное учреждение, школьная подготовительная группа, развитие речи*

Giriş

Məktəbə yenicə gəlmiş uşağın müvəffəqiyyəti və uğursuzluğu hər şeydən əvvəl, onun ana dilinə necə yiyələnməsi ilə, nitqin inkişafı ilə müəyyən edilir. Təsadüfi deyildir ki, I sinifdə dərs ilinin əvvəlində həftəlik təlim yükünün tam yarısı ana dilinin tədrisinə həsr edilir. Bu ona görədir ki, şifahi nitqi inkişaf etməyən, öz fikrini ana dilində ifadə etməyi bacarmayan uşaq, riyaziyyat, təbiətşünaslığı, təsviri incəsənəti və başqa fənləri də dərindən başa düşə bilməz. Uşaq nə qədər tez və nöqsansız danışmağı, öz fikir və hisslərini düzgün, sərbəst, cəld ifadə etməyi bacarırsa, yaşıdlarından ibarət kollektivə o qədər tez daxil olar və onlarla ünsiyyət saxlayar. Ona görə də bu yaş dövründə uşaqların nitqinin inkişafı ön plana çəkilməlidir.

Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar biliklər əsasında fikir mübadiləsi keçirir, öz fikirlərini düzgün, aydın, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Bu məqsədlə tərbiyəçilər səylə çalışmalı, məşğələlərdə nitq inkişafının müxtəlif cəhətlərini-söz yaradıcılığını, nitqin qrammatik cəhətini və rabitəli nitqinin qarşılıqlı inkişafının əlaqələndirilməsini təmin etməlidirlər.

Uşaq bağçalarında nitq inkişafı üzrə iş iki formada gedir:

1) nitq inkişafı üzrə xüsusi məşğələlərdə;

2) uşaqların öz yoldaşları, bağçanın işçiləri, xüsusilə tərbiyəçi ilə sərbəst ünsiyyətləri prosesində (Kərimov, 2009:115).

İkinci kiçik qrupdan (3 yaşdan) başlayaraq uşaq bağçalarında nitq inkişafına həsr olunmuş xüsusi məşğələlər təşkil edilir. Belə məşğələlərdə əsas məqsəd uşağın həmin dövrədək ailədə, körpələr evində, uşaq bağçasında öyrəndiklərini sistemə salmaq, onun nitq inkişafı sahəsindəki qabiliyyətini artırmaq və bu prosesi sürətləndirməkdir. Məşğələlər uşağın məsuliyyətini artırır, onu kollektivlə birlikdə dinləməyə, yoldaşlarının nitqinə fikir verməyə, onlarla söhbət etməyə, onların qarşısında şeir oxumağa, nağıl danışmağa alışdırır. "Uşaq bağçalarının təlim- tərbiyə proqram"ında nitq inkişafı ilə əlaqədar xüsusi məşğələlər "Nitq inkişafı", "Təbiətlə tanışlıq və nitq inkişafı", "Bədii ədəbiyyat", "Ana dili", "Savad təliminə hazırlıq və nitq inkişafı" başlıqları altında verilir (Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı,1998:12).

Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilər məşğələləri əsasən "Məktəbəqədər təhsil proqramı (kurikulum)" əsaslanan inteqrativlik prinsipinə uyğun təşkil etməlidirlər. İnteqrativlik uşaqlar üçün bütün inkişaf sahələrində öyrənmə mühiti yaradır. Müasir məşğələlər bir tipli struktura malik deyil. Buna görə də hər bir tərbiyəçi özü üçün məşğələnin konseptual əsasına uyğun daha əlverişli iş və təhsil forması seçir. Tərbiyəçi nitq inkişafı üzrə təşkil edilən məşğələləri digər məşğələlərlə inteqrasiya edərək uşaqların fəal lüğət ehtiyatının zənginləşməsinə kömək etməlidir. Tədqiqatlar göstərir ki, inteqrativlik məktəbəqədər yaşlı uşaqların inkişafında ən yaxşı və səmərəli yanaşmadır. Məşğələlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsi imkanını yaradır. Bu isə təlim yükünün-məşğələlərin sayının azalmasına gətirib çıxarır. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt-subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur.

Məşğələlərdə nitq inkişafı üzrə işin qarşısında duran vəzifələri iki istiqamətdə ümumiləşdirmək olar: **a)** uşaqlara ana dilində düzgün və təmiz danışmağı öyrətmək; **b)** uşaqların nitqinin inkişaf etdirilməsi üzrə işi ilk növbədə ətraf aləmlə, təbiətlə tanışlıq prosesində təşkil etmək.

Hər bir tərbiyəçi bilməlidir ki, uşağın söz ehtiyatı onun təsəvvürlərinə müvafiq olmalıdır. Bəzən uşaqlarda kifayət qədər təsəvvür olur, lakin onları ifadə edən sözlər olmur. Bəzən əksinə, uşaq canlı təsəvvürə əsaslanan çoxlu söz bildikdə onların mənasını dərk etmədən işlədir. Bu halın aradan qaldırmaq üçün tərbiyəçilər məşğələləri planlı aparmalı, əşya, hadisə haqqında uşaqda geniş təsəvvür yarandıqdan sonra,

həmin sözləri uşağın fəal nitqinə daxil etməlidirlər. Deməli, biz məşğələ prosesində uşaqların nitqinin inkişafı üçün iki halı öyrətməliyik.

1. Söz və cümlələri başa düşmək qabiliyyəti.

2. Sözün formasını, söz birləşmələrini və cümlələri nitqdə işlətmək qabiliyyəti.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində nitq inkişafı üzrə təşkil edilən məşğələlərin məzmununu üç mərhələyə bölmək olar:

Birinci, uşağın söz ehtiyatının get-gedə zənginləşməsi, yəni sözlər öyrənib bu sözlərdən istifadə etməsi;

İkinci, nitqin fonetik cəhətdən inkişaf etməsi, yəni uşağın səsləri düzgün tələffüz etmək xüsusiyyətinin inkişafıdır. Bu bir tərəfdən səsləri düzgün eşitmək, digər tərəfdən isə səsləri düzgün tələffüz etməkdə ifadə olunur;

Üçüncü, uşaq nitqinin qrammatik cəhətdən təkmilləşməsi, danışıq hissinin inkişaf etməsidir. Bu prosesin düzgün qurulması, uşaqların yaşına və anlaq səviyyəsinə uyğun təşkili, məktəbəqədər yaş dövrünün sonunda onların aşağıdakı nitq bacarıqlarına yiyələnməsinə imkan verir.

Məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodları ilə aparılan məşğələlərin aşağıdakı ardıcıllıqla həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1.Motivasiya (problemin qoyulması);

2.Tədqiqat sualı;

3.Tədqiqatın aparılması;

4.Məlumat mübadiləsi;

5.Məlumat müzakirəsi;

6.Nəticə və ümumiləşdirmələr;

7**.**Dəyərləndirmə (məşğələ boyu aparılır).

Məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodlarları ilə aparılan məşğələlərin əsasən 3 mərhələli strukturla həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. Motivasiya (mövcud biliklərin səsləndirilməsi və marağın yaradılması);

2. Dərketmə (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);

3. Düşünmə (qazanılmış bilik və bacarıqların yaradıcı tətbiq edilməsi) (Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı. (kurikulumu), 2013: 67).

Müasir məşğələlər birtipli struktura malik deyil. Buna görə də, hər bir tərbiyəçi özü üçün onun konseptual əsasına uyğun daha əlverişli iş və təhlil forması seçir. Həmçinin məşğələyə elə tələblər verilir ki, tərbiyəçilər iş zamanı onları mütləq nəzərə almalıdırlar. Uşaqlarda hər şeyi bilmək həvəsi oyatmaq, ona ətraf aləmin müxtəlif sahələri haqqında biliklər vermək son dərəcə vacibdir. Bunun üçün məşğələlərin məzmunu elə qurulmalıdır ki, uşaqlarda həvəs yaransın, diqqətlilik, tərbiyəçini məşğələnin sonunadək dinləmək, öz fikirlərini düzgün və səlis ifadə etmək həvəsi oyansın. Ona görə də məşğələdə fərdiləşdirmə üçün optimal şərait yaradılır və bütün qrup üçün anlaşıqlı olan təlim metodikası ilə aparılır.

Nəticə

Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsi üzrə bütün işlər onların hərtərəfli inkişafına, məktəbdə müvəffəqiyyətlə oxumalarını təmin etmək imkanı verir. Uşaq bağçalarında nitq inkişafı üzrə iş apararkən diqqət hər şeydən əvvəl, uşağın lüğət ehtiyatının zənginləşməsinə, nitqin səs mədəniyyətinin tərbiyə edilməsinə, nitqin qrammatik quruluşunun formalaşdırılmasına yönəldilməlidir.

Nəhayət, qeyd edilməlidir ki, uşaq bağçalarında Azərbaycan dili məşğələlərinə, o cümlədən uşaqların nitqinin inkişafı üzrə işlərə verilən tələblərlə I sinifdə Azərbaycan dili tədrisinin, uşaqların nitqinin inkişafı arasında müəyyən varislik, uyğunluq təmin edilməlidir. Uşaq bağçalarının məktəbəhazırlıq qruplarında uşaqların nitqi elə inkişaf etməlidir ki,onlar I sinifdə sərbəst, düzgün, sürətlə, ifadəli, şüurlu oxumağa, qrammatik, leksik çalışmaları yerinə yetirməyə, gördükləri, eşitdikləri, yerinə yetirdikləri haqqında müstəqil danışmağa hazır olsunlar.

Biz pedaqoq və tərbiyəçilər inamla deyə bilərik ki, gələcəyimiz həqiqi insanın necə olacağından, bu isə bütövlükdə bizim uşaqların şüuruna nə kimi fikir və ideyalar yükləməyimizdən asılıdır.

Ədəbiyyat

1. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası, Bakı, 2009.
2. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı. (kurikulumu) (3-6 yaş) Bakı: 2013.
4. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. Bakı: 16 iyul 2010.

The Importance of Speech Development in the School Preparatory Group

Summary

Mother tongue teaching is an issue of great pedagogical importance in preschools. The role of native language teaching in the overall learning system is very important in defining the level of thinking and

ensuring the way children develop. It is important for children to awaken the desire to know everything, to give them knowledge about different areas of the world. To do this, the content of the sessions should be set up so that the children are motivated, attentive, listen to the tutor before the end of the session, and express their thoughts correctly and accurately.

Важность развития речи в подготовительной группе школы

Резюме

Преподавание родного языка является проблемой педагогического значения в дошкольных учреждениях. Роль обучения родному языку в общей системе обучения очень важна для определения уровня мышления и обеспечения развития детей. Для детей важно пробудить желание знать все, дать им знания о разных уголках мира. Для этого содержание занятий должно быть настроено так, чтобы дети были мотивированы, внимательны, слушали репетитора до конца занятия и правильно и точно выражали свои мысли.

SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ
ART CRITICISM AND ARCHITECTURE
ИСКУССТВОВЕДЕНИЕ И АРХИТЕКТУРА

DOI: 10.36719/2020/REK/01/234-236

Səbinə Gündüz qızı Səmədzadə
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
sabinasamedzade2595@gmail.com

DÜNYA MUZEYLƏRİNDƏ SAXLANILAN BƏDİİ SƏNƏTKARLIQ NÜMUNƏLƏRİMİZİN QORUNMASINDA DÖVLƏT SİYASƏTİ

Açar sözlər: *Azərbaycan sənətkarları, dünya muzeyləri, eksponatlar, şəxsi kolleksiyalar*
Key words: *Azerbaijani artists, world museums, exhibits, private collections*
Ключевые слова: *азербайджанские художники, музеи мира, экспонаты, частные коллекции*

Giriş

Azərbaycan xalqı yaradıcı bir xalq kimi tarixdə öz sözünü deyib, deməkdə də davam edəcək. Xalqımızın elə qədim yaradıcılıq nümunələri, sənət növləri var ki, onların dünyada analoqu yoxdur. Bu sənət növləri o qədər rəngarəngdir ki, orada xalqımızın bütün ruhu, mənəviyyatı öz əksini tapıb.

Azərbaycan xalqının əməyi sayəsində yaranıb və onun məişətində istifadə edilən el sənətlərimizin böyük və zəngin bir tarixi vardır. Xalqımızın dəyərli sənət növləri neçə min il bundan əvvəl yaranaraq formalaşmağa başlayıb. Araşdırmalara görə Azərbaycan ərazisində yaşayan tayfalar hələ dörd min il bundan əvvəl daşdan, gildən, metaldan orijinal formalı qab-qacaq, silah və s. düzəldib öz həyat və məişətlərində istifadə etmişlər. Bu sənət əsərləri öz qeyri-adi forması, dəqiq işləməsi, xüsusilə üzərindəki bəzəkləri ilə tədqiqatçıların və incəsənət sevənlərin marağına səbəb olmuşdur.

Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi ilk illərdə sənətkarlıq özünün tənəzzül dövrünü yaşayırdı. Tətbiqi sənət növlərinə münasibət elə də isti deyildi. Xalqımızın bu böyük sərvətinə bəslənən biganəlik sayəsində xalçalarımız, dulusçuluq, ipəkçilik, miskərlik və s. nümunələrimiz qanunsuz olaraq ölkədən kənara daşınırdı. Respublikamızın muzeylərindən yüzlərlə nümunə xaricə daşınaraq kolleksiyalara verilirdi. Bir çoxumuzun Viktoriya və Albert muzeyindəki "Şeyx Səfi" xalısı, Ermitajdakı Cavanşir heykəlciyi, Topqapıda nümayiş etdirilən Səfəvi hökmdarlarından birinə məxsus taxt barədə məlumatımız var. Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropolitan, Vyananın, Romanın, Berlinin, İstanbulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Naxçıvan, Təbriz, Gəncə, Bakı, Quba, Şəki, və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaratdıqları sənət nümunələrini görə bilərik. Bu dəyərli və nadir sənət əsərlərimiz dünya muzeylərinin bəzəyi hesab olunur. Eləcə də, bu sənətkarlıq nümunələrimizin Avropa, Asiya, Amerika qitəsindəki ölkələrin muzey və şəxsi kolleksiyalarında yer alması özlüyündə böyük bir tarixə malikdir. Vurğulamalıyam ki, onların çoxu ayrı-ayrı şəxslərdən alınmış, bəzilərini müxtəlif vaxtlarda ölkəmizdə olmuş əcnəbi səyyahlar, tacirlər və alimlər aparmış, bəziləri isə təbii ki, qarət olunmuşdur.

Ermitaj. Cavanşir heykəli

Dünya muzeylərində yer almış Azərbaycanın dəyərli sənət incilərini uzun illər araşdırmışlar. Bunun nəticəsi olaraq Azərbaycan xalqının əsrlər boyu yarardığı sənət nümunələrinin böyük bir qisminin Moskva şəhərində

mühafizə olunduğu məlum olmuşdur. Bu nümunələr, əsasən, Şərq xalqları muzeyində, Dövlət Tarix muzeyində, Kremlin Silah palatasında, Moskva və onun ətrafında yerləşən kilsələrdə toplanmışdır. Moskvada cəmlənən bu sənətkarlıq nümunələrimiz daha çox Azərbaycan zərgərliyi nümunələridir.

Xalqımızın ustalarının yaratdığı sənətkarlıq nümunələrinin saxlandığı digər dünya muzeyləri içərisində Sankt-Peterburq şəhərində yerləşən muzeyləri qeyd edə bilərəm. Sözsüz ki, Sankt-Peterburq dedikdə ilk növbədə məşhur Ermitaj muzeyinin adı çəkilir. Dövlət Ermitajının Şərq incəsənəti şöbəsində türk, çin, yapon və ərəb xalqlarının maddi-mədəniyyəti ilə yanaşı doğma Azərbaycan xalqının da əsrlər boyu yaratdığı bir çox sənət nümunələri nümayiş etdirilir. Burada ən qədim dövrlərdən tutmuş əsrimizin əvvəllərinədək Azərbaycan ustaları tərəfindən düzəldilmiş zərgərlik, saxsı, daş, taxta üzərində oyulmuş sənət əsərləri və müxtəlif növlü toxuculuq nümunələri vardır. Ümumiyyətlə, bütün dünya muzeyləri içərisində yalnız Dövlət Ermitajı ilk növbədə Azərbaycan sənətkarlığını və onun ən qədim nümunələrini mühafizə edir. Muzeyin zallarında ən qədim dövrlərdən tutmuş XX əsrin əvvəllərində fəaliyyət göstərmiş Azərbaycan ustaları tərəfindən düzəldilmiş sənətkarlıq nümunələrimiz və e.ə. II minilliyə aid öz orijinal forması və dəqiq işləməsi ilə Dağlıq Qarabağda aparılan qazıntı işləri zamanı tapılmış bürünc öküz başı fiquru xüsusi diqqəti cəlb edir. Həmçinin muzeydə metaldan düzəldilmiş plastik sənət nümunələri, bir çox orijinal formalı, bəzəkli məişət əşyalarımız da nümayiş etdirilir.

Azərbaycan ustalarının əl işlərinə xüsusilə Amerika Birləşmiş ştatlarında daha çox təsadüf edilir. Hazırda ABŞ-ın Vaşinqton, San-Fransisko, Filadelfiya, Boston və başqa şəhərlərindəki muzey, qalereya və şəxsi kolleksiyalarında yüzlərlə xalq ustalarının nadir sənət əsərləri vardır. Burada saxlanılan sənət əsərlərimizin əksəriyyətini xalça, parça, bədii metal və saxsı nümunələri təşkil edir.

Xalqımızın nadir sənət nümunələrinin saxlandığı yerlərdən biri də Böyük Britaniyadır. Bu ölkənin London, Liverpul, Mançester və başqa şəhərlərində yerləşən muzeylərində və şəxsi kolleksiyalarında hazırda bədii xüsusiyyət daşıyan yüzlərlə sənət incilərimiz yer almışdır. Londonun xalça muzeyində XIX əsrdə Qarabağda toxunmuş xalça nümayiş etdirilir. Sənətkarlıq baxımından Azərbaycan ustalarının ən orijinal əsərləri isə hazırda Londonun Viktoriya və Albert muzeyində toplanmışdır. Bu sənət əsərləri içərisində ən qədimi 1319-cu il tarixli bürünc camdır. Muzeydə saxlanılan xalq sənət nümunələrmiz içərisində ən əsas yeri xalçalar tutur. Burada nümayiş etdirilən Təbriz xalçaları içərisində 1539-cu ildə Şah Təhmasibin sifarişi ilə Ərdəbil məscidi üçün toxunmuş və "Şeyx Səfi" adlanan xalını xüsusilə qeyd etmək lazımdır.

"Şeyx Səfi" xalçası

Bütün bunların qarşısında bizim üçün ən vacib olan məsələlərdən biri bu mədəniyyət incilərinin Azərbaycana məxsus eksponatlar kimi təqdim edilməsidir. Bu mövzu həm sənətşünasların, həm də tarixçilərin ən ağrılı yerlərindən biridir desəm, yanılmaram. Sovet imperiyasının tərkibində olarkən Sankt-Peterburq, Moskva və s. şəhərlərin muzeylərində Azərbaycana məxsus eksponatlar görürdük və bunu olduğu kimi qəbul edirdik. Lakin artıq müstəqil bir dövlətik və mədəniyyət incilərimizə sahib çıxmalı, onları təbliğ etməyi bacarmalıyıq. Əslində xarici ölkələrdə olan eksponatlarımızı təbii ki, heç kim bizə qaytaran deyil. Amma etik qaydalar çərçivəsində mədəni münasibətlər qurmaqla, dostluq əlaqələrindən istifadə etməklə ən azından dünya muzeylərindəki bizə aid sənət nümunələrin alt yazılarının düzgünlüyünə nail olmaq mümkündür. Sadəcə təkid etmək, rəhbərliklə görüşmək və bunu rəsmi etmək lazımdır. Bu işdə bizə səfirliklər çox kömək edə bilər. Çünki bizim mədəniyyətlə əlaqədar dövlətlərarası müqavilələrimiz var. Buna nail olmağın özü fikrimcə böyük qələbədir.

Azərbaycanda dövlət səviyyəsində incəsənət əsərlərimizin qorunması sahəsində əvəzsiz layihələr həyata keçirilir. Dünyanın nüfuzlu muzeylərində saxlanan Azərbaycan incəsənəti nümunələrinin öyrənilməsi və onların

Azərbaycana aid olmasının təsdiqlənməsi, YUNESKO, İSESKO, TÜRKSOY və digər beynəlxalq təşkilatlarda təsviri sənətimizin təbliği və tanıdılması istiqamətində zəruri işlər görülür.

Nəticə

Bu gün dövlətimizin ictimai maraqlarla üst-üstə düşən mədəniyyət siyasəti nəticəsində Fransa, İsveçrə, Almaniya, Türkiyə və bir çox ölkələrin muzey və şəxsi kolleksiyalarında saxlanılan sənətkarlıq nümunələrimizin təbliği, eyni zamanda da qorunması istiqamətində böyük tədbirlər görülüb və görülməkdə də davam edir.

Ədəbiyyat

1. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı, 2007
2. https://gulustan.info/2016/06/441/
3. https://www.azerbaijans.com/content_1788_az.html
4. http://www.azerbaijan.az/portal/Culture/Folk/folk_a.html
5. https://xalcaci.az/blog/19/azerbaycan-xalcasi-unesco-nun-qeyri-maddi-medeni-irs-siyahisinda.html

State policy in the preservation of pieces of art stored in museums around the world

Summary

Today works of art belonging to Azerbaijan are preserved in the various world museums. Most of these artworks have been purchased by private individuals, some have been taken by foreign travelers, merchants and scholars and some have been robbed. This article is devoted to successful state policy of Azerbaijan in the preservation of pieces of art kept in prestigious museums of the world.

Государственная политика в области охраны произведений искусства, хранящихся в музеях всего мира

Резюме

Сегодня произведения искусства, принадлежащие Азербайджану, хранятся в различных музеях мира. Большинство из этих произведений искусства были приобретены частными лицами, некоторые были приняты иностранными путешественниками, торговцами и учеными, а некоторые были ограблены. Данная статья посвящена успешной государственной политике Азербайджана по сохранению произведений искусства, хранящихся в престижных музеях мира.

DOI: 10.36719/2020/REK/01/236-238

Anar Şahbaz oğlu İbrahimov
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
ibrahimov.11.09.97@gmail.com

AZƏRBAYCAN ORTA ƏSR SİLAHLARININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Silah, xəncər, qılınc, ornament, istehsal, sənətkarlıq, metalişləmə*
Key words: *Weapons, daggers, swords, ornaments, production, crafts, metalwork*
Ключевые слова: *оружие, кинжалы, мечи, украшения, продукция, поделки, металлоконструкции*

Orta əsrlərdə Azərbaycan sənətkarlığı yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkənin fərqli-fərqli yerlərində sənətkarlığın müxtəlif növlərinə aid sənət nümunələri hazırlanırdı. Bu dövrdə dekorativ tədbiqi sənətə daxil olan metalişləmə sahəsidə özünəməxsusluğu ilə seçilirdi. Metalişləmə sahəsinin Azərbaycanda orta əsrlərdə silah istehsalı bölməsinin inkişafına təkan verən amillər olduqca müxtəlifdir. Bu amillər arasında ilk olaraq Azərbaycan silah mədəniyyətinin qədim dövrə aid nümunələrinin əsasında yaranmış silah istehsalı ənənəsidir. Bunu sübut edən nüasnlar arasında isə aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış qədim dövrə aid ox ucluqları, nizələr və digər soyuq silahlar bu ərazilərdə silah istehsalının tarixinin yeni olmadığını göstərən faktlar daxildir.

Orta əsrlərə aid ox ucluqları əsasən Azərbaycanın Abşeron və şimal-şərq bölgələrində xüsusəndə Gəncə, Bakı, Şamaxı ərazisindən tapılmışdır. Bu isə həmin ərazilərdə sənətkarlığın əsasəndə silah istehsalının aparıldığını göstərirdi. Bu tip nümunələr həm də orta əsrlərdə ox və kamanın döyüşlərdə və ovlarda istifadə olunmasını göstərir. Ancaq, son zamanlar Şəmkirdə aparılan qazıntılar nəticəsində əldə olunan orta əsrlərə aid ox ucluqları öz qurluş

etibarı ilə özündən əvvəlkilərindən fərqlənirdi. Bunlar əsasən rombvari, dördtilli, üçtilli və yastı olması ilə seçilirdi. Bu formaların müxtəlifliyi onların təyinatının fərqli olmasını göstərir. Ancaq, bəzən xüsusi bəzədilmiş kamanlarda rast gəlmək olar. Bu kamanlar əsasən ya hökmüdarlarda, ya da xüsusi igidliyi ilə seçilən qabaqcıl döyüşçülərdə olurdu. Buna misal olaraq "Dədə Qorqud" filmində Xan Qazanın ozana verərək dediyi "al bu yayı Beyrəyin yayıdır" ifadəsi və o yayın xüsusi işləmələrlə bəzədilməsi Beyrəyin tutduğu mühim yerin göstəricisidir. Əlavə olaraq qeyd etmək lazımdır ki, ümumiyyətlə türklər tarix boyu silaha böyük önəm veriblər və ona müqəddəs əşya kimi hörmət ediblər. Bu isə türklərin döyüşkən və cəsur olmağının bir nişanəsidir. Onlar heç vaxt silahsız insanlarla silahla döyüşməyiblər. Bu da türklərin ədalətli olduqlarına dəlalət edir.

Orta əsrlərdə silah təkcə döyüş məqsədi daşımırdı xüsusi bəzədilmiş xəncərlər kişilərin geyimlərinin bir akssesuarına çevrilmişdir. Bu cür silahlar əsasən kiçik ölçülü xəncərlər olurdu və onların qəbzə hissəsini ornamental motivlərlə bəzəyirdilər. Xəncəri daşıyan şəxsin statusu onun hazırlandığı matrealdan və bəzədilməsində olan zəriflikdən bilinirdi. Əksər yüksək nüfuza sahib insanların xəncərlərinin qəbzə hissəsi qızıl və gümüşdən hazırlanırdı və bu qəncərlərin qının üzəridə müxtəlif qiymətli daşlardan bəzəklər vurulurdu. Çox təəssüflər olsun ki, bu cür xəncərlərin çox hissəsi bizim dövrümüzə gəlib çatmasada ekfrazis vasitəsi ilə onlar haqqında məlumat ala bilərik. Azərbaycan ədəbiyyatının istər şifahi xalq ədəbiyyətında, istərsə də yazılı ədəbiyyatda təsvir olunan bəzi obrazların silahları haqqında da məlumat mövcud olur. Əsən Azərbaycan nağıllarında canlanan bir çox obrazın xüsusi bəzədilmiş və qiymətli silaha sahib olduğunu görə bilərik. Bu isə orta əsərlərdə Azərbaycanda hazırlanan silahların bəzədilməsinə verilən önəmin bir sübutudur.

Qeyd olunan yazılardan başqa Azərbaycan orta əsrlər silahları haqqında daha dəqiq məlumatları axreoloji qazıntılar nəticəsində tapılan nümunələri tədqiq edən alimlərin əsərində və ən əsas da miniatür nümunələrindən almaq mümkündür. Miniatür əsərləri hazırlandığı dövrün həm geyimini, həm də o dövrə aid silahların formasını göstərən tutarlı mənbələr arasındadır. Misal üçün qeyd etmək olar ki, bu əsərlər sayəsində o dövrün döyüşçüləri yaylarını qoyduqları qabı sol, oxlar üçün istifadə olunan qabları isə sağ çiyinlərində saxlayırdılır. Onlar ox qablarını kəmərlərinə əsasən dəmirdən hazırlanan xüsusi qırmaqların köməyi ilə kəmərlərindən asırdılar. Bu cür tədbiq "türk" üsulu kimi adlandırılan bir tərzdə edilirdi. Ox qabların kəmərə taxılmasında istifadə olunan qırmaqlar arxeoloji qazıntılar nəticəsində Şabran və Dərbənd kimi ərazilərdən tapılmışdır. Bu ox qabları qalın gön matrealından hazırlanırdı ki, içərisində olan ox onu deşib kənara düşməsin. Bu qabların üzəridə müxtəlif ornamentlərlə bəzədilirdi. Azərbaycan xəncərləri ümumiyyətlə nə şərqdə, nə də Qafqazda olanlardan bədii tərtibatının incəliyi ilə seçilir. Fərq ondadır ki, bəzək üçün elementlər tutacaqlara, əqrəb və bıçağa tətbiq olunur. Naxışın da öz xüsusiyyətləri var ki, bunlar bitki elementlərindən əlavə, üzərində müsəlman motivləri və həndəsi fiqurlar da görünə bilər. Dekor, qıvrımlı budaqları və yarpaqları olan dəyirmi tağlarla xarakterizə olunur. Azərbaycan xəncərləri bəzəmək üçün əyilmiş bəzək texnikası ilə məşhurdur. Qılınc, xəncər və s bu kimi silahların qoyulduğu qın adlanan məmulatında bəzədilməsinə xüsusi önəm verilir. Qınların hazırlanmasında metaldan və qalın göndən istifadə olunur. Qının möhkəm olması onda saxlanan silahın zərər görməməyi üçündür. Bəzən dərindən hazırlanan qınların üzərinə metal lövhələr əlavə olur bu isə onun dayanıqlığını daha da artırır.

Silahlar öz funksiyalarına görə fərqli növlərə ayrılırlar. Bu növlər arasında deşici, deşici-kəsici, deşici-kəsici-çapıcı və deşici-çapıcı daxildir. Bu xaraqterik xüsusiyyətlərin hər birinə fərqli silahlar daxildir.

Ümumiyyətlə Azərbaycanda olan orta əsrlərə aid silahların soyuq və odlu olmaqla iki əsas növü vardır ki, soyuq silah termini bir çox qədim ədəbiyyatda "Ağ silah" kimi də qeyd olunur. Bu silah nümunələrinin bəzi növləri regional olaraq fərqli xüsusiyyətlərə və adlara malikdir. Nümunə kimi geniş istifadə olunan silahlar arasında abxaz bıçağı, akinak, qılınc, xəncər, əmud, şəmşir, nizə, şeşpəri, döyüş bıçağı, arbalet, toppuz, gürz, döyüş baltası, təbərzin balta və s. daxildir. Odlu silahlar arasına isə orta əsrlərdə tüfəng, tapança və top məlum idi. Bu dövrdə istehsal olunan tüfənglər qapaqlı və çaxmaqlı olmaqla iki müxtəlif formada istehsal olunurdu. Yuxarıda qeyd olunan silah nümunələrinin hər birinin fərqli qurluşu və istehsal texnikası vardır. Misal üçün akinak hələ qədim skitlərə aid kiçik formalı döyüş bıçağı idi. Azərbaycanın qədim və orta sərlərdə farslarla bir regional mühitdə qarşılıqlı təsiri qaçılmaz etmişdir. Bir çox fars adlı silahlar Qafqazda da istifadə olunmuşdur. Bunlar arasında balta mənasını daşıyan təbər daxildir. Orta əsrlərdə istifadə olunan əsas silahlardan biri isə təbərzindir. Sözdə yer alan zin hissəsciyi vurmaq mənasını daşıyır. Birdəfəlik zərbə üçün nəzərdə tutulmuş balta növüdür. Bu balta növünün ornamental təsvirini Qarabağ xalçaçılıq məktəbinə mənsub olan və "Qasımuşağı" adlanan xovlu xalçalarda rast gəlinir. Bu amil milli incəsənətimizin müxtəlif növləri arasında olan qarşılıqlı bağın bir göstəricisidir. Silah təsviri azadlığın, mübarizənin və qalibiyyətin bir simvolu kimi müxtəlif sənət nümunələri üzərində sxematik olaraq yer alır. Bu sxematik simvolların meydana gəlməsi isə Azərbaycan tarixində olan çoxsaylı döyüşlər, buraya gələn yürüşlər və baş verən üsyanlarla əlaqədardır.

XIII-XV əsrlərə aid olan silahların müxtəlifliyini MATM-də saxlanılan nümunələrdən görə bilərik. Burada olan silahlar arasında nizə ucluqları, qılınclar və xəncərlər üstünlük təşkil edir. Bu nümunələrlə yanaşı, həm də saxlanılan silahlar arasında zirehlər və qalxanlarda xüsusi əhəmiyyətə malikdir. Hücum silahların ölçüsünün kiçik olması onlar üzərində süjetli təsvirlərin həkk edilməsinə mane olur. Ancaq, müdafiə silahı olan qalxanın ölçüsü onun üzərində

müxtəlif süjetlərin əks edilməsinə şərait yaradır. Bu təsvirlər əsasən döyüş səhnələrindən ibarət olub, müxtəlif zoomorf motivlər üstünlük təşkil edirdi. Əsasən şir təsvirlərinə daha çox rast gəlinirdi bu isə həmin heyvanın döyüşün, qələbənin və hökmüdarlığq kimi mənaların simvolunu daşıması ilə əlaqədardır.

Bütün bunlara baxmayaraq artıq XVII əsrin sonu və XVIII əsrin əvvəllərində ölkə daxilində baş verən çaxnaşmalar hakimiyyətdə olan şahların dövlətin daxili işlərinə biganə yanaşması və ən əsasda məmurların özbaşnalığı ölkənin sənətkarlığının tənəzzül etməsinə səbab oldu. Ticarətin inkişafına mane olan səbablər arasında boşalan xəzinəni doldurmaq üçün gömrük və digər vergilərin artırılması oldu. Bu isə sənətkarlıq məhsulların idxal və ixracına əsaslı sürətdə böyük zərbə vurdu. Bütün bu iqtisadi çöküş təbii ki, silah sənətinə də təsirsiz ötüşə bilməzdi.

Ədəbiyyat

1. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu
2. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Etnoqrafiya fondu
3. Azərbaycan Arxeologiyası. 6 cilddə, VI cild. Bakı, "Şərq-Qərb", 2008. 632 səh
4. Bəşirov R. Naxçıvanın orta əsrlər metalişləmə sənəti (IX-XVII əsrlər). Bakı-2015. 231 səh.
5. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, "İşıq", 1976. 190 səh
6. http://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_2751101297

Artistic features of Azerbaijani medieval weapons

Summary

Different areas of crafts in Azerbaijan have entered a new path of development. Particularly during these times, special emphasis is placed on the production of weapons to prevent inter-war and alien invasion. They are distinguished by their differences in artistic designs of weapons made in later times.

Художественные особенности азербайджанского средневекового оружия

Резюме

Различные направления ремесла в Азербайджане вступили на новый путь развития. Особенно в это время особое внимание уделяется производству оружия для предотвращения межвоенного и инопланетного вторжения. Их отличают различия в художественных решениях оружия, сделанных в более поздние времена.

DOI: 10.36719/2020/REK/01/238-241

Arzu Fazil qızı Haşımova
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
e-mail: arzuhashimova@mail.ru

XX ƏSR AZƏRBAYCAN BOYAKARLIĞINDA BAKI MÖVZUSU

Açar sözlər: *Azərbaycan incəsənəti, rəngkarlıq, Bakı, kompozisiya, mənzərə*
Key words: *Azerbaijan art, painting, Baki, composition, landscape*
Ключевые слова: *Азербайджанское искусство, живопись, Баку, композиция, пейзаж*

Giriş

XX əsr Azərbaycan tarixində önəmli bir mərhələ olmuşdur. Bu dövr xalqın siyasi və ictimai həyatında baş vermiş mühüm dəyişikliklər, həmçinin incəsənətdə yeni tendensiyaların yaranması, xüsusilə rəngkarlıqda realist ənənələrə əsaslanan mənzərə janrında əsərlərin yaranmasına səbəb olmuşdur. Bu dövrdə Bakı şəhərinin memarlıq abidələri, sənaye müəssisələrinin təsvirinə rəssamların yaradıcılığında geniş yer verilmişdir.

XX əsr Azərbaycan Boyakarlığında Bakı mövzusu

Milli boyakarlığımızda mənzərə janrı üslub və mövzu baxımından çox zəngindir. Rəssamların bu janrda yaratdığı əsərlərdə Azərbaycan təbiətinin bənzərsiz gözəlliyini, rəngarəngliyini, tarixi abidələrini, təbii sərvətlərini, səfalı guşələrini canlandırmaqla bərabər şəhər və sənaye mənzərələrinin də təsvirinə xüsusi yer verilmişdir. Azərbaycan boyakarlığında realistik ənənələrin formalaşması XIX əsrdə görkəmli lirik şairə rəssam Xurşud Banu Natəvanın yaracıdılığında özünü büruzə vermişdir. Onun yüksək humanizm ideyaları, dərin, incə lirik duyumu rəngkarlıq əsərlərində də aydın seçilir. Qeyd olunan xüsusiyyətləri "Dəniz mənzərəsi" (1886), "Şəhər mənzərəsi"(1886), "Dəniz kənarı"(1886) əsərlərində görmək olar. XX əsrdə milli peşəkar rəngkarlıq məktəbinin yaranmasında, realizm üslubunda əsərlər yaradan görkəmli rəssam Bəhruz Bəy Kəngərlinin (1892-1922) rolu əvəzsizdir. Yaradıcılığında mənzərə janrında yaratdığı əsərlər üstünlük təşkil edir. "Dəniz mənzərəsi" (1916), "Dağ mənzərəsi" (1920) və s. əsərlərini misal göstərmək olar. Bu mənzərələrə lirika, impressionizm üslubuna bənzər xüsusiyyətlər xasdır.

1912-ci ildə Bakı rəssamlar cəmiyyətinin təsis olunması ilə milli rəssamlarımızda burada fəaliyyət göstərmişdir. Əli bəy Hüseynzadəni xüsusilə qeyd etmək lazımdır. 1905-1907-ci illərdə Əli bəy Hüseynzadənin "Bibiheybət məscidi" adlı əsəri Azərbaycan rəngkarlığına tamamlanmış ilk şəhər mənzərəsi kimi daxil olmuşdur. Perspektiv planda həll olunmuş kompozisiyanın önündə Bibiheybət məscidi ,arxa fonda səma və qızılı və bozumtul yamacın təsviri vəhdət təşkil edir.

Bakı tarixi abidələri və müasir görünüşü ilə daim rəssamlarımızın diqqət mərkəzində olmuşdur. Doğma şəhərimiz öz ecazkar və romatik abu havası ilə mənzərə janrına bir gözəllik qatmışdır. Görkəmli rəssamlarımızın yaradıcılığında Bakı şəhərinin müxtəlif görüntüləri, Bakı ətrafı qəsəbələrin, bağların, Xəzər dənizinin, xüsusilə Neft daşlarının təsvirlərinə rast gəlinir.

XX əsrin görkəmli nümayəndələrindən biri realist rəssam Hüseyn Əlirza oğlu Əliyev(1911-1991) olmuşdur . Rəssam müxtəlif janrlarda əsərlər yaratmışdır, lakin mənzərə janrında yaratdığı əsərlər üstünlük təşkil edir. O, təbiətin ümümiləşdirilmiş obrazını yaradırdı. Əsərlərinə lirik ovqat bəxş edirdi. Belə mənzərələrinə "Abşeron səhəri", "Abşeron lövhələri. "Üç ağac", "Bakı". "Lenin prospekti" adlı mənzərələrini misal göstərmək olar. "Üç ağac" əsəri sadəliyi və təbiiliyi ilə fərqlənir. Boş bir sahədə üç ağac küləkli havada sanki küləyə qarşı müqavimət göstərir. Digər bir əsər isə "Bakı.Lenin prospekti" adlı əsəridir. Bu əsərdə indiki Azadlıq prospektinin təsviri verilmişdir. Ön planda mərkəzi küçə, hərəkət edən avtomobillər, arxa planda isə yaşayış binaları və qaldırıcı kranın təsviri şəhərdəki quruculuq işlərinin aparılmasını göstərir.

Milli rəssamlarımızın yaradıcılığında mənzərə motivləri əsasən II dünya müharibəsindən sonrakı dövrdə aktual olmağa başladı. Bu dövrdə yaradılan əsərlərə Mikayıl Abdullayevin, Böyükağa Mirzəzadənin , Tağı Tağıyevin, Salam Salamzadənin, Nadir Əbdürrəhmanovun və b. yaradıcılığında görə bilərik. XX əsr Azərbaycan təsviri sənətində mühüm xidmətləri olan, rəngkarlıq və qrafika sahəsində yaradılan, bu günə qədər aktuallığını itirməyən əsərlərin müəllifi Mikayıl Abdullayevdir. Rəssamın "Azərbaycan doğma vətənim. Mən sənin doğma balan,aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram" fikirləri onun yaratdığı mənzərə əsərlərinə xüsusi həssaslıqla yanaşdığının şahidi oluruq. Mikayıl Abdullayev yaradıcılığında Bakı təsvirlərinə müraciət etmişdir. "Bakı müharibə vaxtı. Axşam" (1975), "Bakı müharibə vaxtı gecə", "Bakı tikilir" (1951) adlı əsərləri buna misaldır. Rəssamın bu mənzərələrinə kompozisiyanın sadəliyi və özünəməxsus sakit rəng tonlarının üstünlüyü ilə fərqlənir.

Milli rəngkarlığımızda zəngin yaradıcılığı və incə koloriti ilə fərqlənən rəssam Böyükağa Mirzəzadə olmuşdur. Təsviri sənətin bir çox sahələrində gözəl sənət nümunələri yaratmışdır. Rəsssamın xüsusilə mənzərə janrında yaratdığı əsərlərdə paytaxtımızın müxtəlif təsvirlərini, tarixi abidələrini və sənaye mövzusuna həsr edilmiş əsərlərini görə bilərik. Onun əsərlərində doğma şəhərimizin abu havası duyulur. Yaradıcılığının müxtəlif dövrlərində bu mövzuya müraciət etmişdir. Belə əsərlərdən "Bakı gecə vaxtı" (1946), "Bakı Azadlıq küçəsi" (1947), "Montin qəsəbəsinə gedən yol" (1947) və s adlı əsərləri qeyd etmək olar. Rəssamın Neft daşlarına səyahət etməsi və burada şahidi olduğu , duyduğu mənzərləri real şəkildə əks etdirən "Neft daşları" adlı silsilə əsərlər yaratmasına səbəb oldu. Bu silsiləyə "Yeddi gəmi adası" (1953), "Estakadada" (1953)", "Mavi dəniz. Neft daşları" (1959), "Neft quyuları", "Bakı. Çənlər" (1953) və s əsərlər aiddir. Bu əsərlər kolorit zənginliyi, işıq kölgə effektləri və təbii işığın verilməsi xüsusiyyətlərinə malikdirlər. "Mavi dəniz. Neft daşları" adlı əsəri impressionizm cərəyanına xas xüsusiyyətlərdə verilmişdir. Əsərin kompozisiya quruluşu, perspektivin verilməsi maraqlı həll edilmişdir.Ön planda gəminin dalğaları yararaq hərəkət etməsi, tüstünün səmaya ucalması əsərdə dinamika yaradır. Digər əsərlərində olduğu kimi burada da insan surətləri arxa planda estakada da verilmişdir.

Bakı şəhərinin əsrarəngiz görüntülərini yaradan rəssamlardan biri Nadir Əbdürrəhmanov olmuşdur. Yaradıcılığında sərt realist üslub və miniatür ənənələrinə malik ifadə tərzi rəssamın fərdi üslubunun formalaşmasında mühüm rol oynamışdır. Rəssamın yaradıcılığında mənzərə janrı xüsusi mövqeyə malik olmuşdur. Onun təbiətə olan marağı şübhəsiz ki, anadan olduğu Qarabağın gözəl təbiətindən duyduğu, ilham

aldığı təəssüratların nəticəsi idi. Rəssam mənzərələrinə təbiilik, lirik əhval ruhiyyə bəxş etmişdir. Bakıya xüsusi sevgisi olan rəssamın bu mövzuya həsr olunan əsərlərindən "Gecə duracağı"(1945), "Bakı şəhərinin görünüşü"(1954), "Bakı bayram günündə" (1952), "Sənaye Bakısı"(1965) və s əsərlərini aid etmək olar. "Bakı şəhərinin görünüşü" adlı əsərində sahil kənarından şəhərin müəyyən bir hissəsinin görüntüsü təsvir olunub. Kompozisiyanın ön hissəsində insanların sahilkənarında əyləşərək istirahət etməsi və yelkənli qayıqların təsviri verilmişdir. Arxa planda açıq səma fonunda Bakının simvollarından olan Qız qalasının, kompozisiyanın sağ tərəfində isə Hökumət evinin təsviri yer almışdır. Olduqca real təsvir olunan mənzərəyə incə kolorit, lirik, romantik abu hava xasdır. Rəssamın əsərlərinə xas cəhətlərindən biri kompozisiyanın yuxarı baxış nöqtəsindən təsviri idi. "Bakı bayram günündə" adlı tabloda bu xüsusiyyətlər verilmişdir. Günün qürub vaxtı müəyyən hündürlükdə binanın eyvanından şəhərin ümumi görüntüsü verilmişdir. Əsər çoxfiqurlu kompozisiya sayılır. Rəssam burada perspektivdən və ritmik ardıcıllıqdan məharətlə istifadə etmişdir. İnsanların şəhərdə gəzintisi, maşınların hərəkəti əsərə dinamika verir. Ümumilikdə şəhərin cazibədar panoraması, təntənəli şəhər mühitinin nəbzi duyulur. Rəssamın özünəməxsus işıq, hava mühiti və rəng duyumu əsərlərinin əsas elementləridir.

Azərbaycanın realist rəngkarlığın ən parlaq nümayəndələrindən biri Tağı Tağıyev olmuşdur. Rəssamın digər janrlarda yaratdığı yaddaqalan əsərlərlə yanaşı mənzərə tabloları da xüsusi əhəmiyyətə malikdir. Bakı şəhərinin vedutası Tağıyevin yaradıcılığında nikbinliyi və ecazkarlığı ilə fərqlənir. Rəssamın Bakıya həsr olunmuş bir sıra əsərlərində Xəzər dənizinin möhtəşəm memarlıq abidələri ilə vəhdətini yaratmışdır. "Bakı limanı" (1946), "Bakı" (1947), "Dənizkənarı park" (1946), "Bakı sənaye mənzərəsi" (1950), "Dəniz" (1953), "Bakının dənizdən görünüşü" (1960), "İçərişəhər" (1970) və s adlı tablolar aiddir. "Bakı sənaye mənzərəsi" adlı əsərində rəssam dövrün tələblərinə uyğun olaraq şəhərin sənaye görüntüsünü yaratmağa müvəffəq olmuşdur. Şəhərdə sənaye müəssisələri, sürətlə hərəkət edən qatar, ətrafa bürünmüş tüstü , maşınların hərəkəti, küçədə olan insan izdihamı əsərə canlılıq verir. Digər əsər "Dənizkənarı parkda" açıq səma fonunda, günəşli havada şəhər sakinlərinin parkda gəzintisi təsvir olunmuşdur. Əsər çoxfiqurlu kompozisiya sayılır. Hər bir detal incə işlənilmişdir. İsti və soyuq çalarların vəhdəti əsərə xüsusi dinamika verir. Günəşin parlaq boyaları əsərə nikbinlik bəxş edir.

XX əsr boyakarlığında Bakının müxtəlif təsvirlərinə qadın rəssamlarımızın yaradıcılığında da rast gəlinir. Rəssamlarımızın yaratdığı hər bir əsərdə qadın zərifliyi, incəliyi duyulur. Maral Rəhmanzadə, Reyhan Topçubaçova, Vəcihə Səmədova, Elmira Şaxtaxtinskaya, Xalidə Səfərova kimi rəssamlarımızın yaradıcılığı xüsusilə seçilir. Mənzərəyə lirik əhval ruhiyyə gətirən Vəcihə Səmədova yaradıcılğında dəniz mənzərləri, Abşeron kəndlərinə həsr edilmiş bir sıra tabloları insan xoş təəssürat yaradan əsərlərdəndir. Belə əsərlərə "Buzovna" (1964), "Qəsəbə Zığ" (1957), "Zığ kəndi" (1954) vəs əsərlərini qeyd etmək olar. Bu əsərlərdə Abşeron kəndlərinə xas kiçik bağ evləri, dəniz, sarı qumsal torpağın təsvirləri ümumi Abşeron mühitini canlandırmışdır.

İncə duyuma malik olan rəssam Xalidə Səfərovanın yaradıcılığında əsasən mənzərə janrınına müraciət etmişdir. Rəssamın mənzərə əsərlərinin impressionist xüsusiyyəti insanda xoş ovqat yaratmasıdır. Mənzərə təsvirlərində Xəzər dənizi əsas motivlərdən biri idi. Neft mədənlərinə səfərləri zamanı burada çalışan neftçilərin obrazlarını yaratmışdır və gördüyü hər bir səhnəni incə duyumla təsvir etmişdir. 1980-ci ildə yaratdığı "Sərbəstlik" adlı əsərdə Bakı şəhərinin ümumi panoraması verilmişdir. Bir tərəfdən sakit mavi suları ilə göz oxşayan Xəzər dənizi, digər tərəfdən isə Bakı şəhərinin mühüm tikililəri yüksək baxış bucağından təsvir edilmişdir.Göyərçinlərin səmada uçuşu sülhə, asayişə bir işarədir. Kompozisiyada mavi tonların üstünlüyü əsərə lirik, nikbin xoş əhval ruhiyyə aşılayır.

Bakı təsvirlərinə Tofiq Ağabəyovun "Bakı", "Köhnə Bakı hamamı" (1997), "Abşeron kəndi", Elbəy Rzaquliyev "Bakı mənzərəsi. Xan sarayı" (1972), Mahmud Tağıyev "Bakı tiklir" (1960) , Səttar Bəhlulzadə "Xəzərdə axşam" (1969), Əyyub Hüseynov "Bakının görüntüsü" (1965), adlı əsərləri görkəmli rəssamların yaradıcılığında əsk olunmuşdur.

Artıq XX əsrin II yarısında təsviri sənətdə "Sərt üslub" və "Abşeron məktəb" adlı iki aparıcı istiqamətlərin formalaşması rəssamların yaradıcılığında zəngin mərhələyə yol açmışdır. Azərbaycan təsviri sənətində "Sərt üslubun" yaranması Tahir Salahovun adı ilə bağlıdır. Rəssamın "Səhər eşalonu"(1958) adlı əsərində sənaye Bakımızın səhər canlanan həyatını əks etdirmişdir. Maşınların hərəkəti, körpünün üstündən keçən neft daşıyan qatarın keçməsi əsərə dinamika verir. Kompozisiyada təbii günəş işığının verilməsi əsərə parlaqlıq bəxş edir.

Bu üslubda bir çox rəssamların yaradıcılığında rast gəlmək olar. Bu rəssamlardan Nadir Qasımov və Tofiq Cavadovu qeyd etmək olar. Nadir Qasımovun yaradıcılığında Bakı və Abşeron təsvirləri xüsusi diqqət mərkəzində olmuşdur. Əsərlərində sənaye təsvirləri, neftçilərin obrazları, xüsusilə Xəzər dənizinin müxtəlif görüntülərini yaratmağa nail olmuşdur. Xəzər dənizinin gah sakit, romantik abu havada, gah da coşqun anında təsvirlərini yaratmışdır. "Dəniz coşur" (1975), "Xəzər axşamçağı"(1987), "Xəzərin küləyi" (1990),

“Xəzər 1990 –cı il 20 yanvar”, “Polad ada” (1975), İliç Buxtası (1969) və səsərlərini qeyd etmək olar. Sənaye mənzərlərində zəhmətkeş insan və onun əməyi romantik formada təqdim edilmişdir.

Neft mövzusunda işlənilmiş ilk böyük həcmli panno-tablo olan “Növbədən qayıdanlar” (1958-1959) adlı əsərin müəllifi Tofiq Cavadov olmuşdur. Bu əsərdə ilk dəfə olaraq neftçinin əməyinin poetik ifadəsinin tam əksi olaraq real ağır fəhlə əməyinin təsviri verilmişdir. Kompozisiyanın ön planında neftçilərin obrazları yorğun, deformasiyaya uğramış üz cizgiləri, arxa planda isə neft daşları əks olunmuşdur. Bu vaxta qədər neftçilərin əməyi qürurverici, müsbət hal kimi dəyərləndirilirdisə, bu əsərdə artıq bu əməyin nə qədər ağır və yorğun bir iş olduğunu nəzərə çatdırmışdır. Əsər sərt, dramatik , ekpressiv bir təsir bağışlayır. “Çənlər”, “Sənaye mənzərəsi”, əsərləri məhz sənayeni əks etdirən təsvirlərdir. Rəssamın Abşeron mənzərələri də olduqca dekorativ və şux görünüşə malikdir. Rəssamın “Buzovnada küçə” (1958) adlı əsərində Abşeron mənzərəsinə yeni həyat vermişdir. Kompozisiya canlılığı, həyatiliyi ilə fərqlənir. Əsərdə isti soyuq çalarların istifadəsi, insanların yol boyunca hərəkəti dinamika və dekorativlik yaratmışdır.

Azərbaycan incəsənətində novator avanqard rəssamı, “Abşeron rəssamlıq məktəbinin” əsasını qoyan Cavad Mircavadov olmuşdur. Bu istiqamətin nümayəndələri Bakı ətrafı kənd və qəsəbələri gəzərək insanların həyat və məişətini təsvir edirdilər. Bu rəssamlardan Tofiq Cavadov, Kamal Əhməd, Rasim Babayev, Fərhad Xəlilov, Nazim Rəhmanovu və b. qeyd etmək olar.

Özünəməxsus bədii üslubu olan rəssamlarımızdan biri də Fərhad Xəlilovdur. Rəssamın Abşerona xüsusi rəğbətini onun yaratdığı əsərlərdə görürük. Əsərlərinin əsas obyektləri dəniz, ağaclar, sahil, qayalar və səmadır. Onun mənzərə əsərlərinə “Goradildə” (1966), “Mənzərə” (1975), “Qədim tut ağacı” (1967)”, Dənizə gedən yol” tablolarını qeyd etmək olar. Əsərlərinə dekorativ rəng həlli, ritm, şərti bədii formalar xasdır. O, yaratdığı əsərlərinə bədii anlam verir.

Abşerona aid bir neçə silsilə əsərlər yaradan rəssam Kamal Əhməd yaradıcılığında bu tablolar gərgin abu havası ilə fərqlənir. Xüsusilə Goradilə aid bir sira silsilə təsvirlər yaratmışdır. “Goradil”(1980-1985) silsilə əsərlərində fon əsasən qara rəngdə təsvir olunmuşdur. Dekorativ çalarlar kompozisiyada gərgin kontrast yaradır.

“Abşeron məktəbinin” yaranması rəssamların yaradıcılığında yeni istiqamətlərə yol açdı və müasir dövrdə fəaliyyət göstərən bir çox rəssamlarımızın yaradıcılığında ilham mənbəyi olmuşdur.

Nəticə

XX əsr Azərbaycan rəngkarlığında rəssamlarımızın yaradıcılığının formalaşmasında milli ənənələrlə yanaşı Avropa rəssamlıq sənətinin ənənələri xüsusi rol oynamışdır. Mənzərə janrında real təsvirlər üstünlük təşkil edirdi. Bakı şəhərinin müxtəlif mənzərələrini rəssamlarımız öz əsərlərində yaratmışlar. Bu əsərlərin hər biri doğma şəhərimizin tarixi haqqında dolğun təsəvvürlər yaradır.

Ədəbiyyat:

1. Azərbaycan incəsənəti. Rasim Əfəndi. Bakı. Şərq-Qərb 2007.160 s.
2. Azərbaycan Sovet Rəssamlığı. Nurəddin Həbibov. Bakı, 1966. 186 s.
3. XX əsr Azərbaycan Boyakarlığının inkişafı. Xanım Əsgərova.Bakı, 2015. 187 s.
4. Nadir Əbdürrəhmanov. G.Qacar. Şərq-Qərb. Sərvət. Bakı, 2013. 104 s.
5. Xalidə Səfərova. X.Əsədova. Şərq-Qərb. Sərvət. Bakı, 2013.104 s.
6. Azərbaycan SSR-nin incəsənəti. Mürsəl Nəcəfov. Leninqrad, 1972.28 s.

Baku topic in XX century Azerbaijani painting

Summary

In XX century Azerbaijan Fine Arts a special attention was paid to Baki images . Artists created both historical and architectural monuments of Baki and its industrial images. This article also gives an important analyses of pictures depicting Baki in XX century Azerbaijan Fine Arts.

Тема Баку в азербайджанской живописи XX века

Резюме

В Азербайджанской живописе XX века большое внимание была обращено изображениям Баку. Азербайджанские художники создавали образы историко-архитектурных монументов Баку, также его индустриальные образы. В данной статье дан анализ многих живописных художественных произведений, изображающие виды Баку, созданных в XX веке.

DOI: 10.36719/2020/REK/01/242-244

Emil Raul oğlu Ağayev
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
emilaghayev93@mail.ru

ASİF AZƏRELLİ YARADICILIĞINDA MİNİATÜRA ƏNƏNƏLƏRİ

Açar sözlər: *Asif Azərelli, miniatüra, ənənə, rəng, təsviri incəsənət*
Key words: *Asif Azerelli, miniature, tradition, color, fine art*
Ключевые слова: *Асиф Азерелли, миниатюра, традиция, цвет, изобразительное искусство*

Giriş

Çağdaş bədii proseslərin mürəkkəb, bir az da nizamsız və təzadlı inkişafı axarında bəzən elə bir qüvvə tapılır ki, tamaşaçı diqqətini cəlb edərək, onu valeh edir. Çünki müasir tamaşaçı daha ecazkar və düşündürücü lövhələrdən həzz almağa çalışır. Görkəmli fırça ustası, Azərbaycanın əməkdar rəssamı Asif Azərelli (Rzayev) də məhz belə bir bədii qüvvəyə malik olan sənətkarlarımızdandır. Rəssamın yaradıcılığı onun iç dünyasıdır, hər bir sənətkar öz mövqeyi ilə fərqlənməlidir.

Asif Azərelli yaradıcılığında miniatüra ənənələri.Müasir dünya incəsənətində baş verən "yeni inqilablar" rəssamlarımızın bir çoxuna təsir etdi. Əsrin əvvələrində Leyla Axundzadənin "Kanseptual layihələri" bizləri ənənəvi, maraqlı, mürəkkəb sənət əsərlərindən bir müddət ayrı saldı. Buna baxmayaraq 2008 və 2010-cu illərdə təşkil olunan "Şərqdən-Şərqə" sərgilərinin təşkili isə miniatüra üslubuna hələ də kifayət qədər maraq göstərənlərin çox olduğunu göstərdi. A.Hacıyev, A.Hüseynov, E. Aslanov, O.Hüseynov kimi rəssamların rəngkarlıq və qrafika əsərlərində qədim üsluba yeni və müasir görkəm vermək istəyinin qabarıqlığı göstərdi ki, dünyanı-gerçəkliyi miniatür ənənələri ilə bədiiləşdirmək potensialı nəhayətsizdir. Bu bir daha onu göstərir ki, miniatüra üslubu daimidir, üsıubların şahı kimi ölməzdir.[2,s 30]

Miniatüra üslubunun təsirini Asif Azərellinin əsərlərində də aydın hiss etmək olar. "Keçmişimizdə seriyası" (2000) silsiləsinə daxil olan "Ovda" əsərində iki gənc oğlan at belində cayran ovuna çıxıblar . Məkan, obrazların quruluşu, ceyranların qaçışı rəssam tərəfindən əsərdəki hadisələr tam, dolğun şəkildə çatdırılmışdır.Sanki gözümüzün qarşısında məşhur miniatürçü rəssam Soltan Məhəmmədin ov səhnələri canlandırılır.

2006-ci ildə Rusiyanın Kirov şəhərində yerləşən restoranlardan birində sənətkarın milli adət-ənələrimizi özündə nümayiş etdirən rospislərinidə qeyd etməliyik. Bir-birindən maraqlı divar rəsmlərində Azərbaycan xalqının incəsənəti canlandırılmışdır. Rospislərin birində İlanlı dağ önündə məşhur Naxçıvan yallısını bir qrup gənc oynayırlar. Memar Əcəminin Möminə Xatun türbəsi, bulağdan su üçün gələn bir qrup gənc qız və onlara baxan oğlanların sevgiləri xalqımızın adət-ənənələrini bir kompozisiya daxilində tamaşaçılara çatdırır. Üzeyir Hacıbəylinin " O olmasın, bu olsun" operettasından fraqmentlər, qədim Bakının memarlığı, qala divarları, çövkən oyunu digər rospislərin birində fraqmentlər şəklində birləşdirilmişdir. Azərbaycan xalqının toy adət-ənənəsi,milli geyimlər, koloritin şuxluğunun təsviri də rəssam tərəfindən unudulmamışdır.Nizaminin "Yeddi gözəli"əsərinin motivləri miniatüralarımızda tez-tez rast gəlinən mövzulardandır. Asif Azərelli bu əsərə yeni bir nəfəs gətirmişdir. Muğam ifa edən trio, ön planda isə Mirzə Qədim İrəvaninin "Gənc oğlan" və "Gənc qız" əsərinin repraduksiyası rəssamın milli dəyəyərlərimizə, xalqımızın mədəni sərvətinə yaxşı bələd olmasının nümunəsidir. Rusiyanın Kirov şəhərində yerləşən restoranda Azərbaycan abu-havası rospislərin vasitəsilə qonaqları ölkəmizin tarixini, mədəniyyət və incəsənəti ilə bir daha tanış olmasına gətirib çıxarır.

Azərbaycan rəngkarlığnda mühüm yer tutan ikonoqrafik obraz və süjetlərdən biri də Qarabağın məşhur Xan qızı Natəvandır. "Natəvan hədiyyəlik Qarabağ atı seçir" əsərində sarayda fransız yazıçısı Aleksandr Dümaya Qarabağ atının hədiyyə edilməsi, saray əyanlarının qonağa ehtiramı, tarixi diyarımızın geyimlərinin təsviri milli mənəvi dəyərlərimizin rəng vasitəsilə çatdırılmasına xidmət edir.

Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətaiyə həsr edilən əsərlərdə də miniatüra üslubunun ənənələrini görə bilərik. Öz qoşunu ilə hərbi geyimdə, at belində, Xüdafərin körpüsü önündə döyüşə hazırlaşan Şahın baxışları vətənpərvər hissləri aşılayır. Digər bir əsərdə isə Avropalı qonaqların sarayda qəbulu, rənglərin axıcılığı, ritmik olaraq təkrarlanması miniatüralarımıza xas olan kompozisiya quruluşlarında tam dolğun şəkildə əhatə olunmuşdur.

Əməkdar rəssam Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu aktual olaraq bu gündə yeni daha maraqlı kompozisiyalarla zənginləşdirilir."Şuşanın gözəl günlərindən biri" (2019) əsərində yenidən tarixi torpağımızda əhalinin məişət həyatını əks etdirən sənətkar burada baş verən hadisələri tematik tablo kimi canlandırır. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi, mədəniyyət mərkəzinə

çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin, muğamının beşiyi" və "Zaqafqaziyanın musiqi konservatoriyası" adlandırırdılar.

Monumetal boyakarlıq ənənələrinə xas olan xüsusiyyətləri özündə birləşdirən əsərdə xalqın məişət, geyim tərzi, estetik ruhunu duya bilərik. Şuşanın qədim evləri, gözətçi məntəqəsi tarixi diyarımıza bir daha rəssamın əsəri vasitəsilə bizləri səyahət etməyə maraq göstərir.Arxa fonda cavanlar özlərinə ov quşu və qılınc seçir.

Ata öz gənc qızlarına cehizlik Şuşa xalçasını göstərir. Şuşa xalçaları xovunun daha da hündür olması, əlvan, şux koloritli, çox nazik, incə, zərif xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Bu qrupa daxil olan xalçalarının tarixi XVIII əsrin ikinci yarısına, Şuşanın təsis edilməsindən sonrakı dövrə təsadüf edir. XVIII əsrin ikinci yarısından etibarən Qarabağın xalça istehsalı əsasən mərkəzi Şuşa şəhərində inkişaf edir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə mədəniyyət paytaxtı XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi,təmtəraqlılığı,rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud" xalçaları və "Dəst xalı-gəbə" kimi xalça dəstləri burada toxunub.

Oxumuş insanın özünə çıraq seçməsi, ustanın dəmir düzəltməsi tarixi şəhərimizdə müxtəlif sənət növlərinin inkişafını bir daha sübut edir. Əsərdə geyimlərin təsviri obrazların parlaqlılığını bir daha vurğulayır.

Azərbaycanın, eləcə də Qarabağın zəngin maddi mədəniyyət irsinin araşdırılması kontekstində geyimlərin və bəzəklərin özünəməxsus yeri vardır. Uzun sürən tarixi inkişaf prosesinin məhsulu olan geyim mədəniyyəti yerli təbii-coğrafi şəraitin, əhalinin təsərrüfat məşğuliyyətinin istiqamətinin, sosial-iqtisadi inkişafın gerçəkliyini, sosial təbəqələşmə və ictimai fərqlərin, eləcə də xalqımızın etno-sosial birliyində qərarlaşan, birlikdə yaşadığı etnoslarla qarşılıqlı təmas, etno-sosial, etno-siyasi və etno-mədəni əlaqələrin yaratdığı müştərək zənginləşmənin fəal təsiri altında formalaşmış və inkişaf etmişdir.

XIX-XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi qadın geyimləri özünün parlaq rəng əlvanlığı, biçim tərzi və tikiş üslubunun mürəkkəbliyi, eləcə də tip və formalarının fərqli olması ilə seçilirdi. Qarabağın milli qadın geyimləri tarixən «alt paltarı» və «üst paltarı» olmaqla iki əsas variantda mövcud olmuşdur. Qadın alt köynəkləri tuniki biçim üslubunda tikilib, əldə toxunan ,satınalma pambıq və zərli ipək parçalardan tikilirdi. Üst geyim tiplərinin əsas elementlərindən biri üst köynəyi hesab olunurdu. Onu tuniki və ya kəsmə (doğrama) biçim üsulu ilə tikərək, qollarının ağzını bilərzikli və ya yelpazəli hazırlayır, qoltuğunun altına isə fərqli parçadan incə xiştək (qoltuqaltı) qoyurdular. Qarabağ qadın köynəklərinin boyun hissəsi həm boyunduruqlu («dik yaxa»), həm də boyunduruqsuz olurdu.Məşhur baş geyimləri ilə öz şöhrətini qazanan bu bölgə geyim mədəniyyətimizin inkişaf tarixini bir daha sübut edir.[3]

XIX-XX əsrin əvvəllərində Qarabağ əhalisinin ənənəvi kişi geyimləri öz biçim üsuluna və tikiş texnikasına görə ümumazərbaycan və hətta ümumqafqaz səciyyəsi daşıyaraq, yalnız çox da böyük əhəmiyyəti olmayan lokal-məhəlli xüsusiyyətləri ilə seçilirdi. Kişi üst köynəkləri əsasən şilə, qədək, çit, fay, qanovuz, atlas, mahud, məxmər parçalardan biçilib tikilirdi. Ənənəvi kişi baş geyimləri müxtəlif növ materiallardan (dəri, keçə, parça) hazırlanmaqla bərabər, həm tikili, həm də bağlama formasında olmuşdur. Bəhs olunan dövrdə Qarabağ əhalisinin yaşından asılı olmayaraq bütün kişiləri başlarına təmiz dəridən hazırlanan papaq geyirdilər. Bir qayda olaraq yaşlı nəslə mənsub olanlar uzun, 8 girvənkə ağırlığında konusşəkilli formadan, ucu şiş, cavanlar və uşaqlar isə «qarabağ fasonlu» yüngül, dairəvi papaqlar geyirdilər.[3]

Əsərin maraqlı məqamlarından biri isə eyvandan gülləri sulayan gənc qızın öz işini görməsi yoxsa cavan oğlanla sevgi dolu baxışları tamaşaçıda sual doğurur.Milli ənənələr, geyimlərimiz, cavanlı-qocalı Şuşa əhalisinin yaşayışının gözəl günlərindən birini Asif Azərelli vətənpərvər rəssam kimi bir daha çatdırmışdır.

Nəticə

"Asif Azərelli yaradıcılığında miniatüra ənənələri" tezisində sənətkarın yaradıcılığına miniatüra üslubunun təsiri olan əsərlərin təhlili verilmişdir.Dərin köklərə malik olan miniatüra ənənələrimiz bu gündə rəssamlarımız tərəfindən yaşadılmalı və bir-birindən maraqlı əsərlər yaradılmalıdır.

Ədəbiyyat

1. Ağayev E. "Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu", Elmi əsərlər jurnalı № 27, ADMİU 2019, s 110-113
2. Əliyev Z. "Miniatüra üslubu yeni bədii təmayüllərin yaranması kontekstində", "Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu" III respublika elmi-nəzəri konfransının materiallar toplusu, 19-20 dekabr 2019 ADMİU, s 29-37
3. Qarabağ geyimləri, Kataloq 2016

Miniature traditions in Asif Azerelli's work
Summary

The history of miniature traditions goes back to ancient times. If we take into account the processes taking place in modern times, we can see our national traditions in the works of many of our artists in our fine arts. We can follow the traditions of miniatures in the works of Asif Azerelli. This article examines the miniature traditions that influenced the work of Asif Azerelli and analyzes the works.

Миниатюрные традиции в творчестве Асифа Азерелли
Резюме

История миниатюрных традиций восходит к древним временам. Если мы примем во внимание процессы, происходящие в наше время, мы сможем увидеть наши национальные традиции в работах многих наших художников в нашем изобразительном искусстве. Мы можем следовать традициям миниатюр в творчестве Асифа Азерелли. В этой статье рассматриваются миниатюрные традиции, повлиявшие на творчество Асифа Азерелли, и анализируются произведения.

DOI: 10.36719/2020/REK/01/244-249

Günay Nizami qızı Qafarova
Azərbaycan Turizm və Menecment Universiteti
gunay_gafarova@mail.ru

İSLAM VƏ TƏSVİRİ SƏNƏT

Açar sozlar: *islam, miniatur, Məhəmməd peygəmbər, Təbriz miniatur məktəbi, Mirac*
Key words: *Islam, Miniature, Prophet Muhammad, Tabriz Miniature School, Mirac*
Ключевые слова: *Ислам, миниатюра, Пророк Мухаммед, Тебризская миниатюрная школа, Мирадж*

İslam ölkələrinin mədəniyyəti əsrlər boyi tarixçilərin, din xadimlərinin, səyyahların marağına səbəb olub. XIX əsrin sonundan - XX əsrin əvvələrindən başlayaraq bu maraq daha da genişlənmişdir. Parisdə, Londonda islam ölkələrində yaranan sənət nümunələrinin sərgiləri təşkil olunurdu, böyük pul sahibləri bu nümunələri alaraq öz şəxsi kolleksiyalarını təşkil edirdilər. Eyni zamanda dünyanın iri muzeyləri öz kolleksiyalarını zənginləşdirərək bu sənət əsərlərini toplamaqla yanaşı qoruyub saxlayırdılar və müntəzəm olaraq araşdırırdılar. Araşdırmalar maraqlı nəticələrə gətirib çıxartmışdır.

Biz bilirik ki, islam mədəniyyətinin incəsənət növlərinə özünə məxsus baxışları var və bu sahənin bəzi növləri müsəlman ölkələrində yayılmayıb. Bunların arasında heykəltaraşlıq və boyakərlıq xüsusi yer tuturdu.

İslam mədəniyyəti memarlığın, miniatür sənətin, xəttatlığ və dekorativ-tətbiqi sənətin inkişafına nail olmuşdur. M.Piotrovskiy qeyd edir ki, islam incəsənəti abstrakt anlıyışa daha çox meyl göstərir və zaman keçdikçə onun məna dairəsi genişlənir. [15] Misal kimi, məsçidləri qeyd eləmək olar. İlk olaraq onlar ibadət yeri, sonralar isə dini məktəblərə və elm mərkəzlərinə çevrilmişdilər. İslam dünyasının tanınmış alimləri, filosofları, şairləri burada təhsil almışlar.

Əgər elm, fəlsəfə, musiqi sənəti müsəlman ölkələrində geniş yayılmışdısa, təsviri sənət uzun müddət sirli və gizli bir sənət kimi qalmaqda idi. Orta əsrlərdə belə bir fikir irəli sürülmüşdü ki, təsvir islam dini tərəfindən qadağan olunub və bu fikir xadislərdə öz əksini tapmışdır. Təsvir böyük bir günah kimi qəbul olunurdu, rəsm çəkən isə cəhənəm odunda yanmağa layiq görülürdü. Lakin, islamın yayıldığı bir dövrdə təsviri sənət şah kitabxanalarında geniş yayılmağda idi. Misal kimi, Herat və Təbriz şah saraylarını qeyd eləmək olar. Bununla yanaşı 8-9 əsrlərdə yaradılmış sənət nümunələri tapılmışdır. Onlar əsasən ərəb-mesopotam məktəbinə aid edilir. Təsviri sənət kimi təqdim olunan bu sənət növü geniş kütlələrə miniatür sənəti kimi tanışdır. Bu ad ona avropa alimləri tərəfindən verilmişdir və onun kiçik ölçüləri ilə bağlıdır. Məhz avropa alimləri qeyd ediblər ki, müsəlman ölkələrində rəsmə qadağa olsa belə, bu qadağaya bütün ölkələrdə və dövrlərdə riəyyət olunmayıb. Bu fikir ilkin araşdırmalara aid idi. Sonra ki araşdırmalar göstərdi ki, qadağa Quranda yalnız heykəllərə və bütlərə ail edilib, rəsm və rəssamlar həqqında heç bir fikir qeyd olunmayıb. Biz o surələri aşağıda göstəririk:

(34)13. *Onlar Süleyman üçün nə istəsə - məbədlər, uca qəsrlər,* ***heykəllər,*** *(min nəfərdən ibarət qonağın və qoşunun birlikdə oturub yeyə biləcəyi) böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar*

düzəldirdilər. Siz ey Davud ailəsi! (Allaha) şükranlıqla itaət edin! (Bu nemətə şükr din!) Bəndələrimdən (nemətlərimə) şükr edəni azdır! [1; 9]

(40) ***66.*** *(Ya peyğəmbər!) De ki: «Rəbbimdən mənə açıq aşkar dəllilər gəldiyi zaman sizin Allahdan qeyri tapındıqlarınıza* ***(bütlərə)*** *ibadət etmək mənə qadağan olunmuş, ancaq aləmlərin Rəbbinə təslim olmaq buyurulmuşdur!». [1; 9]*

İlk dəfə bu fikiri sənətşunas Ə.Minai açıqlamışdır, sonralar bu fikirə türk alimləri Yetkin Kamal və professor Inalda qatılmışdılar. Ə.Minai qeyd edirdi ki, «din xadimləri istinad etdikləri Quranın (Əlmaidə) surəsinin (Ənsab) sözündən yanlış nəticələr çıxarıb rəsm sənətinin qarşısını almağa cəhd göstəriblər. [2; 4; 5; 14; 15]

Qeyd eləmək lazımdır ki, bu sahədə elmi araşdırmalar XX əsrin 50-80 illərində başlanmışdır. Xarici alimlər arasında B.Qreyin, E.Ditsin, G.Künelin, T.Arnoldın, Q.Robinsonun əsərlərində öz əksini tapmışdır. Lakin onlar rəsmin mövcudluğunu səhv olaraq şiyəliklə bağlayırdılar. Rus və azərbaycan alimləri - B.Denikin, B.Veymarn, T.Puqaçenkova, Ş.Şukurov, A.Qaziyev, A.Minai, K.Kerimov, M.Nəzərli bu fikri yanlış sayaraq bildirirlər ki, qadağa xədisdə qeyd olunduğundan ona o qədər də riəyyət olunmurdu.

Alimlər qeyd edirlər ki, bizim dövrə qədər gəlib çatmış elmi traktatlarda bütün rəsm prosesləri, təsvir qaydaları, boyaların tərkibi və rəssamların adları dəqiq qeyd olunub. Xüsusi maraq Dust Məhəmmədin və Sadiq bəy Əfşarın əsərləri kəsb edir. Rəsmin yaradılmasına baxmayaraq onlar ümumi qaydada çəkilir və bir bədii formaya tabe olur.

XV-XVI əsrlərdə yaradılmış Azərbaycan Təbriz miniatürləri yuxarıda qeyd olunan faktora tam şəkildə çavab verir. Onların üslubu uyğür məktəbinə yaxındır, bədii tərtibatının gözəlliyinə isə heç bir məktəb yaxınlaşa bilməyib. Onə gərə də Təbriz miniatürləri dünya muzey kolleksiyalarının incisi sayılır. Miniatürlərin böyük bir qismi Nizaminin «Xəmsə», Sədinin «Bustan», Firdousinin «Şahnamə» və digər əsərlərə çəkilmişdir. Miniatürlərdə qrafik üsul istifadə olunub. Zərif, axıcı kontur xətti, plastik və ifadəli rəsm təsvir vasitəsinin əsasını təşkil edir. Rəng bədii formanı qurub yaratmaqdan daha çox dekorativ mahiyyət daşıyır. Parlaq, lokal rənglərin kontrastlıq yaradan düzümü və ritmik təkrarlanmasına əsaslanan zəngin koloriti miniatürlərin əsrarəngiz gözəlliyini, emosional təsir qüvəssini daha da artırırdı.

Təbriz miniatür məktəbinin bünövrəsini Səfəvi dövlətinin banisi şair, sənətsevər və sərkərdə Şah Ismail və onun oğlu Şah Təhmasib tərəfindən yaradılıb inkişaf etdirilmişdir. Saray kitabxanasında və emalatxanasında Şərqin görkəmli sənətkarları fəaliyyət göstərmişlər. Burada dövrün məşhur ustadları Behzad, Soltan Məhəmməd, Mir Müsəvvir, Mir Seyid Əli, Mirzə Ali, Müzəffər Əli kimi istedadlı rəssamlar işləmişlər.

Bir qrup alim Behzadı Təbriz məktəbinin banisi sayır, digərləri isə Soltan Məhəmmədin adını qeyd edir. Hər iki tərəf öz arqumentlərini irəli sürürlər. Lakin Behzad 1522-1524/6-ci illərdə kitabxana rəisi işləyib. Onun Təbrizdə yaranan əsərlərinin sayı cüzidir və onlar ümumi Təbriz məktəbinin üslubundan qəti sürətdə seçilir. Soltan Məhəmmədin imzalı əsərləri 5-10 arası olsada, bu məktəbin bədii üslub tələblərini tam şəkildə əks etdirir. Dövrün tarixçiləri də qeyd edirlər ki, Şah Təhmasib taxta çıxan kimi, öz müəllimi və ustadı olan Soltan Məhəmmədi kitabxana rəisi təyin edir. Rəssam bu vəzifəni ömrünün sonuna kimi icra edir və adları yuxarıda qeyd olunan rəssamları yetişdirir. [2: 4: 5: 8; 14: 15]

Məhz Soltan Məhəmmədin və onun tələbələrinin əsərlərində şux və təntənəli dekorativ formadan, dərin emosional təsir qüvvəsinə malik təsvir vasitələrindən istifadə olunurdu. [8]

Misal kimi bir neçə miniatürun təsnifatını vermək istərdim.

Soltan Məhəmməd «Sam Mirzənin saray məclisi» adlı miniatürünü yaradıb. Süжet Hafizin qəzəlinə çəkilmişdir və burada şer və musiqi məclisi təsvir olunur. Rəssamın digər «Meyxanada» əsərində yenidən Hafizin qəzəllərindən istifadə olunmuşdur. Miniatürdə şiddətli sərxoşluq, eybəcər kef məclisi təsvir olunur.

Sərxoşluqla bağlı Quranın ***Əl-Maidə («Süfrə») surəsində*** xüsusi qeydlər var:

---

90. *Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə niçat tapasınız. [1; 9]*

91. *Şubhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı? [1; 9]*

Bu fakt onu təsdiqləyir ki, miniatür sənəti Quranın əsaslarını öz təsvirlərində özünə məxsus tərzdə əks etdirməyə çalışırdı.

Marağlı bir faktıda qeyd eləmək lazımdır ki, binanın damında mələklər təsvir olunub.

Bədii süжetlərlə yanaşı şahzadəlirn, gənc oğlan və qızların təsvirləri də işlənilirdi. Onlar ümumi qaydada tərtib olunurdu. Rəssam surət təsvirini ümumi qaydada işləyirdi, diqqət bədii tərtibata yönəldilirdi. Alimlər bu tip obrazları «ay bəniz» və yaxud «ay çöhrəli» adlandırırlar. Soltan Məhəmmədin bir neçə əsəri bu tipdə çəkilib. Onların arasında «Oxuyan oğlan», «Şah şahinlə» minitürlərin adını çəkmək olar.

Bu məktəbin digər nümayəndəsi olan Mir Səyid Əlinin əsərini qeyd etmək lazımdır. «Məcnun Leylinin çadırı qarşısında» adlı miniatürdə sevgililərin faciəli iztirabları ilə dolu dramatik süжet köçərilərin həyatına aid gündəlik məişət səhnəsi fonunda kiçik bir epizod kimi göstərilir.

Bu sahəni araşdıran alimlər yazırlar ki, Təbriz miniatür məktəbinin rəssamları öz əsərlərində adi həyatda baş verən hadisələrdən və elementlərdən istifadə edirdilər.

Bu dövrün digər təmsilçisi Ağa Mirək olmuşdur. Onun məşhur əsərlərindən biri «Məcnun səhrada» adlanır. Məcnun səhrada müxtəlif vəhşi və yırtıcı heyvanlarla əhatə olunmuş halda yaşayır. Onların qorxusundan heç kəs Məcnuna yaxınlaşa bilmir. Onun heyvanlarla olan dostluğu getdikcə möhkəmlənir. Miniatürdə vəhşi heyvanlar çox canlı göstərilmişdir. Bu fakt, rəssamın heyvanları canlı müşahidə etdiyini təstiqləyir.

Miniatür əsərlər, adətən, ədəbi, tarixi mövzulu yazı nümunələrinə çəkilirdi, sonralar bu siyahıya Şahnamə süжetləri də əlavə olunmuş. Bunlarla yanaşı orta əsirlərdə «Merac - namə» və imamların həyatından danışılan əlyazmalar da həsr edilmiş əlyazmalar tərtib edilirdi. Lakin, adı çəkilən əlyazmalara aid tədqiqatlarda çox vaxt Peyğəmbərə (s) və imamlara aid miniatürlərdən yan keçilirdi və onları ötəri işıqlandırırdılar. Son zamanlar bu sahədə aparılan araşdırmalar yeni, maraqlı miniatür təsvirlərinin üzə çıxmasına səbəb olmuşdur.

Miniatürlərdə Məhəmməd peyğəmbərin (S) və imamların həyatına həsr olunmuş əsərlər xüsusi maraq doğurur. Bu əsərlər XV-XVI əsrlərdə yaradılıb və geniş tamaşaçılar auditoriyasını çıxarılmayıb, onların bəzilərindən söz açmaq istəyirik.

Orta əsr mənbələrində qeyd olunur ki, «Merac namə» adlı əlyazmasının tərtibatını tanınmış rəssam Əhməd Musa işləmişdir. «Merac namə»-də Peyğəmbərin (s) həyatıyla bağlı səhnələr, təsvir edilmişdir. Əlyazmaya çəkilmiş miniatürlər bədii dəqiqliyi ilə, fiqurların dolğunluğu ilə, dekorativ elementlərin az olmasıyla seçilir.

Lakin hazırda bu miniatürlər müxtəlif albomlarda saxlanılır. Onların hamısı Ilhanilər dövründən sonra çəkilmişdir. Adıçəkilən əlyazmadaki miniatürlərinin bəzilərində Əhməd Musanın adı yazılıb. Miniatürlərin mövzuları çox maraqlıdır. Onların arasında «Peyğəmbərin (s) dağ üzərindən uçması» və «Mələk Cəbrayılın Məhəmməd peyğəmbərə hədiyyə etdiyi şəhər» adlı miniatürləri qeyd etmək olar.

Mələklərin üz cizğiləri uyğur məktəbinə daha yaxın sayıla bilər, geyimlər isə Şərq aləminə xas olan biçimdədir. Xüsusi qeyd etmək lazımdır ki, Məhəmməd peyğəmbərin (s) üz cizgiləri təsvir edilsə belə, onun üzünü ağ örtük (duhaq) örtür, onun vücudunun ətrafında əksər hallarda alov təsvir edilirdi, libası isə yaşıl və yaxud göy rənglə ifadə olunurdu.

Allahın Rəsulunun (s)müxtəlif dövrlərdə çəkilmiş təsvirləri bir birindən fərqlənir. İlk miniatürlərdə onun üz cizgiləri təsvir edilirdi, bu təsvirlər XIV-XV əsrlərdə yaradılıb. Qeyd etmək lazımdır ki, Quranda insan təsvirə qarşı heç bir qadağa haqda məlumat qeyd olunmayıb. (1: 9 - 3:49; 5: 90-91; 6: 75,80 ; 17:72; 34:12-13 ; 38: 25; 40:66). Qadağa büdlərin (ənsabların) yaradılmasına şamil edilmişdir.

«Mələk Cəbrailın Məhəmməd peyğəmbərə (s) hədiyyə etdiyi şəhər» adlı təsvir maraqlı miniatürlərdəndir. Peyğəmbər (s) kürəkəni Imam Əliylə (v.a), nəvəsi Həzrət Hüseynlə (v.a.) və digər silahdaşlarıyla dağın ətəyində oturub söhbət etdiyi anda göyin bir hissəsini iri qanadlı mələk örtür. Diqqətlə baxandan sonra Məhəmməd peyğəmbər (s) və onun həmsöhbətçiləri mələk Cəbrayili görürlər. Mələk əlindəki Mədinə şəhərinin maketini Allahın Rəsuluna təqdim edir. Rəvayətə görə, bu allah tərəfindən peyğəmbərə (s) nazil olunmuş ilk müsəlman şəhəridir. Bu şəhərin ilk adı Yasriba olmuşdur.

Orta əsr miniatürlərində Məkkə şəhərinin və Kəbə daşının təsvirinə də rast gəlmək olar. Osmanlı Türkiyəsinda XVI əsrdə hazırlanmış «Peyğəmbərin həyatı» («Futuh əl- Haraman») adlı əlyazmasında müqqədəs Məkkə və Mədinə şəhərlərinin təsviri verilmişdir. Əlyazma İstambulun Türk və İslam Sənəti muzeyində saxlanılır.

Mələk Cəbrayılın təsvirinə Məhəmməd Peygmbərlə bağlı bir çox miniatürlərdə rast gəlmək olar. Belə marağlı miniatürlər arasında Soltan III Muradın (1574-1595) dövründə hazırlanmış və Almaniyanın Perqama (Berlin) muzeyində saxlanılan «İki peyğəmbərin görüşü» miniatürünün adını çəkmək olar. Əsərdə mələklərdən başqa: mələk Cəbrail, Musa Peyğəmbər (ə) və Məhəmməd peyğəmbər (s) təsvir edilib. Bu görüş Allahın Rəsulunun (s) cənnətə daxil olması zamanı baş vermişdir.

Digər miniatürdə Mələk Cəbrail Məhəmməd peyğəmbərə (s) Quranın 8 surəsini nazil edir. Bu təsvir «Peyğəmbərin həyatı» adlı əlyazmanın IV cildinə (altı cilddən ibarətdir) daxil edilmişdir. Əlyazmada 814 miniatür var.

Adı çəkilən süжet İslam tarixinin əsas epizodlarından biridir. Süжetdə Quranın surəsini nazil edən mələyin fiquru XVI əsr kanonlarına uyğun çəkilib. Bu tip təsvirlər peyğəmbərin Mirac səhnəsində də istifadə olunurdu. Miniatürdə xəlif Əbu Bəkr (v.a), Ömər (v.a), Osman (v.a) və Əli (v.a) təsvir olunmuşlar. Onların da libasları yaşıl rəngdədir.

Maraqlı miniatürlərdən biri də XVI əsrin sonunda Osmanlı imperiyasında və yaxud Iraqda çəkilmişdir. Şərti olaraq «Peyğəmbərin evində narahatçılıq» və yaxid «Peyğəmbərin evində qətl»adı altında qəbul edilmişdi. Bu miniatür «Maqtal əl-i Rəsul» əlyazmasına daxil edilmişdi və hal hazırda ABŞ-ın Metropoliten muzeyində saxlanılır.

Bu süжet Həzrət Hüseynin (v.a) faciəli ölümü ilə bağlıdır.

Mətndə Məhəmməd Peyğəmbərin (s) nəvəsi və Imam Əlinin (v.a) oğlunun şəhid olmasından xəbər verilir. Qeyd olunur ki, o Iraqda Kərbala döyüşündə şəhid olmuş və o zamandan başlayaraq musəlman aləmi iki yerə parçalanmışdır. Bu faciəli hadisədən sonra sünni və şiyə anlayışları meydana gəlmişdi. Şiyələr Məhərəmlik ayında günahsız öldürülmüş Həzrət Hüseynin (v.a) matəmini saxlıyırlar.

Bu miniatürun maraqlı cəhəti ondadır ki, minbərin üstündə oturmuş Allahın Rəsulu nəsiyyət verir , onun nəvəsi isə uşaq ikən təsvir edilmişdir. Miniatürdə Imam Əlinin (v.a) və onun övladlarının üz cizgiləri dəqiq göstərilmişdir. Həmçinin güman edilir ki, bu təsvirdə Məkkə məsçidlərinin biri təsvir olunub

«Fal namə» əlyazması 1550-ci ildə tərtib edilib və onun içində maraqlı bir miniatür çəkilib. Əlyazma Təbrizdə və yaxid Qəzvində şah I Təhmasib (1524-1579) üçün hazırlanıb. Sonralar müxtəlif kolleksiyalarda saxlanılıb. Indi hal hazırda Vaşinqtonda saxlanılır. Kitabda 30-a yaxın miniatür var və onların hamısı əlyazmanın mətniylə sıx bağlıdır. [4: 5: 6]

Bu miniatürdə Imam Rzanın (v.a) divlə mübarizəsi və qələbəsi təsvir edilib. Şərq rəvayətlərində div Şər qüvvələrin rəmzi kimi qəbul olunur.

Təbriz miniatür məktəbinin qaydalarına görə, Məhəmməd peyğəmbərlə (s) yanaşı imamlar da muqəddəs sayılırdılar. Imam Rzanın (v.a) başında çalma, üzündə isə ağ örpək var, onun fiqurunu müqəddəs alov əhatə edir.

Məşhur rəssam Soltan Məhəmmədin daha bir maraqlı mövzuya müraciyyəti olub. Bu mövzu Məhəmməd peyğəmbərin Miracı ilə bağlı idi. Ümumiyyətlə, Şərq miniatür sənətində sayca çox az olan dini süжetlər də çəkilirdi. Onlar əsasən Məhəmməd peyğəmbərin həyatını əks etdirirdi, imamlardan və mələklərdən xəbər verirdi. Adətən bu təsvirlər bədii toplların və yaxud murakkaların (albomların) tərkibinə daxil edilirdi.

Uzun müddət bu təsvirlər tam şəkildə araşdırılmamışdır və çox az sayda alimlər onların mövcudluğundan xəbərdar idi. Lakin son dövrdə bu mövzuya marağ artdığından araşdırmalar genişlənmiş və yeni maraqlı faktlar üzə çıxmışdır. Onların içində «Mirac» səhnəsinin bir neçə variantının adını qeyd eləmək olar. Peyğəmbərin (S) ətrafindakı buxur və məşəllərin qızılı şəfəqindən işıqlanan ulduzlar və əcaib formalı buludlarla ötürülmüş mavi səma qəribə kosmik fəzanı xatırladır. Allahın Rəsulu və onu müşayət edən Cəbrayıl, məşəl və müxtəlif bəxşişlər gətirən 18 pəri (mələk) böyük ustalıqla təsvir olunmuşdur. Soltan Məhəmmədin əsəri sayılır. Onlar bir axında, təbii, bəzən qəfil mürəkkəb poza, dönüş və rakurslarda verilmişlər. Spirlşəkilli konsentrik hərəkət kompozisiyanın dinamikliyini gücləndirir, öz Burağında oturmuş Peyğəmbərin (S) səmada uçuşuna təmtəraqlılıq gətirir, onu zəfər yürüşünə çevirir. (8, 35) Xüsusi qeyd etmək lazımdır ki, peyğəbərin üz cizgiləri miniatürdə çəkilmirdi. Onun üzü ağ yaylığla örtülmüş olurdu. Lakin onun təsviri alov ilə əhətə olunurdu, bu isə müqqəddəslik rəmzi sayılırdı. Peyğəmbərin libasında isə əsasən tünd yaşıl, tünd qöy, ağ və qızılı rənglər istifadə olunurdu.

Mavi səmanın zərif koloriti ətrafa saçılan qızılı şıfəq, daha doğrusu Peyğəmbərin (S) nuru, məşəllərin alovu, kostyumların və əcaib buludların müxtəlif rəng çalarları öz aralarında ahəngdar sürətdə uzlaşaraq sehirli, lakin şən və gümrah məkən yaradır. Bu isə miniatürun ifadə gücünü, emosional təsirini artırır. [8, 35] Sonralar bu təsvir qaydaları digər dini mövzularda da tətbiq olunurdu.

Bu mövzu digər rəsamlar tərəfindən də işlənmişdir. Onların arasında XV əsrdə Şah Müzəffər (Herat məktəbi), XVI əsrdə Ağa Mirək (?), (Təbriz məktəbi) tərəfindən yaradılmış əsərləridə qeyd eləmək olar. Lakin Soltan Məhəmmədin əsəri öz əzəməti və bədii formaları ilə seçilir. Alimlər qeyd eyləyirlək ki, bu şah əsərin bədii quruluş «Peyğəmbərin meracı»nı rəssamın apofeozu, onun ideya estetik kredosunu ifadə edən mənəvi vəsiyyəti hesab etməyə imkən verir. Soltan Məhəmmədin yaratdığı bir neçə mükəmməl bədii əsər bizim dövrə qədər gəlib çatmışdır, ancıq bu əsər daha tez-tez çap olunan və araşdırılan əsərldərdən biridir. Ondan sonra yaranan bir çox rəssim əsərləri müxtəlif yozumda onu təqlid etmişlər.

Dini mövzuda çəkilmiş az saylı miniatürlərdən biri olan bu misilsiz iş Təbriz məktəbinin ən dəyərli, ən kamil əsərlərindədir. Onu ən «əzəmətli adlandıran miniatür » adlandıran F. Martin qeyd edir: «Çətin ki mən bura Avropada gördüyüm dini süжetli əsərlərdən bu cür yüksək səviyyəli başqa bir miniatürü daxil edə bilərdim» (14, 33)

Adı çəkilən əsərin variantları Təbrizdən başqa, Herat, Buxara, Şiraz məktəbləri tərəfindən də işlənilib. Onlar ABŞ - ın, Böyük Britaniyanın, Fransanın muzey və kitabxanalarında saxlanılır. Qeyd eləmək lazımdır ki, Azərbaycanın Əlyazmalar Institutinda Təbriz məktəbinə aid olan eyni adlı miniatür saxlanılır. [13; 14]

Bu səpkidə olan əsərlər yalnız Avropada yox həmçini keçsmiş SSSR-nin məşhur kitabxanalarından olan Saltıkov-Şedrin kitabxanasında saxlanılır. Bu elmi ocağın zəngin fondları və marağlı kolleksiyası var. Onların arasındə Təbriz əlyazmaları daha böyük maraq doğurur. Əlyazmalar təxminən XV-XVI əsrlərdə yaradılıb. Məşhur rus tədgiqağçısı O.Qalerkina qeyd edir ki, Məhəmməd peyğəmbərin (S) və imamların təsvirinə az da olsa rast gəlmək olar. Onlar adətən əfsanələrə aid olan toplularda və yaxud tarixi əsərlərdə yerləşdirilirdi. Bu faktla bağlı olaraq, onlar çox vaxtı tarixi hadisə kimi qəbul olunurdu.

Yuxarda adı çəkilən kitabxanada, XV-XVI əsrlərdə yaranmış məşhur əsər «Imamların həyatı» mühafizə olunur. O, Məhəmməd ibn Abu Zayid Ərəbşax al-Hüseyn al-Alavə al – Viramini tərəfindən tərtib edilib. 1524-

1526-ci illərdə Qasım ibn Əli adlı rəssam tərəfindən miniatürlər tərəfindən bəzədilib. Bu əlyazmada olan miniatürlər Təbriz miniatür məktəbinə xas olan elementlərlə tərtib edilib. Əlyazmanın miniatürləri Məhəmməd peyğəmbərin (S) və imam Alinin (v.a) həyatı ilə bağlıdır.

Miniatürlərin kompozisiyası dolğun, voyaları parlaq, istifadə olunan memarlıq və təbiət elementləri müstəqil «məna daşıyır». Süжetın əsası onların üzərində qurulub və insan təbiyyətin bir, lakin vacib hissəsidir. O, dövrün rəsamlarının fikrincə insan və təbiyyət vəhdət təşkil edir.

Yekünda qeyd etmək lazımdır ki, mədəniyyət tarixi və incəsənət elmi üçün bu mövzu böyük maraq kəsb edir. Təhlil etdiyimiz miniatürlər məşhur nəşrlərdə nadir hallarda çap olunmuşdur və bu sahədə aparılan araşdırmalar davam etdirilmək lazımdar.

Ədəbiyyat

1. Quran. (Z.Bünyadov, V.Məmmədəliyev). – B.,1996
2. Minai Ə.T. Müasir iran qrafika sənətində poetik obrazlar. B.,1966
3. Zəkiyev İ.S.Azərbaycan kitabının inkişaf yolu. Azərbaycan kitabının inkişaf yolu.B. 2000, 288 s.
4. İnal.M. Miniatür sənəti. Ankara. 1995
5. Yetkin S.K. İslam sanatı tarixi. Ankara 1954.
6. Гasanzade Dж.Ö. Zapoждenie i pazvitie tebpizskoy şkolı XIII-XV vv., B.: Ozan, 1999
7. Kazi Axmed. Tpaktat o kallirpafax i xydoжnikax. 1956 – 97/1005. Vvedenie, pepevod i kommentapii Ppof. B.N.Zaxodepa. M.; L.; Iskysstvo, 1947
8. Kepimov K.Dж.. Syltan Myxammed i eго şkola. M., Iskysstvo, 1970
9. Popoxova M.N. Kopan. M.,2005
10. Sadir bek Afşap. Гanyn os sovar. Vvedenie, pepevod i ppimeçanie A.Ö.Kazieva / Izd-vo AN AzSSP, B., 1963
11. Sadıxova S.Ö. Azepbaydжanskaə miniatöpnaə жivopisğ XIV-XVII vekov kak istoçnik po istopii kostöma: Avtopef. dis. kand. iskystvovedeniə, B., 1990
12. Şykypov Ş.M. Iskysstvo i tayna. M.: Aleteya, 1999, 248 s.
13. Rice D., Islamic painting. Edinburgh, 1971, p.179
14. Robinson B., Persian miniature, Oxford, 1957, text page 8, ill.
15. Piotpovskiy B.P., Zaradka mysylğmanskoго mipa. http:// Tatapskaə zaradka. htm.

Fine art and Islamic culture

Summary

The art and culture of Muslim countries has always been the object of research by scholars of different countries. Researchers were amazed by the multifacetedness, diversity and beauty of the works of this culture. Islamic religion, which has its own views on certain types of art, itself has not noticed, has contributed to the development of many of its species. It is they that make up the glory of Muslim or Islamic art today. Among the beautiful and immortal monuments - architectural complexes, miniature painting and decorative-applied art.

Of particular interest to us is the miniature painting, the history of its creation and the history of research. This area of Muslim art for many centuries has been the object of controversy and dissent. The clergy forbade the depiction of living beings relying on such a list of hadiths. Prohibitions were directed against idolatry. This question was reflected in the books of Turkish researchers Yetkin Kamala and Inala. In their research, they indicate specific verses from the Qur'an (3:49; 5: 90-91; 6: 75, 80; 17:72; 34: 12-13; 38:25; 40:66).

Despite all the prohibitions, the fine art developed and spread. Manuscripts created in private workshops were especially popular. These were manuscripts - "Hamse" Nizami, "Shahname" Firdousi, "Bustan" Saadi. They are decorated with large museums of the world, such as the Louvre (France), the British Museum (England), the Metropolitan Museum (USA). It is interesting that in the collections of the mentioned museums are kept manuscripts with miniatures on a religious theme. These works are the object of many modern studies.

Изобразительное искусство и исламская культура

Резюме

Искусство и культура мусульманских стран всегда являлась объектом исследований ученых разных стран. Исследователей поражала многоликость, разнообразность и красочность произведений данной культуры. Исламская религия, имевшая свои взгляды на определенные виды искусства, сама того не замечая, способствовала развитию многих ее видов. Именно они составляют сейчас славу мусульманского или исламского искусства. Среди прекрасных и бессмертных памятников – архитектурные комплексы, миниатюрная живопись и декоративно-прикладное искусство.

Для нас особый интерес представляет миниатюрная живопись, ее история создания и история исследования. Эта область мусульманского искусства на протяжении многих веков являлась объектом споров и различных мнений. Духовенство запрещало изображение живых существ опираясь на так называемый список хадисов. Запреты были направлены против идолопоклонства. Данный вопрос нашел свое отражение в книгах турецких исследователей Йеткин Камала и Инала. Они в своих исследованиях указывают конкретные суры из Корана (3:49; 5: 90-91; 6: 75,80 ; 17:72; 34:12-13 ; 38: 25; 40:66).

Несмотря на все запреты, изобразительное искусство развивалось и распространялось. Особой популярностью пользовались рукописи созданные в шахских мастерских. Это были рукописи - «Хамсе » Низами, «Шахнаме» Фирдоуси, «Бустан» Саади. Они являются украшением крупных музеев мира, таких как Лувр (Франция), Британский музей (Англия), Метрополитен музей (США). Интересен тот факт, что в коллекциях упомянутых музеев хранятся рукописи с миниатюрами на религиозную тему. Эти произведения являются объектом многих современных исследований.

DOI: 10.36719/2020/REK/01/249-251

İlyas Yasər oğlu Mirzəyev
Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti
elyas666@mail.ru

BƏRPAÇILIQ SƏNƏTİNİN İNKİŞAF TARİXİ

Açar sözlər: *Bərpaçılıq, rəssamlıq, memarlıq, tədqiqat, rənglər, forma*
Key words*: Restoration, painting, architecture, research, colors, form*
Ключевые слова: *Реставрация, живопись, архитектура, исследование, цвета, форма*

Yalnız insanlar deyil, həm dərəsmlər, memarlıq abidələri, kitablar və metal sənət əsərləri xəstələnir və sonra onların müalicə edilməsi, yəni bərpa edilməsi vacib olur.

Latın dilindən tərcümədə (lat. Restavratio) sözü "bərpa" deməkdir və sənət əsərinin yaranmasına mümkün qədər yaxın bir müddətə qorunub saxlanma vəziyyətini bərpa etməyə yönəlmiş tədbirlər məcmusuda sayılır. Deməli, bərpa maddi mədəniyyət abidələrinin məhv edilməməsinin və onların qorunub saxlanmasının qarşısının alınmasına və ya yeni, əvvəllər məlum olmayan xüsusiyyətlərini kəşf etməyə fürsət tapmasına yönəlmiş tədbirlər kompleksidir.

Məlumdur ki, bərpaçılar haqqında ilk məlumatlar orta əsrlərə aiddir və peşəkar bərpa məktəbləri XVII-XVIII əsrlərdə yaranmağa başlamışdır.

Bərpanın müxtəlif meyarlara görə bölünən fərqli növləri mövcuddur. Ancaq, bütün növlərin bir məqsədi var ki, bu da incəsənət əsərlərində zamanla yaranan qüsurlarını, yəni onda olan zərbələrin izləri, cızıqlar, şramlar, qırılmalar və s. aradan qaldırmaq və görünüşünü yaxşılaşdırmaq. Bərpa olunan incəsənət əsərinin başına gələcək sonrakı ziyanların qarşısını almaq üçün də qorumaq vacibdir.

İncəsənət əsərinin təyinatına görə görə fərqli bərpa növləri vardır. Bunla arasında memarlığın, monumental rəsm əsərinin, dəzgah yağı rəngkarlığının, dəzgah tempera boyasının bərpası (nişanların bərpası daxil olmaqla), qrafikanın, heykəlin, mebel və taxta məhsullarının, metalın, kitabın, Səs yazılarının və filmin bərpası (rəqəmsal) daxildir.

Sənət yarandıqca bərpa də edildi, çünki nə insan, nə də sənət əsərləri qocalıqdan və məhv olmaqdan xilas ola bilməz. Başqa bir şey, insanlara və sənət obyektlərinə münasibətdə bu proseslər fərqli yollarla və fərqli bir müddət ərzində baş verir.

Adətən, sələflərin əsərlərini yaxşılaşdırmaq işləri məşhur sənətçilərə həvalə olunurdu və bu da xoşbəxtlikdir, çünki şah əsərlərini qorumaq ehtimalı artırdı.

Ancaq, eyni zamanda məşhur rəsmlərin təhrif olunduğu və hətta restavrasiya edənlər tərəfindən korlandığı hallarda çox olurdu. Bu, xüsusən dini süjetli rəsm əsərlərinə aid idi. 1564-cü ildə italyan rəssam və heykəltaraş olan Daniele da Volterra (1509-1566) Sistine Kapellasında Mikelancelonun Qiyamət günü və ya Son qiyamət əsərindəki çılpaqlıqları çəkmək tapşırıldı.

Adı çəkilən əsər Vatikandakı Sikstin kapellasının qurbangah divarındakı Mikelancelo tərəfindən hazırlanmış freskadır. Sənətkar dörd il bu əsərin üzərində çalışdı. Sikstin kapellasının qurbangahının arxasında böyük bir freska bütün divarı tutur. Onun mövzusu Məsihin ikinci gəlişi və apokalipsisdir. Bu əsər İntibah dövrünü tamamladığı güman edilir.

1545-ci ildə Trent Şurası dini sənətdə çılpaqlığı qınadı və Papa IV Paul Mikelancelonun freskasını bərpa etməyi əmr etdi. Bu barədə məlumat əldə edən sənətçi papaya "çılpaqlığı aradan qaldırmaq asandır. Qoy bu əsər dünya incəsənətinə layiqli formada rəhbərlik etsin. " demişdir.

Bu sözləri deyən romalılar tərəfindən "yazıçı", "gizli" ləqəbi verilən faktura üzərində bəzəklər çəkməyi bacaran rəssam Daniele da Volterradir. Da Volterra Mikelancelonun tələbəsi olduğu üçün, müasirləri üçün xüsusilə ədəbsiz görünən bir fraqment istisna olmaqla, meyitləri quru xas rəngdə boyanmış paltarlarla "örtən" freskanın tərkibinə o qədər də çox zərər vermədi. Volterra Mələyin bu parçasını Mikelancelonun orijinal rəsm əsərinə gips parçası oymaqla düzəldirdi. Lakin Volterranın ölümündən sonra bərpa işləri digər ustalar tərəfindən aparıldı. Gələcəkdə freska dəfələrlə müxtəlif insanlar tərəfindən bərpa edilmişdir. Son bərpa zamanı (1994-cü ildə), əksinə İslahat dövrünün sənət əsərinə olan tələblərinin sübutu olaraq qalmış XVI əsrə aid qeydlər istisna olmaqla, freskanın bütün sonrakı əlavə edilmiş bərpa izləri silindi.

Əsrlər boyu davam edən bu polemikaya Papa II Con Paul tərəfindən son qoyuldu. O, 8 aprel 1994-cü ildə Sikstin Kapellasının freskalarının bərpasından sonra keçirilən kütləvi görüş zamanı dedi: "Görünür, Mikelancelo Yaradılış Kitabındakı sözləri öz anlayışını dilə gətirdi:" Həm çılpaq, həm də Adəm və arvad var idi və onlar bundan utanmadılar "(Yaradılış 2:25). Sikstin kapellasındakı insan bədəni ilahiyyat nurunun təzahürünü əks etdirir."

17-ci əsrin sonlarında Romada bərpa məşhur rəssam Karlo Maratta (1625-1713) tərəfindən edildi. Xüsusilə Palasso Farnezi və ya Farnezi sarayında Karraççi qardaşlarının qalereyası olan Raphaelin Stansiyasını və bərpa etdi. O, böyük bir usta kimi tanınırdı və Papa ondan Qvido Reninin (1575-1642) tərəfindən çəkilmiş Madonnanın boyun nahiyəsini örtməsini istədikdə, asanlıqla çıxarıla bilən pastel rənglərdən istifadə etdi və bu geri çevrilmənin ilk cəhdlərindən biridir.

Xüsusilə bərpa XVIII-XIX əsrin əvvəllərində inkişaf etməyə başladı. Parisdə Belçika, Hollandiya, İtaliya və digər ölkələrdən Napoleonun işğalları nəticəsində rəsm əsərlərinin axını səbəbiylə yerli bərpa ənənələri var idi. Bərpa edənlər əsəri əsl rəssam kimi şərh etdilər və biliklərini gizli saxladılar. Onların işləri "illüziyaçı" hesab olunurdu, çünki bərpa etdikləri şəkillər toxunulmaz görünürdü. XX əsrdə. Bərpa tədricən elmi bir intizama çevrilməyə başladı. YUNESKO-da 12 ölkənin mütəxəssislərindən ibarət xüsusi komissiya yaradıldı. Bu komissiya bərpa sahəsində beynəlxalq əməkdaşlıq xidmətini yaratmışdır. Bu komissiyanın iclasları London, Roma, Paris, Brüsseldə keçirildi və bu gündə davam edir. 1958-ci ildə YUNESKO-ya üzv olan bəzi ölkələr qərargahı Romada yerləşən Beynəlxalq Mədəni Mülkiyyətin Qorunması və Bərpası üzrə Beynəlxalq Mərkəz yaratdılar. Bu mərkəz bərpa metodlarının əlaqələndirilməsi və yayılması və xüsusi laboratoriyaların yaradılması üzərinə götürdü. Bədii irsin qorunması üçün bütün dünyada təsisatlar yaradıldı.

Bəzi ölkələrdə bərpa metodları tez-tez universitetlərdə tədris olunur. Bir çox muzeyin öz emalatxanaları və laboratoriyaları var. Bunlara misal kimi Qahirə Muzeyi, Yeni Dehlidəki Muzey, İngilis Muzeyi və Londondakı Milli Qalereya, Düsseldorf və Bazeldəki İncəsənət Muzeyi və Moskvadakı Bərpa Mərkəzini göstərmək olar. 1978-ci ildə Parisdə açılan Fransanın Bərpa İnstitutunun vəzifəsi yüksək səviyyəli bərpaçı hazırlamaqdır.

XIX əsrdə. bərpa işləri keçmiş dövrlərə marağı artıran romantizm dalğasında gücləndi. XIX əsrin ortalarında Neo-Qotik ustaları orta əsr memarlığının texnikalarını öyrənmiş və bir çox böyük abidələrin bərpasını həyata keçirmişdir və antik dövrdə olan abidələr ola biləcəyi formada tamamlamağa çalışılırdı.

Ancaq bu cür fəaliyyətlərə qarşı çıxanlarda var idi, İngiltərədə, Qədim tikililərin qorunması Cəmiyyəti hətta təşkil edildi. Lakin sənət və sənətkarlıq hərəkatı bərpa üçün müasir sənaye materiallarından istifadəni rədd etdi ki, memarlıq abidəsinin maksimum orijinallığını və bərpa işlərinin "əl" xarakterini qorumaqda israr etdi.

Sovet dövründə P. D. Baranovski Krutitsky Kompleksinin bazasında emalatxana məktəbi təşkil edirdi. 1950-ci illərin sonlarında və xüsusən 1960-cı illərdə Pyotrdan əvvəlki dövrlərə aid məbədlərin bərpası başlandı, lakin o dövrün bir çox yenidənqurma işlərinin möhkəmliyi hazırda mübahisəlidir.

Sovet bərpaçıları üçün əsl məktəb Böyük Vətən Müharibəsi illərində dağıdılmış Leninqrad şəhərətrafı ərazisindəki sarayların bərpası idi. Lakin Sovet dövründə sökülən və ya təhrif edilmiş bir çox dini tikililər, orijinala uyğun olaraq (məsələn, Qırmızı Meydandakı Kazan Katedrali) bərpa edildi. Əksər hallarda abidələr "əsaslı" şəkildə yenidən qurulmuş və ya tamamilə yeni quruluşlar qoyulmuşdur. Bəzən bərpa dəqiq məlumatların (foto materialların) olmaması ilə çətinləşir.

20-ci əsrdə dağıdıcı müharibələrin nəticələri ilə əlaqədar olaraq, Avropa memarları bütün şəhərləri yenidən qurmalı və şəhər ansambllarını yenidən bərpa etməli idilər. Varşavanın tarixi mərkəzinin müharibə-dən sonrakı bərpası nümunəvi hesab olunur və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinə "XIII ilə XX əsrlərə qədər tarixi irsin demək olar ki, tam bərpasının əla nümunəsi" kimi təqdim edildi.

Əlbəttə, bir abidənin və ya sənət əsərinin nə üçün bərpa olunduğunu və qorunub saxlanıldığını həmişə başa düşmək lazımdır.

Ədəbiyyat

1. http://restoration.rusmuseum.ru/restorat1.htm
2. http://art-con.ru/node/847
3. http://izbrannoe.com/news/iskusstvo/restavratory-proizvedeniy-iskusstva-delyatsya-svoimi-sekretami/
4. http://muzey-servetleri-ebm.az/az/47/
5. http://anl.az/down/meqale/medeniyyet/2010/aprel/117125.htm

History of development of the art of restoration

Summary

After the creation of the works of art and the full appreciation of their value, the protection of such works has grown substantially. For this reason, the art that gives second life to the examples of art damaged by the time-honored injuries is exactly the restoration. As a science, restoration has its own unique history.

История развития искусства реставрации

Резюме

После создания произведений искусства и полного осознания их стоимости защита таких произведений существенно возросла. По этой причине искусство, которое дает вторую жизнь образцам искусства, поврежденным проверенными временем травмами, является именно реставрацией. Как наука, реставрация имеет свою уникальную историю.

DOI: 10.36719/2020/REK/01/251-253

Şəhanə Zülfüqar qızı Mansırova
Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti
shaqane.mansirova@gmail.com

İNCƏSƏNƏTDƏ OLAN SEMANTİKANIN DİGƏR ELMLƏRLƏ ƏLAQƏSİ

Açar sözlər: *Semantika, simvol, elm, incəsənət, heykəltaraşlıq, işarə, təsvir*
Key words: *Semantics, symbols, science, art, sculpture, sign, description.*
Ключевые слова: *семантика, символы, наука, искусство, скульптура, знак, описание.*

Simvol yunan dilindən tərcümədə bir termin kimi "birgə atma", “şərti işarə”, "əlamət”, “siqnal” mənalarını daşıyır ki, bu da həmin işarələr ilə real obyekt arasında olan oxşarlığa əsaslanır. Ancaq, simvollar həm də şüurun bu və ya digər mümkün mövzu ilə insanın dünya görüşü arasında olan bağlılığı əks etdirən bağlılığa əsaslanır. Simvollardan fərqli olaraq semantika isə hər hansı bir anlayış, fikir, hadisələrin şərti əlamətidir. Semiotikada təyin olunan mövzuya uyğun müəyyən bir işarələr toplusu cəm olur və onlar lazimi məzmunun dərk olunmasına xidmət edirlər. Misal üçün fantastika janırda yer alan təsvirlər hansılar ki, real dünya ilə heç bir uyğunluq olmayan mifoloji canlıların hər biri özlüyündə müəyyən semantik mənaları saxlayır. Simvolizmin klassik nümunəsini Platon "mağara simvolu" ilə elmə təqdim etmişdir. Simvolların hər birində bir obyekt, hərəkət və ya hər hansı bir təsvir, konsepsiya, ideya ortaya qoyulur. Simvolların hər birində insanlıq tarixindən qaynaqlanan ümumi təcrübə, fikirləri təcəssüm edir. Ancaq, semantik məna isə simvol, yəni müəyyən işarələr və bədiiliyin sintezindən ortaya çıxır. Hər birinin öz açıqlaması olan işarə ilə simvolu səhv salmaq olmaz. Simvollar da əgər gizli bir məna daşıyırsa, işarədə isə bunlar obyektlərin, hadisələrin, hərəkətlərin ümumi qəbul edilmiş şərti təyinatlarıdır. İşarələrə aid nümunələrin arasında yol nişanları, müəyyən sahələri bildirənlər, yəni tibb, fövqəladə və bir çox bunlar kimi başqaları daxildir. Simvolların açılışını alimlərin hər biri öz elmi sahələri ilə qarşılıqlı əlaqəsinə uyğun olaraq məna vermişdir. Göstərilən fikrə uyğun bir neçə misal gətirmək olar. Belə alimlərdən biri 26 iyul 1875-ci ildə Kesvildə dünyaya gəlmiş Karl Qustav Yunqdur ki, o, əslən İsveçrəlidir. Zadəgan və ziyalı ailəsindən olan alimin babası və ulu babası həkim olmaları məlumdur. Məhz ailə üzvlərinin tibb sahəsində olması və öz dövrünün ən önəmli ixtisası sayılan psixiatriya da oxumasına məcbur edilmişdir. Lakin, o ilk dövrlərdə adı çakilən sahədə öz təhsilini davam etdirmək istəməmiş və zamanla psixiatriya haqqında kitablar oxuduqca bu elm sahəsinin insanların şəxsiyyət problemləri və mənəvi ruh problemləri ilə bağlı olmasını öyrənmişdir. Burada nəyin ki, insan psixologiyası nəzərə alınır həmdə bioloji problemlərdə əks olunur. Belə problemlərdən biridə dissoçiativ şəxsiyyət pozğunluğu adlanan şəxsiyyətin ikiləşməsi onun marağını çəkən bölmələrdən biri olur.

O, Bazel universitetində tibb təhsili aldıqdan sonra Yunq Eyqen Bleylerin (Bleyler həmdə onun dissertasiya rəhbəri idi) asistenti kimi Sürixdə yerləşən ruhi xəstələr klinikasında fəaliyyət göstərmişdir. Burada o, məşhur nevroloq olan Ziqmun Freydla tanış olur. Yunqun bir neçə elmi tətqiqatlar aparır və həmin tədqiqatları çap olunur. Belə tədqiqatlardan da biri "Sivollar və metamarfoza. Libido" olmuşdur. Yunqun nəzəriyyəsində simvolun təsnifatını və tərifi müəllifi olduğu "Arxitip və simvollar " əsərində biz simvol adlandırdığımız bu termin özlüyündə ad və ya təsvir, hansı ki, gündəlik həyatda məlum olan, lakin öz adi mənasından əlavə xüsusi əhəmiyyət kəsb edir. Bu isə nəsə dumanlı, naməlum və ya gizli bir şey deməkdir." " Beləliklə söz və ya təsvir simvolikdir. Qurulan kompozisiyalarda yer alan simvollarda daha çox məna gizlənirsə onların aydın və bir başa əyəmiyyətinin mənasını ikinci plana düşür. Onların birinci əsas mənası daha geniş " gizlin" aspektə malikdirlər ki, hər dəfə onları dəqiq müəyyənləşdirib və ya dəqiq izah vermək olmur." Qeyd olunub. Bu fikrin yaranması isə onunla bağlı ola bilər ki, hələ elm belə sürətlə inkişaf pilləsinə çatmamışdan əvvəl, bütün elmlər fəlsəfədə cəmlənirdi və insanların simvolların daha da təkminləşdirməsinə bu elm sahəsi dəstək olurdu. Zaman keçdikcə inkişaf artıqca müxtəlif elm sahələridə fəlsəfədən ayrılmağa başlayır. Bu səbəbdən hər hansısa bir elmi araşdırdıqda onun kökü fəlsəfəyə müraciət etdiyini görə bilərik. Əsasəndə semantik mənaların psixologiyada tutduğu yeri müəyyənləşdirmək üçün fəlsəfəyə müraciət edilir. Digər nümunə ki, Aleksey Fyodorviç Losevı göstərmək olar. O, fəlsəfəçi, antikşünas, tərcüməçi, yazıçıdır. O, simvolun təsnifatını və onların etimologiyasını haqqında yazarkən qeyd edib ki, simvol aid olduğu əyşadan daha üstün mənanı özündə cəmləyir. Axı biz hər bir əşyanı indi hal hazırda olduğu kimi görürük, bizim həmin zamanda ona baxdığımız kimi, amma əşyanın simvoluna gəldikdə isə, gizli bir məna altında onun bütün mümkün təzahürlərinin cəmi insan şüurunda əks olunur". Hələ qədim zamandan olan simvollar bir növ kod kimi isdifadə olunurdu. Bu kodlardan qədimi insanlar ayinlərində, dini mərasimlərdə və məlumat ötrücüsü kimi isdifadə olunurdu. Müxtəlif mənalı obraz, jest, əşya işarə və ya simvol kimi istifadə olunur. Simvolik təsvirlərə yalnız rəngkarlıqda deyil incəsənətin müxtəlif növlərində görmək mümkündür. Misal üçün heykəltəraşlıq, qrafika, dekorativ tədbiqi sənət və s. göstərmək olar. Ancaq, bəzən simvolun özü olmasa da qurulan kompozisiyada yer alan formaların özünün həqiqi mənasından əlavə semantik mənası da ola bilir. Bu xüsusiyyəti daha çox heykəl nümunələrində görə bilərik. Belə bir heykəl nümunələrindən biri Aslan Rüstəmov, Mahmud Rüstəmov, Teymur Rüstəmovun əsəri olan " Ana harayı" adlı nümunədir. Bu heykəl Azərbaycan xalqının dərin və unudulmaz bir yarasını xatırladır. Azərbaycanın nəinki, xalqının eyni zamanda Azərbaycan torpaqlarında baş vermiş bir faciəni simvoludur. Bu heykəl 1992-ci ildə fevralın 25-dən 26-a keçən gecə Xocalı şəhərində baş vermiş bir hadisəni xatırladır. Heykəlin tam mərkəzində biz bir ayağı öndə digər ayağı isə arxada olan, bir ananın uzanan qollarında artıq min bir zülmətdən keçən və artıq ölmüş bir körpəni görə bilərik. Burada ana san ki, dünyaya öz fəryadını, zülmətini göstərir. Ananın paltarına nəzər salsaq görə bilərk ki, o qarlı, buzlu soyuq bir qış gecəsində eynində olan paltarla çıxmasını görə bilərik. Zalım ermənlərin onlara aman belə vermədiklərinin şahidi oluruq. Ananın üzündə o zülməti, o dramatikliyi görə bilirik. Sanki, gənc ana bir gecənin içində qocaldığını görürük. Ananı üzündə olan o qırışlar bir gecənin içində yaranmışdır. Ananın üzündə o həyacanı o qorxunu görə bilərik. Ananın ayaqlarına fikir versək görərik ki, ananın ayaqları çılpaqdı. Bu qışın soyugunda, şaxtasında qarların üzərində ana çılpaq ayaqla və qucağında artıq vəhşi ermənlər tərəfindən vəhşicəsinə öldürülmüş körpəsinə sahib çxaraq qaçmışdır. Ananın çılpaq qollarında san ki, yanıq izi vardır. Heykəltəraşlar bu heykəldə "Xocalı" da baç vermiş bütün hadisləri, o acını, ağrını, dəhşəti bir ananın simasında maharətlə verilmişdi. Bu heykəl hər bir azərbaycan xalqının ürəyində qanlı bir sağalmaz yaradır. Heykəlin materialı tuncdan ibarətdir. Hal hazırda bu heykəl Xətai rayonda İcra hakimiyyəti tərəfində yerləşir. Bu heykəl hər bir vətənpərvər olan azərbaycan xalqı gördükdə o dəhşətli, unudulmaz hadisə yada düşür. Bu heykəl vətənpərvər insanların sayəsində yaranıb. Azərbaycanda həmçinin görkəmli insanlarında heykəllərinə, abidələri arasında Nizami Gəncəvinin, Ümimilli lidermizin Hetdər Əliyevin və digər görkəmli şəxsiyyətlərin heykəlləri xüsusi yer alır. Müxtəlif rəngkarlıq nümunələrində yer alan canlıların obrazlarının hər birinin özünəməxsus mənası mövcuddur. Nümunə kimi Avropa rəssamlarının əsərlərində yer alan göyərçinin ağzında zeydun budağını görə bilərik. Göyəçin qədim misirlilərdə " ruh "u simvolizə edir və daha sonralar bu simvolu xristianlar qəbul etmişdilər. Dünyada olduğu kimi Azərbaycanda da göyərçin " Sülh " ü simvolizə edir Göyərtəsində zeytun budağını sıxan bir göyərçin, ümumdünya sülh rəmzidir. Bəzən isə uzun bir xəstəlikdən və ya ağır bir həyatdan sonra azadlığı simvolizə edir.Göyərçindən əlavə digər heyvan təsvir və ya formalarının öz mənaları mövcuddur. İsdər Avropada isdər Azərbaycanda bir çox heyvan heykəllərinə də rast gəlinir. XII-ci minillikdən etibarə sahibinin ayağının yanında yatan bir it belə bir heykəl dəb almışdır. Bu heykəl əsasən öz sahibini digər dünyaya yola salan kimi simvolizə olunur. İt buna görə də gözətçi kimi təqdim olunur. Heyvan imanın sədaqətini simvollaşdıran it digər dünyaya bələdçilik etməsidə mənbələrdə yer alır. Əgər itin ayaqları arasında sümk olarsa bu o deməkdir ki, heykəl məzar daşı sayılır. Meşənin hökmüdarı sayılan aslanın yer aldığı heykəl nümunələri güc, qüdrət və ədalət rəmzidir. Orta əsrlərdə, ölü şirlərin anasının nəfəsi sayəsində üç gündən sonra yenidən

canlandığına inanırdılar, buna görə də çox köhnə məzar heykəllərində Aslanı görmək mümkün idi. Əjdaha şər aləmini simvolizə edir. Əgər bir heykəldə gənc adam əjdahanı öldürürsə bu onun şər qüvvəyə qalib gəldiyini simvolizə edir. Pişik isə hiyləgərliyin və müstəqilliyi simvolizə edir. Hətda bir çox mədəniyyətlərdə belə hesab olunurdu ki, heykəldə heyvan çoxluğu insanın digər dünyadan qayıtmasına mane olur. Bu ənənə kilsə portallarında heykəllər yaratan memarların sayəsində yaranmışdır. Dini personajlar əsasən real təsvirlərdə mifik bir heyvanın özünəməxsus keyfiyyət və ya mənası realistik anlamı ilə qarşılıq təşkil edir.

Ədəbiyyat

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007. 272 səh
2. Əfəndiyev R. Azərbaycan madii mədəniyyət nümunələri. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1960. 35 səh
3. Алиева К. Безворсные ковры Азербайджана. Баку, 1988.
4. http://maxvoloshin.ru/?item=085a4e27-aaa6-45e9-ac8f-6fc59e9bf50e&termin=3f28cebd-c758-42c8-84ed-b7103f1bab25
5. https://studopedia.ru/2_34303_tema--drevneyshie-simvoli-semantika-ornamenta.html

The relationship of semantics in art with other sciences

Summary

Symbols are found not only in the field of art, but also in various fields of science. In general, the symbols that form the semantic meaning are present in human life and at every step of man. Symbols in the ages of art have a profound effect on its meaning, influencing the formation of essentially different ideas. This effect has a semantic meaning in itself.

Связь семантики в искусстве с другими науками

Резюме

Символы встречаются не только в области искусства, но и в различных областях науки. В целом символы, образующие смысловой смысл, присутствуют в жизни человека и на каждом шагу человека. Символы в эпоху искусства оказывают глубокое влияние на его значение, влияя на формирование принципиально разных идей. Этот эффект сам по себе имеет смысловое значение.

DOI: 10.36719/2020/REK/01/253-256

Səbinə Gündüz qızı Səmədzadə
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
sabinasamedzade2595@gmail.com

AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİNİN DÜNYADA TƏBLİĞİ

Açar sözlər: *Azərbaycan incəsənəti, rəngkarlıq, auksion, təbliğat, kolleksiyalar*
Key words: *Azerbaijan Art, painting, auction, promotion, collections*
Ключевые слова: *Азербайджанское искусство, живопись, аукцион, продвижение, коллекции*

Giriş

Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Ölkəmizdə sənət növlərinin hər biri uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Qobustanın qaya təsvirləri, Qafqaz Albaniyasının bədii keramika və metal məmulatı, bədii şüşə və oyma sənəti, tarixin uzaq çağlarından gələn, həmçinin dünya muzeylərində qorunub saxlanan miniatür sənəti nümunələrimiz, rəngarəng xalçalar, tikmələr, şirli saxsı qablar, kaşı sənəti, gözəl zərgərlik məmulatları Azərbaycan incəsənətinin ən parlaq lövhələrini təşkil edir və əsrlərdən bəri milli incəsənətimizi şöhrətləndirir. Ümumiyyətlə, Azərbaycan sənətkarlarının, fırça ustalarının sənət əsərlərinə tamaşa edən və sənətkarlıq nümunələri ilə tanış olan hər bir kəs özünü sanki sehrli bir dünyada hiss edir. Bu da öz növbəsində görkəmli sənətkarlarımızın, fırça ustalarımızın azərbaycançılığa bəxş etdiyi töhfələrdir.

Qeyd etməliyəm ki, tarixən Azərbaycanda ölkəmizi tanıtmağa qadir olan rəssamlar kifayət qədər çox olmuşdur. Sadəcə, onların dünya incəsənətinə çıxışları məhdud idi. Orta əsr Azərbaycan rəssamlarının əsərlərinin dünya muzeylərində və şəxsi kolleksiyalarda sənət inciləri kimi yer tutması Azərbaycan təsviri incəsənətinin qələbəsidir. Lakin bununla belə, Azərbaycan rəssamları tam olaraq hələ dünyaya inteqrasiya etməyiblər. Bu gün dünya Azərbaycan rəssamları deyəndə daha çox Səttar Bəhlulzadənin bənzərsiz əsərlərini

xatırlayır. Ümumiyyətlə, dünya daha çox Azərbaycanın Sovet dövrü rəssamlarını tanıyır. Sovet dövrü Azərbaycan rəssamlarının əksəriyyətinin o illərdə xarici ölkələrdə sərgiləri təşkil edilirdi. Rəssamlarımız Azərbaycanı məhz bu sərgilərdə təmsil edə və ifadə edə bilirdilər. Qeyd etmək lazımdır ki, Azərbaycan rəssamlarının əsərlərinin dünyaya təqdim edilməsi incəsənət tariximizdə yeni hadisə olardı. Orta əsrlər Azərbaycan rəssamlarının çəkdiyi əsərlər, miniatürlər bütün dünyada tanınır. Dahi rəssamımız Soltan Məhəmmədin "Bəhram Gurun şir ovu", "Məhəmməd Peyğəmbərin meracı", "Xosrovun çimən Şirini görməsi", "İsgəndərin Çin xalqı ilə görüşü" və s. əsərləri dünyaca çox məşhurdur. Ağa Mirəkin əsərləri də həmçinin dünya muzeylərini bəzəyir. Bu nümunələr Azərbaycan rəssamlarının əsərlərinin əsl sənət incisi olduğunu sübut edir. Sadəcə təbliğatları zamanında yüksək qurulmayıb. Hətta bizim rəssamlarımızın təhsil səviyyəsi də yüksək olub. Onlar həm çox savadlı, həm dünya tarixini yaxşı bilən, həm də gözəl istedada malik olan sənətkarlardır.

Zamanında rəssamlarımızı dünyada tanıda bilməməyimizin səbəblərindən biri də uzun illər imperiya tərkibində olmağımızdır. Sovet illərində bizim rəssamlar dünyaya sovet rəssamı kimi təqdim edilirdi. Yəni, onların azərbaycanlı olduğunu dünyada çox az adam bilirdi. Ancaq bununla belə, Azərbaycan rəssamlarının işi dünyanın müxtəlif ölkələrində sərgilənirdi.

Sovet dövrü Azərbaycan rəssamlarının müraciət etdiyi mövzular ancaq ölkə ilə məhdudlaşmırdı. Onlar dünyanın əksər xalqları, onların məişəti, həyat tərzi ilə bağlı dəyərli əsərlər yaradırdılar. Bu gün də dünya muzeylərində Azərbaycanın Sovet dövrü rəssamlarının əsərləri sərgilənir. Sevindirici haldır ki, klassik Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgilər açılır, onların kataloqları çap olunur. Bu özünü Mədəniyyət Nazirliyinin xətti ilə müxtəlif ölkələrdə keçirilən sərgilərdə daha qabarıq şəkildə göstərir. Səttar Bəhlulzadənin, Tahir Salahovun, Toğrul Nərimanbəyovun, Vidadi Nərimanbəyovun, Mikayıl Abdullayevin əsərləri dünyada tanınır. Bundan başqa, müasir rəssamlar arasında da dünyaya çıxmağa iddialı olanlar var. Keçən dövrlərə baxdıqda bu gün Azərbaycan rəssamları dünyada tanınmaqdadır. Hətta son illər dünyada Azərbaycan rəssamlarının işlərinə tələbat artmaqdadır. Həm klassik, həm də müasir rəssamlarımızın əsərlərinə maraq göstərilir.

Müasir dövrümüzdə Azərbaycan təsviri incəsənətini dünyada tanıdan rəssamlar arasında Sakit Məmmədovun nailiyyətlərini qeyd etmək lazımdır. Sakit Məmmədovun əsərləri dünyanın bir sıra ölkələrində sərgilənib və auksionlarda maraqla qarşılanıb. Rəssamın Azərbaycanla yanaşı, Türkiyədə, Rusiyada, Ukraynada, Belarusiyada, İsveçdə, Almaniyada, İtaliyada, Fransada, Misirdə, Çində və bir çox ölkələrdə fərdi sərgisi keçirilmişdir. Sakit Məmmədovun əsərləri bu gün dünyanın məşhur muzeylərinin, qalereyalarının, habelə hərraclarda kolleksionerlərin məmnuniyyətlə əldə etmək istədikləri əsərlər sırasındadır. "Klounlar", "Xatirə şəkli", "Oyun", "Məşq", "Ad günü", "Yaşasın İstanbul", "Toy" və s. əsərləri Sakit Məmmədovun maraqlı əsərlərindəndir.

Sakit Məmmədov "Klounlar"

Sakit Məmmədovla bərabər Toğrul Nərimanbəyovun da əsərləri dünyaca məşhurdur. Xalq rəssamımızın portret, mənzərə, məişət və natürmort janrlarında çəkdiyi əsərlər müasir Azərbaycan rəssamlığının qiymətli əsərləri olaraq dünyanın mötəbər sərgi salonlarında, rəsm qalereyalarında və incəsənət muzeylərində uğurla nümayiş etdirilir, müxtəlif dövlətlərin muzeylərində və ayrı-ayrı şəxslərin kolleksiyalarında saxlanılır. Həmçinin Toğrul Nərimanbəyovun əsərləri auksionlara çıxarılarkən həm satılır, həm də təbliğ edilir. Rəssamın "Böyük qoç" əsəri Böyük Britaniyanın "Sotheby`s" auksion evində 68500 funt sterlinqə satılıb.

Toğrul Nərimanbəyov “Böyük qoç”

Əvvəllər bizim rəssamlarımızın əsərlərinin auksiona çıxarılması sahəsində işlər çox zəif olub. Son 10 ildə vəziyyət müsbətə doğru dəyişməyə başladı və son zamanlar az da olsa, bizim rəssamların əsərləri xarici auksionlara çıxarıldı. Dünya auksionlarında digər rəssamların əsərləri hansı qiymətədirsə, bizim rəssamların əsərləri də o qiymətə satılır. Lakin bu əsərlər tam yüksək yox, orta qiymətlə satışa çıxarılır. Mərhum rəssamların əsərləri isə vaxt ötdükcə daha yüksək qiymətə satılır. Qeyd etməliyəm ki, bizim rəssamlarımız və onların əsərləri təbliğat və reklam baxımından tanınmış fransız, italyan, eləcə də Hollandiya rəssamlıq məktəbinin nümayəndələrinə hələ çatmır. Sözsüz ki, söhbət sənətkarlıqdan, onların işləmə texnologiyalarından getmir. Bu, birbaşa təbliğatla bağlıdır. Ola bilsin ki, müəyyən dövrdən sonra bizim rəssamların da təbliğatı yüksək səviyyədə qurulacaq və onlar xarici ölkələrdə geniş tanınacaqlar. Vurğulamaq lazımdır ki, bu gün xarici kolleksionerlərin kolleksiyalarında Azərbaycanın görkəmli rəssamlarının hər birinin 20-30 əsəri var. Xarici kolleksionerlərin kolleksiyalarında saxlanılan əsərlər vaxtilə o rəssamların qohumlarına, dost-tanışlarına bağışladığı əsərlərdir. Onlar bu tabloları ya onlara satıblar, ya da hədiyyə ediblər.

Məlumdur ki, artıq müasir dünyanı təəccübləndirmək olduqca çətindir. Çünki dünyanı heyrətləndirəcək çox az şey var desək, yəqin ki, yanılmarıq. Lakin bizim sənətkarlarımız, onların gözəl və yüksək dəyərə malik olan əsərləri bunu bacarır. Milli incəsənətimiz müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqələri prosesində inkişaf edir. Bu da onun milli özünəməxsusluğunun çox gözəl və parlaq şəkildə təzahür etməsinə imkan yaradır. Hər yaradıcı insan müəyyən dərəcədə xalqın həyatında rol oynayır. Yaradıcı insanlar xalqın sabaha informasiya daşıyıcılarıdır. Onların yaratdığı informasiya paylaşılmalıdır. Xudu Məmmədov bununla bağlı belə söyləmişdi: “Rəssam, heykəltəraş əsərini gizlədirsə, o bu xalqın düşmənidir”. Çünki rəssam bu gün üçün çəkmir. O, bu günü gələcəyə ötürür.

Azərbaycan rəssamlarının dünyada təbliğatı ilə bağlı dövlət başçımızın xarici ölkələrə etdiyi diplomotik səfərlər müsbət rol oynayır. Həmçinin bu sahədə mövcud problemlərin həlli istiqamətində Mədəniyyət Nazirliyinin və Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə müxtəlif xarici ölkələrdə klassik və çağdaş Azərbaycan rəssamlarının əsərlərinin sərgisi təşkil edilir, onların tanıdılması istiqamətində işlər görülür.

Nəticə

Azərbaycan rəssamlarının əsərlərinin xarici ölkələrdə satılması çox yaxşı haldır. Onlar Azərbayan incəsənətini təbliğ edirlər. Rəssamlarımızın əsərlərinin xaricdə olan satış qiyməti onların yaradıcılığına olan marağı birbaşa ifadə edir.

Ədəbiyyat

1. Rasim Əfəndi. Azərbaycan incəsənəti. Bakı, 2007
2. Sədaqət Məmmədova. Mədəniyyətşünaslıq
3. “Ustad” jurnalının 12-ci sayı
4. http://medeniyyet.az/page/news/35581/Togrul-Nerimanbeyovun-eseri-dunyanin-en-meshur-herracinda-.html
5. https://azerbaijan.az/information/510

The promotion of Azerbaijan Art in the world
Summary

The promotion of pieces of art created by Azerbaijan painters is a valuable contribution to our national art. The Ministry of Culture along with the Heydar Aliyev Foundation organizes the exhibitions of classical and contemporary artists' artworks and put them up for auction in foreign countries. This article describes the distribution of Azerbaijan works of art on a global scale and considers their auction values.

Продвижение азербайджанского искусства в мире
Резюме

Продвижение произведений искусства, созданных азербайджанскими художниками, является ценным вкладом в наше национальное искусство. Министерство культуры совместно с Фондом Гейдара Алиева организует выставки произведений классических и современных художников и выставляет их на торги в зарубежных странах. В этой статье описывается продвижение азербайджанских произведений искусства в мировом масштабе и рассматриваются их аукционные ценности.

DOI: 10.36719/2020/REK/01/256-258

Sevda Səfa qızı Rüstəmli
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ NOVRUZ ƏNƏNƏLƏRİNİN TƏCƏSSÜMÜ

Açar sözlər: *Bahar bayramı, rəssam, incəsənət, rənglər, kompozisiya*
Key words: *Spring holiday, artist, art, colors, composition*
Ключевые слова: *весенний праздник, художник, искусство, краски, композиция*

"Yeni gün bayramı", "Bahar bayramı" mənalarını daşıyan eyni zamanda yaz fəslinin gəlməsi ilə birlikdə yeni ilin gəlişini simvolizə edən Novruz bayramı Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bir çox şərq ölkələrində yaşayan xalqlar tərəfindən böyük sevgi keçirilən ən gözəl bayramıdır. Gecə ilə gündüzün bərabərləşdiyi və şimal yarımkürəsində astronomik yazın başlandığı gün Novruz bayramı qeyd olunur. Bu bayram tarixin bir çox sınaqlarından çıxmış, zaman keçdikcə müəyyən dəyişiliklərə məruz qalmış ancaq bütün çətinliklərə baxmayaraq bu günümüzə qədər gəlib çatmağı bacarmışdır. Novruz bayramı elə bayramlardandır ki, burada şərq fəlsəfəsinin bir çox ideaları özünü göstərir. Şərq fəlsəfəsində olan humanizm bu bayramda təzahür edir. Novruzu qeyd edən hər bir xalq bu bayramla bağlı etnik, yerli, milli xüsusiyyətlərinə uyğun, özünəməxsus mövsum və mərasim nəğmələri yaratmışdır. Qədim köklərə malik və özündə bir çox şərq xalqarının adətlərini özündə birləşdirən Novruz bayramı mədəniyyətimizə və milli incəsənətimizə təsirsiz ötüşə bilməzdi. Bu həm ədəbiyyatda, həm folklorda, həm də təsviri sənətdə özünü biruzə verir. Ədəbiyyatda biz dahi Azərbaycan şairi Şah İsmail Xətainin "Dəhnamə"sinin əvvəlində 62 beytdən ibarət olan "Bahariyyə"-sini misal göstərə bilərik. Təsviri sənətimizdə bir çox Azərbaycan rəssamları bu möhtəşəm bayramı özlərinəməxsus dillə, yəni boya, rəsm dili vasitəsilə öz tablolarında əks etdirmişlər. Bu əsərlərin bəziləri həm ölkəmizdə həm də ölkənin hüdudlarından kənarda yerləşən muzey və şəxsi kolleksiyalarda qorunub saxlanılır. Azərbaycan rəngkarlıq tarixində silinməz fırça izinə sahib olan rəssamlarımızın əsərlərini misal göstərə bilərik. "Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan və Novruz mövzusunu əks etdirən əsərlər sırasında Xalq rəssamı Səttar Bəhlulzadənin "Bahar nəğməsi", "Xonça" (Etüd), "Torpağın arzusu", "Azərbaycan nağılları", Xalidə Səfərovanın "Novruz", "Çovqan", Elbəy Rzaquluyevin "Novruz bayramı", Altay Hacıyevin "Novruzsayağı", Əməkdar rəssam Mahmud Tağıyevin "Gül açan bağ", "Bağçada yaz günləri", istedadlı rəssam Həsən Haqverdiyev "Bahar", Sara Namitokova-Manafovanın "Novruz", Orxan Hüseynovun "İçərişəhərdə bayram", qrafika sahəsində Xalq rəssamları Əzim Əzimzadənin "Tonqal üstündən tullanmaq", "Kos-kosa", Elmira Şahtaxtinskayanın "Novruz bayramı ərəfəsində", "Qutablar", əməkdar rəssamlar Ələkbər Rzaquliyevin "Gəlinə hədiyyə ilə" ("Köhnə Bakı" silsiləsindən), Arif Ələsgərovun "Novruz", "Kəndirbazlar" və başqalarını xüsusi qeyd edə bilərik" (1).

Daima həyata fərqli baxışları ilə seçilən xalq rəssamı Səttar Bəhlulzadə.(1909-1974) yazın gəlməsi, güllərin, çiçəklərin torpağın qoynunda açmasını torpağın arzusu kimi hiss edib və öz **"**Torpağın arzusu" adlı tablosuna köçürmüşdür. Əsərdə rənglərin parlaqlığı, kompozisiya quruluşu tamaşaçıda bahar sevinci, təbiəti sevmək və təbiətə vurulmaq hisslərini oyadır.

Novruzla bağlı əsərlər arasında xalq rəssamı Böyükağa Mirzəzadənin "Novruz" əsəri xüsusi yer tutur. Əsərdə bahar bayramının abu-havası, yazın gəlişinin sevinci hiss olunur. Arxa hissədə gözəl təbiət mənzərəsi ilə başlayan kompozisiya Azərbaycan gözəllərinin möhtəşəm rəqsi ilə tamamlanır. Burada yazın gəlişi düzənlərdə yeni cücərməyə başlayan otlar timsalında verilmişdir. Xalq artıq öz əkinçilik işlərini bitirib və bayramın gözəlliyindən zövq aldıqları an təsvir olunub. Bu tabloda həm də milli musiqi alətlərimiz və milli geyimlərimizin təsvirniə yer verilib.

Novruz bayramı ilə bağlı olan adətlərin çoxu Xalidə Səfərovanın "Novruz bayramı" əsərində əks olunmuşdur. Burda qışdan yaza qədər xüsusi hazırlanan xoruzların döyüş səhnəsi, milli rəqslərimizdən olan yallı rəqsi və əlbəttə ki, yazın gəlişini və torpağın oyanışını özündə simvolizə edən səməni, müxttəlif və ləziz şirniyyatlarla zinətlənmiş xonça təsvir olunmuşdur. Bu tablonu digər əsərlərdən fərqləndirən cəhət isə burada Novruz gülünün təsvirinin verilməsidir. Biz burada xalça təsvirinin yer aldığınıda müşahidə edirik. Bu əsər ona baxan tamaşaçıda Azərbaycan xalqının öz əziz bayramlarını necə böyük və xüsusi zövqlə keçirdiklərinin təəssüratını yaradır.

Novruz bayramında olan şirniyyatlar birdən-birə ərsəyə gəlmir. Onların hazırlanması böyük əziyyət və səbr tələb edir. Bu zəhmətə analarımız-bacılarımız sevə-sevə qatlanırlar. Bu hazırlıq mərasimin necə olmasını biz Elmira Şaxtaxtinskayanın "Bayrama hazırlıq" əsərində görə bilərik. Burada bayramın ən dadlı şiniyyatlarından olan şəkərburaya naxış vurma anı təsvir olunur. Yerdə xalçanın üzərində əyləşmiş və simasında xoşbəxtlik, bayram sevincini yaşayan, xanım-xatınlığı ilə seçilən nurani bir azərbaycanlı nənəmiz və masanın baş tərəfində stolda əyləşmiş və onunda simasında bayram xoşbəxtliyi olan bir gözəl Azərbaycan xanımı təsvir edilmişdir.

Novruz bayramının ayrı-ayrı adətlərini xalq rəssamı Arif Hüseynov təklilkdə təsvir edib. Bu əsərlər sırasına "Qulaq falı", "Od çərşənbəsi", "Yumurta döyüşü" tablolarını misal göstərə bilərik. "Qulaq falı" əsərində milli geyimli qızlar xoş söz eşitmək üçün və bu xoş sözlədə gələcək həyatlarının uğurlu və xoşbəxt olmasına inanaraq qulaq falına çıxmışlar. Əsərin aşağı hissəsində isə baharın gəlişini simvolizə edən güllər, çiçəklər təsvir olunub. Bildiyimiz kimi, Novruz bayramı günü gələnə qədər 4 çərşənbə axşamları qeyd olunur. Bu da Novruz bayramının xüsusiyyəti olduğu üçün rəssam bu səhnənidə təsvir etmişdir. Tonqaldan atlanan milli geyimli gənc oğlanlar üzərilərində olan ağırlıqların odda yanacaqlarına inanır və bir mənəvi rahatlıq hiss edirlər. Yumurta döyüşü əsasən uşaqlır sevincinə səbəb olur və biz bu sevinci eyni adlı əsərdə görə bilərik.

Müasir Azərbaycan təsviri sənətinin formalaşmasında əsaslı rola malik olan xalq rəssamı Sakit Məmmədovunda yaradıcılığında Novruz bayramına həsr etdiyi "Bahar qızı"(2,4 m x 1, 4 m, k.y.b) əsərinə diqqət yetirək Güllərin fonunda təsvir olunan və bu güllərin çiçəkləndiyi vaxt onların incəliyi və ətri ilə daha da gözəlləşən "Bahar qız" adlı əsərdə xalqımızın minillərdən bəri keçirdiyi milli bayram olan Novruz bayramanın əsas personajlarından olan Bahar qızının təsviri rəssamın tablosunda olan əksi rəssamın tarixi köklərimizə olan sevgisinin bir nişanəsidir. Burada əlində bayramın əsas simvollarından olan xonçanı tutmuş gənc qız tamaşaçıya baxır. O sənki ona baxanları öz ardınca bayramın keçirildiyi yerə aparmaq istəyir. Gözləri ilə dəbayrama dəvət edir. Kompazisinanın aşağı hissəsində bayram şirniyyatları, meyvələr və cürbəcür nazneymət təsvir olunması bayramın özü ilə bolluğu və bərəkti gətirdiyini bildirən faktorlardan biridir. Rəssam bura da bir fərqlilikdə edərək bahar qızının başında qışda isti ölkələrə uçub getmiş quşları təsvir edib. Bu kompazisiya qurluşu indiyə kimi olmuş bir sıra Novruz bayramına aid əsərlərdən fərqlənir. Tabloda əlində bayramın əsas atributunu olan səmənini tumuş siması yaz günəşi kimi parlaq olan bir xanım təsvir olunub. Kompazisiyanın yuxarı sol küncündə yazın gəlişindən xəbər verən qaranquşlar təsvir olunub. Rəssam bu hissəsni təsvir olunan bahar qızının saçlarının çərçivəsində göstərərək xüsusi bir məna ifadə etməyə çalışır. Hər bir gənc xanımın uzun saçlarının xoş ətri baharın ətrinə bənzəyir. Quşlarda bu parlaq və xoş ətirli saçlara valeh olaraq orada özlərinə yeni yuva qurmuşdur. Bahar qızı gəlişi ilə isti ölkələrə uçmuş quşlarıdı özü ilə gətirib. Əsərdə istifadə olunan rənglər öz parlaqlığı ilə seçilir. Bahar qızının aydın gözləri tamamən tamaşaçıya yönəlmişdi. Bu əsərin tam məzmunu izah etmək üçün dahi Azərbaycan şairi və eyni zamanda dövlət xadimi Azərbaycan Səfəvi imperiyasının əsasını qoyan Şah İsmail Xətainin yaradıcılıq nümunəsi olan "Dəhnamənin" başlanğıc hissəsini təşkil edən Bahariyyədən bir neçə beytdən istifadə etmək olar." Tablonun ənənəvi Bahar bayramı şənliklərində yeknəsəkliyi qismən də olsa, aradan qaldırmağa kömək edəcəyini düşünürəm. Surəti çıxarılacaq və yayılacaq əsər Bakıda Bahar bayramı şənliklərində, həm də Gürcüstanda baş tutacaq Novruz tədbirlərində istifadə ediləcək və əsas atribut kimi tətbiq ediləcək".(6) Bununlada yeni ilkə imza atan rəssam öz ustalığını bir daha sübut etmişdir.

Novruzdan baharın gəlişindən söz açılırsa orada olan şirniyyatlardan da söz açmaq gərəklidi. Bu şirniyyatlardan ən gözəllərindən və ən dadlılarından biri paxlavadır. Bu baxımdan rəssam Vüqar Əlinin eyni adlı əsəri maraq doğurur. Bayramla bağlı rəsmlər gənc nəsil rəssamlarının yaradıcılıqlarında da xüsusi yer alır. Onu da qeyd etmək yerinə düşərdi ki, "2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir" (5).

Novruz bayramı babalarımızın bizə qoyub getdiyi miraslardan biridir. Biz bizə əmanət ediləni qorumalı və gələcək nəsilə ötürməliyik.

Ədəbiyyat

1. Əsəd Quliyev "Novruz bayramı rəssamların yaradıcılığında" 525-ci qəzet.- 2016.- 19 mart.- S.24.
2. Mənsurə Məmmədəliyeva **"**Bahar Bayramı! Milli Rəssamlarımızın Novruz Tabloları. Zuleykha jurnalı, 15.03.2016.
3. http://az.zuleykhamagazine.com/2016/03/15/local-art-baku-azerbaijan-2016/
4. http://www.anl.az/down/meqale/525/2016/mart/482249.htm
5. https://bakimektebleri.edu.az/305/az/news/read/27271
6. https://salamnews.org/az/news/read/260782

Reflection of Novruz traditions in Azerbaijani painting

Summary

Nowruz, which is celebrated on the occasion of spring, has a special place in the national culture of Azerbaijan. In recent times, this place has also manifested itself in direct visual art. Our artists have shown their commitment to our national traditions by incorporating Novruz celebrations into their works.

Отражение новрузских традиций в азербайджанской живописи

Резюме

Новруз, который отмечается по случаю весны, занимает особое место в национальной культуре Азербайджана. В последнее время это место также проявилось в прямом визуальном искусстве. Наши художники продемонстрировали свою приверженность нашим национальным традициям, включив празднование Новруза в свои работы.

DOI: 10.36719/2020/REK/01/258-261

Səyyarə Namiq qızı Sadıxova
Naxçıvan Dövlət Universiteti
seyyare.sadiqova@mail.ru

HÜSEYN ƏLİYEVİN BƏDİİ İRSİNDƏ MƏİŞƏT JANRI

Açar sözlər: *Hüseyn Əliyev, rəssam, məişət janrı, süjetli kompozisiya, simvolika*
Key words: *Husein Aliyev, painter, genre painting, plotted composition, symbolism*
Ключевые слова: *Гусейн Алиев, художник, бытовой жанр, сюжетная композиция, символика*

Giriş

Təsviri incəsənətin məişət janrı insanın gündəlik həyatını təsvir edən süjet və mövzu dairəsi ilə müəyyən olunur. Bu janrda işlənmiş əsərlərdə gündəlik həyat səhnəsi, insanların əmək fəaliyyəti, müxtəlif bayramlar, milli koloritin yaradılmasını və s. görmək olar.

Məişət səhnələrinə Afrikada, Qədim Misirdə divar rəsmləri, keramika qalıqları üzərində və kiçik ölçülü plastika nümunələrində, Qədim Yunanıstanda qara və qırmızı fiqurlu vazalarda və divar rəsmlərində, Azərbaycanda isə Qobustan, Gəmiqaya və s. qayaüstü təsvirləri arasında, keramika nümunələri üzərində və başqa sənət abidələrində rast gəlinir. Belə təsvirlərin mənşəyi dövrünün ictimai həyatı ilə bağlı olmuş, qədim dövrlərin məişətindən xəbər verir.

Hələ qədim dövrlərdən məlum olan məişət səhnələri, yalnız feodalizm dövründə müstəqil bir janr kimi ayrılmışdır. Məişət janrı XVI-XVII əsrlərdə Avropada ən yüksək inkişaf həddinə çatmışdır. Bu janrın Yeni dövrdə çiçəklənməsi demokratik və realistik bədii ənənələrin yüksəlişi, rəssamların xalq həyatına, sadə insanların əmək fəaliyyətinə müraciəti, incəsənətdə vacib sosial məsələlərin qarşıya qoyulması əlaqədar idi.

"Çoxəsrlik Azərbaycan təsviri sənətində məişət janrının ən yaxşı nümunələrini həm orta əsr miniatürçülərimiz (Soltan Məhəmməd Təbrizi, Məhəmmədi, Mir Seyid Əli Təbrizi, Sadiq bəy Əfşar və b.), həm də sonrakı dövrlərdə Bəhruz Kəngərli, Əzim Əzimzadə, Mikayıl Abdullayev, Vəcihə Səmədova, Əyyub Məmmədov, Asəf Cəfərov, Nadir Əbdürrəhmanov, Əli Verdiyev, Böyükağa Mirzəzadə, Altay Hacıyev və başqaları yaratmışlar" (1, səh.56).

Onların sırasında özünəməxsus yeri olan Hüseyn Əliyev də məişət süjetli tabloları ilə təsviri sənətimizi zənginləşdirən sənətkarlardandır.

Hüseyn Əliyevin bədii irsi bu gün də aktuallığını qoruyub saxlayaraq müxtəlif elmi işlərin tədqiqat obyekti olur. Onun 1953-cü ildə nəşr olunmuş "Kirpi" jurnalından başqa heç bir yazılı mənbədə işıqlandırılmamış karikaturaları, müxtəlif mövzulara həsr olunmuş plakatları ilə bərabər "Corat.Sumqayıt" (27sm x 18,5sm) adlı tablosu da tərəfimizdən son zamanlarda (2018-ci ildə) aşkar edilərək tədqiqata cəlb olunmuşdur (2). Kağız üzərində sulu boya ilə işlənmiş 1959-cu ilə aid olan bu tablo tamaşaçı kütləsinə ilk dəfədir ki, təqdim edilir.

"Corat.Sumqayıt" (1959) kağız, sulu boya

Rəssamın məişət janrında tabloları və süjetli kompozisiyaları

1950-ci illərdən başlayaraq Hüseyn Əliyev konkret məişət hadisələrinə müraciət edərək xalqın həyatından götürülmüş səhnələr yaradırdı. "Dalaşıblar", "Çobanlar", "Bizim həyətdə" (2 variantda), "Sülhsevər torpaq" triptixi, "Nabran", "Dəniz" adlı əsərlər onun məişət mövzulu tablolarına və süjetli kompozisiyalarına nümunədir.

Hüseyn Əliyev insan və heyvanlar arasında baş verən mübarizəni, bəzən isə, yalnız insanlar arasındakı psixoloji konflikti tamaşaçıya çatdırmağa meyilli idi. Onun ilk belə əsərlərindən 1954-cü ildə sulu boya ilə çəkdiyi “Dalaşıblar” adlı süjetli kompozisiyadır. Burada nə vaxtsa dalaşdıqlarından bəri ilk dəfə qarşı-qarşıya gələn, amma hələ də bir-birinin üzlərinə baxmağa cürət etməyən iki gənc təsvir olunmuşdur. Əsərlərində həmişə xarakter axtarışında olan Hüseyn Əliyev bu psixoloji durumu personajın jestləri, üzlərinin ifadələri vasitəsilə tamaşaçıya məharətlə göstərə bilmişdir. O, xüsusilə də bu tabloda mimika və jestlərin tamaşaçıya aydın çatdırılmasında iti müşahidəçilik qabiliyyəti sərgiləyir.

"Çobanlar", "Bizim həyətdə", "Nəğməli torpaq" (triptixin 3-cü hissəsi), "Atlı" adlı məişət səhnələrində rəssamın dəsti-xətti nəqledici və ahəstədir. Bu əsərlərdə mövzu dərinliyinə rast gəlinmədən məişətin tematikasına lirik yanaşma özünü göstərir. Onların kompozisiyaları tabloda iştirak edən personajların qarşılıqlı münasibəti və xarakterlərin incə təsviri üzərində qurulmuşlar. Haqqında bəhs edilən əsərlər özünəməxsus poetik cazibəsi ilə "Zəhmli torpaq", "Səmada əlbəyaxa", "Qisas", "Heyvanlar da narahatdır" adlı emosional süjetli və animalistik tablolardan fərqlənir.

Görkəmli fırça ustasının məişət tablolarının iştirakçıları nüfuzlu şəxslər deyil, sadə kəndlilər, zəhmətkeşlər və çobanlardır. Bu cəhətlə Xalq rəssamının necə sakit təbiətli, təvazökar insan olmasına şahid oluruq.

Maraqlı texnikada həll edilmiş əsərlər sırasına “Çobanlar” (1957) adlı məişət tablosu da daxildir. Dəmir üzərində yağlı boya ilə ərsəyə gətirilən bu əsər çobanların istirahət səhnəsini təsvir edir. Çobanlar səhnəsi rəssam tərəfindən sadə və artıq adət edilmiş gündəlik kənd həyatının bir epizodunu özündə əks etdirən kompozisiya kimi düşünülmüşdür. Burada rəssam təbiətlə insanı harmonik vəhdətdə təsvir etmişdir.

Hüseyn Əliyevin məişət səhnələrinin qəhrəmanları çox vaxt qayğıdan, dərd-qəmdən uzaq, əyləncəyə meyilli insanlardır. Onun "Bizim həyətdə", "Sülhsevər torpaq", "Nabran" əsərlərində nikbinlik, həyatsevərlik hökm sürür.

İkifiqurlu və on iki fiqurlu “Bizim həyətdə” adlı iki əsərdən ibarət silsilə kompozisiyasında mehribancasına bir araya gəlmiş, həyətdə masa arxasında yığılmış müasirlərinin obrazlarına müraciət etmişdir. Birinci tabloda ikifiqurlu kompozisiyada gənclərin rəqs səhnəsini təsvir edən Hüseyn Əliyev ikinci tabloda çoxfiqurlu kompozisiyada yaxınlarını, dost-tanışlarını birləşdirmişdir. Rəssamın incə, lirik, şairanə əhvalı ilə dolu bu süjetli tablolar açıq səma altında rəqsləri, yığıncaqları təsvir edir. Rəssamın iki variantda işlədiyi "Bizim həyətdə" adlı bu əsərlərində obraz həlli dəqiq deyildir. Eyni saatda işlədiyi hər iki əsərdə rəssam cigiləri ümumiləşdirərək obrazların şərtiliyinə üstünlük vermişdir. Burada onun əsas məqsədi ümumi lirik-romantik və yüksək əhvalı önə çıxarmaq olmuşdur. Bəlkə də, rəssam bu əsərlə öz hisslərini ifadə etmək, xatirələrini əbədiləşdirmək istəmişdir. Rəngli flomasterlərlə çəkdiyi bu tablolarda rəng, cizgi və konturların nikbinliyi əsərdəki yüksək əhval-ruhiyyə ilə yaxından səsləşir.

Yurda bağlılığını əsərlərində tez-tez əks etdirən Xalq rəssamı 1977-ci ildə “Sülhsevər torpaq" adlı triptix işləmişdir. Triptixin mərkəzi hissəsini iri planda verilmiş çoban və keçi fiquru təşkil edir. Rəssam bu hissəni “Sülhsevər torpaq” adlandırmaqla insan və heyvanlar aləminin sülh və dostluq şəraitində keçindiyini vurğulamağa çalışmışdır. Buna zidd olaraq rəssam həyatın, təbiətin amansız üzünün də olduğunu “Zəhmli torpaq” adlı birinci hissədə göstərmişdir. Triptixin bu hissəsində belinə əfi ilan dolanmış bir qoca təsvir olunmuşdur. Qoca həyəcan və qəzəblə daşı onu boğmağa çalışan ilanın başına endirmək üzrədir.

Xalq rəssamı bu əsərdə simvolikadan istifadə edərək həyat həqiqətlərini simvol dərəcəsində ümumiləşdirmiş və ola bilər ki, konkret tarixi dövrdə aktual olmuş hansısa bir fikri, yaxud hadisəni nəzərdə tutmuşdur. Simvol funksiyasında burada qocanın hərəkəti və ilan obrazı çıxış edir. Simvol həyatın vəhdətinin, həqiqi, gizli mahiyyətinin dərk edilməsini rəmzlər vasitəsi ilə əks etdirir. Simvolikada insan obrazları həyat faktından daha çox müəyyən ideyaların bədii ifadəsi kimi verilir.

Hüseyn Əliyev kəskin hərəkətə cəhd edən dramatik gərginlik anını tutaraq plastik dəqiqlik və aydınlıla seçilən kompozisiya qurmaq bacarığı ilə tamaşaçını heyran edir. O, fiqurların konturlarını açıq səma altında üzə çıxararaq onları əhatə edən mühitlə orqanik surətdə əlaqələndirir.

Triptixin süjeti insanlarla təbiətin başqa canlı üzvləri olan heyvanların münasibətinə həsr olunub. Əsərin ideyasına görə insan və heyvanlar nə qədər sülh şəraitində yaşasalar da, bəzən sağ qalmaq uğrunda mübarizədə öldürmək zərurəti də qaçılmazdır. Belə mübarizə səhnələrinin baş verdiyi yer açıq səma altında təbiətin özü idi. Uzaqdan görünən İlanlıdağ bu quraq çöllükdə baş verən hadisənin Naxçıvanda cərəyan etdiyinə işarə edir.

Triptixin son üçüncü hissəsində yenə də sakit və gündəlik həyat tərzi hökm sürür. “Nəğməli torpaq” adlanan bu hissədə mal-qaranı otlağa aparmış gənc çoban təsvir edilmişdir. Heyvanlar çoban tütəyinin sədaları altında bir yerə toplanmışlar. Uzaqdan bir-birinin ardında yerləşən dağlar, təpələr və düzənliklər vasitəsilə əsərin kompozisiyasını müstəvi üzərində qurmağa nail olan Hüseyn Əliyev bir-birinə uyumlu yumşaq rəng çalarlarından istifadə etməklə tamaşaçının əhval-ruhiyyəsinə sakitlik gətirən bu əsərin xoş təsir gücünü daha da artırmışdır (3).

Əyləncə və istirahət səhnələri Xalq rəssamının məişət tablolarının aparıcı mövzusunu təşkil edirdi. Onun rəngli flomasterlə işlədiyi “Nabran”, “Dəniz” adlı oxşar süjetli kompozisiyaları isti yay günlərində dəniz kənarında istirahət səhnələrini canlandırır. Qızmar günlü süjetlərin görüntüyə gətirilən təsvirində rəssam haqlı olaraq əlvan və isti rənglərdən istifadə etmişdir.

Hüseyn Əliyevin müraciət etdiyi süjetli kompozisiyalar arasında atlı təsvirlərinə də rast gəlinir. Digər kompozisiyalar ilə müqayisədə kiçik ölçülü olan (18,5 x 24,5) “Atlı” adlanan iki əsər monoxrom rəngi ilə digərlərindən fərqlənir. Eyni atlını müxtəlif istiqamətlərdən - həm arxadan, həm yandan təsvir edən rəssam burada, əsasən hərəkət, poza və siluetin aydın çatdırılmasına üstünlük vermişdir. Atlının fiquru arxadan təsvir olunsa da, onun papağından və çiyinləri dik olan qalın üst geyimindən bu geyimin yapıncı, atlının isə çoban olduğu anlaşılır.

Nəticə

Gündəlik həyatın ən müxtəlif tərəflərinə rəssamın müraciəti müxtəlif janrlı təsvirlərin, bir-birindən fərqli tiplərin formalaşmasını şərtləndirmişdir. Bir çox məişət janrlı əsərlərində və süjetli kompozisiyasında Hüseyn Əliyevin təsvir etdiyi obrazlar simvolik məna daşıyır. Simvol həyatın vəhdətinin, həqiqi, gizli mahiyyətinin dərk edilməsini rəmzlər vasitəsi ilə əks etdirir. Simvolikada insan obrazları həyat faktından daha çox müəyyən ideyaların bədii ifadəsi kimi verilir. Bu əsərlərdə hadisələr ibrətamiz səciyyə daşıyaraq bəzən alleqoriya ilə ifadə olunmuşlar. Bu alleqoriya insanlara xas xüsusiyyətlərin heyvanların vasitəsilə tamaşaçıya çatdırılmasında özünü göstərir.

Hüseyn Əliyevin yarım əsrdən çox bir dövr ərzində Azərbaycan təsviri sənətinə dəyərli nümunələr bəxş etmiş rəssamlardan biridir. Rəssamın məişət tablolarında bəzi hallarda fəlsəfi keyfiyyətlərə rast gəlinir.

Rəssamın fikrincə, insan zövq aldığı poetik aləmdən ayrılmazdır və bu məmnuniyyət, belə mövzular, onun gözəllik, həyatın müntəzəm sakit axarı, insanın xoşbəxtliyi haqqında təsəvvürlərini özünəməxsus şəkildə ifadə etdiyi əsərlərində öz əksini tapır. Bütün bu cəhətlər Hüseyn Əliyevi Azərbaycan rəngkarlığının lirik-poetik tərzdə işləyən böyük rəssamları sırasına daxil edir.

Ədəbiyyat

1. Əliyev Z., Xəlilov A. "Azərbaycan incəsənəti" 3 cilddə, II-III cild // Bakı, Letterpress, 2011, 200 s.
2. Sadıxova S. "Azərbaycan incəsənətinə töhfələr", məqalə, "Mədəniyyət" qəzeti, 27 iyul 2018, № 57 (15 47) səh. 12

3. Sadıxova S. "Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığında animalistik janr", məqalə, "Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu" III Respublika elmi-nəzəri konfransı, Bakı- 2019, səh.72-76

Household genre in the artistic heritage of Huseyn Aliyev

Summary

Genre painting in Hussein Aliyev's artistic heritage Genre painting reflects the scenes of everyday life, humans' labor activity, different holidays, etc. People's artist Hussein Aliyev enriched the fine art of Azerbaijan with his tables with everyday plot. Hussein Aliyev's literary heritage becomes the research object of different scientific works preserving its actuality even today.

Beginning from 1950, Hussein Aliyev created the scenes taken from the people's life addressing concrete everyday events. In his some genre paintings, he described nature and human in one harmonic unity. People's artist used symbolism in his some genre paintings.

Бытовой жанр в художественном наследии Гусейна Алиева

Резюме

Бытовой жанр отражает сцены повседневной жизни, трудовой деятельности людей, разных праздников и т.д. Народный художник Гусейн Алиев обогатил изобразительное искусство Азербайджана своими таблицами с повседневным сюжетом. Его художественное наследие становится объектом исследования различных научных работ, сохраняя свою актуальность и сегодня.

Начиная с 1950 года, Гусейн Алиев создал сцены из жизни людей, посвященные конкретным повседневным событиям. В некоторых картинах он описал природу и человека в одном гармоническом единстве. Народный художник использовал символику в своих картинах.

TOPLUNUN İÇİNDƏKİLƏR

FİLOLOGİYA PHILOLOGY ФИЛОЛОГИЯ

Fərqanə Aydın qızı Əliyeva
Azərbaycan dili və Heydər Əliyevin dilə qayğısı 3
Rövşən Ramizoğlu
Tərcümə ən güclü estetik təsir vasitələrindən biri kimi 6
Almaz Ülvi Qasım qızı Binnətova
Əlişir Nəvainin "səb´at əbhur" ("yeddi dəniz") əsərinin tədqiqi tarixindən 9
Aygün Balahüseyn qızı Amanəliyeva
Azərbaycan və ingilis dillərinin linqvistikasında kəmiyyət məzmunlu vahidlər
ümumi qrammatik kateqoriyanın bir növü kimi 12
Aynur Famil qızı Şəfiyeva
Frazeologiyanin fransız dilçiliyində öyrənilməsi tarixi 18
Arzu Vaqif qızı Əliyeva
"Koroğlu" eposunda iştirak edən Nigar obrazında təcəssüm olunan
"ideal həyat yoldaşı" tipinin psixososial semantikası 20
Çinarə Vaqif qızı Abdullayeva
Dil sistemində kauzativliyin yeri 24
Aygül Mədət qızı Çobanova
Zəlimxan Yaqubun yaradıcılığında saz, aşiq sənəti 27
Elnurə Müqais qızı Verdiyeva
Rus dilindəki "Мать" konseptinin Azərbaycan dilində verilməsi problemləri 29
Aygün Ərziman qızı Qasımova
Hüseyn Arifin "Dilqəm" poemasında folklor simvolikasi 32
Aysel Saleh qızı Talıbova
Qabriel Qarsia Markesin "Arzuolunmaz saat" əsərində tarixə yazıçı münasibəti:
digər əsərlərindən fərqi 36
Gülqız Hacıbala qızı Adilova
Bayatıların dilində bədii təsvir vasitələrinin linqvo-poetik imkanları 40
Aytən Qəzənfər qızı Əliyeva
Mir Cəlal əsərlərində ana obrazının təhlili
("Dirilən adam", "Açıq kitab", "Yolumuz hayanadır" romanları əsasında) 44
Hüsniyyə Mədət qızı Çobanova
Gürcüstan ərazisində türk mənşəli etnotoponimlərin gürcüləşdirilməsi 47
Könül Arzu qızı Tağıyeva
Gəncə erqonimlərinin xarakteristikasi (mağaza adları əsasında) 50
Göyərçin Abid qızı Mustafayeva
Keçmişimiz gələcəyimizin özülüdür 52
Gülşən Ramiz qızı Məmmədli
Bədii mətn və onun başa düşülməsinin bəzi xüsusiyyətləri 56
Mehriban Məhəmməd qızı Təhməzova
İngilis dilində modal feillərin tarixi inkişafı 59
İnarə Bahadur qızı Səfiyeva
Millət təəssübkeşi 63
Sevinc Şakir qızı Şükürlü
"Yaxşı" və "pis" konseptli idiomatik ifadələrin struktur xüsusiyyətləri 65
Leyla Qadir qızı Məcidova
İmadəddin Nəsiminin hürufilik ideyalarında tərbiyəvi məsələlər
(beynəlxalq yanaşmada) 68
Şücaət Məşrif qızı Kərimova
Çoxmənalı sözlərin praqmatik xüsusiyyətləri 72

Nigar Ramiz qızı Vəli
Rus ədəbiyyatının gümüş dövrünün ilk ədəbi cərəyanı olan simvolizmin təhlili 74
Zərifə İsmayil qızı Avilova
Orta əsr Azərbaycan yazili abidələrində indiki və gələcək zamanlar
(məhəmməd əmaninin "divan"ı əsasında) 77
Sevinc Seyfəddin qızı Əliyeva
Əşya qurbanı motivi və onun ritual-mifoloji kökləri 82
Sevinc Həmid qızı Rəsulova
Uşaq nəsrimizdə maarifə və elmə çağırış motivləri (xix əsrin sonu - xx əsrin əvvəlləri) 85
Türkan Nazim qızı Əliyeva
Robertson Devisin "Mantikor" əsərində qəhrəmanın daxili "mən"inin kəşfi 89
Turan Əsgər qızı Sadıqlı
Şimal adamlarının ədəbiyyati – saqalar 91

HÜQUQ THE LAW ПРАВО

Arzu Mubariz Alizada
Legal and bioethical problems of organ transplantation in the context of right to life 95
Ali Azer Alakbarli
Offer distinguished from invitation to treat 98
Esmira Əlişan qızı Orucova
Erməni terrorizmi bəşəriyyət üçün ən təhlükəli problem kimi 101
Fatimə Vüqar qızı Əsgərova
The standard and special terms of credit line agreements 105
Firuzə Amil qızı Hüseynzadə
Bareboat charter as one of the type of charter party and
registration of the bareboat charter 107
Nərmin İftixar qızı Nəbiyeva
Ailə nikah münasibətləri sosial və hüquqi anlayış kimi 110
Sevinc Usub qızı Hüseynova
Cinayət məsuliyyətinin hüquqi əsasları 113
Sübhan İlqar oğlu Şirinov
Əmək hüququnda attestasiyanın subyektləri 118
Xəyalə Xaqani qızı Kələşova
İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə törədilən cinayətlər 122
Gunay Xaliddin qızı Mammedli
Period of responsibility in the carriage of goods by sea 124

FƏLSƏFƏ VƏ SOSİOLOGİYA PHILOSOPHY AND SOCIOLOGY ФИЛОСОФИЯ И СОЦИОЛОГИЯ

Нилуфер Исмаилова
Связь социального познания с интеллектом 128
Xaliq Hüseyn oğlu Dadaşov, Qadir Arzu oğlu Qafarov
İbn Sina və tibbi fəlsəfi konsepsiyasi 131
Günəş Əmrayıl qızı Cəbrayılova
Müxtəlifliklər dialoqunda tolerant münasibətlərin ormalaşması 134
İmamə Azər qızı İsmayılova
Hürufizm təriqətinin təşəkkül tarixi və əsasları 138
Tərgül Əliyəddin qızı Cəfərova
Azərbaycanda təhsil və davamlı inkişaf 139

TARIX VƏ SİYASİ ELMLƏR HISTORY AND POLITICAL SCIENCES ИСТОРИЯ И ПОЛИТОЛОГИЯ

Sevil Şivəxan qızı Bəhrəmova
Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasında dövlət-din münasibətləri 143
Sevinc Valeh qızı Muxtarova
Qarabağ mədəniyyətinin arxeoloji abidələri 146
Гюнель Садагат гызы Алиева-Мамедова
Важнейшие аспекты претенциозной политики Турции в регионе в XXI веке 150
Raya Yaşar qızı Əliyeva
Müasir informasiya texnologiyalarının "ərəb baharı"nda rolu 152
Nilufər Şahhüseyn qızı Ağayeva
Naxçıvan Dövlət Universitetinə dövlət qayğısı (1990-2002-ci illər) 156
Fuad Firuz oğlu Babayev
Yerli özünüidarəetmə hakimiyyətinə dair beynəlxalq standartlar 159
Aydan Məlikməmməd qızı Ağayeva
Azərbaycan Respublikasında gənclər siyasətinin formalaşması tarixi 162
Айгюль Фикрет гызы Эфендиева
Азербайджано-украинские связи в гуманитарной сфере 164
Əzizə Ayaz qızı Gülümcanlı
Neft istehsalında Aazərbaycan və Sinqapur əlaqələri 167
Fuad Firuz oğlu Babayev
Azərbaycan Respublikasında yerli özünüidarənin təkmilləşdirilməsinin əsas istiqamətləri 169
Nurlana Vasif qızı Əliyeva
Naxçıvanın inzibati ərazi quruluşunda dəyişikliklər (1924-1940-ci illər) 173
Sevda Əli qızı Həsənova
Regionlarda məşğulluq və işsizliyin təmin olunmasında əmək bazarının formalaşmasının rolu 176

PEDAQOGİKA VƏ PSİXOLOGİYA PEDAGOGY AND SYCHOLOGY ПЕДАГОГИКА И ПСИХОЛОГИЯ

Афет Самед гызы Искендерова
Способы преподавания грамматики на уроках английского языка 181
Aysel Balasultan qızı Şeydayeva
İbtidai siniflərdə şagird nitqi üzərində dil hadisələrinin müşahidəsinin əhəmiyyəti 184
Aygün Cavanşir qızı Musayeva
Uşaq şəxsiyyətinin formalaşmasında hisslərin rolu 186
Fatma Ağası qızı Əsədova
İnteqrasiyanın müasir təhsildə mövqeyi 189
Фидан Имран гызы Рагимова
Роль интерактивного метода в обучении английского языка 192
Günay Musa qızı Quluzadə
Ferma ədədləri, ferma nöqtəsi və ferma teoremləri 194
Günay Salman qızı Kazımova
İbtidai siniflərdə həyat bilgisi təliminin mahiyyəti və nəzəri əsasları 198
Könül Sahib qızı Hüseynova
Ali təhsildə portfolio tələbələrin təlim nəticələrinin qiymətləndirilməsinin mühüm vasitəsi kimi 200
Rabiyyət Bilal qızı İmaməliyeva
Şəxsiyyətyönümlü təhsildə yeni təlim texnologiyalarından istifadənin zəruriliyi 204
Rəhimə Cümşüd qızı Babayeva
İngilis dili dərslərində leksikanın tədrisi 207

Sevinc Vəliyeva
Kiçikyaşli məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibət formalaşdırmağın psixoloji əsasları 210
Şirincan Əvəz qızı Məmmədova
Təhsildə texnologiyaların tətbiqi 214
Svetlana Arif qızı Nəsibli
İsim, sifət və say mövzuları üzrə əsas məfhumlarin fəal təlim üsulları ilə tədrisi metodikası 220
Tamara Bidat qızı Məmmədova
İbtidai siniflərin riyaziyyat dərslərində fəaliyyət metodu texnologiyasından istifadə 223
Təranə Ələsgər qızı Nuriyeva
İngilis dilinin öyrədilməsində kommunikativ tapşırıqlar metodu 226
Xumar Tofiq qızı Novruzova, Tariyel Tərlan oğlu Ağayev
Riyaziyyatin tədrisində dirixle prinsipinin tətbiqləri 228
Yeganə Xanoğlan qızı Məmmədova
Məktəbəhazırlıq qrupunda nitq inkişafi məşğələsinin əhəmiyyəti 231

SƏNƏTŞÜNASLIQ VƏ MEMARLIQ ART CRITICISM AND ARCHITECTURE ИСКУССТВОВЕДЕНИЕ И АРХИТЕКТУРА

Səbinə Gündüz qızı Səmədzadə
Dünya muzeylərində saxlanılan bədii sənətkarlıq nümunələrimizin qorunmasında dövlət siyasəti 234
Anar Şahbaz oğlu İbrahimov
Azərbaycan orta əsr silahlarının bədii xüsusiyyətləri 236
Arzu Fazil qızı Haşımova
XX əsr Azərbaycan boyakarlığında Bakı mövzusu 238
Emil Raul oğlu Ağayev
Asif Azərelli yaradıcılığında miniatüra ənənələri 242
Günay Nizami qızı Qafarova
İslam və təsviri sənət 244
İlyas Yasər oğlu Mirzəyev
Bərpaçılıq sənətinin inkişaf tarixi 249
Şəhanə Zülfüqar qızı Mansırova
İncəsənətdə olan semantikanın digər elmlərlə əlaqəsi 251
Səbinə Gündüz qızı Səmədzadə
Azərbaycan təsviri incəsənətinin dünyada təbliği 253
Sevda Səfa qızı Rüstəmli
Azərbaycan təsviri sənətində novruz ənənələrinin təcəssümü 256
Səyyarə Namiq qızı Sadıxova
Hüseyn Əliyevin bədii irsində məişət janrı 258

Ünvan: AZ 1073, Bakı ş., Yasamal r.,
Mətbuat pr, 529-cu məhəllə
Tel.: (+994 12) 510 63 99
Mob.: (+994 50) 209 59 68
(+994 55) 209 59 68

Address: 529 block., Matbuat ave.,
Yasamal dis.,Baku,AZ 1073
Tel.: (+994 12) 510 63 99
Mob.: (+994 50) 209 59 68
(+994 55) 209 59 68

Адрес: AZ 1073, г.Баку., Ясамальский р.,
Метбуат пр., 529-ый квартал
Tel.: (+994 12) 510 63 99
Mob.: (+994 50) 209 59 68
(+994 55) 209 59 68